RAFAİL ƏHMƏDLİ

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK FƏLSƏFƏSİNƏ DAİR

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı «Təknur» 2009

**AMEA-nın Fəlsəfi və Siyasi-Hüquqi Tədqiqatlar İnstitunun Elmi Şurasının qərarı ilə çap olunur (protokol №1, 18.01.2008)**

**Elmi redaktorlar:**
**Lalə Mövsümova** Fəlsəfə elmləri doktoru
**Müstəqil Ağayev** Fəlsəfə elmləri namizədi
**Rəyçilər:**
**Zümrüd Quluzadə** Fəlsəfə elmləri doktoru
**Zakir Qasımov** Fəlsəfə elmləri namizədi

**Rafail Ayvaz oğlu Əhmədli. Azərbaycan dövlətçilik fəlsəfəsi Bakı, «Təknur», 2009. – 380 səh**

*Monoqrafiyada ilk Azərbaycan dövləti Arattadan bu günümüzədək mövcud olan Azərbaycan dövlətçiliyindən və Zərdüştdən başlamış çağdaş dövrümüzə qədər yaşayıb yaratmış mütəfəkkirlərimizin dövlətçilik məsələlərinə dair fikir və mülahizələrindən çıxış edilərək, Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində dövlətçilik məfkurəsinin yaranması, inkişafı araşdırılır.*

*Tədqiqatda xüsusilə, XIX əsr və XX əsrin əvvəllərində demokratik dövlətçilik məfkurəsinin formalaşması dəyərləndirilir.*

*Kitab fəlsəfə, politologiya, dövlətçilk tarixi problemləri ilə məşğul olanlar və bütünlükdə bu sahə ilə maraqlananlar üçün faydalı ola bilər.*

**İSBN 978-9952-809-79-4**

© «Təknur»
© «R.Əhmədli»

# GİRİŞ

Tarixən həyatlarını öz düşüncə tərzlərinə görə quran millətlər yaratdıqları dövlətlərinə öz fəlsəfi anlamlarını vermiş və bu dövlətləri dünya görüşlərinə uyğun olaraq nizamlamış, idarə etmişlər. Çünki dövlətə şəkil və anlam verən o dövlətə sahib olan millətdir. Siyasi anlamda dövlət nədirsə, ideoloji və fəlsəfi anlamda da millət odur. Başqa sözlə, millətsiz dövlət olmadığı kimi, dövlətsiz millət də, hələ millət deyil, toplumdur. Dövlət mədəniyyətin ən yüksək forması olduğu üçün onu yalnız millət yarada bilər. Bu anlamda hər bir millətin öz dövlətçilik fəlsəfəsi vardır. «Dövlət millət həyatının ən əhəmiyyətli bir fenomenidir» [193,17]. Millətin əsəri olan dövlət o millətin tarixi inkişafına yaşadığı coğrafiyasına, mədəniyyətinə, dininə, iqtisadi, hərbi inkişafına və bu qəbildən olan başqa faktorlara bağlıdır. Tarixi Azərbaycan dövlətləri və bunların davamı sayılan Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikası məhz bu əsaslara dayanaraq yaradılmışdır. Monoqrafiyada sadalanan bütün məsələlərin gərəkliliyi nəzərə alınaraq onlara ayrı-ayrılıqda və kompleks şəkildə yanaşılmış, Azərbaycan dövlətçilik fəlsəfəsinin ana qaynaqları incələnərək onlardan maksimum istifadəyə cəhd edilmişdir.

Ən azı beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycan kimi bir ölkənin və xalqın dövlətçilik fəlsəfəsini, ictimai-siyasi tarixini, onun ideoloji, siyasi, hüquqi və iqtisadi görüşlərini tədqiq etmək müstəqillik dövrümüzün ən aktual problemlərindən biridir. İndiyə qədərki tədqiqat əsərlərinin əksəriyyəti Azərbaycan ərazisində tarixən mövcud olmuş dövlətlərin ictimai və siyasi quruluşları, onların idarəçilik sistemləri, iqtisadiyyat və mədəniyyətləri, daxili və xarici siyasətləri, başqa dövlətlərlə apardıqları müharibələr, onların qələbə və məğlubiyyətləri və s. məsələlərə həsr edilmişdir. «Qədim qaynaqların azlığı, həm də onların birtərəfli tədqiqi Azərbaycan xalqının dövlətçilik tarixinin bir sıra hallarda subyektiv izahına gətirib çıxarmışdır» [42.3]. Digər tərəfdən

xalqımızın tarixi saxtalaşdırılaraq sovet ideoloji-siyasi düşüncə sisteminə tabe edilmişdir. Ən ağır zərbə isə Azərbaycanda tarixən mövcud olmuş dövlətlərimizin, mədəni abidələrimizin və tarixi şəxsiyyətlərimizin başqa-başqa xalqlara aid edilməsi və milli dövlətçilik məfkurəmizin təməl prinsipləri olan «türkçülük və islamçılığ»a münasibəti və hətta üç sütunlu ideoloji sistemə dayanan Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu belə tarix kitablarından silinməsi tarıximizin obyektivliyinə vurulmuş ağır zərbələrdən idi. XX əsrin sonlarında xalqımızın qazandığı müstəqillik, bir çox sahələrdə olduğu kimi, tarixmizin, xüsusilə də Azərbaycan dövlətçilik tarixinin elmi şəkildə tədqiqinə təkan vermiş, bu sahədə xeyli uğurlar əldə edilmişdir.

Həm Sovet dövründə, həm də müstəqillik qazandıqdan sonra əsasən ölkəmizdə, qismən də xaricdə istər qədim, istər ilkin orta, istər orta əsrlər, istər yeni dövr dövlətlərimiz və dövlətçiliyimiz haqqında və eyni zamanda ilk Azərbaycan Xalq Cümhuriyyəti haqqında müxtəlif səpkili nəzəri əsərlər və məqalələr yazılıb çap edilmişdir. Monoqrafiyanın əsas ağırlıq mərkəzini Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində dövlət və milli demokratik dövlətçilik məfkurəsinin formalaşmasında xüsusi xidmətləri olmuş Zərdüştün, Maninin, Məzdəkin, Babəkin, filosoflarımızdan Əbülhəsən Bəhmənyarın, Eynəlqüzat Miyanəcinin, Əbuhəfs Sührəvərdinin, Siracəddin Ürməvinin, Şihabəddin Sührəvərdinin, Nəsirəddin Tusinin ictimai-siyasi və fəlsəfi fikirləri, dahi mütəfəkkirlərimiz olan Əfzələddin Xəqaninin, Nizami Gəncəvinin, Marağalı Əvhədinin, Mahmud Şəbüstərinin, Fəzlullah Nəiminin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Yusif Qarabağinin, Saib Təbrizinin, Molla Vəli Vidadinin, Molla Pənah Vaqifin, Qasım bəy Zakirin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun, Seyid Əzim Şirvaninin, Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşləri, dövlət və dövlətçiliklə bağlı fikirləri, Məmməd Əmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Cəlil Məmmədquluzadənin isə ictimai-siyasi və fəlsəfi görüşləri ilə yanaşı dövlət və milli demokratik dövlətçilik haqqındakı fikir və mülahizələri təşkil edir. Bütün bunlar onların əsərlərindən gətirilmiş konkret misallarla əsaslandırılmışdır.

Mövzu uzun bir tarixi dövrü əhatə etdiyindən kitabda problemin inkişaf tarixini və mahiyyətini məntiqi ardıcıllıqla izləmək məqsədilə qədim, Orta əsr, XIX əsr və XX əsrin 20-ci ilinə qədərki dövrə aid mənbələrə və hər dövrün öz mütəfəkkirlərinin fikir və mülahizələrinə müraciət edilmişdir.

Bəllidir ki, Azərbaycan fəlsəfi və ictimai-siyasi fikir tarixində dövlət və dövlətçilik, xüsusilə dövlət və hüquq nəzəriyyəsi, siyasi-hüquqi təlimlər, idarəçilik sistemi, hüquq və ideologiya ilə bağlı bir çox mütəfəkkir və tədqiqatçıların ayrı-ayrı dövrlərə aid mülahizə və tədqiqat əsərləri vardır. Təbii ki, onların hamısını bir monoqrafiya çərçivəsində əhatə etmək mümkün deyil. Ona görə də monoqrafiyada imkan daxilində mövzu ilə sıx bağlı əsərlərə müraciət edilmişdir.

Tədqiqatçıların son qənaətinə görə, Dağıstandan Kəngər körfəzinə, Xəzər dənizindən Doğu Anadoluya və Kərkükədək böyük bir ərazini əhatə edən Azərbaycan adlı bu məmləkətdə onun sahibi olan Azərbaycan türkləri ölkənin digər azsaylı xalqları ilə birgə tarixən müxtəlif dövlətlər qurmuşlar. Dövlət və dövlətçilikdə bəşəriyyətə böyük töhfələr vermiş türklər tarixə bəlli ilk dövlətlərini məhz Azərbaycan ərazisində meydana gətirmişlər. Dünya tarixşünaslığı yanlış olaraq Türk dövlətçilik tarixini hunlarla başlayır. Halbuki hunlardan xeyli əvvəl III minilliyin I yarısında indiki Güney Azərbaycan ərazisində Urmiya gölünün cənub və cənubi-şərq hissəsini əhatə edən ərazidə ilk Azərbaycan Türk dövləti olan «Aratta» meydana gəlmişdi. Bu dövlət qurumu «e.ə. III minilliyin I yarısında təkcə Azərbaycanın deyil, bütövlükdə Ön Asiyanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb, özünəməxsus ad qoymuşdur» [102,18]. Tarixi mənbələrdə «saf ərənlər ölkəsi» adlandırılan «Aratta

qədim Azərbaycan ərazisinə verilən ilk məlum addır» [42,67]. Eradan əvvəl III minillikdə yaranan Aratta dövlətindən bugünkü Azərbaycan Respublikasına qədər bu tarixi axın içərisində bütün köklü dinləri öz mədəniyyətinin tərkib hissəsinə qatmış xalqımız, nəhayət, sonuncu ilahi din olan islamı qəbul edərək, yeni islam məfkurəsi ilə bağlı bir dövlət sistemi, yeni bir fəlsəfi dünyagörüşü, yeni bir mədəniyyət vücuda gətirmişdir. Bununla da Azərbaycan türkləri böyük türk dövlətçilik tarixini hər baxımdan təmsil edə biləcək bir milli mənliyə sahib olmuşdur. Beş min illik dövlətçilik ənənəsinin bugünkü Qüzey Azərbaycan Respublikası ilə davam etdirməkdə olan Azərbaycan xalqı o günlərdən bu günə qədər qanı, canı, alın təri, göz yaşı ilə yoğurduğu Azərbaycan torpağını özünə Vətən etmiş yeni tipli Respublika qurmuşdur.

Monoqrafiyada tədqiqatçıların bu sahədəki araşdırmalarından, Azərbaycan xalqının milli mənlik şüurunun formalaşmasında əvəzsiz xidmətləri olmuş, xalqımızın elmi, mənəvi və mədəni irsini yaratmış və yaşatmış görkəmli şəxsiyyətlərimizin - alimlərimizin, filosoflarımızın, ideoloqlarımızın, dövlət xadimlərimizin, şair və yazıçılarımızın, incəsənət xadimlərimizin əsərlərindən, fikir və mülahizələrindən yeri gəldikcə istifadə edərək Azərbaycan dövlətçilik məfkurəsinin təməl prinsiplərinin formalaşma tarixini və mahiyyətini fəlsəfi baxımdan araşdırmağa çalışmışıq. Habelə təqdim edilmiş əsərdə adı çəkilən mütəfəkkirlərin ictimai-siyasi, fəlsəfi fikir tariximizdəki, dövlətçiliyimizdəki xidmətləri, hansı mənəvi zəmindən qidalandıqları əks etdirilmişdir.

Əsərdə Azərbaycan dövlətçilik tarixi və Azərbaycanda tarixən mövcud olan dövlətlərin siyasi quruluşlarına qısa nəzər salınmış, Azərbaycan dövlətçilik fəlsəfəsinin qaynaqları, Azərbaycan mütəfəkkirlərinin qədim, orta əsr və yeni dövr, dövlət və dövlətçilik anlayışlarının onların əsərlərindən gətirilmiş fraqmentlərlə əsaslandırılmasına səy göstərilmişdir.



Monoqrafiyada həmçinin Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin təməl prinsipləri olan "müasirlik, islamçılıq və türkçilik" ideoloji sisteminin formalaşması, onun tarixi və mahiyyəti haqqında geniş məlumat verilmiş, hal-hazırda da dövlətimizin əsas rəmzlərindən olan bayrağımızın yaranmasında bu ideyaların əhəmiyyəti vurğulunmuşdır.

Ümumiyyətlə dövlətçilik şüurunun formalaşmasında dövlət rəmzləri böyük rol oynayır. Görkəmli alim S.S.Xəliloy yazır: «Dövlətçilik şüurunun, müəyyən bir dövlətə mənsub olmaq hissiyyatının mühüm əlamətlərindən və vasitələrindən biri də dövlət rəmzləridir. Buraya ilk növbədə dövlət bayrağı, gerb və dövlət himni aiddir. Bir sıra hallarda da dövlət başçısı da, əgər o həqiqətən ümummilli lider rolunu oynayırsa, dövlətin rəmzi hesab olunur. Heydər Əliyev də, bunun xüsusi qərarla rəsmiləşdirilməsindən asılı olmadan, xalq arasında məhz belə bir nüfuz qazanmışdır» [78,358].

Həmçinin milli-demokratik dəyərlər, demokratiyanın şərtləri və özəllikləri, onların Azərbaycan fəlsəfi və siyasi fikrindəki əksi, Azərbaycan mütəfəkkirlərinin demokratik dövlətçiliyə dair baxışları Azərbaycan Xalq Cümhuriyyətinin demokratik sistemi fəlsəfi baxımdan tədqiq edilmiş, Azərbaycan milli demokratik dövlətçilik məfkurəsinin təşəkkülündə siyasi, hüquqi və iqtisadi amillərin rolu işıqlandırılmışdır. Bəllidir ki, dövlət hər şeydən öncə siyasi təsisatdır. Ona görə də belə demək olar ki, siyasət hər bir xalqın milli hədəfidir. Deməli, hər bir xalqın siyasətinin əsası dövlət qurmaqdır. Tədqiqat işində bütün bunlar qısa xülasə edilərək, elmdə qəbul edilən dövlət quruluşunun üç növündən - monarxiya, konstitusiyalı monarxiya və cümhuriyyətdən bəhs edilmişdir. Əsas diqqət daha çox Azərbaycanda tarixən mövcud olmuş monarxiyaya və yeni dövrdə təsis edilmiş cümhuriyyətə yönəldilmiş, Azərbaycan mütəfəkkirlərinin bu sahədəki fikir və mülahizələri tarixi faktlarla əsaslandırılmışdır.

Eyni zamanda hüquqi dövlət anlayışı əsas götürülərək,

XX əsrin əvvəllərindəki Azərbaycan mütəfəkkirlərinin, şair və ədiblərinin, hüquqşünaslarının əsərlərində, dövlət və ictimai xadimlərinin ilk öncə xalqın inzibati özünüidarə hüququ və ya federasiya, daha sonra isə müasir bir demokratik dövlət, ailə, seçki, iqtisadiyyat, ticarət, sənaye, mədəniyyət, torpaq və kənd təsərrüfatı, təhsil, tibb və b. sahələrə dair qanunlar yaradılması, hüququn əsası sayılan ədalət, qanun və onun düzgün tətbiqi, insan hüquq və azadlıqları, sosial bərabərlik, qadın haqları və insanların hüquq bərabərliyi, etiqad və ya vicdan azadlıqları, şəxsiyyətin toxunulmazlığı, fikir və söz azadlığı, azad seçki və b. kimi məsələlərə münasibətləri şərh edilmiş və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra bu məsələlərə nə dərəcədə sadiq qaldığından bəhs edilmişdir. "İstiqlal Bəyannaməsi"ndə irəli sürülən dövlət və hüquq, tamhüquqlu müstəqil dövlət, dövlətin siyasi quruluşu və qonşu xalqlara və dövlətlərə münasibəti, Xalq Cümhuriyyətinin öz sərhədləri daxilində milliyyətindən, dinindən, sosial vəziyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşlara vətəndaşlıq və siyasi hüquqların verilməsi, ölkədə yaşayan bütün azlıqda qalan xalqların azad inkişafı üçün geniş imkanlar yaradılması üzərində də dayanılmışdır. Faktlarla sübut edilmişdir ki, Bəyannamənin bütün şərtləri Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq iqtidarı dövründə imkan daxilində əsasən əməl edilmişdir.

Qeyd olunur ki, Xalq Cümhuriyyətinin yaradıcıları öz dövrlərində dünyada, xüsusilə Qərbi Avropada mövcud sistemləri nəzərə alaraq, ölkələrində Milli Demokratik Dövlət yaratmağa çalışmış və qısa müddətli olsa da, buna nail olmuşlar.

Məlumdur ki, hər bir xalqın və onun yaratdığı dövlətin inkişafında iqtisadi amil ən əhəmiyyətli yerlərdən birini tutur. Tarix boyu Azərbaycan mütəfəkkirləri iqtisadi inkişafda insan əməyinə yüksək qiymət vermiş və onu iqtisadi prosesdə başlıca hesab ediblər. Uzun əsrlərdən bəri insan əməyinin istismarına qarşı çıxan Azərbaycan ziyalıları siyasi və hüquqi demokratiya ilə yanaşı, iqtisadi demokratiyanı da önə çəkmişlər. Onlar iqtisadi demokratiya ilə inkişaf və sosial ədalət arasında yaxın əlaqəni dərk edərək ilk öncə xalqın bütün təbəqələrinin iqtisadi qərarların qəbul edilməsində iştirakını iqtisadi demokratiyanın əsası hesab etmişlər.

Monoqrafiyada həmcinin Azərbaycan Xalq Cümhuriyyətinin qanunauyğun varisi sayılan çağdaş Azərbaycan Respublikasının Heydər Əliyev tərəfindən irəli sürülən milli Azərbaycançılıq ideologiyası, milli demokratik dövlətçilik məfkurəsinin yeni əsaslarda davamı araşdırılır.

Ümidvarıq ki, monoqrafiya Azərbaycan xalqının beş min illik bir dövlətçilik tarixinə yüz illik müstəqillik uğrunda mücadiləsinin bəhrəsi olan milli dövlətçiliyimizin əsası - Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) və Azərbaycan Respublikasının (1991) tarixi dövlətçilik prinsiplərinin fəlsəfi yöndən açıqlanmasına yardım edəcək.

# I FƏSİL

# AZƏRBAYCAN ƏRAZİSİNDƏ MÖVCUD OLMUŞ İLK DÖVLƏTLƏR VƏ AZƏRBAYCAN İCTİMAİ-SİYASİ, FƏLSƏFİ FİKRİNDƏ DÖVLƏTÇİLİK İDEYALARI

## §1. Ən qədim dövrlərdə və ilkin orta əsrlərdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində dövlətçilik ideyaları.

Dünyanın ən qədim insan məskənlərindən və mədəniyyət mərkəzlərindən olan, zəngin qiymətli təbii sərvətləri ilə seçilən, Şərqlə Qərb arasında çox mühüm geostrateji mövqedə yerləşən, tarixən müxtəlif dövlətlərin mövcud olduğu Aəzrbaycan vaxtilə «şimalda Dağıstan, qərbdə Gürcüstan, cənubi-qərbdə Armeniya, Şərqdə Xəzər dənizi, cənubda Mərkəzi İran ilə həmsərhəd olan» [42, 14-15] bir ərazini əhatə etmişdir.

Dövlət və dövlətçilikdə bəşəriyyətə böyük töhfələr vermiş Azərbaycan da, yabançıların işğalçı dövlətləri istisna olmaqla özünəməxsus zəngin dövlətçilik ənənəsinə malik olmuş, ərazisində tarixən çoxlu dövlətlər yaranmış, bir-birini əvəz etmiş, cəmiyyətin siyasi, sosial-iqtisadi və mədəni həyatında mühüm rol oynamışlar. Qədim və eləcə də erkən orta əsrlərdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində dövlətçilik ideyalarının meydana gəlməsi və zaman-zaman inkişaf edərək yeni-yeni məna və çalarlar kəsb etməsi də hər şeydən əvvəl Azərbaycanın dövlət və dövlətçilik tarixi ilə bağlı olmuşdur.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, milli dövlətçilik məfkurəsi kimi, dövlət və dövlətçilik anlayışları da tədqiqatın predmetində əsaslı yer tutur. Bu anlayışlar bir-biri ilə qırılmaz tellərlə bağlı olsalar da, mahiyyətcə mütləq eyniyyət təşkil etmirlər. Professor S.S.Xəlilov bu münasibətlə yazır: «Dövlət hüquqi və siyasi aktlarla, dövlətçilik isə mənəviyyat və mentalitetlə bağlıdır... Dövlətçilik siyasi müstəvidə milli özünütəsdiq prosesinin mahiyyəti, dövlət isə onun hansı isə konkret formada reallaşması vasitəsidir.

Məsələ burasındadır ki, konkret bir hadisə kimi dövlət olmadıqda belə dövlətçilik yaşaya bilər. Dövlətçilik ənənəsinin saxlanması isə milli dövlətin nə vaxtsa yenidən qurulmasına təminat verir» [76, 394]. Burada isə dövlətçilik ideyalarının özünəməxsus əhəmiyyətli yeri və rolu vardır. Bunu həmin ideyaların fəlsəfi aspektdə tarixi-məntiqi baxımdan araşdırılması bir daha aydın göstərir.

Azərbaycan dövlətçiliyi kimi, dövlətçilik ideyalarının da kökləri çox-çox qədimlərə, tarixin olduqca dərinliklərinə gedib çıxır. Bunların müasir anlamda elmi obyektivliyi ilə hərtərəfli araşdırılması Azərbaycanda milli-demokratik dövlətçilik məfkurəsinin qanunauyğun olaraq təşəkkül tapması yolarına dərindən işıq salır.

Azərbaycan dövlətlərindən ən qədim və ilkin olanını tarixçilər Aratta dövlətini hesab edirlər. Bu dövlət-Cənubi Azərbaycanda b.e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onunla «əlaqədar hadisələr bir neçə Şumer dastanında əks olunmuşdur» [42,61]. Bu dövlət qurumu «e.ə. III minilliyin birinci yarısında təkcə Azərbaycanın deyil, bütövlükdə qədim Ön Asiyanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında mühüm rol oynayıb, özünəməxsus ad qoymuşdur» [102,18].

Cənubi Azərbaycan ərazisində yaranmış tarixə bəlli ikinci dövlət Lullubum sayılır [42,67; 102,18].

E.ə. XXIV - XXII əsrlərdə Aratta bir dövlət kimi artıq siyasi səhnədən çıxmış, Urmiya gölünün cənubunda Arattanın qərb ərazilərində Lulubi tayfaların ittifaqı yaranmış, daha sonralar bu ittifaqa Turukki və Su tayfaları da qoşularaq Lullubi dövlətini yaratmışdılar. İlk əvvəllər xırda padşahlıqlardan ibarət olan Lulubum padşahlığını e.ə. 2200-2170-ci illərdə Lulubum hökmdarı İmmaşqun mərkəzi hakimiyyətdə birləşdirərək Lullu ölkəsinin «Padşahlar

padşahı» adlandı. Beləliklə, e.ə. XXIII əsrdə Urmiya gölünün cənubunda İkiçayarası Akkad dövləti ilə rəqabət aparan güclü Lulubum dövləti yarandı. Bu dövlətin qüdrəti hökmdar *Anubaninin (e.ə. 2170-2150 -ci illər)* dövründə daha da artır... Anubaninin siyasi nailiyyətləri «daş sütun» abidəsində həkk edilmişdir [42,68].

Aratta kimi Lulubum dövləti də İkiçayarası ilə siyasi və iqtisadi əlaqələr saxlayır, mixi yazı sistemindən istifadə edir, akkad dilində qələbə abidələri yaradır, əhalisi isə səma, bərəkət, məhəbbət, ay, günəş və s. allahlara sitayiş edirdilər.

Tədqiqatçıların fikrincə «Lullubi Azərbaycanın prototürk əhalisinə verilmiş kənar ad olmuşdur» [42,79]. Artıq e.ə. II minillikdə vahid Lulubum dövləti parçalanır və yerində kiçik hökmdarlıqlar yaranır. «Qaynaqlar bu dövrün başlanğıcında «çoxlu lullubi hökmdarları» ifadəsini işlətmişlər»[42,69].

Azərbaycan ərazisində yaranan tarixən üçüncü dövlət Kutium dövləti sayılır. E.ə. III minilliyin ikinci yarısında Urmiya gölünün qərb və cənubi-qərb (Qərbi Azərbaycan) ərazisində Qut tayfasının təşəbbüsü ilə Kutium dövləti meydana gəlmişdir. «Azərbaycanın qədim tarixini Mesopotamiya ilə bağlayan başqa bir qüvvə Qutlar olmuşdur. E.ə. III minilliyin sonlarında Qutlar hücum edərək Mesopotamiyaya girmiş və Akkad dövlətinə son qoymuşlar... Qutlar Mesopotamiyada 125 ildən çox hakimiyyət sürmüşdür. Kitabələrə görə «dağlar əjdəri», allahların düşməni, Şumer hökmranlığını dağlara aparan son Qut başçısı Tirikan e.ə. 2109-cu ildə qiyam etmiş şumerlərin başçısı Utukaqal tərəfindən öldürülmüşdür. Qutlar Şumerdən öz qədim məskənlərinə çəkilmişlər» [213,181]. Kutilər İkiçayarasını (Mesopotamiyanı – R.Ə.) zəbt etməmişdən əvvəl Cənubi Azərbaycan ərazisində öz dövlət quruluşunu yaratmışdılar. Quti tayfa birləşməsinin başçısı az müddətə seçki yolu ilə seçilirdi. « Çarlıq üçün şəraitə uyğun olaraq 6,3,2 və 7 il vaxt qoyulması göstərir ki, Kuti



çarları əslində icma şurası tərəfindən qısa müddətə seçilən tayfa birliyi başçıları idilər» [55,36].

Kuti dövlətinin «siyasi quruluşu görünür, tarixin **«hərbi demokratiya»** adlanan çağına uyğun gəlir» [55,26].

E.ə. 2109-cu ildə Kutilərin İkiçayarasındakı məğlubiyyətindən sonra Kutium dövləti də Lulubum dövləti kimi süquta uğrayaraq xırda hakimiyyətli vilayətlərə parçalanır. «Azərbaycan ərazisində bu pərakəndəlik e.ə. I minilliyin əvvəllərindən Manna quldar dövlətinin təşəkkül tapmasınadək davam etmişdir» [102,20].

E.ə. II minilliyin əvvəllərində Urmiya gölü hövzəsində yaşayan Turukku və Su tayfalarının siyasi fəaliyyəti başlanır. Onlar əvvəlki dövrlərdə Aratta, Lulubum və Kutium dövlətlərinin tərkibində fəaliyyət göstərmişdilər. Bu dövlət qurumları süquta uğradıqdan sonra Turukku və Su tayfaları İkiçayarası hadisələrinə müstəqil şəkildə qarışmağa imkan tapdılar. Onlar Azərbaycan və ona yaxın ərazilərdə məskunlaşmış digər türk etnosları ilə birgə assurların işğalçılıq siyasətinə qarşı çıxmış, öz müstəqillikləri uğrunda mübarizə aparmışlar. «Elə bu mübarizələrin nəticəsi idi ki, Assur işğalçıları heç vaxt uzun müddət burada (Azərbaycan ərazisində – R.Ə.) möhkəmlənib qala bilməmişdilər» [102,21]. Qədim Azərbaycan tayfaları artıq e.ə. II minilliyin sonu, I miniliyin əvvəlində yeni dövlət qurumunun meydana gəlməsi ərəfəsində idi.

Qədim Azərbaycanda dövlətçilik qurumunun yaranması ilkin mənada dövlətçilik ideyalarının da təşəkkülündə əsaslı rol oynamışdır. Mənbələrin araşdırılması aydın göstərir ki, bu sayaq *ideyalardan ən önəmlisi mərkəzləşmiş* dövlətçilik üsul-idarəsinin yaradılması fikrindən ibarət olmuşdur. Lakin tarixdən bu da məlumdur ki, Azərbaycan ərazisində yaranmış Aratta, Lulubum və Kutium kimi erkən dövlətləri «türk mənşəli sülalələr idarə etmişdilər» [42,72].

Kutium dövləti süquta uğradıqdan sonra qədim Azərbaycanın xırda hökmdarları birləşməyə macal tapmadan xarici müdaxiləçilərin, xüsusilə, qonşuluqdakı Assuriya və Urartu dövlətlərinin təcavüzünə məruz qalırlar. Bu təcavüzlər «e.ə. I minilliyin əvvəllərində Cənubi Azərbaycan ərazisində, Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin meydana gəlməsi üçün şərait yaradır və yeni təşkil edilən dövlət «Manna» adlanır. Manna Assur və Urartu işğallarına qarşı mətinləşirdi» [42,86-87].

Artıq e.ə. VIII əsrin ikinci yarısında Manna dövlətində ailənin irsi hakimiyyəti mövcud idi, yəni hakimiyyət atadan oğula keçirdi. Daha sonralar mərkəzləşmiş Manna dövlətində canişinlik idarə üsulu yaradılmışdı. Bu canişinlər mərkəzi hakimiyyətə tabe idilər. Manna hökmdarları müstəqil xarici və daxili siyasət yürüdürdülər. Dövlət idarəsi müxtəlif əyan və məmurlardan təşkil olunmuşdu. Dövlət idarəsində hakim ailənin üzvləri də çalışırdılar.

Mannada erkən sinifli yuxarı təbəqənin hakimiyyətinə əsaslanan oliqarxik dövlət quruluşu mövcud olmuşdur. Buna uyğun olaraq Manna cəmiyyəti də erkən **quldarlıq** kimi qəbul edilir. Manna hökmdarı qonşu dövlətlər olan Assur və Urartu hökmdarları kimi dövlətin təkbaşına, yeganə başçısı idi. Manna dövlətinin idarəetmə sisteminə «Ağsaqqalar Şurası» da daxil idi. «Ağsaqqallar Şurası» da əyanlar və dövlət məmurları kimi hökmdarın göstərişlərini icra edən və dövlət işləri ilə məşğul olan idarələrə mənsub idilər.

Mannada quldarlıq istehsal üsuluna əsaslanan iqtisadiyyat və dövlət hökm sürürdü. «Artıq II minilliyin sonu I minilliyin başlanğıcında Assuriya və Urartu çivli yazılarında Azərbaycanın güneyindəki siyasi birləşmələrin (dövlətin- R.Ə.) torpaqları «ölkə», onu idarə edənlər isə «hökmdar», «çar» adlanırdı» [55,33].

Bir halda ki, tarixşünaslıq elmi Manna dövlətini quldar dövləti hesab edir, deməli, Mannada iqtisadi cəhətdən



də hökmran sinif olan quldarların siyasi təşkilatı öz diktaturasını həyata keçirmək üçün quldarların istifadə etdikləri hakimiyyət aparatı da olmuşdur. Çünki «Quldarlıq dövlətinin iqtisadi əsasını quldarların istehsal vasitələri üzərində, habelə qullar üzərində xüsusi mülkiyyəti təşkil edir. Qul quldarın tam mülkiyyəti hesab olunurdu. Quldar qulu sata, bağışlaya və öldürə bilərdi» [103,46-47]. Deməli, Manna quldar dövlətində quldar sinfi və çox böyük qullar kütləsi ilə yanaşı həm də azad əhali içərisində mövcud təbəqələşmə də olmuş, azad əhali əmlak əlamətinə görə də bir neçə dərəcəyə ayrılmışdır. Manna dövlətində quldarlıq iqtisadi bazisi üzərində siyasi üstqurum olan hökmdarlar, əyanlar, dövlət məmurları və «Ağsaqqallar Şurası» üzvləri çoxcəhətli fəaliyyət göstərmiş, daxili və xarici funksiyaları yerinə yetirmişlər. Onlar həmçinin Manna dövləti daxilində ictimai işləri təşkil etmək, kütlələrə ideoloji təsir funksiyalarını həyata keçirmək, xüsusi tərbiyə sistemini tətbiq etmək, hökmdarları ilahiləşdirmək, dövlət başçısına dini sitayişi yaratmaq kimi daxili funksiyaları, həmçinin öz ərazilərini xarici müdaxilələrdən qorumaq və özgə ərazilərini zəbt etmək kimi xarici funksiyaların həyata keçirilməsinə çalışırdılar. Manna dövləti quldarlıq dövlətinin əsas formalarından olan monarxiyaya əsaslanırdı. Çünki burada bütün hakimiyyət irsi olaraq hökmdara - monarxa məxsus idi. Onun hakmiyyəti qeyri-məhdud, iradəsi qanun idi. Hökmdarın şəxsiyyəti ilahiləşdirilmişdi.

Manna dövləti e.ə. 593-cü ilə qədər özünün təqribən dörd yüz illik mövcudluğunu qoruyub saxlamış, e.ə.VI əsrin əvvəllərində Midiya imperiyasının yaranması ilə əlaqədar olaraq onun tərkibinə daxil edilmiş və beləliklə də tarix səhnəsindən silinmişdir.

Manna dövlətində «əhalinin başlıca dili ən qədim türk dili olmuşdur. Yer adlarında təmsil olunmuş sözlər ümumtürk leksikasına mənsub idi. E.ə. III-I minilliklərdə Cənubi

Azərbaycan ərazisində türk dilində danışan etnoslar (yerli əhali) yaşayırdılar və onlar hakim türk sülalələrinin əsasını qoymuşdular. Manna hökmdarlarının adları (İranzu, Aza, İllusunu və s. – R.Ə.) da Türk dillərində izah olunur... M - xi yazılarda «Manna» ərazisi ilə əlaqədar təsadüf olunan bir sıra yer adları türk dillərində izah olunur» [42,73-73].

Mannalıların dini dünyagörüşləri haqqında mixi yazılarda məlumatlar az da olsa öz əksini tapmışdır. II Aşşurnasipal və II Sarqona aid mixi yazılardan anlaşılır ki, «Mannalılarda bütpərəstlik və çoxallahlılıq yayılmışdı.

Manna şəhərlərində allahların heykəlləri saxlanan məbədələr vardı... Mannalıların yaratdığı əfsanə və dastanlar onların dünyagörüşündən doğulurdu. Görünür, Mannanın şifahi xalq yaradıcılığı Qədim Şərq mifoloji qaynaqlarından qidalanmaqda idi» [55,72-73].

Tədqiqatçılar göstərirlər ki, «Azərbaycan ərazisində siyasi və hüquqi təlimlərin meydana çıxması e.ə. I minillikdə ibtidai icma quruluşunun dağılması nəticəsində burada təşəkkül tapmağa başlayan quldarlıq dövlətlərinin meydana gəlməsi ilə əlaqədardır» [104,5]. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan ərazisində ən qədim dövlətlər olan Aratta, Lulubum, Kutium və Manna dövlətləri e.ə. III minilliyin birinci yarısından başlayaraq e.ə. 593-cü ilə qədər mövcud olmuşlar. Bu dövlətlərin hamısında ən geniş yayılmış din bütpərəstlik olmuşdur. Bu din və xalq təfəkkürünün yaratdığı müxtəlif miflər o dövr azərbaycanlılarının dünyagörüşünün, eləcə də dövlətçiliyə dair baxışlarının əsasını təşkil etmişdir. O dövr azərbaycanlılarının ilkin fəlsəfi və ictimai-siyasi fikirlərini, dövlət və dövlətçilik anlayışlarını, yuxarıda da qeyd edildiyi kimi, yalnız onlara düşmən olan Şumer, Assur, Urartu və s. xalqların abidələrindən öyrənmək olur.

Artıq e.ə. VIII əsrin 70-ci illərində bu ərazidə Midiya adlı ilk böyük bir imperatorluq yaranmağa başlayır. Belə ki, e.ə. I minilliyin əvvəllərində tarix səhnəsinə çıxan midiyalılar nəhayət e.ə. VIII əsrin sonunda Deyokun rəhbərliyi ilə Midiya tayfaları olan Maq, Bus, Budi, Paretaken, Arizant, Struxat və s. birləşərək vahid «Midiya dövləti»ni yaratmış, «Ekbatana» (indiki Həmədan – R.Ə.) şəhərini yaradaraq onu Midiya dövlətinin paytaxtı elan etmişlər. Mərkəzləşmiş dövlət yarandıqdan sonra Midiya hökmdarı Kiaksar Babilistan hökmdarı Nabupalasarla ittifaqa girərək e.ə. 604-cü ildə Assuriya imperiyasına son qoydu. Bundan sonra işğalçılıq müharibələrinə başlayan Kiaksar Urartuları məğlub edərək Urartunu Midiyanın tərkibinə daxil edir. Midiya hökmdarları az bir zaman içərisində farsları, assurları, babilləri, skif çarlığını məğlub edərək «Aralıq dənizindən Xəzər dənizinədək böyük bir ərazini öz hakimiyyətləri altında birləşdirdilər» [57,26]. Beləliklə, Midiya Ön Asiyanın ən qüdrətli dövlətinə çevrilir.

Kiaksarın ölümündən sonra hakimiyyətə gələn oğlu Astiaqın dövründə Midiya dövləti daha da möhkəmlənmiş, onun uzunmuddətli hakimiyyəti (e.ə. 585-550-ci illər) ilə əlaqədar olaraq müxtəlif rəvayətlər yaranmışdı. Artıq Astiaqın hakimiyyətinin son illərində Midiyanın daxili və xarici vəziyyəti mürəkkəbləşməyə başlayır. Astiaqa qarşı olan saray əyanları və Midiya sarayında farsmeyilli qüvvələr gizli fəaliyyət göstərərək Astiaqı devirdilər. Astiaqın ölümü ilə e.ə. 550-ci ildə qüdrətli Midiya dövləti süquta uğrayır və daha doğrusu, Midiya ordu başçısı II Kir və Harpağın xəyanəti ilə saray çevrilişi nəticəsində dövlətin türk hökmdarını pars II Kir əvəz edir. Parsların tarix səhnəsinə çıxması isə I Daranın (m.ö.522-486) adı ilə bağlıdır. O, Midiya imperiyasını yenidən bərpa edərək Əhəmənilər dövlətinin əsasını qoydu. Paytaxtı Ekbatandan Parsaya keçirdi, dövləti farslaşdırdı, qızıl sikkə kəsdirdi. Midiya mədəniyyətinə sahib çıxaraq onların yaratdığı bütün maddi və mənəvi dəyərləri, o cümlədən də dövlət idarə quruluşu və qədim dövrün ən böyük bəşəri abidəsi sayılan «Avesta»nı özününküləşdirdi. Onu da qeyd edək ki, «Avesta» nəinki





Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

qədim Azərbaycandini-fəlsəfi fikrinin, o cümlədən dövlətçilik nəzəriyyəsinin ilkin dəyərli tarixi abidəsidir. Nəhayət, e.ə. 330-cu ildə Makedoniyalı İskəndər parsların hakim olduğu təqribən 200 illik hakimiyyətə son qoydu. Parslar Makedoniyalı İskəndərin bu zərbəsindən 500 il özlərinə gələ bilmədi [102,43].

Bundan sonra yaranmış olan Atropatena dövləti haqqında yazan tədqiqatçılar onun mənşəyi, ərazisi və təsərrüfatı, əhalisi, onun Parfiya, Roma dövlətləri və qonşu xalqlarla münasibətləri, mədəniyyəti və dini dünyagörüşləri haqqında müəyyən məlumatlar versələr də onun dövlət quruluşu, siyasi və hüquqi sistemi haqqında müfəssəl məlumat verməmişlər [42,131-145]. Mənbələr göstərir ki, Atropatena ərazisində əhali zərdüşt dininə sitayiş edirdi. Atropatena və ya Kiçik Midiya Böyük Midiyadan fərqli olaraq Makedoniyalıların nəzarəti altına düşməmiş, özünün ərazi bütövlüyünü, müstəqilliyni və etnik kimliyini itirməmiş, əksinə, öz siyasi, inzibati, iqtisadi müstəqilliyini və etnik kimliyini qoruyub saxlamış «Atropatın varisləri olan atropatilər öz dövlətlərinin siyasi və iqtisadi qüdrətini möhkəmləndirməyə və artırmağa çalışmışlar» [55,93]. Bütün bunlar sübut edir ki, Azərbaycanın cənubunda e.ə. III minilliyin birinci yarısından bizim eranın üçüncü əsrlərinə qədər müəyyən istisnaları çıxmaq şərti ilə müstəqil Azərbaycan quldar dövlətləri mövcud olmuşdur. Məhz bu zəmində də qədim dövrlərdən bəri Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində dövlətçilik ideyaları təşəkkül tapmış, getdikcə ciddi təkamülə uğramışdır. Azərbaycanın şimalında isə ilk quldar dövlət kimi mütəxəssislər Alban dövlətini qəbul edirlər.

Alban dövlətinin ictimai quruluşu haqqında da yazılı qaynaqlarda müəyyən məlumatlar vardır [55,100]. «Lakin klassik quldar dövlətlərindən fərqli olaraq burada (Albaniyada – R.Ə.) qul əməyindən nisbətən az istifadə etmişlər». [55,100]. Bütün bunlara baxmayaraq tədqiqatçılar ilkin Alban dövlətini quldar dövləti hesab edirlər [42,145-155]. Lakin bu cəmiyyətdə ibtidai icma quruluşuna xas olan nəsil-qəbilə münasibətlərinin qalıqları da güclü idi.

Bütün bu deyilənlər onu göstərir ki, tarixi Azərbaycan ərazisində e.ə. III minilliyin I yarısından bizim eranın III əsrinə, yəni Azərbaycanda feodal münasibətlərinin yaranmasına qədər bu ərazidə quldarlıq quruluşu mövcud olmuş və bu quruluşları Aratta, Lullubum, Kutium, Manna, Midiya, Atropatena və Alban adlı dövlətlər şəklində bu ərazinin köklü etnosu olan qədim türklər idarə etmişlər. Deməli, bu ərazidə yaranan maddi və mədəni dəyərlərin böyük əksəriyyəti də qədim Azərbaycan türklərinə məxsusdur. Söz yox ki, burada qədimdən məskunlaşmış azsaylı etnosların da özünəməxsus rolu olmuşdur. Bu ərazidə yaranan quldarlıq hüququ da bir çox cəhətlərdən qədim Misir, Hindistan, Çin, antik Yunanıstan və Roma hüququndan daha çox Qədim Şumer və Elam hüququna bənzəsə də öz orijinallığı ilə seçilir. Bu orijinallığı göstərmək üçün ilk növbədə bu dövlətləri özlərinə düşmən hesab edən qədim dövlətlərin kitabələrinə deyil, Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində müstəsna rolu olan, Azərbaycan xalqının qədim mədəniyyətinin ən böyük tarixi abildəsi sayılan «Avesta»ya müraciət etmək lazımdır.

Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində dövlət və dövlətçilik ideyasının ilkin qaynaqlarından sayılan ən dəyərli abidə «Avesta»dır. Son dövr tədqiqatçılarının böyük əksəriyyəti «Avesta»nın qədim Azərbaycan türklərinin müqəddəs kitabı, onun yaradıcısı Zərdüştü isə onların peyğəmbəri hesab edirlər [173]. Digər mənbələr də «Avesta»nı vətənini Midiya, özünü isə qədim Azərbaycan ədəbiyyatının şah əsəri hesab edirlər [235,63]. Zərdüştün urmiyalı azəri türkü olması və «Qatlar»ın Azərbaycan, Nəhavənd, Rey, Həmədan və İsfahan bölgəsində qələmə alınması, demək olar ki, nüfuzlu mütəxəssislərin əksəriyyəti tərəfindən qəbul və etiraf olunur.

Zərdüştün Midiyalı və peyğəmbər olmasını M.Məlikova və E.Bayramov da qəbul edir. Onlar yazırlar: «Zərdüştiliyin banisi Spitak Spitama (e.ə.VI əsr) mənşəcə Midiyalı olub, peyğəmbər Zərdüşt rolunda çıxış edir» [104,6].

«Zərdüştilik dininə aid kitablar külliyatı-toplusu sayılan «Avesta»nın dörddə biri gəlib zəmanəmizə çatmışdır. Onların da ən əskisi bizim eranın XII əsrinə aiddir. Bunu nəzərə alan bəzi tədqiqatçılar göstərirlər ki, bu gün əldə olan «Avesta» 2300 ilə yazılmışdır... «Avesta» yüz illərlə o qədər dəyişikliyə uğramışdır ki, Zərdüştün əsl gerçək «Avesta»sından olduqca az bir qismi qalmışdır» [58,98]. Zərdüştdən sonra «Avesta»ya edilmiş əlavələr «Kiçik Avesta» adı almışdır.

Hələ qəbilə quruluşu dövründə meydana gəlmiş «Avesta» quldarlıq və hətta feodalizm quruluşları dövründə də bir çox əsrlərə və bir çox xalqlara xidmət etmişdir. Zərdüştlük Aralıq dənizindən Çinədək yayılmış, Yunanıstan və bir çox Şərq ölkələrini böyük fəlsəfə yoluna yönəltmiş, bütün Yunan fəlsəfəsinin ilkin qaynağı və əsası olmuş, Anaksimandr, Aniksimen, Heraklit, Pifaqor, Demokrit, Platon, Aristotel, yeni platonçular və s. Kimi filosofların hamısı zərdüştlükdən ideyaca qidalanmış, dünyanın metafizik dərki də zərdüştlükdən yaranmışdır [58,104;104,18]. «Avesta» Hegel tərəfindən də öyrənilmiş və ona (Hegelə - R.Ə) da müəyyən təsir göstərmişdir [226,19].

Zərdüşt fəlsəfəsi sonrakı Qərb bədii və fəlsəfi fikrinə də güclü təsir göstərmişdir. Ümumiyyətlə, «Avesta» müqəddəs kitablardan – Tövrat, Zəbur, İncil, Quran – ən qədimi və ilkini olsa da o, tamamilə səma mənşəli deyil, həm də daha çox yer mənşəlidir. Burada daha çox dünyəvi məsələlərə önəm verilmişdir.

Qeyd edildiyi kimi, «Avesta» zaman-zaman bir çox təhriflərə uğradılmışdır. Bu təhriflər daha çox quldarlıq dövründə pars əhəmənilərin, erkən feodalizm dövründə isə yenə də pars Sasani dövlətlərinin rəsmi hakim dini olduğu zaman baş vermişdir. Bu pars təhrifləri «ən çox abidədə türklüyü ifadə edən əlamətlərin ziyanına olmuşdur... «Avesta»nın «Qatlar» bölümünün» yalnız dili yox, həm də ideyası, tapındığı təlim **prototürk** inanc və görüşlərlə bu və ya digər dərəcədə səsləşir. İlk tək, böyük tanrını Zərdüşt elan edir və təkallahlığın türk «tenqri» ideyasından daha əvvəlki müəllifinə çevrilir» [88,111].

Deməli, görkəmli Azərbaycan dahisi, ilk Azərbaycan peyğəmbəri Zərdüşt dünyada ilk təkallahlıq din – monoteizm sistemini yaradan bəşər dühalarından olmuşdur. Zərdüşt özünə qədərəki etik-fəlsəfi və dini təzadları müəyyən edərək «dinlərin tarixinə ilk böyük islahatçı, novator – peyğəmbər kimi» [88,111] daxil olmuşdur. Onun təlimində təkallahlıq əsasdır. Zərdüşt Ahura Mazdanı (Hörmüzü-R.Ə.) yeganə baş Allah kimi qələmə verir. Onu kainatın və canlıların yeganə yaradıcısı hesab edir. Zərdüşt təlimində Ahura Mazda xeyir və həqiqəti təmsil edir.

«Avesta»ya görə Zərdüşt bu dini «Tanrının dini adlandırmış və bu dini yönəltmək üçün Tanrı-Ahura Mazda Zərdüştü peyğəmbər seçmişdir.

Zərdüştilik dini-fəlsəfi bir sistemdir. Bu dini-fəlsəfi, ictimai-siyasi dünyagörüşə görə ən yaxşı dövlət forması monarxiyadır. Lakin «belə ehtimal etmək olar ki, «Avesta» da sadəcə monarxın hakimiyyəti deyil, maarifçi monarxın hakimiyyəti təbliğ olunurdu. Vendidadın («Avesta»nın ilkin 21 kitabından qalan üç kitabdan - «Vendida», «Yasna», «Vispered» - biri - R.Ə.) bir paraqrafında Zərdüşt Ahura Məzdadan soruşur: «Görünən aləmlərin yaradıcısı! Onun sahibi və müdrik hökmdarı kimdir? Ahura Məzda cavab verdi: Urvatat - Naro və Sən - müqəddəs Zərdüşt» [165,140-143]. Göründüyü kimi, burada söhbət adi monarxdan yox, müdrik hökmdardan gedir. Bu müdrik hökmdar mülki hakimiyyətin başçısı Zərdüştün oğlu Urvatat - Naro, dini hakimiyyətin başçısı isə müqəddəs Zərdüştdür.

«Avesta» da qanunların ciddi şəkildə yerinə yetirilməsi, sosial **ədalətə** zəruri şəkildə əməl edilməsi, bərabərlik, təmiz əmək, ailə və nikah, qadının cəmiyyətdəki yeri, cinayətin və cəzanın növləri və s. kimi dövlətçilik haqqında mükəmməl məlumatlar öz əksini tapmışdır.

«Avesta»da ictimai quruluşun və hüquqi institutların tam mənzərəsi canlandırılmış, ideal cəmiyyət – sülh, səadət cəmiyyəti, düşmənçilik və zorakılığın olmadığı, əmək adamları cəmiyyəti təsvir olunmuşdur. «Avesta»da göstərilir ki, «Mən (Zərdüşt – R.Ə.) müharibələri rədd edib, silahı bir yana tullamağı istəyən Məzda dininə inanıram... kəndlərin dağılması, mal-qaranın talanı və oğurluğun əleyhinəyəm... get-gəl azadlığı, mənzil, mülk toxunulmazlığı tərəfdarıyam» (seçmələr bizimdir – R.Ə.) [46,31].

Zərdüşt qarəti, qətli, yalanı, rüşvəti, zülmü, hiyləni, basqını, **ədalətsizliyi**, tamahkarlığı və s. şər qüvvə olan Əhrimənin əməli hesab edir. Yer üzündə olan bütün yaxşılıqları, xeyirxahlıqları, paklıqları və s. hamı üçün nemətlərin yaradıcısı olan Hörmüzün əməli sayır.

Zərdüştlük təliminə görə yer üzündə iki qüvvə vardır. Onlardan biri xeyir, digəri şərdir. Bunlar arasında daimi mübarizə gedir və sonda xeyir şər üzərində qələbə çalacaq.

«Avesta»da göstərilən Məzda qanunları icmaçı kəndlilərin, cəmiyyətin digər zəhmətkeş təbəqələrinin mənafeyini müdafiə edir, sosial islahatları həyata keçirmək üçün ədalətli qayda-qanunlar yaradılmasına və xalqın bu qayda-qanunlara tabe olmasına çalışır, ictimai münasibətlərin bir növ hüquqi əsasını müəyyənləşdirməyə xidmət edirdi. «Avesta»nın bir çox paraqraflarında Zərdüşt özünü yoxsulların müdafiəçiçi elan edir. Zərdüştün təbliğ etdiyi maarifçilik ideyaları ictimai həyatın xeyirxahlıq və **ədalət prinsiplərini** əks etdirən Məzda qanunları əsasında qurulmasını nəzərdə tuturdu. Bu qanunlar ictimai həyatın böyük bir qismini tənzim edirdi. Bu qanunlara əməl etmək bu dünyada bir sıra maddi nemətlərlə - sərvət və yaxşı ailə ilə mükafatlandırılmalı idi. Göründüyü kimi *parslarin* əlavələr etdikləri Zərdüştlükdən fərqli olaraq ilkin Zərdüştlük paklıq və xeyirxahlıq üçün gələcək axirət dünyasındakı mükafatla yanaşı bu dünyada da mükafat vəd edirdi.



Zərdüştlüyün ən yüksək əxlaqi prinsipi Məzdanın müqəddəs qanunlarına və ədalətli qaydalara tabe olmaq idi. Məzda qanunlarını bilmək yalnız atravan-kahinlər zümrəsinin deyil, cəmiyyətin bütün zümrələrinin borcu idi. Onlar bu qanunları rəhbər tutub, həyatda şərlə mübarizə aparmalı idilər.

«Avesta»da cəmiyyətin dörd zümrəsi (silki) qeyd edilir. Bunlar kahinlər (atravan və ya maqlar), döyüşçülər, əkinçilər və sənətkarlardır. «Avesta» qulların adını çəksə də onları müstəqil zümrə kimi göstərmir. Kahinlər mənbələrdə Midiya çarlarının müşaviri, əhəmənilər dövründə isə Əhəməni hökmdarlarının saray kahinləri kimi qeyd edilir. Bəllidir ki, Midiya tayfaları arasında maqlar xüsusi yer tuturdular. Onlar Zərdüşt dini ayinlərinin əsas icraçıları olub, xalq içərisində böyük *nüfuza malik idilər. Midiya dövründə maqlar* Zərdüştün varisi sayılırdılar. Əhəmənilər dövründə onların xalq arasındakı böyük nüfuzundan qorxan pars hökmdarları onları saraya çəkməklə bir növ nəzarətdə saxlamağa çalışırdılar. Belə hesab etmək olar ki, parslar II Kir başda olmaqla xəyanət yolu ilə (Midiya çarı Astiaqı terror yolu ilə qətlə yetirməklə) hakimiyyəti ələ keçirdikdən sonra əhəmənilər, xüsusilə I Dara dövründə Midiyanın əsas hakim tayfası olan maqlar siyasi hakimiyyətin əldən çıxdığını görüb dini hakimiyyəti əllərində saxlamağa çalışmış və ilk vaxtlarda buna nail də olmuşdular. Lakin zaman keçdikcə bu kahinlər – maqlar da parslarla əvəzlənmiş və beləliklə də təkallahlı din olan zərdüştlük dualist dinə çevrilmişdir. Zərdüşt xalqı miflərdən qurtarıb təkallahlı dinə gətirdiyi halda Zərdüştdən sonra bu dini özlərinə silaha çevirən farslar onun ikinci, üçüncü mərhələsində bu dinə öz əski miflərini daxil etmiş, min il müxtəlif əlavələr edərək zərdüştlüyü

yeni əsərlərlə, kitablarla mifləşdirmiş «Avesta»nı fars şovinizminin alətinə çevirmişlər.

İlkin «Avesta» ideyaları, Zərdüşt fəlsəfəsi o qədər bəşəri olmuşdur ki, o, Azərbaycandan başlamış Babilistana, Yunanıstana, Əfqanıstana, Orta Asiyaya, Hindistan və hətta Çinə qədər böyük bir ərazidə geniş tətbiq olunmuşdur. «Avesta» Nizamidən tutmuş bütün Şərq və Qərb dahilərinə, hətta «bütün dinləri puç və əfsanə hesab edən» Mirzə Fətəli Axundova belə öz təsirini göstərmişdir. Böyük Hüseyn Cavid Zərdüştün dahiliyini, onun atəşə tapınan «fəlsəfəsini, fikri dühası»nı, xeyirxah əməlini yüksək qiymətləndirir [43,13].

Qeyd edildiyi kimi, terror yolu ilə siyasi hakimiyyətə yiyələnən parslar tədricən ölkə daxilində zərdüştlüyü də öz siyasi hakimiyyətlərinə uyğunlaşdırdıqdan sonra bu dini özlərinin rəsmi dövlət dini elan etdilər və tədricən maq kahinlərini pars kahinləri ilə əvəz edərək, maq kahinlərini ölkədən didərgin saldılar. Belə bir vəziyyətdə ilk öncə siyasi hakimiyyətin, daha sonra isə dini hakimiyyətin də əldən çıxdığını görən Azərbaycan türk düşünürləri çarə axtarmağa başladılar. Sasanilərin işğal etdikləri ərazilərdə sasani pars zülmünə qarşı müxtəlif hərəkatlar baş qaldırmışdı. Belə hərəkatlardan biri də böyük Azərbaycan mütəfəkkiri Maninin rəhbərliyi ilə baş vermişdir. «Həm ata, həm də anası əsil türk nəslindən, özü də Həmədan türklərinin Əşkani nəslindən olan» [174,397] Mani Zərdüştdən sonra öz dini təlimini yaratmış və onu yaymağa başlamışdı. Bu dini təlim - zərdüştlük, xristianlıq və buddizm ünsürlərini özündə cəmləşdirirdi. Daha doğrusu «Maninin görüşlərinin formalaşmasına zərdüştlük, xristianlıq və buddizm müəyyən təsir göstərmişdir. Mani özü də çox vaxt sələfləri Buddanın, Zərdüştün və İsanın rolunu qeyd edir» [104,19].

Mani öz təlimini ümumdünya dininə çevirmək istəyirdi. Maniyə görə, bu təlim bütün bəşəriyyətə aid olduğu üçün bütün əvvəlki dinləri əvəz etməli idi. Mani göstərirdi ki, «əvvəlki dinlər yalnız bir ölkədə mövcud idi və bir dildə idi. Yalnız mənim dinim (manilik və ya manixeizm – R.Ə.) elə xüsusiyyətlərə malikdir ki, ona hər bir ölkədə və bütün dillərdə etiqad edə bilərlər. Onu ən ucqar ölkələrdə təbliğ edəcəklər» [62,176].

Maninin sadə həyatı təbliği mülkiyyətdən imtina etmək, bərabərlik tələbi, tamahkarlıqdan, qatillikdən, oğurluqdan, ər-arvad xəyanətindən, yalançı sehrbazlıqdan, cadugərlikdən, inama şübhə ilə yanaşan ikiüzlülükdən, hərəkətlərdə süstlük və passivlikdən imtina etmək kimi tələbləri şübhəsiz ki, çox böyük ictimai və sosial əhəmiyyətə malik idi və feodal zülmünə qarşı məzlum kütlələrin etirazını ifadə edirdi. Bütün bunlar Maniliyin nəinki Şərqdə, həm də Qərb dünyasında geniş yayılmasına səbəb olmuş, o, geniş vüsət alaraq sasanilərin siyasi və dini hakimiyyətinə qarşı çıxmaqla öz bayrağı altına müxtəlif ölkələrdə küllü miqdarda tərəfdar və ardıcıl toplamışdı. Bütün bu keyfiyyətlərinə görə manilik əleyhinə təkcə fars zərdüştlüyünü təbliğ edən sasanilər deyil, həm də buddizm və xristian təbliğatçıları çıxış edirdilər. «Çünki maniliyin müvəffəqiyyəti maniliyin dünya dininə çevrilməsi təhlükəsi yaradırdı» [104,21].

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan türkü Maninin yaratdığı bu ən böyük bidətçilik cərəyanı öz ölkəsində həyata keçməsə də, təlim dövlət hakimiyyətinə qarşı yönəldiyi üçün Mani düşmən əli ilə qətlə yetirilsə də, onun ölümündən sonra (276-cı ildə) da bu dini cərəyan bütün təqib və təzyiqlərə baxmayaraq müxtəlif ölkələrdə yayılmış və nəhayət digər bir türk xalqı bu dini özünün rəsmi dini olaraq qəbul etmişdir. Tədqiqatçılar göstərirlər ki, «Mani məzhəbi sonra türk tayfası uyğurların rəsmi dini olmuş və buna görə də Orta Asiyadan Mani dini əsərləri əldə edilmişdir» [174,399]. III əsrin sonlarında Maninin davamçılarından olan Bundos bu dini təlimi Roma və İranda geniş təbliğ etmiş və hətta onu Xristian dininə xidmət edən Albaniyada da yaymağa çalışmışdır [102,51]. Tədqi-

qatçıların fikrincə, «Mani 24 yaşında ikən 240-cı ildə özünü peyğəmbər elan etmiş, 241-242-ci illərdə Ktesifonada (Mədaində – R.Ə.) Sasanlı I Şapur öz tacqoyma mərasimində Manini peyğəmbər olaraq tanımış, bundan sonra Maninin peyğəmbərliyi Sasani dövlətində geniş ölçüdə qəbul olunmuşdu. Manilik fəlsəfə, məntiq, tarix fəlsəfəsi ilə çulğaşmış bir dini təlimdir. Manilik zərdüştlüyə qarşı deyil, əksinə, zərdüştlük maniliyin əsası, özülüdür. Manilik dünyada **ədalətli** bir quruluş axtaran ideyalar qaynağıdır. Manilik özünə qədər Azərbaycanda olan türkdilli xalqların və dövlətlərinin [elam, kas (kaz) qut (quz), Turukki, Aratta, Manna, Midiya] yaratdığı dini, fəlsəfi, siyasi bir mədəniyyətin davamı idi. Manilik mahiyyət baxımından parsizm düşüncə tərzinə zidd bir dünyagörüşü idi. Manilik mifizmə, əsatirizmə qarşı duraraq dindən **fəlsəfi** idraka doğru yürüyən və yolgöstərən mürəkkəb bir **təlimlər sistemidir.** Manilik türk dühasının yaradıcılığının təzahürlərindən biridir. Manilik zərdüştlükdəki «Uğurlu düşüncə, Uğurlu Söz, Uğurlu İş» prinsipini genişləndirərək bir sistem halına salmış, yenə də zərdüştlükdəki Doğru Düşüncə, Doğru Söz, Doğru İş, Doğru Davranış, Doğru Danışıq və ən əsaslardan olan Doğru Yol ideyalarını genişləndirərək, bəşərə yeni bir Yol göstərmək istəmişdir» [58,110].

Tədqiqatçılar həm də göstərirlər ki: « Böyük rəssam, şair, alim, mütəfəkkir Mani Əşkani (215-276)nin «Ərşəknamə» əsəri Firdovsi «Şahnamə»sinin yalnız məzmun-mündəricə əsası yox, həm də süjet-fabula strukturunun, obraz-qəhrəman tipajının arsenalı olmuşdur... Lakin Əşkani tarixinə münasibətdə onlar (Mani və Firdovsi – R.Ə.) arasında fərq elə həyatdakı və «Şahnamə»dəki əşkanilərin fərqi səviyyəsindədir» (seçmələr bizimdir – R.Ə.) [88,135].

Mani və onun tərəfdarları bütün bəlaların kökünü maddi nemətlərin ədalətsiz, qeyri-bərabər bölünməsində görür və bu nemətlərdən hamının bərabər səviyyədə istifadəsini tələb edirdilər. Bütün bunlara Sasani hökmdarlarından I Şapur (239-272) və oğlu I Hürmüz (272-273) müəyyən dözüm göstərsələr də, onların varisləri olan I və II Bəhram (276-293) nə maddi nemətləri, nə də hakimiyyəti xalqla bölüşdürmək istəmədilər və nəticədə Mani peyğəmbərə ağır işgəncələr verərək edam etdilər. Bir neçə il maniçilər təqib və işgəncələrə məruz qalaraq fiziki məhv edildi, çoxları xarici ölkələrə gedib oralarda maniliyin təbliğini davam etdirdilər. «Mani tarixdə bir peyğəmbər, filosof, qəhrəman, siyasi-ictimai hərəkatın yaradıcısı və başçısı kimi tanınsa da bədii ədəbiyyatda rəssam (nəqqaş), memar, şair kimi tanınmışdır. Maninin 10-dan çox kitabı, 76 məktubu (risaləsi) olmuş, onlar bütün dünyaya səpələnmiş, üçüncü yüzildən sonra bütün dünyada din, fəlsəfə, rəssamlıq, memarlıq və ədəbiyyata böyük təsir göstərmişdir. Manilik parsizmə qarşı mübarizəsini davam etdirmiş, beşinci yüzilliyin sonunda çox böyük gücə baş qaldıran məzdəkilər xalq hərəkatının əsas ideya qaynağı olmuşdur» [58,115-116].

Bütün bu deyilənləri ümumiləşdirərək görkəmli alim Yusif Rüstəmov göstərir ki: «Manilik türk xalqlarının, o cümlədən azərbaycanlıların islamaqədərki dinlərindən biri olmuş və öz tərəfdarlarının həyatında əhəmiyyətli rol oynamışdır» [140,58].

Bizim eranın III əsrindən başlayaraq Azərbaycanın cənubunda Adərbayqan, şimalında isə Alban feodal dövlətləri təşəkkül tapmağa və ilk feodalizmə xas iqtisadi münasibətlər bərqərar olmağa başladı. On beş əsrdən çox davam etmiş feodal münasibətləri əsasında Azərbaycanın istər cənubunda, istərsə də şimalında bir çox feodal dövlətləri yaranmış və bu dövlətlər Azərbaycanın ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamışlar. İlkin Azərbaycan feodal dövlətlərindən fərqli olaraq Orta əsrlərdə bir-birini əvəz etmiş Azərbaycan feodal dövlətləri dövlət quruluşu və inzibati idarəçilik sisteminə görə müəyyən qədər fərqlənmişlər.

Azərbaycanın ilk feodal dövlətləri olan Adərbayqan və Alban dövlətlərinin ilk çağlarında quldarlıq quruluşunun

bir çox xüsusiyyətləri hələ də qalmaqda idi. Əvvəllər torpaq hökmdara, dini təşkilatlara, ayrı-ayrı quldarlara və icmalara məxsus idisə, erkən feodalizm dövründə dövlət mülkiyyəti forması üstünlük təşkil etməyə başlamışdı. Lakin buna baxmayaraq, Atropatena (Adərbayqan) və Albaniyanın ayrı-ayrı bölgələrində dövlətə məxsus torpaqların hökmdar nəslinin nümayəndələri arasında bölüşdürülməsi ölkədə mühüm torpaq mülkiyyətinin inkişafına xüsusi təsir göstərmişdir. Adərbayqan da bu dövrlərdə icma torpaqları ilə yanaşı «hökmdarın» şərti mülkiyyət kimi bəxşiş verdiyi xüsusi sahibkar torpaqları, vilayətlərin irsi sahibləri olan iri feodalların torpaqları və məbəd torpaqları mövcud idi. Albaniyada (isə) torpaq üzərində xüsusi feodal mülkiyyəti iki formada mövcud idi. Birincisi, irsi torpaq sahibliyi (dastakert), ikincisi, şərti torpaq sahibliyi (xostak) [40,6-11].

Bu dövlətlər Sasani imperiyasının tərkibinə daxil edildikdən sonra buralarda « feodal münasibətləri də imperiyanın vilayətlərdə yeritdiyi siyasətə uyğun olaraq inkişaf etmişdi» [40,7]. Bu dövlətlərin ictimai və siyasi dövlət quruluşları Sasani imperiyasının tələblərinə uyğunlaşdırılsa da, ölkələr yerli xüsusiyyətlərə uyğun idarə edilirdi. Adərbayqan hökmdarı «şah», Alban hökmdarı «çar», sasani hökmdarı isə «şahənşah» yəni «şahlar şahı» adlanırdı. İstər şah, istər çar, istərsə də şahənşah dini qayda-qanunlara riayət etməli, əxlaqlı və pak olmalı, bağışlamalı, qisas almamalı, təbəələrinə qarşı mülayim rəftar etməli, səxavətli və ən başlıcası **ədalətli** olmalı idilər.

Adərbayqan şahına nisbətən Alban çarları müəyyən qədər müstəqil idilər. Bu müstəqilliyin əsas şərtlərindən biri Albaniyada xristian kilsə qanunlarının, Sasani və Adərbayqanda isə parslaşdırılmış «Avesta» qanunlarının hakim mövqedə olması idi. Hər iki dövlətdə mülkiyyət, öhdəlik, ailə və nikah, cinayət və cəza hüquqları və məhkəmə prosesi olsa da və bunlar arasında ümumi uyğunluqlarla yanaşı fərqli cəhətlər də mövcud idi. Xüsusilə Albaniyada xristian dini möhkəmləndikdən sonra bu fərqlər daha da çoxalmışdı. Bəlli olduğu kimi, sasanilər Alban əhalisini Zərdüşt dininə tabe etdirə bilməmiş, bütpərəstliyi də Alban hökmdarı III Vaçaqan bütünlüklə aradan çıxararaq ləğv etmiş və Alban kilsəsini tam müstəqil elan edərək 488-ci ildə Aquen kəndində (indiki Ağdam rayonunda) kilsə yığıncağı keçirərək 21 maddədən ibarət qanunlar toplusu qəbul etmişdi. Bu qanunlar ilə kilsə xadimlərinin hüquq və vəzifələri, ruhanilərlə zadəganlar və əhali arasında münasibətlər və sırf hüquqi məsələlər açıqlanmış oldu [55,116-117-122]. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dövlətçilik tarixində bizə bəlli olan Zərdüşt və Manidən sonra Alban hökmdarı III Vaçaqan dövlətin idarə olunması üçün yeni dövlətçilik ideyaları irəli sürmüşdür. Və III Vaçaqan Zərdüşt və Manidən fərqli olaraq konkret bir dövlətin başçısı kimi bu qanunları həm də həyata keçirmişdir. Bütün bunlar onu göstərir ki, çar III Vaçaqanın həm dünyəvi, həm də dini hakimiyyətin başçısı kimi qanunvericilik hüququ var idi. Hökmdar həm də qanunları təsdiq edən məşvərət orqanı olan divanxana yığıncağının başçısı idi. Alban dövləti artıq III Vaçaqanın dövründə mərkəzləşmiş dövlət olduğundan vahid hüquq sistemi yaradılmışdı və mərkəzləşmiş dövlət çarın fərman və sərəncamları və divanxana məclisinin təsdiq etdiyi qanunlarla idarə olunurdu.

Ümumiyyətlə, bütün feodal hüquq sistemində dini hüquq mühüm yer tutduğundan feodal dövlətlərin demək olar ki, hamısı, o cümlədən də Alban dövlətində hüquq normalarının əksəriyyəti, xüsusilə, ailə və nigah, cinayət və cəza, öhdəlik hüquqları, bir çox hallarda hətta mülkiyyət hüquqları da dini qanunlarla tənzimlənirdi. Tarixdə «Vaçaqanın elan edilən qanunları» kimi tanınan bu qanunlar toplusu uzun müddət Alban dövlətinin idarə olunmasında mühüm rol oynamışdır.

Sonralar Alban dövləti tarixdən silinsə də Alban kilsəsi Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalından

sonra da öz fəaliyyətini davam etdirmiş və nəhayət 1836-cı ildə çar I Nikolayın fərmanı ilə ləğv edilmişdir. Onun yerini erməni kilsəsi tutdu [55,117].

Alban ərazisində müsəlmanlığın yayılmasından sonra Ermənistana yaxın olan xristian albanlar erməniləşdi, Gürcüstana yaxın olanlar isə gürcüləşdi. Albaniyanın mərkəzi hissəsində yaşayan udinlər isə kilsələrini itirsələr də xristian olaraq qalmaqdadırlar.

Miladi V əsrdə sasanilərin hakimiyyəti altında olan bütün məhkum xalqlar ağır iqtisadi, milli və mədəni istismara və təhqirə məruz qalmışdılar. Azərbaycanda da bütün xalqın və xüsusilə də kəndlilərin vəziyyəti olduqca ağırlaşmışdı. Onlar feodallar və Sasani hakim təbəqələrinin zülm və istismarı altında inləyirdilər. Belə bir vəziyyətdə Məzdəkin başçılığı ilə Sasanilərə qarşı xalq hərəkatı baş qaldırdı. Bir çox tədqiqatçılar Məzdəki azərbaycanlı, hətta Təbrizli hesab edir və göstərirlər ki, «bütün alim-araşdırıcılar onun fəaliyyətə Azərbaycanda... başladığı və davam etdirdiyini mübahisəsiz qəbul edirlər. Heç bir şübhə yeri olmadan deyə bilərik ki, məzdəkilər hərəkatının mərkəzi nüvəsini Azərbaycan türkləri təşkil etmiş və onlar sosial ədalət uğrunda mübarizənin hərəkətverici gücü olmuşlar» [58,116].

Məzdəkilər hərəkatı bütün Sasani imperatorluğunu bürümüşdü. Məzdəkin xalq arasında böyük hörmət və nüfuza sahib olması onun qələbə çalmasına səbəb olmuşdu. Şahənşah I Qubadın məzdəkilərin tərəfinə keçməsi və siyasət xatirinə olsa da bu dini müəyyən vaxta qədər qəbul etməsi nəhayətdə dini hakimiyyətin məzdəkilərin ixtiyarına verilməsinə və hakimiyyətə şərik olmalarına gətirib çıxardı. Bütün əzilən təbəqələri və ayrı- ayrı xalqları fars kahin və əyanlarının zülmündən xilas etməsi Məzdəkə kahinlər-kahini rütbəsi qazandırmışdı. Məzdək şah Qubadla yan-yana taxtda otururdu. Məzdəkilərin sasanilərlə şərikli hakimiyyəti 25 ildən çox davam etdi.



Məzdək göstərirdi ki, «malı adamların arasında birləşdirib bölüşdürmək lazımdır, hamı Allah-taalanın bəndəsi, Adəmin övladlarıdır, bir-birlərinin malını xərcləməlidirlər ki, heç kəs azuqəsiz qalmasın. Hamının vəziyyəti eyni, imkanları bərabər olmalıdır [126,155]. «Allah maddi nemətləri, yeri, suyu və sairəni hamı üçün yaradıbdır. Bu nemətlər xalq arasında bərabər bölünməlidir. Lakin insanlar ədalətsizlik, zülm və boynuyoğunluq edərək zəiflərin haqqına yiyələnirlər. Buna görə varlıların malı və mülkü əllərindən alınıb yoxsullara verilməlidir. Bu fikirlər əzilmiş və məzlum kəndlilər və xalqlar arasında yayıldı. Yoxsullar varlıların mülkünə hücum edib onları alır və kasıblar arasında bölürdülər» [174,440].

Məzdək bir ideoloq idi. Ona görə də o, xəyanətlə həbs edilib 529-cu ildə edam edilsə də, 80 minə qədər Məzdək tərəfdarları qətlə yetirilsə də, onun ideyaları yaşadı və yaşamaqdadır.

Məzdək və məzdəkilərin xəyanət nəticəsində məhv edilməsindən sonra Məzdək tərəfdarları gizli təşkilatlar yaradaraq müxtəlif dövrlərdə və müxtəlif yerlərdə gizli fəaliyyət göstərmişlər. «Xüsusilə azərbaycanlılar Məzdəkin fikirlərini saxlayıb sonralar Abbasi xəlifələrinə qarşı milli azadlıq mübarizələrində onları bayraq etdilər. Əksər tarixçilər göstərirlər ki, ... Xürrəmi Babək hərəkatının nəzəri əsasları Məzdəkin fikirləri ilə sıx bağlı olmuşdur [174,446].

Məzdəkilər hərəkatı bölgədə bütün ictimai, siyasi, iqtisadi və dini münasibətlərdə bir dəyişmə, bir yenilik yaratdı. Cəmiyyətin inkişafına mane olan bir sıra ukladları darmadağın dağıtdı. «Feodal istehsal üsulu, daha doğrusu, «Asiya istehsal üsulu» özü üçün yeni əlverişli məkan və şərait tapdı» [58,118].

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində müstəsna rolu olan Bamdadoğlu Məzdəkin fikir və düşüncələri zəhmətkeş kütlələrin geniş təbəqələrinin ideologi-

yasına çevrilmiş, onun təlimi öz sosial mahiyyəti ilə geniş kütlələri (və hətta xalqları – R.Ə.) birləşdirib hakim sinfə qarşı mübarizəyə cəlb edə bilmişdi. Xalq ideologiyası olan bu təlim bir çox sosial problemləri – əmlak və hüquq bərabərliyini, maddi rifahı və s. xalqın mənafeyi mövqelərindən həll edirdi. Məzdək təliminin əsasını ilkin Zərdüştlük və Manilik ideyaları təşkil edir. Bütün bunlarla yanaşı məzdəkilik zəka və idrakla yanaşı, sərvət və onun təzahürləri olan əmlak və sosial bərabərsizliklərə qarşı mübarizəyə və hətta istismarçı hakimiyyəti zorla devirməyə çağırdı. «İnsanın azad olmasını isə Məzdək onun (İnsanın – R.Ə.) maddi nemətlərdən azad olmaq, mülkiyyətdən uzaqlaşmaq səyi ilə əlaqələndirirdi» [36,241].

Məzdəkə görə Ali varlıq dünyanı dörd qüvvənin köməyi ilə idarə edir. Bu qüvvələr insanda birləşir və fəaliyyət göstərir. Bu qüvvələri Məzdək: 1) İdrakın qüdrəti; 2) Ağlın qüdrəti; 3) Sayıqlığın qüdrəti; 4) Sevincin qüdrəti adlandırır.

Məzdək belə hesab edirdi ki, insanların bədbəxtliyinin səbəbi onların kiçik bir qrupunun həddən artıq zənginliyi, qalanlarının isə yaşamaq üçün vəsaiti olmadığından dilənç kökündə yaşamasıdır. Ona görə də mömin adam öz əmlakını dindaşları arasında bölüşdürməlidir. Məzdək insanları xüsusi mülkiyyətin məhv edilməsinə, əmlakın ictimailəşdirilməsinə, vərəsəlik hüququnun ləğv edilməsinə, əmlak və sosial bərabərlik yaradılmasına çağırdı.

Məzdəkin öz sələfləri olan Zərdüşt və Maniyə nisbətən ictimai fikir tarixinə gətirdiyi yeniliyi məhz insanları sosial ədalətsizliyə qarşı inqilabi mübarizəyə səsləməsində axtarmaq lazımdır.

Məzdəkin ideyaları hələ öz sağlığında əməli olaraq həyata keçmişdi. Məzdəkilər iri torpaq sahibi olan Sasani feodallarına hücum etmiş, onların əmlakını əllərindən alaraq yarıya bölüb hamı arasında paylaşmışlar. Orta əsr fars mənbələri Məzdəkə qarşı düşmən mövqedən yanaşsalar da bir faktı inkar edə bilməmişlər ki, «Məzdək adamların (yəqin ki, varlıların – R.Ə) əmlakını daşıyıb aparmış, hərəmxanaların örtüklərini qoparmış, sadə xalqı hökmran etmişdi» [126,193]. Məzdəkilər hərəkatı həm də Milli bir hərəkat idi. Bunu nəzərə alan bəzi tədqiqatçılar göstərirlər ki: «Biz indi qəti deyə bilərik ki, Məzdək hərəkatının iqtisadi- siyasi səbəbləri ilə bərabər, şübhəsiz, milli səbəbləri də olmuşdur» [174,44].

Məsələnin yekunu olaraq bunu qeyd etməyi lazım bilirik ki, istər zərdüştlük, istər manilik və istərsə də məzdəkilik Azərbaycanda bir çox bidətçilik cərəyanlarının ideya mənbəyi oldu, onların ərəb xilafəti, feodalizm əleyhinə yönəlməsini şərtləndirdi. Bu cərəyanlar «Avropada (və Şərqdə – R.Ə.) fəlsəfi və ictimai fikrin formalaşmasına da böyük təsir göstərmişdir. Məsələn, Manilik İtaliyada katarlar, Fransada isə albiqoylar bidətinin, Məzdəkin xüsusi mülkiyyətin məhv edilməsi, əmlakın ümumiliyi ideyaları Avropada... utopik sosialistlərin ideya mənbəyi olmuşdur» [104,28].

VIII əsrin 30-cu illərində Əməvilər Azərbaycanı işğal edərək ərəb xilafətinin tərkibinə daxil etdilər. Beləliklə, Azərbaycanın cənubu sosial-siyasi, mədəni və iqtisadi cəhətdən ərəb xilafətinin və deməli, İslam dininin təsir dairəsinə düşür. Artıq bu dövrdən başlayaraq Azərbaycanın cənubunda ərəb xilafətinə qarşı xürrəmilər hərəkatı başlayır. İyirmi ildən çox (bəzi müəlliflərə görə 60 ildən çox) [42,256] davam edən bu xalq hərəkatı və daha doğrusu, azadlıq müharibəsi dünyaya meydan oxuyan bir imperatorluğu sarsıdaraq Abbasilər xilafətinin ayrı-ayrı dövlətlərə parçalanmasını şərtləndirdi. Babəkin adı ilə də adlandırılan bu azadlıq müharibəsi «Azərbaycan xalqının tarixinə şanlı səhifələr yazaraq, onun azadlıq sevər ruhunu, yadelli əsarətə boyun əyməməsini, öz istiqlaliyyəti uğrunda mübarizə əzmini göstərdi» [104,38]. Xürrəmilər hərəkatı və Babək haqqında istər orta əsr və istərsə də müasir tarixşünaslıqda ətraflı və bir çox hallarda qərəzli məlumatlar verildiyindən [126;41;42] biz yalnız onu qeyd edirik ki, xürrəmilik özünə

qədərki zərdüştlüyü, maniliyi, bir çox bidətçilik təlimlərini və ən başlıcası məzdəkiliyi ideyaca özündə birləşdirirdi. Bu xüsusiyyəti orta əsr müəllifləri də qeyd etmişlər. Belə ki, həm Nizamülmülk, həm də İbn əl-Əsir qeyd edirdilər ki, xürrəmilik, bidətçilik (İslama müxalif təlimlər, məsələn, mötəzilik, ismaililik, səfa qardaşları və s. kimi dini fəlsəfi cərəyanlar) və məzdəkiliklə əlaqədardır [126,166;104,39].

Xürrəmiliyə görə, insanları köləlik və hüquqsuzluğa məhkum edən bütün sosial ədalətsizliklər, əmlak bərabərsizliyi, feodal əsarəti və xarici hökmranlıq ləğv edilməli, ədalət bərqərar edilməli, əmlak bərabərliyi tətbiq olunmalıdır. Bütün bunlar məzdəkiliyin təbliğ etdiyi təlimin yeni anlamda inkişafı demək idi. Digər bidətçi təşkilatlardan fərqli olaraq Babək hərəkatı öz mahiyyətinə görə həm də milli azadlıq hərəkatı idi. Çünki bu hərəkatda kəndlilərlə, sənətkarlarla yanaşı feodallar da yaxından iştirak edirdilər. Tədqiqatçıların da qeyd etdiy kimi, «Azərbaycanın istiqlaliyyətini bərpa etmək, onu yadellilərin (ərəblərin-R.Ə.) tapdağından qurtarmaq xürrəmilərin əsas idealı idi. Xürrəmilər İslamın ehkamlarını rədd edir və Azərbaycan ayinlərini ona qarşı qoyurdular» [42,258].

Babək hərəkatı müstəqil bir Azərbaycan dövlətinin yaranması, tarixi ədalətin bərpa edilməsi ilə nəticələnməsə də o, nəhəng bir xilafətin — sasani imperatorluğunu tarix səhnəsindən silən, Bizans kimi əzəmətli bir imperatorluğu qorxu altında saxlayan, öz hüdudlarını Afrika, Orta Asiya və Qafqaza qədər genişləndirən bir imperatorluğun əsaslarını sarsıdaraq onun dağılmasına rəvac verdi. IX əsrin birinci yarısından etibarən xilafətdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra xırda feodal dövlətlər meydana gəldi» [42,269] ki, bunların ən başlıcaları Azərbaycanın Şivanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri idi. Xürrəmilər dövlət qura bilməsələr də, 60 il mübarizə apara-apara azad yaşadılar, tarixə əzəli örnək oldular. Ən başlıcası, mübariz Babək hərəkatı əsrlər boyu yadelli imperiyalar arasında bölüşdürülən, əsarət altında olan Azərbaycanda tarixən sonralar milli-müstəqil dövlətçilik məfkurəsinin formalaşmasında müstəsna rol oynadı.

Xürrəmilik uzun müddət bir çox bidətçi dini-fəlsəfi cərəyanların ideya qaynağı olmuşdur. Bunlardan ən məşhuru kimi müsəlman alimlərinin X əsrin ortalarında Bəsrədə ortadoks islama qarşı yaratdıqları «İxvan əs Səfa və Xüllan-əl-vəfa» («Saflıq qardaşları və vəfa munisləri») adlı cəmiyyəti göstərmək olar. Bu cəmiyyətin 52 traktatdan ibarət «Risalələr»inin mühüm birinin müəllifi cəmiyyətin görkəmli xadimi, azərbaycanlı Əbdülhəsən Əli ibn Harun əz-Zəncanidir» [215,10;219,93].

Öz ideya qaynağını ilkin zərdüştülük, manilik, məzdəkilik, babəkilik kimi təfəkküründən, Yunan və Şərq fəlsəfəsindən alan bu bidətçilik dini - fəlsəfi cərəyanları, xüsusilə Azərbaycan türkü Əbdülhəsən Zəncaninin də üzvü olduğu «Saflıq qardaşları» cəmiyyətinin idarəçiliklə bağlı fikir və mülahizələri orta əsr feodal dövlətçiliyinin islami əsaslarını sarsıdırdı. Onlar da öz sələfləri bütün qədim və orta əsr mütəfəkkirləri kimi idarəetmə elmini ilahiyyat elminin bir növü sayır və idarəçiliyin beş növünü göstərirdilər. Bunlar: 1) dini idarəçilik (buna peyğəmbər idarəçiliyi də deyirdilər — R.Ə.); 2) çar (hökmdar, şah və s.) idarəçiliyi; 3) insan birliklərinin idarəçiliyi; 4) xüsusi idarəçilik və 5) şəxsi idarəçilik idi.

Onların fikrincə, «peyğəmbər idarəçiliyi qanunların, xüsusilə, xeyirli qaydaların və pak adətlərin meydana çıxmasını, ruhi aləmdə zərərli adətlərin və ədalətsizliklərin, qüsurlu etiqadların və mənasız görüşlərin kökünün kəsilməsini, bu ruhi aləmi xoş rəylə, gözəl adətlər və pak işlərlə sağlamlaşdırmağın üsullarını bilməkdən ibarətdir» [104,35].

«Saflıq qardaşları» cəmiyyətdə idarəçiliyi humanist, insani prinsiplər əsasında həyata keçirilməyin tərəfdarı olmuşlar. Tədqiqatlarda da haqlı olaraq belə bir cəhətə fikir

verilir ki, «Saflıq qardaşları»nın idarəetmə təliminin əsasında ədalətlilik prinsipinin qorunması dayanırdı və bu da təbiidir ki, feodal-silki mühitdə «xalq kütlələrinin mənafeyini ifadə» etmək demək idi.

Tədqiqat boyu bir daha yəqin olacaq ki, Azərbaycan dövlətçiliyi ilə bərabər onun daha da təkmil və kamil olması haqqında fəlsəfi fikirlər də tarixi zaman kəsiyində inkişaf etmiş, cilalanmışdır.

### § 2. Abbasilər xilayfətinin dağılması ərəfəsində Azərbaycan dövlətçilik ənənəsinin bərpası və inkişafı.

Abbasilər xilafətinin dağılması ərəfəsində Azərbaycanda yaranmış ilk müstəqil feodal dövləti Şirvanşahlar oldu (861-1080). Bəzi tarix kitablarında bu dövləti idarə edənləri «Məzyədilər, Şeybanilər və ya Yezidilər» də adlandırırlar [55,214].

Şirvanşahlar dövlətinin yaranması Azərbaycanın tarixi dövlətçilik ənənəsinin bərpası demək idi. Bundan sonra bir-birinin ardınca Azərbaycanda yaranmaqda olan feodal dövlətləri ərəb xilafətinin hakimiyyətindən imtina edərək özlərinin istiqlaliyyətinə nail olurdular [42,273]. Onlardan ən nüfuzlusu Azərbaycanın güneyində türk əsilli Sacilər (889-942), Salarilər (942-981), Rəvvadilər (981-1054), quzeydə isə Şəddadilər (971-1088) dövləti [55,214] Səlcuqların Azərbaycana gəlişinə qədər təqribən 230 il ərzində bir-birlərini əvəz etsələr də Azərbaycanın dövlətçiliyini, onun ərazi vahidliyini qoruyub saxlaya bildilər.

Tədqiqatımızın mövzusu Azərbaycan dövlətçiliyinin tarixi fəlsəfəsini araşdırmaq olduğundan, biz yalnız görkəmli Azərbaycan filosof və mütəfəkkirlərinin dövlət və dövlətçiliklə bağlı ictimai-siyasi fikir və mülahizələrni tədqiqata cəlb etmişik.



Yaxın Şərqdə, o cümlədən Azərbaycanda da «orta əsrlər» adlı on beş yüzildən çox böyük, həm də olduqca mürəkkəb, lakin zəngin bir ictimai-mədəni mərhələ daxilində təbiidir ki, tarixi inkişafın fasiləsizliyi qanunu pozula, uzun müddətli durğunluq halları da hakim olmaya bilməzdi. Lakin inkişaf obyektiv olaraq orta əsrlərin öz tarixi zaman hədləri daxilində və bəzən də bu sədləri məzmun baxımından aşaraq davam edirdi. Bunu XII-XVIII əsrlər Azərbaycan fəlsəfi, ictimai-siyasi və ədəbi-bədii fikrinin dövlətçilik məsələləri ilə əlaqədar inkişafından da aydın görmək olur. Onu da əlahiddə vurğulamaq lazım gəlir ki, bu dövr bütövlükdə Azərbaycan tarixində, eləcə də onun mədəniyyətində, fəlsəfi, ictimai-siyasi fikrində çox mühüm bir epoxanı təşkil edir.

XII əsrlə Azərbaycan mədəniyyətində və xüsusən ədəbiyyatında ciddi dönüş mərhələləri başlanır. Təşəkkülü VII-VIII əsrlərdə başa çatmış Azərbaycan xalqı məhz XII əsrdən etibarən ağır itkilər və məhrumiyyətlər bahasına da olsa belə, bir sıra mühüm uğurlara müvəffəq ola bilir. Təsadüfi deyildir ki, tədqiqatçılar Azərbaycanda intibah-renessans epoxasını XII əsrlə bağlayır [80,45]. Araşdırılması xüsusi fundamental tədqiqatın mövzusu olan bu problemlə bağlı onu qeyd etmək istərdik ki, XII əsrdən başlayaraq bugünkü anlamda deyilən milli ruh, yəni başqa sözlə «özününkü» olana meyillər təzahür etməyə və getdikcə dünyagörüşlərə tədricən də olsa belə hakim kəsilməyə başlayır. Bu dövrdə Azərbaycanın Şamaxı, Gəncə, Təbriz, Bakı kimi böyük iqtisadi-hərbi əhəmiyyətli tranzit şəhərləri həqiqətən öz Renessans həyatını yaşayırdılar. Şəhər həyatının çiçəklənməsi ilə yanaşı, xarici və daxili ticarət əlaqələri də artmış, pul dövriyyəsi genişlənmişdi. Maraqlı burasıdır ki, ölkənin əsas dövlətləri olan Eldəgizlər də, Şirvanşahlar da öz adlarına pul kəsirdilər [27,284].

XII əsrdə Azərbaycanın möhürü basılan pullar indi dünyanın bir çox muzeylərini bəzəyir.

Bəhs edilən dövrdə Şərqin və Qərbin əsas ticarət mərkəzlərini birləşdirən karvan yollarının məhz Azərbaycandan keçib getməsi cəmiyyətdə dərin iz buraxmaya bilməzdi. Şirvanşahlar və Eldəgizlər hakimiyyətinin siyasi qüdrətinin artması, ticarətin, sənətkarlığın sürətli inkişafı, xarici ölkələrlə əlaqələrin genişlənməsi şəhər həyatının tərəqqisi üçün münasib imkanlar yaradırdı. Maarif və mədəniyyətin dövlət səviyyəsində müəyyən dərəcədə himayə edilməsi müsbət hal idi. Bu kimi hadisələr sonrakı əsrlərdə də müşahidə olunur.

Ancaq ümumi şəkildə olsa da qeyd etmək lazımdır ki, Azərbaycan tarixinin olduqca mühüm və böyük bir dövrünü əhatə edən XII-XVIII əsrlər üçün əlamətdar cəhətlərlə yanaşı, çoxlu ziddiyyətli, məhrumiyyətli, keşməkeşli anlar da səciyyəvidir. Həmin yüzilliklərdə Azərbaycan öz tarixinin son dərəcə təzadlı dövrünü keçirirdi. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvilər dövlətinin yaranması, türk dilinin ilk dəfə olaraq rəsmi dövlət dili statusu qazanması milli dövlətçilik ənənəmizin böyük tarixi nailiyyəti, parlaq səhifəsidir. Lakin nə qədər acı olsa da, bu da bir həqiqətdir ki, uzun illər davam edən məlum Oşmanlı-Səfəvi-Rusiya çəkişmələri nəticəsində Azərbaycan torpaqlarının iki dəfə bölüşdürülməsi (birinci dəfə 1590, ikinci dəfə 1723-1724-cü illər) hadisəsi də həmin dövrə təsadüf edir [155, 201-211]. Və tarixdən o da bəllidir ki, böyük Azərbaycan Səfəvi dövlətinin süqutundan sonra XVIII yüzildə ölkədə xanlıqlar formasında kiçik müstəqil dövlətlər yaranır. Lakin burada olduqca önəmli olanı budur ki, 1828-ci il Türkmənçay müqaviləsi ilə rusların tam işğalınadək Azərbaycan sarsıdıcı və dağıdıcı yadelli basqınlara nə qədər məruz qalmış olsa da, özünün müstəqil dövlətçilik ənənəsini, vahidliyini qoruyub saxlaya bilmişdir. Bu isə Azərbaycanın olduqca qədim və dərin köklərə malik dövlətçilik qüdrətindən xəbər verir. XII-XVIII əsrlərdə mühüm təbəddülatlara uğramaqla bərabər Azərbaycan dövlətçiliyinin siyasi qüdrəti də artmışdır ki, bu da öz növbəsində zaman-zaman yeni-yeni milli dövlətçilik ideyalarının təşəkkülü və gerçəkləşməsi üçün əlverişli zəmin hazırlamışdır.



Tarixdən bəllidir ki, XI əsrin birinci yarısından başlayaraq tarix səhnəsinə qədəm qoyan səlcuqlular Orta Asiyadan Aralıq dənizi sahillərinə, Dərbənd keçidindən Bəsrə körfəzinə qədər əraziləri əhatə edən Böyük Səlcuq İmperatorluğunu yaratdılar. Səlcuqlular «ümumdünya tarixinin gedişinə fəal təsir göstərmiş, Yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmışdır» [55,273-285]. Bu izlər Azərbaycanda da özünü göstərmiş, Azərbaycanın ictimai-siyasi, həyatında mühüm yer tutmuşdur Səlcuqlulardan sonra Azərbaycanda ədəbi-bədii və hətta dövlət dili türk dili olmasa da, regionda ümumi ünsiyyət vasitəsi türk dili olmuşdur. Səlcuqlulardan sonra Azərbaycanda min illik türk səltənəti bərqərar olmuşdur. Bu min illik dönəmdə Azərbaycanda Atabəylər, Şirvanşahlar, Hülakilər (Elxanilər - R.Ə.), Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar və Qacarlar kimi dövlətlər tarixə öz möhürünü vurmuş, Azərbaycan dövlətçilik ənənəsini qoruyub saxlamışlar.

Ayrı-ayrı islahatçı hökmdarların bəzi əlavə və dəyişikliklər nəzərə alınmazsa, bu dövlətlərin hamısı feodal dövlət quruluşuna xas idarə olunmuşdur. Bəzi kiçik istisnalar olmaqla bu feodal dövlətlərin hamısının ictimai və dövlət quruluşları, mülkiyyət formaları, vergi, hüquq və məhkəmə sistemi, ailə və nikah məsələləri, vərəsəlik hüquqları, cinayət və cəza və dövlətə məxsus digər məsələlər arasında elə bir əsaslı fərq olmamışdır. Azərbaycanın feodalizm dövründə idarəçilik sistemi, dövlət və hüququna aid əsərlərdə bu məsələlər geniş şərh edilmişdir [40;143;144].

Bu əsərlərdə Azərbaycanın 1500 illik dövlət və hüquq sistemi, mərkəzi hakimiyyət və idarəetmə orqanlarının strukturları, dövlət və dinin əlaqəsi, feodal əyanları, məşvərət şuraları, əyalət, mahal və şəhərlərin idarəçilik struk-

turları, onların mülki və inzibati orqanları, vergi və mükəlləfiyyətlər, məhkəmə orqanlarının hüquq və səlahiyyətləri, şəriət və mülki məhkəmələr, ailə və nikah məsələləri, ordu quruculuğu, kəndlilərin, sənətkarların hüquqi vəziyyətləri və s. ətraflı təhlil edilmiş, müəyyən nəticələr əldə edilmişdir.

Bu əsərlərin təhlili göstərir ki, bu dövlətlərdə ən mühüm fərq ölkənin ərazi bölgüsü və terminologiyalarda olmuşdur ki, bu da təbiidir. Çünki bu dövlətlərin bəzisi ərazi və etnik cəhətdən müxtəlif olmuş, bəzisi kiçik dövlətlər, digəri isə imperatorluqlar olmuşlar. Şübhəsiz ki, nisbətən kiçik dövlətlə imperatorluqların istər sosial, istər hakimiyyət quruluşu, istər ərazi bölgüsü, mülkiyyət formaları, istərsə də vergi, hüquq və məhkəmə sistemi baxımından müəyyən fərqlər olmuşdur. Hər halda bu dövlətlərin hamısı həm də müsəlman dövlətləri olduğundan onlar İslam hüququna əsaslanmış, ayrı-ayrı idarə sistemləri yerli sistemlərlə birləşdirilərək təkmilləşdirilmişdir. Bu xüsusiyyət daha çox Səlcuqlular, Elxanilər və Teymurilər imperatorluqlarında özünü göstərmişdir.

Orta əsrlər Azərbaycanın ilk peşəkar filosoflarından olan Əbülhəsən Bəhmənyarın (993-1066), Eynəlquzat Miyanəcinin (1099-1131), Əbuhəfs Sührəverdinin (1154-1191) və b. dəyərli fəlsəfi əsərləri dövlətçilik ənənələrimizə də müəyyən mənada işıq salır. Adı çəkilən filosofların dövlət və dövlətçilik haqqındakı fikir və mülahizələri tam şəkildə əlimizdə olmadığından biz onların fəlsəfi dünyagörüşlərindən qısa şəkildə bəhs edəcək, bizə bəlli olan dövlətçiliklə bağlı ictimai-siyasi görüşlərini şərh etməyə çalışacağıq.

Orta əsrlərdə müsəlman şərqində üç böyük fəlsəfi cərəyan olmuşdur. Bunlardan biri dini-fəlsəfi, digəri elmi-fəlsəfi, üçüncüsü isə bunları birləşdirməyə çalışan averroizm cərəyanıdır. Bu cərəyanlardan da müxtəlif ideoloji təlimlər yaranmışdır.



Şərq peripatetizmi orta əsrlərdə elmi-fəlsəfi təlimlərdən birincisi olub Aristotel fəlsəfəsi və başqa antik fəlsəfi ənənələr əsasında işlənib hazırlanmışdır. Şərq peripatetikləri fəlsəfəni iki qismə bölmüşlər: 1) nəzəri fəlsəfə, 2) əməli fəlsəfə. Nəzəri fəlsəfəyə onlar şeylərin varlığının hallarından bəhs edən metafizika, fizika və riyaziyyatı, əməli fəlsəfəyə isə insan fəaliyyəti ilə nəzərdən keçirilən etika, şəhərin, xalqın idarə edilməsi, mənzil-məişət tədbirləri və ən başlıcası dövlətin idarə edilməsi daxildir.

Şərq peripatetizminin mükəmməl sistemini böyük türk filosofu, Aristoteldən sonra «ikinci müəllim» sayılan Əbunəsr Fərabi ət-Türki yaratmışdır. Bu fəlsəfi təlimin Azərbaycanda ilk nümayəndəsi Bəhmənyar olmuşdur [108]. Azərbaycan məntiq elminin banisi sayılan Bəhmənyar «Ət-Təhsil» adlı fəlsəfi traktatında öz müəllimi İbn Sinadan fərqli olaraq əməli fəlsəfəni əsasən əxlaqi xeyirxahlıq mənasında şərh etməyə çalışmışdır. Təbiidir ki, Bəhmənyar öz dövrünün fəlsəfi ideoloqu idi. Ona görə də onun təliminə görə mövcud ictimai quruluş təbiidir. O, xüsusi mülkiyyəti müdafiə etmiş və onu yaşadığı cəmiyyətin zəruri əlaməti saymışdır. Məhz bu xüsusiyyətlərinə görə də marksistlər tərəfindən tənqid edilmiş və göstərilmişdir ki, «Bəhmənyar öz dövrü üçün qabaqcıl fəlsəfi ideyaları inkişaf etdirsə də, siyasət sahəsində o, mütərəqqi deyildi» [104,45].

Mütəxəssislərin haqlı olaraq Azərbaycanın intibah-renessans dövrü kimi adlandırdıqları XII əsrdə ölkənin canlanması, inkişafı sosial-iqtisadi sahədə olduğu kimi, ictimai-siyasi, fəlsəfi və bədii yaradıcılıq sahəsində də özünü göstərdi. Həmin dövrdə sırf fəlsəfi və elmi əsərlər ərəbcə, ədəbi-bədii əsərlər isə farsca yazılsa da, Azərbaycana məxsus cəhətlər qabarıq nəzərə çarpmağa başlayır [98,87-91]. Ağıllı dövlət başçıları tərəfindən ölkədə elmin, fəlsəfənin və ədəbiyyatın inkişafına xüsusi diqqətin yetirilməsi bəhrəsini verməyə bilməzdi. Bütün bunların nəticəsidir ki, bu dövrdə

yazıb-yaradan sənətkarlar təkcə Azərbaycanın deyil, bütün sivill dünyanın iftixarı sayılır.

Bu dövr Azərbaycan dünyaya Fələki Şirvani (1108-1146), Əfzələddin Xaqani (1126-1199), Nizami Gəncəvi (1141-1209) və o dövr üçün dünyada analoqu olmayan qadın şairə Məhsəti Gəncəvi kimi şair-filosoflar, Eynəlqüzat Miyanəci kimi böyük filosof, panteist mütəfəkkir Əbuhəfs Sührəverdi kimi görkəmli filosof, hüquqşünas alim, «İşraqilik» fəlsəfəsinin banisi sufizm nəzəriyyəçisi və ictimai-siyasi xadim Şihabəddin Sührəverdi kimi böyük filosof bəxş etmişdir.

Orta əsr müsəlman Şərqinin, o cümlədən də Azərbaycanın mühüm ideoloji-fəlsəfi cərəyanlarından biri də sufizmdir. Şərq sufizmi mötədil və ifrat olmaqla ikiyə ayrılır. Mötədil sufizmi ortodoksal islama uyğunlaşdıran ilk sufi Əbuhamid Qəzalidir. Sufizm fəlsəfəsinin mükəmməl panteist sistemini yaradan isə böyük Azərbaycan filosofu, panteist mütəfəkkir Eynəlqüzat Miyanəcidir (1099-1131). Panteist görüşlərinə görə 32 yaşında ikən ruhanilər tərəfindən dərs dediyi mədrəsədə qətlə yetirilən Eynəlqüzat Miyanəci «Həqiqətlərin məğzi», «Müqəddimələr», «Qəribin şikayəti» və s. bir çox qiymətli fəlsəfi əsərləri ilə yanaşı çoxlu rübailərin də müəllifi idi» [151,153;55,253-254].

Azərbaycan filosoflarından mötədil sufizmin ən görkəmli nümayəndəsi, sufizmin nəzəri-praktiki əsaslarını işləyib hazırlayan Şihabəddin Əbuhəfs Sührəverdi təsəvvüfdə panteist təsəvvürü rədd etmiş, əsərlərində sufilərin əxlaq normalarının, mənəvi keyfiyyətlərinin, davranış qaydalarının müfəssəl şərhini vermiş, insanın mistik özünü-kamilləşdirməsinin yollarını göstərmişdir [107,112-122].

Mütəxəssislər göstərirlər ki, «Azərbaycanda, xüsusən XII-XVIII yüzilliklərdə sufilik ictimai həyat, sinfi mübarizə sahələrindən tutmuş, ədəbiyyat və sənətdə də özünü müəyyən formada müxtəlif məzmunda göstərmişdir... Sufilik əsasən İslam dini ilə bağlı yaransa da, çox keçmədən müxtəlif ölkələrdə yeni-yeni məzmun qazanmış..., məntiqi baxımdan məzmunca hakim ideologiyaya əks mövqe tutmuşdur. Bu isə mövcud hakimiyyətin əleyhinə olduğundan, bir çox sufi alim, şair və sənətkarlar müxtəlif yollarla məhv edilmişdir» [57,180].

Çox qəribədir ki, elm aləmi hələ indiyə qədər «sufi» sözünün mənşəyini müəyyənləşdirməkdə ümumi bir fikrə gələ bilməmişdir. Halbuki ömrünü sufizmə xidmətə həsr edən Kiçik və Orta Asiya, Azərbaycan, İran, Ərəbistan və hətta Hindistanda geniş yayılan «Sührəverdiyyə» adlı ordeni qazanan Sədi Şirazi, Nəcibəddin Bozquş Şirazi, Kəmaləddin İsfəhani, Məhi Ərdəbili və s kimi məşhur şəxsiyyətlərin mürşidi olmuş Şeyx Əbuhəfs Sührəverdi açıqca qeyd etmişdir ki, «Sufi» sözü türk sözüdür (Əs-Sufi ismin türkiyyin) [57,183].

Müsəlman Şərqində peripatetizm və panteizm təlimlərindən sonra ən geniş yayılmış elmi-fəlsəfi təlimlərdən biri də böyük Azərbaycan filosofu Şihabəddin Yəhya Sührəverdi tərəfindən əsası qoyulmuş «İşraqilik» təliminə görə, işıqlardan və onun kölgələri olan maddi varlıqlardan təşəkkül tapmış bütün mövcudat və o cümlədən də dövlətlər mütləq işıq olan «İşıqlar işığından - Nur əl-ənvardan işıqsaçma» (emanasiya - R.Ə.) yolu ilə zəruri surətdə mərhələ-mərhələ vücuda gəlmişdir [107,153-154].

Onun fəlsəfəsində mütərəqqi ictimai-siyasi ideyalar əsas yer tutur. Filosof haqsızlıqlara və ədalətsizliklərə qarşı çıxaraq şeirlərində bədxah insanları əjdaha və ilanlara bənzətmişdir. Onun fikrincə, xalqa öz dövrünün bütün zəruri biliklərinə yiyələnmiş, mənəviyyatca kamil, düzgün yol göstərən layiqli adam başçılıq etməlidir. Əgər siyasət belə bir adamın əlində olarsa, zaman işıqlı olar [151,20].

«Şihabəddin Sührəverdi insanlar arasında ayrı-seçkilik qoymur, ictimai bərabərlik ideyası təbliğ edirdi» [140,96].

Şihabəddin Yəhya Sührəverdinin orijinal fikir və mülahizələri təkcə özündən sonrakı Şərq filosoflarına deyil,

Qərb mütəfəkkirlərinin də baxışlarına təsir göstərmişdir» [151,20].

Bütün bunlar onu deməyə əsas verir ki, haqlarında qısa şəkildə bəhs etdiyimiz bu böyük Azərbaycan filosofları sırf dövlətçiliklə bağlı əsərlər yazmasalar da, onlar ictimai-siyasi fikrin inkişafında əhəmiyyətli rol oynamışlar.

XII əsr Azərbaycan mədəniyyətinin intibahına dəlalət edən ən böyük nailiyyətlərdən biri, dünya hikmət xəzinəsinin əvəzolunmaz töhfələrindən hesab edilən poetik fəlsəfənin təşəkkül tapmasıdır. Xaqani, Nizami, Nəsimi, Füzuli yaradıcılığı poetik fəlsəfənin, ümumiyyətlə, Mirzə İbrahimovun vaxtilə dediyi kimi, «nəinki Azərbaycan, həlkə də bütün dünya Renessansının parlaq səhifəsini təşkil edir» [80,16].

Tədqiqatçılar bunu da tamamilə haqlı olaraq qeyd edirlər ki, «Azərbaycan Renessansının önündə Nizami Gəncəvi gedirdi» [26,56]. Özünün ölməz dahi «Xəmsə»sində ədalətli hökmdar obrazını yaratmaqla Nizami Gəncəvi dövlətçilik ideyalarının humanizm müstəvisində təşəkkülünə rəvac vermiş olur. Bu da, əlbəttə ki, Azərbaycan ictimai-fəlsəfi fikrinin mühüm nailiyyətlərindən hesab olunmalıdır.

Ümumiyyətlə, tədqiqatçıların böyük əksəriyyəti «müxtəlif ölkələrdə, müxtəlif dövrlərdə, müxtəlif rənglərlə təzahür etmiş renessansların ümumi məzmununu, əsas mündəricəsini onun humanizmində görürlər» [80,13]. Belə ki, renessans filosofları, ədibləri, rəssamları dini və dünyəvi məsələlərin müzakirəsində həmişə insan problemini ortaya atır, onun kamil gözəlliyini əks etdirməyə çalışır, insan üzərində dinin, dövlətin ağalığını rədd edir, haqsızlığı, zülmü qamçılayır, azadlığı insanın təbii hüquqlarından sayırdılar.

XII əsr Azərbaycan poeziyasındakı humanizm ideyaları diqqəti xüsusilə cəlb edir. Bu dövr ədəbiyyatın mərkəzində insan, onun ətraf aləmlə ünsiyyəti, mühit və insan, cəmiyyət və insan problemi dairəsində insani gözəlliklərin, xeyirxahlığın, qayğıkeşliyin və i.a. tərənnün edilməsi səciyyəvi haldır. «Mücirəddin Beyləqani, Fələki Şirvani, Məhsəti, Xaqani, Nizami şeiri öz ilkin istiqamətini bu məhvərdən alır və buraya da qayıdır, bu estetik anlayışda mərkəzləşir. Lakin əlbəttə ki, müxtəlif yollarla» [26,48]. Bu «yollara» tədqiqatın məqsəd və vəzifələri dairəsində nəzər salmaq yerinə düşər.

XII əsr Azərbaycan ictimai-siyasi, bədii-fəlsəfi fikrinin inkişafında mühüm rol oynayan şəxsiyyətlərdən biri də Əfzəəddin Xaqani Şirvanidir. Dünya klassikləri içərisində Xaqani nadir simalardan biridir ki, zəmanəsinin gərgin mübarizələri ilə sıx bağlı olmuş, bütün yaradıcılığı boyu əsərlərində «zəhmətkeş xalq kütlələrinin həyatını, psixoloji aləmini, həyat fəlsəfəsini, arzu və istəklərini, zalımlardan çəkdiyi əzabları əks etdirmişdir» [72,8]. Yaradıcılığının ilk illərində şahları, əyanları mədh edən şair tezliklə bu işdən əl çəkmiş, bütün ömrü boyu sarayın siyasi, əxlaqi həyatının düşməni olmuş və bununla da zindana salınmış, həbsdə də «Həbsiyyə» kimi dəyərli bir əsər yazmışdır.

Xaqani əsərlərində müstəbid şahların qanlı səltənətinin bir gün mütləq puç olacağı və bundan ədalətli hakimiyyət naminə ibrət dərsi almağı fikrini də cəsarətlə irəli sürür.

Biz ədl sarayıkən zülm ilə xarab olduq,
Zalimlər olan qəsrə, gör neyləyəcək dövran

Və ya:

Ədalət axtaran olmalı şahlar,
Zülmkar hökmdar çox az yaşar [72,12-45].

O, həm öz zəmanəsi və həm də ictimai zülmə əsaslanan bütün quruluşlar üçün səciyyəvi olan bir çox sağalmaz yaraları da cəsarətlə açıb göstərmişdi:

Dövlət adamları oğrudur tamam,
Rüşvətlə dolanır hakimlər müdam. [72,37-38] – deyirdi

Əvvəllər şair şahları mədh edərək, onlarda olmayan keyfiyyətləri onlara aid etməklə ədalətə səsləmiş və belə güman etmişdi ki, onları nəsihət yolu ilə haqqa qətirmək olar. Bu münasibətlə şairin Şirvanşah Mənuçöhrə, Şirvanşah Axsitana, Eldəniz Qızıl Arslana həsr etdiyi mədhiyyələrdə bu açıq-aydın qörünməkdədir. Lakin çox keçmir ki, şair öz gümanında yanıldığını, hökmdarların mədh və nəsihət yolu ilə islaholunmazlığını yəqin edir.

Əməldə bir mələkdir, döyüşdə aslandır o,
Turanı fəth eyləyən Rüstəmi-dastandır o.
...Şir nişanlı bayrağı dövlətinin rəmzidir,
Bütün Əcəm mülkünü qılıncıyla fəth edir.
Əvvəllər şahları mədh etdiyimçün,
Dilim bulanmışdı çirkaba bütün [72,124-125-127].

Xaqani çəmiyyətdəki bütün naqisliklərin səbəbini hökmdar, onun saray əyanları, yerlərdəki nümayəndələrində, deməli «qanun-qaydanın itdiyi», «dinclik və asudəliyin» olmadığı ədalətsiz ictimai quruluşda qörür [72,29-55].

Xaqani əsərlərində «dünya», «cahan», «dövran», «fələk» anlayışlarını ictimai şəraitlə bağlamış, yaşadığı cəmiyyətdəki haqsızlıqları, ədalətsizlikləri, cəhaləti tənqid etmişdir. O yaşadığı mühitdəki özbaşınalığı, feodal zülmü və zorakılığını kəskin tənqid edərək muasiri olduğu cəmiyyəti «zülm evi», «ədalətsizlik məskəni», «zorakılıq yuvası və riyakarlıq qalası» adlandırmışdır.

Xaqani bir çox əsərlərində hökmdarlara xalqın taleyini yünqülləşdirə bilən siyasətin həyata keçirilməsi ilə bağlı məsləhətlə müraciət etmişdi. O, hökmdarları öz xalqına qayğı göstərməyə çağırırdı. Şair gec-tez yer üzündə ədalətin bərpa olacağına inanırdı. Mütəfəkkirə görə, bu arzunu ağıllı, maarifpərvər və ədalətli hökmdarın əli ilə həyata keçirmək olar. Maarifçi, ədalətli hökmdar onun idealı idi. Məhz belə bir dövlət forması şair-mütəfəkkirə yeganə əlverişli və təbii forma kimi görünürdü. Şairin «Ədalətlə rəftar elə adın qalsın yadigar» [72,218], «Yaşa, xalqın rifahına çalış, qazan əbədiyyət» kimi fikir və mülahizələri məhz ədalətli şah axtarışlarının nəticəsi idi.

O taxt ki, insaf üçün insanlığa dayaqdır,
insanlara, canlılara sayəsi sığınacaqdır. [72,219]

Təbiidir ki, İslam dini Xaqani yaradıcılığına da öz qüvvətli təsirini qöstərmiş, onun ictimai-siyasi görüşlərində və fəlsəfi ideyalarında dərin izlər buraxmışdır. Şairin ictimai-siyasi görüşlərindən fərqli olaraq, onun fəlsəfəyə münasibətində Qəzalının müsəlman təəssübkeşliyi hiss olunur [228,100-111].

Sələfi Xaqanidən zəmanəyə qarşı «üsyankar ruhu» əxz etmiş böyük Nizami [80,55] orta əsr Azərbaycan fəlsəfi poeziyasının ən yüksək zirvəsinə qalxa bilmiş, Azərbaycan renessansının önündə getməyə müvəffəq ola bilmişdir. Nizamişünaslar çox haqlı olaraq dahi mütəfəkkir şairi nəinki orta əsr Azərbaycanın, həm də bütün müsəlman Şərqinin ən böyük, həm də həmişə yaşar nümayəndəsi hesab edirlər.

Böyük mütəfəkkir bütün əsərlərində mənəvi kamillik, əməksevərlik, insanpərvərlik və başqa yüksək əxlaqi keyfiyyətlərlə yanaşı ən çox ədalətli hökmdar və ideal siyasi quruluş üzərində dayanmışdır. Şahlığın nüvəsini **ədəbdə**, adillik nişanəsini **xeyirxahlıqda**, ən böyük xəzinəni xalqa xidmətdə görən mütəfəkkir şair dövrünün hökmdarlarını **ədalətə** səsləyirdi.

Dünyada zülm etmək qoçaqlıq deyil,
Rəiyyət bəsləmək çox yaxşıdır bil [123,317]

Bütün əsərlərində əməkçi insanların arzu və istəklərinin ifadəcisi kimi çıxış edən Nizami feodal cəmiyyətinin əsas nöqsanı və bəlalarının səbəbini ədalətsizliyə, zorakılığa,

zülmə, qarətə rəvac verən hökmdarların, onların məmurlarının xarakterində görür, öz tənqidini müasiri olduğu cəmiyyətin qayda-qanunlarına qarşı çevirir, sosial ədalətsizliyi və amansız istismarı cəsarətlə tənqid edirdi [125,97-98].

Nizamiyə görə şüurlu insan cəmiyyətində **dövlətin** və onun başçısının əsas işi, varlıqlarının hikməti ictimai asayişi təmin etmək və **ədaləti** bərpa etməkdir. Şairə görə dövlət anlayışı ilə zülm bir araya sığmaz; əks təqdirdə dövlət çox yaşaya bilməz [123,316-317].

Mütəfəkkir şairin əsas qayələrindən biri ideal hökmdar surəti yaratmaq olduğundan o, bütün əsərlərində həm mifik və həm də real hökmdarların surətlərini canlandırmış və demək olar ki, öz ideal hökmdarlarının əksəriyyətini Azərbaycandan seçmişdir. Müəllifin «Xosrov əv Şirin» əsərindəki Məhin Banu və Şirin, «İskəndərnamə»dəki Nüşabə öz təxəyyülünün məhsuludursa, əsərlərini ithaf edib bağışladığı Atabəy Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Axsitan və s. real tarixi şəxsiyyətlərdir.

Nizami bütün yaradıcılığı boyu hökmdarları ədalətli olmağa, böyük filosofların məsləhətlərinə daim əməl etməyə səsləmişdir [124,119-129].

Dahi mütəfəkkir əsərlərində mərkəzləşmiş dövlətçilik ideyasını irəli sürərək xalq deyimləri ilə bunu əsaslandırmış və göstərmişdir ki:

Yüz şah olmaqdansa xoşdur bir nəfər
Yağış çox yağarsa ziyanlıq verər [124,172].

Şairə görə hər bir dövlətin uzunömürlü olmasını şərtləndirən ən mühüm amillərdən biri də məhz ağıllı siyasətdir. Xarici siyasətlə yanaşı dövləti mətin edən həm də daxili siyasət, özünün dediyi kimi «xalq siyasətidir».

Dahi şair ədalətli monarx idealını hökmdar Şirinin şəxsində cəmləşdirmişdir. Şairin hökmdar Şirini ideal hökmdar üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. Şirin ədalətlidir, humanistdir, xalqını sevir və ona daim qayğı göstərir. Onun idarəçiliyi sayəsində ölkədə bolluq yaranır, ölkə gözəl və abad bir guşəyə çevrilir, dövlətdə sülh yaranır, insanlar arasında düşmənçilik aradan qalxır. Xalq öz ədalətli şahını sevir və onunla fəxr edir. Buna görə də Nizami dövrünün hökmdarlarına dərs olsun deyə Şirinin şahlığını yüksək qiymətləndirir.

Şirinin əlinə çatanda şahlıq
Ölkədən hər yana yayıldı işıq.
...Qorxurdu fikrinin dağınıq çağı
Pozulsun saldığı ədalət bağı [123,160].

Nizami «Xosrov və Şirin» əsərində hiyləgər və qəddar müstəbid olan Xosrovu Şirinin təsiri ilə müdrik hökmdara çevirir. Şair bütün əsərlərində olduğu kimi bu əsərdə də özünün dövlət və dövlətçiliklə bağlı fəlsəfi fikirlərini irəli sürərkən əqlə, zəkaya həmişə üstünlük verir.

Əsərlərinin təhlilindən aydın görünür ki, böyük mütəfəkkir şair öz dövrünün müstəqil Azərbaycan dövlətləri olan Atabəylər və Şirvanşahlar dövlətləri ilə qürur duymuş, onların hökmdarlarını fəxrlə mədh etmiş, yeri gəldikcə dövlətin idarə olunmasında onlara öz dəyərli məsləhətlərini verməklə özünün və xalqının görmək istədiyi ideal hökmdar surətləri yaratmışdır. Bu haqda «Xəmsə»dən istənilən qədər nümunələr göstərmək olar.

Əlamətdar haldır ki, böyük Nizaminin dövlətçiliklə bağlı dərin fəlsəfi düşüncələri millilik ruhu ilə yoğrulmuşdur. Öz türklüyü ilə daim fəxr edən böyük mütəfəkkir türk hakimiyyətini ədalətin simvolu hesab edir. Səlcuq İmperatorluğunun dağılmasında müstəsna rol oynayan, gününü eyş-işrətə sərf edərək keçirən, məmur və darğalarının ölkədə özbaşınalıqlar törədən, xalqa zülm edən Sultan Səncəri etnik cəhətdən Türk olsa da, onu Türk yox,

«yağmaçı hindu» adlandırır, təqribən iki yüz illik, nəhəng bir Türk imperatorluğunun parçalanmasını ürək ağrısı ilə qələmə alır:

Dağ kimi ucalmışdı bir zaman Türk dövləti
Sarmışdı məmələkəti ədaləti, şəfqəti.
Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san,
Demək, sən Türk deyilsən, yağması bir hindusan.
...Qalx, ey dərdli Nizami, bu dünyanı qucaqla,
Ürəklər qana döndü,elə sən də qan ağla [125,111-112].

Böyük mütəfəkkir Nizami Gəncəvi intibah mədəniyyətimizin zirvəsidirsə, onun zəngin yaradıcılığının zirvəsi, əzəmətli və ləyaqətli yekunu, özünə dünya şöhrəti qazandırmış «İskəndərnamə» əsəridir. Özünəqədərki bütün Şərq və Yunanıstan tarixini, elmi-fəlsəfi və dini irsini, görkəmli filosofların, hökmdarların, sərkərdələrin həyat və fəaliyyətini dərindən öyrənən böyük filosof-şair bütün yaradıcılığı boyu onu daim düşündürən ictimai-siyasi həyat həqiqətlərini araşdırmış, insan və cəmiyyət münasibətlərini öz fəlsəfi konsepsiyası əsasında aydınlaşdırmağa səy göstərmiş, bu ictimai problemlərlə bağlı suallara cavab tapmağa çalışmışdır.

Dahi şair bütün əsərlərində olduğu kimi «İskəndərnamə» əsərində də feodal cəmiyyətində müşahidə etdiyi ictimai və mənəvi nöqsanları ifşa edərək, onları hansı yollarla aradan qaldırmaq haqqında düşünmüş, feodal hakimlərə təsir göstərmək və onları **ədalətə** çağırmaq istəmişdir. Nizaminin elmi-fəlsəfi dünyagörüşünün ən böyük qələbəsi ondadır ki, onun yaratdığı ədalətli hökmdar yalnız qılıncla, şəxsi şücaəti ilə deyil, elmlə, ağılla, zəka ilə qalib gəlir. İskəndər həmişə öz ətrafına alimləri, filosofları toplayır, müxtəlif dillərdə olan kitabları yunancaya tərcümə etdirir, elmə qiymət verir, alimi, filosofu hamıdan üstün tutur.

...Ağıl hər bir sirrə yol tapsın deyə,
...Belə qərar verdi: yanında ancaq
Hər kəs öz elmiylə bir yer tutacaq.
Hamı elmə, fənnə elədi rəğbət,
Çünki elmə təşviq edirdi dövlət [124,36-37].

«İskəndərnamə»də biz həm də Nizaminin dövlətçilik ideyalarının təkamülünün də şahidi oluruq. Belə ki, o, bütün ömrü boyu ümid bəslədiyi «ədalətli şah», «ideal hökmdar» konsepsiyasından getdikcə əl çəkir və əsərin ikinci hissəsi «İqbalnamə»də İskəndəri artıq ideal cəmiyyətə, «xoşbəxtlər ölkəsinə» aparıb çıxarır və bununla da demək istəyir ki, bəşər cəmiyyətinin səadət dolu gələcəyi ədalətli şah konsepsiyası ilə deyil, ancaq maddi və mənəvi azadlıq ideyaları ilə bağlıdır. Dahi mütəfəkkirin təsvir etdiyi «xoşbəxtlər ölkəsində» düzlük və bərabərlik hökm sürür, heç kəs yalan danışmır, acizlərə, dara düşənlərə kömək göstərilir. Bu ölkədə hamının varı bərabərdir, bütün mallar bərabər bölünür, heç kəs heç kəsdən artıq deyil, heç kəs ağlayana gülmür, heç kim oğurluq etmir, qapılara qıfıl vurulmur, mal-davar gözətçisiz otlayır. Bu ölkədə heç kəs pis yola çəkilmir, fitnə-fəsad axtarılmır, qan tökülmür, dərdlinin dərdinə şərik çıxılır, qızıla, gümüşə heç kəs aldanmır və s. və i.a.

Nizami tədqiqatçılarından bəziləri haqlı olaraq belə bir nəzəri fikir irəli sürmüşlər ki: «Nizaminin kamil cəmiyyət nəzəriyyəsi fantastik uzaqgörənliyin məhsulu, şair dühasının qeyri-adi tapıntısı deyil. Bu nəzəriyyə Şərq və dünya ictimai-fəlsəfi fikir tarixinin ideal cəmiyyət haqqındakı nəzəriyyələr zəncirində bir həlqədir. XII əsrə qədər tarixən mövcud olan bu və ya digər dərəcədə utopik ideala yaxınlaşan, müvəqqəti də olsa ömür sürmüş **demokratik dövlətlərin** qanunauyğun davamıdır» [93,11-12]. Bu sözlərin müəllifi görkəmli alim Zümrüd Quluzadə «Nizamişünaslıq»da ilk dəfə olaraq Nizaminin irəli sürdüyü ideal cəmiyyət haqqındakı fikirlərini tarixi faktlara əsaslanaraq Nizamidən qa-

baq da mövcud olduğunu göstərir. Belə ki, Z.Quluzadə bu məsələ ilə bağlı yazır: «İdeal şəhər və cəmiyyət haqda həm qədim dövr, həm də orta əsr Şərqinin abidələrində müxtəlif təsəvvürlərə təsadüf edirik. Yaxın və Orta Şərqdə böyük şöhrət tapmış IX əsr alim və filosofu Fərabinin «Xeyirxah şəhər» əsərində hətta ideal şəhərlərin müəyyən təsnifatı belə verilir... Tarixdən məlumdur ki, kəskin sinfi mübarizə nəticəsində xalq kütlələrinin gücünə əsaslanaraq, Şərqdə ideal dövlətləri bu və ya digər dərəcədə xatırladan demokratik qərmətilər, ismaililər (bunlardan da qabaq məzdəkilər, xürrəmilər – R.Ə.) dövlətləri mövcud olub, bunlar və xüsusən Beyləqanda, XI əsrdə kəskin sinfi mübarizə nəticəsində müvəqqəti də olsa yaranan xalq hakimiyyəti, sözsüz ki, Nizaminin ideal cəmiyyət nəzəriyyəsini qidalandıran real zəmin idi» [93,11].

Dahi mütəfəkkir şair bütün yaradıcılığında olduğu kimi bu möhtəşəm əsərində də Vətəni Azərbaycanı və mənsub olduğu türk soyunu unutmamış, hətta böyük imperiyaları diz çökdürən İskəndəri Azərbaycanın qadın hökmdarı Nüşabə qarşısında aciz duruma düşürmüşdür. Nüşabə mütəfəkkirin «Xosrov və Şirin» poemasındakı Məhinbanu və Şirin surətlərinin davamıdır. Burada da «Nizami İskəndəri öz doğma yurdu Azərbaycana gətirmək üçün bilərəkdən tarixi anaxronizmə yol verir» [56,11].

Tədqiqatlarda haqlı qeyd edilir ki, tarixin müxtəlif dövrlərində mövcud olmuş müxtəlif dövlət, «dövlət quruluşlarının real təcrübəsi ictimai-siyasi fikrin...gələcək inkişafına böyük təkan vermişdir» [158,8]. Azərbaycan tarixində də bu cür dövlətlər çox olmuşdur. Belə ki, XII əsrdən başlayaraq Azərbaycan mütəmadi olaraq tatar-monqol basqınlarına və əsarətə məruz qalmış olsa da tarixi mərhələlərlə yaranmış Atabəylər (1136-1225), hulakülər (Elxanilər) (1256-1357), Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1502) kimi dövlətlər Azərbaycanın ictimai-siyasi həyatında, onun dövlətçilik ənənəsinin zənginləşməsində, mədəniyyəti-



nin inkişafında mühüm rol oynamışdır. Bütün bunların təfsilatı ilə tədqiqata cəlb edilməsi imkan xaricində olduğundan bəzi məqamlara diqqət yetirməklə kifayətlənməli olacağıq. Əlamətdar hadisədir ki, məsələn, «Atabəylər dövründə bütün Azərbaycan torpaqları həmin sülalənin hakimiyyəti altında birləşdirildi, Azərbaycanın siyasi sərhədləri və etnik hüdudları dəqiq mənzərə aldı» [155,139].

Yaxud, Hülakulər sülaləsi dövründə İranda və Azərbaycanda Abbasilərin 500 illik xilafətinə son qoyulması, Azərbaycanın bu dövlətin siyasi-inzibati mərkəzinə çevrilməsi mühüm tarixi hadisə idi. Qazan xanın hakimiyyəti dövründə (1295-1304) yerli feodallarla əlaqənin möhkəmləndirilib bütün ixtişaşlara son qoyulması ilə ölkədə siyasi sabitliyin yaradılıb bir çox islahatların həyata keçirilməsi olduqca önəmlidir [144,136]. Elxanilər dövlətinin yaranması Azərbaycanda mərkəzi hakimiyyətin güclənməsinə, yeni idarəçilik sisteminin yaranmasına, təsərrüfatının canlanmasına, habelə elm və mədəniyyətin çiçəklənməsinə səbəb oldu. Elxanilər dövrü Azərbaycanı dünya elm və mədəniyyəti tarixinə Marağa rəsədxanasının yaradıcısı Nəsirəddin Tusi, məşhur riyaziyyatçı Übeyd Təbrizi, görkəmli filosoflar Siracəddin Urməvi, Mahmud Şəbüstəri, məşhur tibb alimi Mahmud ibn İlyas və s. kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir.

Xacə Nəsirəddin Tusi (1201-1274) XIII əsr Azərbaycan elmində, ictimai-siyasi həyatında müstəsna rolu olan böyük mütəfəkkir şəxsiyyətlərdəndir. Onun indiyədək geniş öyrənilən elmi irsi, fəlsəfi-etik baxışları kimi, sosial-siyasi görüşləri də orijinaldır, bu günümüz üçün çox önəmlidir. Onun məşhur «Əxlaqi-Nasiri» əsərində toplanmış dəyərli əxlaqi nəzəriyyəsi ilə yanaşı siyasət, hüquq və dövlət haqqındakı fikir və mülahizələri diqqətəlayiqdir [214].

Böyük mütəfəkkirə görə, dövləti idarə etmək sənəti olan siyasətin başlıca məqsədi xalqı kamilləşdirmək, nəticəsi isə onu səadətə çatdırmaqdan ibarət olmalıdır. O, bu siya-

səti «fəzilətli siyasət» və ya başqa deyimlə «imamət» adlandırır. Müəllifə görə bir də «naqis» və ya nöqsanlı siyasət var ki, buna da «zorakılıq» deyilir. Bu siyasətin məqsədi xalqı qul halına salmaq, nəticəsi isə bədbəxtlik və məzəmmətdir. Birinci siyasət camaatı ədalətə çağırar, rəiyyətə ən sədaqətli dost gözü ilə baxar, ölkəni xalqa xeyir verən işlərlə doldurar, hökmdar özü şəhvani hisslərinə hakim olar. Xalqın xeyri, əmin-amanlıq, sakitlik, bir-birinə kömək, dostluq, ədalət, sədaqət, iffət, mehribanlıq və bu kimi işlər olar. İkinci siyasət isə camaatı qarətə təhrik edib, rəiyyətə qul və nökər gözü ilə baxar, ölkəni xalqa zərər verən şər işlərlə doldurar, hökmdarın özü şəhvani hisslərin əsiri olar. Xalqın zərəri qarışıqlıq, iztirab, qorxu, vahimə, iğtişaş, dava-dalaş, zülm, əziyyət, paxıllıq, riyakarlıq, xəyanət, təhqir, qeybət və bu kimi işlər olar. Hər iki halda camaat gözlərini hökmdarlara dikər, özlərini onlar kimi aparmağa çalışarlar [162,225-226]. Çünki hökmdar cəmiyyətin atası hakimidir. Hər bir dövlətdə bəla iki şeydən törəyə bilər: 1) ölkədə qəddar şahlıq olanda; 2) ölkə özbaşına buraxılanda. Qəddar şahlıq ona görə qorxuludur ki, burada zalım adamlar təriflənər, özbaşınalıq isə ona görə qorxuludur ki, burada alçaq və şər adamlar əzizlənərlər. «Ölkə idarə etməyə məsul olan adam bir şeyi qəti bilməlidir ki, **dövlətlərin** bünövrəsi qarşılıqlı kömək və əmək əsasında birləşən, beləliklə. bir bədənin üzvləri yerində olan insanların ümumi ittifaqı əsasında yaradılmışdır. Bu ittifaq **ədalətli** olsa, **dövlət** haqq, olmazsa dövlət nahaq yaradılmışdır» [162,227]. Böyük filosofun qənatinə görə, «dövlətin inkişafında əsas rüknlərdən birini təşkil edən dörd təbəqənin – ziyalıların, hərbçilərin, müamilə əhlinin, yəni tacir, sənətkar, bac-xərac toplayanların və ziraət əhlinin, yəni kəndlilərin-əkinçilərin, maldarlıq və heyvandarlıqla məşğul olanların ittifaqı labüddür. Bu siniflərdən biri başqa üç sinfə üstün gəldikcə cəmiyyətdəki işlərin müvazinəti pozular, müxtəlif fəsadlar yaranar» [162,228-229]. Mütəfəkkirə görə bu dörd təbəqə «birgə, əlbir, ahəngdar fəaliyyət göstərdikdə isə mədəniyyət, fəzilət və səadət sistemi əmələ gələr» [162,229].



Filosofa görə, dövlət yalnız ədalət əsasında bu göstərilən dörd təbəqənin ittifaqı və vəzifələrə ləyaqətli və istedadlı insanların təyin edilməsi ilə uzun müddət yaşaya bilər. Dövlətin əsas vəzifəsi xeyirli işlərlə məşğul olmaq, şər işlərin qarşısını almaqdır. «Əksər dövlətlər, xeyirxah və iradəli başçıları, ədalətli hökmdarları olduqca, müttəfiqlik şərtləri yerinə yetirildikcə yaşamış və inkişaf etmişdir» [162,227].

Böyük mütəfəkkir hökmdar və əyanların «var-dövlət düşkünlüyü»nü cəmiyyət üçün böyük bəla sayır, çünki «mal-dövlət onların gözlərini tutar, təkəbbür, mənsəb, lovğalıq, qürrə və qüvvə onları qudurdar, ixtilaf, münaqişə və müharibələr meydana çıxar, bir-birlərini məhv edərlər» [162,227-228].

Dövlətin və dövlətçiliyin bütün mahiyyətini ədalət, fəzilət və hikmət qanunlarında cəmləşdirən mütəfəkkir göstərir ki, dövlətin ümumi gəliri cəmiyyət üzvləri arasında elə bölünməlidir ki, kimsə narazı qalmasın. Ona görə də «ümumi gəlir mühafizə edilməli, hərənin öz payına düşəni özünə verməyə səy göstərilməli... haqqa və xidmətə fikir verilməlidir». Çünki «ümumi gəlirin mühafizə edilməsi, dövlətin, kəramətin və buna bənzər şeylərin salamat qalmasına səbəb olar». Unutmaq olmaz ki: «Ümumi gəlirdə hər adamın müəyyən bir payı var. Bundan artıq və ya əskik vermək zülmə aparıb çıxardar. Həmçinin bir şey də var ki, az verdikdə şəxsə zülm olar, çox verdikdə isə xalqa. Əksinə də demək olar, yəni xalqa az qaldığı üçün ona zülm edilər» [162,231].

Dahi mütəffəkkirə görə, dövlətin və ölkənin möhkəmliyi şaha, şahın möhkəmliyi siyasətə, siyasətin möhkəmliyi isə hikmətə bağlıdır.

Nəsirəddin Tusi öz sələfi Nizami Gəncəvinin ideal cəmiyyət haqqındakı fikirlərini daha da inkişaf etdirmişdir. Tusi də elə bir cəmiyyət arzu etmişdi ki, orada insanlar

azad yaşasınlar. Həmin azad cəmiyyətdə əhali bərabər hüquqa malik olub, varlı və yoxsullara parçalanmasın «Azadlıq şəhəri azad xalqa məxsus olduğuna görə hamı belə şəhərdə yaşamağı sevər, hər kəs burada istədiyi kimi dolanıb öz məqsədinə çatar. Bu şəhərin sakinləri hüquq bərabərliyinə malikdirlər, onlar dövlət xadimlərindən üstündürlər, çünki vəzifəli şəxslər xalq tərəfindən seçilirlər... Hər dövrdə, hər zamanda hökmdara ehtiyac yoxdur. Əhali arasında nizam-intizam olsa, bu onlara uzun müddət bəsdir. Lakin bütün dövrlərdə müdrik bir rəhbərə... ehtiyac vardır.Tədbir olmasa nizam-intizam aradan qalxar, insan cəmiyyəti lazım olduğu kimi inkişaf etməz [104,72-73].

Tusinin müasirlərindən olan böyük Azərbaycan filosofu Siracəddin Urməvi (1198-1283) də ədalətli cəmiyyət ideyasını daim tərənnüm etmişdir [107,218-230]. Onun fikrincə, ölkənin firavanlığı dövlətin qüdrəti ölkə qanunqaydalarının, hökmdar fərmanlarının ədalətli, xalqın mənafeyinə uyğun olmasına bağlıdır. Ölkədəki daxili sabitlik dövlətin xarici siyasətinə də müsbət təsir göstərər. Mütəfəkkirin qənaətincə, cəmiyyətdəki müxtəlif təbəqələr arasında hüquq bərabərliyinə riayət edilməsi ədalətin bərqərar olması üçün ən mühüm amildir. Urməviyə görə haqq, ədalət ictimai mahiyyət daşıdığından «hər şeydən, hətta peyğəmbər nüfuzundan da üstündür. Ədalət bolluq və firavanlığın rəhni olduğu kimi, onun yoxluğu da fəsadlığın səbəbidir» [107,227;140,102].

Öz mütərəqqiliyi və humanizmi ilə diqqəti cəlb edən Marağalı Əvhədinin (1274-1338) «Dəhnamə», «Cami-Cəm» kimi məşhur fəlsəfi əsərlərində irəli sürdüyü dövlətçilik ideyaları da orta əsr Azərbaycan siyasi-ictimai fikrinin dəyərli uğurlarından sayılmalıdır. Bəzi müəlliflər onu hətta sufizmin ideoloqlarından hesab etmişlər. O, öz əsərlərində əməkçi xalqın mənafeyini müdafiə edir, onun amansızcasına istismarına qarşı çıxır, ən yüksək insani keyfiyyətlərin məhz sadə zəhmət adamlarına məxsus olduğunu göstərir.



Əhsən, o peşəkar yoxsul insana!
Qanedir dünyanın azı-çoxuna.
Əkinçi yemləyir hamını bütün,
Onun da varını verir bulud, gün [96,130-132].

Bütün orta əsr sənətkarları kimi Əvhədinin də siyasi idealı müdrik və elmli hökmdarın başçılıq etdiyi feodal dövlətidir. Mütəfəkkirə görə, hökmdar ağlın, biliyn səsinə qulaq asıb xalqa himayədarlıq etməli, onunla ədalətlə rəftar etməlidir.

... Şah ədli, insafı eyləsə peşə,
Şahlığı kök atıb qalar həmişə.
... Elmsiz ədalət verməz əsla bar,
Hökm də bunlarsız faydasız olar. [96,77-78]

Hökmdar-xalq münasibəti şair-filosofun bütün yaradıcılığının ana xətttini təşkil edir. O, dövrün ictimai mənzərəsini, xalqın ağır həyat tərzini, hakim təbəqələrin özbaşınalığını, onların harın həyat tərzini, tüfeyliliyini açıq-aşkar bildirməklə yaşadığı mühitə qarşı kəskin etirazını ifadə edir, hökmdarları xalqa münasibətdə xeyirxah və ədalətli olmağa səsləyir, əks təqdirdə onları labüd cəza alacaqları ilə hədələyir [96,80-86].

Şair-filosof içərisində yaşadığı, təmasda olduğu cəmiyyətin həyatını əks etdirmək üçün dövrünün həm dini və həm də dünyəvi elmlərinə yiyələnmiş, bütün əsərlərində elmi-fəlsəfi dünyagörüşünü şərh etməyə çalışmışdır. Əvhədi bir çox məsələlərlə yanaşı hüquqi məsələlərə də yaradıcılığında geniş yer vermiş, dövrünün bir çox islami hüquq qaydalarına etirazını bildirmişdir.

Çalış məhkəməyə sən bağlama bel,
Fırıldaq işlərə razı olma gəl.

...Çoxlu əzaba döz, yaxışlıq elə,
Məhkəmə taxtına çatarsan belə. [96,137-139].

Bütün bunları nəzərə alan Əvhədi tədqiqatçıları göstərirlər ki: «Hökmdarla xalqın qarşılıqlı münasibəti, başqa sözlə, zülm və ədalət məsələləri Əvhədinin poemasında («Cami-Cəm» nəzərdə tutulur - R.Ə) geniş yer tutur. Feodal cəmiyyətinin bu ən kölgəli cəhəti onu çox düşündürür. O da dövrunun şahlarını ədalətli olmağa, xalqa qayğı göstərməyə çağırır... Əvhədi də sələfləri, müasirləri kimi dünyapərəstliyi, var dövlət xatirinə insan şəxsiyyətinin alçaldılmasını rədd edir [167,7-9].

Haqq-ədalət mövzusu XIII əsrin sonu XIV əsrin əvvəllərində Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan panteist mütəfəkkir şair Mahmud Şəbüstərinin də əsərlərində mühüm yer tutur.

Mütəfəkkirin ictimai-siyasi görüşləri də onun fəlsəfi ideyaları kimi mütərəqqi xarakter daşımışdır [218,36]. O, əsərlərində zəhmətkeş insanların mənafeyini müdafiə etmiş, hökmdarların və feodalların ədalətsizliklərini pisləmişdir. Şəbüstərinin də əsas idealı ədalət olmuşdur. Mütəfəkkirə görə bütün insanlar ən böyük ədalət sahibi olan «Tanrının hökmünə sığınıbdı» [150,37]. Onun fikrincə, əgər «həqiqi ədalət bərqərar olsa, dünyada bir nəfər də olsun kafir qalmaz [150,70-71]. Çünki amalı, qayəsi ədalət olan şəxsdə zülm olmaz. Onun fikrincə, «yaxşılıq ədalətdən doğar», ədalət insan üçün ən üstün kamaldır».

Həqiqi ədalət bərqərar olsa,
Dünyada bir nəfər də olsun kafir qalmaz.
...Yaxşılıq ədalətdən doğar,
Ədalət bədən üçün ən üstün kamaldır. [150,70-71].

Mütəfəkkirin «Gülşəni-Raz» fəlsəfi əsərində yüksək əxlaqi, humanist fikirləri aşılamaqla yanaşı, panteist sufi dünyagörüşü, sufi həyat tərzi də təbliğ olunmuşdur [118,7-8]. Bu mövqedən də Şəbüstəri öz idealı olan ictimai münasibətlərin dəyişməsini təkamüldə görür və belə düşünürdü ki, məsləhət və nəsihətlər vasitəsilə hökmdarları ədalət və xeyirxahlıq məcrasına döndərmək olar. Cəmiyyətin inkişafında tərbiyəyə mühüm əhəmiyyət verən mütəfəkkir belə hesab edirdi ki, tərbiyə müdrikliyə çatmaq üçün ən güclü vasitədir. Ona görə ki, müdrik və təhsilli adam qüsurlardan çəkinəcək, insanlara bədbəxtlik gətirməyəcək. Mütəfəkkirə görə, tərbiyənin, gözəl əxlaqın birinci şərti ədalətdir. Ondan sonra isə hikmət, iffət və şücaətdir [150,70].

O, hökmdarları da bu cür görmək istəyirdi. Mahmud Şəbüstəri üçün də ideal dövlət forması maarifçi monarxiyadan ibarət olmuşdur. Bu dövlətdə hökmdar nəzəri və əməli müdriklikləri özündə birləşdirərək ədalətli, iffətli, şücaətli, hikmət sahibi olmalıdır.

Mahmud Şəbüstərinin yaradıcılığı Şərqin bir çox ölkələrində, xüsusilə, Azərbaycanda fəlsəfi-siyasi və ictimai-ideoloji fikrin inkişafında mühüm rol oynamışdır. Azərbaycanın görkəmli mütəfəkkirləri olan Yusif Qarabaği, Zeynalabdin Şirvani, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov və başqaları öz əsərlərində ona istinad etmiş, öz dünyagörüşlərini əsaslandırmaq üçün ondan yararlanmışlar.

Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrinin inkişafında şifahi xalq yaradıcılığının, dastan, nağıl və atalar sözlərinin də müstəsna əhəmiyyəti vardır. Doğrudur, bunlarda dövlət və dövlətçiliklə bağlı ideyalar heç də elmi şəkildə əksini tapmamışdır. Lakin onlardakı insan, cəmiyyət və dövlət haqqındakı fikir və mülahizələr orta əsr Azərbaycan xalqının dünya görüşünün parlaq ifadəsi idi. Bu əvəzsiz abidələrimizin şah əsəri təbii ki, «Dədə Qorqud» eposudur.

«Dədə Qorqud» sırf tarixi əsər deyil, dastan olsa da milli dövlətçilik ideyalarının təşəkkülünə aid qiymətli

mənbədir. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, Dədə Qorqud tarixi şəxsiyyətdir və o, oğuzların X-XI əsrlərdə paytaxt Yenikənddə hökmranlığı vaxtı dövlət xadimi, diplomat olmuşdur [84,9]. Müdrik Dədə Qorqudun bütün boylarında ulu Zərdüştün ruhu duyulur.

Əsər başdan-başa ədaləti, xeyirxahlığı, mərdliyi tərənnüm edir. Burada dövlət başçısının müdrikliyi, qorxmazlığı, ədalətli olması, oğuzların özlərinə məxsus mərkəzləşmiş hakimiyyət qayda-qanunları, xana tabeçiliyin itaətə deyil, sədaqətə əsaslanması, xanlar xanının elin taleyini düşünməsi, oğuz nəslinin qayğısını çəkməsi və s. bütün dastan boyu özünü göstərməkdir. Dastanda qəhrəmanlıq əzmi, özünə inam əhval-ruhiyyəsi, Tanrıya sitayiş, peyğəmbərə alqış, doğma torpağa, el-obaya, ata-anaya, bacı-qardaşa, sevgiliyə təmiz məhəbbət mühüm yer tutur ki, bütün bunlar da bu günümüz üçün böyük örnəkdir.

Xalqımızın yaratdığı dastan, nağıl və atalar sözlərində insanın mənəvi kamilliyinin, əxlaqi təmizliyinin, mərdliyinin, igidliyinin, düzlüyünün, sədaqətinin və i.a. tərənnümü, zülmün, istismarın, haqsızlığın inkarı ilə yanaşı ölkənin rəhbərləri adət-ənənə, islam dininə münasibət, ədalət və qanun haqqında, deməli, bütövlükdə dövlət haqqında da müdrik fikir və mülahizələr də vardır [84,31-50-86-91]. Bədii və fəlsəfi əsərlərdən fərqli olaraq şifahi xalq nümunələrində dövlət, hökmdar, məmurlar, ədalət və qanun haqqında daha ümumi xarakter daşıyan məntiqli müddəalar var. Bunlar ümumxalq istək və arzularını ifadə etdiyindən daha hikmətli, daha ictimai-siyasi xarakterlidir. «Koroğlu» dastanında təsvir edilən XVI əsrdə Çənlibeldə insanlar arasında dostluq, əməkdaşlıq, bərabərlik hökm sürür.

XIV-XV əsrdə Yaxın Şərqin bir çox ölkələrində olduğu kimi Azərbaycanda da xarici müdaxiləçilərə, yerli feodal zülmü və istismarına qarşı mübarizə xeyli genişlənmiş, rəsmi dini görüşlərlə müxalifət təşkil edən yeni dini təriqətlər meydana gəlmişdi. Bu təriqətlər öz ətraflarına tərəfdarlar toplayaraq imkan düşdükcə hakimiyyəti öz əllərinə almağa çalışırdılar. Təriqət başçıları öz siyasi-nəzəri fikirlərini dini görüşlərə əsaslanaraq təbliğ edirdilər. Azərbaycanda XIV əsrin sonlarında yaranan, sonralar isə müsəlman Şərqinin bir çox ölkələrinə yayılan belə təriqətlərdən biri və birincisi də məhz Fəzlullah Nəiminin «Cavidannamə» əsəri ilə əsası qoyulmuş hürufizmdir.

XIV-XX əsrlərin tarixi şəraiti Hürufi dünyagörüşünə siyasi-ideoloji mübarizə və çəkişmələrlə səsləşən yeni çalarlar gətirmişdi. Bunu nəzərə alan tədqiqatçılar qeyd edirlər ki, «kütlələri amansız istismara və əsarətə məruz qoyan hakim feodal quruluşuna zəhmətkeş kütlələrin etirazını, onların yadelli işğalçılara qarşı mübarizəsini, ədalətsiz feodal qaydalarını müdafiə edən və müqəddəsləşdirən ortodoksal islama qarşı çıxışlarını hürufilik ideologiyasının yaranmasının sosial-iqtisadi... və ilkin ideya şərtləri hesab etmək lazımdır» [104,74].

Hürufiliyin əsas ideya mənbəyi özündən əvvəlki zərdüştlük, manilik, məzdəkilik ideologiyaları, islam dinini təkzib edən xürrəmilik, özünü təmizləmə vasitəsilə özünü dərk etməyə cəhd edən, insanı ilahiləşdirməyə çalışan sufizm olmuşdur. Bu təriqət həmçinin özündən əvvəlki ismailiilik, qərmətilik, əliallahilik təriqətləri və «Əxi» cəmiyyəti ilə sıx bağlı olmuşdur.

Hürufilərin siyasi ideyaları öz üsyankar xarakteri ilə səciyyəvidir. Onlar yaşadıqları cəmiyyətdə dini xurafat içərisində batıb qalmış, feodal cəmiyyətini kəskin tənqid etmiş, bütün ədalətsizliklərin, zülm və zorakılıqların kökünü insanların var-dövlətə, sərvətə və hakimiyyətə can atmasında görmüşlər [221,116].

Hürufi ideoloqları öz əsərlərində feodalizm quruluşunu ifşa etsələr də, Vətənin yadelli işğalçılardan azad

olunmasını arzulasalar da, hakim İslam dininin əsaslarını sarsıtmağa çalışsalar da özlərinin ictimai və **dövlət** quruluşu idealını əsərlərində aydın irəli sürmüşlər. Ona görə də onların əsərlərində **dövlət** və **dövlətçiliklə** bağlı əsaslı fikirlərə də rast gəlinmir. Bunu nəzərə alan tədqiqatçılar qeyd edirlər ki: «Görünür, hürufilər özlərinin ictimai və dövlət quruluşu idealını şifahi şərh edirdilər» [104,76].

Bununla əlaqədar olaraq imkan daxilində Azərbaycanda hürufilik ideologiyasının ən böyük və mübariz nümayəndəsi, öz məsləki uğrunda həyatından keçən, son damla qanınadək belə əqidəsindən dönməyən, yaradıcılığı XIV-XV əsr Azərbaycan söz sənətinin zirvəsi sayılan, əsərlərinin çoxunu doğma türk dilində yazmaqla Azərbaycan fəlsəfi-ədəbi dilinin əsasını qoymuş böyük şair-mütəfəkkir İmadəddin Nəsimiyə müraciət etmək yetərli olar.

Nəsimi (1369-1417) müasiri olduğu cəmiyyətin ictimai qayda-qanunlarını, sosial ədalətsizlikləri, feodal zülmünü, qəddar hökmdarları, riyakar din xadimlərini, feodal dövlət quruluşunu, şah üsul-idarəsini kəskin tənqid etmiş, baş verən özbaşınalıq və zorakılıqları cəsarətlə açıb göstərmişdir.

Həmişə və hər yerdə haqqı, ədaləti hər şeydən üstün tutan böyük Nəsimi dönə-dönə etiraf edir ki, haqsız muradına çatan cahanın şahı olsa da belə, o yenə də qafildir [121,604].

Şairə görə, səltənətin qədrini ancaq həqiqi sultan bilər. Həqiqi sultan isə yalnız Kamil İnsandan ola bilər. Şairin şeirlərindəki «cahanın sultanı» - ifadəsi əslində Kamil İnsanın özüdür. Belə insan isə Nəsimiyə və bütün hürufilərə görə, Allahın yerdəki naibi və əvəzi olan Nəimi Fəzlüllahdır. Yalnız Fəzlüllah öz qüvvəsi ilə ədalətsizlikləri, qanlı müharibələri, zülmü, soyğunçuluqları aradan qaldıra bilər.



Nəsimi şeirlərindən açıq görünür ki, onun panteizmə söykənən hürufi fəlsəfi fikirləri praktik ictimai-siyasi məqsəd güdmüş, Kamil insanları hər yerdə qəbkar, zalım, işğalçı hökmdarlara qarşı qoymuşdur.

Mövcud hökmdarları «nadan» adlandıran şair açıq-aydın insanları Kamil insanlara qulluq etməyə səsləyir [121,70].

Yaşadığı dövrün bütün eybəcərliklərini və haqsızlıqlarını görən şair-filosof göstərir ki, indi hünərsiz, insafsız adamlar mənsəb sahibi olmuş, şaha məhrəm olan gədalar belə mötəbər olmuş, riyakarlıq fəziləti üstələmiş, elm əhlinə yararlı bir iş belə verilməmiş, hünər sahibləri mənsəbdən məhrum edilmişlər.

Hər bihünər insafı yox, uş mənsəbi tutdu,
Sahibhünərə mənsəbi-idrar bulunmaz.
Hər könül ki, haqqa vasil oldu buldu etibar,
Nə gədə ki, şaha məhrəm oldu, oldu mötəbər [121,359-364].

Bütün yaradıcılığını Kamil İnsan probleminə həsr edən mütəfəkkir şair aləmin cismini sədəfə, Kamil İnsanı isə onun dürdanəsinə bənzədir. Və hətta taxt-tacın sultanın şahlar, hökmdarlar deyil, Kamil İnsan saydığı fəqir dərvişləri, arifləri hesab edir və deyir:

Mərhaba, İnsani-Kamil! Canımın cananəsi,
Aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?!
...Mən ki, dərvişəm, fəqirəm, padişahi-aləməm
Ruhi birəngəm, əgərçi rəngə girdim, adəməm [121.329-482].

Yolunu əyri gedənlərin, sonunun zəlalət olacağını bildirən şair mütəfəkkirə görə, səadətə çatmaq istəyən insan xoş məramlı, səxavətli, həyalı, ədəbli, həqiqət sevər

olmalı, kimsəyə həqarətlə baxmamalıdır. Həmişə insana müraciətlə «əyri yolun zəlalət, sözün xətadır» deyən şairin fikrincə, qeybət, ədavət, böhtan, iftira, yalan və s. bu kimi insanı insanlıqdan çıxaran şeylər olduğundan bu xəstəliklərə mübtəla olanlar Cənnət üzü görməzlər. Aləmdə yalnız ədalətli olanlar, haqqı bilən və haqq yolunda çarpışanlar məqsədlərinə çatar, xoşbəxt olarlar.

Dövrünün hüquq sistemini, onun daşıyıcıları və icraçıları olan fəqih və qaziləri kəskin və cəsarətlə tənqid edən, onları şeytana, cinə bənzədən şair-mütəfəkkir ən ədalətli qazinin Tanrı olduğunu dönmədən təqdir edir.

Fəqih adəmdən ürkər, səcdə qılmaz,
Məgər şeytandır ol şumun xudası.
...Qaziyə nəsmə verməriz rüşvət üçün bu dəvidə
Qaziyi-Haqq qatında çün adil imiş şühudumuz
[121,361-369].

Əməyi, zəhməti yüksək qiymətləndirən Nəsimi həm də haqqa, ədalətə yalnız halal zəhmət sayəsində nail olmağın mümkünlüyünü qətiyyətlə iqrar edirdi.

Gəl ey haqq istəyən talib müqəddəs vadini teyy et,
Ki, zəhmətsiz ələ girməz nə kim istərsən, ey dana.
... Kişi hər nəyi kim sevsə, odur həm zikri-təsbihi,
Nitəkim, daima Vamiq dilində zikridir Əzra [121,
485].

Bu haqda son olaraq qeyd etmək lazımdır ki, Nəsimi də dünyanın və Şərqin digər panteist filosofları kimi «Allah, Kainat və İnsan» anlayışlarını vəhdətdə düşünmüş, ali varlıq bildiyi insana ilahi keyfiyyətləri şamil etməklə onu çağdaş milli fəlsəfi ədəbiyyatımızda da qeyd edildiyi kimi, «həyatı əzəli və əbədi adlandırır. Lakin başqa panteistlərdən fərqli olaraq, Nəsimi bu fikirləri



hürufilik baxımından izah edir. «O, insanların arasında dini etiqadlarına görə ayrıseçkilik, düşmənçilik salan, «əyri-nəzər» din xadimlərini qətiyyətlə pisləyir, bütün xalqları bir etiqada, dostluğa səsləyir» [59,310].

Nəsimi bütün düşüncələrini mənəvi saflıq əqidəsi üzərində qurur və dövlətçilikdə arzuladığı humanizmi də məhz bunda görürdü. Bu səbəbdəndir ki, onun yaradıcılığı XV əsrdən etibarən bütün türkdilli ədəbiyyata, fəlsəfi və ictimai-siyasi fikrə, o cümlədən də mütərəqqi dövlətçilik ideyalarının gələcək təşəkkülünə güclü təsir göstərmişdir.

### §3. XVI-XVIII əsrlərdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində milli dövlətçilik məsələsi

Məlumdur ki, Elxanilər sülaləsinin süqutundan sonra XV əsrin əvvəllərindən başlayaraq Azərbaycanda siyasi çəkişmələr daha da güclənir. Lakin bu çəkişmələr müəyyən sosial-iqtisadi və siyasi fəsadlar törətmiş olsalar da, fəqət Azərbaycanın bütövlükdə tarixi dövlətçilik ənənəsinə daxilən ciddi xələl yetirə bilməmişdir. Və bu da tarixən yaxşı məlumdur ki, XV əsrdə Azərbaycanda Şirvanşahlar, Qaraqoyunlular və Ağqoyunlular kimi üç qüdrətli dövlətin mövcud olması, milli varlığımızın, eləcə də dövlətçilik ənənəmizin şanlı səhifəsini təşkil edir. Məhz həmin dövlət qurumları sayəsində nəinki dövlətçilik siyasəti daha da inkişaf edərək, müəyyən mənada təkmilləşə bilmiş, habelə növbəti - XVI əsrdə Səfəvilər sülaləsi timsalında mərkəzləşdirilmiş Azərbaycan dövlətinin ərsəyə gəlməsi işində də təbii ki, az əhəmiyyətli olmamışdır.

Tədqiqatın imkanları daxilində təkcə bunu qeyd etmək lazım gəlir ki, adları çəkilən hər üç dövlətin siyasi sistemləri, quruluşları bir-birindən fərqlənsələr də, onlarda «padşah», «sultan», «şah» kimi adlar altında fəaliyyət göstərən qanunlar, hüquqi aktlar Quran və islam

fiqhinə, şəriət qaydalarına, dövrün adət-ənənələrinə müvafiq hazırlanıb müxtəlif tərzlərdə icra edilsə də, bu dövlətlərdə də «Elxanilər və Teymurilər dövründə olduğu kimi... din dövlətdən ayrı olmuşdur. Teymurilər, Ağqoyunlular və Şirvanşahlar sünni məzhəbinə, Qaraqoyunlular isə şiə məzhəbinə etiqad bəsləmələrinə baxmayaraq, sünni – şiə təriqətləri arasında ixtilaflar olmamışdır. Lakin mərkəzi dövlət hakimiyyətini qüvvətləndirmək üçün islam dinindən bir vasitə kimi istifadə edilmişdir» [143,136-152]. Ölkədə Qazan xan dövründən Qanunvericilik orqanı mövcud olsa da XV əsrdə hökmdarın özü «Qanunnamə» hazırlamışdı. Uzun Həsənin «Qanunnamə»si və Ağqoyunlu Gödək Əhmədin «İslahatlar fərmanı» bütün ölkə üçün qanuni qüvvədə olmuş və onların üzərində tam nəzarət olmuşdu. Bu «Qanunnamə» hətta «Səfəvilər hakimiyyətinin ilk yüzilliyində və Osmanlı dövlətinin bəzi vilayətlərində uzun müddət qüvvədə olmuşdur» [143,136]. Bütün bunları nəzərə alan tədqiqatçılar göstərirlər ki, «XV əsrdə hüququn inkişafında hökmdar fərmanları və qanunvericilik aktları, xüsusilə də Ağqoyunlu padşahları Uzun Həsənin «Qanunnamə»si və Gödək Əhmədin islahatları hüququn mənbəyi kimi təqdirə layiqdir» [40,119-174]. XV əsr Azərbaycan dövlətinin dövlət qanunları, mərkəzi hakimiyyət və idarəetmə orqanlarının strukturu, şah, sultan və onların səlahiyyətləri, dövlət və din, divanlar, baş vəzir və vəzirlərin səlahiyyətləri, feodal əyanları, əmirlərin məşvərət məclisi, əyalət, mahal və şəhərlərin idarəçiliyi, vergi və mükəlləfiyyətlər, məhkəmə orqanlarının hüquq və səlahiyyətləri, həbs, cəza və işgəncə növləri, ordu quruculuğu, ordunun tərkibi, silah növləri, kəndli və sənətkarların hüquqi vəziyyətləri və s. haqqında olan məlumatlar [217,96] göstərir ki, XV əsr Azərbaycan dövlətçilik tarixitndə mühüm əhəmiyyət kəsb edir. Bu dövr Azərbaycan mədəniyyəti özünəməxsus inkişaf mərhələsinə qədəm basmış, ölkədə geniş məktəb və mədrəsə şəbəkəsi



yaradılmış, bu məktəb və mədrəsələrdə şəriət dərsləri ilə yanaşı, riyaziyyat, məntiq, fəlsəfə, nücum və s. fənlər də tədris olunmuşdu. Şah Qasım Ənvar türkcə və farsca şeirlər «Divan»ı, «Ariflərin dostu», «Ariflərin məqamı» adlı məsnəvilərilə özünün sufi və hətta hürufi panteist bir şair olduğunu göstərmiş, həmçinin başına müridlər toplayaraq Heratda Teymuri Şahrux Mirzəyə qarşı sui-qəsd hazırlamış, siyasi proseslərdə yaxından iştirak etmişdir. Arif Ərdəbili özünün məşhur «Fərhadnamə», Əssar Təbrizi «Mehr və Müştəri» poemaları ilə qəhrəmanlıq və dostluğu tərənnüm etmişlər. Qaraqoyunlu Qara Yusifin üçüncü oğlu hökmüdar Cahanşah Həqiqi (1397-1467) görkəmli dövlət başçısı olmaqla yanaşı həm də dövrünün qüdrətli şairi olmuş, sarayında şeir məclisi təşkil etmiş, farsca və türkcə «Divan» yaratmışdır. Burada da o dövrün görkəmli filosoflarından, ilahimyyatçı və hüquqşünas alimlərindən biri, «Əl-Muhadarat» («Mühazirələr»-R.Ə.) kimi dəyərli əsərin müəllifi Məhəmməd Qarabağinin də adını qeyd etmək lazımdır [107,274-282].

Çox təəssüflər olsun ki, adı çəkilən şair və filosofların əsərləri əlimizdə olmadığından onların dövlət və dövlətçiliklə bağlı ideya və fikirlərini faktlarla əks etdirə bilməyəcəyik. Bu məsələ ilə bağlı yalnız onu deməklə kifayətlənirik ki, adı çəkilən müəlliflər, xüsusilə, Heratda Teymuri Şahrux Mirzənin sarayında yaşayan, başına müridlər toplayaraq Şahruxa qarşı sui-qəsd hazırlayan Şah Qasım Ənvarın, özü hökmdar olan Cahanşah Həqiqinin, Osmanlı İmperatorluğunun ən əzəmətli dövrlərində İstanbul və İznikin bir çox böyük mədrəsələrində müəllimlik etmiş Məhəmməd Qarabağinin heç şübhəsiz ki, dövlət və dövlətçiliklə bağlı mühüm və gərəkli fikir və mülahizələri olmuşdur.

Son vaxtların tədqiqatlarında araşdırılan problemlə bağlı belə bir cəhətin vurğulanması diqqəti xüsusilə cəlb edir ki, «müxtəlif dövrlərdə və müxtəlif ölkələrdə yaşamış böyük

sərkərdələr, strateqlər, hökmdar və vəzirlər çox vaxt həm də gözəl alimlər və nəzəriyyəçilər olmuşlar. Onların dövlət və ordu quruculuğundakı real-praktik fəaliyyətləri, əsərləri, çıxışları, hərbi yürüşləri və hərb elmi haqqındakı qabaqcıl fikirləri ictimai-siyasi fikrin inkişafında etibarlı mənbələrdən biri olmuşdur» [158,8]. Bu baxımdan Azərbaycan xalqının dövlətçilik, ictimai-siyasi və mədəni yüksəlişində müstəsna xidmətləri olmuş, görkəmli dövlət xadimi, doğma ana dilində ölməz sənət inciləri yaratmış nadir şəxsiyyətlərdən sayılan Şah İsmayıl Xətai (1487-1524) irsi əvəzsiz örnəkdir. Onun bütün dövlətçilik fəaliyyəti, yazdığı əsərləri, Azərbaycan tarixində ilk dəfə olaraq qurduğu və uzun müddət yaşamış mərkəzləşdirilmiş qabaqcıl dövlət quruluşunun real təcrübəsi ictimai-siyasi fikrin inkişafına və gələcək mütərəqqi milli dövlətçilik ideyalarının təşəkkülünə böyük təkan vermişdir.

1501-ci ildən 1736-cı ilə qədər, 235 il davam edən Səfəvilər səltənəti Azərbaycanda feodal pərakəndəliyinə son qoymuş, mərkəzləşmiş vahid Acərbaycan dövləti yaratmış, ərazilərini daha da genişləndirərək böyük imperiyaya çevrilmiş, ilk dəfə olaraq Azərbaycan türkcəsi rəsmi dövlət dili olmuş, Azərbaycan mədəniyyətinin çiçəklənməsində, Azərbaycan xalqının həyatında müstəsna rol oynamışdır. Şah İsmayılın «Xətayi» təxəllüsü ilə doğma ana dilində şeirlər yazması dövlətin bütün ərazilərindəki digər şairləri də ana dilində yazmağa sövq etmiş və beləliklə də Azərbaycan ədəbi-yazılı türkcəsi xeyli zənginləşib dirçələrək ərəb və fars dilləri ilə rəqabət edə biləcək bir səviyyəyə yüksəlmişdi. Şah İsmayılın sarayında Həbibinin başçılığı ilə möhtəşəm ədəbi məclisin yaradılması, xalq yaradıcılığının ən görkəmli nümayəndəsi aşıq Qurbani kimi sənətkarların oraya cəlb edilməsi önəmli hadisələrdən idi. Bu dövr Azərbaycana Şah İsmayıl kimi həm böyük mütəfəkkir hökmdar, həm də Məhəmməd Füzuli kimi dahi mütəfəkkir, Həbibi, Saib



Təbrizi, Qövsi Təbrizi və s. kimi böyük şairlər və digər elm, mədəniyyət xadimləri bəxş etmişdir.

Bir sözlə Səfəvilər dövründə Azərbaycan mədəniyyəti dolğun inkişaf yolu keçmişdir ki, bütün bunlar da sözsüz ki, bilavasitə Xətayinin adı ilə bağlıdır.

Nizami, Nəsimi kimi dahi sələflərindən sonra Xətayinin Azərbaycan poetik fəlsəfəsinin milli dövlətçilik müstəvisində inkişafında təqdirəlayiq yeri və rolu olmuşdur. Xətayişünasların qeyd etdiyi kimi, «Xətayi dünyagörüşü baxımından panteist olmuşdur. Nəsimiyə böyük hörmət bəsləyən, həllac Mənsuru məhəbbətlə xatırlayan, sufi şeyxi kimi tanınan şairin panteist olması onun poeziyasına da güclü təsir göstərmiş, ona daha cəsarətli humanist ruh vermişdir. Lakin bu cəhət Xətayinin yaradıcılığını sırf təriqət poeziyasına çevirməmişdir. O, bütün məqamlarda real həyat və real insan haqqında düşünmüş, real insana müraciətlə yazıb yaratmış, real insandan və onun hisslərindən söhbət açmışdır» [168,12]. Bu isə öz növbəsində Xətayinin poetik fəlsəfi düşüncələrinə dolğun humanist məzmun aşılamaqla yanaşı təbii ki, onun böyük dövlətçilik fəaliyyətlərində də dərin izlər buraxmaya bilməzdi. Elmi araşdırmalarına xüsusi ehtiyacı olan bu kimi məsələlər əslində Azərbaycanın əzəmətli qədim dövlətçilik siyasi fəlsəfəsindən xəbər verir. Bu haqda Xətayinin bilavasitə öz qələmindən çıxmış əsərlərində nümunələr istənilən qədərdir.

Çox gənc yaşlarında hakimiyyət uğrunda döyüşlərə atılıb, istədiyinə nail olaraq qüdrətli bir Azərbaycan dövləti yaratmaqla Şah İsmayıl xalqının, ümumiyyətlə böyük türk dünyasının dövlətçilik səltənətində özünə əzəmətli bir abidə ucaltmış oldu. O, Azərbaycan dövlətçilik ənənələrini daha da zənginləşdirmiş, inkişaf etdirmişdir. Mənbələrin elmi-nəzəri araşdırılması aydın göstərir ki, Səfəvilər dövlətinin yaradıcısı Şah İsmayıl öz dövlət qurumlarını Qaraqoyunlu və Ağqoyunluların dövlətçilik ənənələri üzərində qurmuş, lakin onlardan fərqli olaraq Səfəvilər dünyəvi hakimiyyətlə

yanaşı dini hakimiyyəti də öz əllərində saxlamışdılar. Dövlətin Ali məclisi yalnız məşvərətçi rol oynayırdı. Şah mühüm məsələlərin həllində Ali məclisi çağırır, yüksək dövlət xadimlərinin təklifini nəzərə alırdı. Dövlət quruluşunda şahdan sonra əsas yeri baş vəzir tuturdu. Baş vəzirə tabe olan vəzir, münşi və katib şah tərəfindən təyin edilirdi. Baş vəzir dövlətin vilayət və mahallarında da mülki- maliyyə idarələrinə başçılıq edirdi. Dövlətin rəsmi sənədlərini də baş vəzir təsdiq edirdi. Yüksək vəzifələrə məmurların təyin edilməsi və s. dair sənədlər də baş vəzirin möhürü ilə təsdiqlənirdi. Baş vəzir dövlətin mədaxil və məxaricinə, bütün maliyyə işlərinə baxır, xarici əlaqələr məsələsi və xarici siyasət xəttini müəyyənləşdirir, xarici diplomat və qonaqları qəbul edirdi. Ali dini idarəyə ruhani olan sədr başçılıq edirdi. Əyalətləri şah tərəfindən təyin olunan hakimlər idarə edirdi. Onların rəsmi adı bəylərbəyi idi. Bəylərbəyilər adətən tayfa başçılarından təyin edilirdi. Bəylərbəyliklər mahallara bölünür və o mahalları şah tərəfindən təyin olunan sultan və ya məliklər idarə edirdilər. Bu sultan və məliklər geniş ixtiyar sahibi olsalar da birbaşa bəylərbəyinə tabe idilər. Əyalət və mahalların da öz vəzirləri var idi. Bu vəzirləri bəylərbəyinin təqdimatı ilə yenə də şah fərmanı ilə təsdiq olunurdu. Bəylərbəylik əyalətlərdə mərkəzi şah hökumətini təmsil etməklə yanaşı, yerdəki idarəçilik sisteminin əsası idi. Səfəvilər dövlətinin silahlı qüvvələrinin əsasını dövlət qoşunu təşkil edirdi.

Şah İsmayıl Xətayinin yaratdığı Səfəvilər dövləti iki əsr yarım Azərbaycanda hakimiyyəti dövründə Azərbaycanın siyasi və mədəni həyatında mühüm yüksəlişlər baş verdiyi kimi, ölkənin iqtisadiyyatı, kənd təsərrüfatı, ticarət və sənətkarlıq yüksək inkişaf etmişdi. Səfəvilər dövründə Azərbaycan türkcəsi saray və diplomatiya dilinə çevrilməsi, doğma dildə yazanların sayının artması Azərbaycan tarixinin ən əlamətdar hadisəsi idi.



Hökmüdarı olduğu dövlətin yaranmasını Şah İsmayıl Səfəvi xanədanının yüz illik mübarizəsinin, qızılbaş təlim və amalının qələbəsi hesab edirdi. Qəsidələrinin birində Şah İsmayıl Qızılbaş dövlətinin yaranmasını «Sahibi- Zaman» vədəsinin yetişməsi, qızılbaşların və Səfəvi dərgahının öz yağıları olan Mərvanilərin (Əməvilərin- R.Ə) üzərində «ulu məhşər divanı» qurması adlandırır:

Erişdi vədəsi Sahibi- Zamanın, ulu divan quruldu, məhşər oldu,

Olar ki, tabeyi- Mərvanilərdir, sürüldü çıxdı dindən əbtər oldu.

«Adım Şah İsmayıl, haqqın səriyəm» misrası ilə başlayan başqa bir yazısında şair Şirvanşah Fərrux Yasər üzərindəki qələbəsinə işarə edərək yazırdı ki:

Atamın qanın aldım Yeziddən,
Yəqin bilgil ki, nəqd Heydəriyəm.
Yezidü müşrikin kökün kəsərəm,
Çırağam yanə-yanə şimdi gəldim. [73,144]

Şah İsmayılın dövlətçilik fəaliyyəti bir qayda olaraq şiəlik ideologiyasına söykənirdi.

Şah İsmayıl öz təbliğat xarakterli şeirlərində göstərirdi ki, o, sadəcə şahlığa çıxmaqla qalmamış, «haqqın səri» olmaqla 12 imamın biri kimi zühur etmişdir. Onun bu zühuru ilə də Əli təlimi qələbə çalmışdır, aləmə şah olmuşdur.

Xətayi hətta öz şəxsiyyətini ilahiləşdirmək üçün təriqət üzvlərinə, bütün orduya və xalqına üz tutaraq deyirdi ki:

...Murtuza Əli zatlıyam
Qazilər deyən şah mənəm. [73,355-357]

Şah İsmayıl bu inamlara qarşı çıxanları şeirlərində dinsizlik, kafirlik,düşmənçilik kimi qələmə vermiş və hamını inandırmağa çalışmışdır ki:

Əzəldən Şah bizim sultanımızdır
Pirimiz, Mürşidimiz, xanımızdır.

O, bir yandan panteist şair Həllac Mənsur və Nəsimi kimi «ənəlhəqq» şüarına, ideyasına tərəfdar çıxaraq özünü «vəhdət gülzarının bülbülü» adlandırır, bütün Kainatı İlahi ilə, Mütləq Varlıqla bir sayır, yaradıcı ilə yarananı, insanla Tanrını vəhdətdə görür, insanın simasında İlahi varlığı görməyə çağırır, digər tərəfdən də real həyat və real insan haqqında danışır, insansız dünyanı və cənnəti barsız bağa bənzədir – Xətayi şeirinin əsas qayəsi insana məhəbbət, mənən saf, kamil insandır. O, özünün dərin fəlsəfi məzmunlu şeirlərində məhz bu cür insan idealını əks etdirir.

Özünün hökmdar olmağına baxmayaraq, Şah İsmayıl Xətayi yazdığı çoxsaylı qəzəl, qəsidə, tərcibənd, rübai, qitə, qoşma, gəraylı, varsağı və bayatılarla yanaşı, həm də epik şeirimizə «Nəsihətnamə» kimi sufizmin panteist müddəalarını şərh edən fəlsəfi bir əsər, «Dəhnamə» kimi orijinal keyfiyyətlərə məxsus bir əsər bəxş etmişdir. Hökmdar şairin bu sahədəki xidmətləri xüsusilə diqqətəlayiqdir. Bunu nəzərə alan Xətayi tədqiqatçıları göstərmişlər ki: «Hökmdar və mürşid şair fikirlərini daha çox xalq şeiri ənənələri əsasında tərbiyələnən, nisbətən az savadlı olan və ya tam savadsız olan geniş kütlələrə, müridlərə, qızılbaş əsgərlərə çatdırmaq üçün doğma ana dili və janrların daha əlverişli olduğunu duymuş, onların sevdiyi, anladığı , başa düşdüyü dildən və formalardan istifadə etməyi özünə borc bilmişdir... bu şeirlərdə mürəkkəb, ziddiyyətli bir dövrün hərarətli səsi duyulur» [168,24].

Bəllidir ki, Səfəvilər dövlətinin yaranması geniş sosial təbəqələrin özülü üzərində qurulmuş, dövlətin yaranmasında



bir çox sosial zümrələr iştirak etmişdir. Dövlətin yaranmasını, özünün hökmdar olmasının səbəblərini də Xətayi öz əsərlərində əks etdirmişdir.

Gənc dövlətin dirəyi sayılan müridlər içərisində «əxilər», «qazilər» və «dərvişlər» zaman keçdikcə bir-biri ilə yaxınlaşıb qovuşdular. Sonradan onların yuxarı təbəqələri feodallaşaraq qızılbaş hərbçi əyanların, xidmət bəylərinin sırasına daxil oldular. Bu üç təbəqə haqqında Şah İsmayıl Xətayinin əsərlərində fəxrlə bəhs edilir. Həm də şair hər yerdə zülmün əleyhinə çıxır.

Yükün zülm isə arxandan buraxgil,
Təvərrüc eyləyib didarə buraxgil [73,231].

Yeni dövlət, yeni cəmiyyət, yeni düşüncə tərzi yaradan hökmdar şair gediləcək yolu tac-taxtdan üstün tutur, bu müqəddəs yolu özünün əsl mətləbinə çevirir.

Ey Xətayi, padişah olmaz kişi
Olmayınca uş bu dərgahın qulu
...Şah Xətayi aydır:- Sənindir fərman
Olursun hər qulun dərdinə dərman [73,223-225-233-249].

Şah İsmayıl Xətayi zəngin və çoxşaxəli bir ədəbi irs qoyub getsə də, o, az yaşamasına baxmayaraq həyatının çox hissəsini Azərbaycan dövlətçiliyinə sərf etmiş, bu müddətdə gördüyü işlər ona ölməzlik qazandırmışdır.

Şah İsmayıl Xətayi Azərbaycan xalqının siyasi və mədəni tarixinin ən parlaq səhifələrindən birinin yaradıcısı kimi tarixə öz möhürünü vurmuşdur. Onun apardığı müharibələr belə vahid Azərbaycan dövlətini yaratmaq arzusu və istəyindən irəli gəlmiş və o, bu müqəddəs istəyinə nail olmuşdur.

Şah İsmayıl Xətayi öz dövrünün ilk milli dövlətinin yaradıcısı kimi Azərbaycan tarixinə öz möhürünü vurmuş, Azərbaycan türkcəsini dövlət dili səviyyəsinə qaldırmış, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafı üçün ölçüyəgəlməz dərəcədə böyük işlər görmüşdür.

Şah İsmayıl Xətayi özündən əvvəlki ulu babalarının istək və arzularını həyata keçirərək parçalanmış, zəif düşmüş Azərbaycanı vahid bir dövlətdə birləşdirmişdi. O, «məmləkət daxilində yürütdüyü siyasət nəticəsində kəndlilərdən alınan vergiləri azaltmış, ölkə daxilində asayişi bərpa etmiş, ticarət yollarının təhlükəsizliyini təmin etmiş,...dövlətin siyasi hüdudlarını» genişləndirmiş, onu «təsadüfi basqınlardan qorumaq üçün çox mühüm tədbirlər görmüş» [105,7], Yaxın Şərqdə ən əzəmətli bir imperatorluq yaratmışdır.

XVI əsr Azərbaycanı dünyaya Məhəmməd Füzuli (1494-1556) kimi misilsiz bir şair, dahi mütəfəkkir, müdrik bir filosof da bəxş etmişdir. Füzuli mənəviyyat tarixində misilsiz lirik şair kimi tanınsa da, o, ictima-siyasi həyatla dərindən maraqlanmış, sadə ömür sürməyi sarayda yaşamaqdan üstün tutmuşdur. Bütün bunlarla yanaşı onun yaradıcılığında dövrün ideologiyasını əks etdirən xüsusi fəlsəfi məzmun daşıyan qiymətli əsərlər vardır. Bunu nəzərə alan tədqiqatçılar göstərirlər ki: «Mütəfəkkirə dünya şöhrətini poetik əsərləri qazandırsa da, fəlsəfəyə və fəlsəfə tarixinə, ümumiyyətlə, ideologiyaya həsr olunmuş... traktatları onun dünyagörüşünü, ideya istiqamətini, bütünlükdə yaradıcılıq yolunu müəyyənləşdirmək üçün böyük əhəmiyyətə malikdir... O, dini təlimlərin bu və ya digər məsələdə mövqeyini göstərərkən sofistlər, naturalistlər, dəhrilər, sabiilər, sufilər, işraqilər, mötəzililər, əşərilər və qeyriləri haqqında söz açmış..., müxtəlif problemlərin şərhi ilə əlaqədar olaraq Qərb filosoflarından Fales, Anaksaqor, Empedokl, Demokrit, Heraklit, Pifaqor, Sokrat, Platon, Aristotel, Prokl, Femisti və b., Şərq filosoflarından Farabi, Nəzzam, İbn Sina, Nəsirəddin Tusi və başqalarının...fikirlərinə əsaslanmış» [107,283], öz fəlsəfi müddəalarını irəli sürmüşdür.



Füzuli fəlsəfəsində dövlət, dövlətçilik, yerli idarəçilik məsələləri xüsusi yer tutur. Bu fəlsəfi görüşlərində mütəfəkkir belə hesab edir ki, o, öz müasirləri olan şahlara, sultanlara, yerli əmir və paşalara nəsihət edib onları ədalətə dəvət etsə, onlar xalqla yaxşı rəftar edər və şairin onlara aid etdiyi sifət və xüsusiyyətləri doğrultmağa çalışarlar ki, bu da ölkənin və dövlətin ədalətlə idarə olunması üçün faydalı olar. Mütəfəkkir şair nədən danışırsa danışsın, onu sonda dövlət və dövlətçiliklə əlaqələndirir, əsərlərində hərisliyə, xalq malını yeyənlərə qarşı açıq etirazını bildirir.

Dahi sənətkar öz əsərlərində zülmə, zalım şahlara qarşı öz nifrətini də bildirmiş, onları canavara bənzətmiş və göstərmişdir ki, əgər şah zalım olsa, xalq xoş gün görməz. Əgər kim şahlara yaxın olsa, o öz şirin canını «zəhərli əjdahalar cənginə salar» [61,265] deyirdi.

Zalımın zalım əli ilə məhv ediləcəyini göstərən şair şah sarayını «divlər məkanına» bənzətmiş, bu «şeytan məkanını» özlərinə məskən edənləri insan hesab etməmişdir. Çünki şairə görə şah xalqı soyub əyanlarına paylayır, əyanları da şahın xeyrinə xalqı çalıb-çapır [61,266-269].

Bütün həyatı boyu xalqın səadətini arzulayan mütəfəkkir şair kəndlinin əməyinə yüksək qiymət vermiş, dövrünün hökmdarlarına məsləhət görmüşdür ki, onun şahların xeyri üçün əkdiyi ağacı kəsib özünə taxt qurmasın, dehqanı məyus etməsin, kəndlinin qazancından şərik kimi pay aldığı üçün onun malını qorusun.

Ümummilli lider H.Ə.Əliyev də öz çıxışlarında mütəfəkkirin bu humanist fikirlərini bir daha xatırladaraq demişdir: «Füzuli bütün əsərlərində insanları sədaqətə, etibarlılığa, ata-anaya, vətənə, torpağa, eşqə, məhəbbətə, öz ülvi duyğularına sədaqətə dəvət etmişdir» [78,85].

Mütəfəkkir hökmdarlara məsləhət görür ki, xalqa xeyir versin, onlarla xoş rəftar edib xalqın hörmətini qazansın, çünki arı da bal verməklə şan-şöhrət qazanmışdır:

Çalış xalqa xeyir ver, xoş sifətlərlə qazan hörmət,
Arı bal vermək ilə əldə etmiş şöhrəti, şanı. [61,270]

Şair xalqa çatdırır ki, əgər yoxsulların idrakı olsa, şah və onun əyanlarının xalqı soyduğunu dərk etsə və düşünsə ki, ona ruzi verən şah deyil, tanrıdır, onda sağ olduğu müddətdə xaqana baş əyməz, onu tərifləməz.

Nədən ötrü gərək fəğfur ilə xaqana baş əysin?
Nədən ötrü gərək tərif etsin Keylə Kəsranı? [61,266].

Mütəfəkkir zülm ilə ədalətə fəlsəfi yanaşaraq göstərir ki, dünyanın işi əvvəlcə nizamlı idi. Bu nizamı zülm pozdu. Zülmün öncə yarandığını, ədalətin isə dünyanı nizama salmaq üçün zülmü yox etməyə gəldiyi və bunun üçün qayda-qanun yaradılmasını zəruri hesab edən dahi sənətkar bu işdə ədalətli insanların hakimiyyətə gəlməsini əsas sayır və belə hesab edir ki, ədalətli insanlar hakimiyyətdə olsa, dövlətdə qayda-qanun pozulmaz, insanlar bir-birinə kömək edər, «ölkəni gülşənə döndərər», dövlətin ömrü uzun olar.

Bu cahanın işi fitrətdə nizam ilə idi,
Lakin etmişdi onu zülm binadan bərhəm.
...Ölkəni gülşənə döndərdi bu ədlin axır,
Edəcək ölkəni bir cənnəti-gülzari-İrəm [61,213-214].

Şair-mütəfəkkir feodal münasibətlərini, şah üsul-idarəsini, dövlət hakimiyyətini, hakimiyyət nümayəndələrini tənqid etsə də, həyatın yaxşılaşdırılmasında, zəhmətkeş kütlələrin vəziyyətinin yüngülləşdirilməsində maarifpərvər, ədalətli monarxa ümid edirdi. Füzuliyə görə mərhəmətli və ədalətli hökmdar öz təbəələrinin rifahı və xoşbəxtliyi naminə tədbirlər görsə, xalq xoşbəxt yaşayar. O, zülm və ədalətsizlik səltənətinin zor vasitəsilə məhv edilməsinə deyil, münaqişə və münasibətlərin dinc yolla həllinə üstünlük verir, hökmdarları namuslu, ədalətli, xeyirxah, zəhmətkeş kütlələrə münasibətdə qayğıkeş, xalqın düşmənlərinə və xalqa zülm edənlərə qarşı isə barışmaz görmək istəyirdi.

Füzuli təbii hüquqa üstünlük verərək bərabərlik, azadlıq, ədalətlilik ideyalarını təbliğ edir, insanları hər cəhətdən azad, həyatın əziyyət və iztirablarından xilas olmuş görmək istəyirdi. Mütəfəkkir həm də insanları ədalətli qanunlara ciddi əməl etməyə çağırırdı.

Dünyada hər şeydən qiymətli insanı hesab edən, insanda da ən şərəfli gövhərin söz olduğunu göstərən şair: «Mən elə ki, əşyanın keyfiyyətini təhqiq üçün fərasət gözünü açdım, hikmət əsərlərinin tamaşası çölünə təfəkkür qədəmi qoydum, aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli gövhər tapmadım...Çünki söz insanlığın həqiqətindədir» - deyir [61,16-17].

Dövrünün hökmdarlarını mədh etməklə mütəfəkkir onları ədalətli olmağa, zülmü yox etməyə səsləmiş, bir çox hallarda da onların həqiqətən gördükləri xeyirxah işləri, dövlətçilik üçün gərəkli tədbirlərini yüksək dəyərləndirmiş, bütün bunların xalq üçün məqbul olduğunu qeyd etmişdir [61, 16-17].

Dövlətçilikdə sosial ədalət prinsipini hər şeyden üstün tutan böyük mütəfəkkir ölkəni ədalətlə idarə edən hökmdarlara hətta məsləhət görür ki, onlar haqqın, ədalətin olmadığı ölkələri də fəth edib, orada ədaləti bərqərar etsinlər [61,56-58].

Füzuli ədaləti «hikmət sirrinin aynası» adlandırır və göstərir ki, əsl hakim odur ki, verdiyi hökmə «mütabiq ola», onun zatında qırıqlıq, əməlində riya olmaya, xalqdan, fəqir-

füqəradan xəbərsiz olmaya, niyyəti xeyirxahlıq ola. Belə hakim Tanrının «rəhmət əsəri»dir. O, haraya getsə, oraya zövqü-səfa verər.

Hakim oldur ki, müvafiq ola hökmünə qədər,
Hakim oldur ki, mutabiq ola əmrinə qəza.
...Böylə hakim əsəri-rəhmətidir Yəzdanın,
Qanği iqlimə gədəm bassa verir zövqü səfa [61,131-132].

Dahi sənətkar elə bir hökmdar istəyir ki, iltifatı ilə fəqir, yoxsullara «sərvət paltarı» bəxş etmiş olsun. Mütəfəkkirə görə «adil hakim lütfi-ilahi sayılır»sa, zülmkar hökmdar belə şərafətdən məhrumdur. Eləsinə gec-tez Tanrı divan tutar. Çünki zülüm ölkəni viran qoyar [61,26].

Bir insanın başqa bir insandan yüksəkliyinin meyarını «Allahı tanımaqda» görən mütəfəkkir şairin fikrincə, belə yüksəklik heç də «diləncilik və yaxud padşahlıq rütbəsindən asılı deyildir... Məxluqun yaradılmasında məqsəd Xaliqə ibadət etməkdir. Məxluqun məxluqa adət etməsi layiq deyil» [61,26].

Mütəfəkkirin dövlət və dövlətçiliklə bağlı görüşlərinin araşdırılmasında «Bəngü Badə» əsəri xüsusi yer tutur. Bu əsərin dərin qatlarında Səfəvi və Osmanlı dövlətlərinin bir-birinə münasibətlərinin tarixi öz əksini tapsa da, ümumilikdə o dövrün dövlət sistemi, ordusu haqqında məcazlar vasitəsilə müfəssəl məlumatlar verilmişdir [60,253-254].

Dövlətçilik, sosial-siyasi və etik-əxlaqi məsələləri əhatə etmək baxımından şairin «Rindü Zahid», «Mətləül-etiqad», «Şikayətnamə» kimi əsərləri xüsusilə diqqətəlayiqdir. Həmin əsərlərində də böyük Füzuli məhəbbəti insan həyatının son məqsədi sanmış, «dövrün demokratik ideyalarını müdafiə etmiş, bütün insanların bərabər olmasını arzulamışdır» [59,460].

Bəllidir ki, Şah I Abbasın hakimiyyəti dövründə (1587-1629) yeridilən səhv siyasət nəticəsində «Azərbaycan Səfəvi



dövlətinin dayağı olan azərbaycanlı qızılbaş tayfa birliyinin əsası...sarsılmaqla» [42,462] bu dövlət İran – fars dövlətinə çevrilməyə başladı. Tarixi həqiqətlərin təhlili göstərir ki, «əgər birinci yüzillikdə birləşmiş dövlətdə Azərbaycan qızılbaş dövlətinin ənənələri üstünlük təşkil edirdisə və Azərbaycan, Təbriz mərkəz idisə, sülalənin hakimiyyətinin ikinci yüzillikdə üstünlük İrana, İsfahan mərkəz olamaqla, fars etnik ünsürlərinə verildi» [42,462]. Bununla da Azərbaycan xalqının həyatında, onun dövlətçilik tarixində acı-ağrılarını bu günədək belə hiss etdiyimiz, məruz qaldığımız bəşər aləmində analoqu olmayan böyük məhrumiyyətlər və torpaq itkiləri üçün yol açıldı. Təbrizin paytaxtlıqdan çıxarılması Azərbaycana və Azərbaycan xalqına çox baha başa gəldi. Səfəvi türk dövləti tədricən farsların nəzarəti altına keçdikcə, ölkənin iqtisadi, hərbi və siyasi qüdrəti sarsılırdı. Bu da təbiidir ki, onun mədəni, ədəbi, fəlsəfi, ictimai-siyasi mühitinə də öz təsirini göstərməyə bilməzdi. Ölkədə gedən etnik miqrasiya ilə yanaşı beyin axını başladı. Azərbaycanın bir çox görkəmli şair, alim, filosof və ictimai xadimləri vətəndən çıxıb öz fəaliyyətlərini başqa ölkələrdə davam etdirmək məcburiyyətində qaldılar. Lakin bütün bunlar Azərbaycan fəlsəfi, ictimai-siyasi fikrinin gələcək inkişaf yollarının qarşısını əsla ala bilməmişdir. Bunu XVII-XVIII yüzilliklər Azərbaycan ədəbi, fəlsəfi və ictimai-siyasi fikir tarixinin Yusif Qarabaği, Saib Təbrizi, Vaqif, Vidadi kimi görkəmli nümayəndələrinin zəngin mənəvi irsindən bir daha aydın görmək olur.

Belə ki, bir çox traktat və şərhlərin müəllifi, Yaxın və Orta Şərqdə «Böyük Axund» təxəllüsü ilə tanınmış, «sxolast, filosof və kübravilik sufi ordeninin nümayəndəsi» [107,299-300] Yusif Məmmədcan oğlu Qarabaği (?-1645) «Şərq ölkələrinin fəlsəfi və ictimai-siyasi fikrinin sonrakı inkişafına böyük təsir göstər»mişdir [104,92]. O, özünün məşhur «Həft behişt» («Yeddi cənnət») əsərində fəlsəfi, təbii-elmi baxışları ilə yanaşı, ictimai məna daşıyan dövlət

idarəçiliyi ilə də bağlı dəyərli fikirlər irəli sürmüşdür. Onun da dövlətçiliyə dair mülahizələri kamil insan konsepsiyasına söykənmir. Filosofun «Həft behişt» əsərini 1997-ci ildə farscadan Azərbaycan dilinə çevrilmiş variantına yazdığı ön sözdə M.Məhəmmədi qeyd edir: «Həcmcə kiçik bir əsərdə alimin insan haqqında mükəmməl və sistemli konsepsiyası öz əksini tapmışdır. Bu konsepsiya Şərq-İslam mədəniyyətinin minillik ənənəsinə əsaslanır və bir növ onun yekunu təsiri bağışlayır» [87,4].

Qarabağinin fikrincə, kamil insan ən azı dörd mühüm keyfiyyətə malik olmalıdır ki, bunlar da ismət, ədalət, cəsarət və mənəvi təmizlikdən ibarətdir [87,16-17-31].

XVII əsrin digər Azərbaycan mütəfəkkirləri kimi, Qarabaği üçün də ədalətsiz feodal ictimai və dövlət quruluşunun, haqsızlığın, zülmün tənqidi, ədalət ideyalarının tərənnümü isə mühüm əhəmiyyət kəsb edirdi [160,100].

O dövr Azərbaycan xalqının ideya-siyasi həyatında dərin iz qoymuş Məhəmmədəli Saib Təbrizi də (1601-1676) məhz həmin mövqedən çıxış etmişdir. Səfəvilərin hakimiyyəti dövründə «Məliku-şüəəra» adını qazanmış poetik, elmi və fəlsəfi istedadını siyasi uzaqgörənliklə birləşdirməyi bacaran Saib Təbrizi zəngin yaradıcılığı ilə həm də bir çox müasirlərindən fərqlənirdi. Qədim yunan, hind və Şərq fəlsəfəsini dərindən mənimsəyən dahi sənətkar Həllac Mənsura rəğbətlə yanaşmış, insan, həyat, haqq, ədalət, azadlıq, insaf, mərdlik və ən başlıcası dövlət, dövlətçilik və dövlət başçısı haqqında özünəməxsus fikirlər söyləmişdir.

Azərbaycan ictimai-siyasi, ideoloji-fəlsəfi fikrinin qabaqcıl ənənələrini davam etdirən dahi sənətkar öz yaradıcılığında zülmü, vəzifə hərislərini, özlərini hamıdan yüksək tutan məmurları, qərəzli insanları, riyakar ruhaniləri, fitnəkarları, var-dövlət hərislərini kəskin tənqid etmişdir. Belə ki, şair zülmə, zalıma qarşı nifrətini bildirərək göstərir ki:

Sordu xalqın qanını zalım adamlar zəli tək,

Təşnə insan yuxuda hey suyun ardınca qaçar [160,100].

Öz müasirlərini xalqın içinə getməyə, onların dərdinə şərik olmağa səsləyən şair göstərir ki, həşrin oduna dünyada o kəslər yanmaz ki, həyatda onlardan xalqa bir ziyan dəyməsin.

.. Yanmaz həşrin oduna dünyada o kəslər ki,
Həyatda xalqa o kəsdən yetişməyibdi ziyan [160,162-166].

Mütəfəkkir şair mənəvi dəyərlər olan insaf, gözütoxluq, mərdlik kimi keyfiyyətləri yüksək qiymətləndirərkən daha çox insanın özünüdərk fəlsəfəsi üzərində maraqlı mülahizələr irəli sürür, «əsl Kəbə xalq»dır deyir.

İnsaf əhli deyərəm xalqa yaxınlıq edənə
Əsl Kəbə odu, ətrafı biyaban olsun.
.. Özünü dərk edənlər rəhbərdən imdad ummaz... [160,129].

Saibin yaradıcılığında şəxsiyyət azadlığı ideyası mühüm yer tutur. «Pərgartək hər nöqtəyə baş əyməyi» alçaqlıq hesab edən şair asudə yaşamağa bir yer olmasına baxmayaraq insanın öz ürək qanını udub azad yaşamasını tövsiyə edir. Azadlığı ən gözəl nemət hesab edən şair şeirlərində azadlığı gözəllikdə sərvə bənzədir. Şair göstərir ki, elə zənn edirdik ki, «hər işi asanca həll etmək olar», ancaq sən demə «şahinin cəngində imiş... istiqbalımız».

Yoxdu bir asudə yer ki, daldalanmaq rəsm ola,
Çünki asudə adında indi nemət qalmayıb.
...Zənn edirdik, hər işi asanca həll etmək olar,
Şahinin çəngində imiş ancaq istiqbalımız[160,92-95-115].

Bütün yaradıcılığında humanizmi, insan azadlığını, ədaləti təbliğ edən mütəfəkkir həmişə hökmdarları rəiyyəyə insafla rəftar etməyə dəvət edir.

XVII əsrin sonu XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycanda dərinləşməkdə olan siyasi və iqtisadi böhran vaxtilə on bir illik hakimiyyəti dövründə mərkəzləşmiş Azərbaycan dövlətini bərpa etmiş, Hindistan və Əfqanıstanı fəth etmiş Nadir şah Əfşarın vəfatından sonra (1747) daha da kəskinləşir, nəticədə min bir əziyyətlə yaradılan imperatorluq dağılır. Azərbaycan dövlətçiliyi uğrunda mübarizə yeni mərhələyə qədəm qoyur. XVII əsrin ortalarında Azərbaycanda «hər bir şəhər ətrafında müstəqil və yarımmüstəqil feodal dövlətləri – xanlıqlar meydana gəlir» [42,52]. Beləliklə də, Azərbaycan mərkəzləşdirilmiş dövləti xanlıqlara parçalandı. Mütəxəssislər göstərirlər ki, «bu xırda feodal dövlətlərinin yaranmasının əsas səbəbi ölkədə təsərrüfatın natural xarakter daşıması, iqtisadi əlaqələrin zəif olması, feodalların mərkəzdənqaçma meylləri ilə izah edilməlidir» [102,276]. Bu göstərilənləri qəbul etməklə yanaşı, onu da qeyd etməyi lazım bilirik ki, mərkəzi dövlətin xanlıqlara parçalanmasında vahid siyasi mərkəzin və vahid liderin olmaması, beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişməsi, regionda çar Rusiyasının daha da güclənməsi və imperiya siyasəti yürütməsi, feodalların vahid dövlət yaratmaq siyasətini yürüdənlərə qarşı çıxması da mühüm səbəblərdəndir.

Nadir şahın ölümündən sonra Azərbaycanın istər güneyli, istərsə də qüzeyli ərazisində yaranmış on yeddi xanlıq, beş sultanlıq və beş məliklik kimi qurumlar ölkənin dövlətçilik ənənəsində, inzibati vahidliyində, idarəçilik, məhkəmə sistemində və s. ciddi təbəddülatlara, ziddiyyət və çəkişmələrə səbəb olmaya bilməzdi. Bütün bunlar isə təbii ki, ölkənin bütövlüyünə xələl gətirdiyi kimi, onu iqtisadi-siyasi cəhətdən də sarsıdır, bununla da gələcəkdə yadelli işğalçılar arasında torpaqlarının bölüşdürülməsi, vahid xalqının parçalanmasına şərait yaratmış olurdu. Söz yox ki, o dövrün qabaqcıl zəka sahibləri bütün bunlara əsla biganə qala bilməzdilər. Bunu Molla Vəli Vidadi və Molla Pənah Vaqifin yaradıcılığından daha aydın görmək olur.



Yeri gəlmişkən, məsələ ilə bağlı belə bir mühüm cəhətə də ayrıca diqqət yetirmək lazım gəlir ki, bütün ziddiyyətlərinə baxmayaraq, çağdaş Azərbaycan tarixçilərinin də bir qisminin fikrincə, «xanlıqların yaradılması ilə Azərbaycan xalqının dövlətçiliyi bərpa olundu. Bunu xanlıqların müstəqil xarici siyasət yürütmələri də sübut edir» [102,295].

O zaman Azərbaycan xanlıqlarının hər biri özünü müstəqil sayır, müstəqil xarici siyasət yeridir, bir-biri ilə müharibə edir, hər biri öz ərazilərini genişləndirməyə çalışırdılar. Lakin hərbi-siyasi cəhətdən zəif olmaları, ara müharibələri onları daha da zəiflədirdi. Bütün bunlar xanlıqları məcbur edirdi ki, onlar güclü dövlətlərlə müəyyən münasibətlər yaratsınlar. Çar Rusiyasına da meyllər beləcə yaranırdı. O dövrün Vidadi, Vaqif, Zakir kimi qabaqcıl ziyalıları bütün bunları görür, öz tərəflərindən xalqın dərdinə əlac qılmağa *çalışırdılar*. Bu da məlumdur ki, Şah İsmayıl Xətayidən sonra ədəbi-bədii yaradıcılıqda mərhələ-mərhələ aparıcı mövqeyə çatmaqda olan folklor üslubu nəhayət XVIII yüzillikdə özünün ən yüksək mərhələsinə çatır. Azərbaycan xanlıqlar dövrü həm də milli ədəbi dilin təşəkkülünün başlanğıc dövrü kimi əlamətdardır.

Azərbaycan ədəbiyyatında qoşma, gəraylı ustadı kimi tanınan Vidadi Azərbaycan milli ədəbi dilinin inkişafında özünəməxsus yer tutur. Onun aşıq şeiri və klassik poeziya üslubunda yaratdığı qoşma, gəraylı, bayatı, qəzəl və müxəmməsləri və «Müsibətnamə» poeması fikir və məna aydınlığı, sənətkarlıq məziyyətləri baxımından Azərbaycan xalqının yaşadığı tarixi qəm və kədərin salnaməsidir. Xalqının yaşadığı bu dərd, qəm, kədər Vidadi yaradıcılığında ictimai-fəlsəfi məzmun daşımış, onun əhvali-ruhiyyəsini, şairanə düşüncələrini əks etdirmiş, yaşa-

dığı mühitdə orta əsr həyatına, hakim zümrələrinə münasibətini aydınlaşdırmışdır.

Vidadi yaradıcılığının tədqiqatçıları qeyd edirdilər ki, o, qələmə aldığı əsərlərində əslində «əsrin ictimai-siyasi hadisələrinin, xanlıqlar dövrü ziddiyyət və faciələrinin şair qəlbində oyatdığı duyğuları əks etdirir» [163,7].

Vidadinin kədəri əsla fərdi səciyyə daşımır. Onun kədəri tarixi-ictimai zəminlə bağlı, həyatın özündən doğan kədər idi. Onun dərdi elinin-ulusunun, doğma yurdunun, onun insanlarının dərdi idi. Onun bu kədəri zəmanəsindəki məzlum insanların tarixi faciəsindən irəli gəlirdi. Vətənində ara verməyən daxili çəkişmələr, savaşlar olduğu bir vaxtda vətənpərvər şair xalqın dərdinə, onun halına yanaraq kədərlənir, vətəninin ayrı-ayrı xanlıqlara bölünməsinə ürəkdən acıyır.

Onun «Müsibətnamə» əsəri XVIII əsr Quzey Azərbaycan xanlıqlarında baş verən tarixi hadisələrin epik salnaməsidir. Əsər bütün XVIII əsr Quzey Azərbaycan xanlarınan bir-biri ilə savaşlarını, onların diplomatik və siyasi gedişlərini tarixi baxımdan dolğun əks etdirir. XVIII əsrdə yaşayıb yaratmış bir sıra şairlərin, ziyalı və dövlət xadimlərinin, xüsusilə də Molla Pənah Vaqifin Vidadi ilə yaxınlıq etməsi, şəxsiyyətinə, yaradıcılığına böyük rəğbət göstərməsi heç də təsadüfi deyildi.

Xanlıqlar dövrünün ən mühüm cəhətlərindən biri də milli ədəbi dil ilə realist tənqidi əsərlərin meydana gəlməsidir ki, bunun da ilk zirvəsi kimi Molla Pənah Vaqifin yaradıcılığını hesab etmək olar. O, hələ Qarabağ xanının sarayında böyük vəzifə sahibi ikən yazdığı şeirlərində «təkcə öz şəxsi narazılıqlarını ifadə etməklə kifayətlənmir, burada haqsızlıq üzərində qurulmuş, ağıllı adamları zillətdə saxlayıb, alçaqları mötəbər hesab edən cəmiyyətin ədalətsizliyi, xanların şöhrət, hakimiyyət üçün apardıqları müharibə və qanlı siyasətə qarşı xalq etirazının ümumiləşdirilmiş bədii ifadəsi verilmişdir» [25,9-10].



İstedadlı dövlət xadimi olan Vaqif, heç şübhəsiz ki, bütövlükdə feodilizm sisteminin ləğv edilməsi fikrini irəli sürməmişdir. Hətta yaradıcılığının ilk dövrlərində Vaqif cəmiyyətdəki mövcud nöqsanların və ədalətsizliklərin müdrik və xeyirxah hökmdar tərəfindən aradan qaldıracağına inanırdı. Tədqiqatçıların da qeyd etdiyi kimi: «O, sadəlövhcəsinə güman edirdi ki, hökmdarın hərəkətlərini ağıllı və ədalətli məcraya yönəltmək olar. Lakin həyatın özü onun bu ümidlərinin nahaq olduğunu şairə inandırdı. Həyatının sonuna yaxın o, nəinki zalım hökmdarlara müqavimət göstərməyin mümkünlüyünü qəbul edir, hətta birbaşa müstəbidləri məhv etməyə çağırır. O, şahları xalq üsyanları ilə qorxudur» [104,97]. Bu cəhətdən şairin «Bax» rədifli qəzəli daha xarakterikdir.

Vaqif yaradıcılığı sadəliyi, ideyaların yeniliyi və məzmun demokratikliyi ilə seçilir. Bütün bunların nəticəsidir ki, onun əsərləri xalq arasında geniş yayılmış, özündən sonrakı milli şeir yaradıcılarının ideya qaynağı olmuşdur. Vaqif yaradıcılığı Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafına təkan verməklə yanaşı, həm də milli dövlətin ən mühüm atributlarından biri olan milli ədəbi dilin formalaşmasında müstəsna rol oynamışdır.

Tarixi tədqiqatlarda diqqəti cəlb edən belə bir fakta toxunulur ki, «Nadir Şahın ölümündən və qurduğu imperatorluğun dağılmasından sonra müstəqil və yarımmüstəqil xanlıqlar yaranmışdısa, Ağa Məhəmməd Şah Qacarın ölümündən sonra bu xanlıqların bütün varlığı böyük təhlükə qarşısında idi» [55,572]. Azərbaycan belə bir vəziyyətdə XIX əsrə daxil oldu.

XIX əsr Azərbaycan tarixinin ən faciəli və məşəqqətli əsri olsa da, tarixi zamanın qarşısıalınmaz qüvvələrinə rəğmən çıxa bilməmiş, yeniliyin, milli oyanışın qarşısını ala bilməmişdir. Yuxarıda araşdırılan orta əsrlər dövründə meydana çıxmış ədalətli, humanist dövlətçilik haqqındakı fəlsəfi-siyasi təlimlər yeni - XIX əsrdən Azərbaycanda müa-

sir anlamda müstəqil deyilən milli demokratik dövlətçilik ideyalarının təşəkkülü üçün əlverişli ideya-nəzəri zəmin hazırlamışdır.



# II FƏSİL

## AZƏRBAYCANDA RUS İŞĞALININ BAŞLANMASI VƏ İŞĞADAN SONRAKI AZƏRBAYCAN İCTİMAİ-SİYASİ, FƏLSƏFİ FİKRİNDƏ DÖVLƏTÇİLİK İDEYALARI

### § 1. XIX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində dövlətçilik ideyaları.

XIX əsr məlum olduğu kimi Azərbaycan xalqının tarixinə ən faciəli bir dövr kimi daxil olmuşdur. O dövrün bəşər tarixində analoqu olmayan hadisələri – vahid bir xalqın ikiyə parçalanması, torpaqlarının imperiyalar arasında bölüşdürülməsi, bu xalqın qədim dövlətçiliyinə 1828-ci il Türkmənçay sövdələşməsi ilə son qoyulması və milli müstəmləkə zülmünə məhkum edilməsi bu gün də izsiz qalmamış və öz təsirini hələ də göstərməkdədir. Bu haqda indiyədək heç də az yazılmamışdır. Lakin əsl tarixi həqiqətləri üzə çıxarıb ictimaiyyətə çatdırmaq bizə indiki milli müstəqillik zamanında müyəssər ola bilmişdir.

XIX əsr, hər şeydən əvvəl, Güney Azərbaycanın İran şahlığı, Quzey Azərbaycanın Osmanlı Türkiyəsinin, ümumiyyətlə. türkdilli müsəlman xalqlarının ənənəvi düşməni, I Pyotrdan üzü bəri Yaxın Şərqdə hegemonluq iddiasında olan çar Rusiyası tərəfindən işğalı dövrüdür. Hələ XVIII əsrdən ayrı-ayrı xanlıqlara bölünən, öz bütövlüyünü itirən, mərkəzləşmiş dövlətçiliyindən məhrum olan Azərbaycan XIX əsrin birinci rübündə öz milli müstəqilliyini də itirərək İran və Rusiyanın müstəmləkəsinə çevrilməsi xalqımızın böyük tarixi faciəsinin başlanğıcı demək idi. Cənubi Azərbaycanın fars, Şimali Azərbaycanın isə velikorus şovinizmlərinin sarsıdıcı təsirlərinə məruz qalması bunun bariz təzahürü idi. Lakin onu da qeyd etmək lazımdır ki, parçalanmış, işğal edilmiş Azərbaycanın şimalında vəziyyət qat-qat məşəqqətli olmuşdur. Bu münasibətlə M.Ə.Rəsulzadə 1912-

ci ildə belə yazır: «İranda türklər, nə Rusiyada olduğu kimi məhkum və nə də Türkiyədə olduğu kimi hakim bir millət deyildilər. İran türkləri əsil İranlı olan farslarla hüquqda musavi vətəndaş halında bulunuyorlar...» [129,115].

Bu əsr Azərbaycan fəlsəfi, ictimai-siyasi fikrinin inkişaf tarixinin çox mühüm, həm də bəzi çağdaş fəlsəfi ədəbiyyatımızda əsaslı vurğulandığı kimi, mahiyyətcə yeni dövrünü təşkil edir [157,53]. Bütün tarixi məhrumiyyətlərinə baxmayaraq həmin dövr milli oyanışla, milli intibahla daha əlamətdardır, əhəmiyyətlidir. Tədqiqatımızda da məhz problemin bu cəhətdən araşdırılıb işıqlandırılmasına üstünlüyün verilməsi heç də təsadüfi deyildir.

Bu dövrün ən əlamətdar hadisəsi bir də ondan ibarətdir ki, məhz həmin dövrdən başlayaraq Azərbaycan fəlsəfi və ictimai-siyasi fikri sözün həqiqi mənasında milli xarakter kəsb etməyə başlayır. Bunun da öz növbəsində milli şüurun formalaşmasında, milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülündə müstəsna rolu olmuşdur.

Professor S.S.Xəlilovun yazdığı kimi: «Milli-fəlsəfi fikir anlayışının məğzində millətin düşüncə tərzi, milli mentalitet, milli ideallar və bu ideallara çatmaq uğrunda mübarizənin ideya əsasları dayanır» [77,44].

Milli-fəlsəfi və ictimai-siyasi fikir milli özünüdərk, milli oyanışın bilavasitə nəzəri, tarixi-məntiqi ifadəsi deməkdir.

Bu dövrün ən böyük mənəvi uğuru Azərbaycan ideyasının təşəkkül tapması və şüurlara aşılanması idi. Azərbaycan ideyası özündə vətənin tərəqqisi, bütövlüyü, azadlığı uğrunda mübarizə əzmini, istək və arzuları, bu yolda milli həmrəylik, milli birlik məramını ehtiva etmişdir. Bunu XIX əsr Azərbaycan mütəfəkkirlərinin nəzəri irsinin araşdırılmasından bir daha aydın görmək olur.

Həqiqətən də, Rusiya imperiyasının əsarəti altına düşmüş Şimali Azərbaycan türkləri məhkum millət idi və çarizm işğalın ilk anlarından bu istiqamətdə müxtəlif inzibati,



məhkəmə və s. islahatlar həyata keçirməklə məqsədinə nail olmağa çalışmışdır.

Məlumdur ki, 1801-ci ildən 1813-cü ilə və nəhayət 1828-ci ilə qədər Quzey Azərbaycanın bütün xanlıqları ləğv edilərək Rusiya imperiyasının rəsmi inzibati ərazi xəritəsinə daxil edildi. Azərbaycan təkcə ikiyə parçalanmadı, o həm də mənəvi-ideoloji, dini cəhətdən də iki müxtəlif geosiyasi və geoinzibati rejimin təsiri altına düşdü. Quzey Azərbaycanda müstəmləkə üsul-idarəsi tətbiq edildi. Xanlar komendantlar və qubernatorlarla əvəz olundu, zadəganlıq və bəylik ləğv edildi. Şəxsi malikanələr belə müsadirə olundu. Kəndlərdə əlavə rüsum və töycülər bilavasitə imperiya qaydalarına uyğunlaşdırıldı. Rusiya imperiyası Azərbaycanda öz iqtisadi işğalçılıq planını da həyata keçirməyə başladı, Azərbaycanı özünün xammal bazasına çevirdi və beləliklə də, Quzey Azərbaycan dövlətçiliyinə son qoyuldu.

Xalqımızın başına gəlmiş faciələrin tarixi kökləri əsasən onunla bağlı olub ki, çarizm Şimali Azərbaycanda özünün mənfur müstəmləkəçilik siyasətini yabançı ruslaşdırma, xristianlaşdırma istiqamətində aparmışdır. Ən dəhşətli olanı burasındadır ki, həmin siyasət mürtəce məqsədli erməniləşdirmə planları əsasında, işğalın ilk illərindən başlayaraq İrandan və Türkiyədən köçürülmüş ermənilərin ləğv edilmiş Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazilərində kütləvi məskunlaşdırılması yolu ilə həyata keçirilirdi. Bu haqda rus tədqiqatçısı N.N.Şavrovun hələ 1911-ci ildə yazmış olduğu kitabındakı belə bir qeyd daha çox diqqətəlayiqdir: «Biz müstəmləkəçilik fəaliyyətinə Zaqafqaziyada rus əhalisinin deyil, bizə yad olan xalqların ... yerləşdirilməsindən başladıq ... Müharibədən sonrakı iki il ərzində, 1828-dən 1830-cu ilə kimi biz Zaqafqaziyaya İrandan 40 mindən çox, Türkiyədən 84 mindən çox erməni köçürmüş və *onları erməni əhalisinin azlıq təşkil etdiyi Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında ... yerləşdirmişik* (kursiv bizimdir – R.Ə.)». Bu köçürmələr nəti-

cəsində XX yüzilliyin başlanğıcında Cənubi Qafqazda yaşayan 1 milyon 300 min nəfər ermənininin 1 milyondan çoxu «diyarın köklü sakinləri olmayıb bizim tərəfimizdən məskunlaşdırılmışdı» [230,59-61].

Bütün bunlar Azərbaycan xalqının həyatında, onun gələcək tarixi inkişaf yolunda kəskin fəsadlar, problemlər törətmiş olsa da, bu, inkişafın, milli oyanışın qarşısını əsla ala bilməmiş və bilməzdi də.

Rus çarizminin məhkum milli mədəniyyətlər əleyhinə çevrilən qatı şovinist siyasətinə baxmayaraq, dünyada gedən proseslər Rusiyaya da öz təsirini göstərdi və imperiyanın tərkibinə daxil edilən Quzey Azərbaycanın da o dövr Avropa mədəniyyəti ilə təmasa girməsinə obyektiv-tarixi şərait yaratdı. İmperiyanın tərkibində Azərbaycanın Avropada güclənməkdə olan əmtəə tədavülü prosesinə cəlb olunması təbii olaraq onun iqtisadi, sosial, eləcə də mədəni həyat sahələrində yeniləşməyə, təbəddülatlara gətirib çıxartmaya bilməzdi.

XIX əsr çar Rusiyasında da Avropada olduğu kimi feodal ictimai münasibətlərində ziddiyyətlər dərinləşir, nisbətən mütərəqqi burjua münasibətləri yaranmağa başlayır, kapitalist istehsal üsulları qərarlaşır. Bu proses getdikcə imperiyaya daxil olan ölkələrdə, o cümlədən də Quzey Azərbaycanda da özünü büruzə verməyə başlayır. Zorla imperiyaya birləşdirilən Quzey Azərbaycanda feodal pərakəndəliyi və daxili müharibələr aradan qaldırılır. Rus kapitalizmi Azərbaycanı tədricən dünya əmtəə tədavülünə cəlb edir, onun arxaik yerli xüsusiyyətlərini aradan qaldırır. Azərbaycanın qiymətli, zəngin neft sərvətinin vəhşicəsinə istismarına baxmayaraq, burada sonralıqca əsrin ikinci yarısında imperiyada ən iri kapitalist neft sənayesinin meydana gəlməsi milli oyanışda mühüm rol oynamış, bunun üçün zəruri ictimai şərait yaratmışdır.

İşğaldan sonra çar hökuməti diyarın müxtəlif idarələrində işləmək üçün rus dilini bilən və Rusiyanın inzibati si-



stemini ilə tanış olan məmurlar hazırlamaq məqsədilə dövlət məktəblərini açmağa başladı. Qəza məktəbləri bu cür təhsil ocaqlarının ilk nümunəsi kimi yaradılırdı. Belə məktəblər ilkin olaraq Şuşada (1830), Bakıda (1832), Nuxada (1832), Gəncədə (1833), Naxçıvanda (1837) və Şamaxıda (1838) açılmışdı [52,10]. Mütəxəssislərin də qeyd etdikləri kimi, maarif sahəsində görülən işlər müstəmləkəçilik siyasətinin həyata keçirilməsinə xidmət edir. Lakin Avropa tipli maarif və dünyəvi təhsil ocaqlarının yaranması özlüyündə müsbət hadisə idi.

Bəhs edilən dövrün ən mühüm hadisələrindən biri və başlıcası yeni, tərəqqipərvər, vətənpərvər ruhlu ziyalılar nəslinin formalaşmağa başlaması idi. Həmin ziyalıların o dövrün milli-mədəni oyanışında, yeni düşüncə tərzinin, yeni məfkurənin formalaşmasında ana dilli realist milli ədəbiyyatın yaranmasında misilsiz xidmətləri vardır. A.Bakıxanovun, M.Ş.Vazehin, Q.Zakirin, S.Ə.Şirvaninin, M.F.Axundovun, H.Zərdabi və onun davamçılarının yaradıcılığı Azərbaycan mədəniyyətinin, fəlsəfi, ictimai-siyasi fikrinin inkişafında bütöv bir dövrü təşkil edir. Tədqiqat boyu görəcəyik ki, onlar çoxşaxəli və zəngin yaradıcılıqları ilə gələcəkdə milli demokratik dövlətçilik məfkurəsinin təməl daşlarını qoymuşlar.

Bu dövrdə iqtisadi, mədəni həyatda təbəddülatların çox ləng getməsinə baxmayaraq Azərbaycanda da ideoloji-siyasi və ədəbi prosesdə yeni, mütərəqqi cərəyanların, tənqidi realist yaradıcılıq metodunun yaranması üçün təkan oldu. XIX əsrin ortaları Azərbaycan maarifçiliyinin formalaşması dövrüdür ki, bu da milli dövlətçilik məfkurəsinin təşəkkülü üçün ideya-nəzəri zəminin hazırlanması demək idi. Azərbaycan maarifçiliyi fəlsəfəsinin ilk tədqiqatçılarından prof. Ə.M.Əhmədov 1983-cü ildə nəşr olunmuş eyni adlı monoqrafiyasında yazırdı: «Azərbaycan maarifçiliyi fəlsəfəsi oyanmaqda olan milli mənlik şüur fəlsəfəsidir» [212,290]. Təkzibedilməz tarixi həqiqətdir ki, maarifçilik

hərəkatının milli-mədəni oyanışda, milli şüurun formalaşmasında mühüm rolu olmuşdur. Bu fəlsəfə insan əqlinə hədsiz inamı, ictimai tərəqqidə elmin, maarifin rolunun mütləqləşdirilməsi, orta əsr geriliyinin, cəhalətin, dini fanatizmin, ədalətsizliyin, feodal qayda-qanunlarının inkarı, tərəqqinin, şəxsiyyət azadlığının, bərabərliyin qızğın təbliği ilə daha çox seçilir.

Problemin mənşəyinə tarixilik baxımından nəzər saldıqda bunu da ayrıca qeyd etmək lazım gəlir ki, XIX əsrin birinci yarısından başlayaraq Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində maarifçilik ideyalarının meydana gəlib inkişaf etməsində Avropadan gələn ideya təsirlərinin heç də az rolu olmamışdır. Belə ki, XVI-XVII əsrlərdən etibarən Avropada başlanan millətlərin təşəkkülü -prosesi və milli dövlətlərin yaranması, dünya fəlsəfi və ictimai-siyasi fikrində yeni bir mərhələnin başlanmasına təkan verdi. Bu mərhələdə maarifçilik hərəkatı xüsusi yerlərdən birini tutur. Həmin proses milli şüur, milli özünüdərk, milli təşəkküllə müşayiət edilirdi. Azərbaycan maarifçiliyi də xalqı maarifləndirmə, milli oyanış cəhdləri ilə başlandı. A.Bakıxanovun (1794-1847) ana dilində məktəblərin açılması uğrunda başladığı mübarizəni Azərbaycan mədəniyyətinin M.Ş.Vazeh, Q.Zakir, S.Ə.Şirvani və başqa görkəmli nümayəndələri daha da inkişaf etdirdilər. Böyük mütəfəkkir, filosof M.F.Axundov müasir mənada «millət» anlayışını işlətmiş, milli mətbuatımızın banisi H.Zərdabi isə 1875-ci ildən həmin istiqamətdə bu işi davam etdirmişdir. 1880-ci ildə isə nəşr olunmağa başlanan «Kəşkül» qəzeti bu ənənəyə sadiq qalaraq «türk milləti» ifadəsini işlətmişdir. Sonralara «Ziya» qəzetində «millət», «istibdad», «haqq» kimi sözlərə tez-tez rast gəlmək olur.

Ümumiyyətlə, bir qədər irəli gedib qeyd etmək lazımdır ki, bütün xalqların millətləşmə prosesində maarifçilik hərəkatı mühüm yerlərdən birini tutmuşdur. Geniş mənada maarifçilik xalqı maarifləndirmək, xalq kütləları içərisində mədəniyyəti, elmi, sənəti yaymaq, xalqın şüurunu dini xurafat və başqa mövhum düşüncələrdən azad etmək deməkdir. Lakin «maarifçilik» məfhumunun başqa bir mənası da vardır. Maarifçilik həm də bir qədər əvvəldə göstərildiyi kimi, feodalizmə və onun ictimai-iqtisadi normalarına qarşı mübarizə idi. Bu, cəmiyyətin qabaqcıl fikirli adamları tərəfindən irəli sürülmüş bütöv bir baxışlar məcmusu və sistemidir.

Ümumiyyətlə, bütün xalqların maarifçilərinin, o cümlədən Azərbaycan maarifçilərinin düşüncələrində ümumi cəhətlər çoxdur. Lakin bu heç də milli özünəməxsusluğu istisna etmir və Azərbaycan maarifçiliyinin spesifik cəhətləri də az deyildir. Azərbaycan maarifçiləri qarşısında duran problemlər daha çox olub. Bu o zaman Azərbaycanda mövcud olan rus işğalının yaratdığı problemlərlə bağlı idi. Təbii ki, işğalçılar xalqın savadlanmasının, tərəqqisinin, birliyinin qarşısını almağa cəhd göstərirdilər. Bu səbəbdəndir ki, milli müstəmləkə zülmünə qarşı mübarizə getdikcə artmışdır.

Azərbaycan maarifçiliyinin xarakterik cəhətlərinin tədqiqinə həsr olunmuş son illərin milli-fəlsəfi ədəbiyyatlarında göstərildiyi kimi XIX əsrdə «milli zəmin üzərində təşəkkül tapıb formalaşan, xalqın intellektual səviyyəsini, yaşadığı tarixi dövrün qayəsini, həyati problemlərini, istək və arzularını məntiqi-nəzəri əks etdirən, yeni sivil mədəniyyətin yaradılmasında zəngin tarixi təcrübəyə malik olan Avropanın mütərəqqi ideyalarından bəhrələnmiş maarifçilik hərəkatı milli-mədəni intibahda mühüm rol oynamışdır. Maarifçilik milli-mənəvi mədəniyyəti, düşüncə tərzini ictimai tərəqqi, yeniləşmə, humanizm, ədalət, xalq hakimiyyəti şəxsiyyət azadlığı, vətənpərvərlik, millətsevərlik, milli özünüdərk, milli birlik kimi dəyərli ideya prinsiplərilə zənginləşdirmişdir» [82,110].

Azərbaycan maarifçiliyinin bu kimi əlamətlərinə ilkin mənada Q.Zakirin, M.Ş.Vazehin, İ.Qutqaşınlının, A.Bakıxanovun və b. yaradıcılığında rast gəlmək olur.

Azərbaycanın işğal edilib torpaqlarının bölüşdürülməsindən sonra ikiqat zülmə məruz qalmış xalqın ağır vəziyyəti, onun siyasi, iqtisadi və mənəvi cəhətdən əsarət altına alınması hələ XIX əsrin birinci yarısından başlayaraq Azərbaycan ziyalılarını çıxış yolları axtarmağa vadar edir. Xalqın ideoloqları ilk öncə cəmiyyətin qüsurlarına, *fanatizmə*, xurafat, cəhalət və sosial əsarətə qarşı öz fikir və düşüncələrini ortaya qoydular. Bu istiqamətdə ilk ciddi addım atan, maarifçi-realist təmayülün ilk böyük xadimi, Azərbaycan ədəbiyyatında maarifçi-realist satiranın banisi, tənqidi realizmə doğru inkişaf yolunda Vaqiflə Seyid Əzim Şirvani və Sabir arasında ədəbi körpü rolunu öz öhdəsinə götürən, konkret gerçəkliklərin tarixi, ictimai və hətta siyasi xronikasını sistemləşdirən Qasım bəy Zakirdir.

Qasım bəy Zakir (1784-1857) ədəbiyyat tariximizdə feodalizm cəmiyyətinin *qüsurlarını* aşkara çıxaran, *qamçılayan*, zəhmətkeş xalqın hüquqlarını müdafiə edən, bütün yerli məmur özbaşınalığını cəsarətlə qələmə alan, «çərxin sifətindən, dövrün zülmündən, zalım fələyin qana susamasından» şikayətlənən qüdrətli satira ustası kimi şöhrət qazanmışdır. *Tədqiqatçıların* da göstərdiyi *kimi*: «Zakirin satiralarında cəmiyyətin və «mən»in (real-fərdin - R.Ə.) tərcümeyi - halı birləşir» [88, 203-204]. O, yerli məmurları, bəy və tacirləri, əcnəbi murov və naibləri, bürokrat və rüşvətxor çar müstəmləkə rejimini cəsarətlə satira atəşinə tutur, onları məsxərəyə qoyur, «bu əhldən sinədağ» olduğunu üsyankarcasına bəyan edir:

Zəhrimar tək xalqın ağzın acılar.
Düşüncə gözləməz ana, bacılar,
Bu əhldən sinədağam, sinədağ. [170, 22-23]



Şair həyatında ən böyük zülmü yerli bəylərdən və çar məmurlarından görmüşdür. Azərbaycan aristokratiyasını təşkil edən xanları və köklü, əsəb-nəsəbli bəyləri bütün hüquqlardan məhrum edən çar Rusiyası özünə dayaq məqsədilə qondarma bəylər yaradaraq öz siyasətini həyata keçirirdi. Bundan şırniklənən bəzi qondarma bəylər xalqa zülm etməklə çar məmurlarını da geridə qoyurdular. Hakim çar üsul idarəsinin bu riyakar manevrləri, siyasi eksperimentləri xalqın vəziyyətini daha da ağırlaşdırırdı. Bütün bunları duyan və görən realist şair Azərbaycan dilinin tabu sözlərini belə şeirə gətirməkdən çəkinməmiş, el dərdini el dilində söyləmişdir. Söyləmişdir ki, xalq onun nə demək istədiyini daha dəqiq anlasın və bu saxta, tüfeyli, namərd, gəda, köpəkoğlu, keçəl qurumsaqlardan canını qurtarmaq üçün mübarizə aparsın. O, qətiyyətlə deyirdi:

... Keçməz belə dövran, sənin də bu səyaqın,
Bərbad olu çün dövləti - Bərmək, köpək oğlu! [170,58-59]

Qasım bəy Zakir yaradıcılığının əsas tərkib hissəsini təşkil edən ictimai satiralarında islamı məzhəb və təriqətlərə parçalayan, onu formal ibadətdən ibarət hesab edən, islam əxlaq və fəlsəfəsini saxta ehkam və xürafat səviyyəsinə endirən, dindən öz şəxsi mənfəətləri üçün istifadə edən, şəriət məhkəmələrini açıq-aşkar soyğunçuluq vasitəsinə çevirən ikiüzlü qazi və ruhanilər, şərab içən seyid və mollalar, haram yeyən vaizlər, imanını tərəziyə qoyan baqqallar, saqqal yolan dəllalar, rüşvət alan kvartallar, rəiyyəti şişə taxan xanzadələr, hərəmilər kimi yol kəsən «tamojna işçiləri», tüfeyli mülkədar, bəy və çar məmurları kəskin satira atəşinə tutulur.

«Xanzadələr şişə çəkir rəyəti» [170, 34-35] - deyən Qasım bəy Zakirin ədəbi irsinin mühüm bir qismini təşkil edən mənzum hekayə və təmsillərində tənqid bu istiqamətdə inki-

şaf etdirilir. Şair açıq şəkildə söyləyə bilmədiyi bir çox fikirləri mənzum hekayə və təmsillərində dolayı yolla oxuculara çatdırır. Bu əsərlərində o, feodal əxlaq normaları, din nümayəndələri ilə yanaşı, həm də cəmiyyətdəki qanunsuzluqları, hərc-mərcliyi, ictimai ədalətsizlikləri və s. kəskin tənqid edir, zəhmətkeş xalqa isə dərin rəğbət və məhəbbət bəsləyir.

Şairin bu məziyyətlərini nəzərə alan tədqiqatçılar qeyd edirlər ki: «Mübarizlik və barışmazlıq ruhu satirik sənətkarın öz təbiətində də var idi. Bu ali hissi coşduran, əsasən yaşadığı cəmiyyətdəki hərc-mərclik, başıpozuqluq, qanunsuzluq idisə, subyektiv amillər də onu daha da kəskinləşdirirdi» [106,17].

Azərbaycan poeziyasında sözün müasir anlamında realizmin formalaşması və kamala çatmasında Qasım bəy Zakirin xüsusi yeri var. Zakir öz satirik əsərləri ilə mənəvi təkamül və tədrici islahat ideyalarına xidmət edirdi. Onun əsərlərində, xüsusilə satiralarında fanatizmdən, kultlaşan və əhkamlaşan simvolizmdən, klassik Azərbaycan ədəbiyyatına xas olan təsəvvüf və sufizmdən əsər-əlamət belə yoxdur. Bütün bunlara baxmayaraq, onun yaradıcılığında özündən əvvəlki ənənəyə, sələflərinə qarşı da inqilabi inkarçılıq yoxdur. Onun əsərlərində tədrici təkamül, insanın kamala çatması ideyası mühüm yer tutur. Onun satiralarında cəmiyyətlə fərdin taleyi birləşir. Bütün bunları nəzərə alan Y.Qarayev yuxarıda adını çəkdiyimiz fundamental əsərində Zakirdən bəhs edərkən göstərir ki, «Qasım bəy Zakirin poeziyası maarifçi-realist şeirin tarixində özünəməxsus, təkrarsız fərdi mövqe tutur. XIX əsrdə milli şüurda sosial intibahın oyanması, maarifçi satiranın yaranması, milli dilin büllurlaşması sahəsində M.F.-Axundovdan əvvəlki ən böyük xidmət məhz Qasım bəy Zakirə məxsusdur» [88,209].



Bir məsələni də qeyd etməyi lazım bilirik ki, böyük satirik şair dövlət quruluşunun necə olmasını açıq göstərməsə də o, dövlət məmurlarının, bütün sosial təbəqələrin, din xadimlərinin mahiyyətlərini açıb göstərməklə «dövrün verə bildiyi mütərəqqi nə vardısa, Zakir bunların hamısını xalqına xidmətə» [104,104], milli dövlətin necə ola biləcəyinə yönəltmişdir.

Bu baxımdan böyük Azərbaycan filosofu və alimi Abbasqulu ağa Bakıxanovun özünəməxsus yeri və rolu vardır. O, Azərbaycan maarifçiliyinin ideya sələfi, ağlın və elmin qızğın tərənnümçüsü, çağdaş Avropa mədəniyyətinin Azərbaycanda ilk carçısı olmuşdur. Onun zəngin yaradıcılığı Azərbaycan mədəniyyəti və fəlsəfəsi tarixində orta əsrlərdən yeni dövrə keçidin mənəvi körpüsü hesab edilir. Bu münasibətlə bakıxanovşünas alim Ə.M.Əhmədov qeyd edir ki, A.Bakıxanovun yaradıcılığı ilə M.F.Axundovun yaradıcılığının çiçəkləndiyi dövr arasında XIX əsrin 30-60-cı illərinə təsadüf edən az bir müddətin olmasına baxmayaraq, həmin dövrdə «rasionalizmdən maarifçiliyə, köhnə metafizikanın məhdud doqmatik təfəkküründən maarifçilik fəlsəfəsinə keçid baş verdi» [212,11].

Mütəfəkkirin irsini araşdırarkən görkəmli tədqiqatçı alim Z.Quluzadə yazır: «Bakıxanov bir sıra mühüm fəlsəfi-etik traktatlarını cəmiyyətin rifahının əsası hesab etdiyi maarifçiliyə həsr etmişdir» [222,202].

Bakıxanov həmçinin Azərbaycan tarixşünaslığında əsl elmi tədqiqata əsaslanan ilk tarixi əsərin yaradıcısıdır. Tədqiqatçıların fikrincə, «Abbasqulu ağa Bakıxanov tarixə fəlsəfi aspektdən yanaşıb, onu idraki və etik-əxlaqi baxımdan qiymətləndirmişdir» [107,321]. O, çoxcəhətli bədii və elmi yaradıcılığa malik bir şəxsiyyətdir. Professor İ.Ə.Rüstəmov yazır: «Bakıxanov Azərbaycanda maarifin və elmi fikrin, fəlsəfi baxışların inkişafı tarixində elə bir iz buraxıb getmişdir ki, onu diqqətlə izləmədən, öyrənmədən, ictimai və fəlsəfi fikrimizin inkişaf xüsusiyyətləri, onun müvəffəqiyyətləri

haqqında tam təsəvvür əldə etmək çətindir... A.Bakıxanov bütün şüurlu həyatını xalqın maariflənməsi işinə sərf etmiş, elmi bilikləri yaymağın carçılarından biri kimi şöhrətlənmişdir» [136,80-81].

Ensiklopedik biliyə malik olan, «XIX əsrin birinci yarısında Azərbaycan zadəgan maarifçiləri arasında ən görkəmli yer tutan..., öz dövrünə görə mükəmməl müsəlman təhsili almış, türk, ərəb, fars və rus dillərini mükəmməl bilən..., maarifin, elmin, mədəniyyətin inkişaf etdirilməsinin qızğın tərəfdarı olan Bakıxanov»un [140,175] fəlsəfi, etik-əxlaqi görüşlərindən [107,319-328], onun sosial-siyasi görüşlərindən [140,175-176], dünyanın elmi və coğrafi mənzərəsi haqqındakı fikir və mülahizələrindən [136,80-137], siyasi-hüquqi nəzəriyyələrindən [104,104-111] və ədəbi irsindən [147,5-16;88,191-197] bəhs edən müəlliflərin gəldiyi ümumi nəticə bundan ibarətdir ki, Abbasqulu Ağa Bakıxanov həm görkəmli alim, həm görkəmli tarixçi, həm qüdrətli şair, həm mütəfəkkir, filosof və həm də ictimai xadim olmuşdur. Görkəmli alim, akademik F.F.Qasımzadənin yazdığı kimi, «böyük zəka sahibi olan Abbasqulu Ağa Bakıxanov Qüdsinin bütün yaradıcılığı bizim bayrağımızda əks olunan azərbaycançılıq (türkçülük), islamçılıq və müasirləşmək (avropalaşmaq) baxımından çox qiymətli və əhəmiyyətlidir» [91,190]. Bu sadalanan məsələlərə dair adı çəkilən və çəkilməyən müəlliflər sanballı tədqiqat əsərlərində müfəssəl məlumatlar verdiyindən biz yalnız onun dövlət və dövlətçiliklə bağlı fikirlərindən və ictimai-siyasi görüşlərindən bəhs edəcəyik.

Doğrudur, Bakıxanov sırf dövlət və dövlətçiliyə dair konkret bir əsər yazmamışdır. Lakin o, bir çox əsərlərində dövlətin necə idarə olunması, şahın, hökmdarın necə olması, onların xalqla necə rəftar etməsi, müdrik və ədalətli hökmdarın ölkəni necə idarə etməsi, ölkənin və xalqın rifahı naminə nələr etməsi və s. haqqında öz fikir və mülahizələrini irəli sürmüşdür. Müəlliflərin də qeyd etdiyi kimi:



«A.Bakıxanov mərkəzləşdirilmiş hakimiyyətin, maarifçi, dəmə(?)li, ədalətli monarx hakimiyyətinin tərəfdarı idi. O, xalqı müdafiə etməli və onun qayğısına qalmalı olan monarxın zəkalılığına böyük ümidlər bəsləyirdi» [104,109]. Bakıxanov bütün ümidini maariflənmiş monarxa bağlayır və hesab edirdi ki, cəmiyyəti ağıllı padşahın həyata keçirdiyi köklü islahatlar vasitəsilə mütərəqqi istiqamətdə yenidən dəyişdirmək mümkündür. Monarxın şəxsiyyəti haqqında danışarkən mütəfəkkir hesab edirdi ki, hökmdar «ən yüksək insani ləyaqətlərə sahib olmalıdır, yəni padşah qorxmaz, igid, iradəli, ağıllı, ədalətli, yüksək savadlı, elmə və sənətə himayəçi olan, eyni zamanda zülmün, cəhalətin əleyhinə olan adam olmalıdır» [140,175].

Mütəfəkkir özünün məşhur «Mişkatül-ənvar» («Nurlar mənbəyi») əsərində ədalətsizliyə qarşı çıxaraq «şah necə olmalıdır?» sualına cavab olaraq göstərir ki, şah etiqadca atəşpərəst, bütpərəst olmasından asılı olmayaraq o, xudpəsənd olmamalı, öz nəfsinə hakim olmalı, həsəddən, kindən, nifrətdən, qorxudan uzaq olmalı, hökmü xalq rəyinə müvafiq olmalı, xalqa layiq iş görməlidir. Hətta şah kafir olub ədalətli iş görsə, ölkəni abad etsə, o rəhmətlə yad edilər:

> Şahın hökmü olmalıdır xalq rəyinə müvafiq,
> Elə bir iş tutmalı ki, xalqa olsun o layiq.
> ...Şah kafər də olub, əgər iş görsə ədalətlə,
> Ölkəsini abad edər, yad olunar rəhmətlə. [37,47]

Və əksinə şah ölkəsində zülmə adət etsə, onun bir zülmünün müqabilində xadimləri yüz zülm edər, şah zalım olsa, xadimləri can alar, zülm eləyən padşah öz yurdunu viran edər, həqiqəti, dini, imanı yox edər, xalq işində ədalət hökm sürməz, ölkənin bütün iqtidarı, rövnəqi əldən gedər, bir sözlə, zülm olan yerdə dövlət dayanıqlı olmaz:

Hər zaman şah ölkəsində zülmə edərsə adət,
Heç bir zaman xalq içində hökm sürməz ədalət.
Şah bir etsə zülmü, onun xadimləri yüz edər,
Ölkənin hər iqtidarı, rövnəqi əldən gedər. [37,48]

Bu əsərində müəllif dövlətdə əsas fiqurlardan olan tədbirli vəzirdən bəhs edərkən göstərir ki, bu vəzir xaqanı yersiz və yanlış fərmanlardan çəkindirir, şaha sadiq olduğu kimi xalqa da havadarlıq edir. Ona görə də bu vəzirdən xaqan da, rəiyyət də razı idi. Xaqan öldükdən sonra onun qanacaqsız və ağılsız varisi hakimiyyətə gəldikdən sonra ölkə içərisində nizamsızlıq yarandı, vəzirin düşmənləri bundan istifadə edib onu gözdən saldılar. Eyş-işrətə dalan, şahlığını unudub dövlətə laqeyid olan, sarayı meyxanəyə çevirən şah vəzirin qətlinə fərman verir. Bütün bunların dövlətə, məmləkətə və xalqa nəyə başa gəldiyini sadə bədii dillə şərh edən mütəfəkkir əsərin sonunda ədalətin zülm və riyaya gec-tez qalib gələcəyini, vəzirin ölkənin onu səfalətə sürükləyən, öz mənafelərini dövlətin və xalqın mənafeyindən üstün tutan tamahkar hiyləgər, yaltaq saray əyanlarından təmizlənəcəyinə əminliyini də bildirir.

Bakıxanov zülmə, zalıma nifrət edirdi. O, müstəbidləri, zalımları, xalqın cəlladlarını, ədalətsiz şahları və onun məmurlarını tənqid edir, hökmranlığı nəfsə məhkumluq, azadlıqdan əbədi məhrumluq hesab edir və göstərir ki:

Hökmranlıq nədir?-Nəfsə məhkumluqdur mənası,
Azadlıqdan həmişəlik məhrumluqdur mənası.
...Artar hər an təşvişlərin, qəlbin olar narahat,
Öz işinə baxmaq üçün tapılmaz sənə fürsət. [37,30]

Bakıxanov azadlığın yalnız məhəbbətlə olduğunu, onun dərdinin, qəminin, kədərinin də xoşluq, şadlıq olduğunu, azad doğulan insanın özünün özünü zindana salmasını yaradılışının mənasını anlamamasında görür [37,38].



A.Bakıxanovun əsərlərinin təhlili göstərir ki, o, dövlət və dövlətçiliyə dair baxışlarını, mülahizələrini əsasən özünün humanist etik-əxlaqi prinsipləri üzərində qurmağa çalışmışdır. Bu cəhətdən onun cəmiyyət haqqındakı fikirlərini sistemli şərh etdiyi və nəcib əxlaqi normaları aşıladığı məşhur «Təhzibi-əxlaq» etik fəlsəfi əsəri daha önəmlidir. İctimai münasibətlərin tənzim olunmasında «etidala (mötədilliyə, orta vəziyyətə – R.Ə.) riayət etmək» prinsipinin əsas götürülməsi fikrini təbliğ edən mütəfəkkir yazır: «...Aləmin dövr etməsi bir-birinə tam zidd və müvafiq səbəblərə bağlı olduğu üçün heç bir işi vasitəsiz başa çatdırmaq müyəssər olmur, ona görə səbəblərdən hər birinə öz yerində riayət etmək lazımdır ki, işlərin rədd və ya cəlb olunması nəticəsində bir sabitlik və habelə işlərin ixtilafından və cürbəcür xassələrindən bir etidal əmələ gəlsin; çünki etidal olmasa, heç bir şeyir davamı olmaz» [38,24]. Filosof izah edir ki: «Dəfələrlə təcrübədən çıxmışdır ki, etidal həddindən çıxan hər bir işin təsiri əksinə olur. Məsələn, ... azadlıq ifrat dərəcəsinə çatdıqda özbaşınalığa çevrilir. Şöhrətpərəstlik insana qalib gəlsə, onu öz nəfsinin qulu edər» [38,25].

Bakıxanov hamıya, o cümlədən böyük mənsəb sahiblərinə, habelə hökmdarlara fəaliyyətlərində həmişə insaf və ədalətin üstün tutulmasını tövsiyə edirdi. «İnsaf, - Bakıxanovun anlamınca, - elə bir aynadır ki, insan öz işlərinin yaxşı və yamanını onda görə bilir... İnsafın lüğəti mənası ədalət deməkdir, çünki burada bölgü eyni dərəcədə hər iki tərəfə aid olur. Ədalət və insafın ikisinin də tələbi birdir. Yalnız ümumilik və xüsusilikdə təfavütü vardır, çünki ədalət fitri olmaya da bilər. İnsan ədalət və məsləhəti gözləmək səbəbi ilə zülmdən sığınar... İnsanın insafı kamal dərəcəsinə çatdıqda o, zülmü özünə və başqalarına rəva bilməz... Bütün şəriətlərin hökmləri və hüdudları, hər bir məmləkət qanunlarının möhkəmlənməsi zülmü dəf etmək üçündür» [38,54-55].

A.Bakıxanovun baxışlarındakı müəyyən ziddiyyətlərə baxmayaraq, o, tədqiqatlarda da qeyd olunduğu kimi, ümumiyyətlə, «mütərəqqi yol tutmuş və həmişə xalqın tərəfində olmuşdur» [147,16]. Bunu aşağıdakı sözləri də bir daha təsdiq edir:

Hünərmi, ey Qüdsü, xalqa əziyyət?
Mərdsənsə, et xalqın dərdinə dərman. [147,372]

Məhz bu səbəbdəndir ki, Bakıxanov öz əsərlərində ədalətsiz şah hakimiyyətini, onun xalqa vurduğu ziyanları, özbaşınalıq və qanunsuzluqları, müstəbidləri və onlara yaltaqlıq edənləri ifşa edir və göstərir ki, əgər şah öz dövlətindən və xalqından xəbərsiz olsa, vaxtını eyş-işrətlə keçirsə, külək belə bu dövləti təməlindən dağıdar. Mütəfəkkir göstərir ki, hökmdar ölkəni idarə etmək məharətinə malik olmalı, vaxtını boş-boşuna keçirməməli, xalqı incitməməli, ölkəni ədalətlə idarə etməli, dövlətin və ölkənin rifahı naminə çalışmalıdır. Onun fikrincə dinsiz, lakin ədalətli hökmdar dindar müstəbiddən yaxşıdır.

Doğrudur, Bakıxanov məşhur əsəri olan «Gülüstani-İram»də Rusiyanı öz islahatları ilə şöhrətləndirən I Pyotru ağıllı hökmdar kimi tərifləyir, onun «əzm sahibi və ağıllı, üsuli-idarə və fəthlər sahəsində mahir bir hökmdar» olduğunu, «dəfələrlə Avropaya səyahət edərək öz şəxsi istedadını artırdığını», «mülki qanunları və hərbi nizam-intizamı yeni üsulla qurduğunu», «sülh və müharibə işlərinə fikir verməklə Rusiyanın qüdrət və şövkətini artırdığını» da söyləmişdir. Onun tarixi həqiqətlərə tamamilə uyğun gəlməyən bu kimi mülahizələri, sözsüz ki, xidməti vəzifəsindən irəli gəlirdi. O, səfəvi hökmdarı şah I Abbasın fəaliyyətini də bu nöqteyi-nəzərdən dəyərləndirir. Lakin onun başlıca istəyi o idi ki, hökmdarlar xalqa «xeyirxah və qayğıkeş münasibət bəsləsin», onun «rifahının yaxşılaşması və mədəniyyətinin yüksəlməsi» [136,175-176] qayğısına qalsın.



Ümumiyyətlə, A.Bakıxanovun doğma xalqının tarixində, Azərbaycanda elmin, fəlsəfənin, ədəbiyyatın, eləcə də ictimai-siyasi fikrin yeni istiqamətdə inkişafında xidmətləri böyükdür və bu barədə az yazılmayıb. Ancaq bu münasibətlə böyük dövlət xadimi Heydər Əliyevin A.Bakıxanov, M.Kazım bəy kimi XIX əsr görkəmli Azərbaycan mütəfəkkirləri haqqında dediklərinə dönə-dönə müraciət etmək daha vacibdir, önəmlidir. H.Əliyev demişdir: «XX əsrdə bizim qazandığımız uğurlar, o cümlədən müstəqil dövlət qurmaq əzmimizin köklərini uzaq və yaxın tariximizdə, xüsusilə XIX əsrdə formalaşmış və təşəkkül tapmış qaynaqlarda axtarıb tapmaq lazımdır. Bu qaynaqlar həm ayrı-ayrı görkəmli şəxsiyyətlərin, Abbasqulu ağa Bakıxanov və Mirzə Kazım bəy kimi nadir insanların çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapmış, həm də birbaşa milli maarifçilik ideyalarının gerçəkləşməsi ilə bağlı olmuşdur» [7].

## § 2. XIX əsrin II yarısında Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində demokratik dövlətçilik ideyaları.

XIX əsrin ikinci yarısı milli Azərbaycan maarifçiliyinin yetkinlik mərhələsini təşkil edir. Azərbaycan maarifçiliyinin yetkin bədii, fəlsəfi və ictimai-siyasi ideyalar sisteminin yaranması, milli məfkurə forması kimi təşəkkül tapması, ideoloji əsaslar, radikal, inqilabi-demokratik cəhətlər kəsb etməsi M.F.Axundovun (1812-1878) adı ilə bağlıdır. Elmi tədqiqatlarda göstərildiyi kimi, A.Bakıxanovdan Axundova qədər qısa bir müddətdə Azərbaycan maarifçiliyi olduqca təzadlı və mürəkkəb bir tarixi yol keçmişdir.

Azərbaycan ədəbi-bədii, ictimai-siyasi, fəlsəfi tarixində müstəsna yeri olan Mirzə Fətəli Axundov Azərbaycan mədəniyyətinin inkişaf məcrasını yeni bir istiqa-

mətə yönəltdi. Akademik Firidun Köçərli qeyd edirdi: «O, (M.F.Axundov – R.Ə.), yalnız Azərbaycanda deyil, ümumiyyətlə, Yaxın Şərqdə realist ədəbiyyatın, bədii təfəkkürün, dram və roman janrının, ədəbi tənqidin banisi olmuş, siyasi iqtisad, tarix, dilşünaslıq, fəlsəfə tarixi kimi bilik sahələrində nəzərə çarpacaq iz buraxmışdır» [137,3].

M.F.Axundovun yaradıcılığından bəhs edərkən professor İ.Ə.Rüstəmov yazır: «Mirzə Fətəli Axundov özünün bütün elmi-ədəbi fəaliyyəti, fəlsəfi irsi və yaradıcılığı etibarilə ictimai-siyasi, ədəbi-estetik fikrimiz tarixində keyfiyyətcə yeni ideya istiqamətinin əsasını qoymuşdur» [137,3].

M.F.Axundovun siyasi və hüquqi (1; 122-153), fəlsəfi (2,3,4), sosial-siyasi (5; 179-181) və bədii dünyagörüşünü tədqiq edən müəlliflər onu görkəmli materialist filosof, qabaqcıl maarifçi, demokrat yazıçı, Azərbaycan dramaturgiyasının banisi, ictimai xadim kimi lazımınca dəyərləndirmişlər.

Bu mövzumuzla bağlı olaraq onun dövlət və dövlətçiliyə dair fikir və mülahizələrini şərh etməyə çalışacağıq. Lakin mətləbə birbaşa keçməzdən öncə onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə, M.F.Axundovun dünyagörüşündə sosial fəlsəfi məsələlər mərkəzi yer tutur. «Onun bütün bədii, ictimai-siyasi, fəlsəfi və ədəbi-tənqidi fəaliyyəti böyük məqsədə – doğma xalqının azadlığı, tərəqqisi və səadəti uğrunda mübarizəyə, mütəfəkkirin öz sözləriilə desək, həmvətənlərini «qaranlıqdan işığa, tərəqqi sivilizasiya yoluna» çıxarmaq məqsədinə yönəlmişdir. Axundov öz fəaliyyəti ilə ilk növbədə xalqın azadlıq hərəkatını nəzəri cəhətdən əsaslandırmağa çalışmış, milli maarifçiliyin mühüm nəzəri müddəalarını hazırlamışdır» [54,91].

Azərbaycan maarifçiliyinin spesifik xüsusiyyətlərinə ilkin olaraq M.F.Axundovun yaradıcılığında rast gəlmək olur. M.F.Axundov və onun ideya davamçıları hər hansı



bir sinfin, sosial təbəqənin deyil, ümumiyyətlə xalqın adından danışmış, xalqın mənafeyini təmsil etmişlər. Bu münasibətlə də Ə.M.Əhmədov yazırdı ki, «Azərbaycan maarifçiliyi burjua məfkurəsi olmaqdan əvvəl daha çox geniş xalq kütlələrinin məfkurəsi idi» [212,18].

Bunu M.F.Axundovun sosial-siyasi görüşlərinin, dövlət və dövlətçiliyə dair baxışlarının təhlili də aydın göstərir. Rusiya çarizminin milli-müstəmləkə zülmü şəraitində nicatın başlıca rəhni olan milli birliyə nail olmaq zərurətindən irəli gələrək ümumxalq mənafeyindən çıxış edilməsi təbii idi.

M.F.Axundov, eləcə də onun ideya silahdaşları feodal ağalığını, çarizmi, mütləqiyyət üsulunu tərəqqi yolunda əsas maneə hesab etmiş, bunlara qarşı mübarizə aparmışlar.

Dövlət, onun mahiyyəti və əhəmiyyəti ilə bağlı məsələlər böyük mütəfəkkir olan Axundovun daim diqqət mərkəzində olmuşdur. Onun məşhur fəlsəfi traktatı olan «Kəmalüddövlə məktubları» bütünlüklə dövlət və dövlətçiliyə həsr edilmişdir. Bu əsərdə mütəfəkkirin başlıca sosial idealı mütləqiyyət quruluşunu devirib onu demokratik, ədalətli ictimai-siyasi quruluşla əvəz etmək, xalqa azadlıq, tərəqqi və xoşbəxtliyin yolunu göstərmək olmuşdur. Müəllif İranda istibdad üsul-idarəsinin timsalında bütövlükdə despotizmi ifşa edirdi. O, hətta əslində tarixdə olmayan qədim İran dövlətinin əzəmət və səadətini bir üsul kimi istifadə edərək öz dövründəki İran despotizminə qarşı qoyur və göstərirdi: «Ey İran! O zaman ki, sənin padşahların «Peymani Fərhəng»ə əməl etdilər, neçə min il dünyanın cənnətə oxşar ölkəsində əzəmət və səadət ilə hökm sürdülər. Xalq onların hökmranlığı vaxtında Allahın nemətlərindən faydalanıb izzət və rifahla ömür sürdülər. Onlar yoxsulluğun nə olduğunu bilməzdilər, əl açıb dilənməzdilər, ölkənin daxilində azad, ölkədən xaricdə isə hörmət sahibi idilər. İran padşahlarının şöhrət və şövkəti

hər yeri tutmuşdu...Qədim padşahların zamanında «Peymani-Fərhəng»in hökmlərinə əsasən hər bir şəhərdə mühasiblər var idi ki, rəiyyətdən alınıb dövlət xəzinəsinə daxil olan gəliri hesablayıb dəftərlərdə qeyd etsinlər...Padşahların hər şəhərdə vaqiə yazanları, kargüzarları, gizli məmurları və darğaları var idi. Bunların hər birinin işi və vəzifəsi müəyyənləşdirilmişdi. Bunlar ölkənin və rəiyyətin əhvalından xəbərdar olub müntəzəm şəkildə padşahı xəbərdar edərdilər. Padşah da «Peymani-Fərhəng»ə müvafiq olaraq işlərə sərəncam verərdi. Bir kimsə bir kəsə zülm və təcavüz etməyə qadir deyildi.

Dövlət tərəfindən hər yerdə kişi və qadınlar üçün xəstəxanalar olurdu ki, qərib və adamı olmayan xəstələr orada müalicə olunar və onlara qayğı bəslənilərdi. Xəstə qadınlara qadın pərəstarlar xidmət edərdilər... Korlar, çolaqlar, aciz və bikəs adamlar da şahlıq xəstəxanasında və əlillər evində müalicə və yeməklə təmin olunardılar. Yoxsul və gəda heç yerdə olmazdı. Padşahın yanında həmişə ağıllı, xeyirxah müsahiblər və məsləhətçilər var idi. Onlar padşahı həmişə yaxşı işlər görməyə sövq edərdilər... Onların dövründə tacirlər, tələbələr və müsafirlər dünyanın hər yerinə rahat və asudə surətdə gedib-gələr və həmişə hər yerdə izzət və ehtiram görərdilər...Heyf sənə, ey İran! Hanı o dövlət, hanı o şövkət, hanı o səadət?... Sənin topağın indi xarabadır, əhali nadandır və sivilizasyon cahandan bixəbərdir və azadlıqdan məhrumdur. Sənin padşahın despotdur və despot zülmünün təsiri və ruhanilərin fanatizminin gücü sənin zəifliyinə və gücsüzlüyünə bais olubdur, sənin qabiliyyətini kütləşdirib, cövhəri-əqlini paslandırıbdır. Bunlar səni alçaqlığa, itaətkarlığa və rəzalətə, zillətə, nökərçiliyə, yaltaqlığa, riyakarlığa, aravuruşdurmağa, məkrə, hiyləyə, qorxaqlığa, ikiüzlülüyə vadar edib, bütün yaxşı xislətlərini...səndən alıb, sənin təbiətini bu gözəl səciyyələrin-sədaqət, ədalət, vəfalı olmaq, comərdlik, şücaət, ülviyyət, alicənablıq ziddi ilə yoğurubdur. Ola bilər yüz-yüz illər keçsin, amma sən özünə gəlməyəsən, rifah və səadətə çatmayasan, sivilizasyon tapmış millətlərə bərabər ola bilməyəsən. Sənin saysız-hesabsız oğulların zülmün əlindən və yoxsulluğun dəhşətindən baş alıb Osmanlı, Rusiya, Əfqanıstan, Türküstan və Avropa ölkələrinə getmişlər və orada əliboş, sərmayəsiz, ən ağır zillət içində fəhləliklə, nökərçiliklə gün keçirirlər. Onlar hər yerdə əzilməkdə və ən müdhiş məşəqqətlərə və əziyyətlərə qatlaşmaqla yaşayırlar. Onlanrın hər yerdə başına döyürlər. Onlar hər yerdə xar və zəlil gündədirlər...Sənin padşahın dünyanın proqresindən tamamilə qafil və bixəbər öz paytaxtında əyləşibdir. Elə bilir ki, padşahlıq yaxşı paltar geyməkdən, yaxşı xörək yeməkdən, özbaşına olmaqdan...ona tabe olanların baş əyib təzim etməsindən, ancaq qul kimi onun itaətində durmaqdan və axmaq şairlərin onu uşaq aldadan sözlərlə təriflənməkdən ibarətdir...Qeyrətli və namuslu adam belə səltənətdən ar edər və belə padşahlıqdan bezar olar» [21,198-202].

Böyük mütəfəkkirin söylədiyi bu fikirlərin birinci hissəsi əslində görmək istədiyi dövlət sisteminə, ikincisi isə bütün müsəlman Şərqinin mövcud dövlət quruluşlarına aiddir. Müəllif bu əsərdə sırf dövlətçiliklə bağlı işlətdiyi «sivilizasiya», «despot», «fanatik», «proqres», «liberal», «politika», «patriot», «parlament», «revolyusiya» kimi Avropa mənşəli sözlərin də izahını verərək Avropa tipli dövlət arzulayır.

Axundov ilk dəfə olaraq bu kimi siyasi terminləri Azərbaycan ictimai-siyasi fikrinə gətirməklə sözsüz ki, onun yeni istiqamətdə inkişafına təkan vermiş olur.

M.F.Axundov «Kəmalüddövlə məktubları»nda ardıcıllıqla həmin ifadələri belə izah edir:

«Sivilazisyon-cəhalət və barbarlıqdan qurtarıb, məişət işlərində mərifət kəsb edib, elm, sənaye və əxlaqda

mümkün qədər kamala yetməkdən və mədəniyyət yolunda irəliləməkdən ibarətdir.

... Despot - elə bir padşaha deyilir ki, öz işlərində və davranışında heç bir qanuna tabe olmasın, xalqın malına və canına həddi-hüdudu olmayan hökmranlığı olsun. Belə padşahların hakimiyyəti altında olan xalq kütləri alçaq və rəzil qullara çevrilib, hər cür azadlıq və insanlıq hüququndan məhrun olurlar.

... Proqress - ibarətdir ondan ki, xalq hər xususda - elmdə və sənayedə və görüşlərində daim tərəqqiyə can atsın, cəhalət və barbarlıqdan nicat tapmaq üçün çalışsın...

Liberal - ibarətdir o kəsdən ki, xəyalatında bilküllüyyə azad olub heç vaxt din və məzhəbin hədə-qorxusuna müqəyyəd olmaya və əqlə sığışmayan işlərə və təbiət qanunlarından kənar işlərə heç vaxt etibar etməyə... Səltənət forması haqqında da hikmətli fikirlərin sahibi ola, azad düşüncəyə malik ola...

Politika - ibarətdir külli-ümur və ülumdan ki, səltənətə və məmləkətə təəllüqü və şümulu ola və səltənətin və məmləkətin səlahı onda mənzur oluna.

...Patriot - ibarətdir o kimsədən ki, vətən təəssübü və millətin məhəbbəti üçün can və malına müzaiqə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadlığı üçün çalışa və cəfalara dözə. Bu halət və xasiyyət həmişə qeyrətli şəxslərdə büruz edər.O cümlədən bizim peyğəmbərdir ki, vətəni Ərəbistanın və xüsusilə Məkkənin ki, öz əşirəsi Qureyş onda sakin idi, səadəti üçün böyük və məşəqqətli işlərə əl atdı.

Parlament - ibarətdir iki palatadan ki, birincisində xalq, ikincisində nücəba vəkilləri əyləşiblər və bütün qanunlar birinci məclisdə tərtib olunub ikinci palatanın müzakirəsinə verilir, qəbul olunduqda padşahın təsdiqinə çatır və imza edilir. Və padşah əslən qadir deyil ki, bu qanunların xilafına iqdam etsin.

... Revolyusiya - ibarətdir ondan ki,xalq zalım və despot padşahın qanunsuz rəftarından təngə gəlib üsyan qaldırmaq üçün dibir olub onu devirsin, öz asayiş və səadəti üçün qanun qəbul etsin» [21,201-217-219-258].

Mövcud şərq dövlətlərinin bütün eybəcərliklərini kəskin tənqid edən mütəfəkkir göstərir: «Ölkənin vəziyyəti elə qarışıqdır ki,deməynən başa gələn deyil. Nə bir qanun var, nə bir nizam-intizam var, nə də bir hüquq və vəzifə müəyyəndir». Heç bir qanun kitabı yoxdur və heç bir günahın cəzası və heç bir xidmətin mükafatı müəyyən deyildir. Hər kəsin ağlı nə kəsirsə onu da edir...Vilayət içində despot padşah tərəfindən elmsiz və hər şeydən xəbərsiz şahzadələr oturublar. Bunlar xalq ilə köləliyin ən alçaq və rəzil vəziyyətində rəftar edirlər... Xalq despot zülmünün və məzhəbin puç əqidələrinin təsirindən əsla dərk edə bilmir ki,axı, bu vücudlar bəşəriyyətdə onunla şərik və bərabər, elm və fəzilətdən onun kimi məhrum və əxlaq cəhətindən ondan daha alçaq, niyə gərək bu cürə üstünlüyə şamil olsunlar... Bunlar bizim oğul və qızlarımıza tərbiyə verirlərmi? - Yox! Bunlar bizdən ötrü şəfaxanalar və mədrəsələr açıblarmı?- Yox! Bunlar Bizim ticarətimizə və kəsbimizə rövnəq verirlərmi?-Yox! Bunların himayəsi ilə biz məmləkətin daxilində quldurların şərarətindən əmin-amanlıqda yaşayırıqmı?- Yox! Bunların vasitəsilə biz yoxsulluqdan nicat tapmışıqmı?- Yox!...

Əmirlər də şahzadələrə oxşayırlar. Düşkünlükdə, pis əxlaqda, tamahkarlıqda, rüşvətxorluqda və əbləhanə təşəxxüsfiruşluqda onlardan seçilməzlər» [21,210-215-216].

Bütün bunlardan sonra mütəfəkkir xalqa müraciətlə deyir: «Ey əhli İran! Əgər sən nəşeyi-azadiyyətdən və hüquqi insaniyyətdən xəbərdar olsaydın, belə übudiyyətə, belə rəzalətə mətəhəmmil olmazdın. Kəsbi-elmə talib olub fəramuşxanələr açardın, məcməələr yapardın, birlik vasitələrini əldə edərdin. Sən sayca və qüdrətcə despotdan qat-qat artıqsan. Sənə ancaq yek cəhətlik və yekdillik la-

zımdır ki,revolyusiya edib köləlikdən nicat tapasan» [21,217].

Böyük mütəfəkkir azadlıq haqqında öz mülahizələrini ümumiləşdirərək göstərirdi ki: «Yoxluq pərdəsindən varlıq aləminə qədəm qoyan növi-bəşərin fərdlərindən hər biri, sağlam əqlin hökmü ilə tam azadlıq nemətindən istifadə etməlidir». Müəllifə görə: «tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlıqdır, o biri cismani azadlıqdır». M.F.Axundov qeyd edirdi: «Bizim ruhani azadlığımızı İslam dininin başçıları əlimizdən almış, bizi bütün ruhani işlərdə tamamilə öz əmr və nəhylərinə tabe və alçaq kölə etmişlər və bizim bu maddəyə heç bir müdaxilə etmək ixtiyarımız yoxdur. Beləliklə, biz ruhani azadlıq maddəsində din başçılarının qulu olaraq azadlıq nemətindən məhrumuq». Müəllif daha sonra yazır: «Bizim cismani azadlığımızı isə despot hökmdarları əlimizdən almış, bizi bu dünya həyatında tamamilə öz buyuruqlarına məhkum edib, bizi öz nəfslərinin istəklərinə görə cürbəcür ağır yüklərin və təkliflərin hammalı etmişlər. Bu maddədə də zalımların hüquqsuz qulu və zəlil bəndələri olub, azadlıq nemətindən məhrumuq. Qeyd edilən bu iki maddə tam azadlığın üsulu sayılır və bu üsulun hər birinin cürbəcür qolları vardır ki, avropalıların kitablarında geniş şərh edilmişdir. Bərabərlik bu iki maddənin varlığından ibarətdir. Şərq xalqları bərabərlik ləzzətindən və bəşər hüququ nemətindən tamamilə məhrumdurlar və bu məhrumluğu anlamaqdan belə acizdirlər» [21,221].

Axundov bu dahiyanə əsərində bütün Şərq dövlətlərinin despotizmə əsaslandığını kəskin tənqid etməklə kifayətlənməmiş bu despotizm və xurafatdan qurtulmağın yollarını da göstərmişdir. Bu münasibətlə dahi mütəfəkkir yazırdı: «Səltənəti davam etdirmək elmdən və xalqı dinin puç əqidələrindən xilas etmək işindən asılıdır. Bu şərtlər hazır olduqdan sonra padşah fəramuşxanələr açmalı, təşkilatlar qurmalı, xalq ilə əlbir, ürəkbir müttəfiq olmalıdır, ölkəni təkcə öz malı hesab etməməlidir. Özünü ancaq xalqın bir vəkili kimi düşünməlidir. Xalqın iştirakı ilə qanunlar yaratmalı, parlament təsis etməlidir. Hər işi qanun əsasında aparmalı və özbaşına heç bir işə iqdam etməməlidir. Yəni mütərəqqi məslək sahibi olub mədəniyyət dairəsinə qədəm qoymalıdır. Belə olsa, xalq onu yaxşı sifətlər sahibi bilib sevər, heç kəs onun haqqına şərik bilməz və yol verməz ki,bir başqası onun sülaləsinə qarşı çıxsın. Çünki xalq belə bir padşahı əmin-amanlıq, ədalət və səadətin dayağı hesab edər. Onun sayəsində patriot olar. Padşahın yolunda, vətən məhəbbəti yolunda öz malını, canını əsirgəməz. Daha indiki kimi canının qorxusundan zahirən ona itaət göstərməyə məcbur olmaz. Qorxu və qəzəb üzündən edilən itaətkarlığın etibarı və səbatı yoxdur...İtaətin bünövrəsi ancaq o zaman möhkəm olar ki,bu itaət məhəbbət və inamdan irəli gəlir...Sözün qısası budur ki,padşahlığın əsası gərək qanunlar üzərində qurulsun. Yəni səltənət İngiltərədə olduğu kimi, məşrutiyyət (konstitusiya-R.Ə.) səltənəti olsun. Ancaq belə olduqda səltənət davam edə bilər və xalq da padşahın məmləkətini zavaldan qorumaq yolunda fədakarlıq nümunələri göstərər...

Vilayəti nizama salmaq üçün başqa vasitələr də var. Əgər İran əmirləri politika elmindən və qanundan xəbərdar olsaydılar, bilərdilər ki,adamları öldürməklə və bədən əzalarını kəsməklə vilayətə nizam vermək qəbihdir. Çifayda, İran əmirləri, bəlkə bütün İran əhalisi hətta despotun özü də heç bir elmin təsirinə rağib deyillər. Despot padşahlar nə özləri idarə və politika elmini təhsil edirlər, nə də varislərinə politika elmini öyrədirlər və belə güman edirlər ki,politika elminin səltənətə əsla lüzumu yoxdur və lüzumu olsa da, onlar və onların vəzirləri bu elmi firəngin babasından da yaxşı bilirlər... Sözün qısası, hikmətli tədbirlər görülməzsə min illər keçəcək, ancaq İran xalqı qəflət yuxusundan oyanmayacaqdır. Lakin mənim bu söz-

ümdən despot sevinməsin və elə güman etməsin ki, iranlılar daima qəflətdə qalacaq və o da bu qoyun sürüsünə bənzər avam kütlələr üzərində əbədi hökmranlıq edəcəkdir. Belə deyil. Qoy keçmişlərin tarixinə nəzər salıb görsün ki, despot hökmdarlar sülalələrindən heç birisi İranda uzun müddət hökmranlıq edə bilməmişdir. Nə qədər ki, insanların şüurunda puç əqidələr yer salmışdır, görəcəksən ki, ya bir zirək Bab (Bibillər hərəkatının başçısı olmuş Seyidəli Məhəmməd Bab nəzərdə tutulur-R.Ə.) və ya bir nəfər başqa şüurlu məzhəb ixtiraçısı tapıldı:, bu elmsiz, savadsız xalqı bircə saatın ərzində özünə tərəf çəkdi və onların köməyilə despotu aradan qaldırdı» [21,221,219].

Axundovdan gətirilən bu sitatlar onu deməyə əsas verir ki, o, Şərqdə mövcud feodal quruluşunun bütün eybəcərliklərini, feodal məhkəmə sistemini, hökm sürən biabırçı qanunsuzluq və özbaşınalığı, süründürməçiliyi, qarmaqarışıqlı rüşvətxorluğu, nizamsızlığı və s. bu kimi dövləti uçuruma aparan faktları kəskin ifşa edərək Azərbaycanın siyasi fikir tarixində yeni səhifələr açmışdır. Dövlət, onun mahiyyəti və əhəmiyyəti haqqında məsələ M.F.Axundovun diqqət mərkəzində olmuşdur. O, dövlət və dövlətin idarə olunması məsələlərini siyasət adlandırdığı xüsusi elm sahəsinə aid etmiş..., dövlətin mənşəyini materialist mövqelərdən izah etmiş..., müstəbid dövlətin mahiyyətinin, rolunun və əhəmiyyətinin qiymətləndirilməsində dövlət və xalq arasındakı antoqonizmi, feodal dövlətinin xalqa zidd mahiyyətini dərk etmiş... həyatının müxtəlif dövrlərində müxtəlif dövlət formaları irəli sürmüş, maarifçi mütləqiyyət ideyasını xalq hakimiyyəti ideyasına qədər inkişaf etdirmişdir» [114,131-137].

Bir çox məsələlərlə yanaşı böyük mütəfəkkirin dövlətin formaları haqqındakı fikir və mülahizələri də diqqətə layiqdir. O, yaradıcılığının ilkin mərhələsində maarifçi monarxiyanı xalq üçün ən əlverişli dövlət forması kimi



irəli sürür və elə güman edirdi ki, ağıllı və savadlı hökmdar xalqın mənafeyini güdər, onun rifahını təmin edə bilər, xalqın mənafeyi naminə islahatlar yolu ilə bir sıra sosial dəyişikliklər edə bilər. Belə ki, Azərbaycan dramaturgiyasının banisi kimi o, ilk əsərlərindən olan «Vəziri-xani Lənkəran» pyesində hökmdarları ifşa etmək, onların eyiblərini, yaramazlıqlarını açıb göstərməklə yanaşı, həm də belə bir fikir irəli sürür ki, qəflətən qalxmış fırtına zamanı dənizdə məhv olan xanın əvəzinə gənc şahzadənin hakimiyyəti başına gəlməsi ilə xalqın həyatı yaxşılığa doğru dəyişəcək. Həmçinin «Mürafiə vəkillərinin hekayəti» əsərində Axundov özünün ədalətli, ağıllı hökmdar ideyasını nisbətən konkret şərh edir. O, məhkəmə işinin ədalətli həllini hələ heç vaxt Azərbaycanda olmamış belə ədalətli və xalqı sevən hökmdarın adı ilə əlaqələndirir. Müəllifin «Aldanmış kəvakib» povesti isə onun ağıllı hökmdara rəğbətinin zirvəsi sayıla bilər. Səfəvi hökmdarı şah Abbasın hakimiyyəti zamanı baş vermiş bir tarixi hadisənin dəyişilmiş şəkildə təsvirini verən müəllif Yusif Sərrac surəti ilə özünün arzuladığı müdrik, islahatçı, maarifpərvər monarx surətini yaratmışdır. Bu əsərində müəllif iki hakimiyyət dövrünü- müstəbid şah Abbas və ağıllı monarx olan Yusif Sərracın hakimiyyət dövrlərini təsvir etməklə onları bir-birinə qarşı qoyur və Yusif Sərraca öz hüsnrəğbətini bildirir. Müəllif maarifçi monarx olan Yusif Sərracın xalqın rifahı naminə keçirdiyi bütün islahatları ətraflı təsvir edərək göstərir: «Yusif şahın cülusundan bir həftə keçdi. Hər gün onun həsənatından və ədalətindən növ-növ əlamətlər xalqa zahir olurdu. İran üçün əyyami – fıruzluq, əyyami-səadət və iqbal üz verdi... Əhli-Qəzvin hər gün qala qapılarından adam şaqqalarını asılmış görmədilər və şah meydanında cəlladların adam şaqqalamaqlarını, dardan asmaqlarını və göz çıxarmaqlarını müşahidə etmədilər. Bu keyfiyyət onlara xeyli qərib göründü... Müxtəsəri-kəlam bir belə ziyadə rəhmli padşahın təhti-

əmrində zindəganlıq etmək nəhayət dərəcədə məlal-əfza göründü» [21,189].

«Aldanmış kəvakib» əsərində xalq idealı Mirzə Fətəlinin əsas qayəsinə çevrilir və mütəfəkkir əslində «Aldanmış ulduzların» deyil, aldanmış xalqın faciəsini əks etdirir. Bu əsər ilə «ideal şah» məsələsi Axundovda sona çatır. Və artıq min illərdən bəri müdriklərin və xalqın arzuladığı «ideal şah» sanki Yusif Sərracla sona çatır.

M.F.Axundovun hüquqi təsisatlara maarifçi münasibətindən də göründüyü kimi o, maarifçi ədəbiyyatda demokratiya problemini hüquq vasitəsilə açmağa çalışır. Çünki «maarifçi ədəbiyyatda demokratiya problemini heç nə hüquq mövzusu qədər dərindən aça bilmir» [104,229-230].

Böyük mütəfəkkirin dövlət formaları haqqında baxışları «Kəmalüddövlə məktubları»nda daha da irəli gedərək İngiltərə nümunəsində «konstitusiyalı monarxiya» səviyyəsinə yüksəlir. Bu əsərində o, artıq nəinki müstəbid hakimiyyətə qarşı, bütövlükdə feodal cəmiyyətinə qarşı çıxış edir. O, artıq hüdudsuz hakimiyyətə malik monarxın hakimiyyətini parlamentlə, xalqın qanunvericilik fəaliyyətində iştirak etməsi yolu ilə məhdudlaşdırılmasını, iki palatadan ibarət parlament təşkil olunmasını tələb edir. Müəllif bu palatalardan birinin təbəələrdən, digərinin isə əyanlardan təşkil olunması fikrini irəli sürür və göstərirdi ki, dövlətin bütün qanunları birinci palatada tərtib olunmalı, əvvəlcə ikinci palatanın müzakirəsinə verilməli, sonra isə təsdiq olunmaq üçün hökmdar imzalamalı və beləliklə də, hökmdarın hakimiyyəti qanunla məhdudlaşdırılmalıdır.

«Kəmalüddövlə məktubları» əsərində Axundov ictimai tərəqqi, demokratik quruluş, bərabərlik, mənəvi azadlıq, elmi və dünyəvi təfəkkürün təbliği və təsdiqi məsələlərini ön plana çəkərək yeni dövlət sistemi olan «konstitusiyalı monarxiya»nın tərəfdarı kimi çıxış edir. Bu əsərdə Axundov həmçinin maddi və mənəvi, milli və ictimai bərabərlik tələblərini dialektik vəhdətdə görür, azadlıq və hüquq, hakimiyyət və maarif problemini həm fərd, həm də cəmiyyət, həm şəxsiyyət və həm də xalq miqyasında irəli sürmüşdür. Müəllifə görə elm və maarif bütün xalq arasında, aşağıdan tutmuş yuxarıyadək, varlıdan tutmuş yoxsula qədər istisnasız olaraq hamının arasında yayılmalıdır: çoban da, əkinçi də, tacir də, əttar da nazirlərin əlində olan iqtidara malik olmalıdır. Bütün bunları nəzərə alan Axundov tədqiqatçılarından olan H.Məmmədzadə göstərir: «M.F.Axundzadə XIX əsrin 2-ci yarısında İran maarifçilərinin məfkurəvi atası olmuş, «konstitusiyalı monarxiya» ilə nəticələnən 1905-11-ci illər İran Məşrutə inqilabının ideoloji zəminini hazırlayanlardan olmuşdur» [140,141].

Böyük mütəfəkkirin dövlət formaları haqqında görüşləri XIX əsrin 70-ci illərində öz təkamülünün ən yüksək nöqtəsinə çatır. Müasir milli ideoloq kimi bütün tarixi və real həqiqətlər üzərində narahat düşüncələr sonda mütəfəkkiri qəti qərara gətirir: Şərqi oyatmaq, Asiyanı ayağa qaldırmaq! Axundov tədqiqatçılarının da yazdığı kimi: «O (M.F.Axundov-R.Ə.), Şərq və Qərb istibdadına, dini və dünyəvi tiranlara, çara, şaha və sultana eyni bir vaxtda mübarizə elan etmişdir» [107,225].

XIX əsrin 70-ci illərindən başlayaraq Axundov artıq xalq hakimiyyətinin tərəfdarı kimi çıxış edir. Artıq mütəfəkkiri yaxşı şah yox, yaxşı xalq düşündürür. Müəllif «Təbriz nayibül-vəzarəsi Mirzə Yusif xan cənablarına» 8 noyabr 1875-ci ildə yazdığı «Yek kəlmə» haqqında məktub məqaləsində o artıq respublikaçı möqeyindən çıxış edir və göstərir: «ədaləti yerinə yetirmək və zülmü aradan qaldırmaq...üçün millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsasları əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: səltənət və hökumət büsatından əl çək!

Ondan sonra özü zamanın vəziyyətinə uyğun olaraq qanun qoyub konstitusyon yazmalı və ona əməl etməlidir. O zaman millət yeni həyat tapacaq və Şərq torpağı gözəl cənnət kimi olacaqdır» [21,311].

Bütün bunlar göstərir ki, Mirzə Fətəli Axundov ənənəvi monarxiya üsul-idarəsindən tutmuş son Respublika quruluşuna qədər cəmiyyəti dəyişdirmək proqramının ardıcıl izahını vermiş və son olaraq göstərmişdir ki: dövlət xalqın himayədarı, ölkənin və vətəndaşlarının əmlak toxunulmazlığının müdafiəçisi olmalı, qanun şəxsiyyətin hüquq və azadlıqlarını nəinki təsbit etməli, həm də onları təmin etməlidir.

M.F.Axundov Azərbaycan milli dövlətçiliyinin təməl prinsiplərini işləyib hazırlayan nadir şəxsiyyətlərdəndir. O, Azərbaycan dövlətçilik ideologiyasında inqilabi-demokratik fikrin banisidir. Axundovun ictimai-siyasi və hüquqi təlimi və onun dövlətçilik dünyagörüşü nəinki Azərbaycan və İranda, bütövlükdə Şərqdə demokratik ideologiyanın formalaşmasının ideya mənbəyi olmuş, ardıcılları onun ənənələrini davam etdirərək onları yeni tarixi şəraitə uyğun şəkildə inkişaf etdirmiş, yeni anlayış və yeni problemlərlə zənginləşdirərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar.

Mirzə Fətəli Axundovun ilk böyük oxucularından olmuş, XIX əsrdə Şimali Azərbaycanda poeziya sahəsində maarifçi və satirik -realist ədəbiyyatımızın ən böyük nümayəndəsi Seyid Əzim Şirvanidir. O, XIX əsrin sonlarında Axundzadənin işini mətbuatda, tədrisdə, satira və publisistikada, xüsusilə maarifçi poeziyada davam etdirən ilk fəal sima, hərtərəfli maarifpərvər şəxsiyyətdir. Onun Azərbaycan ictimai-siyasi həyatında oynadığı rol bilavasitə Axundovla səsləşən, yeni məna kəsb edən bir xidmətlə bağlıdır. Bir şair, pedaqoq və mütəfəkkir kimi Seyid Əzim Azərbaycan ictimai fikrinə humanizm ideyaları bəxş edən ilk milli ziyalı nəslinin nümayəndəsi və yenicə



formalaşmaqda olan maarifçiliyin beşiyi başında duran şəxsiyyətlərdəndir. Mütərəqqi Avropa mədəniyyətinə önəm verən, Avropaya böyük maraq göstərən Seyid Əzim bir sənətkar və mütəfəkkir kimi mənəvi estafeti birbaşa Axundov və onun «Kəmalüddövlə məktubları»ndan yox, klassik şərq şeirri və dini ədəbiyyatdan əxz edərək mənəvi həyata qədəm basmışdır.

Doğrudur, Seyid Əzim Axundov kimi sırf dövlət və dövlətçiliklə bağlı konkret əsər yazmamışdır. Lakin o, əsərlərində yeri gəldikcə dövlətdən, hökmdarlardan, dövlətin ayrı-ayrı məmurlarından, onların sosial bəla olan rüşvətxorluğundan, din xadimlərinin riyakarlığından bəhs etmiş, onları kəskin satira atəşinə tutmuşdur. Dövründəki sosial vəziyyəti, cəmiyyətdəki kəskin təbəqələşməni, hakimiyyət nümayəndələrinin rüşvətxorluğunu, özü ilə məmurlar, bəylər, vəzirlər, sultanlar arasındakı fərqləri şərh edən şair göstərir:

Nə vəzirəm, nə bəy, nə sultanəm
Nə çilen, nə əmiri-divanəm
Ki, tülkü tək gəzəm xəlvət
Ta alam mən də xalqdan rüşvət. [69,19]

Bəllidir ki, Seyid Əzim Şirvaninin yaşadığı dövr Quzey Azərbaycanın çar Rusiyasının müstəmləkəsi olan dövrüdür. Azərbaycan xanlıqları ləğv edilmiş, xanların və bəylərin bütün əmlakı imperiyanın ixtiyarına keçmiş, rus işğalçıları əsil nəcabətli bəyləri xəyanətkar adlandıraraq həbs etmiş, sürgünə göndərmiş və beləliklə də Azərbaycan milli aristokratiyasını məhv etmiş, rüşvət alaraq ləyaqətsiz adamları bəy təyin etmişdilər. İşğalçılar bütün idarəçilik sisitemini özlərinin mənafeyinə uyğunlaşdıraraq hətta kəndlilərin belə hüquqi azadlıqlarını məhdudlaşdırmış, despotik müstəmləkə rejimini bütün Quzey Azərbaycan ərazisində tətbiq etmişdilər.

Seyid Əzim Şirvani özünün məşhur «Şirvanın təzə bəyləri haqqında» şeirində təkcə Şirvanın deyil, bütün Quzey Azərbaycanın çar Rusiyası tərəfindən siyasi sisteminin pozulmasından və bu pozuntulardan törənən eybəcərlikləri və əhalinin düşdüyü əzab-əziyəti qələmə almış və yeni tətbiq edilmiş sistemlə barışmadığını nümayiş etdirmişdir. Bu şeirində mütəfəkkir şair işğaldan əvvəl Şirvanın və deməli bütün Quzey Azərbaycanın düşdüyü vəziyyəti şərh edərək göstərir ki: Tanrı dünyanı nizamlayarkən insanların bəzisini xan, bəzisini sultan eyləyib. Bütün bunlar Tanrının sirridir. Ona görə də hər yoldan ötən xan, bəy, sultan ola bilməz: amma çar məmurları rüşvət alıb istədikləri adamı bəy ediblər. Şair hətta öz şeirində bu yalançı bəylərin adlı siyahısını da təqdim edir [152,23-24-15-17-13].

Şair bütün çar məmurlarını, onların ölkədə törətdikləri özbaşınalığı, xalqı qurd kimi soyan pristavı, kvartalı, kazakı, xalqın başını dəllək kimi qırxan qondarma bəyləri kəskin lənətləyərək göstərirdi:

Nə pristav, nə köməkçi, nə kvartal, nə kazak,
Hamısı qurd kimi soymaqlığa xalqı ki, qoçaq.
Qırxdı xalqın başını hər biri misli dəllək,
Sac Lahıcdan qurtarıb, qalmadı Səlyanda ələk
Cifə cəm etməyə kim, bunlar ilə Şeyxəli bək,
Gəh mürid etdi özün, gahi müslman elədi. [152,18]

Mütəfəkkir şair öz oğlu Mircəfərə, məlum olduğu kimi, bir çox xitab və nəsihətlər etmişdir. Bütün bu xitab və nəsihətlərində o, elmə, savada yüksək qiymət vermiş, oğluna məsləhət görmüşdür ki, elm öyrənsin, müxtəlif dilləri öyrənsin, şahlardan, şirdən və şairdən uzaq dursun, çünki bunların hər üçü təkəbbürlü, kibrli və qürurlu olurlar.



Bütün mənalı həyatını xalqın savadlanmasına sərf edən dahi sənətkar ölkədə məktəblər açdıran qanlı hökmdarları belə ədalətli kimi təqdim edir. Belə ki, rus imperatorunun fərmanı ilə ayrı-ayrı vilayətlərdə məktəblər açılmasını da yüksək qiymətləndirir və göstərir.

Həyatı boyu ədalət carçısı olan şair zalım padşahları ədalətli olmağa səsləmişdir. Şair «Alimin zalım padşaha cavabı» adlı əsərində göstərir:

Dedi bir əhli-elmə bir zalım-
Key olan şər sirrinə alim!
...Padşahlara ədl əhsəndir,
Fitnənin yatmağı mühəssəndir. [154,33-34]

Elmi ilə hakimiyyəti müqayisə edən dahi mütəfəkkir, üstünlüyü həmişə elmə vermişdir. Özünün məşhur «Misir şahzadələri» adlı əsərində şair göstərir ki, Misir mülkündə iki şahzadə qardaş var idi. Onlardan biri ömrünü elmə, digəri isə var-dövlət yığmağa sərf edir və nəticədə elm sahibi kasıb yaşayıb məşəqqətlər çəkir, var-dövlət yığan isə hakimiyyət əldə edir [154,169].

Bizə elə gəlir ki, Seyid Əzim Şirvaninin bu vaxta qədər tədqiqata cəlb edilməmiş «Siçan və Pişik dastanı» Azərbaycanın çar Rusiyası tərəfindən işğalına həsr edilib. Məsnəvi formasında yazılan bu «Dastan»dakı hadisələrin təsviri XIX əsrin başlanğıcındakı Azərbaycanı xatırladır. «Dastan»dakı Pişik Rusiyanın, Siçan isə Azərbaycanın rəmzidir. Müəllif «Dastanın başlanğıcı»nda açıq şəkildə göstərir ki, bu dava:

Bil ki, nə sultan, nə xanın cəngidir,
Bir Pişik ilə Siçanın cəngidir. [154,216]

Müəllifin təsvir etdiyi «Pişik» bütünlüklə Sisianovun, Yermolovun, Paskeviçin, Siçan və siçanlar isə Qacar-

lar sülaləsindən olan Abbas Mirzə və Azərbaycan xanlarının obrazlarıdır. Əsər «Pişiyin» tərifi, onun hiyləgərliyi və tövbəsi, siçanların «Pişiyə» hədiyyə aparmaları, sonra «Pişiyin» hiyləsindən xəbər tutmaları, onların «Pişikdən» padşaha şikayət etmələri, şahın onlara cavabı, «Siçan» şahının qoşun toplaması, şahın vəziri elçiliyə göndərməsi, «Pişik» şahının ona cavabı, «Pişiyin» qoşun toplaması, orduların qarşılaşması, ilk əvvəl «Pişiyin» məğlub olması və əsir düşməsi, siçanların qorxaqlığı üzündən «Pişiyin» dardan qurtulması və bütün siçanları məhv edib öz hökmranlığını sürdürməsi ilə sona çatır.

Əsərdə təsvir edilən hadisələr Quzey Azərbaycandakı ruslara qarşı üsyanları, hətta Şirvan, Qarabağ, Bakı, Şəmkir, Gəncə, Lənkəran və s. döyüşlərini xatırladır. Belə ki, «Pişiyin» hiyləgərliyi çar Rusiyasının Azərbaycan xanlarını öz tərəfinə çəkmək üçün ilk əvvəl onların müstəqilliyini tanımasına söz verməsini, siçanların pişiyə hədiyyə aparmasını onların Qacarlardan üz döndərib Rusiya tərəfinə keçmələrini, «Pişiyin» hiyləsindən siçanların xəbərdar olub Qacar hökumətindən kömək istəməsini və nəhayət Pişiyin siçanları məğlub edib öz hökmranlığını sürdürməsini və Azərbaycanın məğlub duruma düşməsini müəllif örtülü şəkildə olsa da öz oxucularına çatdırmağa nail olmuşdur.

Bu əsərində şair həmçinin zülmə, zalıma öz nifrətini aşkar bildirir və göstərir ki, zalıma rəhm eyləmək zülmə kömək etmək deməkdir, qurda rəhm etmək qoyunlara zülm etmək deməkdir, pişiyə rəhm etmək siçanlara zülm etmək deməkdir:

Şah dedi: - Zalıma rəhm eyləmək
Öylədi ki, zülm işə etmək kömək.
Qurda tərəhhüm əgər etsə çoban,
Zülm qoyunlara edib bigüman.
Gər pişiyə rəhm eləsə bir nəfər,
Zülm siçanlara edib müxtəsər. [154,231]

Şair özünün məşhur təzkirəsində də Cümhuriyyət barəsində söz açaraq göstərir ki: Rusiya məmləkətinin imperatoru çar II Aleksandrı «Rusiyyənin Cümhuriyyət talibi olan tələbələri darüssəltəneyi-Peterburqda odluyub öldürdülər» [153,19].

Son olaraq qeyd edək ki, Seyid Əzim Şirvani dində xürafatı, fəlsəfədə maddiliyi rədd edərək, elmdə yeniliyin tərəfdarı və təbliğatçısı olmuşdur [54,129], xalqın maariflənməsində, təlim-tərbiyəsində, milli şüurun formalaşmasında əvəzsiz xidmətlər göstərmiş, Azərbaycan ictimai-siyasi, ideoloji-fəlsəfi fikrinin inkişafında müstəsna rol oynamış, sosial və milli zülmün, müstəmləkəçiliyin müxtəlif cəhətlərinə qarşı barışmaz mübarizə aparmış, əsərləri ilə cəhalətə, nadanlığa qarşı özünün kəskin mövqeyini nümayiş etdirmişdir.

Artıq XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda maarifçilik hərəkatının ikinci dövrü başlayır. Bu dövr əsası Mirzə Fətəli Axundov tərəfindən qoyulan maarifçi təlimin geniş vüsət alması dövrüdür. Bu dövrdə mütərəqqi milli mətbuat, məktəb və pedaqoji fikir, teatr, tərcümə, tənqid, maarifçi ideoloji iş daha da genişlənir ki, bu işdə Həsən bəy Zərdabinin (1842-1907) xüsusi xidməti vardır. O, görkəmli təbiətşünas alim, ilk Azərbaycan milli mətbuatının yaradıcısı, jurnalist və publisist olmaqla yanaşı, həm də görkəmli maarifçi – demokrat olmuşdur. Azərbaycan xalqının maariflənməsi, mədəni dirçəlişi, fikir intibahı tarixində müstəsna xidmətləri olmuş Həsən bəy Zərdabinin təbiətşünaslıq və materializmlə [136,203-282], siyasi-hüquqi məsələlərlə [104,153-166;140,181-182] publisistika və maarifçiliklə [88,252-264] bağlı fikir və mülahizələri geniş şərh edildiyindən biz yalnız mövzumuzla bağlı olaraq onun dövlət və dövlətçiliklə əlaqədar olan fikirlərini şərh etməyə çalışacağıq.

Dünyagörüşü baxımından Qərb və rus maarifçilərinə, xüsusilə, Mirzə Fətəli Axundova yaxın olan Zərdabi bütün həyatı boyu feodalizm və daha sonra kapitalizmin iqtisadi, ictimai və mədəni sahələrdəki təzahürlərinə qarşı mübarizə aparmış, mənsub olduğu xalqın milli mənlik şüurunun yaranması və inkişafında bütün bilik və bacarığını əsirgəməmişdir. Onun redaktoru olduğu «Əkinçi» qəzetində «xarici siyasət işləri», «ölkənin nizam-intizamı, millət və məmləkətin faydaları», «daxili və xarici xəbər və hadisələr», «elmi xəbərlər», «əkin və ziraət məsələləri»ndən bəhs edilir. Bu qəzetdə o və qəzetin bütün yazarları xalqa təkcə «işlərin yaxşı və yamanlığını» cəmiyyətdəki nöqsan və bəlaları təsvir etməklə kifayətlənməyib həm də onların əlacı və aradan qaldırma yollarını göstərirdilər. Çar senzurasının qəzetdə siyasi məsələlərlə bağlı yazılara qadağa qoymasına baxmayaraq» mutərəqqi jurnalistika təcrübəsinə yaxşı bələd olan və jurnalistik ustalığına yiyələnmiş bir mətbuat xadimi kimi Zərdabi öz əməli işində senzuranın təsdiq etdiyi proqramdan məharətlə kənara çıxıb, «Əkinçi»ni əsl mənada demokratiyanın tribunasına, Azərbaycan ictimai-siyasi, fəlsəfi, bədii, elmi, iqtisadi, pedaqoji və etik fikrin aynasına çevrilə bilmişdi» [115,9].

Öz yüksək amallarını həyata keçirmək üçün «Əkinçi» qəzeti ətrafında toplaşan M.F.Axundov, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əhsəmil Qəvaid, Ə.Goranı, Ələkbər Heydəri və təbii ki, qəzetin redaktoru Həsən bəy Zərdabi kimi dövrün görkəmli ziyalıları qəzetin səhifələrində Azərbaycan ictimai-siyasi fikrinin inkişafı baxımından faydalı polemikalar açmış, yeni elmi dünyagörüşün parlaq nümunələrini yaratmışlar. Öz proqram məqaləsində Zərdabi göstərir: «Müsəlmanların anlıyan... kəslərindən iltimas edirik ki, xalqa bu qəzeti oxumağa mane olmasınlar, bəlkə səy etsinlər ki, onu oxuyan çox olsun. Bizə məlumdur ki, müsəlmanlar həmişə öz anlıyan kəslərini əziz tutub, onların sözlərinə əməl edirlər. Əlbəttə, anlıyan... kəslərə lazımdır ki, xalqın bu etibarına xəyanət etməyib onun gözlərinin açılmasına səy... göstərsinlər. Dünya bir şeydir ki, həmişə dövran edir və insan həmişə bu tövr dünyanın gərdişinə görə gərək...öz rəftarını da dəyişdirsin. Necə ki, məsəldir deyirlər: «zəmanə sənə saz olmasa, sən zəmanəyə saz olginən». Pəs olmaz ki, dünyada həmişə bir qayda ilə rəftar olsun. Bizim zəmanənin dəyişilməyi, əlbəttə, hər anlıyan kəsə məlumdur və bu tövr zəmanənin dəyişilməsi bizim ilə deyil, həmçinin biz qadir deyilik ki, zəmanəni dəyişilməkdən saxlayaq. Ol kəslər ki, həmişə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişildiyinə görə gün-gündən tərəqqi edib irəli gedirlər. Onların belə irəli getməsinə mane olmaq, yəni onları – keçən zəmanənin qaydası üzrə saxlamaq məsləhət deyil. Ona görə ki, yolu onlar bizsiz də gedəcəklər. Pəs bizim anlıyan...kəslərə eyni məsləhətdir bu yolu onlar ilə bir yerdə getsinlər ki, onların tez tərəqqi etməyinə səbəb olsunlar» [50,24-25].

Patriarxal adət-ənənələri, köhnə həyat tərzini pisləyən, mütərəqqi həyat tərzinə, «avropalaşmağa» çağıran belə fikir və mülahizələrə qəzetin bütün qabaqcıl publisistlərində rast gəlmək mümkündür.

Zərdabi həmçinin göstərirdi ki, qəzetdə bir çox məsələlərlə yanaşı həm də «Rusiya dövlətinin və qeyri dövlətlərin politika xəbərlərindən danışıq olacaqdır, yəni padşahların və onların vüzəralarının aralarında olan danışıqlarda, dövlətlər arasında olan cənglərdən xəbər verəcəkdir...Rusiya dövləti tərəfindən öz tabelərinə sadiq olan hökmlərdən xəbər verəcəkdir...Bizim kənd sudlarında, ya miravoy sudda və ya okrujnoy sudda qət olan işlərin əmdəsinin qətnaməsi olacaqdır» [115,9].

Qəzetin əlli altı nömrəsinin hamısında proqram məqalədə nəzərdə tutulan bütün məsələlərə Zərdabi artıqlaması ilə əməl etmişdir.

İstismar, iqtisadi bərabərsizlik, ictimai və milli zülmə, Azərbaycanın işğalına dair məsələləri və ya qəzetin dili ilə desək «dövlətə dəyən sözlər»i senzuranın nəzərindən qaçırmaq üçün Zərdabi üstüörtülü və ya dolayı yolla xalqa çatdırır, zaman və məkanı bilərəkdən dəyişmək kimi üsullardan istifadə edirdi. Belə ki, Zərdabi hələ qəzetin ilk nömrəsindən göstərirdi: «Bir neçə ildir ki, Rusiya dövlətinə tabe olmuşuq və bucağadək bizim ticarətimiz qədim sayaq olan kimi olubdur, amma Rusiya dövlətinin öz əhli zikr olan xərci çox zamandır ki, verir. Məzkur qərardad qoyulan on ildir və bu on ildə biz o xərci verməmişik. Əgər biz özümüzü Rusiya dövlətinə tabe hesab edirik belə olan surətdə Rusiya dövləti öz əhli ilə elədiyi rəftarı bizim ilə də eləsə, o vaxtda bizim üçün məqami-şikvaya narazılıq yoxdur» [50,25].

Həmçinin Zərdabi xalq azadlıq hərəkatı ilə bağlı xəbərləri Moskva, Peterburq, Tiflis və s. şəhərlərin mətbuatından seçib «Əkinçi» də dərc etdirir və beləliklə də imperiya daxilində gedən proseslərdən xalqa məlumat verir, onları da öz haqlarını tələb etməyə səsləyirdi: «Peterburqda doxsan min fəhlə izsiz qalmışdır. Orada xalqa dövlət qadağan edən kitablar paylanır. Qızıl bayraq üstə «torpaq və asudəlik» yazmış inqilabçılardan 21 adam (kişi və qadın) Sibirə sürgün olunmuşdur. Belə hadisələr Moskva, Tula, Oryol kimi şəhərlərdə də baş verir».

Eləcə də qəzetdə məlumat verilirdi: «Amerika Birləşmiş Ştatlarının zavodları və dəmir yollarında tətillər gün-gündən artır». «Çində Dunkan vilayətində əhali milli zülmə qarşı çıxışlara başlamışdır» və s. və i.

«Əkinçi» müəllifləri xalqı siyasi cəhətdən maarifləndirmək məqsədilə bir çox hallarda İranı təhlil və mühakimə obyekti edib əslində aşkar yerli, milli əhəmiyyəti olan mübariz ideyalarını İranın timsalında yaymağa nail olurdular: Qəzetin 18 yanvar 1877-ci il ikinci nömrəsində göstərilirdi: «İran dövlətinin əməlcatı rüşvət almaq və



qeyri bizabitə əməl etmək ilə xalqı elə incidib ki, şəhərlərdə xalq bu barədə qapılıra kağız yapışdırır» [50,338].

Həmçinin qəzetin 4 yanvar 1877-ci il birinci nömrəsində oxuyuruq:

«Təbrizdən Peterburqski vedemosti» qəzetinə yazırlar ki, gecə bir neçə məscidin qapısına kağız yapışdırmışdılar ki, sahibi-divan Azərbaycan vilayətini dolandıra bilmir və əgər dövlət onu xaric etməsə, xalq özü onun divanını edəcək» [50,330].

Ümumiyyətlə, «Əkinçi» yazarları Azərbaycanın inkişafını müsəlman dövlətlərinin, xüsusilə, Osmanlı və İran dövlətlərinin inkişafında görür, ona görə də bu dövlətlərdə konstitusiyalı monarxiyanın, daha sonra isə parlamentli respublikanın yaradılmasını istəyir və bu yolda çalışırdılar. Bu münasibətlə «Əkinçi» qəzetində Osmanlı dövlətinin Midhət Paşa tərəfindən hazırlanmış «Konstitusiya»sının qısa xülasəsi verilmiş və göstərilmişdi: «Bu qanun ki, onun fəsillərini tam çap etməyə qəzetimizdə yer olmadı, dövləti-Osmanlı dekabrın 11-də qoyub. Bu səbəbə İstanbul əhli Dolma Baxça sarayına gedib həzrət sultandan razılıq edib, şadyanalığa məşğul olub... Məclisi-ümumi iki dairədən əmələ gəlir: birisi məclisinasdır ki, onun calislərini xalq intixab edir (hər 100 min tabe bir calis) və birisi məclisi – ammdır ki, onun calislərini həzrət sultan özü 'mütəşəxxis adamlardan təyin edir. Hər ildə noyabrın əvvəlindən martın əvvəlinəcən məclisi-ümum işlərə mülahizə edir. Hər bir isə əvvəl məclisinas mülahizə edir, sonra məclisi-amm onu qəbul edəndə həzrət sultan təsdiq edir» [50,328].

İrandan bəhs edərkən isə qeyd edirlər: «İranda qanun olmadığına binaən işlər bu tövr başlanıb ki, doğru və yalanı qanmaq olmur...Xalqa deyəndə ki, qanun olmasa asudəlik və tərəqqi olmayacaq, deyir: hansı qanundur ki, şəriətdən artıq ola? Əzizim, qanuni-şəriət hansı öz qaydası ilə dolanır?...Vəchi-siyasəti öz qərar və qaydasında

əməl olunur, mövqufdur hər kəsin rəyinə. Hakimlər qanun izilə hökm etmir. Qərəz... İran xalqı sərgərdəndir. Günbəgün müftəxor çoxalır, kasıb payimal olur» [50,14].

Zərdabi və onun məsləkdaşlarının cəmiyyət və dövlət məsələlərindəki mövqelərini sosialist ideologiyası baxımından şərh edən müəlliflər [115,15;104,155-156] belə bir fikir irəli sürmüşlər: «İdealizm mövqeyində dayanmaq Zərdabi və onun məsləkdaşlarının həqiqi azadlıq haqqında düzgün, elmi təsəvvür almalarına imkan vermədiyi kimi, azadlıq əldə etmək yollarını düzgün müəyyənləşdirmələrinə də mane olmuşdur. Eyni sözü bu müəlliflərin ictimai və mədəni tərəqqiyə nail olmaq üçün «tavana» (dövlətli – Ə.M.) və kasıbların arasında (......) ittifaq yaratmaq şəklində ortaya çıxmış liberalizmində də görmək mümkündür» [115,15].

Həmçinin, «Zərdabi Marksa qədərki dövrün bütün mütəfəkkirləri kimi cəmiyyətin təbəqələşməsi və yoxsulların varlılardın asılı olması səbəblərini yanlış izah edir... O, maarifçilik mövqelərindən çıxış edir» [104,165].

Halbuki adı çəkilən müəlliflərin başqa-başqa fikir və mülahizələrindən də açıq görünür ki, onlar da bu və ya digər dərəcədə «Əkinçi» yazarlarına haqq qazandırır. «Əkinçi»dən bu fikri doğruldacaq faktlar gətirirlər: «Ey zikr olan əşxaslar (əməkçi xalqın qanını soran tüfeylilər Ə.M.), bunu fəhm edin ki, sizin dolanacağınız xalq ilədir və diriliyiniz onun diriliyinə mövqufdur (...) Siz xalqın qanını sorub, (...) özünüz həm puç olacaqsınız» [115,18].

M.Məlikova və E.Bayramov adı çəkilən əsərdə qeyd ediblər: «Zərdabi xalqa düşmən olan siniflərə qarşı barışmaz mübariz idi. O, mürtəce qüvvələrlə sazişə gəlmək fikrini belə qəzəblə rədd edərdi. Xalq düşmənlərinin ittifaqa girmək təklifini o, özünün xalqa bəslədiyi hisslərin təhqir olunması kimi qəbul edir». Fikirlərini Zərdabidən gətirdiyi misallarla əsaslandıran müəlliflər göstərirlər: «Onlar eyş-işrət təntənəsində arı və namusu unudaraq, mənə



(Zərdabiyə – R.Ə.) sülh və ittifaq təklif edirlər. Mən və onlar! Mən – bu cəhalət qaranlığını mümkün qədər işıqlandırmaq üçün bütün qüvvələrimi sərf edənəm, onlar – işığın hər cür təzahürünü boğanlar, bu qaranlıq gecənin zülmətini artıranlardır. Siz yüzlərlə öz himayədarlarınızı saysanız belə, bu heç vaxt ola bilməz» [104,156].

Zərdabi azadlıq məsələsində insanın heyvandan belə geri qaldığını qeyd edərək Azərbaycanın qondarma bəylərini kəskin tənqid edərək göstərirdi: «Dövləti-Rus bizim vilayəti (Quzey Azərbaycan nəzərdə tutulur – R.Ə.) zəbt edəndən...bizim Qafqaz müsəlmanları öz avamlığından dünyada bəylikdən artıq xoşbəxtlik bilmədiyinə dövlət onlar üçün elm təhsil etməkdən ötrü bina etdiyi məktəbxanalara məhz bu qəsd ilə giriblər ki, oxuyub bəy olsunlar, yəni basıb-kəsmək ixtiyarını kəsb etsinlər. Əlbəttə, belə bəylik axtaran kəs xalqın xoşbəxtlik fikrini çəkməz. Onun üçün pul gərəkdir ki, kef damağa məşğul ola və millət əvəzinə heyvan gərəkdir ki, ona hakimlik edib, öz bəyliyini zahir edə. Bu səbəblərə zikr olan əşxaslar ol məktəbxanalarda elm təhsil etmək acı olduğuna, onu heç dadmayıb ancaq adətlərin dəyişdiriblər, yəni yeyib, içib, geyib, durub – oturmaqda özlərini xaricilərə oxşadıb, əslən elmdən bixəbər qalıblar. Bir tərəfdən xalq bu əşxasların təzə adətlərini görüb onlardan millət üçün heç bir səmərə görməyib... Bir tərəfdən məzkur bəylik axtaran kəslər işin belə olmağını özlərinin xeyri hesab edir, xalqın gözü açılmağa səy etməyib...belə bəd əməllər ilə xalqın elm öyrənmək yolunun qabağını kəsib, onun dəxi ziyadə avam olmasına bais olublar... Əlbəttə, bu halda bizlərdən 5-10 elm sahibi və millət təəssübü çəkən olsaydı, bizim millət belə qara günə qalmazdı» [50,367-368].

Mütəfəkkir hətta insanla heyvanı müqayisə edərək bildirir: «Həqiqət, insanın çoxunun zindəganı bəzi heyvanın zindəganından yaxşı deyil. Məsələn, ...bir heyvan bir ahunu şikar edib özü yeyir və əgər bir qeyri heyvan onun

əlindən o ahunu almaq istəsə, onunla ölüncən dava edir. Amma insan qan-tər töküb qazandığını avamlığı cəhətindən öz əlilə özündən güclülərə verib onun dəxi artıq tavana (dövlətli – R.Ə.) olmağına bais olur. Və genə məlumdur ki, heyvan haraya istəsə gedir, hər tərəfə...baxır, hər nə istəsə eləyir, haçan kefi istəsə ulayır. Amma insan nə ki özü istədiyini edə bilmir, hətta heyvan uluyan kimi öz xahişilə danışa da bilmir. Pəs insanın malikdünyalıq ixtiyarı payimal olub onun ağlı məhz tavanlar üçün işləyir. Əlbəttə, tavana kasıb ilə belə rəftar eləyir ki, onun özü üçün yaxşı olsun, amma bunu fikir eləmir ki...kasıb gücdən düşdükcən ondan az nəf olur...Və bizim Məşriqzəminin Avropa əhlindən geri qalmağına bir ümdə səbəb budur ki, tavana və kasıbların arasında bu barədə ittifaq yoxdur» [50,449].

Zərdabi feodalizm kimi kapitalizmin də mexanizminə nüfuz edə bilmiş, istismarın bir formasının digəri ilə daha incə, fəqət daha amansız forma olduğunu göstərmiş, kapitalizmlə istismarın bir-birindən ayrılmaz olduğunu faktlarla sübuta çalışmışdır. Zərdabi kapitalist istehsal münasibətlərinin inkişafı ilə əlaqədar olaraq əkinçilərin şəhərlərə axınını normal hesab etmir və göstərirdi ki, kənd hər bir ölkənin və dəməli dövlətin əsasıdır. Ona görə də Zərdabi xatırladırdı: «Hər bir ölkənin bilavasitə mənafeyi kəndi, yaxud başqa sözlə deyilsə, əkinçiliyi müdafiə etməkdir» [116,272].

Zərdabi feodal dövlət quruluşu, çar üsul-idarəsi, çar Rusiyasının müstəmləkəcilik siyasətinin gətirdiyi zülm, özbaşınalıq və qanunsuzluqları kəskin tənqid edərək, kapitalist münasibətlərinin mahiyyətini aşkara çıxarmış, - sənaye çevrilişini fəhlə əməyinin istismarı ilə əlaqələndirmiş, xüsusilə xarici kapitalın ölkə iqtisadiyyatına soxulmasının əleyhinə olmuşdur. Bu münasibətlə o qeyd edirdi: «Amerikadan Badkubəyə 1-2 adam gəlib. Deyirlər ki, onlar orada olan neft zavodlarının sahiblərindəndirlər və buraya gəlməkdən murad budur ki, özlərinə yer alıb, quyu qazdırıb cövhər çəkdirsinlər... Onlar gəliblər ki, yer alıb cövhər çəkib, onu zərərinə satıb, bizim zavodçuları sındırıb, sonra onların zavodlarını və yerlərini ucuz alsınlar. Əlbəttə, bu, danışığa həm bavər etmək olmaz» [50,442].

Dövlətçilikdə mühüm məsələlərdən olan və dövlətin ana sütunlarından birini təşkil edən məhkəmə sistemi və qanunçuluq məsələləri də Zərdabi yaradıcılığının əsasını təşkil edir. onun məqalə və məktublarında qeyd edilirdi: «Bizdə əslində məhkəmə yoxdur, biz tamamilə məhkəməsiz yaşayırıq», «hazırda biz ədalət mühakiməsi ilə tanış olmamışıq». «Qanunsuzluq və özbaşınalıq hər yerdə hökm sürür. Məhkəmələrimiz andın müqəddəsliyi barədə heç bir anlayışı olmayan yalançı şahidlərin ifadələri ilə aş-ıb-daşır... Bizdə özbaşınalıq, məhkəməsiz cəzalandırmaq, zəiflərə zülm edilməsi hökm sürür...Rəislər işi özlərinə münasib qaydada apara bilər, istəsələr hətta qatillərə də bəraət verə bilərdilər» [216,49-76-273].

Çar Rusiyasında kapitalist istehsal münasibətlərinin inkişafı ilə əlaqədar olaraq çar hökuməti burjua xarakterli bir sıra siyasi, iqtisadi, hərbi və məhkəmə islahatları keçirməyə məcbur oldu. Lakin bu islahatlar imperiyanın ucqarlarında, o cümlədən də Quzey Azərbaycanda öz əksini tapmadı. Öz müstəmləkə siyasətinə sadiq qalan çar hökuməti məhkəmə icraatının Azərbaycan dilində aparılmasını belə qadağan etdi. Bütün kargüzarlıq və mühakimə işlərinin aparılması tərcüməçilərin vasitəsilə rus dilində aparılması Zərdabinin dərin etirazına səbəb orlmuş və hətta xalqı öz hüquqları uğrunda mübarizəyə səsləmişdir. Bu münasibətlə Həsən bəy Zərdabi 1905-ci ilin dekabrında yazırdı: «Hazırda bütün Rusiyada həyəcanlar, toqquşmalar baş verdiyi bir zamanda xalqlar özləri üçün hüquqlar tələb edirlər. Bu tələblərdən biri dövlətin yerli dilləri bilən hakimlər təyin etməsindən, kargüzarlığın,

mühakimənin ana dilində həyata keçirilməsindən ibarət olmalıdır» [172,216-217].

Həsən bəy Zərdabi 1905-ci il inqilabını alqışlayırdı. Elə bu alqışlama da «mütəfəkkirin siyasi simasını müəyyən edən meyar oldu» [104,165]. O, yazırdı: «Bu axır zamanda biz müsəlmanların qol və qıçlarını bağlayan zəncir paslanıb para-para olub töküldü. Bakının küçələrində «Yaşasın hürriyyət!» və qeyri sədası büləndi-asiman oldu və müsəlmanlar dəstəbədəstə cəm olub «İttifaqi hümmət» və qeyri cəmiyyətlər bina etdilər» [172,216].

Həsən bəy Zərdabi dövlətçilikdə iqtisadiyyatın və maliyyənin mühüm əhəmiyyət kəsb etdiyini qeyd etməklə yanaşı «özünü kapitalistlərlə və onların vasitəçiləri olan möhtəkirlərlə mübarizə planında şirkətin kasıb, əmlaksız iştirakçılarına qarşılıqlı banklar yaratmaq yolu ilə kömək göstərilməsinin təşkilini məsləhət görürdü» [104,161].

Haqqında bəhs edilən dövrdə Azərbaycan üçün çalışan şəxsiyyətlər içərisində Nəcəf bəy Vəzirov və Əbdürrəhim bəy Haqverdiyevin də xüsusi yerləri vardır. Onlar Azərbaycan maarifçi dramaturgiyasının inkişafında yeni mərhələnin əsasını qoymuşlar. Onlar nəsrlə yanaşı publisistika ilə də köhnəliyə, nadanlığa qarşı hərtərəfli mübarizə aparmış, «İmdadiyyə» adlı cəmiyyət yaradaraq dövlətçiliklə bağlı konkret fikirlər irəli sürməsələr də, çar üsul-idarəsinə qarşı açıq mübarizə aparmışlar. Onlar öz müasirləri F.Köçərli, Üzeyir Hacıbəyov, N.Nərimanov, C.Məmmədquluzadə və b. ilə birlikdə çar Rusiyasının Qafqazda müsəlmalara qarşı tutduğu mövqe əleyhinə mübarizə aparmış, XX əsrin əvvəllərində Arazın o tayında – Güney Azərbaycanda ictimai və milli-mənəvi zülmə qarşı qalxmış Təbriz Məşrutə inqilabçılarına öz vətəndaş və sənətkar münasibətlərini bildirmişlər. Belə ki Nəcəf bəy Vəzirov başını götürüb Arazı keçən, bir parça çörək dalınca Bakı mədənlərinə pənah gətirən o taylı qardaşlarına öz ürək yanğısını bildirərək milləti zor duruma düşürən İran şahına, İranın fanatik ruhanilərinə lənətlər yağdırmış xalqı Vətənin azadlığına səsləmiş və göstərmişdir: «Halınız yadıma düşəndə ciyərim odlanır...Xaraba qalsın İran, necə ki qalıbdır...Fəramış etməyin, qardaşlarım. Vətən yolunda ölməkdən gözəl ölüm yoxdur...Səhraları qan ilə sirab edin ki, sünbüllər uzun bitsin» [88,272-273].

Ümumiyyətlə, XIX əsrin sonu XX əsrin əvvəlləri kimi çox mürəkkəb dramatik bir epoxanın görkəmli qələm sərkərdələrimizin hamısının yaradıcılığında şikayət və fəryad yox, azadlıq uğrunda çağırış və səfərbərlik nidaları hakim idi.

Artıq XIX əsrin sonundan etibarən Mirzə Fətəli Axundovla başlayan, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev tərəfindən davam etdirilən milli və dini mənsubiyyət problemi «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül», «Kaspi», «Şərqi-Rus», «Həyat» və s. kimi müxtəlif istiqamətli qəzetlərdə müxtəlif mövqelərdən daha geniş səpgidə davam etdirildi. XIX əsrin sonlarından başlayaraq çar Rusiyası ərazisində, o cümlədən də Quzey Azərbaycanda yalnız məktəb və maarifin müasirliyi deyil, ümumiyyətlə formalaşmaqda olan milli-ictimai şüurun mürəkkəb, ziddiyyətli bir milliyyət və milli «Mən» axtarışları, etnik özünüdərk düşüncələri ayrı-ayrı Azərbaycan mütəfəkkirlərinin elmi-fəlsəfi və publisistik yazılarında daha qabarıq şəkildə öz ifadəsini tapmağa başlamışdır. Milli və dini mənsubiyyətin fərqi çox mühüm ideoloji-fəlsəfi və siyasi amil kimi Azərbaycan ziyalılarını dərindən düşündürür, Zaqafqaziya müsəlmanlarının adı, tarixi və milli taleyi ilə bağlı məsələlər «Kəşkül», «Kaspi», «Kavkaz» və s. kimi mətbu orqanlarda işıqlandırılmağa başlayır və beləliklə də milli ideologiyanın əsası qoyulurdu. «Əkinçi»dən sonra dövrün aparıcı mətbu orqanları olan «Ziya» (1880-ci il dekabr ayından «Ziyayi-Qafqaziyyə» adlanıb – R.Ə.) əsa-

sən «üsul-cədid» yolunu müdafiə etmiş, «Kəşkül» Avropa ədəbi tərəqqi təcrübəsinə əsaslanaraq yeniliyi təbliğ etmiş, ilk olaraq 1887-ci ildə «Ana dili» və milli «Mən» anlayışlarını elmi mətnin başlığına çıxarmışdır.

«Kəşkül»ün bağlanmasından ta «Şərqi-Rus» qəzetinin (1903-1905) açılmasına qədərki on ildən artıq bir dövrdə milli ziyalılarımızın böyük bir qismi qeyri-ana dilli mətbuat orqanlarında çıxış etməyə məcbur oldular ki, bu da müəyyən qədər xalqla milli ziyalılar arasında bir boşluq yaratdı.

XIX əsrə yekun vuraraq göstərməyi lazım bilirik ki, Bizans imperiyasından uzun bir müddət sonra çar Rusiyasının Cənubi Qafqaz, o cümlədən də Quzey Azərbaycanı işğal etməsi ilə regionda xristian amili yenidən dirçəldildi. Çarizm Rusiyadan rusları, malakanları, İran, Türkiyə və digər Şərq ölkələrindən ermənilələri, Quzey və Qərbi Azərbaycan torpaqlarında yerləşdirərək Azərbaycan türklərini bu ərazidən sıxışdırıb çıxarmağa başladı, keçmiş İrəvan və Naxçıvan xanlıqları ərazilərində süni «Erməni vilayəti» yaratmağa nail oldu. Bu da azmış kimi, 1836-cı ilə qədər fəaliyyət göstərmiş müstəqil Alban kilsəsini ləğv edərək onu erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verdi. Bununla da Azərbaycanın qədim əhalisi olan xristian albanların bütün maddi-mədəniyyət abidələri erməniləşdirildi. Ölkənin Gürcüstanla həmsərhəd olan ərazilərində isə xristianlaşdırma siyasətinə gürcü kilsəsi cəlb edildi. Bu ərazilərdə də müsəlman əhali provaslavlaşdırılaraq əslində gürcüləşdirilirdilər. Bu günkü alban-ingiloyları özlərinə məxsus xristianlıqdan döndərib qədim alban kilsələrini də provaslavlaşdırdılar. Çar Rusiyasının məqsədi bütün Qafqazı, xüsusilə müsəlman türklərin ən çox və ən güclü dayağı olan Quzey Azərbaycanı bütünlüklə xristianlaşdırmaq idi. Fəqət çağrılmamış qonaqlar «öz umduqlarını yeyə bilmədilər». Çox çəkmədən uzun müddətli dövlətçilik və müstəqil yaşamaq ənənələrinə malik Azərbaycan xalqı xarici müdaxiləçilərə qarşı inadlı mübarizəyə başladı. Ölkə daxilində çar Rusiyasına qarşı üsyanlar baş qaldırdı. Bütün üsyanlar amansızlıqla yatırılsa da Azərbaycan xalqının azadlıq eşqini söndürə bilmədi.

Doğrudur, çar Rusiyasının «işğallarından sonra yaradılan nisbi daxili siyasi sabitlik, daxili feodal sərhədlərinin aradan qaldırılması, daxili gömrüyün ləğvi, vahid pul, ölçü və çəki sistemlərinin tətbiqi, əmtəə – pul münasibətlərinin inkişafı ənənəvi təsərrüfat sahələrinin dirçəlməsinə və inkişafına gətirib çıxarsa» da, «Rusiya hökumətinin Şimali Azərbaycanla uzun müddət sabit sosial-iqtisadi siyasət xətti olmamışdır» [29,383].

Bütün bunlara baxmayaraq bütövlükdə XIX əsr Azərbaycan xalqının tarixində, ölkənin sosial – iqtisadi, siyasi və mədəni həyatında mühüm dəyişikliklər dövrü olmuşdur. Çarizmin bütün iyrənc siyasətinə baxmayaraq Azərbaycan iqtisadiyyatı, sənayesi, ticarəti, aqrar və sosial münasibətləri, mətbuatı, xalq maarifi, elmi, ədəbiyyatı, incəsənəti, teatrı, memarlığı, nəqliyyat və rabitə sistemi, bank sistemi və ictimai-siyasi fikri yeni mahiyyət kəsb etmiş, gələcək milli dövlətin əsasları yaradılmağa başlamışdır. Tədqiqatçıların da qeyd etdiyi kimi: «XIX yüzillik xalqımızın tarixində bir tərəfdən müstəmləkə əsarəti dövrü, digər tərəfdən isə cəmiyyətimizin həyatında baş verən dərin sosial-iqtisadi və siyasi-mədəni proseslər çağdaş yüzilliyin (XX əsr nəzərdə tutulur – R.Ə.) başlanğıcında milli şüurun və milli hərəkatın Azərbaycan Xalq Cümhuriyyəti zirvəsi ilə başa çatan yeni yüksəlişinə zəmin hazırlanması dövrü olmuşdur» [29,388].

XIX əsr Azərbaycan xalqına, onun milli demokratik dövlətçilik məfkurəsinin, amalının təşəkkülündə əvəzsiz xidmətləri olmuş A.Bakıxanov, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani, H.Zərdabi və bu kimi görkəmli zəka sahiblərini, azadlıq mücahidlərini bəxş etmişdir. Onların və

məsləkdaşlarının dövlət və dövlətçiliklə, siyasət, iqtisadiyyat, hüquq, hərb, mədəniyyət, elm, sosiologiya, fəlsəfə, ədəbi tənqid, təbiətşünaslıq və s. haqqında irəli sürdükləri müddəa, fikir və tövsiyələri Azərbaycanda demokratik fikrin sonrakı inkişafında, çarizmə qarşı azadlıq hərəkatının yüksəlməsində və nəhayətdə Azərbaycan Demokratik Respublikasının yaradılmasında mühüm rol oynamış, bu fikir və mülahizələrin böyük bir qismi bu gün də öz təravət və aktuallığını saxlamışdır. Bütövlükdə XIX əsr Azərbaycanını çiyinlərində daşıyan xalqımızın yetişdirdiyi bu böyük şəxsiyyətlərin arzu və istəkləri bu gün artıq həqiqətə çevrilməkdədir.



# III FƏSİL

# AZƏRBAYCAN MİLLİ-DEMOKRATİK DÖVLƏTÇİLİK MƏFKURƏSİNİN FORMALAŞMASINDA İDEOLOJİ PRİNSİPLƏR VƏ SİYASİ, HÜQUQİ, İQTİSADİ AMİLLƏR

## § 1. Müasirlik ideyasının yaranması və mahiyyəti

Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin müasirləşmək, islamlaşmaq və türkləşmək kimi təməl prinsiplərinin formalaşmasının əsasən iki mərhələsini fərqləndirmək olar. Birincisi, maarifçilik mərhələsi olub, həmin mərhələdə müasirləşmək, islamlaşmaq və türkləşmək fikri ideyalar şəklində milli-mədəni inkişafa, yeniləşməyə xidmət etmişdir. XX əsrin əvvəllərində məlum tarixi səbəblər nəticəsində həmin ideyalar siyasi məna, aydın yönüm kəsb etdikcə milli istiqlalçılıq hərəkatının gedişatında təkmilləşərək milli-demokratik dövlətçilik məfkurəsinin təməl prinsipləri kimi formalaşmışdır.

Müasirlik, islamçılıq və türkçülük təməl prinsipləri üzərində milli-demokratik dövlətçilik məfkurəsinin formalaşması milli özünəqayıdışın mühüm əlaməti, milli özünüdərkin, milli mənlik, siyasi şüurun təşəkkülü, milli müqəddəratın təyin edilməsi hüququna sahib olmaqdan ötrü milli dövlətçilik ənənəsinin yeni, daha yüksək və müasir sivil mərhələdə bərpasının zəruriliyinin dərkinin parlaq siyasi ifadəsi kimi böyük tarixi əhəmiyyətə malik olan mühüm hadisədir. Bu hər şeydən əvvəl belə bir tarixi həqiqətin dərki deməkdir ki, milli müstəqilliyə, milli suveren dövlətçiliyə nail olmadan müstəmləkəçilik şəraitində azadlıq və tərəqqi yolunda sərbəst addımlar atmaq qeyri-mümkündür. Belə taleyüklü həqiqətin dərkində və gerçəkləşməsində artıq bu gün dünyanın bir çox ölkələrində dig-

ər dövlətlərin bayraqları ilə yanaşı dalğalanan müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağında rəmzi mənada əbədi həkk olunmuş türkçülük, müasirlik və islamçılıq ideyalarının milli-siyasi məfkurə səviyyəsində təməl prinsipləri kimi formalaşmasının müstəsna yeri və rolu vardır. Şübhəsizdir ki, o zamankı keşməkeşli, olduqca mürəkkəb, ziddiyyətli və təzadlı bir ictimai-siyasi mühitdə bu heç də asanlıqla başa gəlməmiş və gələ də bilməzdi. Burada Azərbaycan xalqının iradəsi, onun milli azadlıq uğrunda dönməz mübarizə əzmi əlbəttə ki, həlledici olmuşdur.

XX əsrin əvvəllərində milli oyanış zəminində müasirlik, islamçılıq və türkçülük kimi təməl prinsiplər üzərində milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkül tapması Azərbaycan xalqının milli azadlıq uğrundakı mübarizəsinin ideoloji əsası anlamında çox mühüm bir nailiyyəti idi. Bu, hər şeydən əvvəl xalqımızın keşməkeşli əsrlərdən süzülüb gələn istiqlal əzminin yeni məcrada aydın ideya-siyasi məna kəsb etməklə düzgün istiqamətə yönəlməsi, geniş vüsət alması deməkdir. Lakin bəhs edilən dövrdə fəlsəfi və ictimai-siyasi fikirdə müasirlik, islamçılıq və türkçülük ideyalarının qərarlaşması və milli-demokratik dövlətçilik məfkurəsi formasında təşəkkülünü müsəlman Şərqində sırf Azərbaycan hadisəsi kimi hesab etmək, təkcə Azərbaycan məkanı ilə məhdudlaşdırmaq da düzgün olmazdı. Çünki bu daha geniş etnocoğrafi miqyasa malik olub, Türkiyə üçün, eləcə də İran türkləri, o cümlədən çar Rusiyasının milli müstəmləkə zülmünə məruz qalmış və qurtuluşu uğrunda ayağa qalxmış digər türkdilli xalqlar üçün də səciyyəvi olan hadisədir. Ancaq burada bir qədər sonra daha ətraflı izah olunacaq belə bir məqama diqqət yetirmək lazımdır ki, buradakı mövcud bir çox ümumi, oxşar əlamətlər funksional baxımından ayrı-ayrılıqda spesifik milli xüsusiyyətləri, fərqli cəhətləri və problemləri əsla istisna etmir. Belə ki, Türkiyədə «hakim bir millət olan» (M.Ə.Rəsulzadə) türklərin ictimai-siyasi və fəlsəfi fikrində müasirlik – «avropalaşmaq», islamçılıq – «islamlaşmaq» və türkçülük – «türkləşmək» ideyaları feodal-monarxist üsul-idarəçiliyin, yeni milli-demokratik dövlətçiliklə əvəz edilməsi yolu ilə milli dirçəliş və tərəqqi uğrunda mübarizə əzmindən meydana gəlmişsə, dövlətçiliyindən məhrum edilmiş Azərbaycanda, habelə məhkum Krım tatarları, Orta Asiyanın türkdilli xalqları arasında həmin ideyalar öncə milli müstəmləkə zülmündən azad olmaq və milli müstəqil, suveren dövlətçilik ənənəsini bərpa etmək, bir sözlə, milli qurtuluş və tərəqqi məqsədlərindən, milli varlığı məhv olmaq təhlükəsindən qoruyub saxlamaq məramından irəli gəlmişdir. Lakin aparılan elmi-nəzəri araşdırmaların göstərdiyi kimi, bu sahədə çar Rusiyasının mürtəce müstəmləkəçilik siyasətinin acı nəticələrinə və məhrumiyyətlərinə ikiqat məruz qalmış Azərbaycan önəmli yer tutmuş, bəşəriyyətə özünəməxsus dəyərli töhfələr vermişdir. Və bunu da müsəlman Şərq dövlətçiliyi tarixində ilk dəfə olaraq məhz Azərbaycanda yeni-dünyəvi tipli dövlətin – demokratik respublikanın qurulması, eləcə də bunun heç də təsadüfi, xaricdən idxal olunan siyasi akt deyil, qanunauyğun olması faktı bir daha əyani təsdiq edir. Həm də ən başlıcası tarixi, sosial-iqtisadi müqəddəm şərtlərlə, digər obyektiv amillərlə yanaşı, XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fikrində milli-demokratik dövlətçilik məfkurəsinin formalaşması bunun üçün zəruri ideoloji-nəzəri zəmin hazırlamışdır.

Müasirlik, islamçılıq və türkçülük ideyalarının XIX əsrin sonu- XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində təşəkkül tapması milli-demokratik dövlətçilik məfkurəsinin formaşalmasının təməlində durur və dissertasiyanın hazırki-üçüncü fəslinin ayrı-ayrı paraqraflarında öz əksini tapmış araşdırmalardan bunu bir daha aydın görmək olur. Həmin idey-

aların sintez halında təşəkkülü və bir-biri ilə çox çətinliklərlə də olsa belə uyğunlaşa bilməsi burada başlıca amillərdən hesab olunmalıdır. Məhz onların əlaqəli tərzdə inkişafı milli-demokratik dövlətçilik məfkurəsini ön plana gətirə bilmişdir. Buradakı mövcud qəliz problemlər, yanılmalar və ziddiyyətlər istisna olunmamaqla, ayrı-ayrılıqda götürüldükdə həmin ideyalardan hər birinin özünəməmxsus yeri və rolu məsələsini nəzərdən qaçırmaq olmaz. Belə ki, tarixi-məntiqi baxımdan, eləcə də milli mənəviyyata ruhən daha çox yaxın və doğma olan islamçılıq və türkçülük ideyalarının milli istiqlaliyyətin başlıca rəhni kimi milli birliyin yaranmasında güclü səfərbəredici qüvvəyə malik olması faktını da əsla danmaq olmaz. Lakin zahirən yabançı, Avropadan alınma kimi görünən müasirləşmə prinsipinin də öz növbəsində milli şüura istiqlaliyyət üçün zəruri şərtlərdən sayılan yeniləşmə, mədəni tərəqqi ideyalarının, demokratik dəyərlərinin aşılanmasında məxsusi yeri və rolu vardır.

Cari fəslin hər üç paraqrafında ilkin mənbələrin araşdırılması və elmi-nəzəri təhlili əsasında belə bir aparıcı fikir açıqlanır ki avropalaşmaq, islamlaşmaq və türkləşmək ideyaları tarixən ilkin olaraq mədəni-maarifçilik xarakteri daşımış, hadisələrin obyektiv gedişatı fonunda zaman-zaman təkamülə uğramaqla cilalanmış və aydın sosial-siyasi məna və yönüm kəsb etmişdir. Bu ideyaların qarşılıqlı əlaqəsinin, getdikcə bir-birini tamamlamasının nəticəsi olaraq Azərbaycanda milli azadlıq hərəkatının istiqamətverici nəzəri əsası olan «türkləşmək, islamlaşmaq və müasirləşmək» kimi ideoloji sistem yaranmış milli şüura güclü təsir göstərmişdir.

Xronoloji baxımdan sonralar «müasirləşmək» kimi formalaşmış «avropalaşmaq» ideyası nisəbətən birinci gəlir. Məsələnin bu cəhətdən hələlik təfərrüatına varmadan öncə qeyd etmək lazımdır ki, «avropalaşma» ideyasının meydana gəlməsi heç də hər hansı bir subyektiv istəyin, arzunun ifadəsi deyildi. Bu, artıq bəşər tarixində başlanmış və onun ayrılmaz bir tərkib hissəsi olan Azərbaycanın ictimai həyatında da öz əksini tapmış yeniləşmə, milli intibah, milli oyanış zərurətinin təzahürü kimi meydana gəlmişdir. Rus çarizminin ağır müstəmləkə zülmü şəraitində milli azadlıq yolunda hələlik konkret siyasi iddiaların irəli sürülməsinin qeyri-mümkün olduğu və bunun üçün müvafiq ictimai-siyasi mühitin, aparıcı qüvvələrin yetişmədiyi bir dövrdə «avropalaşmaq» ideyasının ortaya çıxması dinc, təkamüllü, mədəni yeniləşmə, inkişaf yolu ilə milli azadlığa və tərəqqiyə nail olmağın mümkünlüyünə optimist inamdan irəli gəlirdi. Həmin ideyanın gerçəkləşdirilməsi səylərinin ilk növbədə mədəni-maarif, elm və təhsil sahəsindən başlanılması işinin arxasında da məhz bu tarixi reallıqlar dayanırdı.

Artıq XIX əsrdə Şərq dünyasında, eləcə də o taylı-bu taylı Azərbaycanda möhkəm dünyagörüşə, mənəvi dəyərlər sisteminə çevrilmiş islamiyyət, müsəlman ümmətçiliyi amallarından fərqli olaraq «avropalaşmaq» meyli cəmiyyətdə böyük əksəriyyəti təşkil edən kütləyə, sadə, avam camaata yad görünür, milli-ictimai şüura asanlıqla yol tapa bilmir. Həm də ümumən Şərq-türk dünyasının müxtəlif məkanlarında, müxtəlif ictimai dairələrində «avropalaşma»ğın gündəmə çıxması mütləq mənada eyni məqsədə xidmət etməmişdir. Belə ki, göstərilən dövrdə hərgah Türkiyədə bu məsələ öncə yuxarıdan iqtidar, sultanlıq səviyyəsində tarixən ömrünü başa vurmaqda olan mövcud sosial-siyasi quruluşun ömrünü «mədəniləşmə-yeniləşmə» pərdəsi altında süni yolla uzatmaq cəhdindən, niyyətindən irəli gəlmişsə, Azərbaycanda, o cümlədən Rusiya imperiyasının tabeçiliyində olan digər türkdilli xalqlar arasında isə, əksinə, aşağıdan, yenicə təşəkkül tapmaqda olan, lakin heç bir hüquqa və imtiyazlara malik olmayan milli ziyalılar səviyyəsində milli oyanış, milli-mədəni tərəqqi əzmindən meydana gəlmişdir.

O ki qaldı yeniləşmək – müasirləşmək üçün Avropasayağı - «avropalaşmaq» modelinin seçim kimi götürülməsi məsələsi də təsadüfi olmayıb, bir sıra tarixi-mədəni faktorla izah olunur. Məlumdur ki, bəşər tarixinin XVIII əsrlə başlanan yeni – feodalizmdən kapitalizmə keçid dövrü mənşəcə Avropa ilə bağlıdır. Bu dövrdən Avropa iqtisadiyyat, siyasət, elm, texnika, təhsil, maarif və s. sahələrdə böyük uğurlar qazanır, mədəni, demokratik dəyərləri ilə bəşəriyyətə nümunələr göstərir. Bir vaxtlar Qərbə «müəllimlik» etmiş Şərq isə o zaman özünün tənəzzül, durğunluq və ətalət dövrünü yaşayırdı. Avropa ilə əlaqələrin getdikcə artması Şərqdə də ona rəğbət qazandırır.

Professor Yusif Rüstəmov bu münasibətlə yazır: «Yeni dövrdən başlayaraq, Qərbi Avropa ölkələri bütün sahələrdə yüksək inkişaf səviyyəsinə nail oldular, Qərbi Avropada elm və mədəniyyət durmadan inkişaf edir, sosial-siyasi həyatda demokratik proseslər başlayır. Bir vaxtlar elm və mədəniyyət sahəsində Qərbdən çox irəlidə olan Şərq ölkələri geri qalır, Qərb öz iradəsini bütün dünyaya qəbul etdirməyə çalışır... XVIII-XIX əsrlərdən başlayaraq Şərq ölkələri intibah dövründən sonra yaranan yeni Qərb sivilizasiyasını mənimsəməyə maraq göstərir və dövrün qabaqcıl adamları Qərbin mənəvi-əxlaqi dəyərlərinə toxunmadan, onun yalnız elm və texnikasını qəbul etməyin yollarını axtarmağa can atırlar. Bu proses indiyə qədər davam edir. Sonralar demokratiya prinsiplərinin, siyasi-hüquqi sistemlərinin qəbul edilməsi vəzifəsi irəli sürüldü. Olduqca çətin bir problem ortaya çıxdı: necə etmək lazımdır ki, öz dinini, milliyətini itirmədən Qərb sivilizasiyasını qəbul edək» [142,13-14].

Monoqrafiyada da olduqca geniş olan bu mövzunun tədqiqatın məqsəd və vəzifələri dairəsində işıqlandırılması əsas predmet kimi götürülür.



Mətləbə birbaşa keçməzdən əvvəl «Avropalaşmaq» problemi ilə bağlı Ziya Göyalpın bir çox məqamlara aydınlıq gətirən «Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq və doğru yol» əsərinə müraciət etmək yerinə düşər. Həmin əsərə yazdığı ön sözdə Yusif Çötüksökən qeyd edir: «Türkləşmək, islamlaşmaq, avropalaşmaq» düşüncəsi ilk olaraq Əli Suavi (1839-1878) tərəfindən irəli sürülmüş və müdafiə edilmiş, sonra Hüseynzadə Əli bəy (1864-1942) islam – türk xalqlarının inkişafı və müasirləşməsində bu üç təməl ideyanın gerçəkləşməsinin gərəkli olduğunu əsas olaraq göstərmişdir. «Türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq» adlı əsərində Ziya Göyalp Hüseynzadə Əli bəyin düşüncəsinə toxunmasa da dəyərini anlayaraq onu «Yalavac» (Peyğəmbər - R.Ə) deyə adlandırmışdır» [206,11]. Əslində tarixi baxımdan yanaşsaq, bu ideoloji sistem belə formulə edilməlidir: «avropalılaşmaq, islamlaşmaq, türkləşmək». Çünki bu ideoloji sistemə daxil olan «avropalılaşmaq» yuxarıda da qeyd edildiyi kimi bir düşüncə cərəyanı olaraq «islamlaşmaq və türkləşmək»dən öncə ortaya atılmışdır. Buna Ziya Göyalpın adı çəkilən əsərində də diqqət yetirilir.

İlk öncə onu qeyd etmək gərəkdir ki, Əli Suavi əfəndi tərəfindən irəli sürülən və müdafiə olunan, çox sonra Əli bəy Hüseynzadə tərəfindən yenidən gündəmə gətirilən «türkləşmək, islamlaşmaq, avropalaşmaq» düşüncəsi Ziya Göyalpın bu məsələlərlə maraqlandığı dövrdə çox böyük mübahisələrə səbəb olmuşdu. Osmanlı imperatorluğunun ən ağır dövrlərində, istər siyasi, istərsə də ictimai məsələlərin əlverişsiz olduğu bir şəraitdə bütün mübahisələr kəskin xarakter alaraq az qala xeyir əvəzinə zərər gətirməyə başlamışdı. Bu mübahisələrə çox həssas yanaşan Ziya Göyalp bu ziddiyyətlərin uzlaşmasına səy göstərmişdir. O, yazır: «Ölkəmizdə üç düşüncə axını vardır. Bu axınların tarixi incələnəcək (tədqiq olunacaq) olursa, görünər ki, düşünürlərimiz ilkin «müasirləşmək»

gərəyini duymuşdular. Üçüncü Sultan Səlim zamanında başlayan bu axıma Devrimdən (Gənc türklər inqilabından – R.Ə.) sonra «islamlaşmaq» istəyi qatıldı. Son zamanlarda ortaya bir də «türkləşmək axımı» çıxdı... Diqqət edilərsə bu üç axımın da gerçək həqiqətlərdən doğulmuş olduğu görünər... Türklük evrendeşliyə (kosmopolitizmə) qarşı islamlıq və osmanlılığın gerçək dayağıdır... Bundan dolayı türklüklə islamlıq, biri milli, o biri millətlərarası birlik mahiyyətində olduğu üçün aralarında heç bir zaman çatışma olmaz... Türkləşmək, islamlaşmaq ideyaları arasında bir çatışma olmadığı kimi bunlarla müasirləşmək arasında da bir çatışma olmaz... Ona görə də hər birinin nüfuz dairəsini müəyyənləşdirərək bu üç məqsədin üçünü də mənimsəməliyik. Daha doğrusu, bunların vacibliyinin üç ayrı nöqtədən görülmüş xətləri olduğunu anlayaraq Çağdaş bir islam türklüyü yaratmalıyıq» [206, 21-28].

Elmi araşdırmalar göstərir ki, XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində istər Osmanlı Türkiyəsində, istər çar Rusiyası və İran şahlığında yaşayan qabaqcıl türk düşüncə sahibləri arasında «türkləşmək, islamlaşmaq, müasirləşmək» məfkurə sistemində «avropalaşmaq» fikri ilkin olaraq irəli sürülmüşdür. Osmanlı imperatorluğunda Sultan III Səlimin islahatları, Quzey Azərbaycanda hələ sağlığında «Şərqin tatar Molyeri» [135,196] kimi şöhrət qazanmış M.F.Axundovun rus, alman, fransız, ingilis dillərinə də tərcümə olunmuş məşhur «Təmsilat»ı, milli mətbuatımızın banisi H.Zərdabinin «Əkinçi»si, 1875-ci ildə Güney Azərbaycanda müasir tipli Təbriz «Darülfünun»ün açılması ilə başlanan «avropalaşmaq», «müasirləşmək» hərəkatı bu günümüzdə də aktuallığını yeni anlamda saxlamaqdadır.

Kökündə «avropalaşmaq» ideyası dayanan müasirləşmək düşüncəsinin zamanla ayaqlaşan dəyərlərin mənimsənilməsi, zəmanənin mədəni həyat tərzinə uyğunlaşmaq, müasir elm və texnikaya yiyələnmək və bunların nailiyyətlərindən yaradıcılıqla istifadə olunması anlamında milli şüura nüfuz etmək XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi, fəlsəfi, ədəbi-bədii və publisistik fikrinin intibahına dəlalət edir. Lakin burada müasirləşmək ideyası milliyyətçiliklə vəhdət təşkil etmişdir. Milliyyətçilik – mənsub olduğu toplumun fərdlərinin şüurlarında milli birlik və bərabərlik dəyərlərinin hakim olmasına, milləti başqa xalqlardan fərqləndirən dil, adət-ənənə, etiqad və s. kimi milli dəyərlərin qorunmasının müqəddəsliyinə dərin inamdır. Bu inam göstərilən dövrün mütərəqqi ictimai fikrimizin ana xəttini təşkil etmişdir.

Bəşər tarixi sübut edir ki, hər bir xalqı tərəqqiyə, inkişafa sövq edən, onun dirçəlişinə çalışan əsasən qabaqcıl zəka sahibləri olmuşdur. Hər bir xalqı oyanışa, tərəqqiyə o xalqın maarifçi mütəfəkkirləri hazırlamışlar. Azadlıq və müstəqillik idealı ilk öncə ədəbi-bədii və fəlsəfi fikirdə formalaşır, daha sonra isə ictimai-siyasi xarakter alaraq yeni-yeni siyasi qurumlar da təcəssümünü tapmışdır. XX əsr müstəqil Azərbaycan Cümhuriyyətinin mənəvi memarları da məhz Bakıxanovlar, Mirzə Şəfilər, Mirzə Fətəlilər, Həsən bəy Zərdabilər, Seyid Əzim Şirvanilər, Əli bəy Hüseynzadələr, Əhməd Ağaoğlular, Məmməd Əmin Rəsulzadələr, Ömər Faiq Nemanzadələr, Cəlil Məmmədquluzadələr, Haqverdiyevlər, Vəzirovlar, Sabirlər, Cavidlər, Üzeyir bəylər, Cabbarlılar və bunlar kimi onlarla fikir fədailəri olmuşdur. Milli İstiqlal məfkurəsini Azərbaycanlıların şüuruna bu xalqın maarifpərvər şəxsiyyətləri yerləşdirmişlər. İctimai-fəlsəfi və bədii fikrin təmsilçiləri olan bu maarifçilər xalqa milli «mən» və «özünüdərk» şüurunu aşılamaqla ana dilinin imkanlarından istifadə edərək ədəbi həyatda demokratik mübarizə üsullarını da xalqa çatdırmaqda istedad və

bacarığını əsirgəməmiş, daima yeniliyə, tərəqqiyə can atmışlar.

Bu cəhətdən böyük Mirzə Fətəli Axundovun xidməti olduqca önəmlidir.

Şüurlu fəaliyyəti boyu doğma xalqının tərəqqisinə çalışan M.F.Axundov özünün məşhur komediyaları ilə ilk dəfə olaraq o zamankı Azərbaycan ədəbiyyatına, fəlsəfi fikrinə milli oyanışın, yeniləşmənin labüdlüyündən xəbər verən Avropasayağı ab-hava, realist-tənqidi düşüncə tərzini gətirmişdr. Onun 1850-ci ildə qələmə aldığı «Hekayəti-Müsyo Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur» komediyası nəinki Azərbaycanı, ümumiyyətlə müsəlman Şərq dünyasını yeniliyə, elmə, maarifə çağıran «avropalaşmaq» ideyasının ilk, həm də klassik bədii ifadəsi, nümunəsidir. Bütövlükdə götürdükdə Axundovun komediyalarında tənqid və inkar həm də konkret müsbət ideal naminə aparılır, ağlın, dünyəvi elmlərin, qabaqcıl mədəniyyətin, həqiqi zəhmətin, dünyanı yeni dərketmə sisteminin təbliğinə çalışırdı.

Özünün bədii əsərlərində mədəni yeniləşmə ilə bağlı məsələləri «Kəmalüddövlə məktubları» adlı fəlsəfi traktatında Qərb-Şərq kontekstində həll etməyə çalışan M.F.Axundov artıq «avropalaşma» məramını sırf maarifçilik amalı çərçivəsində haqqında dissertasiyanın əvvəlki fəslində daha ətraflı bəhs olunduğu kimi, siyasi dövlətçilik müstəvisinə keçirir.

Axundovun istər bədii, istərsə də fəlsəfi əsərlərinin təhlilindən görünür ki, o, zəmanəsinin birinci dərəcəli problemlərindən Şərq ilə Qərbin müqayisəli təhlilində təbii olaraq üstünlüyü Avropaya verir. Filologiya elmləri doktoru Yaşar Qarayev özünün «Azərbaycan ədəbiyyatı. XIX-XX yüzillər» adlı monumental əsərində göstərir ki, «Axundzadənin «Təmsilat»ının və fəlsəfi irsinin timsalında ... artıq dünya miqyasında bədii-estetik tərəqqinin Şərq və Qərb qanunauyğunluqları bir-biri ilə kəsişir və qovuşur... Bütöv bədii istiqamət... özünün məzmununda radikal keyfiyyət dəyişimindən xəbər verir. Vaxtilə Şərqləşən Qərbdə Esxilin, Sofoklun, Aristotelin oynadığı eyni ədəbi-tarixi rolu indi «Qərbləşən Şərqdə» M.F.Axundzadə oynayır» [88,166].

Şərq bədii və fəlsəfi dünyagörüşündən ayrılıb Avropa düşüncə tərzinə keçid Azərbaycanda məhz Mirzə Fətəli Axundovla başlayır. İslam Şərqi ilə yeni Qərb mədəniyyəti arasında ədəbi-bədii, ictimai-fəlsəfi körpü rolunu oynamaq yenə də Mirzə Fətəli Axundovun adı ilə bağlıdır. M.F.Axundov öz qədim türk genini və «mən»ini itirmədən Qərbdəki çağdaş, modern ədəbi və fəlsəfi proseslə üzvi tənasə girərək yeni tipli realist ədəbiyyatın əsasını qoyur. Onun ictimai, sosial və bədii-fəlsəfi fikrə gətirdiyi yeniliklər sözün həqiqi mənasında ümumşərq əhəmiyyəti daşıyırdı. Onun Azərbaycanda yaratdığı fəlsəfi və nəzəri təlim, dram və nəsr əsərləri bütün Yaxın və Orta Şərq maarifçiləri üçün bir örnək idi. O, Şərqdə və deməli, həm də Azərbaycanda dərin kök salmış xurafatın və ifrat sxolastikanın kökünü qazıyır, ümumşərq dərdlərinin mahiyyətini üzə çıxarır, bu dərdlərdən qurtulmağın yollarını qərbləşməkdə-avropalaşmaqda görürdü.

Mirzə Fətəli Axundovun yaradıcılıq fəaliyyəti Azərbaycanda iki mənəvi mədəniyyətin – Şərq və Qərb mədəniyyətinin bir-biri ilə çulğalaşmağa başladığı bir dövrə təsadüf edir. Belə ki, XIX əsrin ortalarından başlayaraq Şimali Azərbaycanda da Avropa ilə iqtisadi, ticarət əlaqələri genişlənir, Avropa düşüncəli ziyalılar yetişir, Qərbin mədəni nailiyyətlərini əxz etmək meyli artır. Zəngin tarixi və mədəni irsə malik olan xalqımızın qabaqcıl ziyalıları Avropa mədəniyyətinin yeni nailiyyətlərindən bəhrələnərək müasir mədəni ruhda inkişaf etmək məqsədilə xalqın savadlanması qayğısına

qalaraq yeni tipli təhsil ocaqları açmağa, yeni bədii əsərlər yaratmağa, ana dilində qəzetlər nəşr etməyə, dərsliklər yazmağa böyük əzmlə çalışırlar. M.F.Axundov məhz belə ziyalıların başında dururdu.

M.F.Axundov bir yazıçı-dramaturq, maarifçi, filosof, ictimai xadim kimi müsəlman Şərqində haqlı olaraq modernizmin, liberal ənənələrin və müasir ədəbiyyatın yaradıcısı sayılır. O, Kopernik, Nyuton, Volter, Russo, Monteskyö, Didro, Holbax, Benam, Mill, Renan, Dreper, Şekspir, Molyer, Şiller və b. kimi yeni dövr Qərb mədəniyyəti təmsilçilərinin əsərləri ilə yaxından tanış olmuş, onlardan bəzilərinin əsərlərini təhlil etmiş, onların fikir və mülahizələrindən yeri gəldikcə istifadə edərək Qərb düşüncə tərzini Şərqə, o cümlədən də Azərbaycana gətirmişdir. O, 1850-55-ci illərdə yazdığı altı komediyası ilə Yaxın və Orta Şərq, o cümlədən də Azərbaycan realist dramaturgiyasının əsasını qoymuşdur. Bu əsərlərdə M.F.Axundov ənənəvi müsəlman cəmiyyətinin qayda-qanunlarını ifşa etmiş, xurafata qarşı çıxmış qabaqcıl Avropa elmini, mədəniyyətini tərənnüm etmişdir.

M.F.Axundovun müasirləşmə, Qərbə inteqrasiya, insan hüquq və azadlıqları, qadınların hüquq bərabərliyi, konstitusiyon islahatlar, din və əlifba islahatı haqqındakı ideyaları onun müasirləri və özündən sonrakı Azərbaycan maarifçiləri tərəfindən dəstəklənmişdir. Onun islahatlara bağlı fikir və layihələri zəmanəsini o qədər qabaqlamışdır ki, onlar bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bir çox sahələrində müasirliyin, «avropalaşmanın» banisi kimi Axundovun zəngin və çoxsahəli yaradıcılığı milli çərçivələri aşıb keçmiş, ümumtürk və müsəlman xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb etmişdir.



Ana dilində məktəbi, mətbuatı olmayan, elmi öyrənmək üçün yabançı dilləri öyrənmək məcburiyyətində qalan bir milləti maarifləndirməyin nə qədər çətin, bəzən də mümkünsüz olduğu nəzərə alınarsa, dövləti əlindən çıxmış, müstəmləkə şəraitində yaşayan bir xalqın maarifçi ziyalılarını həqiqi mənada maarifçi fədai, maarifçi qazi adlandırmaq olar. İstər Axundov və istərsə də onun maarifçilik və realizm ənənələrini davam etdirən Azərbaycan ziyalılarını sözün həqiqi mənasında qəhrəman maarifçilər adlandırmaq olar.

Milli dilin və milli ədəbiyyatın taleyinə təsir baxımından Axundovun fəaliyyətini XIV əsrdəki Nəsimi, XVI əsrdəki Füzuli, XVIII əsrdəki Vaqif dühasının miqyası ilə müqayisə etmək olar. Lakin M.F.Axundov həm də onlardan fərqli olaraq tarixi inkişafın yeni mərhələsinə uyğun böyük bəşəri ideyalarla yanaşı milli bir konkretlik də gətirmiş, tipik Azərbaycan obrazları yaratmışdır. Və bu obrazları səhnəyə – teatra çıxarmaqla xalqın özünün özünə baxmasına və bundan nəticə çıxarmasına nail olmuş, xalqı kütlədən millətə çevirməyə çalışmışdır.

M.F.Axundov Azərbaycan ədəbi-siyasi dilinə Avropa mənşəli konstitusiya, sivilizasiya, revolyusiya, politika, patriot, liberal, despot, fanatik, parlament və s. onlarla bu kimi söz və terminləri gətirməklə, Azərbaycan ədəbi-siyasi, fəlsəfi fikir hərəkatına yeni bir istiqamət vermiş, özündən sonra böyük bir Azərbaycan maarifçilər ordusunun yaranmasına təkan vermişdir.

M.F.Axundov Avropanın qabaqcıl elmi-mədəni nailiyyətlərini dərindən mənimsəmiş və bunu başqalarına da mənimsətməyə çalışmış, idrak və varlıq, bilik, ağıl və xurafat, cəmiyyət, ədalət, azadlıq, əxlaq və s. Haqqında fəlsəfi fikirlərini bu səpgidə əks etdirmiş, müasirləşməni avropalılara bənzəməkdə görmüşdür. Lakin eyni zamanda o, avropalıları kor-koranə təqlid etməyin əleyhinə olmuş,

Avropanın elmi, mədəni nailiyyətlərindən yaradıcılıqla istifadə etməyin tərəfdarı olmuşdur.

Mirzə Fətəli Axundovun «inqilabi maarifçiliyin» təşəkkülü sözün həqiqi mənasında onun «avropalaşma» məramı ilə sıx bağlı olmuşdur. Onun bu yolunu Seyid Əzim Şirvani də mütərəqqi Avropa mədəniyyətinə, Qərb poeziyasına bədii əsərlər həsr etmiş və bununla da Avropaya böyük marağın da beşiyi başında duranlardan biri olmuşdur. Azərbaycan poeziyasında bəzi şeylər Şirvani ilə başlamış və Şirvani ilə də bitmişdir. Maarifçiliyin Azərbaycanda nikbin tərənnümü və təsdiqi Axundovla başlayırsa, onun dramatik və tragik çalarlar kəsb etməsi, nadanlığın bilavasitə sosial bəla kimi bədii fikrin əsas diqqət hədəfinə çevrilməsi isə Seyid Əzimdən və onun yaşayıb-yaratdığı dövrdən başlayır. **Nadanlar** və **nadanlıq** anlayışı ilk dəfə məhz Şirvani satiralarının aynasında ictimai - sosial hadisə, proses kimi öz əlamət və keyfiyyətləri ilə görünməyə başlayır.

Əsərlərində sxolastik dini təhsili kökündən rədd edən şair özü müctəhid olmasına baxmayaraq və müctəhid kimi fəaliyyət göstərib öz yaşayışını tamamın edə biləcəyi halda bundan şüurlu şəkildə imtina etmiş, əksinə dini sxolastikanın tam əleyhinə olaraq Şamaxıda yeni tipli ilk «Üsuli-cədid» məktəblərindən birini açaraq, 1869-cu ildə burada gənc nəslə dünyəvi elmləri, ana dilini və xarici dilləri tədris etmişdir. Ortodoks ruhaniliyə qarşı barışmaz mövqeyinə görə böyük sənətkarı «kafir» elan etmiş, hətta onu pedaqoji fəaliyyətdən uzaqlaşdırmışdılar. Bundan sonra bədii yaradıcılıqla məşğul olan Seyid Əzim Şirvani «Əkinçi» qəzeti ilə yaxından əməkdaşlıq edir, maarifçi prinsiplərinə əsaslanan dərsliklər və ədəbiyyatşünaslığa aid əsərlər yaradır, əsərlərində Avropasayağı tərəqqinin tərənnümünə geniş yer verməyə çalışır. Ümumiyyətlə, Seyid Əzim Şirvaninin yaradıcılığında da, əməli fəaliyyətində də doğma xalqla, milli mənşə və mühitlə bağlayan tellər çox güclü və zəngindir.

XIX əsrin sonlarına doğru Azərbaycan Rusiyanın və Avropanın nüfuzlu ali məktəblərində ali təhsil alan gənc ziyalıların sıraları tədricən artmağa başlayır. Belə gənclər o zamankı qaranlıq ictimai mühitdə «avropalaşmaq» ideyasının ən fəal daşıyıcıları idi. Onlar xaricdə gördükləri mədəni yenilikləri doğma vətənlərində də görmək, doğma xalqını dünyanın inkişaf etmiş xalqları cərgəsinə çıxarmaq arzusu ilə bütün imkanlarından istifadə edir, bu istiqamətdə əz mlə çalışırlar. 1873-cü ildə Həsən bəy Zərdabi ilə Nəcəf bəy Vəzirov tərəfindən ilk milli teatrın əsasının qoyulması, 1875-ci ildə Həsən bəy Zərdabinin başçılığı ilə «Əkinçi» qəzetinin işıq üzü görməsi ilə milli mətbuatın yaranması, 1877-ci ildə Sultan Məcid Qənizadə və Mahmudbəyovun təşəbbüsü ilə yeni tipli ilk müsəlman məktəbinin açılması yeniləşmə istiqamətində atılan ilk uğurlu addımlar idi.

Yuxarıda qeyd olunduğu kimi M.F.Axundov və onun maarifçi davamçıları tərəqqiyə mane olan çarizmin, feodal ağalığının, dini xürafatın, mövhumatın düşməni olublar və «avropalaşma – Avropa həyat formaları»nın təbliğini də bu yönümdə aparmışlar. Bu səbəbdən bir çox tədqiqatlarda da ayrıca göstərilir ki, ümumiyyətlə «rus maarifçiliyinə xas olan azadlığın və «Avropa həyat formalarının» təbliği kimi xarakterik xüsusiyyətlərə tipoloji bir hadisə kimi Azərbaycan maarifçiliyində də rast gəlmək mümkündür. Bu istiqamətdə ən cəsarətli addımları Axundovdan sonra «Əkinçi», Seyid Əzim və başqaları atmışdılar» [117,57].

Sözün tam mənasında «Əkinçi» yarandığı ilk gündən özünün dəyərli fəaliyyəti ilə Avropanın elmi, texniki, mədəni nailiyyətlərinin mütəmadi təbliği və şüurlara aşılanması işinin əsl təməlini qoymuşdur. Xalqın gözünü açmaq, onu maarifləndirmək amalına xidmət edən

«Əkinçi» özünün 9 iyun 1877-ci il tarixli 10-cu sayında böyük cəsarətlə bəyan edirdi: «...Məşriq-zəmində (Şərqdə) azadlıq olmadığına biz Avropa əhlindən geri qalmışıq və nə qədər belə olsa, biz tərəqqi etməyəcəyik və edə bilmərik» [51,283-284].

XIX əsrin ikinci yarısı, XX əsrin ilk illərində Azərbaycan xalqının mədəni intibahında baş vermiş bir çox mühüm nailiyyətlər Həsən bəy Zərdabinin həyat və fəaliyyəti ilə bağlıdır. Həsən bəy Zərdabi və onun nəşr etdiyi «Əkinçi» qəzetinin tədqiqatçıları [136,201-283] istər Zərdabinin və istərsə də «Əkinçi» qəzeti ətrafında toplaşan Azərbaycan ziyalılarının xalqımızın maariflənməsində, cəhalət və mövhumat buxovlarından azad edilməsində və mədəni inkişaf yoluna düşməsində göstərdikləri xidmətdən bəhs etmiş, Zərdabinin milli mətbuatımızın və milli teatrımızın əsasını qoymasından, xeyriyyə cəmiyyəti təşkil edərək məktəblər açılması üçün geniş fəaliyyət göstərməsindən ətraflı yazmışlar.

Həsən bəy Zərdabi rus təbiətşünaslığı ilə yanaşı Qərbi Avropa alimlərindən bioloq Robert Koxun, Pasterin, görkəmli fizioloq və zooloqlardan Runun, Borelin, Fridlenderin, Breçkanın, Frulmanın, Lensin və başqalarının da elmi - tədqiqat əsərlərindən geniş istifadə etmiş, onların fikirlərindən yararlanmışdır.

Əgər Axundov Azərbaycan ictimai-fəlsəfi dünyagörüşünə mühüm yeniliklər gətirmişdisə, Zərdabi də Azərbaycan elmi təfəkkürünə mühüm yeniliklər gətirmiş, «Azərbaycan ziyalılarının ağsaqqalı» titulunu qazanmışdır.

Mirzə Fətəli Axundovdan sonra maarifçi dramaturgiyamızın inkişafında yeni mərhələ Nəcəf bəy Vəzirovun adı ilə bağlıdır. Axundovun dramaturgiyadakı ən yaxın mənəvi varisi olan Nəcəf bəy Vəzirov (1854-1926) artıq Mirzə Fətəlinin «həm maarifçilik proqramına, həm də onun dram poetikasına yeni bədii notlar və sosial-fəlsəfi



çalarlar gətirir. O, həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə çərçivəsini daha da genişləndirir, ona yeni janrlar, üslub, dil fərdiliyi artırır» [88,264].

Nəcəf bəy Vəzirov maarifçi dramın təkcə ideya hüdudlarını deyil, həm də onun əhatə çərçivəsini genişləndirir, həyatdakı ictimai geriliyin tənqidini və realist-maarifçi didaktikanın hüdudlarını daha da böyüdür. Onun dramaturgiyasında xalqın əsrlər boyu davam edən pis vərdişlər, psixologiyasındakı köhnəlik inkar edilir, təbliğ olunan yeniliyin məzmunu izah olunur. Nadanlığın düşməni olan Vəzirov məhz nadanlığın məzhəkələrini, dramını yaratmışdır ki, öz maarifçiliyinin, öz əxlaqi qayəsinin üstünlüyünü sübut etsin. Bu maarifçiliyin, əxlaqi qayənin daha qabarıq təsdiqi üçün Vəzirov yaşadığı cəmiyyətin ümumi əxlaqi böhranının fonunda qəhrəmanı Fəxrəddinin, onun arzu və istəklərinin faciəsini yaratmış, Azərbaycan ədəbiyyatında «Müsibəti Fəxrəddin» əsəri ilə faciə janrının əsasını qoymuşdur.

Azərbaycan demokratik maarifçiliyinin inkişafında özünəməxsus yeri olan ziyalılarımızdan biri də Əbdürrəhim bəy Haqverdiyevdir (1870-1933). Sankt – Peterburq Yollar İnstitutunda ali təhsil alıb Bakıda müəllimliklə məşğul olan, səhnə əsərlərinin hazırlanmasında quruluşçu rejissor, Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk dirijoru olan Haqverdiyev 1904-cü ildə Şuşa şəhər bələdiyyə idarəsinə üzv seçilmiş, «Molla Nəsrəddin» jurnalında müxtəlif janrlarda əsərlər çap etdirmiş, Bakıda Azərbaycanın mədəni həyatında fəal iştirak etmişdir. XIX əsr dramaturgiyamızda maarifçiliyin növbəti mərhələsini Haqverdiyev başa çatdırır. Azərbaycan dramaturgiyasının sonrakı mərhələsində əsasında maarifçi məfkurə dayanan «Dağılan tifaq» kimi möhtəşəm bir sosial faciəyə daha rast gəlinmir.

Ənənəvi Şərq mədrəsə tədrisi XIX əsrdə də Azərbaycanda davam etmişdi. Bunu nəzərə alan bir çox Azər-

baycan maarifçi ziyalıları qarşılarına onları yeni tipli məktəblərlə əvəz etmək vəzifəsini qoyurlar. Bu məqsədlə Azərbaycan milli maarifçilərinin səyi ilə ilk Azərbaycan – rus məktəbləri yaradıldı. Bu yeni tipli məktəblərdə milli dil, xalqın tarixi ilə yanaşı dünyəvi və dini elmlər də tədris olunurdu. Belə məktəblər əslində milli-mədəni yeniləşmə prosesinin ilk gerçək nümunələri idi.

Bu tədris müəssisələrini açmaqda çar hökumətinin xüsusi məqsədi var idi. «Çar hökumətinin əsas məqsədi *yerli inzibati idarələrdə müstəmləkə siyasətini yürütməkdə* ona kömək edə biləcək tərcüməçilər, mirzələr – bir sözlə etibarlı milli kadrlar yetişdirmək idi» [42,591]. Bütün bunlara baxmayaraq, milli dildə tədris milli-mədəni inkişafa güclü təsir göstərməyə başlayır. Məhz maarifçilik təlimi və maarifçilik fəaliyyəti ilə o dövr ədəbiyyatımıza qədəm qoyan ziyalılarımızın əksəriyyəti müəllimliklə yazıçılığı, dramaturqluqla mətbuatçılığı, folklorçuluqla tərcüməçiliyi öz yaradıcılıqlarının, maarifçi fəaliyyətlərinin məzmununda birləşdirirdilər. Bu dövrün ən məşhur çağırışlarından biri də məhz Avropa ruhlu ədəbiyyat yaratmaq» olmuşdur. Bu çağırış o dövrün Azərbaycan ədəbi hərəkatı ilə maarif və məktəb arasındakı münasibətlərin məzmununu aydınlığı ilə əks etdirir.

XIX əsrin sonlarında kapitalist münasibətlərinin, ələlxüsus Bakıda kapitalist neft sənayesinin, ticarətin sürətlə inkişafı Azərbaycanla Avropa ölkələri arasında əlaqələri daha da genişləndirdi. Avropa texnologiyası ilə yanaşı Qərbin elmi, fəlsəfi dünyagörüşü də Azərbaycanda yayılmağa başladı. Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş vermiş dəyişikliklər, Azərbaycanın ayrı-ayrı əraziləri arasında iqtisadi və mədəni birliyin yaranması və s. kimi amillər vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi və mənəvi gücü olan Azərbaycan xalqının bir millət kimi formalaşmasından xəbər verirdi. Millət kimi formalaşmağa başlamaq azərbaycanlıların həyatında



mühüm hadisə idi. Bu, hər şeydən əvvəl, azərbaycanlıların milli şüurunun da formalaşmasına səbəb oldu. Milli şüurun formalaşması isə ilk öncə çarizmin müstəmləkə zülmünə qarşı, ölkənin süverenliyi uğrunda mübarizə üçün əsas şərt idi.

Artıq XIX əsrin sonlarında Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatındakı dəyişikliklər, xüsusilə maarif, mətbuat, ədəbiyyat, elm, mədəniyyət, incəsənət və səhiyyə sahələrinin Avropasayağı yeniləşməsi XX əsrdə milli hərəkatın başlanğıcını qoymuş oldu. Beləliklə, Azərbaycan XX əsrə mütərəqqi-demokratik hərəkatla daxil olaraq XX əsrin birinci onilliyində milli-demokratik hərəkata çevrildi ki, bu işdə XIX əsrin Azərbaycan maarifçilərinin əvəzsiz xidmətləri olmuşdur.

Böyük islahatçı ideoloq, yazıçı və filosofun – Mirzə Fətəli Axundovun ideyaları və nəzəri vəsiyyətləri bir-bir həyata keçməyə başlamışdı. Onun «*Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır*» [23,353] ideyasını ardıcılları vaxtında və doğru dərk edərək islahatlara köhnə, orta əsr tipli mollaxanalardan, mədrəsələrdən başladılar. Çünki yüksək təhsil görmüş, Avropada gedən yeniliklərin səbəbini dərindən dərk etmiş maarif fədailəri bilirdilər ki, mədrəsə və məktəbi - bu ən kütləvi mənəviəxlaqi tərbiyə və ideoloji təsir silahını mühafizəkar ruhanilərin əlindən almadan, onları dünyəvi elmin və müasir *biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına* çevirmədən həqiqi maarifçi məqsədlərə nail olmaq qeyri-mümkündür. Əslində dünyəvi məktəb probleminin həlli maarifçiliyin «avropalılaşmaq» ideyasının həlli ilə sıx bağlı idi. Odur ki, «üsuli-cədid» hərəkatının qarşısına qoyduğu ən ümdə vəzifə tədrisin demok-ratikləşdirilməsini, yəni məktəbdə dünyəvi elmlərin, ana dilinin və rus dilinin tədrisinin proqrama daxil edilməsi və məktəbin bütövlükdə xalqın balalarının üzünə açılmasını təmin et-

mək idi. Çarizmin və yerli ruhani irticasının qatı müqavimətinə baxmayaraq, Azərbaycan maarifçiləri birlik nümayiş etdirərək buna nail oldular. Beləliklə də, milli teatr, milli mətbuat və milli tədris hərəkatı milli inkişafa güclü təsir göstərərək maarifçiliyin «avropalılaşmaq» çağırışını bu və ya digər dərəcədə yerinə yetirmiş oldu. Bütün bunlar isə öz növbəsində milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülü üçün təməl daşlarının qoyulması demək idi.

Azərbaycan ictimai-siyasi fikri yeni əsrə - XX əsrə «avropalılaşmaq» silahı «Avropa idealı» ilə daxil oldu. Fəqət təkcə bu silahla istiqlala qovuşmaq mümkün deyildi. Ona görə də Azərbaycan demokratik ziyalıları yeni yollar aramağa başladılar. Bu yeni yollardan birini də «islamlaşmaq»da gördülər. Beləliklə də, XIX əsrin son rübünün maarifçiləri Axundovun irəli sürdüyü ağılla yanaşı, etiqadı da qəbul edərək fanatizmə və xurafata qarşı mübarizədə əsl, həqiqi dinin özünün ən müqəddəs silahı olan Quranla da silahlanmağı məqsədəuyğun saydılar və dini tərbiyəni də tərbiyənin tərkib hissəsi kimi etiraf və qəbul etdilər.

Bu dövrdə fəaliyyət göstərən bütün tərəqqipərvər ziyalılar iki cəbhəyə qarşı ciddi mübarizə aparmışlar. Bunlardan biri çarizmin köləlik siyasəti, digəri isə dini mühafizəkar cəbhənin xalqı xurafatın təsiri altında saxlaması idi. Azərbaycan xalqının milli müstəqillik şüurunun formalaşmasında Azərbaycan maarifçilərinin istər realist və istərsə də romantik cərəyanının nümayəndələri eyni dərəcədə fəaliyyət göstərmişlər. Realist cərəyanın nümayəndələri feodalizm qalıqlarının ifşasından daha çox burjua ziddiyətlərinin tənqidinə önəm verərək, tənqidi realizmin əsasını qoyur, xalqdan uzaqlaşmağı milli «mən»sizlik, simasızlıq adlandırır, hətta «avropalılaşmaq» çağırışlarına qarşı əks arqument gətirirlər. Onlar «firəng dili», «rus dili» probleminin ana dili problemi ilə



əvəz olunmasını tələb edir, artıq «nadanlığın bəlasını» «ziyalılığın, obrazovannılığın, inteligentliyin bəlasında» görür, «zahid dərdi» ilə «obrazovannı dərdi» arasında heç bir əsaslı fərq görmür, xalq-inteligent ziddiyyətlərini ön plana çəkirlər. Onlar cəmiyyətdə «Avropa kultu»nu taxtdan düşürür, Avropaya hər hansı bir aludəçilik təzahürləri əvəzinə ictimai, siyasi və milli əsarətə qarşı milli və inqilabi demokratiya hissini gücləndirməyə çalışırdılar.

Ümumiyyətlə, XIX əsr Azərbaycan maarifçi realizmi feodalizmlə, dini xurafatla yanaşı, həm də burjua əxlaq tərzinin təzadlarına, meşşanlığa qarşı çevrildiyi halda, tənqidi realizm onların hamısını öz ifşa pafosunun ümumi hədəfi kimi birləşdirmişdi. Milli «mən» şüurunun formalaşması və milli mədəniyyətin yaranması milli azadlıq hərəkatını formalaşdırırdı.

Üzünü sabaha, tərəqqiyə istiqamətləndirmiş vahid nəzəri-estetik, siyasi-ideoloji, fəlsəfi ifadə edən realist və romantik cərəyan nümayəndələrinin demək olar ki, hamısı, o cümlədən də Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Üzeyir bəy Hacıbəyov, Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Abbas Səhhət, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Divanbəyoğlu, Cəfər Cabbarlı və onlarla Azərbaycan mütərəqqi ziyalısı eyni bir böyük, müqəddəs, milli, beynəlmiləl ədəbiyyatın bədii-poetik ləyaqəti keşiyində dayanmaqla, Azərbaycan ictimai təfəkküründə milli-bəşəri dəyərlərin, islama, türkçülüyə güvənən ideya-siyasi və fəlsəfi-elmi sərvətinin qarantı rolunda çıxış etmiş, Azərbaycan təfəkkür tarixinin ideya səfi, Azərbaycan dövlətçiliyinin məhək daşları olmuşlar. Onlar ümumbəşəri bədii, elmi, siyasi və ideoloji fəlsəfə əsasında bir demokratik cəmiyyət formalaşdırmaq, milli dəyərlərə söykənən, milli ideologiyaya əsaslanan bir döv-

lət yaratmaq istəyirdilər. Və buna qismən də olsa nail oldular, Şərqdə ilk demokratik Azərbaycan Xalq Cümhuriyyəti yaratdılar və qısa bir müddətə olsa da, bu demokratik dövləti böyük filosof Ziya Göyalpın «Yalavac» (peyğəmbər) adlandırdığı Əli bəy Hüseynzadə tərəfindən «türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi formulə edilən ideoloji əsasda idarə etməyə başladılar.

### § 2. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin formalaşmasında islamçılıq ideyası

Ümumən məlum olduğu kimi, dinin başlıca qayəsi tanrıya inam olduğundan, o, şüurlu insan övladı ilə birgə yaranmışdır. Ona görə də insanlıq tarixinin ilk başlanğıcından bu günə qədər insanda ən güclü hiss və duyğulardan biri də məhz dini hissiyyat, dini dünyaduyumudur. «Din mənəviyyat hadisəsidir. Dinin mahiyyəti dini hisslə – Allaha inamla bağlıdır» [75,77]. Dini hisslərin mövcudluğunun bütün müxtəlifliyinə baxmayaraq, hər zaman və hər yerdə – qədim insanların mağara və məzarlarında, qədim şumerlərin, elamların, babillərin, akkadların, midiyalıların, mannalıların tapınaqlarında, qədim Misirin piramidalarında, yunan olimpində, Roma panteonunda, qədim türklərin inanclarında, «Avesta» bakirələrinin əbədi yanan atəşində, xüsusilə Göy Tanrı, atəşpərəstlik, buddizm, hinduizm, konfüsizm, musəvilik, xristianlıq və islamiyyət kimi əsrlər boyu milyardlarla insanın inandığı dini sistemlərdə - görmək olar.

Tarixi inkişaf səviyyəsindən, quruluşundan, siyasi sistemindən asılı olmayaraq heç bir cəmiyyət dinsiz keçinməmiş və keçinə də bilməz. Sözün həqiqi, hər cür bayağı siyasi və ideoloji anlamlarından kənar mənasında dinsiz cəmiyyətin tərəqqiyə, əməli-məntiqi, əxlaqi-mənəvi kamilliyə yetməsi ağlasığmazdır.



Bütün bu deyilənlər bir daha onu göstərir ki, din insanlıq tarixi ilə həmyaşıd olaraq, Adəmdən tutmuş günümüzə qədər tarixin bütün dövrlərində insanlar bu və ya digər dərəcədə dinə maraq göstərmişlər. Tarixdə din qədər bəşəriyyəti səfərbər edə biləcək ikinci bir dünyagörüşü olmamışdır. Bu da dinin insan və cəmiyyət üçün nə qədər əhəmiyyətli olmasına dəlalət edən amillərdəndir.

Tarixin axarı zəminində İslam dininə bələd olub, onu öz Göy Tanrı dininə bənzər görən türk soyu, islamiyyəti bir din olaraq qəbul etmiş, ilahi qüdrətin yenilməz təcəssümü olan bu dində cahan hakimiyyəti idealına uyğun çoxlu hikmətlər görmüş, İslamı yaşayaraq onu daha da ucaltmış və beləliklə, özləri də islamla birgə insanlığa xidmət etmişlər. İslamın təməl prinsipləri və cihad məfkurəsi türkləri digər müsəlman xalqlarla daha da yaxınlaşdıraraq onların birlik və istiqlalına vəsilə olmuş, İslam dünyasının elmi, ictimai, iqtisadi, siyasi və mədəni baxımdan durmadan yüksəlməsini ən azı beş yüz il təmin etmiş, möhtəşəm bir türk-islam mədəniyyəti yaradaraq uğurlara çatdırmışdır. Bir vaxtlar türklər yaratdıqları mədəniyyətin nemətləri ilə yaşayıb həyatlarını davam etdirərkən onlara düşmən olan, qənim kəsilən başqa xalqların getdikcə inkişaf edərək türkləri yox etməyə çalışdıqlarının fərqinə belə varmamışlar. Lakin Qərbdə milli dövlətlərin təşəkkül tapdığı yeni dövrdən başlayaraq dünyanın bölüşdürülməsi təhlükəsinin yaranması, Qərb-Şərq qarşıdurmasının getdikcə kəskinləşməsi müsəlman türk dünyasında da milli birlik problemini tam kəskinliyi ilə gündəmə gətirmişdir.

Əvvəlcə «islamlaşmaq» və daha sonralar isə «islamçılıq» kimi formalaşan milli məfkurə ideyası da məhz bu cür milli birliyə nail olmaq zərurətindən irəli gəlmişdir. İlkin olaraq onu da qeyd etmək lazımdır ki, haqqında növbəti bölmədə daha ətraflı bəhs olunacaq türkçülük prinsipi kimi islamlaşmaq məfkurə cərəyanı da öncə Os-

manlı Türkiyəsində təşəkkül tapmış və getdikcə Rusiya imperiyasında yaşayan məhkum türkdilli xalqlar, o cümlədən azərbaycanlılar arasında da yayılmağa, milli demokratik dövlətçilik məfkurəsinin əsas təməl prinsiplərindən biri kimi formalaşmağa başlamışdır.

Hər şeydən öncə onu da qeyd etməliyik ki, fərdlər, xalqlar, millətlər mənəvi dəyərlərə, həm də din vasitəsilə yiyələnir. Bu anlamda türkdilli xalqlar, o cümlədən Azərbaycan xalqı da uzun illər boyu mənsub olduqları İslam dinindən zəngin mənəvi keyfiyyətlər, əxlaqi dəyərlər əxz etmişlər. İslama sitayişdən bəri digər ərəbdilli müsəlman soyları kimi, türkdilli xalqların da düşüncə və həyat tərzi, adət və ənənələri, əxlaqi-hüquqi normaları, eləcə də dövlətçilikləri bu dindən kənarda təsəvvür edilməzdir. İslam dini müsəlman xalqlarının mənəvi həyatının mühüm tərkib hissəsinə çevrilməklə, başlıca istiqamətverici amil kimi böyük nüfuz dairəsinə malikdir.

Tarixi araşdırmaların göstərdiyi kimi, türkdilli xalqlar içərisində islamiyyəti ən tez qəbul edən azərbaycanlılar olmuşdur. Azərbaycan xalqının böyük bir qismi VIII əsrin əvvəllərində islam dinini qəbul etmişdir. Lakin «VIII əsrin əvvəllərində islam dini Azərbaycanda geniş yayıldığı, möhkəmləndiyi və hakim din olduğu şəraitdə belə, Albaniyanın bir hissəsində, xüsusilə Qarabağın dağlıq hissəsində xristianlıq dini əvvəlki mövqeyini saxlaya bildi.. Daha doğrusu, «Kitab əhli» olduqlarına və başqa mülahizələrə görə, ərəblər burada xristianlığa toxunmadılar» [42,251]

XI əsrdən başlayaraq türklərin islam dünyasına başçılıq etmələri islam dininin günümüzədək və bundan sonra da yaşayacağına təminat verə bilmişdir. Türklərin islamiyyəti qəbulu ilə zaman-zaman türk və islam məfkurələri bir-biri ilə qaynayıb qarışmışdır.

Türklərin zəifləməsi ilə islam dini də öz hakim mövqeyini itirməyə başlamış, islam dininin cahanşümul ideyalarının yerini savadsız, səbatsız din xadimlərinin uydurduğu və dindən öz şəxsi məqsədləri üçün istifadəyə çalışdıqları xurafat tutmuş və beləliklə də, bu xurafat milləti uçuruma yuvarlatmış, Qərb qarşısında məğlub duruma salmışdır.

Din tükənməz mənəvi dəyərlər sistemidir. Hər bir millət də canlı bir orqanizmə bənzədiyindən, o da insan vücudunu tənzimləyən ruha bənd olan mənəvi dəyərlərə incə tellərlə bağlıdır. Bu da əlbəttə ki, yeni anlamda xüsusi fundamental tədqiqatın mövzusudur. Burada isə belə bir cəhəti qeyd etmək lazım gəlir ki, artıq çağdaş elmi araşdırmaların başlıca diqqət obyektinə çevrilmiş türk-islam sintezi yeni bir türk-islam mədəniyyətini, ədəbiyyatını, fəlsəfəsini meydana gətirmiş, istər Azərbaycan, istər Anadolu, istərsə də Orta Asiya türkləri bu dindən mənimsədikləri mənəvi dəyərlər sayəsində çoxlu xarüqələr yaratmışlar. Bu anlamda islam dini türk millətinə geniş üfüqlər açmış, onun həyatının ayrılmaz bir tərkib hissəsi olmuşdur.

Tarixin müxtəlif dövrlərində islam dini də siyasi və ideoloji baxımdan bir çox təhrif və «düzəliş»lərə məruz qalmışdır. Bütün səmavi dinlər kimi o da zaman-zaman özünün ilkin paklığından hakim qüvvələrin iradəsinə qulluq edən cahil din xadimlərinin ucbatından uzaqlaşdırılmış, onun müqəddəs və həqiqi müddəalarının yerini xürafat tutmuşdur. Kilsəyə tabe etdirilən xristian dini kimi, ayrı-ayrı müsəlman dövlətlərinin təriqətlərinə xidmətə yönəldilən islam dini də siyasətə qurban verilir. Getdikcə sünni və şiə məzhəbləri arasında yaranan dərin uçurumlar, ixtilaflar, həm də əks təriqətli dövlətlər arasında ciddi siyasi və hərbi çəkişmələrə səbəb olur. Nəticədə iki böyük müsəlman türk imperatorluğu – Osmanlı və Səfəvi dövlətləri bir-birini zəiflətməklə sarsılır.

Halbuki özlüyündə din tükənməz mənəvi dəyərlər xəzinəsidir. Millət də mürəkkəb bir canlı orqanizm kimi

belə mənəvi dəyərlərə ruhən və cismən incə, lakin qırılmaz tellərlə çox bağlıdır. Mənəvi dəyərlər ayrıca bir insan kimi milləti də ruhən zənginləşdirir, mənəviyyatına rəvac verir. Əslində millət maddi və mənəvi dəyərlərin məcmusudur. Bu mənəvi dəyərlərin başlıcası olanlarından biri də türkdilli xalqların əsrlər boyu etiqad bəslədiyi islam dinidir. Bu din türkdilli xalqların milli birliyinin formalaşmasında, onların millət halında təşəkkül tapmasında çox mühüm rol oynamışdır. Böyük türk mütəfəkkiri Nurəddin Topçunun dediyi kimi, «islam yalnız səcdə halında deyil, səcdəyə əyilən başlarımızdadır. Yalnız camidə deyil, əzan səsi ilə dolan qəlblərimizdədir və yalnız Quranda deyil, onunla nurlanan üzlərimizdədir» [188,103].

İndiki tədqiqatlarda haqlı olaraq belə bir cəhətə xüsusi diqqət yetirilir ki, islamın müqəddəs kitabı «Qurandakı dini-siyasi, sosial-hüquqi, etik təsəvvürlər bu günümüzə qədər müsəlman dünyası üçün dəyər yönümləri olmuşdur. Lakin digər etnik mədəni ərazilərdə yaşayan xalqlar islamı qəbul etməklə öz ənənələrini, adətlərini və qaydalarını da bu dinin mənəvi dünyasına çatmışlar. Fəth edilmiş xalqların mənəvi irsi ilə islamın əsas ideyalarının mürəkkəb, bəzən ixtilaflı qarşılıqlı əlaqəsi nəticəsində müsəlman dünyasının tarixi-mədəni ərazilərində islamın mövcudluğunun xüsusi, məhəlli formaları yarandı» [83,73].

Ancaq bu da bir tarixi həqiqətdir ki, bütün müsəlman dünyasını birləşdirən ümumislam prinsipləri, əlalxüsus müsəlman ümmətçiliyi həmin ərazilərdə milli birliyə keçid üçün münasib zəmin hazırlamışdır. Lakin bunu da unutmaq olmaz ki, «islam tarixən ideya və rəylərin mübarizəsi gedişində təşəkkül tapmış və indi də beləcə fəaliyyət göstərməkdədir» [83,73].

XIX-XX yüzilliklərdə Azərbaycanda, eləcə də digər türkdilli ölkələrdə, habelə Türkiyədə yeni-yeni fikir cərəyanlarının yarandığı, ictimai rəylərin, əqidələrin toqquşduqları bir şəraitdə islama, onun sosial roluna münasibət heç də birmənalı olmamışdır. Bununla belə, zamanənin bir çox qabaqcıl düşüncəli ziyalıları bu məsələdə mütərəqqi mövqedən çıxış etmişlər. Bu münasibətlə professor Yusif Rüstəmovun 2005-ci ildə rus dilində çapdan çıxmış «Türkiyənin sosial-siyasi və fəlsəfi fikrinin bəzi problemləri» adlı kitabında oxuyuruq: «Əksər türk alimləri islamın türk xalqlarının tarixində müsbət rolunu etiraf edir. Belə ki, professor İbrahim Kafesoğlu qeyd edir ki, türklərin qəbul etdikləri bütün dinlər arasında yalnız islam mənfi rol oynamamışdır. Başqa dinlərə etiqad etmiş türklər tədricən səhnədən çıxmışlar. «İslam Türkiyə üçün həyat mənbəyidir». İslam insanlar arasında qardaşlığı təbliğ etməklə, şəxsiyyətin toxunulmazlığını ön plana çəkməklə, insanların mənəvi və əxlaqi zənginləşmələri yolunda bütün manecələri dəf etməklə türkləri mənən zənginləşdirir» [229,75-76].

Məhz bu səbəbdəndir ki, İ.H.Danişməndən 1959-cu ildə İstambulda nəşr olunan «Türklük və müsəlmanlıq» adlı əsərində göstərdiyi kimi, «demək olar ki, bütün türk xalqları islamı qəbul etmiş və bu dinin ideallarının həyata keçirilməsində ərəbləri əvəz etmişlər» [229,77].

Ruhən elmə, tərəqqiyə yaxın olan və bunları təqdir edən islamda yeniləşmə meyli ilə milliliyin vəhdəti ehtiva olunmuşdur. Türkdilli xalqların yeni dövr qabaqcıl zəka sahibləri də islamlaşmaqda müasirləşmək və türklüyün, başqa sözlə türkləşməyin, yəni milli özünüdərkin, özünütanımanın uzlaşmasının başlıca rəhnini görmüşlər ki, bu da milli birlik, milli tərəqqi üçün ümdə olandır.

Bu baxımdan bəhs edilən dövrdə türk dünyasında ilkin anlamda «islam birliyi» deyilən ideyanın meydana gəlməsi heç də təsadüfi olmamışdır. Bu ideya hər şeydən əvvəl. iki qütbə ayrılmış Osmanlı imperatorluğunun heç olmazsa müəyyən qismini qoruyub saxlamaq məqsədi ilə ortaya atılmış və Sultan II Əbdülhəmid tərəfindən tama-

milə dəstəklənmişdi. Siyasi, hərbi və diplomatik vəziyyətlər qarşısında Osmanlı fikir adamları dini birliyə daha çox üstünlük vermişlərsə də, dünyada gedən prosesləri daha dərindən dərk edən bir çox türk siyasət xadimləri «islam birliyi» ideyasının yetərli olmadığını qəti olmasa da anlamışdılar.

«İslam birliyi» ideyasının əsasında «İslamçılıq» dayanır. «İslamçılıq» dünyadakı müsəlmanlardan bir «İslam birliyi» meydana gətirilməsi fikri və ya ideologiyasıdır. Bu ideologiya Osmanlı imperatorluğunda «Osmanlılıq» fikrinin zəifləməsi ilə Əbdüləziz dövründə başlamışdır. Avropa siyasətçiləri buna «panislamizm» də demişlər. Əbdülhəmid «panislamizm»i fikir halından əməl durumuna gətirmişdir. Sarayda, ictimai həyatda, təhsildə və xarici siyasətdə «islamçılığa» yer verilmişdi. Həmçinin müsəlman məmləkətlərində də geniş bir «panislamçı» propoqandaya girişilmişdi» [183,7].

İlk öncə sırf nəzəri bir fikir olan «İslam birliyi» ideyası yalnız mətbuat səhifələrində görünürdüsə, Sultan II Əbdülhəmid taxta çıxandan sonra bu siyasəti dövlət səviyyəsində tətbiq etməyə başladı. Çünki Avropa və Rusiya kimi, xristian dövlətlərinin aramsız basqınları qarşısında imperatorluğun qalan hissəsinin birliyinin qorumasının yeganə qurtuluş yolu «İmperatorluğun müsəlman təbəəsini din bağları ilə bütünləşdirmək idi» [129,108].

Artıq Sultan Əbdülhəmid o dövrdən başlayaraq sultan, padşah əvəzinə daha çox dini titul olan xəlifə kimi tanınmağa başlandı. Siyasətinin əsasında isə İslam dini mühüm yer tutmağa başladı. Tədrisin əsasında din götürüldü. Sarayı xocalar, imamlar, seyidlər, şeyxlər, şəriflərlə doldurdu. Bəzi mülki idarələrə «çalmalıları» təyin etdi, müsəlman olmayanlara qarşı nifrət aşılamaq üçün xalq arasına vaizlər göndərdi. Sultan II Əbdülhəmidin və Osmanlı fikir adamlarının düşüncəsində yalnız imperiyadaxili müsəlmanların birliyi nəzərdə tutulurdusa, bu ideologiyanın ən böyük nəzəriyyəçisi, islam aləminin siyasi lideri olan Şeyx Cəmaləddin Əfqani (1838-1897) bütün İslam aləminin yaşaya bilməsi üçün dünya müsəlmanlarının birliyi ideyasını irəli sürdü. Bu ideya «Osmanlılığa» nisbətən *daha inandırıcı, daha cahanşümul idi.*

Şeyx Cəmaləddin Əfqani bütün İslam ailəsinin yaşaya bilməsi üçün müsəlmanların birliyi ideyasını irəli sürdü və bunu özünün milli birlik fəlsəfəsi ilə əsaslandırdı. Bu məqsədlə Əfqani islam aləminə düşüncə və əməlləri ilə səmərəli toxumlar səpdi, dünya müsəlmanlarının milliyyət fikirlərinin formalaşmasında əvəzsiz xidmətlər göstərdi.

Şeyx Cəmaləddin Əfqaninin milliyyəti və doğulduğu yer haqqında bir-birinə zidd *müxtəlif* fikirlər vardır. Tarixi qaynaq onun mənşəcə Azərbaycan türkü olduğundan məlumat verir. M.T.Zehtabi yazır: «Cəmaləddin Əfqani Həmədan yaxınlığında yerləşən və əhalisi Azərbaycan türklərindən ibarət olan Əsədabad qəsəbəsində ziyalı ailəsində doğulmuşdur. Səkkiz yaşında olarkən atası ilə birlikdə Kabilə köçmüşdür» [175,19].

Məhəmməd Səfdər oğlu kimi dünyaya gələn «İranda Seyid Camal Əsədəbadi, bəzən də Həmədani, Ərəb dünyasında Şeyx Cəmaləddin Əfqani, Avropada Cəmaləddin Hüseyni və s. adlarla tanınan və tarixə Cəmaləddin Əfqani kimi düşən bu Şərq mütəfəkkiri»nə [95,12], biz də «böyük bir müsəlman» və ya «böyük bir şərqli» [182,66] deməklə kifayətlənərək, *onun mövzumuzla bağlı* əsas fikirlərini xülasə etməyə çalışacağıq.

Şərq və Qərb ölkələrinin böyük bir qismini gəzib dolaşan bu köçəri elm və siyasət xadimi «Əfqanıstanda mətbuatın, *Misirdə satirik mətbuatın banisi, İranda milli* azadlıq hərəkatının ideya rəhbəri, zülmün və istibdadın, Şərqi soyub talayan Avropa müstəmləkəçiliyinin düşməni» [49,4-5], Qərbdə «panislamizm» adlandırılan demokratik *ideoloji cərəyanın banisi Şeyx Cəmaləddin Əfqani* bəşəriyyətin tarixən qazanmış olduğu mütərəqqi fikirləri,

elmi-texniki tərəqqini və böyük kəşfləri bəşəriyyətin təkamül prosesində ən vacib amil hesab etmiş, Şərqi uğradığı böyük fəlakətlərdən qurtarmağın yollarını göstərmiş və sonda belə bir qənaətə gəlmişdir ki: «Dünyanın sultanı elmdir... Millətdən kənarda səadət yoxdur. Dilsiz millət ola bilməz. Dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil insanlar arasında əsas əlaqə vasitəsidir. İnsanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir: bunlar olmasa birlik də ola bilməz. Bunlardan biri məhz həmin dil birliyidir ki, buna milli vəhdət də deyirlər. Digəri din birliyidir. Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir. Çünki dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür» [49,8-14].

Şeyx Cəmaləddin Əfqani bu tezisləri ilə dinin milliyyəti deyil, ümmətçiliyi ifadə etdiyini, milliyyətin din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu irəli sürərək, Avropadakı milliyyət hərəkatlarından alman məktəbinin tərəfdarı kimi çıxış etmiş, millətin millət olması üçün ilkin şərtin dil olduğunu göstərmiş, ümmətin millətdən başqa bir şey olduğu qənaətinə gəlmişdir. Şeyxin bu fəlsəfi tezisləri daha sonra İsmayıl bəy Qaspıralı tərəfindən «Rusya Müsəlmanları İttifaqı»nın Qurultayına təklif etdiyi və nəşr etdirdiyi «Tərcüman» qəzetində felən tətbiq etdiyi «dildə birlik» tezisi ilə, Məmməd Əmin Rəsulzadənin 1913-cü ildə «Şəlalə»də dərc etdirdiyi «Asan dil – yeni lisan», «Yeni lisançılar və türkçülər», «Dil ictimai mühüm bir amil» [131], 1914-cü ildə «Dirilik»də nəşr etdirdiyi «Dirilik nədir?», «Milli dirilik» I-V adlı silsilə yazıları [129] və 1915-ci ildə təsis e-



diyi və baş redaktoru olduğu «Açıq söz» qəzetində dərc etdiyi yazıları ilə tam üst-üstə düşür.

Şeyx Cəmaləddin Əfqani dildən sonra insanları birləşdirən ikinci amilin din olduğu fikrini irəli sürürdü. İslam və dünya fəlsəfəsini, dinlərini mükəmməl bilən Şeyx Cəmaləddin Əfqani başqa din xadimlərindən fərqli olaraq tərəqqinin, təkamülün əsasını elmdə görür və deyirdi: «Elm haqqında danışmaq çox çətindir, çünki elmin hüdudları sonsuzdur. Onun üstünlük və gözəlliklərini tam əhatə etmək mümkün deyil... Bununla yanaşı elmin fəziləti haqqında heç danışmamaq da olmaz.

Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək. İslamın ilk dövrlərində müsəlmanlar heç bir elmə malik deyildilər. Ancaq İslam dəyanəti nəticəsində onlarda əmələ gələn fəlsəfi ruh vasitəsilə dünya və insan haqqında mübahisələrə başladılar. Elə həmin fəlsəfi ruh da Mənsur Dəvanəqi zamanında ayrı-ayrı elmləri siryani, fars və yunan dillərindən ərəbcəyə çevirməyə və az bir müddət ərzində onları öyrənməyə səbəb oldu. İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Elmə və mədəniyyətə ən yaxın və ən doğma din İslam dinidir. Elm və maarifin inkişafı ilə İslam qanunları arasında heç bir ziddiyyət yoxdur... Əgər müsəlmanlardan bir adam desə ki, mənim dinim bütün bu elmlərə ziddir, onda o öz dininə qarşı çıxmış olur. İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır... bizim din başçılarımız əvvəlcə gərək özlərinin islah olunmasına çalışsınlar və öz elmlərindən bir xeyir görmüş olsunlar. Məsələyə diqqətlə yanaşdıqda aydın olur ki, müsəlman aləminin tənəzzülü, pozuqluğu əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə sirayət etmişdir» [49,25-33].

XIX əsrdə olduğu kimi, müasir dövrümüzdə də dinlə elmin qarşılıqlı əlaqələrinə müqayisəli təhlillər verilmişdir. Tədqiqatçı alim Xəlilov S.S. yazır: «Bəziləri Şərq dünyasını təmsil edən ölkələrin, o cümlədən Azərbaycanın müasir texnikaya əsaslanan iqtisadi yarışda qabaqcıl Qərb ölkələrindən geri qalmasının səbəblərini islam dinində və ənənəvi düşüncə tərzində axtarırlar. Halbuki iqtisadi inkişafın hərəkətverici qüvvəsi din yox, elmdir. Din iqtisadi meyarlarla deyil, ancaq mənəvi meyarlardan dəyərləndirilə bilər. Söhbət hansı dinə qulluq edilməsindən yox, ümumiyyətlə din və elmin münasibətindən getməlidir. Din öz yerində olduqda cəmiyyətin iqtisadi inkişafına heç bir xələl gələ bilməz» [74,68-69].

Dilə, elmə, fəlsəfəyə, təlim-tərbiyəyə və təhsilə yüksək qiymət verən Şeyx Cəmaləddin Əfqani hər şeydən əvvəl «panislamizm» cərəyanının banisi və ideoloqu idi. O, islam birliyi ideyasını ortaya atarkən ona elmi, siyasi, ideoloji və fəlsəfi məna vermiş, islam birliyini təriqət və məzhəb birliyi kimi deyil, Avropa müstəmləkəçiliyinə, birinci növbədə ingilislərə və digər düşmən qüvvələrə qarşı bir ideoloji sistem kimi irəli sürmüşdür. Doğrudur, islam birliyi ideyasını ilk dəfə Nadir Şah Əfşar irəli sürmüş və bu yöndə müəyyən addımlar da atmışdı. İranı işğalçılardan azad edən, Hindistana qədər gedib çıxan, İran xəritəsinə yeni ərazilər qatan, müasiri olan Böyük Pyotra ultimatumlar göndərən, islam birliyi ideyasını Osmanlı sultanlarından müasiri olan Sultan həzrətlərinə bildirən, Avropa ziyalılarının «Şərqin Napoleonu» adlandırdığı Nadir Şah Əfşar [129,142] haqqında M. Ə. Rəsulzadə yazır: «Nadir Səfəvilərə rəğmən şiəliyi deyil, ittihadi-islam şüarını ortaya atmış və bu məqsədlə Muğanda keçirdiyi qurultayda bir qərar çıxartdıraraq, bütün İslam dünyasına xitab etmiş, Türkiyəyə də müraciətdə bulunmuşdur» [191,36]. Bu fikri təsdiq edən professor Şamil Qurbanov özünün «Cəmaləddin Əfqani və türk dünyası» adlı monoqrafiyasında qeyd edir: «Nadir Şah həmin fikrin (islam birliyi fikrinin - R.Ə) işığında İran dövlətinin hüdudlarını çox genişləndirdi, amma əsl birliyə nail ola bilmədi. Onun ölümündən sonra bu fikir (İslam birliyi fikri- R.Ə) parçalanıb dağıldı... onu yenidən cücərdib ərsəyə gətirmək təşəbbüsünü Cəmaləddin etdi və bu məsələni Qərbin qəsbkarlıq siyasəti qarşısında ilk dəfə ortaya atdı və ardıcıl olaraq bütün qüvvəsini onun (islam birliyi ideyasının- R.Ə) həyata keçirilməsinə sərf elədi. Avropa alimlərinin və siyasət adamlarının «Böyük Müsəlman» adlandırdıqları Cəmaləddin Qərbdə də, Şərqdə də məşhur sima oldu» [49,50].

Şeyx Cəmaləddin Əfqani ilk növbədə islam döyüşkənliyi ruhunu bərpa etməyə çalışır, dini xurafatı, mövhumatı rədd edir, Şərqin qurtuluşunu dini hərəkatlarda görür, tərəqqinin ən böyük düşməninin mütləqiyyət olduğu fikrini qorxmadan, çəkinmədən bəyan edirdi.

İslam birliyi ideyası əslində Quranın təbiətindən doğur. Lakin Şeyx Cəmaləddin Əfqani buna siyasi-ideoloji və fəlsəfi yönüm verərək, Şərq xalqlarının nicatı kimi baxırdı. O dövrdə müsəlman aləminin xəstə vəziyyəti hamını düşündürür və hərə özünə görə bir çıxış yolu tapmağa çalışırdı. Bu məsələnin həllində tamamilə bir-birindən fərqli üç cərəyan var idi. Bunlardan birincisi mütərəqqi, yaxud yeni müsəlmanlar adlanırdı ki, Əhməd bəy Ağaoğlu onları «ifrat mütərəqqi» müsəlmanlar kimi qələmə verir və qeyd edir ki, «onlar çıxış yolunu qeyd-şərtsiz Avropanı təqliddə, Avropasayağı həyat tərzini olduğu kimi Şərqə köçürməkdə görürdülər» [208]. İkincilər isə mürtəce, yaxud köhnə müsəlmanlar adlanırdı ki, onlar keçmişə qayıtmağı üstün tuturdular. Bu köhnəpərəstlərin mövqeyini şərh edərkən Əhməd bəy yazırdı: «Onlar belə fikirləşirlər ki, xalqın keçmişdən uzaqlaşması, əxlaqın pozulması, köhnə ehkamların zəifləməsi, ifrat sərbəstlik müsəlmanlara üz verən bütün bəlaların yeganə mənbəyi-

dir. Köhnəpərəstlər belə bir əqidədəydilər ki, xilas üçün nə Avropaya, nə də köhnə həyatın dəyişdirilməsinə ehtiyac yoxdur. Sadəcə keçmişə qayıtmaq kifayətdir, bunun özü müsəlmanları xilas edəcək» [210].

Üçüncü cərəyan isə bu iki cərəyan arasında orta xətt götürən «Panislamistlər»dir. Birinci və ikinci cərəyanların hər ikisinin fikirləri səhvdir. Onların hər ikisi məsələyə birtərəfli yanaşdığından tənqid olunmuş və göstərilmişdir ki: «Birincilər (ifrat mütərəqqi, yaxud yeni müsəlmanlar – R.Ə) mütərəqqi görüşlərə malik olsalar da, milli psixoloji amili və yerli şəraiti nəzərə almır, milli zəmin haqda düşünmürlər. Bunları (milli psixoloji amili və yerli şəraiti – R.Ə) nəzərə almadan Avropa modelini eyni ilə Şərqə köçürmək olmazdı, necə ki, olmadı. Mühafizəkarlardan (mürtəce, yaxud köhnə müsəlmanlar - R.Ə) isə danışmağa dəyməz, çünki onlar hər cür yeniliyin əleyhinədirlər və Qurani-Kərimdən başqa heç bir istinad nöqtəsi tanımırdılar» [95,22-23].

Panislamizmin banisi Şeyx Cəmaləddin Əfqani Quranı əsla inkar etməmiş, əksinə, «Quranı» çoxlarının ağlına belə gəlməyən bir şəkildə şərh etmiş və göstərmişdi: «Dini hərəkatdan məqsədimiz islam dinini islah etmək olduğu məlumdur. Dini islahın mənası Rəsulullah gətirməyən bir şeyi dinə artırmaq, yainki islam qaydalarını batırmaq deyil, bəlkə Rəsulullah gətirmiş dinə sonradan və sonrakı adamlar tərəfindən əlavə olunan şeyləri götürüb də dini səadət əsrindəki (peyğəmbər və dörd xəlifə – Əbubəkr, Ömər, Osman və Əli dövründəki - R.Ə) rövşənə salmaq deməkdir. Bunu isə çətin yollar ilə deyil, bəlkə vəz, nəsihət, mətbuat ilə ümumi müsəlmanlara anladıb islam əmrlərini də mənasız şeylərə deyil, bəlkə din və dünya üçün lazım olacaq və istiqballarında fayda görüləcək şeylərlə etmək gərəkdir» [49].

Panislamizmin liberal islahatçısı Şeyx Cəmaləddin Əfqani Avropa qəzetlərindən birinə verdiyi müsahibədə demişdır: «Quranın həqiqi ruhu tamamilə azadxah düşüncələrə və yeni fikirlərə əsaslanır. İndi islam aləmində mövcud olan nizamsızlıqların və mühafizəkarlığın əsl islam qanunları ilə heç bir əlaqəsi yoxdur. Bunlar cahil təfsirçilərin islam şəriətinə etdikləri əlavə şeylərdir. Zaman keçdikcə bunlar üzə çıxacaq. Buna görə hər bir müsəlman alimi Avropasayağı azadlıq fikirləri ilə yaxından tanış olsa, Quran təliminə müraciət etməklə çətinlik çəkmədən xalqı bu gün tələb olunan azadlıq fikirləri və düşüncələri ilə aşina edə bilər» [95,76].

Şeyx Cəmaləddin panislamizm məfkurəsinin islam fundamentalizminin əksinə olaraq, milli düşüncədə milli mənlik şüuruna xidmət edən mənəvi-əxlaqi cəhətlərini qəbul etmiş, onun siyasi-milli təfsirini vermişdir. Şeyx Cəmaləddinin panislamizmini qəbul edən cəmaləddinçilər avropalılaşmaq məsələsinə də onun kimi yanaşmış və məhz bu zərurətdən doğan düşüncə tərzi sonradan onları milli intibahımızda üç devizli – islamlaşmaq, türkləşmək və avropalılaşmaq kimi bir fəaliyyət platformasına gətirib çıxarmışdır. Bu milli liberal islamçılıq cərəyanı özündən əvvəlki mövcud islamçılıqdan, xüsusilə ictimai-siyasi gerçəkliyin böyük təsiri və təzyiqi əsasında meydana gəlmiş ifrat panislamizmdən ciddi şəkildə fərqlənirdi.

Şeyx Cəmaləddin Əfqani və onun davamçıları belə bir fikirdə idilər ki, bir vaxtlar avropalılar elmləri Şərqdən əxz etmişlər. İndi də biz Avropaya müraciət ediriksə, əslində öz mirasımızı geri istəyirik. Bu onların haqqı olduğu kimi indi də bizim haqqımızdır.

Bu fikrin fəlsəfi izahını şərh edərkən tədqiqatçı alim, AMEA müxbir üzvü S.S.Xəlilov qeyd edir: «Milyon illər davam edən əməli fəaliyyət prosesində insanda heyvani instinktiv hisslərdən fərqli olaraq nəcib və ali hisslər – insani hisslər yaranıb və bu hadisə bəşər tarixinə «Şərq ruhu» adı ilə daxil olub. Həmin ruh ata-babalarımızdan bir məşəl kimi nəsildən nəslə ötürülüb yaşadılıb» [75,69].

Şərqin bu ali hisslərini, elmini mənimsəyən və inkişaf etdirən Qərb, qərb ruhu haqqında görkəmli filosof yazır: «Əsrlər ötüb, nə vaxtsa əzəmətli, lakin buz kimi soyuq olan ağıl dəryasının təlatümləri sahili bürüməyə başlayıb və bütün alçaq sahələrdəki alovların üzərinə su səpələyib, onları söndürüb. Atəşlər söndü, ehtiraslar cilovlandı, meydanı mücərrəd təfəkkür tutdu. Bu hadisə bəşər tarixinə «Qərb ruhu» adı ilə daxil olub» [75,69].

Şeyx Cəmaləddin Əfqaninin islam birliyi ideyasını qəbul edən, bütün mənalı həyatını türk xalqlarının birliyinə həsr edən, «dildə, fikirdə, işdə birlik» ideyasının müəllifi, məşhur türkçü İsmayıl bəy Qaspıralının yaradıcılığında müsəlman türklərin həyatında dərin izlər buraxan İslam dini məsələsi xüsusi bir mövzu təşkil edir. İsmayıl bəyin islama baxışı Yusuf Akçuranın söylədiyi kimi, «milli həyata fayda dərəcəsi ilə bağlıdır. (İsmayıl bəy) XIX yüz ilin sonlarına doğru İslam Şərqinin orasında- burasında yetişən yenilikçilərin mübarizələrini məqsədinə uyğun bilir. İslam, Qərb mədəniyyətinin bəzi şərtlər daxilində qəbuluna əngəl olmaz. İslam, qadınların azadlıq və bərabərliyinə, həyatda kişilərlə əl-ələ çalışmalarına təşviq edicidir. İslam, müsəlman xalqların məzhəb ayrılıqlarını rədd edir – kimi əsas fikirləri qəbul edir və «Səadət vaxtı»na dönüş iddiası ilə ortaya çıxan «Yeni islamlığı» millətdaşları arasında yaymağa çalışır. Bu yoldakı çalışmaların ən mükəmməl örnəyi «Darür – rahat Müsəlmanları» adlı gözəl hekayəsidir» [182,73].

İsmayıl bəy Qaspıralı bütün dünya müsəlman türklərinin birliyinə çalışmışdır. O, nəşr etdirdiyi «Tərcüman» qəzeti ilə bu ideyaya xidmət etmişdir. «Tərcüman» yazarına görə, «Qazan Tatarı, Orta Asiya Sartları, Tarançılar filan yoxdur. Bir dinə inanan, bir dillə danışan türklər vardır» [182,74].

İsmayıl bəy Qaspıralının milli xidmətlərinin əsasında «Qərbləşmək», «İslamı çağdaş bir şəkildə anlamaq» şüarları, «Dildə, fikirdə, işdə birlik» nəzəriyyələri dayanır. İsmayıl bəy Qaspıralı şüar və nəzəriyyə şəklində irəli sürdüyü bu fikirlərini bütün ömrü boyu əməldə də həyata keçirməyə çalışmış, türkçülük axınının ən mərkəzi simalarından biri olmuşdur. Bütün bunların nəticəsidir ki, İsmayıl bəy Qaspıralını bütün dünya türkləri özlərindən hesab etmişlər.

Şeyx Cəmaləddin Əfqaninin ideyalarını mənimsəyən, bütün yaradıcılıqlarında ondan istifadə edən, onu özlərinin müəllimi hesab edən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Yusuf Akçura, Ziya Göyalp, Məmməd Əmin Yurdagul, Məmməd Akif Ərsoy, Məmməd Əmin Rəsulzadə və «türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi ideoloji sistemi qəbul edən bütün mütəfəkkirlərlə yanaşı onun «islamçılığını» bütün reformist islamçılar da qəbul etmişlər. Belə ki, Əhməd Ağaoğlu (1869-1939) ilk ciddi yazısını Şərqin tarixi və dininə həsr etmiş, «Şiə məzhəbinin qaynaqları» adlı tədqiqat əsəri ilə Avropada tanınmağa başlamışdır. Parisdə olarkən Tiflisdə nəşr olunan «Qafqaz» qəzetinə həftədə bir dəfə rusca yazılar göndərərək çap etdirmişdi. Əhməd bəy Ağaoğlunun bu yazıları da İslam aləmi və İslam aləminin türk həyatına həsr edilmişdi. Parisdə olarkən Şeyx Cəmaləddin Əfqani ilə tanış olması gələcək fəaliyyətində mühüm rol oynadı.

Altı il Parisdə qalan və ali təhsilli hüquqşünas kimi 1894-cü ildə vətənə qayıdan Əhməd bəy Ağaoğlunu, Hacı Zeynalabdin Tağıyev sahibi olduğu və Azərbaycan türklərinin hüquqlarını qoruyan, Bakıda rusca nəşr olunan «Kaspi» qəzetinə baş redaktor təyin edir. Bu qəzetdə dünyada gedən prosesləri yaxından izləyən, Qərbə və Şərqə yaxından bələd olan Əhməd bəy Ağaoğlu «Panislamizm, onun xarakteri və istiqaməti» adlı rusca silsilə yazılar dərc etdirir. Bu yazılarda panislamizmin mahiyyəti ilə yanaşı bu ideyanın yaradıcısı Şeyx Cəmaləddin Əfqaninin fikir və düşüncələrinə də xüsusi yer ayırırdı. 1900-cu

ildə qələmə aldığı bu silsilə yazılardan birində oxuyuruq: «İstedadına və enerjisinə görə zəmanəmizin ən heyrətamiz şəxsiyyətlərindən biri, Parisdə vaxtilə «Urvətül-Vüsqa»nın naşiri və redaktoru olmuş Cəmaləddin Əfqaninin islam ölkələrinin vəziyyəti haqqında obrazlı şəkildə dediyi sözləri mən indi də unuda bilmirəm. O deyirdi: Müsəlman aləmi nəhəng bir cəsədə bənzəyir. Bu cəsədin başı İstanbulda, qollarının biri Afrika sahillərinə, digəri isə Krım və Orenburqdan keçərək, Çinə qədər uzanmışdır. Lakin əldən düşmüş bu nəhəng və xəstə cəsədin (Müsəlman aləminin - R.Ə) bədənində bircə dənə də sağ yer yoxdur. Onun hər yerindən qan fışqırır. Adama elə gəlir ki, onun artıq son nəfəsidir. Belə bir vəziyyətdə görün o necə mənasız şeylər haqqında mübahisələrə vaxt itirir: Əmirmi haqlıdır, Zeydmi? Hansının teoloji prinsipləri doğrudur? Bu cəsəd sonuncu dəfə nəfəs alanda başa düşəcək ki, onu məhvə sürükləyən də elə bu cür mənasız mübahisələr oldu» [208].

Azərbaycan və İran türklüyünün məzhəb ayrılığı yarası Əhməd bəyi əvvəldən bəri məşğul etməkdə idi. Qafqaza döndüyü zaman dialoq şəklində yazılmış bir risaləsinin mövzusu da məzhəb ayrılığının islama vurduğu zərərlərdən bəhs edir. Bu risalənin adı «İslam və Axund»dur. Azərbaycan ruhaniləri və müsəlman təəssübkeşləri arasında xeyli dedi-qoduya və müəllifinə qarşı düşmənçiliyə yol açmışdır. Ağaoğlu bu risalədə islamla bir şiə axundunu qarşılaşdırır. Fağır və zəif İslamın məzhəb ayrılığı üzündən başına gələn fəlakətləri «zəngin və şişman axundun qan fısqıran yağlı üzünə çırpır» [182,157-158]. Həyəcan və hərarətlə yazılan bu risalədən, həmçinin «İslama görə və islam aləmində qadın», «Panislamizm, onun xarakteri və istiqaməti», «Müsəlman xalqlarının vəziyyəti», «İslamın yarandığı ilk dövrün etüdləri» və s. bu kimi sanballı əsərləri ilə Əhməd bəy Ağaoğlu da müəllimi Şeyx Cəmaləddin Əfqani kimi



xalqda milli şüurun, milli birliyin oyanması, ilk islami ehkamların bərpası, elmi-siyasi fikir və mülahizələrin yayılması kimi günün vacib məsələlərini qələmə alması ilə yanaşı göstərirdi ki, «müsəlman aləminin oyanması və o aləmin mədəni millətlər mühitinə girə bilməsi üçün çox şiddətli bir silkənişə ehtiyacı vardır. Müsəlmanların öz reformasiya dövrünü keçirmələri üçün içlərindən xeyli güclü bir iradə sahibi və nəfsini iş üçün tamamilə fəda etməyə hazır bir adamın gəlib çıxması lazımdır. Belə bir reformator...islamda, islamin tarix və adət-ənənələrində əməllərinə uyğun bir zəmin bula bilər» [198,159-160].

Bütün bunlarla yanaşı, Əhməd bəy Ağaoğlu müsəlman xalqlarının qurtuluşu və irəliləməsi üçün iki mühüm məsələnin də həllini lazım bilirdi. Bunlardan biri müsəlman qadınlarının azadlığı və savadlanması, digəri isə ərəb əlifbasının dəyişdirilməsi məsələləri idi. Bu münasibətlə Əhməd bəy Ağaoğlu yazırdı: «Müsəlmanların qurtuluşu, onların mənəvi, maddi, hətta siyasi inkişafları yalnız iki məsələnin həllinə bağlıdır: Qadın məsələsi və əlifbanın islahı» [182,158].

Əhməd bəy Ağayev müəllimi Cəmaləddin Əfqani kimi dinin mənəvi, əxlaqi və milli zənginlik üçün mühüm əhəmiyyət kəsb etdiyini dönə-dönə qeyd edərək islam dininin, onun müqəddəs kitabı «Qurani-Kərim»in mütərəqqi və cahanşümul cəhətlərini açıb göstərir, dindən sui-istifadə edən mühafizəkar din xadimlərini ifşa edir, xurafatı kəskin tənqid edirdi. «Qurani-Kərim»i yüksək qiymətləndirən Əhməd bəy Ağaoğlu yazırdı: «Avropa millətlərinin Quranı və Məhəmməd Peyğəmbəri (s) bəşəriyyətin tam yarısını təşkil edən lətif cinsin-məhz qadınların düşməni hesab etmələri haqsızdır. Asiyada qadınları ayağa qaldıran Quran oldu. Quran Şərqdə qadınlara o vaxta qədər görünməmiş və eşidilməmiş

hüquqlar verdi, onu əsl ana və yoldaş səviyyəsinə qaldırdı» [209].

Əhməd bəy Ağaoğlu və M.Ə.Rəsulzadə avropalıların uydurduğu «panislamizm» ideyasını rus və Avropa qaragüruhçularının təsvir və təsəvvür etdikləri şəkildə müsəlmanlar arasında mövcudluğunu tamamilə inkar edirdi. Onların fikrincə panislamizm müsəlmanlar arasında yoxdur. O, Avropa siyasətçiləri və qəzetçiləri tərəfindən icad edilən bir uydurmadır» [131].

İslam dininin ictimai-əxlaqi, siyasi-ideoloji və dini-məfkurəvi dəyərlərini özünün milli düşüncəsində daxili-milli birləşdirici amil kimi qəbul edən Əhməd bəy Ağaoğlu da digər milli demokratiya düşüncəsinin fədailəri kimi islam dininin milli düşüncədə milli mənlik şüuruna xidmət edən mənəvi-əxlaqi və mədəni tutumunu qəbul etmiş və bu baxımdan da onun siyasi-milli təfsirini vermişdir. Məhz bu zərurətdən doğan düşüncə tərzi onu da Əli bəy Hüseynzadənin irəli sürdüyü milli intibahda üç devizli bir fəaliyyət platformasını – «islamlaşmaq, müasirləşmək və türkləşmək» tezisini qəbul etməyə gətirib çıxarmışdır. Bu milli-liberal islamçılıq cərəyanı ümmətçilikdən daha çox müsbət, mütərəqqi millətçilik, milli şüur, milli mənlik duyğusu ilə özünü qəbul etdirə bildi. Əhməd bəy Ağaoğlu da bu dünyagörüşün formalaşmasında və həyata vəsiqə almasında çalışan bir şəxsiyyət kimi onun Şərq ölkələrində, xüsusilə türk aləmindəki perspektivini məhz bu meyarlarla ölçmüş, onu müəyyən mənada mütləqləşdirmişdir.

Əhməd bəy Ağaoğlu böyük bir filosof kimi hər bir ictimai hadisəyə münasibətdə olduğu kimi dinə də tarixilik prinsipi və mədəniyyət konsepsiyası baxımından yanaşmışdır. Onun din və mədəniyyəti qarşılaşdırmasında ən səciyyəvi cəhətlərdən biri də ondan ibarətdir ki, çağdaş ilahiyyatçıların əməli olaraq həyatda gördüklərini Əhməd bəy bir futuroloq kimi hələ XX əsrin əvvəllərində tarixi-



nəzəri baxımdan anlamış, böyük bir analitik kimi təsəvvürlərinin tarixi məzmununu açmış, dəlillərlə bunu sübut etmişdir. Bütün bu qənaətlərində Əhməd bəy Ağaoğlu əsasən sivilizasiya və mədəniyyət prinsiplərinə əsaslanmış, bir maarifçi mütəfəkkir kimi Şərqin və bütün islam aləminin əsas nəzəriyyələrini qiymətləndirməyi bacarmış, müsbət anlamda kosmopolitizm ilə milli vətənpərvərlik motivlərinin sintezini yarada bilmişdir. Məhz bu ilk baxışda bir-birinə zidd görünən üç devizli ideoloji sistemin sintezi əsasında Azərbaycan Demokratik Cümhuriyyəti və Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti bərqərar oldu.

İslamçılıq fikrinin bütün müsəlman ölkələri və xüsusilə türk dünyasında özünə yer qazanmasında xüsusi fəaliyyəti olan şəxsiyyətlərdən biri də Osmanlı imperatorluğunun son iyirmi ilində və Türkiyənin Cümhuriyyət dövründə türkçülük savaşının öndərlərindən biri olmuş, həyatı keşməkeşli, lakin başarılı olmuş, siyasi-ideoloji çalışmaları, tədqiqatçılığı, xüsusilə siyasət və tarixi mövzulardakı yazıları ilə türk mədəni həyatında xüsusi yeri olan Yusuf Akçuradır. Özünün məşhur «Üç tərzi siyasət» adlı proqram xarakterli məqaləsi ilə Osmanlı imperatorlğunun gələcək siyasi xəttinin nədən ibarət olacağı fikrini irəli sürmüş, dünya türklərinin hansı ideoloji-siyasi yöndə öz taleyini həll edə biləcəyəni göstərmişdir. Bu əsərdə irəli sürülən üç ana xətdən mövzumuzla bağlı olan islamçılıq, daha doğrusu, müəllifin özünün qeyd etdiyi kimi, «islamçılığa dayanan bir dövlət sistemi qurmaq» tezisidir.

Avropa siyasi xadimlərinin «panislamizm» adlandırdıqları bu ideoloji fikri Yusuf Akçura əzəmətli bir proyekt hesab edərək göstərirdi ki, «islamçılıq «Osmanlı məmləkətlərində din əsasına dayanan güclü bir Müsəlman Birliyi yaradacaqdır. Bu (islamçılıq – R.Ə.), dünyadakı müsəlmanların xəlifə (Osmanlı sultanı nəzərdə tutulur –

R,Ə.) ətrafında toplanması üçün sağlam bir zəmin hazırlayacaq» [183,7]. Əsərdə Yusuf Akçura din ilə dövlətin bir tam olmasını, Quranın ana qanun mahiyyəti daşımasını, ərəb dilinin din dili, hətta müəyyən dərəcədə elm dili olmasını, xəlifənin (Osmanlı sultanının) müsəlmanlar tərəfindən imam kimi qəbul edilməsini, islamçılığı asanlaşdırıcı bir amil kimi göstərmişdir. Bütün bunlarla yanaşı Yusuf Akçura göstərirdi ki, bütün müsəlmanların birləşməsinə müsəlman təbəələrinə sahib olan böyük dövlətlər, xüsusilə də Rusya və İngiltərə mane olacaqlarından «İslam Birliyinin» yaranması çox uzun bir zaman alacaq. «Artıq Osmanlı milləti meydana gətirməklə uğraşmaq beyhudə bir yorğunluqdur» [183,31], deyən Yusuf Aksura «İslam Birliyi» siyasətinin Osmanlı imperatorluğu üçün yararlı olub olmadığını geniş şərh edərək göstərir ki, «bu siyasətin tətbiqi Osmanlı təbəələri arasında dini nifaq və düşmənçiliyin artması və beləliklə də, müsəlman olmayan təbəələrlə onların məskun olduqları ölkələrin itirilməsi və həmçinin Osmanlı dövlətinin gücünün azalması ilə nəticələnəcək. Bundan başqa, ümumiyyətlə, türklərin arasına müsəlman və qeyri müsəlman fərqi düşəcək, irqdən gələn qardaşlıq dini ixtilaflarla pozulacaq. Lakin bu sayaq zərərlərin müqabilində Osmanlı dövlətinin hakimiyyəti altında olan bütün müsəlmanlar və xüsusilə onun bir hissəsi olan türklər çox güclü bir bağla bir-biri ilə birləşəcək, beləliklə, fərqli irq və dindən təşəkkül tapmış «Osmanlı milləti»nə nisbətən mülk, adət-ənənə, ərazi, sərvət və s. fərdliliklərinə baxmayaraq, daha güclü bir topluluq – islam topluluğu meydana gətirəcəklər. Daha mühümü, yer üzündəki bütün müsəlmanların getdikcə güclənərək birləşməsi və beləliklə də, Anqlo-Sakson, German, Slavyan, Latınlar kimi sarı irqin (Yusuf Aksura bu əsəri qələmə aldığı dövrdə Avropada irq nəzəriyyəçiləri millətləri həm də rənginə görə irqlərə bölür və türkləri də sarı irqə aid edirdilər – R.Ə) birləşməsi ilə meydana gələcək, böyük qüvvətlər arasında varlığını mühafizə edə biləcək, dinə dayaqlı bir gücün doğması üçün zəmin hazırlanacaq... Asiyanın böyük bir hissəsi ilə Afrikanın yarıdan çoxuna hakim mənəvi bir varlıq yaradılmış olacaq» [183,31].

Yusuf Akçura Osmanlı və islam birliyi ideyasından daha çox «Türk Birliyi» ideyasına inanır və göstərirdi ki, «zamanımızda birləşməsi mümkün olan türklərin böyük bir qismi müsəlmandır. Bu cəhətdən islam dini böyük türk millətinin təşəkkülündə mühüm bir ünsür ola bilər. Millətə tərif verənlərdən bəziləri dinə bir amil kimi baxmaqdadırlar. İslam dini türklüyün birləşməsində bu xidməti yerinə yetirə bilmək üçün son zamanlarda xristianlıqda da olduğu kimi, içində millətlərin doğmasını qəbul edəcək şəkildə dəyişməlidir. Bu dəyişmə isə demək olar ki, məcburidir də. Zamanımız tarixində görülən ümumi cərəyan irqlərdədir. Dinlər, din olmaq baxımından getdikcə siyasi əhəmiyyətlərini, qüvvətlərini itirirlər. İctimai olmaqdan daha çox fərdiləşirlər. Cəmiyyətlərdə vicdan azadlığı din birliyinin yerini alır. Dinlər, cəmiyyətlərin əlavə işləri olmaqdan vaz keçərək qəlblərin hakimi və mürşidliyini öz üzərinə götürür, ancaq Xaliq ilə məxluq arasındakı vicdani rabitə rolunu oynayır. Dolayısı ilə dinlər irqlərlə birləşərək irqlərə yardımçı və hətta xidmət edici olaraq siyasi və ictimai əhəmiyyətlərini mühafizə edə bilirlər» [183,34-35].

Yusuf Akçuraoğlunun «Üç tərzi-siyasət» məqaləsi Misirdə nəşr olunan «Türk» qəzetində çap edildikdən sonra bu məqalə ilə bağlı islam dünyasının bir çox yerlərində münasibətlər bildirildi. Bu münasibətlərdən biri də bütün türk aləmində «bir haqq elçisi», «bütün türk dünyasının mücahidi», «bütün türk və müsəlman xalqlarının siyasi və milli əsarətdən azad olması uğrunda mübariz», hələ öz sağlığında «Yalavac» (peyğəmbər) adlandırılan, milli tariximizə görkəmli publisist, tənqidçi,

şair, nasir, tərcüməçi, ideoloq və filosof kimi daxil olan, istiqlaliyyət, milli qurtuluş məramının carçısı, türk xalqlarını vahid «Turan» ideyası ətrafında birləşməyə çağıran, «türkləşmək, islamlaşmaq, avropalaşmaq» ideoloji sisteminin yaradıcısı Əli bəy Hüseynzadə tərəfindən 24 noyabr 1904-cü ildə «Məktubi-məxsus» (Xüsusi məktub) başlıqlı və «Ə.Turani» imzası ilə həm n «Türk» qəzetində çap etdirdiyi sanballı məqalədə əksini tapmışdır.

Əli bəy Hüseynzadənin çap olunan «Məktubi-məxsus» məqaləsindən bəhs edən Yusuf Akçura qeyd edir ki, «Əli bəy Hüseynzadə «süni olaraq ayrıca «pantürkizm», «panislamizm» adları ilə məslək icadına nə lüzum vardır?» - deməklə, həm də «Türk» qəzetinin baş redaktorunun («Türk» qəzetinin baş redaktoru Əli Kamal Yusuf Akçuranın «Üç tərzi-siyasət» məqaləsini tənqid edərək, elə redaktoru olduğu «Türk» qəzetində də «Cavabımız» başlıqlı məqalə dərc etmişdir. Bu məqalədə Əli Kamal Yusuf Akçuranın irəli sürdüyü hər üç fikri tənqid etmiş və göstərmişdi ki, «Nə qədər möhtəşəm, nə qədər əziz olursa olsun, anlaşılmaz, xüsusilə imkansız olduğu üçün biz belə bir Osmanlı millətinin vəhdəti, islam birliyi, türk birliyi kimi fikirləri əməllərimizə hədəf kimi qəbul edə bilmərik, bu yollara əmək sərf edə bilmərik») [183,40]. Bəzi görüşlərinə qatılmış kimi görünməklə bərabər, özünün «panislamizm»ə və «pantürkizm»ə müxalif deyil, tam əksinə, tərəfdar olduğunu anladırdı» [182,40].

Əli bəy Hüseynzadənin bu məqalədə irəli sürdüyü bir çox fikirləri sonralar böyük dramaturqumuz Hüseyn Cavid dram əsərlərində daha da qabarıq şəkildə ifadə etmişdir. Onun «Maral» əsərində oxuyuruq: «Avropalılar böyük İskəndər, böyük Napoleon deyə heykəllər yapdırıyor, bizsə Teymur kimi dahilərə, Çingiz kimi cahangirlərə «quduz canavar» adı qoyuruq» [44].



«Həyat» bağlandıqdan sonra yenə də Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə çap olunan «Füyuzat» jurnalına redaktorluq edən Əli bəy Hüseynzadə burada öz siyasi və fəlsəfi məqalələrini dərc etdirir. Bu məqalələrdə o, məzhəbçilik vasitəsilə Azərbaycan türklərini farslaşdırmağa çalışan paniranizmə, həmçinin çarizmin daha çox vasitə və gücə malik olan ruslaşdırma siyasətinə qarşı türkçülüyü qoyur. Əli bəy Azərbaycan türklüyünün qarşısında əsas güc və dayaq nöqtəsi olaraq məzhəb ayrılığından - sünni-şiəlikdən yüksəkdə duran islam birliyini və Osmanlı dövlətini görür. Ümumiyyətlə, «Füyuzat» jurnalı şiə və sünni ayrılığının aradan qaldırılmasına, Osmanlı-türk mədəniyyətinin tanınması və sevilməsinə çox çalışmış, siyasi baxımdan Osmanlı dövlətini, Osmanlı türklüyünü bağımsız türklüyün nüvəsi saymış, bütün türklər arasında Osmanlı türkcəsinin yayılmasına, bütün türklərin ədəbi dilinin Osmanlı türkcəsi olmasına çalışmışdır» [185,25-84].

Əli bəy Hüseynzadənin tutduğu yol «türklük, müsəlmanlıq və avropalılıq»dır. Bu ideoloji düsturun yaradıcısı da odur. O, islamı ortodoks və mühafizəkar qatdan təmizləməyə, formal mərasim strukturlardan azad etməyə və ən başlıcası, islamı reforma ideyalarına açmaqla daxili əxlaqa və mənəviyyata dayanan fəlsəfə səviyyəsinə yüksəltməyə çalışmışdır. İslam dinini bir qrup işbazın və mühafizəkar funksionerin əlindən alıb ən geniş xalq kütlələrinin ixtiyarına verməyi qarşısına məqsəd qoymuşdu. O, islamı dəyişmək yox, xalqa həqiqi islamı mənimsətmək yolunu tutmuş və bu məqsədlə də «Qurani-Kərim»in ana dilinə tərcüməsi ideyasını irəli sürmüşdür. İslam birliyi tərəfdarı kimi Əli bəy Hüseynzadə göstərirdi ki, islam birliyi - «panislamizm bir məqsəddir ki, nəticəsi cəmi əqvam və məmaliki - islamiyyəyi bir-birinə zəbt edib qayət vasə və həddən ziyadə böyük bir məmləkət, bir hökumət təşkil etməkdir... Müsəlmanlar panislamizm

məqsədinin ətrafına cəm olmağa hərəkət ediyorlar və dəryada qərq olub boğulanlar kimi onun vasitəsilə nicat tapmağa səy və qeyrət ediyorlar» [88,435].

İslam birliyi ideyasından qorxuya düşənlər, xüsusilə ermənilər və ruslar hər vəchlə bu ideyanı pisləməyə çalışdıqları və qərəzli hədyanlar söylədikləri bir dövrdə Əli bəy Hüseynzadə onlara cavab olaraq yazırdı: «Sizi ittifaq və ittihadmı qorxudur? – Biz isə nifaq və düşmənçilikdən qorxuruq... Nifaq və düşmənçilik deyilmidir ki, sizlərlə (ermənilər nəzərdə tutulur – R.Ə.) bizlər arasında bu qədər qan tökülməyə səbəb oldu. Bizim Qafqazda bu nifaq, bu ədavət və qətllər yetmiyormuş kimi bir də ümum islam aləmi içinə dəxi nifaq salıb öz xeyriniz üçün müsəlmanların da biri-digərinin qanını tökməsini istəyirsiniz? Xeyr, sizi qorxudan ittifaq və ittihad deyildir. Bu, zatən min üç yüz ildən bəri mövcuddur. Siz hər nə isə islam aləminin birliyindən deyil, qəflət yuxusundan oyanıb sivilizasiya yoluna düşməsi və maarifə yiyələnməsindən qorxursunuz. Sizi təlaşa salan zənn edirəm ki, bu cəhətdir. Sizin qorxu və təlaşınızla təbii qanunlara sədmi çəkiləcək, zənn edirsiniz. Və ya siz bütün Avropanı təlaşa düşürməklə bizi təhdid etdiyiniz üçün biz: Xeyr, əstəğfürüllah, qələt etdik, biz nə islam aləminin sülh və insaniyyət dairəsində birliyini arzu edir və nə də bu aləmin (islam aləminin – R.Ə.) qəflət yuxusundan oyanıb mədəniyyət işığı ilə ziyalı olmasını istəyirik - deyənlərdənmiyik, zənn edirsiniz... Xeyr. Xeyr! Sizin və bizim və bütün insaniyyətin nicatı və qorunması haqqı bilməkdə, maarif nurunda, mədəni tərəqqidə və daimi təkamüldədir. Etiqadımızca, ancaq bu vasitələrlə insanlar, millətlər, din və məzhəblər arasından nifaq və düşmənçilik, müharibə və döyüş yox edilə biləcəkdir... Bu bir təbiət qanunudur ki, adına «evolyusiya» - təkamül qanunu deyirlər. Biz də bu yol ilə gedirik. Məqsədimiz, amalımız, birlik, bərabərlik, ictimai maarif, xoş güzəran,



sənaye, ticarət və sairə ilə Yer kürəsi üzərində insanlara qismət olan səadətə nail olmaqdır. Menşikov, Mağda, Neman, Çirevanski, «Mşaq», «Arşalyus» və sairə adlı devlər, ifritələr arxadan, sağdan, soldan istədikləri qədər çığır-bağır etsinlər. Biz qorxub geri çəkilənlərdən deyilik» [88,432].

Əli bəy Hüseynzadə erməni iftiralarından olan guya: «Ümummüsəlmanlar, yəni üç yüz milyondan ibarət müsəlmanlar birləşib bu günlərdə (söhbət XX əsrin əvvəllərindən gedir – R.Ə.) çəyirtkə kimi qanadlanıb uçacaq və Rusiya ilə Avropanın üstünə töküləcək, Qərb mədəniyyətini və bəlkə də bütün xristian aləmini bağı ilə, bağçası ilə, əkini ilə, əhalisi ilə yuyub atacaqmış» kimi fikirlərinə cavab olaraq yazırdı: «Yüksəlin, qonşular, yüksəlin! Dar bir nasionalizm dairəsindən dışarı çıxınız. Millətinizin üzvlərini zəlalətə düçar etməyiniz... Bu gün bu qədər... sərvət və var-dövlətinizlə ümum insaniyyəti, hətta bir-iki qonşunuzu belə məsud edəcək içinizdən bir fərd yetişmədi. İçinizdən nə bir Əbu Əli Sina, nə bir Mollayi Rumi, nə bir Uluğ bəy göstərə bilməzsiniz. İki min illik tarixinizi eşələyin, yenə göstərə bilməzsiniz... Yüksəlmədikcə, əxlaqınızı təmizləmədikcə, şovinist xəyalları beyninizdən çıxarıb atmadıqca, ümumi bəşəriyyətə, insaniyyətə İsalar, Məhəmmədlər, Buddalar kimi bir nəzərlə baxmadıqca bir qorxulu həlaka düşüb gedərsiniz» [88,434].

XX əsrin əvvəllərində Əli bəy Hüseynzadənin siyasi-ideoloji və fəlsəfi publisistikasında erməni şovinizminin və öz siyasi məqsədləri üçün onları dəstəkləyən xristian dünyasının rəhbər tutduğu, inad və israrla həyata keçirdikləri konkret tarixi və milli-siyasi proqramların qlobal motivləri, ideya kökləri və strateji hədəfləri, dini, irqi, qövmi və sosial əsasları, mənəvi və cismani terrorları, ikiüzlü, saxta və məkrli üsul və vasitələri təfsilatlı elmi şərhini və təhlilini tapmışdır. Əli bəy

tarixdən və keçmişə səyahətdən gördüyü və götürdüklərini özünün məşhur «Siyasəti-Fürusət» əsərində bütün dünyaya və bütün zamanlara göstərdi. Bu əsər özünə qədərki böyük tarixi və sosial hadisələri özündə birləşdirərək Turanın, İranın, Yaxın və Uzaq İslam Şərqinin bütün dərdlərini özündə əks etdirməklə bütün nəsillərin dərslik kitabına çevrilməlidir. Çünki bu əsərdə Əli bəy Hüseynzadə islam birliyi, türk bütövlüyü ideyasının nəzəri, fəlsəfi, ideoloji-siyasi əsaslarını açıb göstərməklə bərabər, islam dinini dünya miqyasında hərraca çıxaran mürtəce din xadimlərini, Xəzəri şor su kimi ruslara satan İran şahlarını, islam aləminin başı üstündə dolaşan səlib xaçını, Puruşkeviçin timsalında çar Rusiyasının müstəmləkəçilik siyasətini siyasi parodiya, fəlsəfi kinayə və həcv ilə ifşa edir, məhşər ayağına çəkirdi.

İstibdadın, çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinin ifşası, İran Məşrutə inqilabının tərənnümü, İran mütləqiyyətinin zülm və cəhalətinin tənqidi, Əmir Teymurun müsəlman xalqlarını və torpaqlarını islam bayrağı altında birləşdirməsi, türk sülalələrindən Səfəvi hökmdarı Şah İsmayıl Xətainin islam ideologiyası ətrafında İran, İraq və Azərbaycan xalqlarını birləşdirərək mərkəzləşmiş dövlət yaratması, yadellilərə qarşı mübarizə aparıb İranı və Azərbaycanı əsarətdən qurtaran Azərbaycan türklərinin Əfşar tayfasından olan Nadir şah Əfşarın müsəlman ölkələri arasındakı sünni-şiə ixtilafına son qoymağa çalışması və sairəni əks etdirən «Siyasəti-fürusət» əsəri ilə Əli bəy Hüseynzadə müsəlman xalqlarını ayıltmağa, onlarda milli şüuru oyatmağa çalışmışdır. Bütün bunları nəzərə alan Əli bəy Hüseynzadə «əsərlərində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşməni kimi ifşa və tənqid etməklə yanaşı istiqlaliyyət və azadlıq uğrunda mübarizəyə başlamış müsəlman və türk xalqlarını vahid ideya – islam birliyi ideyası ətrafında birləşməyə çağırırdı» [67,3].



«Türk qanlı, müsəlman etiqadlı, avropa fikirli» fədailər yetişdirmək missiyasını üzərinə götürən, islam və türk birliyi uğrunda ömrünün sonunadək mübarizə aparan», bütövlükdə islamın yaddaşına, türklüyün tarixinə çevrilən, şəxsi tərcümeyi-halı ilə Əli bəy doğrudan da, elə bir ömür yaşadı ki, bu ömür bitəndə o özü məmnun, aləm isə məğmun və pərişan oldu» [88,448].

Şeyx Cəmaləddin Əfqaninin mütərəqqi islami ideyalarından bəhrələnənlərdən biri də türkçülüyün ideoloqu, ilk böyük türk sosioloqu, universal mütəfəkkir, Əli bəy Hüseynzadənin irəli sürdüyü «türkləşmək, islamlaşmaq, avropalaşmaq» düsturunu «türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi proqram halına salan Ziya Göyalpdır.

Özündən əvvəlki istər mühafizəkar, istərsə də liberal islamçılardan fərqli olaraq «islam həm din, həm də millətdir» kimi islamın təməl prinsiplərindən biri saydıqları «din və millət birdir» ifadəsinin əksinə olaraq Ziya Göyalp göstərirdi: «İslam birliyi tərəfdarlarına görə, millət, bütün müsəlmanların məcmuu deməkdir, ... eyni dində olan insanların bütününə *ümmət* adı verilir. O halda müsəlmanların bütünü də bir *ümmətdir*. Yalnız dildə və mədəniyyətdə müştərək olan millət isə bundan (ümmətdən – R.Ə.) ayrı bir şeydir» [207,20-87].

Ziya Göyalp dinə bağlı olan millətlərarası birliklərin əvəzinə elmə dayanan gerçək bir millətlərarası birliyin vacibliyindən bəhs edir və deyirdi: «Müəyyən müddətdən bəri müasir alətlərlə texnikanın inkişafından doğan müasir mədəniyyət pozitiv elmlərə dayanan yeni bir millətlərarası birlik yaratmaqdadır... Yəni bu gün türk xalqı Ural-Altay ailəsinə, islam inancına, Avropa millətlərarası birliyinə bağlı bir toplumdur» [206,28-29].

Göründüyü kimi, Ziya Göyalpın millət anlayışı istər tənzimatçıların, istər osmanlıçıların, istər islam birliyi tərəfdarlarının millət anlayışından əsaslı şəkildə

fərqlənərək daha çox Şeyx Cəmaləddin Əfqaninin, Əhməd bəy Ağaoğlunun, Yusuf Akçuraoğlunun fikirləri ilə eyniyyət təşkil edir. Öz tədqiqatlarına fəlsəfi yöndən yanaşan Ziya Göyalpa görə türkçülük ideologiyasının təməl prinsiplərindən olan islamlaşmaq iki baxımdan gərəklidir: birincisi, islam mədəniyyəti ilə çulğalaşmış türk toplumunu bu mədəniyyətdən təcrid etmək lazım deyil və heç mümkün də deyil. İkincisi, millətin millət olmasında dinin də öz xüsusi yeri var.

Ziya Göyalp göstərirdi ki, türklərin hamısı müsəlman olduğu üçün türkçülər heç bir zaman islam dininə zidd olan heç bir münasibət bəsləməyərək, müasirliyi qəbul etdikləri üçün də müsəlman olmayan xalqlara sayğı ilə yanaşmağı qoruyub saxlayacaqlar.

Göyalp öz müəllimi Dürkheymə əsaslanaraq göstərirdi ki, əxlaq, hüquq, siyasət, məntiq, estetika, iqtisadiyyat kimi qurumların hamısı dindən törəmişdir. Bu anlamda islam dini bir islam türk tarix fəlsəfəsi də meydana gətirmişdir ki, Orta əsr bütün türk dövlətləri bu fəlsəfəyə biganə yanaşdıqlarından türklüyün xeyrinə istifadə etməmişlər.

Ziya Göyalpın üç cərəyanı – türkləşmək, islamlaşmaq, müasirləşmək – birləşdirmək fikri ittihad və tərəqqiçilərin izlədiyi siyasətə uyğun gəldiyindən tezliklə bütün türk dünyasına yayılmış, özünə çoxlu tərəfdarlar qazanmışdı. İslamlaşmaq tezisi «bir tərəfdən dövrün hadisələrini getdikcə daha gerçəkçi bir yöndən açıqladığından türkləşməklə bir birləşmə nöqtəsi bulmağa səy göstərilmiş», digər tərəfdən də «islami gerçəklərin ən parlaq bir şəkildə təzahür etməsinə» yol açmış, bütövlükdə türklüyə xidmət etmişdir [201,4].

«Türkləşmək, islamlaşmaq, müasirləşmək» ideoloji sistemini qəbul edən və onu dövlət ideologiyası səviyyəsinə qaldıran siyasi xadimlərimizdən biri də Məmməd Əmin Rəsulzadədir (1884-1955).



Bəllidir ki, Azərbaycanda milli azadlıq hərəkatı ilk öncə ümmətçiliklə başlamış və ilk siyasi təşkilat da «Ümmət» adlanmışdır. Hətta o dövrlərdə millətimizə «türk» deyil, «tatar»dan çox «müsəlman», dilimizə «türk dili» deyil, «müsəlman dili», hətta cəmiyyət və məktəblərimizə belə «müsəlman cəmiyyətləri, müsəlman məktəbləri» deyilmişdir. İlk dəfə siyasi-ideoloji anlamda millət və milli dil anlayışlarını siyasi publisistikaya milliyyətçi türklər gətirmişlər. «Türk yurdu» cəmiyyətinə daxil olan, Şeyx Cəmaləddin Əfqaninin «Vəhdəti-cinsiyyə»...» fəlsəfi traktatını türkcəyə tərcümə edən Məmməd Əmin Rəsulzadə türk millətçilərindən «Türklüyü» əxz edərək «Açıq söz» qəzetində ilk dəfə olaraq «müsəlman» və «tatar» sözlərini «türk» sözü ilə əvəz edərək «millətə: Sən Türksən!, rus hökumətinə isə: Biz Türkük! - deyə xitab etdi. Bu sürətlə Məmməd Əmin Rəsulzadə «ümmət» və «ümmətçilik» dövrünü rəsmən qapatmış, «millət», «türk» millətçiliyi» dövrünün başlandığını elan etmişdir» [44,52]. Bütün bunlara baxmayaraq, Bakıda ruhani ailəsində anadan olan, Şərq fəlsəfəsinə dərindən bələd olan, ideoloji baxımdan ilk əvvəllər sosial-demokrat olan Məmməd Əmin Rəsulzadənin islam dininə baxışı milliyyətçilərlə eyniyyət təşkil edir. O, islam birliyi tərəfdarlarının, xüsusilə ittihad və tərəqqiçilərin arasında olsa da dini və milli mənada islam birliyi ideyasını qəbul etməmiş və göstərmişdi ki, müştərək din və mədəniyyət sahibi olan millətlər arasında bütün müsəlmanları bir məkanda birləşdirən islam birliyi ola bilməz. İslam Birliyi mümkün olmayacaq bir xəyaldır».

Məmməd Əmin Rəsulzadə də Cəmaləddin Əfqani kimi «İslam Birliyinin Federasiya» formasını qəbul edir və hətta buna inanaraq yazırdı: «Bütün türklərin, bütün ərəblərin, bütün farsların ictimai bir vücud kimi birləşmələri mümkün, həm də istənilən bir haldır.

Müsəlman olan millətlər... bir hökumət halına gəldikdən sonra ittihad deyil, İslam İttifaqı ola bilər» [95,148].

Qeyd etmək gərəkdir ki, ictimai-fəlsəfi fikir tariximizdə millət, milliyyət, dil, din, əxlaq, mənəviyyat kimi milli ideologiyamızın əsasını təşkil edən amilləri heç kim M.Ə.Rəsulzadə kimi sistemli şəkildə işləməmişdir. Onun 1914-cü ildə «Dirilik»də çap etdirdiyi «Dirilik nədir?», «Milli dirilik», «Millətin bir rüknü də dindir» adlı silsilə yazıları bütünlüklə bu məsələlərə həsr edilmiş, daha sonra 1915-ci ilin oktyabrından nəşrə başlayan «Açıq söz» qəzetindəki əksər yazıları «türkləşmək, islamlaşmaq, müasirləşmək» məfkurələrinin mahiyyətini açıqlamağa həsr edilmişdir. Öz sələfləri kimi İslam dinində islahat tərəfdarı olan M.Ə.Rəsulzadə yazırdı: «Dinimizin iki cənbəsi (tərəfi) vardır: ibadət və üsul. Birinci qisim bəndə ilə Allaha aiddir. İkinci qisim isə bəndə ilə bəndələrə məxsusdur. Birinci qisim sabitdir. Qiyamətə qədər əbədidir. Dəyişikliyə uğramaz, ikinci qisim isə əksinə, bir şəkildə qala bilməz. Təfsir və zamanın tələbinə görə dəyişilə bilər. Bu nöqteyi-nəzərdən şəxsi təfəkkürün qapısı bağlana bilməz. Şəxsi düşüncə millətlərin ictimai həyatlarında daima möhtac olduqları zəruri bir şeydir. Çünki həyat gün-gündən dəyişir. Şəxsi düşüncə də tərəqqi etməlidir. Müctəhidləri tənqid etmək mümkündür. Qayda-qanunlara, üsullara aid xüsusiyyətlər hər zaman dəyişə bilir və dəyişməlidir... Müsəlman aləmini bərbad edən ən böyük xəstəliklərdən biri də ayr-ayrı fikirlərə hürriyyət vermədiyi, yeni fikir və düşüncələri eşitməyə dözümsüzlüyüdür...Halbuki fikirlərin mübahisəsindən həqiqət qığılcımı doğular» [134].

Milli birlik üçün dinin rolunu yüksək qiymətləndirən M.Ə.Rəsulzadə göstərirdi: «Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan daha təsirli bir qüvvə şəklini də ala bilər... Din bir millətin dilinin əbədi qalmasına və bu münasibətlə milliyyət fikri və amalının inkişafına səbəb olur... Millətin bir ... dövrü vardır ki, o zaman hər şeyə ancaq dini bir qüdsiyyət nöqteyi-nəzərindən əhəmiyyət verir. Bu qüdsiyyətidiniyyə etiqadı onu (milləti - R.Ə.) bir çox bəlalardan mühafizə etmək xassəsinə malikdir... Din təəssübü olmasaydı, ehtimal ki, pobedonosevçilərin təmsil etdikləri politikası indiki natamam nəticələrə deyil, daha parlaq müvəffəqiyyətlərə nail olacaqdı» **[129,480]**.

Məmməd Əmin Rəsulzadənin və bütövlükdə mütərəqqi Azərbaycan maarifçiliyinin «islamlaşmaq» tezisi hər şeydən əvvəl xurafatdan azad olan təlim idi. Bu təlim hər şeydən əvvəl, ortodoks dini ideologiyaya, mövhumata və xurafata qarşı çıxa bilməyin də optimal forması idi. Məhz bu baxımdan Şeyx Cəmaləddin Əfqani tərəfindən irəli sürülən və türk dünyasının ictimai-siyasi xadimləri tərəfindən ideoloji-fəlsəfi və hətta dövlət siyasəti səviyyəsinə qaldırılan «islamlaşmaq» dini müasirləşdirmək, dində islahat ideyasını irəli sürmək o dövrdə böyük cəsarət, dərin elm tələb edirdi. Xurafat və mövhumatı həqiqi dindən fərqləndirmək, islama əsaslanan maarifçiliklə axundların, mollaların korladığı islama qarşı çıxmaq, elmi dinlə, dini müasirliklə və milliyyətçiliklə birləşdirə bilməklə onlar yaşadıqları cəmiyyəti müasirləşdirmək üçün Quranın cəmiyyətdəki böyük təsir gücündən bacarıqla istifadə edərək belə bir mükəmməl təlimi meydana gətirə bildilər. Şeyx Cəmaləddin Əfqaninin «Dində, əqidədə birlik», İsmayıl bəy Qaspıralının «Dildə, fikirdə, işdə birlik», Əli bəy Hüseynzadənin «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq», Məmməd Əmin Rəsulzadənin «Milliyyət, beynəlmiləliyyət, əsriyyət» ideyaları, nəhayət, 1918-ci ildə Şərqdə, ilk dəfə Azərbaycanda öz bəhrəsini verdi. Azərbaycan Xalq Cümhuriyyəti bu ideoloji sistem əsasında yarandı. Azərbaycan Xalq Cümhuriyyətinin, bütövlükdə türk dünyasının qəbul etdiyi və rəhbər tutduğu bu mənəvi

meyarlar – islam, türk və müasirlik dəyərləri ilk dəfə olaraq rəsmi-ideoloji doktrina, dövlət siyasəti səviyyəsində əməl, iş proqramı kimi elan və qəbul olundu. Üçrəngli rəsmi dövlət bayrağı əvvəldə də qeyd olunduğu kimi, bu ideoloji sistemi özündə əks etdirdi. Azərbaycanın milli istiqlalını, ərazi bütövlüyünü, Respublika statusu üçün potensial tarixi əsasını, inzibati və siyasi modelini də bu ideoloji doktrina bəxş etdi. O həmçinin xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, təzahürü və yüksəlişi üçün fəlsəfi-estetik təməlini, nəzəri əsasını, milli tərəqqi təlimi və konsepsiyasını verdi. Bu ideoloji doktrina türklüyün ilk öncə Osmanlı imperatorluğu və çar Rusiyasında, daha sonra isə Türkiyə və Sovet İttifaqında yenidən mərkəzləşib, yeni keyfiyyət qazanmasına səbəb oldu. 1923-cü ildə yaranan Türkiyə Respublikası, 1991-ci ildə isə yaradılan müstəqil Azərbaycan Respublikası yenidən bu ideoloji sistemə sahib çıxdı.

### § 3. Milli özünüdərk və türkçülük ideyası

Türkçülük ideyası türkdilli xalqlar dünyasında əsaslı olaraq XX əsrin əvvəllərində təşəkkül taparaq milli ideologiya səviyyəsinə yüksələ bilmişdir. Bu dövr Türkiyənin yeni tarixi inkişaf mərhələsinə qədəm qoyması, müsəlman Şərqində təsiredici nüfuz dairəsinin getdikcə artması ilə əlamətdardır.

Türkçülərin ilk tarixi xidmətlərindən sayılan türk milliyyətçiliyini canlandırmaq görkəmli türkoloqların adı ilə bağlıdır. Onların yaratdığı və türkologiya adlanan bu elm sahəsinin təsbit etdiyi dünya türklərinin tarix, dil və mədəniyyət birliyi ideyası türkdilli xalqların ictimai və siyasi müqəddəratının həllində mühüm rol oynadı. Belə ki, Osmanlı imperatorluğunun əvvəlki əzəmətini itirməsi, Nadir şahın ölümü ilə Azərbaycanın xanlıqlara bölünməsi, Osmanlı imperatorluğunun tərkibinə daxil olan xristianların Qərbi Avropa və çar Rusiyasının himayəsi və yardımı ilə öz müstəqilliklərini əldə etməsi, çar Rusiyasının Azərbaycanın Şimalını işğal edərək öz imperiyasına qatması, Avropa və çar Rusiyasında yeni bir elm sahəsinin – türkologiyanın yaranmasına təkan verdi. Türkologiya elminin yaranması tarixə yeni bir baxışın meydana gəlməsi, türklərin islamiyyətdən öncəki tarixlərinə sanki yenidən qayıdışı, kəşfi demək idi. Qədim hunların, göytürklərin və uyğurların böyük dövlət və mədəniyyətlərinə aid tarixi əsərlərin, göytürk kitabələrinin, Mahmud Qaşqarlının «Divanü Lüğət-it-türkü», Yusif Xas Hacib Balasağunlunun «Qudatqu Bilik» əsərlərinin əldə edilməsi və nəşri türk ziyalılarına ciddi təsir etdi və onların özlərinə inamını artırdı.

Daha sonralar Süleyman paşanın «Tarixi-Aləm», Buxaralı Şeyx Süleyman Əfəndinin «Lüğəti-Cağatay və Türkiyi Osmanlı» əsərləri, J.de Guignesin «Hunların, Türklərin, Monğolların və digər Tatarların Tarixi – Ümumisi» adı ilə türkcəyə tərcümə edilən əsəri, Artur Zumneu Davidçinin «Türk dilinin qrameri», Leon Cahunun «Asya tarixinə giriş: türklər, moğollar və onların mənşəyi» adlı əsərinin Nəcib Asim bəy tərəfindən əlavələrlə nəşri, Radlov, Tomson, Vamberi, von Loçoq və başqalarının araşdırmaları türk ziyalıları arasında tarixi və milli şüurun formalaşmasında mühüm rol oynadı. Xüsusilə macar türkoloqlarının işləri türk ziyalılarında türk milli şüuru ilə yanaşı romantik bir turan şüuru da yaratdı.

Süleyman paşa «Tarixi-aləm» (Dünya tarixi) adlı əsərinin başlanğıcında qeyd edir: «Hərbi məktəblərin başına keçincə bu məktəblərə lazım olan kitabların tərcüməsini mütəxəssislərə tapşırdım. Fəqət sıra tarixə gəlincə, bunu tərcümə yolu ilə yazdırıla bilməyəcəyimi düşündüm, çünki Avropada yazılan bütün tarix kitabları

həm dinimizə, həm də millətimizə (türklərə) aid iftiralarla doludur. Bu kitablardan heç birini tərcümə etdirib məktəblərimizdə oxutdurmaq olmaz. Ona görə də məktəblərimizdə oxunacaq tarix kitabının yazılması işini mən öz üzərimə götürdüm. Yazıb tamamladığım bu kitabda həqiqətə uyğun olmayan heç bir sözə təsadüf olunmadığı kimi, dinimizə və millətimizə zidd heç bir sözə də rast gəlmək mümkün deyil» [207,8].

Tarix fəlsəfəsi professoru Əhməd Vəfik paşanın universitetdəki elmi və sənət türkçülüyünü Süleyman Paşa hərbi məktəblərdə yaratdı. Bundan əlavə, Süleyman Paşa o dövrdə «Təlimi - ədəbiyyati Osmaniyyə» adlı bir kitab nəşr edən Rəcaizadə Əkrəm bəyə yazdığı bir məktubda: «Osmanlı ədəbiyyatı demək, doğru deyildir. Necə ki, dilimizə «Osmanlı dili» və millətimizə «Osmanlı milləti» demək də yanlışdır. Çünki «Osmanlı» təbiri yalnız dövlətimizin adıdır. Millətimizin adı isə yalnız türkdür. Buna görə dili də türk dilidir, ədəbiyyatımız da türk ədəbiyyatıdır» [207,8], - deyərək «türkçülük» məfkurəsinin yaradıcılarından oldu.

İlk öncə macarlar tərəfindən işlədilən «turançılıq» anlayışı siyasi mənası ilə türk mənşəli bütün xalqların Türkiyənin hakimiyyəti və ya himayəsi altında birləşmələri və siyasi bir birlik qurmaları kimi təqdim edilirdi. «Turançılığı» başqa bir adla, «pantürkizm» adı ilə təqdim edərək onu «panslavyanizm» və «pangermanizm» ilə eyniləşdirməyə də çalışırdılar. Siyasi mənada türkçülüyü ilk dəfə olaraq ingilislər «panturanizm» kimi təqdim etmişlər. Türklərin Cənubi Azərbaycana girmələri, Qafqazda, Rusiya ərazisində, Orta Asiyada müsəlman türkləri hərəkətə gətirmələri və nəhayət, türkçülük cərəyanının Əfqanıstana və Hindistanın şimalına qədər yayılma ehtimalını nəzərə alan ingilis ziyalı dairəsini türk xalqları və türkçülük cərəyanları ilə məşğul olmağa ciddi sövq etmiş və onlar tərəfindən «pantürkizm» adı altında müxtəlif



raportlar hazırlanmış, çoxlu məqalələr çap olunmuş və əlaqədar təşkilatlara təqdim edilmişdi. Beləliklə, əzilməyə məhkum edilmiş türk xalqlarını oyadıb əsarətdən xilas etmək məqsədi ilə ortaya çıxan türkçülük ideologiyası türkün düşmənləri tərəfindən mürtəce və təhlükəli mənada «pantürkizm» və «panturanizm» kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı hər vəchlə alınmağa səy edilimşdir. Və etiraf edilməlidir ki, türk düşmənləri buna qismən də nail ola bilmişlər. Bu cür mənfur antitürk siyasətindən, «pantürkizm» əleyhinə aparılmış mübarizədən sonralar, totalitar sovetlər dövründə ən çox Azərbaycan türkləri əziyyətlər çəkmiş, çoxlu qurbanlar vermişdir.

Siyasi və hərbi hadisələrin bir-birini sürətlə təqib etdiyi XX əsrin əvvəllərindən etibarən türkçülük ideologiyası həqiqətən də türkləri turançılığa qovuşduracaqdı. Çünki bu cərəyan yalnz Türkiyədə deyil, çar Rusiyasında və Cənubi Azərbaycanda da artıq yayılmış, özünə lazımi səviyyədə tərəfdarlar qazana bilmişdi.

Türkçülük dünyagörüşünün bəzi əsasları Azərbaycanda hələ XIX əsrin ikinci yarısından -Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi, Krımda İsmayıl bəy Qaspıralı tərəfindən təsbit edilmiş və tətbiqinə başlanmışdı.

M.F.Axundovun fəlsəfi dünyagörüşü, sosial-siyasi, etik və estetik idealları, ədəbi-tənqidi görüşləri, dram əsərləri yuxarıda qeyd olunduğu kimi, özündən sonra böyük bir mədəni-ideoloji hərəkatın yaranmasında, Azərbaycanda və bütövlükdə türk dünyasında Qərbyönlü maarifçilik ordusunun təşəkkül tapmasında mühüm rol oynamışdır.

Təbiidir ki, siyasi anlamda M.F.Axundovu türkçü adlandırmaq olmaz. Lakin onun milli mədəniyyətimizin iftixarı olması, yaşadığı dövrün tələblərini, nəbzini duyması, mədəniyyətimizin bir çox sahələrində yeni söz de-

məsi, yeni yol açması, ictimai-siyasi fikrimizin milli məcrada formalaşmasında müstəsna xidmətləri onu türklər arasında milli mədəni birliyin ilk yaradıcılarından biri səviyyəsinə yüksəltmişdir. Elə bunun nəticəsidir ki, özündən sonrakı bütün milli ziyalılar, türkçülük ideyalarının daşıyıcıları onu ilk türkçülərdən saymış, ondan iftixarla bəhs etmişlər. Ən böyük türkçülərdən sayılan Ziya Göyalp yazır: «Türkiyədə Əbdülhəmid bu qüdsi axını (türkçülük nəzərdə tutulur – R.Ə.) durdurmağa çalışarkən Rusiyada iki böyük türkçü yetişirdi. Bunlardan birincisi Mirzə Fətəli Axundzadədir ki, azəri türkcəsində yazdığı orijinal komediyalar bütün Avropa dillərinə tərcümə edilmişdir» [207,9].

M.F.Axundov indiki mənada deyilən türkçülük ideoloji sistemində türkçülüyə və müasirləşmək ideyalarına üstünlük vermiş, islamlaşmaq məfkurəsini nəinki qəbul etmiş, hətta bir materialist-ateist kimi «bütün dinləri puç və əfsanə hesab etmiş»di. Lakin bunu da qeyd etmək lazımdır ki, o, əsla islamın əsaslarını, Allahı, Quranı inkar etməmiş, İslamda modernizmin, başqa sözlə, həqiqi İslamın və xalqın tərəqqisinə səbəb ola biləcək bir dinin tərəfdarı olmuşdur. Bu, əlbəttə ki, ayrıca bir mövzunun predmetidir.

Azərbaycan xalqı XIX əsrdə özünəməxsus bir milli inkişaf dövrü keçirmişdir. Bu dövrün ən xarakterik cəhəti öncəki fəsildə göstərildiyi kimi, maarifçiliyin mədəni-ideoloji hərəkat kimi meydana çıxmasıdır. Təbiidir ki, qabaqcıl maarifçilər doğma xalqının yadellilər, dili dilindən, dini dinindən, mədəniyyəti mədəniyyətindən fərqli olan bir millət tərəfindən istismarını əsla həzm edə bilməzdi. Ölkənin işğalı, xalqın hər an təhqirlərə məruz qalması, xalqın bütün fərdlərinə rus imperiyasının üçüncü dərəcəli təbəəsi kimi yanaşılması, bütün imtiyazlarının əlindən alınması milli şüurda bir oyanış yaratdı. Özündən əvvəlki əsrlərdə barmaqla sayılan milli ziyalılar artıq XIX əsrin ikinci yarısından yeni-yeni qüvvələr kəsb edir, mühüm sosial təbəqə kimi formalaşırdı.

M.F.Axundov başda olaraq bu dövrün qabaqcıl milli ziyalıları çoxcəhətli elmi-bədii, publisistik yaradıcılıqları, pedaqoji fəaliyyətləri ilə xalqımızın vətənpərvərlik şüurunun, milli özünüdərkinin təşəkkülündə mühüm rol oynamışdır. Y.V.Çəmənzəminli yazırdı: «M.F.Axundov milli ədiblərimizin atasıdır. Çünki milliyyət hissi birinci dəfə olaraq bu ədibdə oyanmışdır və intibahın dəlili olan kritisizm də M.F.Axundovun əsərləri ilə başlayır. Şair Zakir Axundovla bərabər...gələcək üçün yollar təmizləmiş, milli inkişaf üçün böyük sahələr hazırlamışlar...» [159,425].

H.Zərdabi və onun məsləkdaşları olan Nəcəf bəy Vəzirov, Əhsənül-Qəvaid, Əsgər Corani, Ələkbər Heydərli, Seyid Əzim Şirvani və başqaları Mirzə Fətəli Axundov kimi xalqın başa düşə bildiyi sadə, aydın, təmiz ana dilində yazıb yaratmaqla türkçülük məfkurəsini əməli şəkildə həyata keçirirdilər. Zərdabi və məsləkdaşlarının Azərbaycan türkcəsinə münasibəti, bu dilin saflığı, təmizliyi, varlığı uğrunda böyük səy və qeyrəti, ardıcıl mübarizəsi dilləri türk xalqı tərəfindən anlaşılmayan «Osmanlılar»a bir cavab, dildə türkçülərə bir cığır idi.

«Əkinçi» qəzetinin 1875-ci il 10-cu nömrəsində oxuyuruq: «Dünyada xəlq olunan millətlər öz lisanlarına ana lisanı deyib ol lisan ilə ... insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanın dəxi əsası millət olduğundan (hər) bir kişiyə vacibdir ki, daima onun irəli getməsinə canını fəda etsin və millətin xidmətində bulunmayan kişiyə bir kəs yaxşı deməyəcəkdir» [50,240].

Qəzet «ana dilində təhsili-üluma məşğul olmağa» çağırır, ana dilində qəzet və jurnal oxumağın vacibliyini xüsusi qeyd edirdi: «Qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir» [50,240].

«Əkinçi» qəzeti Azərbaycan türk ədəbi dilinin milli dilə çevrilməsində və mətbuat üslubunun formalaşmasında həlledici rol oynamışdır.

1879-cu ilin yanvarında daha bir millət fədaisi - Səid Əfəndi Ünsizadənin səyi və redaktorluğu ilə Tiflisdə Azərbaycan türkcəsində həftəlik ədəbi, ictimai-siyasi, elmi «Ziya», 1882-1884-cü illərdə əvvəlcə Tiflis, sonra isə Şamaxıda «Ziyayi-Qafqaziyyə» qəzetləri, 1883-cü ildə Cəlal Ünsizadənin rəhbərliyi ilə Azərbaycan türkcəsində «Kəşkül» adlı ilk ictimai-siyasi jurnal («Kəşkül»ün 1884-cü ilin mart ayına qədər 11 nömrəsi çap edilmiş, sonra o həftəlik qəzet kimi fasilələrlə 1891-ci ilədək çıxdıqdan sonra nəşri dayandırılmışdır – R.Ə.) nəşr edilmişdi. «Əkinçi» qəzetinin ənənələrinə sadiq qalan həmin mətbuat orqanları səhifələrində mühüm ictimai və siyasi məsələləri işıqlandırmaqla milli oyanışa rəvac vermişlər.

«Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə» və «Kəşkül» ənənələrini yaşatmaq və yeni tarixi şəraitdə Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi ideyalarını inkişaf etdirmək şərəfi milli azadlıq hərəkatımızın və ən başlıcası, milli dövlətimizin qurucularına müyəssər oldu.

Türkçülükdən yazarkən İsmayıl bəy Qaspıralının həyat və fəaliyyətindən bəhs etməyən tədqiqatçı yoxdur. İlk öncə onu qeyd edək ki, onun türkçülüyə etdiyi böyük xidməti əslində fövqəladə yaradılışındandır. İsmayıl bəy Qaspıralı (1851-1914) 1880-ci illərdə Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi ideyalarını düstur formasına salaraq «dildə, fikirdə və işdə birlik» şəklinə salmış və bu konsepsiya çar Rusiyasındakı türk xalqları arasında sürətlə yayılmışdı. Onda türkçülük milli hissin, milli şüurun oyanışı türklər əleyhinə çevrilmiş yazılarda rus «panslavyanizmi»nə sanki təpki və dirəniş kimi qələmə verilirdi. İlk yazılarını İstanbulda yazaraq Moskva və Peterburqda rus qəzetlərində nəşr etdirən İsmayıl bəy, nəhayət, «Русское Мусульманство» adlı 45 səhifəlik silsilə yazıları ilə mənsub olduğu millətin yalnız tatarlardan deyil, bütün dünyadakı türklərdən ibarət olması fikrini irəli sürür, Asiya və Avropada yaşayan türklərin vahid bir millət kimi «dildə, fikirdə və işdə birliyi» ideyasını gündəmə gətirir, türk-tatar millətini məhv olmaqdan qurtarmaq üçün yollar axtarır və bütün mənalı həyatını bu işə sərf edir.

İsmayıl bəyin türkçülüyünün əsasında onun türk-tatarlar üçün ana dilində Avropa tipli məktəblərin açılması, tədrisin ana dilində aparılması, ana dilində kitabların, dərsliklərin, elmi ədəbiyyatların, qəzet və jurnalların yazılması, nəşri, türk-tatarlarının yeni sənət və texnologiyalara yiyələnməsi istəyi dayanır. Bütün bunların yollarını o, nəşr etdirdiyi və «Şimal türklərinin ilk bəyaz bahar çiçəyi» olan anadilli «Tərcüman» qəzetində göstərdi. «Dildə, fikirdə, işdə birlik» prinsipini «Tərcüman» qəzetinin şüarına çevirən İsmayıl bəy təkcə yazı yazmaqla kifayətlənməyib «hər il türk dünyasının müxtəlif yerlərinə səyahətlər edərək Türkiyə, Qafqaz, Türküstan, Qazan, Qasım (Tatarıstanda) və hətta Litvanı gəzərək oralardakı türk-tatar aristokratları, zənginləri, alimləri, yoxsulları ilə görüşərək fikir mübadiləsi aparır, Çindən Almaniyaya, Şimal Buzlu okeandan Afrikaya və Hind Okeanına qədər Türk və İslam aləminin aydınlarıyla eyni məsələlər üzərində xəbərləşirdi» [182,73].

Bütün türklərin dildə, fikirdə, işdə birliyini təmin etmək üçün İmayıl bəy konkret olaraq ibtidai və orta məktəblərdə türk dilinin tədrisinə dair proqram hazırlamış və bu proqram Avropa tipli «Üsuli-cədid»lərdə tətbiq olunmuşdu. Bu proqramın məqsədi türklər üçün vahid «ədəbi dil» və ya «Ümumi türk dili» yaratmaq olduğundan o, sonda türklərin fikir və iş birliyini təmin edəcəkdi ki, bu da ən böyük türkçülükt demək idi. Doğrudan da, İsmayıl bəy Qaspıralının «dildə, fikirdə, işdə birlik» prinsipi bütün türkçülük məfkurəsinin dil, ədəbiyyat, so-

siologiya və hətta siyasət sahəsində özünə qədərki bütün məsələləri özündə birləşdirmiş, özündən sonrakı bütün türkçülərə öz təsirini göstərmişdir. Açıq etiraf etmək gərəkdir ki, İsmayıl bəyə qədər bu fikri heç bir türkçü – nə Osmanlı, nə Qafqaz və nə də Qazan türkçüləri bu qədər açıqlıqla, əzm və israrla istər nəzəri, istərsə də praktik cəhətdən davamlı şəkildə həyata tətbiq edə bilməmişlər. Bunun nəticəsidir ki, İsmayıl bəy Qaspıralını ondan sonrakı bütün türkçülər «türkçülük» ideologiyasının mərkəzi siması saymış, onu «ümumtürk dili»nin atası hesab etmişlər.

Türkçülüyün yayılması və bütün türk xalqlarını əhatə edən böyük bir ideoloji cərəyan halına gəlməsində, şübhəsiz ki, çar Rusiyasında yaşayan bütün türk ziyalılarının payı vardır. Qaspıralı İsmayıl bəylə başlayan türkçülük cərəyanı genişlənərək Azərbaycan, Qazan və Türküstana qədər yayılmışdı. Rus millətçiliyi və şovinizminə qarşı yaranan türkçülüyü imperiyadakı türk ziyalıları və mütərəqqi din adamları özləri üçün bir mədəni və siyasi-ideoloji doktrina olaraq qəbul etmişdilər. Alman və italyan millətçiliyinin təsiri ilə də meydana gələn «türkçü-millətçilik» hərəkatında, türkçülük ideyasının yayılması və dərinləşməsində təhsilini Türkiyə və Fransada almış əslən Azərbaycan türklərindən olan Əli bəy Hüseynzadənin (1864-1940) və təhsilini Peterburq və Parisdə almış Əhməd bəy Ağayevin böyük xidmətləri olmuşdur.

İstanbula gəldikdən sonra «İttihadi-Osmanlı» Cəmiyyətinin qurucuları olan İshak Sükuti, İbrahim Temo, Mehmet Rəşid, Abdullah Cövdət və başqaları ilə yaxından tanışlığı və daha sonra «İttihad və Tərəqqi» cəmiyyətinə üzv olması Ə.Hüseynzadənin ideoloji-siyasi bir türkçü kimi yetişməsinə gətirib çıxarmışdır. «İttihad və Tərəqqi» Cəmiyyətinin davamlı təqiblərə məruz qalması Əli bəy Hüseynzadənin 1903-cü ildə Azərbaycana dönməsinə səbəb olmuşdur. Bu dövrdə o, çar Rusiyasına qarşı



Azərbaycan türklərinin haqlarını qorumaq məqsədi ilə Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə rus dilində çap olunan «Kaspi» qəzetində, Qahirədə nəşr olunan «Türk» qəzetində, daha sonra «Həyat» qəzetində türk birliyini, islam ideologiyasını təbliğ edən sanballı elmi məqalələr çap etdirmişdir. Daha sonra Zeynalabdin Tağıyevin dəstəyi ilə redaktoru olduğu «Füyuzat» jurnalında «Turanı», «İndicani», «Salyani» və «A.H.» imzaları ilə məqalələr yazan Əli bəy Hüseynzadə «türkçü bir həyatı, islama hörməti əsas götürərək Avropa mədəniyyətindən faydalanmağı təməl görüş kimi qəbul etmişdir [181,23].

Əli bəy Hüseynzadə «Füyuzat» (1906-1907) jurnalı ilə türkçülüyə təkcə ideoloji yöndən deyil, mənəvi cəhətdən də xidmət etmiş, ən başlıcası isə Məhəmməd Hadi, Krımlı Səbri Eyvazoğlu, Sənətullah Rafətoğlu və b. kimi dəyərli şəxsiyyətləri ortaya çıxarmış, onların tanınmasında əvəzsiz xidmətlər göstərmişdir. «Füyuzat» jurnalının qapadılmasından sonra Əli bəy Hüseynzadə «İrşad», «Tərəqqi», «Həqiqət» və s. kimi qəzetlərdə müxtəlif səpkili məqalələr çap etdirmiş, «Səadət» məktəbinin, «Füyuzat Darül-Müəllimi»nin müdiri və müəllimi olmuş, Azərbaycan türklüyünün oyanış və inkişafında əvəzsiz xidmətlər göstərmişdir.

Çar Rusiyasının bütün imperiya daxilində, o cümlədən də Qafqazda siyasi fəaliyyətləri tamamilə məhdudlaşdırdığından Əli bəy Hüseynzadə öz məsləkdaşları olan Əhməd bəy Ağaoğlu, Yusif Akçuraoğlu, Sədri Məqsudi kimi türkçü ziyalılarla birlikdə ölkəni tərk etməyə məcbur oldu. Tələt paşanın təklifi ilə «İttihad və Tərəqqi» partiyasının 1911-ci ildəki qurultayında Ümumi Mərkəzə üzv seçilmiş, 18 avqust 1911-ci ildə Aqil Muxtar, Məmməd Əmin, Əhməd Hikmət, Əhməd Ağaoğlu, Yusif Akçuraoğlu ilə birlikdə «Türk Yurdu Dərnəyi»ni yaratmış və dərnəyin yayım orqanı olan «Türk Yurdu»

dərgisini nəşr etdirmişdir. Bu dərnək müəyyən müddətdən sonra «Türk Ocaqları»na birləşmiş və türk xalqlarının gələcək taleyinin müəyyənləşməsində misilsiz xidmətlər göstərmiş və bu gün də öz fəaliyyətini davam etdirməkdədir.

Əli bəy Hüseynzadə həmçinin Dr. Əsəd paşa və məşhur alim İbrahim Haqqı Baltaçıoğlu ilə birlikdə 21 aprel 1916-cı ildən fəaliyyətə başlayan «Milli Təlim və Tərbiyə Cəmiyyəti»nin qurucularından olmuşdur, I dünya müharibəsinin sonunda çar Rusiyasının dağılması ilə əlaqədar olaraq orada yaşayan türklərin gələcəyini təyin etmək və bunu əlaqədar dövlətlərlə müzakirə etmək məqsədilə yaradılan «Turan Heyəti»nin üzvü kimi o da Yusif Akçuraoğlu, Məmməd Əsəd Çələbizadə və Mükməddin Beycanla birlikdə Avropaya göndərilmişdi. Bu heyət Sofya, Budapeşt, Vyana, Berlin və Lozanda siyasi xadimlərlə görüşlər təşkil etmiş, öz fikir və mülahizələrini yazılı və şifahi şəkildə onlara çatdırmışdır. Əli bəy Hüseynzadə və Yusif Akçuraoğlu tərəfindən qələmə alınan «Rusiya müsəlmanlarının tələbləri» adlı broşüra Budapeştdə almanca nəşr edilmişdir. Bu «Tələbnamə»də Rusiyadakı türk boyları altı bölgə olaraq göstərilmiş, müharibədən sonra onların hər birinə müstəqillik verilməsi istənilmişdi. «Rusiya Müsəlmanları Komitəsi» Macarıstan Baş naziri Kont Tissa tərəfindən çox yaxşı qəbul edilmiş və bu münasibətlə bəzi danışıqlar aparılmışdı. Bilindiyi kimi... hətta (Macarıstanda – R.Ə.) bir «Turan» cəmiyyəti qurulmuşdu və Macar dövlət adamları bu məsələyə (turançılığa – R.Ə.) əhəmiyyət verirdilər» [179,502].

«Turan Heyəti» daha sonra Vyanaya keçərək «orada da Baş nazir və Xarici İşlər Naziri tərəfindən qəbul edildi. Avstriya dövlət başçılarına da eyni məzmunda memorandum sunuldu (təqdim etmək) və bu xüsusda onlardan yardım istəndi» [175,503].



Vyanadan da heyət Berlinə getmiş və alman dövlət adamları ilə görüşmüşdü. Təbii ki, almanların rəyi xüsusi əhəmiyyət daşıyırdı. Çünki turançılıq, daha doğrusu, Rusiyada yaşayan türklərin mədəni və siyasi haqlarının əldə edilməsi ancaq Almaniyanın razılığı ilə mümkün ola bilərdi. Berlində türk xalqlarının qurultayında iştirak edən Əli bəy Hüseynzadə Rusiya imperatorluğundakı türklərin demokratik və düşüncə səviyyəsindən, haqlarının qorunmasından bəhs edən məruzə ilə çıxış etmişdi. Daha sonra tərəfsiz bir ölkə olan İsveçrəyə gedən heyət burada çar Rusiyasındakı Xalqlar Konqresi adı ilə bir toplantı təşkil edərək Rusiya müsəlmanlarının və azlıqda qalan xalqların mədəni, dini bərabərsizliklərinin aradan qaldırılmasını, seçki sistemində dəyişikliklər edilməsini Avropa dövlətlərindən xahiş edirdi. Xüsusi olaraq Əhməd bəy Ağaoğlu, Yusif Akçuraoğlu və Əli bəy Hüseynzadənin imzası ilə 18 may 1916-cı il tarixində «Rusiya müsəlmanlarının haqlarını müdafiə xahişi» ilə ABŞ-ın o zamankı prezidenti Vilsona bir teleqram da göndərilmişdi. Bu teleqramda da «Rusiya müsəlman türk-tatar xalqlarının siyasəti və mədəni haqlarının tanınması» istənilmişdi.

Bütün bunlardan əlavə Əli bəy Hüseynzadə 14 iyul 1917-ci ildə Stokholmda keçirilən «Sosialist Konqresi»nə Aqil Muxtar və Nəsim Müslih ilə birlikdə Türkiyə təmsilçisi kimi qatılmış və Konqresdə «Milliyyət və çoxluq» mövzusunda çıxış edərək Rossanovla mübahisəyə girişmişdir» [181,26].

Ə.Hüseynzadə 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin qurulması məsələsini müzakirə etmək üçün gizli şəkildə Bakıya gəlmiş [79,63-79], 1926-cı ildə Bakıda keçirilən I türkoloji qurultayda Fuad Köprülü ilə birlikdə iştirak etmiş və «Qərbin iki dastanında türk» adlı məruzə ilə çıxış etmiş, 1936-cı ildə Dolmabaxça Sarayında keçirilən III Türk dili qurultayına üzv olaraq qatılmışdır.

Bütün mənalı həyatını türkçülüyə - türk millətinin yüksəlməsinə sərf edən Əli bəy Hüseynzadə Yusif Akçuraoğlunun Qahirədə nəşr olunan «Türk» qəzetində çap etdirdiyi Osmanlılıq, islamçılıq ideologiyasına həsr edilən «Üç tərzi-siyasət» məqaləsinə cavab olaraq yazdığı «Məktubi-məxsus», «Həyat» qəzetində çap etdirdiyi «Türklər kimdir və kimlərdən ibarətdir?» və xüsusilə Əbu Turab Axunda cavabən yazdığı «Bizə hansı elmlər lazımdır?» məqaləsi ilə «türkləşmək, islamlaşmaq və avropalaşmaq» tezisini irəli sürmüş və nəşr etdirdiyi və baş redaktoru olduğu «Füyuzat» jurnalında bu ideoloji sistemi həryönlü şərh edərək belə bir nəticəyə gəlmişdir ki: «Füyuzat»ın tutduğu yol türklük, müslümanlıq və avropalılıqdır. «Turan» şeri ilə türkçülüyü önə sürən Əli bəy Hüseynzadə türkçülük tarixinin təməl daşlarından biri olub türkçülüyün böyük ideoloqu Ziya Göyalp da daxil olmaqla sonrakı türkçülərin yetişməsində əvəzsiz xidmətlər göstərmişdir. O, türk millətçiliyinə yalnız siyasi, dini və ideoloji yöndən deyil, iqtisadi cəhətdən də bağlı idi.

Yusif Akçuraoğlu Əli bəy Hüseynzadədən bəhs edərkən onun böyük xidmətlərini qeyd etdikdən sonra yazırdı: «Qısası, Hüseynzadə Əli bəy, Azərbaycanda yalnız dil və ədəbiyyat sahəsində deyil, hətta siyasət teoriyasında belə mərkəz Osmanlı dövləti olmaq üzrə türkçülük, bütün türkçülük, hətta panturanistlik fikri axımına ilk açıqlıq gətirən insandır» [182,146].

Türkçülük məfkurəsinin ən böyük yaradıcılarından biri də Əhməd bəy Ağayevdir. Vaxtilə Əhməd Cəfəroğlunun yazdığı kimi, «təpədən dırnağa qədər bir azəri türkü olaraq yaşamış, düşünmüş və söyləmişdi» [159,202]. O, Avropada təhsil alan ilk Azərbaycan türkü idi. Tiflis gimnaziyasında fransız dili müəllimi işləmiş, Hacı Zeynalabdin Tağıyevin istəyi ilə sahibi olduğu «Kaspi» qəzetində baş redaktorluğa dəvət olunmuşdu. Bu qəzet Əhməd Ağaoğlunun sayəsində Azərbaycan türklərinin hüququnu müdafiə edən rusca bir türk orqanına çevrildi. Əhməd bəy Ağayev öncə Əli bəy Hüseynzadə ilə birlikdə türkcə ilk gündəlik qəzet olan «Həyat»ı (1905-1906), daha sonra isə müstəqil olaraq gündəlik «İrşad» (1905-1907) qəzetini çıxarmağa başladı. Hər iki qəzetin qayəsi çar Rusiyasına qarşı və türklərin siyasi hüquqları uğrunda mübarizə, türklər arasında birlik yaratmaq məqsədi ilə sünni-şiə düşmənçiliyinə son qoymaq, həmçinin xalqı savadlandırmaq məqsədi ilə türkcə məktəblər açmaq olmuşdur.

Çar Rusiyasının baş naziri Stolıpinin dövründə inqilabçılar və millətçilər ciddi təqibə məruz qaldılar. Bir milliyyətçi, türkçü kimi Əhməd bəy Ağaoğlu da bu təqibə məruz qalanlardan idi. Şiddətli təqib nəticəsində artıq Əhməd bəyin təkcə özü deyil, bütün ailəsi də təhlükəyə məruz qaldığından, o da bir çox Azərbaycan millətçiləri kimi İstanbula qaçmağa məcbur oldu. Bu o dövr idi ki, Türkiyədə Gənc Türklər inqilabı olmuş, sultan II Əbdülhəmid taxtdan salınmış, Əhməd bəyin Parisdən tanıdığı bir çox iş adamları iş başına keçmişdi. Bu inqilab türklük üçün çalışmaq istəyən bütün türk aləmindən olanları İstanbula çəkirdi. Əhməd bəy Ağaoğlunu-bu böyük türkçünü də İstanbul özünə çəkdi və onun 1908-ci ildən sonrakı İstanbul həyatı türkçülük üçün çox dolu və bərəkətli bir fəaliyyət dövrü oldu.

Öncə Osmanlı türkləri arasında yaranan maarifçi mədəni türkçülük daha sonra Azərbaycan, Krım və Qazan türkləri arasında da yayıldı. Azərbaycan əməli türkçülüyünün yaradıcıları olan Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Krım-tatar türkçülüyü ideyasının əsas müəllifi İsmayıl bəy Qaspıralı, Qazan türkçülərinin ilk nümayəndəsi hesab edilə bilən Şəhabəddin Mərcaninin Çar Rusiyasındakı fəaliyyətləri gələcək türkçülər ordusunun yaranmasında müstəsna rol oynamışdı. İlk öncə mədəni

millətçilik kimi meydana çıxan türkçülük getdikcə siyasi və ideoloji xarakter almağa başladı. Artıq XX əsrin əvvəllərindən başlayaraq türkçülük istər Osmanlı, istər Azərbaycan və istərsə də Krım, Qazan və Türküstanda siyasi-ideoloji bir cərəyana çevrildi. Bu siyasi-ideoloji cərəyan Gənc Türklər inqilabı ilə yeni vüsət aldı. Türk milli ideologiyası olan türkçülüyün əsas inkişaf dövrü Balkan və xüsusilə I dünya müharibəsi zamanı olmuşdur.

İlk vaxtlar milli özünüdərk kimi meydana çıxan və əsasən tarix, ədəbiyyat, mətbuat və incəsənət sahəsində özünü göstərən mədəni-maarifçi türkçülüyün yaradıcıları türk xalqlarının öz müstəqilliklərini əldə etmələrinin ideoloji-siyasi sahəsinin mühüm bir sütununu hazırlamışdılar. Bu sütunun adı Vətənpərvərlik, Xalqçılıq idi. Onlar dönməz vətənpərvərlər, xalqçılar idilər. Onlar öz əsərləri, fikir və mülahizələri, ədəbi-fəlsəfi düşüncələri ilə gələcək siyasi türkçülüyə zəmin yaratmışdılar.

Bu siyasi türkçülüyün ilk yaradıcıları Tunalı Hilmi bəy, Akçuraoğlu Yusif bəy, Hüseynzadə Əli bəy, Ağaoğlu Əhməd bəy və Məmməd Əmin Rəsulzadə olmuşlar.

Ömrünün son illərində Türkiyə Böyük Millət Məclisinin üzvü olan Tunalı Hilmi bəy (1871-1928) ilk öncə Avropadakı Gənc Türklərə qoşularaq onlar kimi «Osmanlıçı» olmuş, daha sonra isə o da Gənc Türklər kimi siyasi türkçülüyə qədər yüksəlmişdir. Dildə türkçülüyü onun təbii davamı olaraq siyasi türkçülüyə yönəltmişdir. Ömrünün altı ilini İsveçrədə, altı ilini Qahirədə keçirən Hilmi bəy siyasi fəaliyyətə başlayaraq Qanuni-Əsasinin yenidən bərpası uğrunda Gənc Türklərlə bərabər mübarizə aparmış və sonda buna nail olmuşdur. Gənc Türklər inqilabından sonra İstanbula qayıtmış, müxtəlif vəzifələrdə çalışmış, üç dəfə millət vəkili seçilmiş, Böyük Millət Məclisində türkçülük və xalqçılıqla bağlı coşqun nitqlər söyləmiş, özünü bir türkçü kimi təsdiq etmişdir.



Siyasi türkçülərin ən öndə gedənlərindən biri də Yusif Akçuraoğludur (1879-1935). İki yaşından atasını itirən Yusif Akçuraoğlu yeddi yaşını tamamlamadan anası ilə birlikdə Simbirskdən İstanbula gələrək ilk və orta təhsilini tamamladıqdan sonra 1897-ci ildə Hərbi məktəbə daxil olmuş və ilk məqaləsini də həmin ildə yazmışdır. 1897-ci ildə İstanbulda «Məlumat» dərgisində çap olunan «Şəhabəddin Mərcani» adlı məqaləsi Şimal türklərinin ən məşhur alimlərindən və Şimalda dini yenilik və milli oyanış hərəkatının ilk cığırdaşlarından olan Şəhabəddin Mərcaninin həyat və fəaliyyətinə həsr edilmişdir. Bu məqaləsi ilə o, Şimal türklərinin elmi və mədəni səviyyəsini Cənub türklərinə çatdırmaq məqsədi güdmüşdür. Hərbi məktəbdə oxuyarkən tətil vaxtlarını anadan olduğu Simbirskidə və Qazanda qohum-əqrabasının yanında keçirən Yusif Akçuraoğlu Şimal türklərinin həyatını və düşüncə tərzini yaxından izləməklə gələcək elmi, ideoloji, siyasi və fəlsəfi əsərləri üçün material toplayırdı. Onun bu müddətdə Krımda bacısı əri, məşhur türkçü, Asiya və Avropada yaşayan türklərin vahid bir millət kimi «dildə, fikirdə və işdə birliyi» ideyasını gündəmə gətirən Qaspıralı ilə görüşləri, bir çox qərb dillərini, qədim və yeni türk dilini bilən, uyğurca oxuyub yazmağı bacaran tədqiqatçı və zəngin kitabxanaya malik olan əmisi Akçuraoğlu İbrahim bəyin türk aləmi və türkologiyaya aid söhbətləri, həmçinin Şəhabəddin Mərcani və Şimalda milli fikrin yaradıcılarından, müasir qərb mədəniyyəti tərəfdarlarından olan Qəyyum Nasiri ilə yaxından tanış olması, həmçinin Hərbi məktəbdə oxuyarkən Vələd Çələbi, Nəcib Asim və başqa türkçülərin əsərlərini oxuması Yusif bəyin gənc yaşlarından bir türkçü kimi yetişməsində mühüm rol oynamışdır. Elə bunların nəticəsidir ki, Hərbi məktəbin ikinci kursunda oxuyarkən Gənc Türklərə qoşulmuş və bu səbəbdən də ömürlük qala içində yaşamağa məhkum

edilmişdi. Fəqət fürsət tapıb yaxın dostu Əhməd Fərid bəylə birlikdə Fransaya qaçmağa müvəffəq olmuşdu.

Yusif Akçuraoğlu özündən əvvəlki türk millətçilərinin təsiri ilə və xüsusilə Siyasi Elmlər Məktəbində millətçi alimlərdən aldığı dərslərlə millətçiliyi və ən başlıcası türkçülüyü maarifçi türkçülükdən siyasi türkçülük səviyyəsinə çatdırmışdır.

Parisdə təhsilini bitirib diplom aldıqdan sonra Türkiyəyə qayıtması mümkün olmadığından o, öz vətəninə dönməyə məcbur oldu. Akçuraoğlu ailəsinin əsl vətəni olan Züyəbaşı kəndinə gəlib əmisi Yusif bəyin yanında yaşayır. Məşhur əsəri olan «Üç tərzi-siyasət»i burada yazıb Qahirədə nəşr olunan «Türk» qəzetində çap etdirir. Bu məqalə ilk dəfə olaraq açıq bir şəkildə «osmançılıq, islamçılıq və türkçülüyü» şərh etməklə türkçülüyü siyasi cəhətdən bütün açıqlığı ilə gündəmə gətirdi. Məqalədə Yusif Akçuraoğlunun bütün tarixi həqiqətləri araşdıraraq çıxardığı nəticələr aşağıdakılardır:

1. Osmanlıçıların osmanlı milləti adı altında imperatorluğu qoruyub saxlamaq niyyəti «zənnimcə (artıq Osmanlı millətini meydana gətirməklə uğraşmaq) boş bir yorğunluqdur» [183,31].

2. İslam birliyi məsələsinə tam ehtiyatla yanaşmasına baxmayaraq, Akçuroğlu məqalənin bir çox yerlərində elə faktlar gətirir ki, bu faktlar onun islam birliyi məsələsinə də inanmadığını göstərir. Bu tutarlı faktlardan biri budur ki: «Xarici manеələr çox güclüdür. Gerçəkdən də bir tərəfdən islam dövlətləri... xristian dövlətlərinin nüfuzu altındadır. Digər tərəfdən də bir-iki dövlət (xristian dövləti – R.Ə.) istisna olmaqla bütün xristian dövlətləri müsəlman təbəqəyə malikdir... Həmçinin zamanımızda ən qüvvətli İslam dövləti olan Osmanlı dövlətinin belə ciddi bir sürətdə İslam birliyi siyasətini tətbiq etməsinə qarşı çıxarlar» [183,33].



3. Türk birliyi məsələsini ilk dəfə olaraq siyasi, elmi, fəlsəfi və ideoloji cəhətdən şərh edən Yusif Akçuraoğlu özünə qədərki bütün türkçülərin fikir və mülahizələrini ümumiləşdirmişdir. Bu fikir və mülahizələrin o dövrdəki və bu günkü türkçülər üçün tam yararlı olduğunu və məntiqə dayandığını nəzərə alaraq, Yusif Akçuraoğlunun «Üç tərzi-siyasət»məqaləsindən aşağıdakı seçmələri burada xatırlatmağı gərəkli sayırıq. O, yazır: «Əsil böyük fayda dilləri, irqləri, adət-ənənələri və hətta əksəriyyətinin dinləri belə bir olan, Asiya qitəsinin böyük bir hissəsi ilə Avropanın Şərqinə yayılmış olan türklərin birləşməsinə və beləliklə də, digər böyük millətlər arasında öz varlığını qoruyub saxlaya biləcək böyük bir siyasi millət təşkil etmələrinə xidmət edəcək... Son vaxtların fikrə gətirdiyi uzaq bir istiqbalda bəyazlar və sarılar aləmi arasında bir türk dünyası yaranacaq və bu orta dünyada Osmanlı dövləti indi Yaponiyanın sarılar aləmində yerinə yetirmək istədiyi vəzifəni öz üzərinə götürəcək... Baxmayaraq ki, Qərbin təsiri ilə türklər arasında milliyyət fikirləri girməyə başlamışdırsa da...bu hadisə hələ çox yenidir. Türklük fikirləri, türk ədəbiyyatı, türkləri birləşdirmək düşüncəsi hələ yeni doğulmuş bir çocuqdur... türkləri birləşdirmək siyasətinin tətbiqindəki daxili çətinliklər İslam (birliyi-R.Ə.) siyasətinə nisbətən daha çoxdur... İslâmiyyətdə (islam birliyi məsələsində-R.Ə.) gördüyümüz o qüvvətli təşkilatlardan...xülasə, sağlam bir birliyi meydana gətirə biləcək amillər və hazırlıqlardan hələlik heç biri Türklükdə yoxdur. Bu gün türklərin əksəriyyəti keçmişlərini unutmuş bir vəziyyətdədir. Lakin bu da unudulmamalıdır ki, dövrümüzdə (XX əsrin əvvəllərində – R.Ə.) birləşməsi mümkün olan türklərin böyük bir hissəsi müsəlmandır...» [183,33].

Akçuraoğlunun bütün bu fikirlərini nəzərə alan öz müasirləri belə onu türkçülük hərəkatının başçısı, qurucusu və yayıcısı kimi qəbul etmişlər. Belə ki, türkçülüyü

bir sistem halına salan məşhur ideoloq Ziya Gøyalp Akçuraoğlu Yusif bəy haqqında yazır: «O zaman Misirdə çıxan «Türk» qəzetində Əli Kamal «Osmanlı birliyi» fikrini irəli sürərkən Akçuraoğlu Yusif bəylə Fərid bəy «türk birliyi» siyasətini tövsiyə edirdilər» [207,2].

Rus mühacirlərindən panslavyanist, şovinist Zarevand türkçülük ideologiyasının Rusiyanı parçalayacağından qorxaraq «Türkiyə və panturanizm» əsərində Yusif Akçuraoğlunun «Üç tərzi-siyasət» əsəri haqqında yazır: «Bu kitabçanın pantürkçülər üçün əhəmiyyəti «Kommunist manifesti»nin marksistlər üçün olduğu qədər əhəmiyyətlidir» [131,111].

1908-ci ildən İstanbulda yaradılan bütün milliyyətçi təşkilatlarda və nəşr olunan bütün mətbuat orqanlarında Yusif Akçuraoğlu ən öndə gələn türkçülərdən olmuşdur. Yusif Akçuraoğlu o dövrlərdə «Türk Dərnəyi»ni yaratmış, eyni adda bir jurnal çıxarmış, «Türk Yurdu» Cəmiyyətinin təşkilatlanmasında yaxından iştirak etmiş, Məmməd Əmin və Əhməd bəy Ağayevlə birlikdə «Türk Yurdu» jurnalını təsis etmişdir. Böyük bir ziyalı ordusunu öz ətrafında birləşdirən «Türk Yurdu Cəmiyyəti» və onun orqanı olan «Türk Yurdu» jurnalı qarşılarına qoyduqları məqsədə çatmaq üçün var-qüvvələrini sərf etdilər. «Türk Ocaqları» ilə «Türk Yurdu»nun birgə səyi nəticəsində türkçülük artıq bir ideologiya səviyyəsinə yüksəldi. Türkçülüyün geniş vüsət almasına və bütün türk dünyasında yayılmasına həmçinin Əhməd Hikmət bəyin «Altun ordu» məqaləsi, Xalidə Ədib xanımın «Yeni Turan» adlı romanı, Müfidə Fərid xanımın qiymətli əsərləri və xüsusilə öz dövründə «Milli şair», «ədəbi türkçülüyün ən böyük siması», Mister Gibbin dediyi kimi: «türk ədəbiyyatının bu sağlam və təzə şeir qonçası» adlandırılan «Mən bir türkəm, dinim, cinsim uludur» deyən Məmməd Əmin Yurdaqulun şeirləri və türkologiya sahəsində ensiklopedik bir alim olan Fuad Köprülünün elmi əsərləri



və s. təkan verdi. Hökumətin əsas fiqurları olan vitse-generalissimus Ənvər paşanın, Tələt paşanın, Xəlil paşanın və başqalarının türkçülük ideologiyasını qəbul etməsi ilə maarifçi və ideoloji türkçülüklə siyasi və hərbi türkçülük birləşərək turançılıq məfkurəsini ön plana çıxardı. Turançılığın xarici siyasətdə tətbiqinə başlanmasına, məktəb və mədrəsələrdə və hətta hərbi məktəblərdə türkçülüyün tədrisi bu cərəyana bütün türk dünyasında böyük maraq yaratdı.

Türkçülərə görə türk dili, türk tarixi, türk ədəbiyyatı, türk mədəniyyəti yalnız bir türk xalqının, məsələn, osmanlının malı deyil. Bütün türklük bir küllüdür, bir millətdir və bütün bu mədəniyyət ümumtürk mədəniyyətidir.

Bütün türkçülər milli ideologiyada yekdil idilər. Çünki «Milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır» [74,284]. Sayları az, inamları qüvvətli olan bu tərəqqipərvər milliyyətçilər, bu tarixi şəxsiyyətlər milli ideologiyanın qüdrətinə inanaraq bütün türklüyün donub qalmış təfəkkürünü dəyişdirməyə, onun tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini, haqqını, şərəfini özünə qaytarmağa çalışmış və bu məqsədlə siyasi-ideoloji bir təşkilatı - «İttihad və Tərəqqi» Cəmiyyətini yaratmışdılar.

Türkçülüyün «türk milliyyətçiliyi» bayrağı altında səhnəyə çıxması o dövrdə yalnız Türkiyə milli ziyalılarını deyil, bütün dünyadakı türk milli ziyalılarını bir araya topladı. Türkçülük ideologiyası türklərin tarixən yaşadıqları ərazilərin adı ilə bağlanaraq «Turançılıq» adı altında anladılmağa başlandı.

Başda Ziya Göyalp olmaqla Yusif Akçuraoğlu, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Köprülüzadə Mehmet Fuat, Nəcib Asim və başqaları türkçülüyün elmi əsaslarını işləyib hazırladılar.

Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu, Azərbaycan siyasi türkçülüyünün ən böyük nümayəndəsi Məmməd Əmin Rəsulzadə istər İranda Məşrutə inqilabında iştirak edərək fars dilində buraxdığı Avropa tipli «İrani-nou» qəzetindəki milli, siyasi, ictimai, əxlaqi və ədəbi yazıları, istər İstanbulda olduğu dövrlərdə «Türk Yurdu» jurnalındakı İran mücahidləri, İran türkləri haqqındakı elmi-siyasi məqalələri və istərsə də uzun sürən mühacirətdən sonra Bakıya dönərək «İqbal», «Şəlalə», «Bəsirət», «Dirilik» və başqa mətbuat orqanlarındakı milli dilə, qadın azadlığı məsələsinə, türkçülüyə, türk dilinin məktəblərdə tədrisi məsələlərinə, bir sözlə, Azərbaycanın, bütün türk dünyasının, Şərqin və Qərbin ictimai-siyasi, fəlsəfi-ideoloji, ədəbi və mədəni həyatında baş verən hadisələrə həsr etdiyi dərin məzmunlu məqalələri ilə gələcək müstəqil, demokratik, milli dövlətin fəlsəfi-ideoloji, siyasi-iqtisadi əsaslarını yaradırdı.

M.Ə.Rəsulzadənin ən böyük xidmətlərindən biri də 1911-ci ildə Bakıda Nağıoğlu Tağı, Rəsulzadə Məmməd Əli və Kazımzadə Abbas bəylərin yaratdığı «Müsavat» partiyasına yeni yönüm verməsindədir. Yarandığı dövrdə ideoloji cəhətdən islamçı, taktiki - siyasi cəhətdən inqilabçı, sosial-ictimai cəhətdən xalqçı olan «Müsavat» partiyasının ilk qayəsi rus imperializminə qarşı müstəqil milli müsəlman dövlətlərinin istiqlaliyyətini müdafiə etmək və çar Rusiyasındakı bütün məhkum müsəlman millətlərinin mülkiyyət və hüquq bərabərliyinə qovuşmalarına çalışmaq olmuşdur. M.Ə.Rəsulzadənin İstanbulda siyasi mühacir olaraq bu təşkilata göndərdiyi məktub və yeni türkçülüyə aid əsərlər və Bakıya qayıtdıqdan sonra «Müsavat» partiyasına rəhbərliyi bu təşkilatın ideologiyasında çox mühüm və əsaslı dəyişikliklər yaratdı, onun «ümmətçilikdən» «milliyyətçiliyə», «islamçılıqdan» «türkçülüyə» keçməsinə səbəb oldu. M.Ə.Rəsulzadə silsilə yazıları ilə partiyanın türkçü və istiqlalçı ideologiyasını və inqilabçı taktikasını qəti şəkildə təsbit edərək bu ideologiyanı rəhbərlik etdiyi «Açıq söz» (1914-1918) qəzeti vasitəsilə yaymağa və ictimai fikri bu yolla formalaşdırmağa nail oldu.

Başda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və Məmməd Əmin Rəsulzadə olmaqla Azərbaycanın o dövrdəki ictimai-siyasi xadimləri siyasi türkçülüyü ilk dəfə proqram halına salan və dünyadakı məhkum türklərin hürriyyət və istiqlallarını tələb edən ilk milli mücahidlər idilər. Onlar, xüsusilə Ə.Ağayev və M.Ə.Rəsulzadə ümmətçilik əvəzinə milliyyətçilik, islamçılıq əvəzinə türkçülük ideologiyasını irəli sürmüş, maarifçi milliyyətçiliklə siyasi milliyyətçiliyi çulğalaşdıraraq belə bir sosial-fəlsəfi fikri əsaslandırmışlar ki: «Siyasi və milli dövlətə...milli hürriyyət və milli istiqlala malik olmayan millətlərin milli varlıq və milli mədəniyyətlərini qoruyub inkişaf etdirmələri imkan xaricindədir» [113,8].

Türkiyədə türkçülərin yaratdığı cərəyanın irəli sürdüyü «Yeni lisan» məsələsini M.Ə.Rəsulzadə belə dəyərləndirir: «Yeni lisan» demokratizmlə milliyyətçiliyin vücuda gətirdiyi bir cərəyandır. Hələ millətçilik-amili birinciliyi təşkil edir. Məlum olduğu üzrə siyasi istiqlallar dil, ədəbiyyat, iqtisad və mədəni istiqlalların yaradıcısıdır. Bir millət bu kimi istiqlallara malik olmaz və bu istiqlalların tarixi bir qiymət və əhəmiyyəti itmiş olarsa, o millətin siyasi istiqlalı da müvəqqəti olar, mətin əsaslar üzərinə oturmuş olmaz» [129,221-222].

M.Ə.Rəsulzadə «Yeni lisançılar və türkçülər» adlı məqaləsində («Şəlalə» № 24, 25, 20 və 27 iyul, 1913) Osmanlı ədəbiyyatını təhlil edərək yazır: «Osmanlı ədəbiyyatı əvvəl tamamilə Şərq əsərlərinin təsiri altında idi. Ondan sonra Qərb ədəbiyyatını təqlid etməyə başladı. Fəqət əvvəlki təqlid kimi bu təqlid də (formal) zahiri xarakter daşıdı. Əsl Qərb ədəbiyyatında gündən-günə kökləşən

(kök salan - R.Ə) xalqçılıq nədənsə Osmanlı ədəbiyyatına...nüfuz edə bilmədi» [129,226].

Bu məşhur məqaləsində M.Ə.Rəsulzadə sözün həqiqi mənasında bir türkçü, türk millətini sevən, onun dərdlərini dilə gətirən bir ictimai xadim, onun parlaq gələcəyini türkçü və xalqçıların nəzəri cəhətdən irəli sürdüyü fikir və mülahizələrdə görürdü. Sadə türkün, əsrlər boyu dövlət səltənətinin bütün ağır yükünü dalında daşıyan səbirli, təmkinli, imanlı xalqın, yalnız müharibə anlarında yada salınan türkün qəhrəmanını, alimini, şairini, yazıçısını, əsgərini, paşasını, xanını, bəyini, sultanını, əkinçisini, sənətkarını sinəsindən çıxaran bir xalqın bu dərəcədə aşağılanmasına dözə bilməyən türkçülər məhz bu şeyin millətdə, xalqda olduğunu dərk edərək xalqa doğru getməyə başlamışdılar. Onlar heç bir zaman razı ola bilməzdilər ki, türk xalqı ədəbiyyatsız qalsın.

«Yeni lisançılar və Türkçülər» adlı məqaləsində M.Ə.Rəsulzadə İstanbul xatirələrindən danışarkən ən yüksək qiyməti o dövrün ən məşhur türkçü şairi Məhəmməd Əmin Yurdaqula vermişdir.

Bütün türkçülər kimi M.Ə.Rəsulzadə də millətin formalaşmasında və bütövləşməsində dilə mühüm əhəmiyyət vermişdir. Bu məsələ ilə bağlı onun xeyli məqalələri vardır. Bu məqalələrdə M.Ə.Rəsulzadə dili mühüm bir ictimai amil hesab etmiş, dünya işlərində dil birliyinin təsirini din birliyindən daha güclü saymışdır. M.Ə.Rəsulzadəyə görə, «dil təbiidir, ona görə də əsasdır. Millətlə bərabər yaranır. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil ola bilməz. Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümüdür. Bir millətin həyatında maddi və mənəvi cəhətdən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik. Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə avama məxsus bir dil sayılır, xas farsı və ərəbi bilməsilə iftixar edərdi...Dilimizi həqiqətən də millətimizin ruhu, onun davamlı vasitəçisi görmək istəyiriksə, onu milli cəmiyyətimizdə ən mühüm birlik və inkişaf amili hesab ediriksə, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyıq» [129,233-235].

Digər türkçülər kimi M.Ə.Rəsulzadənin də dilə bu dərəcədə əhəmiyyət verməsi, Cəmaləddin Əfqani kimi dili dindən də üstün hesab etməsi onun milliyyətçilik ideologiyasına tam yiyələnməsinin göstəricilərindəndir. Onun 4 iyul 1913-cü il «İqbal» qəzetinin 402-ci sayındakı «Rus-müsəlman məktəblərində türkcə tədrisi» adlı məqaləsi milli cəhətdən çox xarakterikdir. Məqalədə ana dilini bilməyən ziyalıların gələcəkdə xəcalət çəkəcəklərini, bu mühitdən uzaqlaşacaqlarını və başqa bir mühitə də tam alışa bilməyəcəklərini göstərərək onları ana dilini öyrənməyə və millətə xidmətə səsləyirdi.

M.Ə.Rəsulzadənin 1914-cü ildə «Dirilik» jurnalında çap edilən silsilə yazıları məhz millətə, milli diriliyə, milli mədəniyyətə, milli əxlaqa, adət-ənənəyə, tarixi keçmişə və ən başlıcası, dil və din birliyinə həsr edilmiş, bir sözlə, Ziya Göyalpın proqramlaşdırdığı türkçülüyün bütün atributlarını elmi və praktiki şəkildə təsbit etmişdir. Bu silsilə yazılardan çıxan əsas nəticələr gələcəkdə qurulacaq milli dövlətin ideoloji, siyasi, iqtisadi və ən başlıcası, fəlsəfi sistemini müəyyənləşdirirdi. Bu yazılar Əli bəy Hüseynzadənin «türkləşmək, islamlaşmaq, avropalaşmaq» düsturu ilə və əsasən Ziya Göyalpın «türkləşmək, islamlaşmaq, müasirləşmək» tezisi ilə səslənsə də, daha çox Azərbaycan türklərinin gələcəyini müəyyənləşdirəcək siyasi türkçülük, istiqlalçılıq və azərbaycançılıq kimi ideoloji sistemin formalaşmasına xidmət edirdi. Bir sözlə, bu yazılar müəyyən mənada zahirən utopik görünən turançılıqdan daha çox azərbaycançılığı, Azərbaycan türklərinin gələcək taleyini əks etdirirdi. M.Ə.Rəsulzadə Azərbay-

canın keçmişi, bu günü və gələcəyi ilə bağlı elə bir məsələ yoxdur ki, ona bu və ya digər dərəcədə münasibət bildirməsin, nə lazım olduğunu elmi-fəlsəfi cəhətdən müəyyənləşdirməsin.

M.Ə.Rəsulzadənin «Dirilik» jurnalındakı «Milli dirilik» başlıqlı yazıları demək olar ki, Avropa ilə Şərqin müqayisəsinə həsr edilmiş, Azərbaycan xalqının milli istiqlalını əldə etməsi üçün yollar göstərilmişdir. Bu silsilə yazılarda müəllif mədəniyyətlə milli mədəniyyətin, ziyalı ilə milli ziyalının, maddiyyatla mənəviyyatın, kosmopolit təfəkkürlə milliyyətçiliyin, ümmətlə millətin, düşüncə ilə əməlin, süni ədəbiyyatla həqiqi ədəbiyyatın sərhədlərini müəyyənləşdirmişdir. Bu silsilə yazıları ilə M.Ə.Rəsulzadə Azərbaycanda ilk dəfə olaraq millətin elmi tərifini vermiş və bununla da özünə qədərki dini, siyasi, iqtisadi, coğrafi amillərə dayanan siyasi dövlət milliyyətçiliyi nəzəriyyəsini alt-üst etmişdir. M.Ə.Rəsulzadəyə görə, «millət, dil birliyi, adət və əxlaq birliyi, tarixi, mədəni və nəhayət, dini etiqadlar birliklərinin məcmusundan mütəşəkkil bir məhsuldur» [129,468].

Bütün bu elmi, fəlsəfi, ideoloji yazıları ilə kifayətlənməyən M.Ə.Rəsulzadə fəal siyasi fəaliyyətə başlayaraq «İnsanlara hürriyyət, millətlərə istiqlal» şüarı ilə meydana atılır. Birinci dünya müharibəsi və xüsusilə 1917-ci il inqilabı çar Rusiyasını tarixə mal etdiyi bir dönəmdə gələcək Rusiyanı ayrı-ayrı milli dövlətlərdən ibarət İsveçrə tipli federasiyalı bir Cümhuriyyət halında görmək istəyən «milli-məhəlli (ərazi) müxtariyyətçilər arasında M.Ə.Rəsulzadə daha böyük nüfuza malik idi. 23 aylıq Azərbaycan Demokratik Respublikasının başçısı olan M.Ə.Rəsulzadə ilk dəfə olaraq «türkçülük, islamçılıq və müasirlik» ideologiyasını rəsmi dövlət ideologiyası elan etmiş, Demokratik Cümhuriyyətin, başda dövlət bayrağı olmaqla bütün rəsmi atributlarını bu əsasda təsis etmişdir.



M.Ə.Rəsulzadənin əsərləri içərisində müəllifin «Panturanizm haqqında» və «Milli təsanüd» xüsusi yer tutur. Onun «Panturanizm haqqında» əsərinə rusca ön söz yazmış Parisdə yaşayan Gürcüstan Milli hökumətinin başçısı N.Jordaniya qeyd edir ki, «panturanizm, pantürkizm, türkçülük – bunlar hamısı müsəlman mühitinə şamil edilmiş pangermanizm, panslavyanizm, millətçilikdən başqa bir şey deyil. Bu cərəyanları təhlil etdikdən sonra müəllif bütün «pan»ları bir kənara atır və onlardan yalnız birini real və sağlam ideya istiqaməti kimi qəbul edir. Bu, bir-biri ilə yalnız mədəni əlaqələr saxlayan bir sıra türk dövlətlərinin əsaslandığı türkçülükdür. Çıxarılan nəticə tarixi inkişaf və xristian xalqlarının milli inkişafının gedişi prosesi ilə tamamilə uyğunlaşır» [131,103].

Türkçülüyün və panturanizmin mahiyyətini şərh edərkən M.Ə.Rəsulzadə yazırdı: «Şərqdəki milli hərəkatın bir növü kimi panturanizm Qərbdə irticaçı sayılan və çox vaxt şovinizm adlandırılan millətçilikdən bir qədər fərqlənir. Şovinizm təcavüzkar hərəkatdır və əsasən artıq milli birliyə malik kapitalist dövlətinin öz hakimiyyətini gücləndirməyə və ərazisini genişləndirməyə can atan dövlətin ekspansiyası amillərinə əsaslanan bir hadisədir. Avropa millətçiliyi siyasi cəhətdən təcavüzkar ideologiyadır. Şərqdəki millətçilik isə siyasi cəhətdən müdafiə, sosioloji cəhətdən isə mütərəqqi hadisədir» [131,113].

«Panturanizmdə iki cərəyan» adlı məqaləsində M.Ə.Rəsulzadə yazırdı: «Panturanizm siyasi fikrin məlum sisteminə çevrildikdə onun tərkibində iki meyl meydana çıxmağa başladı: mərkəzçilərin romantik cərəyanı və federalistlərin realist cərəyanı. Birinci cərəyan nümayəndələri türk xalqlarının qan qohumluğunun, eyni etiqada mənsub olmalarının, dillərinin müəyyən qədər ümumiliyinin müəyyən siyasi vəziyyət şəraitində vahid

türk dövləti yaratmaq üçün kifayət olması qənaətində idilər. Realist cərəyan isə hərəkatın ali idealından ilham alsa da, bu idealda romantik xəyallardan daha çox milli özünüdərkin oyanmasının real nəticələrinə əhəmiyyət verirdi... Bu cərəyan ilk növbədə ayrı-ayrı türk xalqlarının müstəqil dövlətlər şəklində azad olması üçün çalışırdı. Türk xalqlarının geniş xalq kütlələrini inqilabiləşdirən və onları milli özünütəyin və öz müstəqilliyini təmin və təsdiq etmək uğrunda fəal mübarizə meydanına səsləyən bir ideologiya kimi panturanizm obyektiv cəhətdən mütərəqqi ideyadır və öz növbəsində rus imperializminə və bədnam «vahid və bölünməz Rusiya» ideyasına qarşı yönəlmişdir...Hadisələrin gedişindən və düşüncələrdə baş verən belə bir təkamüldən çıxış edərək və bu gün əlimizdə olan məlumatlara istinadən belə bir faktı qeyd edə bilərik ki, romantik siyasi «Panturanizm» artıq yoxdur, yalnız sırf real və konkret milli məqsədlər güdən «türkçülük» mövcuddur...Türk xalqlarının milli şüuru irqi ideologiyadan milli ideologiyaya keçir və bu, hətta ideoloji-nəzəri sahədə də «təcavüzlük təhlükəsi»ni tamamilə aradan qaldırır...Hazırda Türkiyənin siyasəti həmin ideologiyaya (Realist türkçülüyə – R.Ə.) müvafiqdir və bu gün Türkiyənin sosial-iqtisadi vəziyyəti də ona uyğun gəlir» [131,117-120].

Atatürk dövrü Türkiyəsindəki türkçülük hərəkatına qiymət verən M.Ə.Rəsulzadə yazır: «Kamalçılıq qəti şəkildə və tam səmimiyyətlə Osmanlı imperiyasının «milli sazişdən» kənarda qalan torpaqlarından imtina etdi. O, bu tarixi zərurəti olduğu kimi qəbul etdi. Onun adına çıxılan «panturanizm» planı isə cənab «rusistlər»in dəyirmanına su tökmək arzusunda olanların hiyləsindən başqa bir şey deyil. Öz varlığı ilə Sovet İttifaqındakı türk xalqlarının milli və azadlıq hərəkatlarına müsbət təsir göstərən bügünkü realist «türkçülük» isə şübhəsiz, «panrusizmin» düşmənidir» [131,108].



«Milli təsanüd» əsərində M.Ə.Rəsulzadə liberalizmin, inqilabçı sosializmin, kapitalizmin, kommunizmin və bolşevizmin mahiyyətini açıqlayır, onların cəmiyyətə və bütövlükdə insanlığa vurduğu zərbələri açıqladıqdan sonra belə bir nəzəri fikir irəli sürür ki: «Nə fərdi hürriyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiyası ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq bir kölə və makina halına salan kommunizm əsarəti. Nə mütləq liberalizm, nə də mütləq kollektivizm. O halda ikisini birləşdirən solidarizm = təsanüd» [192,15].

I dünya müharibəsi dünya xəritəsini dəyişdirdi. Müharibədən tam məğlubiyyətlə çıxan Osmanlı impepratorluğu çökdü. Türk milləti «olum ya ölüm» dilemması qarşısında qalmışdı. Belə bir dönəmdə «türkçülük» ideologiyasının baniləri və tərəfdarları türk xalqını bu ağır bəladan qurtarmağı düşündülər.

Türkçülüyün ən böyük ideoloqu Ziya Göyalp «Türkçülüyün əsasları» adlı əsərini yazaraq türkçülüyü sistemləşdirdi və onu milli bir məfkurə halına saldı.

Bu əsəri ilə Ziya Göyalp gələcəkdə yaranacaq müasir türk dövlətlərinin sosial fəlsəfəsini ortaya qoymuşdur. İki bölmədən ibarət olan bu əsərin birinci bölümündə Ziya Göyalp türkçülüyün tarixindən və mahiyyətindən, türkçülük və turançılıqdan, milli və bəşəri mədəniyyətlərdən, xalqçılıqdan (xalqa doğru) müasirləşməkdən (Qərbə doğru), tarixi materializm və ictimai məfkurəçilikdən, milli şüuru və milli təsanüdü (solidarizm) gücləndirməkdən, milli kültür və tərbiyədən bəhs edir.

İkinci bölüm türkçülüyün proqramıdır. Burada Ziya Göyalp əsasən dildə türkçülükdən və onun prinsiplərindən, estetik türkçülükdən, yəni estetik zövqdən, milli vəzndən, milli ədəbiyyatdan, milli musiqidən və digər milli sənətlərdən, əxlaqi türkçülük və onun növlərindən, hüquqi türkçülükdən, dini türkçülükdən, iqtisadi türk-

çülükdən, siyasi türkçülükdən və fəlsəfi türkçülükdən bəhs edir. Bütün bu başlıqlarda qoyulan problemləri elmi-fəlsəfi və sosioloji cəhətdən tədqiq və şərh edən Ziya Göyalpın fikir və mülahizələrini aşağıdakı kimi xülasə etmək olar:

1.Türkçülüyün tarixindən danışarkən özünəqədərki və müasirləri olan bütün türkçüləri yüksək dəyərləndirən Ziya Göyalp qeyd edir: «Türkçülük aləmi bu gün o qədər genişlənmişdir ki, bu sahədə çalışan sənətkarlarla elm adamlarının adlarını saymaq belə cildlərlə kitaba möhtacdır...Bununla bərabər əgər türkləri türkçülük məfkurəsi ətrafında birləşdirərək böyük bir çöküş təhlükəsindən qurtarmağa müvəffəq olan böyük bir dahi zühur etməsəydi, türkçülüyə dair bütün bu hərəkatlar nəticəsiz qalacaqdı. Bu böyük dahinin adını söyləməyə ehtiyac yoxdur. Bütün dünya bu gün qazi Mustafa Kamal paşa (Atatürk) adını müqəddəs bir kəlimə sayaraq hər an hörmətlə anmaqdadır...Bu qədər qəti və böyük inqilabı edən şəxs türkçülüyün ən böyük adamıdır. Çünki düşünmək və söyləmək asandır. Fəqət, həyata keçirmək və xüsusilə qələbə ilə nəticələndirmək çox çətindir» [207,15].

2.Türkçülüyün və qarşılıqlı olaraq millətin mahiyyətini şərh edərkən Ziya Göyalp irqi, qövmü, coğrafi türkçüləri, osmanlıçıları, islamçıları, fərdiçiləri kəskin tənqid edərək belə bir nəticəyə gəlir: «Türkçülük türk millətini yüksəltmək deməkdir» [207,16]. Millət nə irqi, nə qövmü, nə coğrafi, nə siyasi, nə də iradi bir zümrə deyildir. Millət dilcə, dincə, əxlaqca və gözəllik duyğusu baxımından müştərək olan, yəni eyni tərbiyəni almış fərdlərdən ibarət olan bir topluluqdur [207,122].

3.Türkçülük və turançılıqdan bəhs edərkən Ziya Göyalp belə bir nəticəyə gəlir ki: «Xarəzm, İran, Azərbaycan və Türkiyə ölkələri türk etnoqrafiyası etibarilə eyni millətin yurdlarıdır. Bu dörd ölkənin bütününə Oğuzustan adını verə bilərik. Türkçülüyün yaxın hədəfi bu böyük ölkədə yalnız bir mədəniyyətin hakim olmasıdır... Türkçülüyün uzaq məfkurəsi isə Turandır...Yüz milyon türkün (bu rəqəm XX əsrin əvvəllərinə aiddir - R.Ə.) bir millət halında birləşməsi, türkçülər üçün ən qüvvətli bir vəcd (ekstaz) qaynağıdır. Turan məfkurəsi olmasaydı, türkçülük bu qədər sürətlə yayılmayacaqdı. Bununla bərabər, kim bilir, bəlkə gələcəkdə Turan məfkurəsinin gerçəkləşməsi də mümkün olacaqdır. İdeya gələcəyin yaradıcısıdır» [207,25-28].

Yaşadıqları əsrin milliyyətçilik əsri olduğunu qəbul edən türkçülər göstərdilər ki, cahan dövləti yaratmaq fikri türkləri uzun müddət öz milliyyətini və mədəniyyətlərini unutmaq və hətta inkar etmək kimi əcaib bir duruma gətirib çıxarmışdır. Hətta millətin yaratdığı bir çox dövlət və imperatorluqlar belə millətin və ölkənin adını deyil, ayrı-ayrı şəxslərin və ya tayfaların adını (Qaraxanlılar, Səlcuqilər, Atabəylər, Eldənizlər, Elxanilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Teymurilər, Səfəvilər, Əfşarlar, Qacarlar və s.) daşımaqla türk adının belə az qala tarixdən silinməsinə gətirib çıxaracaqdı.

Türkçülük ideologiyasının yaradıcıları «böyük ideologiyalar kiçik əməlləri, mənfəətləri, şəxsiyyətləri unutdurur» [197,48] düşüncəsiylə hərəkətə başladılar və az bir zamanda böyük uğurlar əldə edərək türk millətinin qəlbində özlərinə şərəfli bir yer qazandılar.

Türkçülər ilk olaraq bir milliyyətçi kimi özlərindən əvvəlki ideoloji, siyasi, fəlsəfi və ədəbi cərəyanların millət, dil, din, adət-ənənə, əxlaq, vətən və s. kimi anlayışlara baxışlarını şərh edərək öz nəzəri fikirlərini irəli sürdülər. Bəllidir ki, türklərdə avropalılardan fərqli olaraq milliyyətçilik fikri daha çox ən zəif dövrlərində baş qaldırmış, sanki bir özünüqoruma ideyasına çevrilmişdir. Belə ki, bu məfkurə ilk öncə çinlilərə məğlub olub dövlətlərini itirmiş qədim türklərin yenidən istiqlal savaşına

başlamasına təkan vermiş və nəhayət, 682-ci ildə Qutluq Xaqanın başçılığı ilə «çətin savaşlardan sonra Doğu türk xanlıqlarının böyük bir hissəsini təkrar hür bir dövlət içində birləşdirməsinə» [191,98] gətirib çıxarmışdı.

Qeyd edildiyi kimi türkçülük məfkurəsi türklərin fəlakətə uğradığı, yenildiyi dövrlərdə önə çıxmış, millətin düşdüyü ağır vəziyyətdən çıxarmağa nail olmuşdur. Zətən millət, milli məfkurəyə və milli mənliyə ehtiyacı «ancaq böyük fəlakətlər zamanında hiss edir». «Fəlakət və məğlub dövrlərində qəflət yuxusuna dalmış olan millət birdən oyanır. Millət təşkil edən insanlar eyni qayə ətrafında toplanır, hamısının qəlbi eyni həyəcan ilə çarpır. Məhz bu ictimai və müqəddəs həyəcandan milli məfkurə yaranır» [197,13]. Türkçülük milli məfkurəsinin əsasında millət, ümmət və dövlət dayanır.

XX əsrin əvvəllərində imperatorluğun fikir həyatı müxtəlif cərəyanlarla çalxalanırdı. Bunlardan da ən öndə gedəni islamçılar, fərdiyyətçilər, qərbçilər və türkçülər idi.

Baxışlarındakı müəyyən ziddiyyətlərə, tarixi, elmi-nəzəri məhdud cəhətlərə baxmayaraq, ümumiyyətlə türkçülərin təkcə siyasi və ideoloji görüşləri deyil, dil, ədəbiyyat, tarix, estetika, əxlaq, hüquq, din, iqtisadiyyat və fəlsəfi görüşlərində də əsasən yanılmadıqlarını zaman təsdiq etdi.

Türkçülərə görə, topluluqların millət olması üçün sadəcə eyni irqdən olması yetərli deyildir. Eyni irqdən olan, eyni adət-ənənəyə, eyni qayda-qanunlara, eyni torpaq və din birliyinə nail olan və ən başlıcası, eyni dili danışan topluluqlar millət ola bilirlər. Bu fikri demək olar ki, milliyyətçiliyi qəbul edən bütün ideoloqlar təsdiq edir. Belə ki, ömrünün qırx ilini milliyyətçiliyin tarixini və mahiyyətini incələməyə sərf edən və milliyyətçiliyi XX və ondan sonrakı əsrlərin dini hesab edən məşhur amerikan sosioloqu Çarlton İ.N.Hayes «Milliyyətçilik: bir din» adlı



əsərində yazır: «Bir milliyyət öz varlığını, xarakterini, mənliyini həmişə olmasa da fiziki coğrafiya və ya bioloji irqdən deyil, mədəni və tarixi güclərdən alır. Dili bunların – mədəni və tarixi güclərin ilki və ən öndə gələni sayıram» [187,16].

Bəllidir ki, dil insanlara məxsusdur və ən azında əfsanəvi Babil Qülləsi dövründən günümüzə qədər dəyişən bütün şərtlərə baxmayaraq, dillər yaşamaq hüququ qazanmışdır. Hətta xalqlar, millətlər tarix səhnəsindən silinmiş, ancaq onların dillərindən nümunələr qalmışdır. Qədim Şumer abidələri, Misir mixi yazıları, Bisütun yazıları və bu kimi yazılı sənət nümunələri tarixdən silinmiş və ya başqa xalqların içərisində əriyib yox olmuş xalqların dilini bu gün də əks etdirməkdədir.

Belə bir nəzəri fikir də hakimdir ki: «hər hansı bir cəmiyyətdə bütün təbəqələrin bir-birini anlamaması, bir-birinin dilini başa düşməməsi o cəmiyyətdəki rifahı təhlükəyə soxar və ya bərabərliyi yox edər» [190,207-208].

Türkçülər anlayırdılar ki, türk birliyinin yaranmasında, türklük şüurunun daha da qüvvətlənməsində milli dilin çox mühüm rolu var. Çünki türk dili min illər boyu türk dünyasının özəyini təşkil etmiş, türk mədəniyyətinin, türk ədəbiyyatının və türk birliyinin təməlini formalaşdırmışdı. Türk düşmənləri bunu duyduqlarındandır ki, türkün yox edilməsi üçün ilk növbədə onun dilini yox etməyə çalışmışlar. Türk milləti yüz illər boyu xaricdən və daxildən olan hər cür basqılara sinə gərərək öz dilini unutmamış, bu dildə danışmağı və düşünməyi varlığının, mövcudluğunun bir hissəsi saymışdır. Çünki bilirdi ki, «dil təfəkkürlə bağlıdır». Dili olmayanın təfəkkürü də yoxdur. Təfəkkürü olmayanın isə heç nəyi yoxdur. O, sadəcə kimlərinsə alətidir. Bu düşüncəni təəssüflər olsun ki, min illər boyu Uzaq və Yaxın Şərqdə hökmranlıq edən türk hökmdarlarının çoxu unutmuş, dövlət və imperiya düşüncəsinə dil və qarşılıq olaraq mil-

ləti qurban vermişlər. Şah İsmayıl Xətai, Qaramanoğlu Məmməd bəy kimi çox az hökmdarlarımız və dövlət başçılarımız olmuşdur ki, milli dili qorumağı, onu dövlət dili elan etməyi anlamış, bu yolda türklüyə xidməti hər şeydən üstün tutmuşlar [188,29].

Mustafa Kamal Atatürk deyirdi: «Millətin çox açıq keyfiyyətlərindən biri də dildir. Türk millətindənəm deyən insan hər şeydən əvvəl və mütləq şəkildə türkcə danışmalıdır. Türkcə danışmayan bir insan türk mədəniyyətinə, türk xalqına bağlı olduğunu iddia edərsə buna inanmaq doğru deyildir» demişdir [188,29].

Bütün bu deyilənlər onu sübut edir ki, dil müstəqilliyi siyasi müstəqilliyin başlanğıcıdır.

Dil davası, millət olaraq varlıq, müstəqillik davasıdır. Mənsub olduğumuz türk dili vətənimizin birlik və bütünlüyünü, milli tariximizin davamlılığını yaşadır.

Düşüncə, elm və tədris həyatımızda türk dilinin hökmranlığı əsasdır. Başqa dilləri bilmək və gözəl bilmək, o dillərdə yazılan elmi və bədii təfəkkürü ana dilində xalqa çatdırmaq çox yararlı və zəruridir. Avropa məhz belə yüksəlibdir.Bütün bu deyənlərdən aşağıdakı nəticələr əldə edilmişdir. Millətlər yalnız milli ideologiyaları, təfəkkür və xarakteri ilə mədəniyyətə, texnologiyaya, elmə və sonda dövlətə yiyələnə bilərlər. Bu yolda yüzlərlə yüksək səviyyəli insanlar, əvəzsiz elm, mədəniyyət, incəsənət, ədəbiyyat və siyasi xadimələri min cür əzab-əziyyətə qatlaşaraq, hətta lazım gəldikdə canlarını belə qurban verərək millətlərini sonda hürriyətə qovuşdurmuşlar. Türk dünyasında, o cümlədən də Azərbaycanda bu proses gec də olsa XIX əsrdən başlayaraq XX əsrin birinci yarısında və sonunda öz bəhrəsini vermişdir.

Onlar bu məqsədlə elmin tərəqqisində, millətin qurtuluşunda istiqamətləndirici amil kimi mühüm olan fikirlər irəli sürmüşlər. Bunlardan bir çoxunun məfkurəsinin adı türkçülük olmasa da, mahiyyəti məhz türkçülük olmuşdur. Çünki türkçülük məfkurəsi də digər mütərəqqi məfkurələr kimi xalqın uğradığı haqsızlıq və məşəqqətləri anladan, cəmiyyətin ətalət və süstlüyünü doğuran səbəbləri aşkara çıxaran və bunlardan çıxış yollarını göstərən ən güclü, ən sistemli fikirlər toplusudur.

Hər milliyyətçiliyin öz adı olduğu kimi türk milliyyətçiliyinin də adı türkçülükdür.

Türkçülük türk milətinin milli mənafeyini özündə əks etdirən dünyagörüşüdür.

Türkçülük türk millətini, onun vətənini, dövlətini sevmək, türk millətinin birlik və bərabərliyini qorumaq, millətini yüksəltmək uğrunda əzmlə mübarizə aparmaq deməkdir.

Türkçülük türk millətinin şərəfli tarixinə, yaratdığı cahanşümul mədəniyyətə sahib çıxmaq, türk mədəniyyətini, türk dilini, türk əxlaqını qorumaq, onu daha da ucaltmaq deməkdir.

Bu anlamda türk mədəniyyətini yüksəltmək türk millətini yüksəltmək, türk dilini qorumaq türk millətini qorumaq, türk dilini inkişaf etdirmək türk millətini inkişaf etdirmək deməkdir. Türk əxlaqını qorumaq, türk ailəsini və bütövlükdə türk millətini qorumaq deməkdir. Türk adət-ənənəsini yaşatmaq, türk millətini yaşatmaq, türkcə yazmaq və yaratmaq türk təfəkkürünü inkişaf etdirmək deməkdir. Türkcə tədris türklüyə əbədiyyət qazandırmaq deməkdir.

Türkçülük, türk millətinin haqqının, ləyaqətinin, ədalətinin təmsilçisi deməkdir.

Türkçülük, türk millətini yox etməyə yönələn bütün ideoloji sistemlərə, türk millətinə qarşı çıxan, onu sarsıtmağa çalışan bütün qüvvələrə, türk milli varlığına zərərli olan hər şeyə qarşı mübarizədir.

Türkçülük ideologiyası türklərə XX əsrdə yaşamaq haqqı qazandıran milli dövlətlər bəxş etdi.

Tarix sübut etdi ki, milli ideologiyası olmayan bir millətin nə iqtisadiyyatı, nə siyasəti, nə hüququ və nə də mədəniyyəti, dili və ədəbiyyatı inkişaf edə bilər və nə də o millət dövlət qura bilər.

Bütün dünya hadisələrini fikir, düşüncələr idarə etmiş, edir və edəcək. Millətləri də onların milli ideologiaları idarə etmiş, edir və edəcək.

İnsanı şüur, ağıl, iradə, cəsarət və azadlıq dəyərləndirdiyi kimi, millətləri də onların müstəqilliyi, haqq, ədalət və hürriyyət, demokratiya uğrunda apardığı mübarizə, tarixdə oynadığı rol və yaratdığı mədəniyyət dəyərləndirir. Mədəniyyətin ən yüksək forması isə demokratik dövlətdir.

### § 4. XX əsrin əvvəllərində ictimai – siyasi hərəkat və onun inkişaf mərhələləri.

XIX əsrin 90-cı illərindən başlayaraq Azərbaycanda kapitalizmin sürətlə inkişafı və bununla əlaqədar olaraq milli burjuaziyanın formalaşması milli mənlik şüurunun oyanışına, milli mədəniyyətin inkişafına olan milli hərəkatların yeni vüsət almasına təkan verdi. 1905-ci il birinci rus burjua demokratik inqilabının təsiri ilə söz azadlığı sahəsində qismən də olsa, müəyyən imkanlar yaranır, milli mətbuatın dirçəlişi başlanır. İlk milli ideoloji mətbu orqan olan «Şərqi-Rus», ondan sonra «Həyat», «Molla Nəsrəddin», «Füyüzat», daha sonra isə «Açıq söz», «İstiqlal», «Azərbaycan» və s. kimi qəzet və jurnalların sayəsində milli hərəkat ümumazərbaycan miqyası alır. Bütün bunların əks-sədası İran məşrutə hərəkatından eşidilir. Tehranda məşrutə elan olunur, məclis açılır, «Qanuniəsasi» (konstitusiya) qəbul edilir. Yüksələn bu inqilabda da Azərbaycan türkü, «Sərdari-milli» adını qazanmış Səttarxan başçılıq edir. Güney Azərbaycanda milli azadlıq hərəkatı (1906-1911) daha böyük vüsət alır. Cəmiyyətdə, sosial tərəqqidə inkişaf inqilabi səciyyə almağa başlayır. Türkiyədə «Gənc türklər» inqilabi hərəkatı böyük əks-səda doğurdu. Məhz bu dövrdə də Azərbaycanda başda «Molla Nəsrəddin»çilər olmaqla inqilabi-demokratiya ideyaları təşəkkül tapmağa başlayır. Bu dövrün ictimai-siyasi, milli intibahı obyektiv olaraq ümummilli şüuru və sonda Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnən demokratik milli istiqlal hərəkatını hazırlamışdır. Bu milli hərəkatın hazırlanmasında Həsən bəy Zərdabinin, Məhəmməd ağa Şahtaxtlının, Eynəli bəy Sultanovun, Sultan Məcid Qənizadənin, Ömər Faiq Nemənzadənin, Cəlil Məmmədquluzadənin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Mirzə Ələkbər Sabirin, Əliqulu Qəmküsarın, Əlimərdan bəy Topçubaşovun, Üzeyir bəy Hacıbəyovun, Firudin bəy Köçərlinin, Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Abbas Səhhətin, Hüseyn Cavidin, Məhəmməd Hadinin, Əhməd Cavadın, Hüseyin Minasazovun, Abdulla Şaiqin, Nəriman Nərimanovun, xüsusilə Məmməd Əmin Rəsulzadənin və adları şərəflə yad edilməyə layiq olan onlarla qabaqcıl Azərbaycan ziyalılarının müstəsna xidmətləri olmuşdur. Məhz onlardan bir qismi qabaqcıl maarifçi kimi xalqın ictimai-milli şüurunun formalaşmasında mühüm rol oynamışsa, digər bir qismi də sırf siyasətçi kimi milli Azərbaycan Dövlətinin yaranmasında xüsusi xidmətlər göstərmiş və milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülünə və ən nəhayət Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına nail ola bilmişlər.

Əvvəldə qeyd olunduğu kimi, Azərbaycan mütəfəkkirləri Azərbaycanda dövlət olduğu dönəmlərdə dövlətçiliyə dair öz fikir və mülahizələrini irəli sürmüş, Azərbaycanın rus və fars istilası dövrlərində isə milli dövlətçiliyin bərpası haqqında düşünmüş, öz ictimai-siyasi, fəlsəfi-hüquqi fikir və mülahizələrini bu istiqamətə yönəltmişdir. Belə ki, istər Mani, istər Məzdək, istər Cavidan və Babək

və istərsə də Azərbaycanın çar Rusiyası tərəfindən istilasından sonra Şimali Azərbaycanda baş vermiş xalq hərəkatı və bu dövr Azərbaycan mütəfəkkirlərinin ictimai-siyasi görüşləri məhz Azərbaycanda müstəqil milli dövlət yaratmaq məqsədinə xidmət etmişdir.

«Tarixin elmi, mənəvi-mədəni irsini yaratmış görkəmli şəxsiyyətlərin – alimlərin, yazıçıların, şairlərin yaradıcılığını sonrakı nəsillərə qoyduqları mənəvi sərvətlər sistemini dərk etməyən, mənimsəməyən xalq indisini dərk edə, gələcək perspektivini, bir sözlə, kimliyini müəyyənləşdirə bilməz» [109,6].

XX əsrin əvvəllərindən başlayaraq çar Rusiyası ərazisində, o cümlədən də Quzey Azərbaycanda «inzibati – polis aparatının yenidən qurulması və onun nəzarət-cəzalandırma funksiyalarının genişləndirilməsi çarizmin ordu, jandarm, polis, məhkəmə və ümumiyyətlə dövlət aparatı inqilabi çıxışları və milli-azadlıq hərəkatlarını boğmağa gücü çatmadığından imperiya daxilində fövqəladə səlahiyyətlərə malik müvəqqəti general-qubernator təsisatları yaradıldı və bir çox quberniyalarda, o cümlədən də Bakı və Yelizavetpol (Gəncə) quberniyalarında hərbi vəziyyət tətbiq edildi. Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində baş verən iqtisadi böhran və Rusiyanın Yaponiya qarşısında məğlubiyyəti «xalqlar həbsxanası» olan çar Rusiyasının sütunlarını laxlatdı, bütün imperiyanı, o cümlədən də Azərbaycanı tətillər dalğası bürüdü. «Daha tez-tez baş verən fəhlə və kəndli çıxışları, müstəmləkəçi siyasət yeridən hakimiyyət orqanlarının özbaşınalıqları bütövlükdə cəmiyyətin bütün təbəqələrində narazılığın artmasına və onun siyasiləşməsinə» [30,104] səbəb oldu. Bütün bunlar hakimiyyəti «Manifest» elan etməyə məcbur etdi. Bu manifestdə öz əksini tapmış müddəalar «Rusiya əsarətində inləyən bütün millətlərin həyatında olduğu kimi... Rusiya məhkumu türklərin, o cümlədən Azərbaycan türklərinin də həyatında mühüm bir dövrün başlanğıcı



oldu. Bu tarixdən etibarən nisbətən geniş nəfəs almaq imkanı tapan Azərbaycan şeir, ədəbiyyat, teatr, musiqi, mətbuat, nəşriyyat və maarif sahəsində olduğu kimi, ictimai-siyasi fikir və cəmiyyətlər baxımından da irəliləməyə başladı. Gündəlik qəzetlər təsis olundu. Mətbuatın təsisilə Qafkasyada siyasi, ictimai və milli bir fikir təşəkkül etdi» [113,24].

Çarın bu «Manifest»indən yararlanan Azərbaycan ziyalıları demokratik azadlıq və hüquqlar uğrunda mübarizəni daha da genişləndirməyə, gizli təşkilatlar yaratmağa, Azərbaycan ictimai-siyasi həyatında fəal iştirak etməyə başladılar. Bu dövrdə Azərbaycanda «Müsəlman Məşrutə» partiyası [182,631], Ə.Topçubaşov, Ə.Ağayev və İ.Ziyadxanovun başçılıq etdikləri «İttifaq-ül-müslimin», «Difai» və ya «Müdafiə» adlı milli partiyalar meydana çıxdı» [102,327]. Həmin dövrdə ədəbi-bədii maarifçiliyə siyasi maarifçilik də qoşuldu. İnqilabi hərəkatların təsiri ilə bir-birinin ardınca yeni-yeni mətbuat orqanları yaranmağa başladı. Bu dövrdə nəşr olunan «Şərqi-Rus», «Həyat», «İrşad», «Tazə həyat», «Qoç-Dəvət», «Təkamül», «Baku» kimi qəzetlər, «Dəbistan», «Füyuzat», «Məktəb», «Dirilik», «Şəlalə» kimi jurnallar müxtəlif yönlü və müxtəlif dünyagörüşlü Azərbaycan ziyalılarını öz ətrafında birləşdirməyə müvəffəq oldular. Bütün bu qəzet və jurnallar dövrün mühüm, rəngarəng ictimai-siyasi, elmi-fəlsəfi, ədəbi-bədii məsələlərini əks etdirən, ümummilli oyanışa çağıran tribunalara çevrildilər.

Doğrudur, hələ XX əsrin lap əvvəllərində çar irticasının, siyasi təqiblərin hələ də güclü olduğu bir dövrdə Azərbaycanda qeyri-leqal şəkildə olsa da siyasi təşkilatlar yaranmışdı. Əsrin əvvəllərində Azərbaycanda formalaşmağa başlayan ilk siyasi təşkilatlar da bütün Rusiyada olduğu kimi, sosialist yönümlü idi. Belə ki, neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Bakıya axışan rus, erməni və Güney Azərbaycan fəhlələri ilə yanaşı buraya Rusiyada

inqilabi hərəkatda iştirak etmiş rus və gürcü sosial-demokratları da kütləvi sürgün edilmişdi.

1904-cü ilin oktyabrından Bakıda müsəlman aləmində ilk sosial-demokrat «Hümmət» təşkilatı fəaliyyətə başladı» [30,104-105-106]. 1904-cü ildə bu partiyanın nəzdində «Hümmət» adlı türk sosialist partiyası yaradıldı «Bir müddət rus sosial-demokrat partiyasının nəzdində fəaliyyət göstərən bu partiya 1905-ci il inqilabından sonra yarımmüstəqil, 1917-ci il inqilabından sonra isə müstəqil Azərbaycan Kommunist Partiyası adlandı» [39,71]. Sonradan bu partiya dörd yerə parçalanaraq, üzvlərinin bir qismi bolşeviklərə, bir qrupu menşeviklərə, digər qismi sə eserlərə, bir qrupu da «Müsavat»a qoşulmuşdu.

Bəzi tədqiqatçılara görə [39,72-73] «Hümmət» təşkilatını M.Ə.Rəsulzadə yaratmışdır. Sovet dövrü Azərbaycan tədqiqatçıları çox qorxulu və «mürtəce pantürkist və panislamist» kimi sayılan Məmməd Əmin Rəsulzadənin «Hümmət» təşkilatının yaradıcısı olduğunu nəinki inkar etmiş, hətta onun adını belə çəkməmiş və göstərmişlər ki, «1904-cü ilin payızında Bakı komitəsinin nəzdində sonradan təşkilat şəkli alan Azərbaycan sosial-demokrat «Hümmət» təşkilatı yarandı. «Hümmət» təşkilatında Stalin, N.Nərimanov, S.M.Əfəndiyev, M.Əzizbəyov, A.Caparidze və başqa bolşeviklər fəaliyyət göstərirdilər» [31,359]. Bunların əksinə olaraq «Azərbaycan istiqlal mübarizəsi tarixi» əsərinin müəllifi Hüseyn Baykara isə tarixi qaynaqlara əsaslanaraq yazırdı: «Həqiqət belədir ki, «Hümmət» təşkilatının yaradılmasında M.Ə.Rəsulzadə və Stalin əsas rol oynamışlar. M.Ə.Rəsulzadə 1905-ci il inqilabından sonra, 1909-cu ildə başlayan İran inqilabında da «Hümmət» təşkilatının fəal nümayəndəsi kimi iştirak edir» [39,73-74]. Nəriman Nərimanov və Məşədi Əzizbəyov bu təşkilata 1905-ci ildə daxil olmuşlar. «Hümmət» təşkilatının türk dilində «Hümmət» və «Təkamül» adlı qəzetləri nəşr edilirdi. Daha sonralar bu təşkilat bir çox siyasi məsələlərdə – tətil və nümayişlərdə iştirak edir, beynəlmiləlçiliyin təbliği, dövlət dumasına seçkilər və s. – bağlı RSDFP-nin Bakı Komitəsi (BK) ilə birgə fəaliyyət göstərmişdir. Radikal əhvali-ruhiyyəli Azərbaycan ziyalılarının sosial-demokratiya hərəkatındakı iştirakını M.Ə.Rəsulzadə daha dəqiq səciyyələndirmişdir: «Bu gənc nəsil (radikal əhvali-ruhiyyəli Azərbaycan ziyalıları nəzərdə tutulur- R.Ə.) birinci rus inqilabı dövründə rus cəmiyyətinin müxalifətçi qanadına rəğbət bəsləyirdi. Onlar müxalifətçi sosializmdə çarizmə qarşı mübarizədə ən sadiq olmasa da, ən əlverişli müttəfiqi görürdülər» [30,106].

«Hümmət» bolşevik-daşnak birləşməsi tərəfindən törədilən faciəvi millətlərarası qırğının, talanların dayandırılmasında əlbəttə ki, böyük rol oynamışdır. Bu qəzet bağlandıqdan sonra hümmətçilər «Təkamül» və onun davamı olaraq «Yoldaş» qəzetini nəşr etdirdilər. Bu qəzetlərdə hümmətçilərdən S.M.Əfəndiyev bütün millətlərin zəhmətkeşlərini mütləqiyyət və kapitalistlərlə mübarizədə birləşməyə çağırırdısa, M.Ə.Rəsulzadə və M.Hacınski milli vəhdət, öz milli müqəddəratını təyin etmək hüququ uğrunda mübarizədə müsəlman xalqlarının birliyi ideyalarına üstünlük verirdilər. Bolşeviklərin milli məsələyə münasibətlərindən narazı qalan bir çox Azərbaycan və Rusiyanın tərkibində olan digər müsəlman türk milli ziyalıları artıq türk xalqlarının milli özünüdərk məsələlərini ön plana çəkir, milli ideologiyanın əsaslarını proqram və tələblər şəklində işləyib hazırlayırdılar. Bu işdə görkəmli ictimai xadimlər olan M.Şahtaxtlı, Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.Hacınski, Alim Əfəndi Maksud, Yusif Akçura, Bünyamin əfəndi Ədhəm, İsmayıl bəy Qaspıralı, Rəşid Əfəndi İbrahimov və bir çox ziyalılar önəmli rol oynamışlar. Onlar «Tərcüman», «Kaspi», «Şərqi-Rus», «Həyat» və bu kimi qəzetlərdə Rusiya müsəlmanlarının

siyasi hüquqsuzluğundan, ictimai-siyasi və mədəni-maarifçilik fəaliyyətindən daha çox millətin oyanmasına, onun siyasi təşkilatlanmasına, milli partiyaların, xeyriyyə cəmiyyətlərinin yaradılmasına və s. çalışırdılar. Ümumiyyətlə, «Millətçilik şüurunun dirçəldiyi bir dövrdə millətlərə öz dövlətini yaratmaq qisməti nəsib olanda da bu xalqın övladları sinələrini qabağa verib, mücadiləyə qoşuldular» [16,3].

Azərbaycan və eləcə də digər türkdilli xalqların qabaqcıl milli ziyalılarının bu istiqamətdə yürütdükləri fikir və mülahizələri, nəhayət, Əlimərdan bəy Topçubaşov tərəfindən proqram şəklində işlənərək layihə formasında hələ 1905-ci il 8 apreldə Peterburqda Rəşid Əfəndi İbrahimovun evində Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Alim Əfəndi Maksud, Bünyəmin Əfəndi Ədhəm və İsmayıl bəy Qaspıralı tərəfindən əsası qoyulan, I Qurultayı 20 may 1905-ci ildə Peterburqda Zakir Həzrətin qızı Aliyə xanımın nigah mərasimində, II Qurultayı isə 22 yanvar 1906-cı ildə Peterburqda Həsən Əfəndi Həbibullanın iqamətgahında, 200 nəfərə yaxın adamın iştirakı ilə keçirilən Rusiya Müsəlmanları İttifaqı Partiyasının 23 maddədən ibarət nizamnaməsi, 72 maddədən ibarət proqramı 1906-cı ildə Nijni Novqorodda çağırılan, lakin şəhər valisi icazə vermədiyindən gizli şəkildə gəmidə keçirilən III Qurultayında qəbul edildi. III Qurultayda «İttifaq» partiyasının bütün Rusiya müsəlmanlarını təmsil edən Rəyasət Heyəti, 15 nəfərdən ibarət Mərkəzi İdarə Heyəti, mərkəzi Bakı şəhəri, sədri Əlimərdan bəy Topçubaşov seçilir. Rusiya müsəlmanlarının gələcək IV Qurultayının 10 avqust 1907-ci ildə də Nijni Novqorodda keçirilməsi qərara alınır.

«İttifaq» Partiyasının proqramında «Siyasi məqsədlər», «Əhalinin hüququ», «Dini qaydalar», «Məhəlli muxtariyyət», «Məhkəmə», «Maarif», «Maliyyə işləri», «Torpaq məsələləri», «Fəhlə məsələləri» və «Dövlət quruluşu» ilə bağlı 10 bölmə, 72 maddə öz əksini tapmışdır. Qurultay həmçinin İran dövlətinin məşrutə (konstitusiya) yolu ilə getməsi, Zaqafqaziyada «erməni-müsəlman konflikti»nə dair və bir neçə belə qətnamə qəbul etmişdir» [39,130-163]. «Rusiya Müsəlmanları İttifaqı» Xalq partiyasının proqramında bizi ən çox maraqlandıran «Dövlət quruluşu» bölməsidir. 8 maddə və bir qeyddən ibarət olan bu bölmədə göstərilir:

1) Rusiya üçün bu gün ən münasib dövlət quruluşu «İttifaqın» rəyinə görə «həm qanun, həm də parlament əsasları ilə təmin olunacaq monarxiyadır». Belə monarxiyada monarxın həm hüququ, həm hakimiyyəti («Qanuni-əsası») konstitusiya ilə təhdid olunur. Dövlət Dumanın qoyduğu qanun əsasında fəaliyyət göstərməli və həmin qanuna əməl olunmalı, vəkillər isə monarxa nəzarət etməlidirlər.

2) Xalq vəkilləri – Rusiyada yaşayan bütün xalqlara aid olmaq şərti ilə – Dövlət Duması, yaxud Ruşiya parlamenti ismində olacaq. Yalnız bir məclis olaraq təşkil ediləcək, vəkillər ümumi, gizli, bərabərlik prinsipi ilə seçiləcəkdir. Müsəlmanların vəkilləri əhalinin ümumi sayı ilə mütənasib olacaq.

Ayrıca qeyd kimi göstərilir: «Qadınların da iştirak etməsini nəzərə alaraq seçki qanunları bu xüsusda hazırlanacaqdır».

Sənəddə bu da xüsusi olaraq qeyd edilir ki, vəkillər heyəti arasından seçilərək monarx tərəfindən qəbul və təsdiq ediləcək nazirlərin hər biri öhdələrinə düşən işlər üçün vəkillər heyəti qarşısında məsuldur [39,149-150].

Bütün bunlarla yanaşı «Proqram»ın ayrı-ayrı bəndlərində xüsusilə göstərir ki, rus çar rejimi tərəfindən türklər ruslardan fərqli olaraq hansı hüquqlardan məhrum edilmişlər.

Əslində Əlimərdan bəy Topçubaşovun uzaqgörənliklə işləyib hazırladığı bu maddələr gələcək türk xalqları-

nın milli müstəqilliyə doğru atılan ilk addımı idi. Bu maddələrdə həm də göstərilirdi ki, «muxtariyyət nümayəndələrindən vilayət məclisi qurulur...Vilayət məclisinin üzvləri vilayətin məhəlli işlərinə aid məsələlərdə qanun tərtib etmək hüququna malikdirlər» (maddə 33). Vilayətə aid məsələlərin hamısı, maliyyə işi də daxil olmaqla məhəlli muxtariyyət idarələrinin səlahiyyətlərinə görə vilayət məclislərində müzakirə edildikdən sonra dövlətin icraiyyə orqanları tərəfindən həyata keçirilir (maddə 34). Vilayətdə hər hansı bir millət çoxluq təşkil edərsə, bu vilayətin idarələrində həmin millətin dili ümumi dil olmalıdır. Rus dili ümumi dövlət dili olmaq şərtilə mərkəzi idarələrdə dəniz və quru qoşunlarda işlədilməlidir (maddə 35). Bütün xalqlar mədəni, siyasi hüquq baxımından bərabər olmaqla yanaşı, dövlətin əsas qanunları xalqların hamısını mədəni hüquqlarla təmin etməlidir, yəni hər dildə və hər məhəlli dialektdə danışmaq, məktəb, mədrəsələr inşa etmək, uşaqları tərbiyə etmək, dil və ədəbiyyat cəmiyyətləri, müəssisələri yaratmaq xüsuslarında millətlərin hər birinə tam azadlıq verilir [39,151-152].

Hüquqşünas Əlimərdan bəy Topçubaşov tərəfindən rusca mükəmməl şəkildə hazırlanan və Qurultaya təqdim olunan səkkiz «Proqram» layihəsi içərisindən seçilərək müzakirəyə buraxılan bu «Proqram» əslində rus imperatorluğunu konstitusiyalı monarxiyadan daha çox türklərdən və slavyanlardan ibarət konfederasiyalı dövlət sisteminə uyğunlaşdırmağa yönəlmiş bir proqram idi. Həmin proqramın qəbulundan sonra qurultayda çıxış edən Əlimərdan bəy Topçubaşov demişdi: «Ey möminlər, ey qardaşlar! Mən bu gün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərif edə bilmirəm... Bu günün bundan sonra Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir» [39,162-163].

Azərbaycan tarixində ikinci milli-siyasi partiya Əhməd bəy Ağayev tərəfindən 1905-ci ildə Gəncədə yaradılan «Difai» partiyasıdır. Bu partiya yarandığı gündən Azərbaycan xalqı üçün çox böyük işlər görmüşdür... «Türk və müsəlman xalqına ermənilər tərəfindən törədilən hücumlara qarşı» [39,71] müqavimət göstərərək, «Müdafiə» təşkilatı adını almışdı.

Azərbaycan siyasi tarixində mühüm yer tutan partiyalardan biri də 1906-cı ildə Tatarıstanının Nijni Novqorod şəhərində keçirilən Rusiya müsəlmanlarının qurultayının qərarı ilə yaradılan, əsl adı «İttifaqül-müslimin» olan «Rusiya Müsəlmanları İttifaqı» partiyasıdır idi.

Azərbaycan siyasi tarixində özünəməxsus yeri olan və Azərbaycana ilk Demokratik Cümhuriyyəti bəxş edən dördüncü siyasi partiya isə 1911-ci ildə yaradılan «Türk ədəmi mərkəziyyət partiyası» - «Müsavat» olmuşdur.

Azərbaycan ziyalılarının böyük bir hissəsi məhz bu adı çəkilən siyasi təşkilatlarda öz siyasi fəaliyyətlərini davam etdirmişlər. Bütün ideoloji və siyasi fərqlərinə baxmayaraq, bu siyasi partiyaları bir amal birləşdirirdi ki, bu da istiqlala yetişmək üçün çarizmə, çar istibdadına qarşı mübarizə idi.

Bütün bunlarla yanaşı heç bir siyasi təşkilatda təmsil olunmayan, lakin ideoloji və siyasi mübarizədə yuxarıda adı çəkilən siyasi partiyaların mövqeyindən çıxış edən, onlara dəstək verən ziyalılarımız da az deyildi. Bu siyasi təşkilatların hər birinin də özünəməxsus siyasi-ideoloji orqanları var idi ki, bu mətbu orqanları ilə öz fikir, düşüncə, ideologiya, fəlsəfi və dini dünyagörüş və siyasi proqramlarını, platformalarını açıqlayırdılar. Belə ki, Azərbaycanda bolşevik ruhlu yerli mətbuat orqanları olan «Hümmət» (1904), «Dəvət-Qoç» (1906), «Prizıv», «Bakinski raboçi», «Təkamül» (1906), «Yoldaş», «Ryadovoy», «Qudok» kimi qəzetlər nəşr olunur və bu qəzetlərin ətrafında toplanan N.Nərimanov, S.Ağamalıoğlu, A.B.Yusifzadə, T.Şahbazi və b. kimi Azərbaycan bolşevikləri sol radikal ideyaları təbliğ edir, Azərbaycan ədə-

biyyatında tam yeni tipli «proletar ədəbiyyatı»nın ilk nümunələrini yaradırdılar. Bunlar müasirliyi daha çox çarizmə qarşı mübarizədə görür, Azərbaycanda da sosialist inqilabının qələbə çalmasına çalışır və Azərbaycanı sosialist Rusiyasının tərkibində görmək istəyirdilər.

Milli ruhlu ziyalılar isə əsasən «Şərqi-Rus», «Kaspi», «Kafkaz», «İrşad», «Proqres», «Tərəqqi» , «Həyat», «Açıq söz» qəzetləri və «Füyuzat» və «Molla Nəsrəddin» jurnalları və s. ətrafında birləşərək özlərinin qərbçilik mövqelərini və onun Şərq aləminə, o cümlədən də Azərbaycana tətbiqini izah etmiş, Böyük Fransa inqilabının elan etdiyi və dünya liberal-demokratik fikrinin əsas leytmotivinə çevrilmiş «Azadlıq, bərabərlik, ədalət» prinsiplərinin qızğın təbliğatçıları olmuş, Şərq xalqlarının milli azadlıq hərəkatlarını müdafiə etmiş, demokratik ictimai fikrin inkişafında mühüm rol oynamışlar. «Onlar son dərəcə hürriyyətpərvər, azadlıq carçısı, haqq və ədalət uğrunda yorulmaz mübariz, öz nəzəri istək və arzularında həmişə aktual olan «Yolumuz hayanadır?» tarixi sualın cavabını tapmağa çalışan, Qərbin və Rusiyaının anti-islam meyllərinə qarşı çıxan, bəşəri ideallar carçısı, mütərəqqi ideallarla yoğrulmuş türk dünasının mənəvi kumirləri, alim, publisist, hüquqşünas, ilahiyyatçı, materialist, idealist, yazıçı, şair, dramaturq, qərbçiliklə milliyyətçiliyin maarifçilik metodologiyası əsasında sintezini yaradan, milli dil, milli ləyaqət qoruyucuları» [39,41-36-37] olmuşlar.

Heç şübhəsiz ki, adı çəkilən siyasi partiyalar içərisində Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan yeganə davamlı partiya «Müsavat» partiyası idi. Əvvəlcə «ümmətçilik» ideologiyası əsasında qurulan və proqramını bu yöndə tərtib edən «Müsavat» partiyası az vaxt ərzində görünməmiş bir inkişaf yoluna qədəm qoymuşdu». Bu partiyanın «Ümmət» çərçivəsindən qurtulub «millət» dövrünə qədəm qoymasında İstanbuldan Bakıya



qayıdan və özü ilə «türkçülük» idyeasını gətirən Məmməd Əmin Rəsulzadənin müstəsna xidmətləri olmuşdur. 1915-ci ildə «Açıq söz» qəzetini çıxarmağa başlayan Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Göyalpın «türkçülük» fikirlərini yaymağa başladı. Daha sonra Krımda İsmayıl bəy Qaspıralının «Tərcüman» qəzetində çalışan və onun «türkçülük» məfkurəsinin təsiri altında qalan Nəsib bəy Yusifbəylinin Gəncədə yaratdığı «Türk ədəmi - mərkəziyyət» partiyası da «Müsavat»la birləşdikdən sonra təşkilat daha da güclənmiş, demək olar ki, Azərbaycanda təşəbbüsü tam ələ almışdı. Artıq onun proqramında da dəyişikliklər edilmiş, tam milli bir partiyaya çevrilmişdi. ««Müsavat» bu sürətlə milli birlik və milli həmrəyliyin ana şərtlərindən biri olan mənəvi həmrəyliyin təməlini qoymuş və milli qurtuluşla onun ardınca gələcək milli hakmiyyət üçün milləti polad kimi monolit, həm mənəvi, həm də maddi bir vücud halına gətirəcək ən doğru yolu göstərmişdir... «Müsavat»ın milli məfkurəni təmsil edən yeganə millət firqəsi (partiyası) olmasının əsaslarından biri də budur» [113,241].

Ən ağır şəraitdə «Azərbaycan siyasi həyatını öz arxasınca aparan «Müsavat» partiyası, bitərəf qrup, tanınmış, təcrübəli siyasi xadimlər və başqa partiyalar 1918-ci il mayın 28-də bir yerə toplaşaraq Azərbaycının istiqlaliyyətini bütün dünyaya elan etdilər» [39,230].

Rusiyanın müstəmləkə rejimində yaşayan türkdilli xalqların öz siyasi təşkilatlarını yaratdıqlarını görən çar üsul-idarəsi bu hərəkatı boğmağa, hərəkatda əsas rol oynayan Azərbaycan türklərinin rəhbərlərinə qarşı fitnəkarlıqlar törətməyə və ümumiyyətlə, «İttifaq» partiyasının fəaliyyət göstərməsinə hər cür maneələr yaratmağa başladılar. Stolıpinin irtica və istibdad rejimi dönəmində «İttifaq» partiyasının fəaliyyəti tamamilə qadağan edildi. Lakin artıq gec idi. «İttifaq» Rusiyada yaşayan bütün türk və müsəlman xalqlarının həyatına öz hüquqları uğ-

runda mübarizə toxumunu səpmişdi. Bu toxum münbit zəmin yaranan kimi baş qaldırıb öz bəhrələrini verməyə başladı. Belə ki, bu partiyanın təşəbbüsü ilə I Dövlət Dumasına mümkün qədər çox müsəlman deputat seçilmiş. Bakıda, Qazanda, Krımda Partiyanın şöbələri yaranmışdı. «İttifaq»çılar «Rusiyanın Respublika əsasında qurulmasını, torpaq və fəhlə məsələsinin ədalətə, haqqa, insanlığa uyğun şəkildə həll edilməsini, bütün siyasi haqların, söz, yığıncaq, nəşriyyat hüriyyətlərinin tanınmasını istəyirdilər. Milli həyatımız üçün milli mədəni muxtariyyət verilməsində və vəqflərin özümüz tərəfindən idarə olunmasında israr edirdilər...bütün Rusiyadakı müsəlmanların milli-mədəni haqlarının təmin olunmasını istəyirdilə» [113,28-29].

Ümumiyyətlə 1905-ci il inqilabından sonra bütün Rusiya imperiyasında olduğu kimi, Azərbaycanın da ictimai həyatında yeni bir dövr başladı. Azərbaycanda gündəlik qəzetlər və bir çox dövrü nəşrlər təsis olunur, ədəbiyyat qol-budaq ataraq çiçəklənir, yeni məktəblər açılır, musiqi və teatr inkişaf edir, yeni-yeni cəmiyyətlər, siyasi qruplar, hərəkatlar və partiyalar yaranmağa başlayır. Bu dövr, xüsusilə, XX əsrin birinci və ikinci onillikləri Azərbaycan cəmiyyətinin intibah dövrüdür. Bu dövrdə elə bir Azərbaycan ziyalısı tapmaq olmaz ki, o bu və ya digər dərəcədə imperiya və dünyada gedən proseslərə öz maarifçi-demokrat və milli istiqlalçı münasibətlərini bildirməsin. Bu dövrdə fəaliyyət göstərən müsavatçılar kimi romantik cərəyanın nümayəndələri də, maarifçi demokratlar da, inqilabçı demokratlar da, sosial demokratlar da, rus çarizminin irtica və istibdad rejiminə, müstəmləkəçi siyasətinə qarşı birgə və çox kəskin mübarizə aparırdılar. Stolıpin irticası bir kabus kimi bunların üzərinə çöküb bu fəaliyyəti müəyyən qədər səngitsə də, Azərbaycanın milli ziyalıları bu irtica nəticəsində həbs edilsə də, ölkəni tərk etsə də, sürgünlərə göndərilsə də, milli oyanışın qarşısını əsla ala bilmədi. Mübariz milli yaradıcıları və təmsilçiləri olan Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, ziyalıları xalqın milli azadlıq, mütərəqqi mədəniyyət mücadiləsində xalqın arzu və istəklərini, ideyalarını və bu ideyaları gerçəkləşdirmək, həyata keçirmək üçün bütün var-qüvvələrini sərf etmiş, xalqı ruhlandıraraq onlara milli azadlıq mübarizələrini həyata keçirmək üçün rəhbərlik etmiş, doğru yol göstərmişlər.



Romantik ədəbi cərəyanın M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, Əhməd Cavad kimi qabaqcıl nümayəndələri, həmçinin tənqidi realist ədəbi cərəyanın nümayəndələri olan C.Məmmədquluzadə, Eynəli Sultanov, Ö.F.Nemənzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, N.Vəzirov, Ü.Hacıbəyov, F.Köçərli və başqaları Azərbaycan xalqının maariflənməsində, istiqlal mübarizəsinə qoşulmasında misilsiz xidmətlər göstərmişlər.

Azərbaycan xalqının siyasi-ideoloji təfəkkürünün formalaşması və inkişafında isə M.Şahtaxtlının, Ə.Hüseynzadənin, Ə.Tobçubaşovun, Ə.Ağayevin, M.Ə.Rəsulzadənin və digər Azərbaycan mütəfəkkirlərinin xüsusi rolu vardır.

Həm romantiklərin, həm realistlərin, həm də milli siyasi-ideoloji liderlərin səyi nəticəsində Azərbaycan milli ideologiyası formalaşa bilmişdir. Bu ideologiya Azərbaycan xalqına Şərqdə ilk Demokratik Respublika olan Azərbaycan Xalq Cümhuriyyətini bəxş etdi. Bu Cümhuriyyətin ideoloqları yuxarıda adı çəkilən və çəkilməyən Azərbaycan mütəfəkkirləridirsə, onun yaradıcısı Azərbaycan xalqıdır.

Göstərilən dövrdə milli ziyalı təbəqəsinin qabaqcıl nümayəndələrinin milli azadlıq hərəkatında yeri və rolları Azərbaycan tədqiqatçıları tərəfindən lazımınca qiymətləndirilmiş, onlar haqqında sanballı tədqiqat əsərləri yazılıb çap edilmişdir. Burada mövzumuzla bağlı olaraq onların bəzilərinin dövlət və dövlətçiliklə bağlı fikir və mü-

lahizələrini şərh etməyə çalışacağıq. Belə ziyalılardan biri də dövrünün hərtərəfli hazırlığa, universal biliyə malik olan, on birə qədər Avropa və Şərq dillərini bilən, 1903-1905-ci illərdə Tiflisdə «Şərqi-Rus» qəzetini nəşr etdirən, 1907-ci ildə II Dövlət dumasına deputat seçilən və bir çox digər xidmətləri ilə həmişə öndə gedən ömrünün bir çox ilini xarici ölkələrdə keçirən, nəhayət Sovet dövründə Azərbaycan Dövlət Universitetində professor vəzifəsində çalışan Məhəmməd ağa Şahtaxtlıdır. O, özünün publisistik və fəlsəfi əsərlərində sosial tərəqqi, azadlıq, müasirləşmək probleminə, hüquqa, dövlətçiliyə dair bu gün də həyati səsləşən dəyərli fikirlər irəli sürmüşdür. Şahtaxtlı bu kimi məsələlərin həllində həmişə istibdad üsul-idarənin xalqa zidd xarakterini açır, dövlətçilikdə respublika idarə formasının tərəfdarı kimi çıxış edir.

M.Şahtaxtlı özünün rusca yazdığı «Konstitusiya və müsəlmanlar», «Müsəlmanların avropalaşması», «Müsəlman həyat qabiliyyətinin böhranı» və s. kimi məqalələrində göstərirdi ki, müsəlmanların və xristianların yanaşı yaşadığı Osmanlı dövləti və Rusiyada bütün qanunlar bu xalqların nümayəndələri tərəfindən verilməli, xalq qanunvericilik hakimiyyətini avropalılar kimi öz əlinə almalı, müsəlmanlar da avropalılar kimi, «insan hüququna əsasən, həyatımız üçün özləri qanunlar verməli, bu həyatın nəzərdə tutulan ehtiyaclarına uyğun olaraq qanunların dəyişdirilməsi yolu ilə onun şəraitini daim yaxşılaşdırmalıdırlar» [309,109].

İlk əvvəllər Azərbaycanın çar Rusiyası tərəfindən ilhaqının bəzi pozitiv nəticələrini nəzərə alaraq Şahtaxtlı belə hesab edirdi ki, tərəqqiyə Rusiyanın tərkibində çatmaq olar. Mütəfəkkirə görə, vahid dövlət tərkibində olan ayrı-ayrı millətlər azad özünüidarə hüququna malik olmalıdırlar. Lakin sonralar, daha doğrusu, Rusiyada, Türkiyədə və İranda baş verən inqilabların təsiri ilə Şahtaxtlı çar hökumətinin və digər müstəmləkəçi dövlətlərin müstəmləkə siyasətlərini kəskin tənqid etmiş, demokratik hüquq və azadlıqların insanın və qarşılıqlı olaraq xalqların qanuni hüquqları olduğunu elan etməklə kifayətlənməmiş, onları fəaliyyətə səsləmişdir. M.Şahtaxtlı irsinin tədqiqatçılarının da qeyd etdiyi kimi, o, «həyat və fəaliyyət azadlığını insanın yüksək nemətləri sırasına aid etmişdir» [104,196].

Böyük siyasi xadim yazırdı: «İranlılar nəhayət idarəetmə ilə zülm arasında fərqi başa düşmüşlər və sonuncunu əvvəlinci ilə əvəz etməyə çalışırlar. Cəmiyyət belə əhvali-ruhiyyədə olduqda isə İran şahının (dəməli, həm də Rusiya çarının – R.Ə.) başqa əlacı ola bilməz. O öz təbəələrinin qanuni tələblərini yerinə yetirərək İranda idarəetməni qaydaya salmalıdır» [104,176].

İran Konstitusiyasını 1908-ci ildə fars dilindən rus dilinə tərcümə edən Şahtaxtlı əsas mətnə müqəddimə də yazmış, bu müqəddimədə konstitusiyanın əsas məzmununu xarakterizə etmiş, mətnə aid qeydlər vermiş, bəzi farsca terminlərin rusca izahını da vermişdir. M.Şahtaxtlının dövlət, qanun və ictimai inkişaf haqqındakı hüquqi- siyasi görüşləri Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülündə mühüm özünəməxsus yer tutur.

Bəlli olduğu kimi, XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi həyatının ən təlatümlü dövrüdür. Azərbaycan, xüsusilə, Bakı XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayaraq dünya imperializminin diqqət mərkəzinə çevrilir. Bir tərəfdən Bakının iri neft sənayesi, Azərbaycan xalqının ümumi inkişafına səbəb olmuşsa, digər tərəfdən də Azərbaycan xalqının milli istiqlaliyyətinin əldə edilməsinə ən böyük əngəllər törədirdi. Bunu başlıca olaraq Bakıda çoxmillətli-beynəlmiləl xarakterli fəhlə sinfinin sıralarının durmadan artması və fəhlə ixtişaşlarının getdikcə güclənməsi ilə izah etmək olar. Eyni zamanda, xarici müdaxilələrlə yanaşı, daxildə də ayrı-ayrı siyasi qüvvələr təmərküzləşməyə başlayır və bununla da Azər-

baycan istiqlal hərəkatına daxildən zərbə vurmağa başlayır. Azərbaycan xalqı «olum və ölüm» dilemması qarşısında qaldı. İctimai-siyasi fikirdə mövqe müxtəlifliyi də dərinləşir. Doğrudur, rus çarizmini, onun istibdadını, zülm və qəddarlığını baltalamaqla milli siyasi qurumlar, müxtəlif siyasi mövqeli ziyalılar həmrəy idi. Fəqət istiqlal məsələsində yollar ayrı idi.

XX əsrin birinci onilliyində Rusiyada baş verən ümumi böhranla, inqilabla əlaqədar olaraq Azərbaycanda da tətillər, fəhlə, kəndli hərəkatları* baş qaldırmış, milli azadlıq hərəkatı və inqilabi mübarizə öz yüksəliş dövrünə qədəm qoymuşdu. Həmçinin rus-yapon müharibəsində Rusiyanın məğlubiyyətə uğraması, bütün imperiyanı lərzəyə salan 1905-ci il inqilabı, daha sonra 1914-cü ildə başlanan I Dünya müharibəsi və nəhayət, 1917-ci il fevral inqilabı Azərbaycandakı siyasi vəziyyətə də öz təsirini göstərdi, ümumiyyətlə, imperiya daxilində milli azadlıq hərəkatlarının yeni yüksəlişinə təkan verdi. 1917-ci il fevral inqilabı mövcud siyasi quruluşu dəyişdirmiş, 300 illik romanovlar sülaləsinin mütləqiyyətinə son qoymuş, imperiyaya daxil olan xalqlarda milli muxtariyyət ideyasının gerçəkləşməsinə, milli istiqlal mübarizəsinə yeni yollar açmışdı. Fəqət bu yol da heç də hamar olmamışdı [30,111-112].

1917-ci il fevral burjua siyasi çevrilişi əzilən bütün türkdilli xalqların, o cümlədən də azərbaycanlıların siyasi fəallığını daha da artırmışdı. Belə ki hələ Ümumrusiya Müsəlman Şurası yaradılmamışdan əvvəl – 1917-ci il mart ayının 27-də Bakı Müsəlman Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsi yaradılmış, «Müsavat» partiyasının üzvü, hüquqşünas Məmməd Həsən Hacınski onun sədri seçilmişdi. Komitənin öz qarşısına qoyduğu əsas məqsədlərdən biri yerli özünüidarə orqanlarında və gələcək

* **Azərbaycan tarixində Qaçaq hərəkatları haqqında bax: Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, səh. 82-97.**



Müəssislər Məclisində müsəlmanların proporsional qaydada təmsil olunmasına nail olmaq idi. Lakin bu tələblərə Mərkəzə bağlı olan bolşeviklər, menşeviklər və eserlər kəskin etirazlarını bildirir. Bakıdakı inqilabi qüvvələr müsəlmanların siyasi və ictimai təşkilatlarını bilərəkdən əksinqilabçılıqda ittiham edir, öz mətbu orqanlarında «müsəlman məsələsinə» həsr etdikləri yazılarda «müsəlman millətçiliyi»ndən, «müsəlman ictimai təşkilatlarının inqilab işinə vurduqları ziyan»dan bəhs edirdilər. Belə bir vəziyyətdə milli qüvvələri öz ətrafında toplamaq məqsədi ilə milli siyasi partiyalar fəaliyyətə leqal şəkildə başlamağa qərar verdilər. Onlar öz proqramlarında bütün müsəlman xalqları üçün bərabərlik əldə olunması, müsəlmanların dövlət müstəqilliyinin əldə edilməsi, müstəqil olan və öz müstəqilliyini qorumaq uğrunda mübarizə aparan müsəlman xalqlarına dəstək göstərilməsi və s. kimi həyati məsələləri qarşıya qoydular. Belə milli partiyalardan biri və birincisi Azərbaycan xalqının siyasi-ideoloji cəhətdən birləşməsində mühüm rol oynayan «Müsəlman Demokratik Müsavat Partiyası» idi. Bu partiya fevral burjua-demokratik inqilabının qələbəsindən sonra leqal şəkildə xalqı öz tərəfinə çəkmək məqsədi ilə geniş siyasi və təşkilati fəaliyyətə başlayaraq az zaman içərisində Azərbaycanda milli-demokratik hərəkata başçılıq etdi. Müstəqil, suveren dövlət uğrunda mübarizə yolunda «Müsavat» sinfi və sosial mövqeyindən asılı olmayaraq Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrini öz arxasınca apara bilən siyasi partiyaya çevrildi.

«Müsavat» partiyasının dövlət quruluşu məsələsinə dair ilkin mövqeyi onun fəaliyyət istiqaməti və taktikasını müəyyən edən əsas amillərdən biri idi. İlk vaxtlarda «Müsavat» partiyası federativ demokratik Rusiya tərkibində Azərbaycana milli-ərazi muxtariyyəti və 20 yaşına çatmış azərbaycanlı vətəndaşlara seçki hüququ verilməsi ide-

yasını irəli sürürdü» [30,273]. Partiyanın ideya rəhbəri və sədri Məmməd Əmin Rəsulzadə idi.

Çar Rusiyası monarxiyasının süqutundan bir neçə gün sonra Gəncədə yaranan «Türk Federalistlər Partiyası» da əvvəlcə Rusiya dövlətinin muxtar ərazilərin federasiyasına çevrilməsi ideyası ilə çıxış edirdi. Bu partiyanın yaradıcısı və ideya rəhbəri Nəsib bəy Yusifbəyli idi. Bunlardan əlavə mərkəzə bağlı olmayan «Rusiyada müsəlmanlıq» partiyası, Gəncədəki «İttihad» cəmiyyəti də mühüm siyasi mövqeyə malik idilər. 1918-ci ilin yanvar ayında bu iki təşkilat birləşərək «İttihadi-İslam - Rusiyada müsəlmanlıq partiyası» adı altında fəaliyyətə başladılar... Bu partiyanın əməli fəaliyyət və nəzəri baxışlarının bünövrəsi hər şeydən əvvəl islama əsaslanan ittihad-birlik idi. İslamı yalnız din deyil, siyasi, iqtisadi, hüquqi, mənəvi və s. norma kimi qiymətləndirən ittihadçılar onu müsəlman həyatının özülü, əsas strukturu hesab edir, inkişaf yolunu isə məhz İslam normalarını təkmilləşdirmək vasitəsilə həyata keçirməkdə görürdülər» [30,274].

Belə bir şəraitdə müsəlmanların psixologiyasını güya nəzərə alan və «özünün xüsusi tarixə malik olduğunu» iddia edən bolşevik «Hümmət» partiyası 1917-ci il martın 3-də fəaliyyətini bərpa edib özünün Müvəqqəti Komitəsini yaratdı. Müvəqqəti Komitənin başçısı N.Nərimanov, üzvləri isə M.Əzizbəyov, M.N.İsrafilbəyov və H.Sultanov seçildilər. Komitə bolşevik mövqeyində durduğunu bəyan etdi. Halbuki «Hümmət»in əyalətdəki komitələri menşeviklərin üstünlük təşkil etdikləri digər yerlərdə, həmçinir Tiflis quberniyasında onlara (menşeviklərə – R.Ə.) mey göstərirdilər» [30,274].

Mərkəzdə baş verən hadisələr ucqarlara da öz təsirini göstərdi. Mərkəzdə olduğu kimi ucqarlarda da yeni hakimiyyətin təşkili məsələsində siyasi partiyalar və onların liderləri müxtəlif mövqedə dayandılar. Butün bunlar Rusiyanın digər yerlərində olduğu kimi Azərbaycanda da ikihakimiyyətlilik olduğunu göstərir. Bu hakimiyyətlərdən biri heç bir azərbaycanlının iştirak etmədiyi 52 deputatdan ibarət S.Şaumyanın rəhbərlik etdiyi «Fəhlə Deputatları Soveti», digəri isə M.H.Hacınski və M.Ə.Rəsulzadənin də iştirak etdiyi və sədri menşevik L.L.Biçin olduğu «İctimai Təşkilatların İcraiyyə Komitəsi» idi. İlk əvvəllər sosial – demokrat yönümlü siyasi qüvvələr birləşərək «Birləşmiş Müvəqqəti Komitə» yaratsalar da sonralar onlar ayrıldılar. Belə bir vəziyyətdə Azərbaycan xalqının məqsəd və arzularını siyasi baxımdan konkret olaraq seçim kimi müəyyənləşdirmək məqsədi ilə 1917-ci ilin aprel ayının 15-20-də Bakıda Qafqaz Müsəlmanlarının qurultayı keçirildi. Qurultay ərəfəsində Bakı Müsəlman İctimai Təşkilatlarının Müvəqqəti Komitəsi Qafqaz müsəlmanlarına müraciət dərc etdi. Bu müraciətdə bildirilərdi ki; «Komitə...məhz indi millətlərin mənafeyini ən yaxşı təmin edə biləcək dövlət idarəçiliyi haqqında fikrini bildirməyi zəruri sayır...Belə bir idarə forması söz yox ki, yalnız Demokratik Respublikadır» [30,274]. Son olaraq milli istiqlaliyyətin müstəqil milli-demokratik dövlətçilikdə əldə olunması qənaətinə gəlinməsində məlum 1918-ci il mart soyqırım hadisəsinin müstəsna rolu oldu.

Beləliklə qurultaya qədər Azərbaycanın siyasi təşkilatlarının əksəriyyəti bütün Rusiyada demokratik respublika yaradılması ideyasını irəli sürən və müdafiə edən ilk təşkilatlardan biri idi [30,275].

Bütün Rusiya müsəlmanlarının siyasi həyatında haqqında danışılan dövrdə mühüm rolu olan amillərdən biri də ümumrusiya müsəlmanlarının qurultayı idi. Qurultay Rusiya müsəlmanları milli hərəkatlarının siyasiləşməsi yollarını, demokratik respublika prinsiplərinə söykənən dövlət quruluşu seçimini müəyyənləşdirdi. Baxmayaraq ki, Cənubi Qafqaz, Başqırdıstan, Krım, Qırğızıstan kimi milli regionlar çərçivəsində formalaşmış əksər qrupların nümayəndələri Rusiya dövlətinin həyati mənafelərinə to-

xunmamaqla bütün sahələrdə özünüidarə hüququ verən ərazi muxtariyyəti prinsiplərinin tərəfdarı idilər, Rusiyanın müxtəlif yerlərinə səpələnmiş tatar nümayəndələr 1917-ci ilin may ayında Moskvada keçirilən Ümumrusiya Müsəlmanlar qurultayında ərazi muxtariyyəti prinsipinə əks mövqedə dayandılar. Belə ki, Rusiyanın gələcək dövlət idarə üsulu haqqında qurultay M.Ə.Rəsulzadənin və əslən tatar olan Qafqaz sosial-demokratı Əhməd Salihovun məruzəsini dinləyib qərar qəbul etdi. Qurultay M.Ə.Rəsulzadənin «Müsəlman millətlərin mənfəətlərini saxlamaq üçün ən uyğun idarə üsulu milli-mədəni muxtariyyəti verən Xalq Cümhuriyyətidir» fikrini ifadə edən layihəsinin lehinə 446, əleyhinə 271, Ə.Salihovun unitar cümhuriyyət təklifinə isə lehinə 271, əleyhinə 442 səs verildi və beləliklə, M.Ə.Rəsulzadənin: «Rusiya Xalq Cümhuriyyəti üsulu ilə idarə edilməlidir...mən, ədəmimərkəziyyəti muxtariyyətlərdən təşəkkül edən bir federasiya şəklində təsəvvür edirəm. Bu muxtariyyətləri millimə həlli prinsipi içində faydalı bilirəm...Bu məsələyə həm insanlıq mədəniyyəti, həm də milli maraqlar nöqteyinəzərindən baxılmalıdır» [30,277] fikirləri əsas götürüldü və bunun əsasında qərarlar qəbul edildi.

Dövrünə görə mühüm qərarlar qəbul etmiş Ümumrusiya Müsəlmanları qurultayı Rusiyadakı 30 milyonluq türk aləminin düşüncələrini, ictimai-siyasi, milli, dini görüşlərini, arzu və məqsədlərini bəyan etdi. Qurultayda həmçinin 30 üzvdən ibarət Şura, 12 nəfərdən ibarət İcra Komitəsi seçildi. Əsasən Azərbaycan siyasətçilərinin təmsil etdikləri federasiya tərəfdarlarının bu qələbəsinə baxmayaraq onlar Petroqraddakı Mərkəzi Şuranın tərkibində say etibarilə unitar dövlət tərəfdarlarından xeyli az idilər. Qurultaydan sonra unitar dövlət tərəfdarları ilə yalnız formal əlaqə saxlayan Azərbaycan milli siyasi xadimləri öz fəaliyyət dairələrini daraldaraq əsasən Cənubi və Şimali Qafqazda iş aparmağa başladılar. Belə ki, «Müsavat» partiyası «Ədəmi-Mərkəziyyət» partiyası ilə birləşib «Türk ədəmi-mərkəziyyət Müsavat firqəsi» adı altında fəaliyyətə başlayaraq 1917-ci il oktyabrın 25-də özünün I qurultayını keçirdi Bu qurultay partiyanın siyasi tarixində və Azərbaycanın ictimai həyatında mühüm hadisə idi. Bu qurultayda partiyanın 9 bölmə və 76 maddədən ibarət proqramı qəbul edildi. Qurultay həmçinin partiyanın sonrakı siyasi mübarizəsinin və Azərbaycana milli ərazi muxtariyyəti verilməsinin strategiya və taktikasını müəyyənləşdirdi. Partiya proqramı dövlət quruluşu, vətəndaşların hüquq və azadlıqlarının konstitusiya ilə qorunması, milli və dini məsələləri, fəhlə və aqrar məsələləri, maliyyə siyasətinin yumşaldılması və s. sahələri əhatə edirdi [113,58-67;39,188-189;30,284].

«Müsavat» partiyasının I qurultayı Petroqradda bolşeviklərin hakimiyyəti ələ keçirməsi günlərinə düşdüyündən qəbul edilən qətnamə ilə Mərkəzi Komitəyə Azərbaycana muxtariyyət əldə edilməsi üçün bütün tədbirləri görmək və Mərkəzi Müsəlman Komitəsi qarşısında Azərbaycan Müəssislər Məclisini çağırmaq tələbini qoymaq tapşırığı verildi. Beləliklə, fevral - burjua inqilabının qələbəsindən sonra Azərbaycanda hər şeydən əvvəl, milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblər irəli sürülməsi,milli dövlətçilik ideyası ətrafında əhalinin bütün təbəqələrinin birləşməsi kimi xüsusiyyətləri ilə fərqlənən tamamilə yeni mərhələ başlandı. Artıq imperiyanın milli ucqarları bəzi siyasi azadlıqlar qazanmış, bütün siyasi partiyalar leqal fəaliyyətə başlamışdılar. Şəhər və qəza mərkəzlərində fəaliyyət göstərən siyasi partiyalar və müsəlman milli şuraları ziyalıların, burjuaziya və mülkədarların ən qabaqcıl nümayəndələrindən təşkil edilmiş, Azərbaycanda milli hərəkata vahid rəhbərlik məqsədilə Bakı, digər şəhər və qəzalarda şöbələri olan Müsəlman Milli Şurası yaradılmışdı. Bu Milli Şura öz fəaliyyətini demokratik prinsiplər əsasında

quraraq müsəlman əhalisinin bütün təbəqələrini milli partiya və təşkilatların ətrafında toplamışdı. Buna baxmayaraq Azərbaycan milli azadlıq hərəkatını istiqamətləndirən Milli Şuradakı ictimai-siyasi təşkilatların hər biri ona rəhbərlik etmək uğrunda mübarizə aparırdı. Bunların içərisində «Hümmət», «Ədalət», «Birlik» təşkilatları, xüsusilə «Müsavat» partiyası daha fəal idi. Azərbaycandakı bütün solçu siyasi qüvvələrdən fərqli olaraq «Bitərəf qrup» və «Müsavat» rəhbərləri bir tərəfdən real vəziyyətdən çıxış edərək ölkədəki bütün demokratik qüvvələri milli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə çağırır, digər tərəfdən də bolşeviklərin və daşnakların başçılıq etdiyi «Bakı Soveti» kimi Azərbaycan xalqının qəddar düşməninə qarşı mübarizə aparmalı olurdular [30,292].

1917-ci ilin sonlarında Zaqafqaziyanın, o cümlədən də Azərbaycanın siyasi həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirilməsi oldu. Zaqafqaziyada, o cümlədən də Azərbaycanda Müəssislər Məclisinə seçkilər 1917-ci il noyabrın 26-da keçirildi. Zaqafqaziya dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında müsavatçılar, menşeviklər və daşnaklar ümumilikdə səslərin 73 faizini, bolşeviklər isə cəmi 4,4 faizini qazanmışdılar. Seçkilərin nəticələri göstərdi ki, Zaqafqaziyada bolşeviklərin hakimiyyəti ələ aldıqları Bakı şəhəri istisna olmaqla «Müsavat», «Daşnaksütyun» partiyaları daha güclü nüfuza malik idilər.

Bəlli olduğu kimi, 1918-ci ilin əvvəllərində Zaqafqaziyada, o cümlədən də Azərbaycanda siyasi vəziyyət son dərəcə mürəkkəb olaraq qalırdı. Belə bir murəkkəb vəziyyətdə Zaqafqaziya Komissarlığı özünü buraxdı. 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymi.



başqa sözlə, Zaqafqaziya parlamenti yaradıldı və bütün yerli hakimiyyət bu orqana həvalə edildi. 1918-ci il fevralın 23-də üç əsas partiyanın – Müsavat, Daşnaksütyun və Gürcüstan sosial demokrat partiyalarının və həmçinin eserlərin, milli demokratların, erməni Xalq Azadlıq Partiyasının, Müsavat Sosialist Blokunun, ittihadçıların, menşevik-hümmətçilərin nümayəndələrindən ibarət olan Zaqafqaziya Seymi öz işinə başladı [132,30]. Seym Azərbaycanda da milli dövlətçilik formasının müəyyənləşməsində bir siyasi amil kimi az rol oynamamışdı. Seym Zaqafqaziya Cümhuriyyəti Hökumətini yaratdı. Lakin daxi ziddiyyətlərin getdikcə dərinləşməsi nəticəsində bu qurum da parçalanır [30,287-314]. Mayın 27-də Seymin müsəlman fraksiyasının üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Və tarixdən məlum olduğu kimi Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. Bununla da əslində ilk Azərbaycan Parlamenti yarandı və Azərbaycanda ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də isə Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi və burada qəbul edilən bəyannamə bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda yeni tipli dövlət - demokratik respublika idarə üsulunun-Parlamentli Cümhuriyyətin yaradılmasının siyasi-hüquqi əssını qoymuş oldu. Bəyannamədə elan edilir:

1) Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2) Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

3) Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4) Azərbaycan Xalq Cümhuriyyəti milliyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.

5) Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

6) Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın idarəçiliyinin başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Bu taleyüklü tarixi bəyannamə əslində sözün tam və həqiqi mənasında yaranışı uzun əzablı illərlə başa gələn milli-demokratik dövlətçilik məfkurəsinin gerçəkləşməsindən xəbər verən ilk mühüm əhəmiyyətli siyasi akt idi.

Göründüyü kimi, bu siyasi və hüquqi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun ərazi hüdudları müəyyənləşdirilmiş, dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapmış, demokratik dövlətə məxsus əsas prinsiplər göstərilmişdir. Bu bəyannamə «Azərbaycan millətinin kulturnation (millət-mədəniyyət) statusundan tamamilə başqa siyasi-hüquqi və mənəvi-psixoloji statusa – statenation (milli dövlət) statusuna qədəm qoyduğunu göstərdi. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Xalq Cümhuriyyəti forması öz əksini tapdı» [30,317].

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması vaxtilə Güney Azərbaycan milli azadlıq hərəkatının lideri Şeyx Məhəmməd Xiyabaninin demiş olduğu aşağıdakı sözlərin həyatiliyini bir daha təsdiq etdi: «Bir xalqın şərəfəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti yoxdur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir» [99,68].



Beləliklə, XX əsrin ikinci onilliyində Quzey Azərbaycan Xalq Cümhuriyyətinin və Güney Azərbaycan «Azadistan» dövlətinin yaradılması XIX əsrin sonu - XX əsrin əvvəllərində hər iki tayda Azərbaycanda mövcud olmuş ictimai-siyasi, ədəbi, fəlsəfi fikrin məntiqi nəticəsi, ilk tarixi təcəssümü idi. Beşiyi başındaHəsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, Əhməd bəy Ağaoğlunun, Məmməd Əmin Rəsulzadənin, Üzeyir bəy Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Şeyx Məhəmməd Xiyabaninin və başqa onlarla Azərbaycan ziyalısının durduğu milli-demokratik hərəkat sonda Azərbaycan Xalq Cümhuriyyətini və «Azadistan» dövlətini meydana gətirdi. Onlar öz ictimai-siyasi, ədəbi və maarifçilik fəaliyyətləri ilə xalqımızın milli şüurunun oyanıb inkişaf etməsinə, milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülünə mühüm təsir göstərmişdir. Öz ideya siyasi qaynaqlarını xarici dövlətlərdən alan solçu sosialistləri və bolşevikləri çıxmaq şərtilə Azərbaycan demokratlarının əksəriyyəti müstəqillik tərəfdarı olmuşdur. Onlar Cümhuriyyət quruluşunun mahiyyətini şərh etmiş, xalqda Cümhuriyyət quruluşu haqqında ümumi təsəvvür yaratmağa çalışmışlar. Bu cəhətdən Cəlil Məmmədquluzadənin məşhur «Cümhuriyyət» adlı məqaləsi daha xarakterikdir. Bu məqaləsində C.Məmmədquluzadə xalqa xitabən deyir: «Vətəndaşlar! Padşahlıq taxtından yıxılan Nikolayın zalım və xain idarəsi dağılandan sonra Rusiya məmləkətində yaşayan millətləri və o cümlədən də biz müsəlmanları məşğul edən tək bircə məsələdir: həmin məsələ Cümhuriyyət məsələsidir. Vətəndaşlar Belə olan surətdə biz tək Avropa aləmindən və mətbuatından az-çox

xəbərdar olanların borcudur ki, qardaşlarını yoxlamaq babətdən...onları bir yerə cəm edib, belə-belə məsələlərdən (Cümhuriyyətdən – R.Ə.) söhbət açsın, taki bilməyənlər bilib, eşitməyənlər eşidib, dünyanın övzasından (vəziyyətindən – R.Ə.) və əhvalından...xəbərdar olsunlar.

Vətəndaşlar! Cümhuriyyət, yəni latınca «Respublika» elə bir hökumətə deyirlər ki, orada məmləkətin idarəsi camaatın öz öhdəsində və ixtiyarındadır, necə ki, məsələn, Firəngistan, İsveçrə və qeyriləri» [110,190-191].

Azərbaycan istiqlaliyyətində və Azərbaycan dövlətinin yaradılmasında əvəzsiz xidmətləri olan Məmməd Əmin Rəsulzadənin dövlət və dövlətçiliklə bağlı fikir və mülahizələri daha təqdirə layiqdir. Belə ki, mövcud siyasi vəziyyəti nəzərə alaraq ilk əvvəllər federasiya tərəfdarı kimi çıxış etsə də bu federasiyanın demokratik əsaslarla təşkilini irəli sürürdü. Daha sonra tam müstəqillik mövqeyindən çıxış edən M.Ə.Rəsulzadə öz məqalə və çıxışlarında məşhur «İnsanlara hürriyyət, millətlərə istiqlal» şüarını irəli sürmüş «Müsavat» partiyasının sonrakı proqramında «Milli istiqlala malik olmayan bir millət hürriyyət və harsını (Sivilizasiyasını – R.Ə.) hifz edə bilməz», «Firqəmizin (Müsavat nəzərdə tutulur – R.Ə.) mənəvi müzəffəriyyətləri təzahüratından olan Azərbaycan istiqlalını göz bəbəyi kimi saxlamaq əsas amalımız olduğu kimi, eyni zamanda da fərqəvi namusumuzun icabıdır», «Azərbaycan Xalq Cümhuriyyəti şəklində idarə olunur» və s. kimi müddəaları daxil etmişdir.

M.Ə.Rəsulzadənin dövlət və dövlətçiliklə bağlı fikirlərinin əks olunduğu «Qafqaz Türkləri», «Azərbaycan Cümhuriyyəti», «Əsrimizin Səyavuşu», «Çağdaş Azərbaycan türkləri» və s. kimi əsərləri daha dərindən işıq salır. Bu əsərlərdə M.Ə.Rəsulzadə əsasən nəticə olaraq belə bir fikrə gəlir: «1910 sənəsinə qədər rus liberalizmi ilə rus sosializmi arasında intibah münaqişəsi ilə keçən siyasi həyat bu tarixdən etibarən Qafqaz türklüyündə yeni bir sahifaya



giriyor, üçüncü müstəqil bir fikri-siyasi cərəyanı ilə yeni təşkilat təşəbbüsləri başlıyor ki, bu da milli demokratizm və milli inqilab məfkurəçiliyindən ibarətdir... Bu məfkurə ilk dəfə olaraq Qafqaz türklüyünün siyasi müqəddəratını Rusiya əlaqələri xaricində müstəqil olaraq düşünmüşdür. Bu şərəf isə türkçülüyə aiddir» [199,40-41].

«1917-ci il fevral inqilabından sonra baş verən siyasi proseslər haqqında Rəsulzadə yazırdı: «Yüz illik əsarət həyatından sonra Birinci Dünya müharibəsi nəticəsində çökən rus imperatorluğunun xarabalıqları altından Azərbaycan milli bir bütöv halında qiyam etdi və... istiqlalına qovuşdu...Azərbaycan Respublikası öz işlərini özü idarə etməyə başladı. Azərbaycan Respublikası çox ağır şərait və məhrumiyyətlər içində qısa bir zamanda hüquqi, idari, siyasi, iqtisadi, hərbi və milli maarif sahələrini tənzim etdi, məmləkətdə asayiş və intizamı yoluna qoydu və nəticədə 1920-ci ilin 12 yanvarında böyük dövlətlər tərəfindən istiqlalı tanındı» [133,90].

Dövlət və dövlətçiliklə bağlı fikirlərini ümumiləşdirən Əhməd bəy Ağaoğlu özünün «Dövlət nə padşahdır və nə də hökumət» düsturunu inkişaf etdirərək sonda belə qənaətə gəlir: «Dövlət millətdir. Millət dövləti quran ünsürdür. Bütün hakimiyyət ona aid olduğu kimi bütün haqlar da onundur...Dövlət adamı ilhamlarını, prinsiplərini saraydan, padhaşdan deyil, millətdən, dövləti qurmuş olan ünsürlərdən alacaqdır. O yalnız o ünsürü, onun şəxsiyyətinin gəlişməsini, onun maddi və mənəvi qüvvətlənməsini düşünməklə mükəlləfdir...Yaşamaqda olduğumuz zamanın dövlət haqqındakı tələqqisi bundan ibarətdir» [17,128].

Bu kimi nümunələrin sayını artırmaq da olar. Məsələninsə mahiyyəti bundadır ki, adları çəkilən milli azadlıq mücahidlərinin səyi nəticəsində Azərbaycan xalqı uzun sürən mücadilələrdən sonra, nəhayət, öz milli dövlətini – Azərbaycan Xalq Cümhuriyyətini yaratdı. Bu Cüm-

huriyyət qısa müddətə olsa da, konkret tarixi şəraitdə bu dahi şəxsiyyətlərin səyi nəticəsində «iri dövlətlərin maraqları arasında çevik siyasət yeridərək öz istiqlalını qoruya bildi [66,19].

Görkəmli zəka sahiblərinin bəşər tarixində xidmətləri əvəzsiz töhvə kimi danılmazdır. XX əsrin əvvəlləri Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində milli-demokratik dövlətçilik məfkurəsinin və bu işıqlı məfkurənin «türkləşmək, islamlaşmaq, müasirləşmək» kimi təməl prinsiplərinin təşəkkülü, formalaşması Ə.Ağayev, Ə.M.Topçubaşov, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə və b. kimi dühaların və onların ideya sələflərinin Azərbaycan xalqı qarşısında ən böyük xidmətləri kimi qiymətləndirilməli, öyrənilib təbliğ olunmalıdır. Nəticə olaraq onu da qeyd etmək lazımdır ki, XX əsrin birinci iki onilliyində Azərbaycanda milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülü və Azərbaycan Xalq Cümhuriyyəti bu məfkurənin tarixən ilk təcəssümü belə şəxsiyyətlərin adı ilə daha çox bağlıdır.

## § 5. XX əsrin başlanğıcında Azərbaycan mütəfəkkirlərinin hüquqi dövlət quruculuğu haqqında düşüncələri və mübarizələri.

Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkülündə yuxarıda araşdırılan digər tarixi müqəddəm şərtlər, ideya-nəzəri qaynaqlarla yanaşı bəhs edilən dövrün hüquqi amillərinin də özünəməxsus yeri və rolu vardır.

Hər bir hüquqi amil aid olduğu cəmiyyətin iqtisadi, siyasi və ictimai formasiyası ilə bağlı olub o cəmiyyətdə təşəkkül tapan və inkişaf edən görüş və ideyalarla sıx surətdə əlaqədardır. Başqa sözlə, hər bir cəmiyyətin və ya ictimai-iqtisadi quruluşun özünəməxsus hüquqi sistemi vardır.



O da məlumdur ki, hər bir cəmiyyətin inkişafı və rifahı ədalətli bir hüquq sisteminin bərqərar olunması ilə mümkündür. Hər bir cəmiyyəti idarə edənlə idarə edilən zümrələr arasındakı qarşılıqlı münasibətlər tarix boyu hüquqi normalar əsasında tənzimlənir. Bu qarşılıqlı münasibətlər isə yalnız hüququn əsasını təşkil edən ədalətlə mümkündür. Çünki ədalət prinsipi cəmiyyətin və qarşılıqlı olaraq dövlətin təməlini təşkil edir. Yadelli imperiyaların müstəmləkə meydanına çevrilmiş Azərbaycanın əsl vətənpərvər dühaları da məhz haqqın-ədalətin təntənəsi naminə əzmlə mübarizə aparmışlar.

Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra onun qanunvericiliyinin əsasında dayanan müsəlman hüququ tədricən sıxışdırılaraq rus qanunvericiliyinin tətbiqi genişləndirildi, bütün qurumlarda yerli dilin işlədilməsinə yasaq qoyuldu, torpaq sahibliyi formaları və vergi sistemində əsaslı dəyişikliklər baş verdi. Çar Rusiyası müstəmləkəyə çevirdiyi Azərbaycan üçün xüsusi idarəçilik formaları tətbiq etmiş, inzibati-məhkəmə sistemiləri yaratmış, mülki, torpaq, əmək və cinayət hüququna dair xüsusi qanunvericilik aktları tərtib etmiş, yalnız ailə və nigah məsələləri müsəlman hüquq normaları ilə tənzimlənirdi ki, buna da mərhələ-mərhələ müəyyən dəyişikliklər edilmişdi. Bütün əyalət və şəhər məhkəmələri komendantların başçılığı ilə keçirilir, qanuni qüvvəyə minmiş hökm və qərarlara kassasiya qaydasında hökumət senatı tərəfindən baxılırdı.

Mərkəzin ucqarlara müstəmləkə gözü ilə baxmasının mahiyyətini dərindən dərk edən Azərbaycan mütəfəkkirləri, xüsusilə, M.F.Axundov açıq şəkildə olmasa da öz əsərlərində imperiyanın hüquq sistemini, onun məhkəməsini tənqid edirdi. O, bu münasibətlə 1863-cü ildə yazırdı: «Avropa filosoflarının görüşlərini başa düşən məzlumlar zülmü aradan qaldıraraq öz vəziyyətlərini və rifahlarını yaxşılaşdırmaq məqsədi ilə elə qanunlar yaratdılar ki, bu

qanunlara əsasən heç bir adam öz rəhbərliyi altında, öz tabeliyində işləyən adamlara zülm etmək imkanına malik deyildi» [23,47-48].

Axundovun hüquqi görüşlərinin əsasında mövcud ictimai-siyasi quruluşdakı qanunsuzluq və özbaşınalığın inkarı dayanır. Bu baxımdan Axundovda inqilabi demokratizm milli demokratizmdən daha qabarıqdır. Onun pyeslərində dövrünün hüquq sisteminə, onun məhkəməsinə ağır zərbə vuran səhnələr çoxdur. Bu əsərlərdə çar Rusiyasının hüquq sistemi ilə yanaşı Şərq hüquq sistemi, yerli məhkəmələrin özbaşınalığı və naşılığı kəskin tənqid olunurdu. M.F.Axundov «Aldanmış kəvakib» əsərində Yusif Sərracın timsalında öz hüquqi görüşlərini irəli sürmüş və göstərmişdi ki, qanunlara riayət etmək cəmiyyətin ədalətsizliyinin ən əsas meyarıdır.

M.F.Axundov öz hüquqi görüşlərini geniş planda «Kəmalüddövlə məktubları»nda daha qabarıq əks etdirir. Bu əsərində mütəfəkkir yeni ədalətli, hüquqi cəmiyyətin yaradılmasının inqilabi-demokratik yolunu da təklif etmiş, xalq hakimiyyəti yaradılmasına çağırmışdır. O, cəmiyyətdəki hüquq bərabərsizliklərini tənqid edərək göstərirdi ki, təbiətən bərabər olan insanların cəmiyyətdə müxtəlif mövqe tutması sonradan yaranıb.

Mütəfəkkir xalqın hüquqsuzluğundan, onun azadlıqdan, insani hüquqlardan məhrum olması haqqında yazırdı: «Xalq mənəvi və cismani azadlıqlardan məhrumdur. Mənəvi azadlığı ruhanilər, cismani azadlığı isə müstəbidlər almışlar... Şərq xalqları...tam azadlığı birdəfəliyi itirdilər, bərabərlik ləzzətindən və bəşər hüququ nemətlərindən tamamilə məhrumdurlar və bu məhrumluğu anlamaqdan belə məhrumdurlar» [22,38].

Mütəfəkkir feodal məhkəmə quruluşunu və mühakimə proseslərini kəskin tənqid edir və göstərirdi ki, məhkəmə üsulunda mövcud olan hərc-mərclik xalqın ədalət mühakiməsinə etibar etməməsinə səbəb olur.



M.F.Axundov həmişə çalışmışdır ki, yaşadığı cəmiyyətin ədalət mühakiməsinin üzərindən qara pərdəni götürsün, mənəvi əsasları «insan insan üçün canavardır» prinsipindən ibarət olan adamların daxili aləmini aşkara çıxarmaqla əslində dövrünün mühakimə icraatının qüsurlarını ortaya çıxarsın.

M.F.Axundov həm də Azərbaycan ictimai-fəlsəfi fikrində «təbii hüquq» nəzəriyyəsinin sosial-fəlsəfi şərhini verən ilk mütəfəkkirdir. O, demokratik hüquq və azadlıqlar, cəmiyyət fərdlərinin hüquq bərabərliyi haqqında danışarkən göstərirdi ki, insan azadlığı və hüquqları ona anadan gəlmə xasdır: «Yoxluq pərdəsindən varlıq aləminə qədəm qoyan növi-bəşərin fərdlərindən hər biri sağlam əqlin hökmü ilə tam azadlıq nemətindən istifadə etməlidir» [22,38]. Axundovun bu «təbii hüquq» nəzəriyyəsi əslində insanın azadlıq, bərabərlik və mülkiyyət hüquqlarını müdafiə və təmin etməyən hakimiyyətə qarşı etiraz idi. O, hətta xalq inqilabı ideyasını da bu «təbii hüquq» nəzəriyyəsi ilə əsaslandırmışdı.

Axundovun yararadıcılığında bütün bunlarla yanaşı mülki hüquq, cinayət hüququ, ailə və qadın hüququ məsələləri də geniş şərh edilmişdir. Müəllif vətəndaşların mülki hüququnun qorunmasını dövlətin və qanunun ən ümdə vəzifəsi hesab edir və göstərirdi ki, dövlət xalqın himayədarı, ölkənin və vətəndaşların əmlak toxunulmazlığının müdafiəçisi və qarantı olmalıdır. Qanun, vətəndaşların hüquq və azadlıqlarını nəinki təsbit etməli, həm də onları təmin etməlidir.

Axundov «azadlıq» anlayışına söz, fikir, fəaliyyət, əmək azadlığını, şəxsi hüquqları və əmlak hüquqları kimi bir sıra demokratik hüquq və azadlıqları daxil etmiş və azadlığa, ümumiyyətlə, belə bir tərif vermişdir: «Azadlıq hər bir adamın öz şəxsiyyətinin və öz əmlakının ağası olması, Allaha özü bildiyi kimi dua etməsi, uşaqlarını öz arzusuna uyğun tərbiyə etməsi, başqalarının hüququnu poz-

mayınca qanundan qorxmağa heç bir səbəb olmadan düşünməsi, danışması, əmək sərf etməsi, təklikdə, yaxud başqaları ilə birlikdə hərəkət etməsi hüququdur» [24].

Böyük mütəfəkkirin irəli sürdüyü bu kimi hüquqi müddəalar sonralar daha da inkişaf etdirilərək, qurulacaq milli-demokratik dövlətin əsas sütunlarından birini təşkil etmişdir.

Hərgah M.F.Axundov yaradıcılığında hüquqi görüşlərini Şərq kontekstində şərh etməyə çalışırdısa, onun yolunu davam etdirən, Həsən bəy Zərdabi kimilər çar Rusiyasının müstəmləkəçilik siyasətinin gətirdiyi zülmü, bu üsul-idarənin tətbiq etdiyi hüququ qadağaları özünün tənqid obyekti seçmişdi. Zərdabinin «bizdə əslində məhkəmə yoxdur», «biz tamamilə məhkəməsiz yaşayırıq», «hazırda biz ədalət mühakiməsi ilə tanış olmamışıq» kimi fikir və mülahizələri onun çar Rusiyasının təbəələri olan müsəlmanlara münasibətinin meyarı kimi dəyərləndirilə bilər. Yaşadığı məmləkətin hüquqi mənzərəsini təsvir edən mütəfəkkir göstərirdi: «Qanunsuzluq və özbaşınalıq hər yerdə hökm sürür: məhkəmələrimiz andın müqəddəsliyi barədə heç bir anlayışı olmayan yalançı şahidlərin ifadələri ilə aşıb-daşır; müstəntiqlər qətllər, talanlar, yanğınlar haqqında işlərlə yüklənmişlər...Ona görə də bizdə özbaşınalıq, məhkəməsiz cəzalandırmaq, zəiflərə zülm edilməsi hökm sürür...Rəislər işi özlərinə münasib qaydada apara bilər, istəsələr hətta qatillərə də bəraət verə bilərlər» [216,49-76].

Böyük vətəndaş Həsən bəy Zərdabi mərkəzi hökumətin daxili siyasətini dərindən bildiyindən çar Rusiyasının 1864-cü il məhkəmə islahatı ilə bağlı nizamnamələrini tənqid edərək göstərirdi ki, məmləkətdə xalqın məhkəmə icrasında iştirakına yol verməli olan «Andçılar məhkəməsi» tətbiq olunmur, barışdırıcı hakimlər seçilmir, hökumət tərəfindən təyin olunur... Mühakimə icraatının mövcud qanunları sayəsində çoxalmış savadsız hüquq



məsləhətçilərinin xidmətindən istifadə edilir ki...onlar da «müəyyən miqdarda mənfur metalın (qızıl nəzərdə tutulur - R.Ə.) əvəzinə» yalan şahidlik edən xüsusi təhsili olmayan adamlardır [216,79-80-55].

Müəllif şəriət məhkəmələrinə öz etirazını bildirməklə yanaşı rus mühakimə icraatının da yerli həyata tətbiqini düzgün və ədalətli hesab etmirdi. Onun fikrincə «bu, hüquq pozuntularının artmasına səbəb olur» [216,76].

Xalqını öz hüquqları uğrunda mübarizəyə səsləyən böyük alim, vətəndaş şəxsiyyət, dövründə Azərbaycan ziyalılarının ağsaqqalı sayılan Həsən bəy Zərdabi qeyri-ixtiyari sadəlövhlüklə 1905-ci il inqilabını «alqışlayaraq» yazardı ki, hazırda bütün Rusiyada həyəcanlar, toqquşmalar baş verdiyi bir zamanda xalqlar özləri üçün hüquqlar tələb edirlər. Tələblərdən biri də dövlətin yerli dilləri bilən hakimlər təyin etməsindən, kargüzarlığın mühakimənin ana dilində həyata keçirilməsindən ibarət olmalıdır...Bu axır zamanda biz müsəlmanların qol və qıçlarını bağlayan zəncir paslanıb para-para olub töküldü. Bakının küçələrində «Yaşasın hürriyyət!» və qeyrə sədası büləndi – asiman oldu və müsəlmanlar dəstəbədəstə cəm olub «İttifaqi-hümmət» və qeyri cəmiyyətlər bina etdilər» [172,216-217-242].

Azərbaycan milli demokratik dövlətçilik məfkurəsinin təşəkkülü və inkişafında M.Şaxtaxtlının, E.Sultanovun, H.Minasazovun, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, C.Məmmədquluzadənin, M.Ə.Rəsulzadənin və b. hüquqi görüşləri də mühüm rol oynamışdır.

Məsələn, M.Şahtaxtlı ailəyə xalq həyatının əsası kimi baxaraq deyirdi: «Xalqın həyatı ailəyə əsaslanır...Ailə ittifaqının məqsədi ondan ibarətdir ki, atalar və analar öz uşaqlarını öz ölkəsi üçün gələcək vətəndaşlar kimi tərbiyə etsinlər» [104,189]. Şaxtaxtlı ailə-nigah məsələlərində qadınların azadlığı məsələsindən, onların hüquq bərabərliyi mövqeyindən çıxış edir, çoxarvadlılığı kəskin tənqid edə-

rək göstərirdi ki, çoxarvadlılıq nəinki ailəni, onun dayaqlarını sarsıdır, həm də «qohumları barışmaz düşmənlərə çevirir. Çoxarvadlılıq qadını kişinin sərvətinə xidmət edən bir şey vəziyyətinə endirir, kişini isə pozğun ehtirası üçün namusunu, öz arvadının səadətini və insan ləyaqətini və ondan olan uşaqlarının təbii hüquqlarını qurban verən vicdansız ailə başçısına çevirir» [104,189-190].

Bu dövrün Azərbaycan milli ziyalıları bu və ya digər dərəcədə öz hüquqi baxışlarını ayrı-ayrı məqalə və əsərlərində əks etdirmişdilər. Hüquqi görüşlərində müəyyən ziddiyyətlər olsa da, onlar ümumxalq işinə sədaqətlə xidmət etmişlər. Belə milli ziyalılardan biri də «Mənim xalqının sizi (xalqın düşmənlərini nəzərdə tuturdu – R.Ə.) həyatda layiq olduğunuz yerdə oturtmayınca və sizi zərərsizləşdirməyincə, sizi (xalqın düşmənlərini) nifrətlə ifşa edəcəyəm» [104,197], deyən maarifçi ziyalı Eynəli bəy Sultanovdur. Xalqın düşmənlərini açıq-aydın, qorxmadan ifşa edən maarifçi ziyalı Eynəli bəy deyirdi: «Bəs mənim bədbəxt xalqımın bu düşmənləri kimdir? – İctimai mənafeyi öz şəxsi mənfəətinə qurban verənlər. Avam xalqı hər cür üsullarla istismar edənlər. Kütləyə ağalıq etmək üçün onun zehni və mənəvi inkişafını ləngitməyə çalışanlar. Böyüyən nəslin həyatını ona düşməncəsinə münasibət göstərməklə zəhərləyənlər. İşığın, tərəqqinin düşmənləri. Mənim xalqımda kölə ruhunu müdafiə edən və güruhun alçaq ehtiraslarını qızışdıranlar. Kütlələrin rifahını sarsıdaraq bu güruhu həyəcanlandırıb onu yanlış yollara istiqamətləndirənlərdir» [104,197].

E.Sultanov öz əsərlərində mühakimə icraatındakı qanunsuzluq və özbaşınalıqları, çar məhkəmələrinin çirkinliklərini ifşa edərək göstərirdi ki, bu məhkəmələr insanı alçaldır, insan ləyaqətini tapdalayır. Bu mühakimə icraatının rus dilində aparılmasını kəskin tənqid edən E.Sultanovun fikrincə, bu, xalqın təbii hüquqlarının birbaşa tapdalanması deməkdir. Çünki əhali rus dilini bilmədiyindən onlar öz şəxsi və əmlak hüquqlarını müdafiə etmək üçün mövcud hüquq məsləhətxanalarından istifadə edə bilmir.

E.Sultanov ailə-nigah, cinayət hüququ məsələləri ilə bağlı da maraqlı mülahizələr irəli sürmüş, qadının tamamilə azad olması, cəmiyyətdə kişilərlə bərabər iştirak etməsi fikrini irəli sürmüşdür [104,207].

Bu dövrün görkəmli ictimai-siyasi xadimlərindən biri də Qori müəllimlər seminariyasının məzunu Hüseyn Minasazovun (1881-1932) tədqiq olunan mövzu ilə bağlı fikirləri maraqlıdır. Öz kəskin publisistik yazıları ilə İran məşrutə inqilabını alqışlayan və bu inqilabda şəxsən iştirak edən, Azərbaycan ictimai-siyasi həyatında ilk dəfə «Tərəqqi nəzəriyyəsi»ni irəli sürən, cəmiyyəti inqilabi yolla dəyişməyin tərəfdarı olan Minasazovun hüquqi görüşləri təqdirə layiqdir. Hüququn teoloji mənşəyini qəbul etməyən, hüquqi zamanla, dövrlə əlaqələndirən, ailə münasibətlərinin məhəbbət, qarşılıqlı hörmət əsasında qurulmasını, qadına kişilərlə bərabər hüquq verilməsini irəli sürən Minasazov cinayətin motivləri haqqında məsələyə cinayəti törədən səbəblərin konkret şəraitlə qarşılıqlı əlaqəsi mövqeyindən yanaşır, XIX əsrin sonu XX əsrin əvvəllərində Qərbi Avropada yaranan və irqçiliyə əsaslanan «cinayətlərə irqi meyllilik» və «anadangəlmə cinayətkarlar» kimi nəzəriyyələri kəskin tənqid edirdi. O deyirdi: «Quldur beynəlmiləldir. Onun üçün bu və ya digər dinə mənsub olmasından asılı olmayaraq yalnız qarət və qətl obyekti mövcuddur... Bəla ümumidir və onunla ümumi şeylərlə mübarizə aparmaq lazımdır» [104,233]. Ümumiyyətlə Minasazov cinayətlərin səbəbini milli mənsubiyyətdə deyil, yaranmış ağır maddi vəziyyətdə görürdü.

Görkəmli publisist-maarifçi mütəfəkkir C.Məmmədquluzadə də sonradan hüquq elmlərinə yiyələnməsi ilə ümid edirdi ki, qanun qarşısında zəhmətkeşlərin məna-

feyini müdafiə etmək faydalı olar. O, tədqiqatlarda göstərildiyi kimi: «Qanun anlayışı, o dövrdə onun üçün ədalət anlayışı ilə əlaqədar idi» [211,257]. C.Məmmədquluzadə çarizmin devrilməsini və demokratik respublika qurulmasını, aqrar və milli məsələlərin həll edilməsini, məhsuldar qüvvələrin sürətli inkişafının həyata keçirilməsini nəzərdə tutan inqilabi – demokratik məramın tərəfdarı idi. Böyük demokrat istismarçı dövlətlərin siyasi quruluşu ilə yanaşı onun hüquq sisteminin nöqsanlarını da kəskin tənqid edir, 1905-ci il inqilabını «azadlıq və hüquq» uğrunda mübarizə kimi qiymətləndirir, ictimai həyatın demokratik quruluşu uğrunda qətiyyətlə çıxış edir, mövcud ictimai-siyasi quruluşun hüquq sisteminin ləğv edilməsi və onun daha mütərəqqi demokratik quruluş və hüquq sistemi ilə əvəz edilməsini, xüsusilə milli-müstəmləkə əsasrətinin və hüquqsuzluğunun ləğv edilməsi yolu ilə milli məsələnin demokratik həllinin proqramını təqdim edirdi. C.Məmmədquluzadə hətta «Müvəqqəti hökumət»in elan etdiyi hüquq və azadlıqların da həqiqətən həyata keçiriləcəyinə inanmır və göstərirdi: «Bir Nikolayın getməsi ilə yüzlərlə başqa Nikolaylar meydana çıxır» [112].

Qadın azadlığı məsələsi C.Məmmədquluzadəni bütün həyatı boyu düşündürmüşdür. O, Şərq qadınını hərəmxanaların zindanından, qara çarşabın zülmətindən azad etmək, onu tərbiyə edərək öz vəzifəsini anlatmaq üçün əlindən gələni əsirgəməmiş, öz felyeton, məqalə və iri həcmli əsərlərində yeri gəldikcə bu məsələnin həlli yollarını göstərmişdir. Bu münasibətlə ədib göstərirdi: «Bəxti qara Şərq qadını gözünü açıb çıxsın...əsrimizin geniş meydanına və cürətlə desin: Mənim də bu dünyada yaşamağa haqqım var! Çünki...mən azad Şərq qadınıyam» [111,835].

1905-1907-ci il hadisələri və «Molla Nəsrəddin» jurnalında fəal iştirakı Azərbaycan inqilabi-demokratik fikrinin görkəmli nümayəndəsi böyük şairimiz Mirzə Ələkbər Sabirə də mühüm təsir göstərmiş, onun ictimai-siyasi görüşləri ilə yanaşı hüquqa dair baxışları da yeni mərhələyə qalxmışdır. Öz xalqını mütləqiyyətə qarşı mübarizəyə səsləyən, ictimai quruluşun dəyişdirilməsini zəruri sayan, «Yaşasın azadlıq» şüarını cəsarətlə söyləyən, millətin istiqlaliyyəti və suverenliyi prinsipini müdafiə edən, Türkiyədə «Gənc türklər», İranda və Cənubi Azərbaycanda «Məşrutə» inqilabını alqışlayan, Səttar xanın qələbələrindən ruhlanaraq ona şeirlər həsr edən dahi şair Sabir demokratik respublika ideyasını nəinki müdafiə, həm də təbliğ etmişdir.

Ümumiyyətlə, bəhs edilən dövrdə qabaqcıl fikir sahibləri ilə yanaşı Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və b. demokratik dövlət quruculuğu məsələsində əzmlə çalışmış, bu yolda bir çox hüquqi əsasların yaradılmasına ciddi səylər göstərmişlər. Bu baxımdan 1917-ci ilin sentyabrında – Müəssislər Məclisinə seçkilər haqqında qəbul edilmiş «Əsasnamə» də öz dövrü üçün dövlət hüququ sənədi kimi önəmlidir. Bu «Əsasnamə»də qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin əksəriyyətində proporsional seçki sisteminin tətbiqi və s. məsələlər də yeni idi. Hətta Müəssislər Məclisinə seçkilər üzrə komissiya müsəlman qadınlarının da seçki kompaniyasında iştirakını təmin etmiş, onların səs verməsi üçün doqquz seçki dairəsində xüsusi binalar ayrılmasına icazə verilmişdi. Bütün bunlarla əlaqədar olaraq əvvəlcə xüsusi Zaqafqaziya Komissarlığı tərəfindən müxtəlif hüquq sahələri ilə bağlı qanunlar qəbul edilmişdi.

Belə bir ağır şəraitdə milli hərəkatın düzgün istiqamətini müəyyən etməyə çalışan və «Açıq söz» qəzetində xalqına fikrini çatdıran M.Ə.Rəsulzadə deyirdi: «Hüquqi-təbiiyyəsi payimal olmuş bir millət baqi qalıncaya qədər Avropa müvazineyi – düvəliyyəsi həqiqi və sürünclü bir sülh üzü görməkdən məhrum qalacağı kimi, öz vətəndaş-

ları arasında ögey-doğmalıq gözətən bir dövlət də həqiqi bir qüvvəyə söykənməyəcək, mütərəqqi və quvvətli bir təşkilata malik olmayacaqdır...Bu surətlə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl özlərini bilməli, müəyyən fikir və əməllər ətrafında birləşərək böyük bir məfkurəyə, qayeyi-xəyala hədəf olaraq o işıqlı ulduza (Müstəqil Cümhuriyyətə – R.Ə.) sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və belə bir silahdan (müstəqil dövlətdən – R.Ə.) məhrum qalan xalqlar kimsəyə söz eşitdirə bilməyəcəklər» [132,26].

«Rusiya Müsəlmanları İttifaqı»nın qurultayı ilə «Rusiya Türklərinin Qurultayı» arasında müqayisə aparın Məmməd Əmin Rəsulzadə yazırdı: « Nijni-Novqorod konqresi taktika etibarilə rus liberalizmi ilə təşriki-məsai şüarı altında gedərək siyasətən milli kültür, mədəni və hüquqi mahiyyətdə bir takım mətaliblə iktifa edirdi. Moskva konqresi isə Rusiyanın milli ərazi muxtariyyətlər üzərinə parçalanması tələbində bulundu [200].

«Müsavat» və «Türk ədəmi-mərkəziyyət» partiyasının birləşərək birgə qəbul etdiyi Proqramda Rusiya dövlətinin milli-məhəlli müxtariyyətlər əsasında qurulması ilə yanaşı digər hüquqi məsələlər də öz əksini tapmışdı. Belə ki, proqramda söz, mətbuat, vicdan azadlığı, təşkilat yaratmaq və tətil kimi siyasi hürriyyətlərlə bərabər, işçi qanunlarının bütün Muxtariyyətlərdə eyni tətbiqi, torpaq məsələlərinin həlli, hər millətə Məhəlli Muxtariyyət hüququnun verilməsi, müəyyən əraziyə malik olmayan millətlərə Milli –mədəni Muxtariyyət haqqının verilməsi, daxili qanunlarının tərtib edilməsi məhəlli və milli Muxtariyyətlərin öz Məclisi – müəssisanlarında həll olunması. Muxtariyyətlərin idarəçilik, maliyyə, qanunvericilik, mədəni və ədliyyə kimi daxili məsələlərdə müstəqil olması, hər bir Muxtariyyətin mərkəzində qanunverici orqanın - Məclisi-Məbusanın, icraedici orqanın – Şurayi – vükalanın təşəkkül etməsi və s. kimi hüquqi hürriyyətlərin də Rusiya Federativ Xalq Cümhuriyyətinin Konstitusiyasına daxil edilməsi və dövlət tərəfindən nəzarətə alınması nəzərdə tutulmuşdu [113,59-60].

«Müsavat» partiyasının Proqramında öz əksini tapmış bu və bu kimi məsələlər onu göstərir ki, çar Rusiyasında olduğu kimi Müvəqqəti Hökumət dönəmində də İmperiya daxilində olan Türklərə və digər rus olmayan xalqlara haqlar qanuni yollarla verilməmiş, məhəlli və milli-mədəni Muxtariyyətləri belə Türk və müsəlman xalqlarına çox görmüşdülər. Çevrilişlə hakimiyyətə gələn bolşeviklər Müəssislər Məclisini tanımamış, onun fəaliyyətinə qadağa qoymuşdu. Bolşeviklərin lideri tərəfindən elan edilmiş «Rusiya xalqlarının hüquq bəyannaməsi» və «Rusiyanın və bütün Şərqin müsəlmanlarına müraciət» adlı sənədlərin bütün Rusiya ərazisində yaşayan xalqların bərabərliyi və suverenliyini, müstəqil olaraq öz müqəddəratlarını təyin etmə hüququnu nəzərdə tutması Azərbaycan milli azadlıq mücahidlərini də ruhlandırmış və müstəqil dövlət qurmaq uğrunda mübarizəyə sövq etdirdi. Müstəqil dövlətçiliyin təməlinin qoyulması üçün hüquqi əsas olan bu müddəalardan istifadə edən Zaqafqaziyadan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələr Tiflisdə toplanaraq Zaqafqaziya Seymi yaratdılar. Seymin buraxılmasından sonra Azərbaycan fraksiyası özünü Azərbaycan Milli Şurası elan edərək Azərbaycanın idarə olunmasının məsuliyyətini öz üzərinə götürərək Müəssislər Məclisi çağırılana qədər Azərbaycanı Milli Şura və onun yaratdığı Müvəqqəti hökumətin idarə edəcəyi haqqında qərar qəbul etdi. Müvəqqəti hökumətin başçısı Fətəli xan Xoyski seçildi. 28 May 1918-ci ildə «İstiqlal Bəyannaməsi»nin elan edilməsi Azərbaycan xalqının 100 illik mübarizə və mücadiləsinin məntiqi nəticəsi idi.

Beləliklə 120 deputatdan ibarət Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti 1918-ci il 7 dekabrdan 1920-ci il 28 aprelə qədər özünün 17 aylıq fəaliyyəti dövründə 145 iclas keçirmiş, yetərsay olmadığından bu iclaslardan 15-i baş tutmamışdı. Parlamentin qanuni sayılan 130 iclasında müzakirəyə çıxarılan 270-dən yuxarı qanun layihəsinin 230-a yaxını müzakirə edilərək qəbul və təsdiq edilmişdir. Qəbul edilən bu qanun və qərarların Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini və strateji istiqamətlərini müəyyən etməkdə mühüm rol oynamışdır. Parlament fəaliyyəti dövründə daha çox ölkənin sosial-iqtisadi, maliyyə problemlərinin həlli, ölkənin siyasi və ərazi toxunulmazlığının təmini, vətəndaşların hüquqlarının qorunması, dövlətin demokratik və hüquqi əsaslarının möhkəmləndirilməsi, Azərbaycan Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınması üçün lazımi şəraitin yaradılması, onun xarici ölkələr, xüsusilə yaxın qonşuları ilə siyasi, iqtisadi və ticarət əlaqələrinin yaradılmasına çalışmışdır.

Parlament Azərbaycan Xalq Cümhuriyyətinin dünya dövlətləri tərəfindən tanınmasına xüsusi önəm vermiş və bu məqsədlə Parlamentinin sədri, Cümhuriyyətin qurulması və beynəlxalq aləmdə tanınmasında əvəzsiz xidmətləri olmuş Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə Paris sülh konfransında iştirak etmək üçün nümayəndə heyəti göndərmiş, bu nümayəndə heyəti böyük əziyyət və erməni təbliğatı ilə uzun müddətli mübarizədən sonra nəhayət 1920-ci il yanvar ayının 12-də Sülh konfransındakı əsas ölkələr tərəfindən Azərbaycanın de-fakto tanınmasına nail olmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti öz süqutundan, hakimiyyəti kommunistlərə təhvil verməsindən beş gün əvvəl 22 aprel 1920-ci ildə Paris sülh konfransında öz missiyasını yerinə yetirmiş, Azərbaycan nümayəndə heyətini buraxmaq və Qərbi Avropa ölkələrində -



İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul etmişdi [34,21].

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti hüquqi dövlət yaratmaq üçün hakimiyyətin Qanunverici, İcraedici və Məhkəmə orqanlarına bölünməsi prinsipini də nəzərdə tutmuşdur. Parlament hakimiyyət bölgüsü və plüralizm prinsiplərinin hökm sürdüyü bir tribunaya çevrilmişdi. Parlamentdə Azərbaycanın bütün siyasi qüvvələri və millətləri təmsil olunmuşdu. Azərbaycan Parlamenti xalqın milli şüurunun inkişafında mühüm rol oynamaqla bərabər, siyasi və hüquqi dəyişikliklərin həyata keçirilməsində mühüm addımlar atmışdı. Qısa müddət ərzində Parlament Azərbaycanın siyasi və hüquqi məsələləri ilə yanası iqtisadi və mədəni həyatı ilə bağlı da çox mühüm işlər görmüşdü.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə beş hökumət yaradılmış, onlardan üçünə hüquqşünas, milli qurtuluş hərəkatının fəal iştirakçısı, yüksək mədəniyyətli, alicənab, dürüst, Müstəqil Azərbaycanı ayaq üstə tutan, daha sonra Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Naziri olmuş və 45 yaşında Tiflisdə erməni terroristi tərəfindən qətlə yetirilən Fətəli xan Xoyski, ikisinə isə «Türk-ədəmi mərkəziyyət» partiyasının yaradıcısı Nəsib bəy Yusifbəyli rəhbərlik etmişdir.

Nazirlər Şurası da öz fəaliyyəti dövründə müxtəlif sahələr üzrə 636 qərar və sərəncam vermiş, son dərəcə mürəkkəb bir dövrdə bir çox vacib tədbirlər həyata keçirmişdi. Hökumət ilk növbədə daxili asayişi bərpa etmiş, yerli icra orqanlarının fəaliyyətini təmin etmiş, dağıdılmış təsərrüfatı bərpa etmiş, poçt, rabitə və maliyyə işlərini səhmana salmış, əhalinin yoxsul təbəqəsinə, işsizlərə, eləcə də erməni-daşnak zülmündən qurtulan insanlara yardım etmiş, Parlamentdə müzakirə və təsdiq üçün qanun layihələri hazırlamış, Respublikanın pul və poçt mar-

kalarını dövriyyəyə buraxmış, müxtəlif ərazilərdə yerli idarəçiliklə bağlı general-qubernatorluqlar yaratmış, Hərbi Nazirliyə başçılıq etmiş, Nazirlər Şurasının sədri, Hərbi, Yollar, Xarici İşlər və Ədliyyə Nazirlərindən ibarət «Dövlət Müdafiə Komitəsi»ni təsis etmişdi. Nazirlər Şurasının muraciəti ilə Azərbaycan Cümhuriyyəti Dövləti digər dövlət idarələri ilə yanaşı, məhkəmələrin də milliləşdirilməsini elan etmiş, hökumətin tərkibinə Ədliyyə Nazirliyini də daxil etməklə məhkəmə və hüquq sisteminə böyük diqqət verdiyini və bu sahədə də demokratik islahatlar keçirdiyini bir daha təsdiq etmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlament və hökuməti mühüm addımlar atmış «Mülki hüquq», «Dövlət bankı», «Müəssislər Məclisinə seçkilər», «Gömrük orqanlarının yaradılması», «Mətbuat», «Hərbi məhkəmə» və s. haqqında qanunlar, «Aqrar islahatlar», «Mətbuat», «Hərbi məhkəmə» və s. ilə bağlı «Əsasnamələr» qəbul etmiş, «Cinayət hüququ», «Məhkəmə və proses»lərlə bağlı Rusiya imperiyası dövründən qalma qanunlara əlavə və düzəlişlər etmişdi.

Cümhuriyyətin son dövründə daxili vəziyyət Sovet Rusiyası və daşnak Ermənistanın bölgədə yeritdiyi siyasət, İmperialist dövlətlərin öz maraqlarını həyata keçirmək üçün apardıqları rəqabət, ölkədaxili ziddiyyətlərin kəskinləşməsi, Parlamentdə və ondan kənarda müxtəlif siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizəsi Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini zəiflətmiş, nəticədə Azərbaycan Cümhuriyyətinin Parlamenti son dərəcə mürəkkəb şəraitdə özünün sonuncu iclasını keçirərək hakimiyyəti müəyyən şərtlər daxilində Azərbaycan kommunistlərinə verərək öz fəaliyyətini dayandırmağa məcbur olmuşdu.

Bu uğursuz nəticəyə baxmayaraq ilk Azərbaycan Cümhuriyyətinin 23 aylıq fəaliyyəti xalqımızın yaddaşına əbədi həkk olunmuş, 70 illik sovet dövrü məhrumiyyətlərinə baxmayaraq xalqımız 1991-ci ildə yenidən öz milli müstəqilliyini bərpa etmiş, Müstəqil Azərbaycan Respublikasını yaratmışdır.



### § 6. Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin formalaşmasında iqtisadi amillərin rolu

Bəllidir ki, hər bir xalqın yaratdığı və ya yaradacağı dövlətin əsasını təşkil edən amillər sırasında iqtisadi amillərin xüsusi yeri vardır. Çünki iqtisadiyyat ictimai münasibətlərin ən mühüm sahələri olan istehsal, istehlak, mübadilə, bölgü və b. sahələrini özündə birləşdirir. Bütün bu sahələrin əsasında isə əmək dayanır. Azərbaycan mütəfəkkirləri və ictimai-siyasi xadimləri həmişə insan əməyinə yüksək qiymət vermiş və onun iqtisadiyyatın yüksəlişində əsas ünsürlərindən biri olduğuna inanmışlar. Xalqın əməyinin uzun əsrlərdən bəri mənimsənilməsinə qarşı çıxan Azərbaycan mütəfəkkirləri Azərbaycanda gələcəkdə yaranacaq milli demokratik dövlətdə siyasi və hüquqi demokratiya ilə yanaşı iqtisadi demokratiyanı da önə çəkmiş, müstəmləkə şəraitində yaşayan xalqın bütün təbəqələrinin iqtisadi qərarlar verilməsində iştirakını iqtisadi demokratiyanın əsası hesab etmişlər. Çünki iqtisadi demokratiya ilə inkişaf və sosial ədalət arasında çox yaxın bir əlaqə vardır.

XIX yüzilliyin sonlarında Çar Rusiyasında təhkimçilik hüququnun ləğvindən sonra kapitalist istehsal münasibətləri daha da genişlənməyə başlamış, bu da öz növbəsində ucqarlarda, o cümlədən Quzey Azərbaycanda ənənəvi təsərrüfat sahələrinin genişlənməsinə, xammal istehsal edən yeni sənaye sahələrinin meydana gəlməsinə səbəb olmuşdu. Əmtəə istehsalının genişlənməsi nəticəsində yeni bazarlara çıxmaq ehtiyacı yaranmış, bu məqsədlə də Cənubi Qafqaz dəmir yolunun Tiflis-Bakı xətti çəkilmiş, Xəzər gəmiçiliyi inkişaf etmiş, bütün bunlar da əmtəə-pul

münasibətlərinin daha da inkişaf edərək Quzey Azərbaycanın dünya iqtisadi dövriyyəsinə qoşulmasına şərait yaratmışdı. İslahatlardan sonrakı dövrlərdə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalı xeyli genişlənmiş, kənd təsərrüfatının bir sıra sahələrində sadə əmtəə istehsalı kapitalist-əmtəə istehsalı dərəcəsinə çatmaqda idi. Kəndlilər arasında təbəqələşmə ilə nəticələnən bu proses sonda «kənddə bir tərəfdən zəif olan kənd burjuaziyası, digər tərəfdən isə kənd yoxsulları və muzdurların simasında özünü göstərən bir-birinə zidd qütblər meydana çıxardı. Kənd yoxsulları və muzdurları içərisində proletarlaşma prosesi, tədriclə də olsa güclənməkdə idi» [97,224]

Ümumiyyətlə, 1870-ci ildə qəbul edilmiş «Əsasnamə» ilə tənzimlənməyə başlayan Azərbaycan torpaq islahatı, bütün qüsurlarına baxmayaraq, Azərbaycan kəndində feodal istehsal münasibətlərinin zəifləməsi prosesini sürətləndirmiş, Azərbaycan kəndində kapitalizm inkişaf etdikcə icarə, satınalma və girovqoyma vasitəsilə torpaq tədriclə əmtəəyə çevrilmiş, kapitalist torpaq mülkiyyəti meydana çıxmışdı. Quzey Azərbaycanın bir çox qəzasında yerli şəraitə uyğun olaraq buğda, arpa, çəltik, üzüm, qarğıdalı, yulaf, çovdar, kartof, müxtəlif texniki bitkilər - pambıq, tütün, biyan və s. əkilib becərilirdi. Ölkədə həmçinin ipəkçilik, şərabçılıq, heyvandarlıq, maldarlıq, bağçılıq da yeni inkişaf dövrünə qədəm qoymuş, bütün bunlar ölkə iqtisadiyyatının yüksəlməsinə səbəb olmuşdu. Azərbaycanın kənd təsərrüfatında təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərindən və maşınlardan da istifadə ilbəil artmışdı. Doğrudur, «Azərbaycan iqtisadiyyatı Rusiya sənayesi və bazarının tələbinə tabe olunmuş, onun başlıca vəzifəsi Rusiya sənayesini xammalla təmin etmək idi. Rusiya burada daxili quberniyalarında fəaliyyət göstərən tipdə sənaye ocaqları yaratmışdı ki, bu da Azərbaycan iqtisadiyyatının müstəmləkə xarakterinin təbiətindən doğurdu» [42,599].



Nəhayət, XIX əsrin sonlarında, xüsusilə XX əsrin əvvəllərində Quzey Azərbaycanda neft sənayesinin coşğun inkişafı bir çox sənaye sahələrinin - neft emalı, kimya, metal emalı və maşınqayırma və b. sahələrinin yaranıb genişlənməsinə təkan vermiş, Xəzər dənizində güclü ticarət donanmasının, eləcə də dəmiryol nəqliyyatının inkişafına səbəb olmuşdu. Xüsusilə neft sənayesinin inkişafına əngəl törədən və sənayedə kapital axınına mane olan iltizam sistemi ləğv edildikdən sonra neft olan torpaqlar qruplara bölünərək ayrı-ayrı kapital sahiblərinə uzunmüddətli icarəyə verilmiş və beləliklə də, yeni-yeni sahibkarlar neft olan torpaqlar əldə etmiş, neft istehsalı ilə məşğul olan şirkətlər yaradılmışdı. Hətta «neft verən torpaqların bir qismi müzaidəyə (hərraca) qoyulmadan rus əyanlarına bağışlanmışdı» [42,605]. Tezliklə neft sənayesinə xarici kapital axını başlamış, «Nobel qardaşları birliyi», «Rotşild» və «Olent» şirkətləri Bakı neft sənayesində təşəbbüsü ələ alaraq 90 faiz paya sahib olmuşdular. Daha sonra yerli rus və digər xarici ölkə nümayəndələri də Bakı neft sənayesində müəyyən mövqeyə yiyələnərək Bakıda onlarla neft sənaye milyonçuları meydana çıxmışdı ki, onların arasında Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və b. azərbaycanlı kapitalistlər də var idi. Neft və neft məhsullarını saxlamaq üçün çənlər qurulmuş, daşımaq üçün vaqon-sisternlər yaradılmış, daha sonralar isə Bakı-Batum ağ neft kəməri çəkilmiş və beləliklə də neft ixracı xeyli artmış, Bakı dünyanın ən böyük neft sənayesi mərkəzlərindən birinə çevrilmişdi. Neft istehsalının sürətlə inkişafı onunla bağlı sənaye sahələri olan neft emalı zavodlarının da sayını xeyli artırdı.

1870-ci ildən əvvəl Bakıda neft yataqlarının 88 faizi yerli sahibkarların əlində idi. Çar xarici kapitalın Rusiyaya daxil olmasına icazə verdikdən sonra yerlilərin əlində olan bu zəngin neft yataqlarını xarici kapitalistlər o dövrə

görə yüksək pula satın almış və beləliklə də bu yerlərin xeyli hissəsi yerli sahibkarların əlindən çıxmışdı. Azərbaycanın təkcə nefti deyil, misi, duzu, kənd təsərrüfatı məhsulları və başqa malları da Qərb dünyasına çıxmağa başlamışdı. Kapitalizmə qədəm qoyan Azərbaycanda ağır sənayenin inkişafı ilə əlaqədar olaraq, bu sənayenin lazımi mallarla təmin olunması yüngül sənayenin, emalatxanaların da yaranmasına səbəb olmuş və beləliklə də, ölkədə balıq sənayesi, ipəkçilik, pambıqçılıq, şərabçılıq, yeyinti sənayesi, tütünçülük, nəqliyyat sahələri də inkişaf etməyə başlamışdı. Belə ki, artıq 1898-1900-cü illərdə ölkədə 2 milyon yarım puda qədər balıq istehsal edilmiş, bununla əlaqədar olaraq ölkədə çəllək istehsalının, konserv sənayesinin, dəniz nəqliyyatının, gəmi təmiri tərsanələrinin yaranmasına yol açılmışdır. Artıq 1900-cü ildə Bakıda 9 gəmi təmiri tərsanəsi, 25-ə qədər metal emal edən zavod, kənd təsərrüfatında suvarma işlərində istifadə olunan nasoslar üçün qazan istehsal edən emalatxanalar, Şəki, Şuşa və Ordubadda ipəkçilik fabrikləri, Gəncədə pambıqtəmizləmə zavodları, Şamaxı, Göyçay, Kürdəmir, Şuşa, Gəncə, Naxçıvan və s. şəhər və rayonlarda şərab zavodları, Gəncə, Şamaxı, Bakı, Şəkidə tütün fabrikləri, Lənkəranda sement zavodu fəaliyyət göstərir, ölkə iqtisadiyyatını daha da inkişaf etdirirdi. Bakıda və Gəncədə həmçinin un üyüdən buxar maşınlı dəyirman, Bakıda çəltik təmizləyən altı düyü fabriki var idi. Dəmiryol nəqliyyatı, su nəqliyyatı da ölkə iqtisadiyyatında mühüm rol oynayırdı. Bakı – Batum dəmir yolu Qərb ilə Şərq ölkələri arasında bir tranzit yolu rolunu oynadığından, nəqliyyatın, ticarətin də artması Bakı limanının yaradılmasına səbəb olmuş və bunun nəticəsində də nəqliyyat daha da inkişaf etmişdi. «Bu illərdə Azərbaycandan Rusiyaya göndərilən malların miqdarı bütün Cənubi Qafqazdan göndərilən malların beşdə dördünü təşkil edirdi. Neft Rusiyaya sistern vaqonlarla, dənizdə gəmilərlə Həştərxan yolu ilə daşınırdı... Rusiya imperiyasının bütünlükdə Azov dənizində, Qara dənizdə, Aralıq dənizində və Baltik dənizində Xəzər dənizində olan yük gəmilərinin 40 faizi Xəzər dənizində yerləşirdi» [39,47-48].



Beləliklə, XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan sənayesi Qərb üsullu sənayeyə çevrilir, ticarəti inkişaf edir və Azərbaycan xalqı tarixin bu ağır müstəmləkə zülmünə sinə gərərək öz gələcək milli, demokratik dövlətçiliyinin iqtisadi bazasının təməl daşlarını qoyurdu. Bu işdə yeni formalaşan Azərbaycan milli burjuaziyası mühüm rol oynayırdı. Artıq Azərbaycanın bir sıra şəhərlərində də azərbaycanlı kapitalistlər var idi. Doğrudur, XX əsrin əvvəllərində «167 neft sənayesi müəssisəsindən 49-u, yəni 29,3 faizi milli Azərbaycan kapitalistlərinin himayəsində idi. Bu, sayca çox görünsə də, ümumi istehsal həcmində vəziyyət dəyişirdi. Belə ki, 100000 puda qədər neft istehsal edən qrupda milli Azərbaycan kapitalı 31,3 faiz, 500000 puda qədər neft istehsal edən müəssisə qrupunda 48,7 faiz, 1.000000 puda qədər məhsul istehsal edən qrupda 25 faiz, bir milyon puddan 10 milyon puda qədər neft istehsal edən türk müəssisələr qrupunda Azərbaycan türk kapitalı 12,5 faiz idi. 10 milyon puddan 40 milyon puda qədər və bundan daha çox neft istehsalında Azərbaycan milli türk kapitalı, demək olar ki, heç yox idi» [39,43]. Bütün bunlara baxmayaraq, un və çəltik təmizləyən zavodların, Xəzər dənizindəki yelkənli gəmilərin əksəriyyəti Azərbaycan kapitalistlərinə məxsus idi. Bu dövrdə Dadaşovlar, Hüseynovlar, Aşurovlar, Manafov, Zeynalov və başqa bu kimi dəniz və çay nəqliyyatı işində təşəbbüs göstərən kapitalistlər, Şəkidə Hacı Kərim, İbrahim Əkbər oğlu, Hacı Abdul Rəhimov, Hacı Məhəmməd Rəhim oğlu, Qarabağda Muradov kimi ipəkçilik sahəsində olan kapitalistlər, Tağıyev, Sultanov, Əhməd Mustafa oğlu, Ağa Mustafa oğlu və s. kimi balıq sənayesini təmsil edən kapitalistlər də fəaliyyət göstərirdilər.

Azərbaycan milli kapitalını yerli ticarət burjuaziyası əlində saxlayır, ölkədə orta təbəqənin də -formalaşmasında mühüm rol oynayırdılar. Bu orta təbəqə Azərbaycanın sosial, mədəni və siyasi həyatında olduğu kimi, iqtisadi həyatında da, Azərbaycan milli dövlətçiliyinin iqtisadi təməlinin qurulmasında da yaxından iştirak edirdi.

Artıq XX əsrin əvvəllərində çar Rusiyasının Yaponiyaya məğlubiyyəti çarizmin əzəmət və qüdrətini sarsıtmış, daxildə inqilab başlamış, çar aldadıcı bir vəd verən «Manifest» imzalamağa məcbur olmuşdu. Bu və ya digər hadisələr Rusiya əsarətində inləyən bütün xalqların həyatında olduğu kimi, Azərbaycan xalqının da həyatında mühüm bir dövrün başlanğıcı olmuşdu. 1905-ci ildən etibarən Azərbaycan ədəbiyyatı, mətbuatı və maarifində olduğu kimi, ictimai-siyasi və iqtisadi fikrində də bir yüksəliş baş vermişdi. Belə ki, 1905-ci il fevralın 18-də çar «Dövlət Duması» layihəsinin hazırlanmasına dair bəyanat vermiş, bundan istifadə edən Azərbaycan ziyalıları 15 mart 1905-ci ildə məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin evində toplaşaraq Fərrux bəy Vəzirov, Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayevin hazırladıqları memarandum mahiyyətli bir layihəni müzakirə etmişdilər. Bu memarandium mahiyyətli ərzihalda millətin təmsilçiləri Azərbaycan xalqının siyasi, hüquqi, sosial, mədəni məsələləri ilə yanaşı, hökumətin yardımı ilə pay torpaqlarının kəndlilər tərəfindən satın alınması, boş qalan xəzinə torpaqlarından torpaqsız və aztorpaqlı kəndlilərə pay verilməsi, vaxtilə zorla dövlətin ixtiyarına keçirilmiş, vəqf torpaqlarının müsəlman ruhanilərə qaytarılması, vergilərin yerli şəraitə görə ədalətli təyin edilməsi və s. kimi iqtisadi tələblər də irəli sürülmüşdü. «Ümumi milli haqq istəyi» adlı bu ərzi-halı Bakı şəhər dumasının qərarı ilə çar hökumətinin Nazirlər Kabinetinin sədrinə və yenicə yaradılmış Qafqaz canişinliyinə seçilmiş nümayəndə heyəti vasitəsilə göndərmişdilər. Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Fərrux bəy Bəşirov, Şəmsi Əsədullayev, Atakişi Əliyev, Nəcəfqulu Sadıqovdan ibarət nümayəndə heyətini Peterburqda daxili işlər naziri Bulıgin qəbul etmiş və nazir nümayəndə heyətinə söz vermişdi ki, bu irəli sürülən məsələlərə baxılacaq.



Beləliklə, Azərbaycan ziyalıları 1905-ci il inqilabının verdiyi azadlıq imkanlarından Azərbaycan xalqının maksimum yararlanmasına çalışırdılar. 15 bənddən ibarət bu «Haqq istəyi» layihəsində ən mühüm tələb müsəlmanlara da ruslarla eyni siyasi, hüquqi, mədəni, dini və iqtisadi haqların tanınması idi (Bu layihənin tam mətni bundan əvvəlki paraqrafda verilmişdir). Bu və buna bənzər layihələr daha sonra Dumada müsəlman deputatlar tərəfindən səsləndirilmiş, ancaq rus millət vəkilləri tərəfindən hiddətlə qarşılandığından müsəlman ziyalıları – hüquqşünaslar, ayrı-ayrı qəzetlərin naşir və mühərrirləri, millət vəkilləri, üləmalar, müəllimlər bir araya gəlib «Rusiya Müsəlmanları İttifaqı»nı yaradaraq bu ittifaqınt Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanmış 72 bənddən ibarət Proqramını müzakirə və qəbul etmiş, qurultayın qəbul etdiyi qətnamələrin surətləri teleqraf vasitəsilə Peterburqdakı «Речь» «Ока», «Товарищь», «Страна», «Новый путь», Moskvadakı «Русское слово» və «Русские ведомости» qəzetlərinə çap üçün göndərilmişdi.

Partiya proqramında siyasi, hüquqi, dövlət quruluşu, dini qaydalar, məhəlli muxtariyyət, məhkəmə, maarif məsələləri ilə yanaşı iqtisadi məsələlərə, xüsusilə, maliyyə, torpaq və fəhlə məsələsinə də xüsusi yer verilmişdir. Proqramın 54-72 maddələrində göstərilir:

– Maddə 54. Dövlətin iqtisadi və maliyyə siyasəti təməlindən dəyişdirilməlidir. Lüzumsuz israfçılıq aradan qadırılmalıdır. Xalqın ehtiyacına, xüsusilə elm və maarif sahəsinə dövlət xəzinəsindən müəyyən miqdarda pul ayrılmalı, dövlət büdcəsində əsaslı dəyişiklik aparılmışdır.

– Maddə 55. Ümumi xəzinə əmlakında hakimlik hüququ təkcə mərkəzə aid olmayıb, məhəlli muxtariyyət idarələri arasında bölüşdürülməlidir.

– Maddə 56. Ümumiyyətlə vergilərin, o cümlədən xalqın daha çox ehtiyacı olan mallardan verginin məbləğini azaltmaq, ticarətdə bəzi qaydaları aradan qaldırmaq və ləğv etmək lazımdır.

– Maddə 57. Vergilərdə bəzi dəyişikliklər həyata keçirilməlidir. Belə ki, gəlir artdıqca vergi də artırılmalı, əldə olunan yüksək qazanclar miras vergisinə əlavə olunmalıdır.

– Maddə 58. İş qabiliyyəti olan kəndlilərə saray və dövlətə aid yerlərdən ehtiyacı olduğu qədər torpaq verilməlidir. Həm də dövlət xəzinəsindən ödənmək şərtilə müvafiq qiymətə xüsusi mülk olan torpaqlar alınaraq ehtiyacı olanlara verilməlidir.

– Maddə 59. Torpaqla məşğul olan əkinçiləri hər cür alətlərlə təmin etmək, vilayətin torpaqlarını ehtiyacı olan əkinçilər arasında paylaşdırmaq lazımdır. Torpaqda çalışan əkinçilərin daha çox məhsul əldə etməsi və bütün işləri intizamla görməsi üçün məhəlli muxtar idarələr hər cür tədbirlər görməlidirlər. Bütün bu işləri həyata keçirmək üçün köçürmə işləri dayandırılmalı və köhnə sahiblərindən qəsb edələrək alınan torpaqlar əvvəlki sahiblərinə qaytarılmalıdır.

– Maddə 60. Dövlət və məhəlli muxtar idarələr bütün imkanları ilə torpaq məsələsini, heyvandarlığı təsvir və himayə etməlidir. Kənd təsərrüfatı məktəbləri açılmalı, kənd təsərrüfatı kredit bankları qurulmalı, əkinçilərə kredit verilməli, kənd təsərrüfatı şirkətlərinə, birliklərə icazə verilməsi üçün nizamnamələr qəbul edilməli, bütün tədbirləri görmək və kənd təsərrüfatı işlərinə nəzarət etmək üçün komissiyalar yaradılmalıdır.

– Maddə 61. Əkinçiliklə məşğul olan şəxslər ağaların zülmündən azad olmalı, torpaq işlərini təftiş etmək üçün qüvvədə olan qaydalar dəyişdirilməli, fəhlələrə aid qanunlar, sənaye işçilərinə verilən hüquqlar kənd təsərrüfatı işçilərinə də şamil olunmalıdır.

– Maddə 62. Əkinçilərə paylanan torpaqlara sərhəd təyin edilməli və miqdarı müəyyənləşdirilməli, daşınmaz malların girov qoyularaq kredit alınması işi nizama salınmalı, torpağın icarə qiyməti müəyyənləşdirilərək təyin edilməli, borcun əvəzində kəndlilərə iş gördürmək üsulu tamamilə ləğv edilməlidir.

– Maddə 63. Suvarma işləri islah olunmalı və təftişə məruz qalmalıdır.

– Maddə 64. Fəhlə ittifaqlarının, cəmiyyətlərinin yaranmasına, tətil etmələrinə icazə verilməlidir.

– Maddə 65. Fəhlələrin adi iş gününün müddəti təyin edilməlidir.

– Maddə 66. Fəhlənin iş müddətindən artıq çalışmağı, zərurət olmadıqda gecə işləri qadağan edilməlidir.

– Maddə 67. Qadınların və uşaqların əməyi qorunmalı, sağlamlığa zərərli işlərdə kişilərin də əməyini himayə etmək üçün tədbirlər görülməlidir.

– Maddə 68. Fəhlə xəstələndikdə, iş zamanı xəsarət aldıqda, peşə xəstəliyinə tutulduqda həmin müəssisənin müdiriyyəti müalicə haqqını ödəməlidir.

– Maddə 69. Kimsəsiz qocalara dövlət hesabına müavinət verilməlidir.

– Maddə 70. Əmək intizamını gücləndirmək üçün müəyyən cəzalar təyin edilməlidir.

– Maddə 71. Fəhlələrin hüquqları pozulduğu zaman fəhlələrlə müdiriyyət arasında ixtilafları ədalətlə həll etmək üçün yarısı fəhlələrdən, yarısı sahibkarlardan ibarət barışdırıcı hakimlər yaradılmalıdır.

– Maddə 72. Fəhlə qanunlarının tətbiqi və fəhlələrin əməyinin himayəsi üçün müstəqil müfəttişliklər yaradılmalı və fəhlələri müdafiə etməli olan müfəttişlər heyətinə fəhlə nümayəndələri də daxil olmalıdırlar [39,154-156].

(Məlumatlar Qazan Türklərindən olan görkəmli alim və tarixçi Mussa Carullah Biqinin (1875-1949) «İslahat əsasları» kitabının Hüseyn Baykara tərəfindən tərcümə edilmiş hissəsindən götürülmüşdür).

Topçubaşovun hazırladığı və Qurultayın qəbul etdiyi bu Proqramı yüksək qiymətləndirən tədqiqatçılar göstərirlər ki, bu proqram fəhlə problemlərini, torpaq məsələsini Azərbaycanda rus sosialistlərinin deyil, məhz Azərbaycan ziyalılarının gündəmə gətirdiklərini sübut edir. Bu proqram «...imperiyanın bütün müsəlman xalqlarının milli hüquqlarının təmin olunmasında, onların vahid taktikasının işlənib hazırlanmasında böyük iş görmüş»dür [102,328]. Doğrudan da bu proqramdakı maddələr demokratik dövlətçilik məfkurəsinin ana qaynaqlarından sayıla bilər. Heç təsadüfi deyildir ki, bu proqramda irəli sürülən bir çox məsələlər Quzey Azərbaycanda sonralar yaradılan bir çox siyasi təşkilatların, xüsusilə «Müsavat» partiyasının qəbul etdiyi proqramın əsasını təşkil etmişdir. Bu proqram Azərbaycan milli demokratik dövlətçilik məfkurəsinin formalaşmasında da mühüm rol oynamışdır.

Qeyd edildiyi kimi, bu dövrdə artıq Bakı çağdaş anlamda kapitalist, tacir, fəhlə, ziyalı və başqa təbəqələrdən ibarət bir Qərb şəhərini xatırladırdı. Burada xarici kapitalistlərlə yanaşı yerli kapitalistlər də fəaliyyət göstərirdi. Fəhlələrin çoxu Güney Azərbaycandan gələnlərlə çar hökuməti tərəfindən məhsuldar torpaqları əllərindən zorla alınaraq məcburiyyət qarşısında qalıb şəhərə iş dalınca gələn yerli kəndlilərdən ibarət idi. Təbii ki, XX əsrə belə bir vəziyyətdə qədəm qoyan Azərbaycan xalqının özünə məxsus problemləri var idi. Bunlardan ən başlıcaları iqtisadi problemlər idi. Bunun həlli üçün də heç şübhəsiz mövcud çar rejiminin devrilməsi, xalqın milli istiqlala qovuşması lazım idi. Azərbaycan mütəfəkkirləri çıxış yolu axtarır, xalqı maarifləndirməyə səy göstərir, onu mil-



istiqlala hazırlayır, çar hökuməti qarşısında müəyyən siyasi, hüquqi və iqtisadi tələblər irəli sürürdülər.

Bu dövrdə Azərbaycan milli ziyalılarının təfəkküründə milli-demokratik dövlətçilik məfkurəsi ön plana çıxırdı. Azərbaycanın böyük mütəfəkkiri Əli bəy Hüseynzadə bununla bağlı o dövrdə yazırdı ki, Qafqaz türkləri türklərin ən hürriyyətpərvərləridir. Bu məmləkətdə heç bir qüvvə hürriyyət arzusunu məhv edə bilməz. Qafqaz hürriyyət aləminin tarixində mühüm rol oynayacaqdır. Bu rollardan ən böyüyü Qafqaz və Azərbaycan türklərinə aiddir.

Artıq Azərbaycan ziyalıları öz fikir və mülahizələrini təkcə qəzet və jurnallarda çap etdirməklə kifayətlənməyib, Dumada çar nazirləri qarşısında açıq şəkildə bildirirdilər. Belə ki, Gəncədən Dövlət Dumasına seçilən millət vəkili İsmayılxan Ziyadxan oğlu Dumada geniş bir nitq söyləyərək Azərbaycanda çar məmurlarının törətdiyi rəzalətləri, özbaşınalıqları, dövlət idarələrinin həyata keçirdiyi fitnəkarlıqları, Zaqafqaziyanın çar Rusiyası tərəfindən işğal edilməsini, müsəlmanların əsir kimi həyat sürməsini, təqiblərə məruz qalmasını, onlara heç bir haqq və hüquq verilməməsini, xalqın kölə vəziyyətinə salınmasını, bütün ölkədə siyasi, sosial və iqtisadi haqsızlıqların hökm sürdüyünü, milli varlığımıza təcavüz edildiyini, xalqın torpaqlarının çar hökuməti tərəfindən zəbt edildiyini, ölkənin bazara çevrildiyini, müsəlmanlara bəzi ali məktəblərə qəbul olunmaq hüququnun verilməməsini və s. məsələləri [39,126-130] açıq şəkildə Dövlət Duması üzvlərinin və çar hökuməti məmurlarının üzünə söyləmiş və sonra çar Rusiyası tərəfindən törədilən erməni-müsəlman qırğınına toxunaraq göstərmişdi ki, bu qanlı qırğın hökumət tərəfindən törədilmiş, sonra isə qarşısı alınmamışdır. Bu işin arası səriştəli polislərə həvalə edilmiş, onlar da bundan istifadə edərək təhrikçiliyə başlamış, bir tərəfdən müsəlmanlara «görürsünüz, sizi iqtisadi cəhətdən istismar edən

ermənilər silahlanırlar, bir gün gələcək ermənilər müstəqil dövlət quraraq hər şeyinizi əlinizdən alıb sizi məhv edəcəklər». Digər tərəfdən də ermənilərə: «...Ehtiyatlı olun, panislamizm hər tərəfi bürümüşdür, islam camaatı arasında elə bir güclü inam yaradılmışdır ki, günlərin birində siz ermənilərin kökünü kəsəcəklər» - deyərək bu iki xalqı bir-birinə qarşı təhrik etməyə müvəffəq olmuşdular... Cənablar, iki ildən bəri qan içində Üzən ölkəmizdə cəsədlərin üstündən keçirik. -Artıq səbrimiz tükənib. Biz anaların qucağından alınıb havaya atılan südəmər uşaqların havada ikən xəncərlərə keçirildiklərini görmüşük. Biz hamilə qadınların qarnına soxulan xəncərlərin açdığı yaralardan uşaq əllərinin bayıra sallandığının şahidi olmuşuq. Qoy təbliğat və mətbuat vasitələri ilə aramıza nifaq toxumu səpən provokatorlar utansınlar, yanğın və alovlardan xoşlananlar iş başından çəkilsinlər, dəlik-deşik edilən cəsədlərdən, anaların, uşaqların fəryadından, iniltisindən həzz alanlar rədd olsunlar [39,129-130].

Bu dövrdə Azərbaycanın ziyalıları, istər sağçı, istər solçu, istər romantik, istər realist cərəyanlara mənsub olanlar və istəsə də milli burjuaziyası əl-ələ verərək çarizmə və erməni daşnaklarına qarşı birgə mübarizə aparmışlar. Bu məqsədlə onlar ayrı-ayrı ictimai və siyasi təşkilatlar yaradaraq öz mübarizələrini kütləviləşdirməyə çalışmış, ayrı-ayrı mətbuat orqanlarında öz siyasi, hüquqi və iqtisadi görüşlərini irəli sürərək gələcək dövlət quruluşu haqqındakı ideyalarını əsaslandırmağa çalışmışlar.

Azərbaycan mütəfəkkirləri bu ölkənin iqtisadi gücünün nəyə qadir olduğunu çox gözəl bilirdilər. Onlar bilirdilər ki, Zaqafqaziyada özünü iqtisadi cəhətdən təmin edə biləcək yeganə ölkə Azərbaycandır. Bu ölkə yeraltı sərvətlərlə yanaşı, kənd təsərrüfatı məhsulları ilə də zəngindir. Azərbaycanın ictimai-siyasi xadimləri bütün bunları nəzərə alır, xüsusi olaraq qeyd edirdilər ki, Azərbaycan doğrudan da əsrimizdəki Turan torpağının gözəl bir



parçasıdır. Əski Albaniya, Şirvan, Arran və Bərdə ərazilərindən ibarət olan bu yeni Azərbaycan (Quzey Azərbaycan - R.Ə.) əsrimizin ən böyük qüvvətini təşkil edən zəngin mədənlərindən başqa, təbii gözəlliklərdən də pay almış bir ölkədir. «Zəndi-Avasta»nın, «Cənnət», Şirvan tarixinin müəllifi Abbasqulu ağa Bakıxanovun «Gülüstani-İrəm» adlandırdığı Azərbaycanı yeni dövrün Azərbaycan mütəfəkkirləri «neft rəngində qızıl fontanlara malik olan bu yerin zəngin bir sərvət gücü ilə çox rifah və inkişafa gedəcəyini» [133,35] əvvəlcədən görmüş və xüsusi olaraq göstərmişlər ki, «ən böyük qüvvət təbii sərvətdir...Yanacaqlar arasında daş kömürlə neft dünyanın ən qüvvətli itələyən gücləridir. Dünya müsabiqəsi adətən dəmirlə yarışdır. Kimin ki, dəmiri ilə kömürü və ya nefti çoxdur, qalibiyyət də onundur... Azərbaycan neftinin çoxluğu və kimyəvi zənginliyi...bütün dünyanı özüylə əlaqədar edir. Rusiya bütün əzəmət və qüdrətini ona (Azərbaycan neftinə-R.Ə.) bağlamışdır. Qafqaz onunla (neftlə-R.Ə.) canlı, yaşar olduğuna qanedir. Avropanın yanacaq həsrətiylə yanan könlü bunun (Azərbaycan neftinin - R.Ə.) eşqiylə yanır. Azərbaycanın həyatı isə damarlarında cərəyan edən bu siyah qanla ayaq üstə durur. Nefti ondan (Azərbaycandan - R.Ə.) aldığımız gün o, bütün gözəlliklərini itirər və iflic olmuş halda gələr» [133,39].

Azərbaycanın milli demokratik dövlətçiliyinin təşəkkülü üçün ölkənin bütün iqtisadi imkanlarını təhlil edən Azərbaycan mütəfəkkirləri göstərirdilər: «Azərbaycan Muğan, Mil, Arran və s. ovalıqlarındakı münbit əraziləri sayəsində özünə artıqlıq edən buğda anbarları vücuda gətirə bilər. Bu ovalıqlar Muğan çöllərində izləri hələ də qalan qədim arxlar kimi kanallar və yaxud daha müasir vasitələrlə başdan-başa sulanarsa, o zaman Azərbaycan yalnız özünə deyil, qonşularına da ərzaq verər və yalnız insanları deyil, böyük fabrikləri də kətanı və ipəyi ilə doydurar». Onlara görə: «Ərzaq qüvvəti heyvan qüvvəti

ilə dəstəklənməsə heçdir. Azərbaycan bu xüsusda da xoşbəxtdir. Azərbaycanda olan mal-davar Qafqasyanın heç bir səmtində yoxdur. Balıq məhsulu isə Mavareyi Qafqaziyada yalnız buraya aiddir».

İnkişafın əsasını iqtisadi göstəricilərdə görən Azərbaycan mütəfəkkirləri göstərirdilər ki, «sağlam ruh sağlam bədəndə olduğu kimi inkişaf da zəngin bir yerdə ola bilər. Azərbaycanlıların doğuluşdan inkişafda olmalarının bir səbəbi də çox yüksək iqtisadi həyatla» bağlıdır. Azərbaycan xalqının ölkəsinin təbii çatışmazlıqlarını sənaye təşəbbüsləri ilə təmin etməyə başladığı az zamanda çox uğurlar qazandığını qeyd edən mütəfəkkirlər yazırdılar ki: «Azərbaycan zehniyyətcə dünyanın əvvəlindən bəri insanların yaşayış və iqtisadiyyatda qarşılaşdıqları ədalətsizliyi birdən-birə ortadan qaldırmaq, inqilabçı bir zərbəylə mülkiyyəti və bununla bağlı insanlar arasında ortaya çıxan səfaləti ortadan qaldırmaq mümkün deyildi. Azərbaycanlılar düşünürdülər ki, mülkiyyəti tamamilə ortadan qaldırmaq indiki durum içərisində şəxsi təşəbbüsü zorakı şəkildə aradan qaldırar, sosial həyat irəliləmədən düşər, insanlar bəsit ibtidaiyə doğru dönər, aləmin nizamı pozular. Fəqət bununla bərabər hər şeyin ifratından zərər gəldiyi kimi, mülkiyyətin də ifrat tərəflərini yox etmək sosial islahatın əsasını meydana gətirməkdir. Mülkiyyət ancaq ümumi aləmə yayılıb təsirli oluncaya qədər müdafiə olunub. Bu olmayanda ümumi zərər gətirən lüzumsuz bir artıqlıq kəsilib atılmalıdır» [133,39-41].

Azərbaycanın islahatçı ictimai-siyasi xadimləri geniş torpaqları ölü halında saxlayan torpaq sahiblərinin mülkiyyət hüququnu rədd edir, o torpaqların xüsusi əraz sahiblərindən alınıb dövlət malı edildikdən sonra əkin yeri kimi vətəndaşların mülkiyyətinə verilməsini, dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı sərvətlərin isə tamamilə dövlət mülkiyyətində qalmasını irəli sürürdülər. Onlar həmçinin digər əmlak və istehsal vasitələrindən



olan fabrik və zavodların, dəmir yolu, işıq, su, telefon, teleqraf və s. bu kimi ümumi işlərə xidmət edən vasitələrin ya milliləşdirilməsini və ya bələdiyyələrə verilməsini önə sürürdülər.

I Dünya müharibəsi «...digər ölkələrə nisbətən Rusiyaya daha böyük zərər vurmuş,... iqtisadi böhran və təsərrüfat pozğunluğu Rusiyanın mərkəzi quberniyalarına nisbətən Azərbaycanda daha erkən başlamış və daha dərin xarakter daşımış,... Azərbaycan xalq təsərrüfatının digər sahələrinin hamısına mənfi təsir göstərərək onun dərin böhranına səbəb olmuş, o cümlədən Azərbaycan sənayesinin ən aparıcı sahəsi olan neft sənayesi də dərin böhrana məruz qalmışdı» [97,194-195]. Belə bir vəziyyətdə Azərbaycanda ictimai təbəqələşmə daha da güclənmiş, kənddə yoxsulların xüsusi çəkisi durmadan artmış, «bir sözlə dünya müharibəsi kəndli kütlələrinin istismarının güclənməsinə, onların daha da iflasına və dilənçiləşməsinə səbəb olmuşdu» [97,205].

Belə bir vəziyyətdə Azərbaycanın şəhər və kəndlərində fəhlə və kəndlilərin yeni hərəkat dalğası başlamış, siyasi təşkilatlar yeni-yeni siyasi və iqtisadi tələblər irəli sürmüşlər. Azərbaycanın dövlətçilikdə iqtisadiyyata mühüm əhəmiyyət verən ictimai-siyasi xadimləri artıq milli sənayenin müstəmləkə sənayesinin təsirindən çıxmasının zəruriliyi fikrini irəli sürməyə başladılar. Belə ki, hələ müharibənin ilk ilində Məmməd Əmin Rəsulzadə «İqbal» qəzetində yazırdı: «İndiki müharibələri törədən səbəblərdən ən mühüm bir mövqe tutan səbəb münasibəti – iqtisadiyyədir». İqtisadiyyatı nizama salmaq üçün müəllif bir çox məsələlərlə yanaşı həm də şəxsi təşəbbüskarlığı yüksək qiymətləndirərək göstərirdi ki, «gömrük islahatı ilə bərabər məmləkət daxilində şəxsi təşəbbüsləri öldürən qanuni təzyiqlər dəxi qaldırılsa və sərmayənin sənayeyə sərf olunmasını qaydaya salan cəhətlər düzəlsə, o halda ümid etmək olar ki, ... milli sənaye bir müstəmləkə sə-

nayesi olmaq halından çıxar və özünü Qərbi Avropa sənayesinə çatdırar» [129,387-389].

Dövlətçilikdə iqtisadiyyatın mühüm bir qolunu təşkil edən vergi ilə bağlı məsələlərə öz məqalələrində geniş yer verən Azərbaycan ictimai-siyasi xadimləri, o cümlədən M.Ə.Rəsulzadə xüsusi olaraq göstərirdi: «Gəlirə görə vergi vəz eləmək üsulu vergilərin ən mütəkamil və ən adilanə bir surətidir. Elmi-iqtisadda tərəqqipərvəranə bir inqilab vücuda gətirmək istəyənlərcə bu üsul idealdır. Həqiqətən də bu üsul ədalətə müvafiqdir. Çünki burada zülm və haqsızlığa məhəl ola bilməz. Hər kəs öz gücünə görə vergi vermiş oluyor. Azdan az, çoxdan çox alınar... Məmləkətin ağır xərci yoxsul təbəqənin üzərinə düşməz» [129,432-433].

Təkcə Azərbaycanın deyil, bütün Qafqaz və Rusiya türkləri və müsəlmanlarının qayğısına qalan, gələcək milli demokratik dövlətçilik üçün bütün ziyalıları yeni islahatlar uğrunda mübarizəyə səsləyən Məmməd Əmin Rəsulzadə «İqbal» qəzetinin 21 noyabr 1914-cü il nömrəsində çap etdirdiyi «İslahat ümidində» adlı məqaləsində isə yazırdı: «Gərək ümumrusiya, gərək Qafqasya türkləri və müsəlmanlarına lazım olan islahatların nədən ibarət olduğunu milli mətbuat indidən düşünməli və bunu cəmaətinizə bildirməlidir. Bu onun ən doğru vəzifəsidir. Bu xüsusda yalnız qəzetçilərimiz deyil, az-çox cəmaət işinə qarışan maarifməndlərimiz də düşünməli, əl-ələ verib çalışmalıdır ki, müharibədən sonra Rusiyada gələcək mühəqqəq olan islahat dövrəsi bizi hazırsızlıqda görməsin. Məsələn, Qafqasyanın ən ziyadə möhtac olduğu və növbədə dayanan «zemstvo» (Seçkili yerli idarəçilik forması - R.Ə.) məsələsi var. Bu xüsusda bizim cəmaətə məlumat vermək, «zemstvo»nun nə olduğunu öyrətmək və bu xüsusda nə kimi bir xətti-hərəkət tutmaq lazım olduğunu milli mətbuat vasitəsilə indidən həll etmək lazımdır». Məqaləsinin sonunda müəllif Azərbaycan ziyalılarına müraciət edərək göstərirdi ki: «Əcaba, bölgə fəal bir zamanda, böylə qeyrət və himmət istəyən bir gündə də əhli-maarif (intelligensiya) deyilən qisminiz hərəkətsizliyində baqi qalacaq və islahat ümidində ikən öhdəsinə düşən vəzifəsini ifa etməyəcəkmi?» [129,448-449]. M.Ə.Rəsulzadənin hələ 1914-cü ildə irəli sürdüyü və bir çox yazılarını həsr etdiyi, həmçinin Azərbaycanın milli ziyalıları tərəfindən dəstəklənən «земство» - seçkili yerli idarəçilik forması məsələsi, nəhayət, çar hökuməti və ardınca da müvəqqəti hökumətin devrilməsi zamanı öz bəhrəsini verdi.

Ümumiyyətlə, I Dünya müharibəsi dövründə Azərbaycanın siyasi və iqtisadi həyatında bir sıra mühüm hadisələr baş vermişdi ki, bunlardan da ən başlıcası ziyalıların, hətta fəhlə və kəndlilərin, milli burjuaziya nümayəndələrinin siyasi partiyalarda təmsil olunmaları, Azərbaycan ziyalılarının Azərbaycan xalqının gələcəyini düşünərək açıq siyasi mübarizəyə başlamaları idi. Bu siyasi partiyalar siyasi, hüquqi məsələlərlə yanaşı iqtisadi məsələləri də ön plana çəkirdilər. Bu siyasi partiyalardan ən öndə gedəni milli dəyərlərə söykənən «Müsavat» partiyası idi. Heç təsadüfi deyil ki, «Müsavat» partiyasının hələ 1911-ci ildə qəbul olunmuş proqramında bütün müsəlmanların mənəvi və maddi birliyi nəzərdə tutulmuş və bir maddə xüsusi olaraq müsəlmanların iqtisadi həyatlarını qüvvətləndirməyi nəzərdə tutmuşdu. Proqramın bu maddəsində göstərilirdi: «Müsəlmanların həyat uğrunda mübarizə vasitələrini, onların ticarət, sənaye və ümumən iqtisadi həyatlarını qüvvətləndirməyə çalışmaq lazımdır» [113,185].

Azərbaycan milli ictimai-siyasi xadimləri maarif, mədəniyyət, dövlət idarəçiliyi, istiqlaliyyətlə yanaşı, milli iqtisadiyyata da mühüm əhəmiyyət vermiş, xüsusilə çar hökuməti devrildikdən sonra maliyyə siyasətinin yumşaldılması üçün gəlir vergisindən başqa bütün vergilərin ləğv olunmasını, gömrük rüsumlarının minimuma endiril-

məsini, bütün xəzinə, kilsə və sahibkar torpaqlarının pulsuz və əvəzsiz kəndlilərə paylanmasını, torpağın kəndlilərin tam mülkiyyətinə verilməsini və b. bu kimi iqtisadi islahatların həyata keçirilməsini irəli sürürdülər. Ümumiyyətlə, «Fevral inqilabının qələbəsindən sonra Azərbaycanda, hər şeydən əvvəl, milli hərəkatın daha kütləvi və siyasi səciyyə alması, konkret iqtisadi tələblər irəli sürülməsi, milli dövlətçilik ideyası ətrafında əhalinin bütün təbəqələrinin birləşməsi kimi cəhətləri ilə fərqlənən tamamilə yeni mərhələ başlandı» [30,286]. Belə ki, imperiyanın milli ucqarları bəzi siyasi azadlıqlar əldə etmiş, bütün siyasi partiyalar leqal fəaliyyətə başlamışdılar. Azərbaycanda milli hərəkata vahid rəhbərlik etmək üçün Bakıda digər şəhər və qəzalarda şöbələri olan müsəlman Milli Şurası yaradılmış, Milli Şurada təmsil olunan «Hümmət», «Ədalət», «Birlik» və «Müsavat» partiyalarının hər biri ona rəhbərlik etmək uğrunda mübarizə aparırdılar. Milli azadlıq hərəkatında və milli demokratik Azərbaycan dövlətinin yaradılmasında əsas rol oynamış «Müsavat» partiyası real vəziyyətdən çıxış edərək ölkədəki bütün demokratik qüvvələri milli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəyə çağırırdı. «Müsavat» partiyası «sinifçi - xalqçı» [113,64] partiyası olduğundan kəndlilərə yanaşı fəhlələrin və xırda burjuaziyanın da mənafeyini müdafiə edirdi. Bu partiya yetkililərinə görə: «Millət siniflərdən ibarətdir. Əksəriyyəti təşkil edən sinif zəhmətkeş sinifdir. Bu etibarla «millət» demək «xalq demokratiyası» deməkdir. Həqiqi millətpərəstlər həmin xalqpərəstlərdir. Çünki millətin qüvvəsi xalqın qüvvəsi, xalqın qüvvəsi millətin qüvvəsi deməkdir. Bir milli hökumət ancaq o zaman həqiqi millət hökuməti olar ki, ondakı əsaslar (imtiyazlı R.Ə.) sinfi deyil, ümumi cəmaəti gözləsin, onların halını islaha çalışsın» [113,64].

«Müsavat» partiyasının «Türk Ədəmi – Mərkəziyyət» partiyası ilə birləşdikdən sonra qəbul etdiyi 67 maddədən ibarət Proqramının iqtisadiyyatla bağlı bölməsinin «Kəndli və torpaq məsələsi» fəslində göstərilirdi: «Millətimizin əksəri rəncbərdir. Rəncbərin məişəti, həyatının təmini torpaqdadır. Torpaq abad olsa, millət də məsud olar. Bunun üçün...zəhmətkeş xalqa torpaq vermək millətin faydasıdır». Proqramın 23 və 24-cü maddələrində isə göstərilirdi: «Xəzinəyə, sabiq Rusiya padşahına, padşah nəslinə mənsub xanədana, bunun kimi mülkədarlara, xüsusi maliklərə məxsus olan bütün torpaqlar pulsuz-parasız və əvəzsiz alınıb, pulsuz-parasız olaraq zəhmətkeş və rəncbər xalqa veriləcəkdir. Bu surətdə zəhmətkeş və rəncbərlərə veriləcək torpaq onların öz mülkiyyətlərinə verilib həmin yer üzərində bütün hüquqa malik olacaqlar» [13,65]. «Müsavat» partiyası bütün siyasi haqlarla birlikdə şəxsiyyətin və mənzilin hürriyyət və toxunulmazlığını, qanun qarşısında bərabərlik əsasını tanımaqla bərabər, iqtisadi və maliyyə tədbirləri ilə aşağı və orta təbəqələrin rifahını təmin etməyi də ön plana çəkirdi. Partiya proqramında göstərilirdi: «Yazı, mətbuat, vicdan, mitinq, təşkilat və tətil kimi siyasi azadlıqlarla birlikdə muxtariyyətlərdəki hökumətin federativ Xalq Cümhuriyyətlərindən ibarət olması, işçi qanununun bütün muxtariyyətlərdə eyni cür olaraq tətbiqi və torpaq məsələsinin əsaslı islahatı kimi demokratik prinsip Rusiya Federativ Xalq Cümhuriyyətinin konstitusiyasına daxil ediləcək dövlət tərəfindən təminat altına alınmalı, muxtariyyətlərin hüdudunun təyini, ölkədə daxili konstitusiyaların tətbiqi, istər ərazi, istərsə də milli muxtariyyətlər Müəssislər Məclisi tərəfindən həll olunmalı, muxtariyyətə malik olan bütün əyalətlər mərkəzi hökumətə ancaq vətəni müdafiə etməyi, pul kəsilməsi, gömrük, xarici siyasət, dəmir yolu, poçt, teleqraf və başqa bu kimi ümumi işləri həvalə edirlər. Muxtariyyətli əyalətlər idarəetmə, maliyyə, qanunvericilik, mədəni işlər və məhkəmə kimi daxili məsələlərdə müstəqil olmalı, hər bir

muxtariyyətin mərkəzində qanunverici vəzifəsi olan mükəlləfiyyətli bir deputatlar palatası və verilən qanunları icra edən mükəlləfiyyətli Nazirlər Kabineti təşkil olunmalı, Rusiya Cümhuriyyətinin ümumi işlərini idarə etmək üçün bütün Muxtariyyətin nümayəndələrindən ibarət bir konqres təşkil olunmalıdır» [39,188-189].

Mərkəzdə hökumətin gözlənilmədən belə tez devrilməsi və bolşeviklərin hakimiyyəti ələ keçirməsi Zaqafqaziyada birmənalı qarşılanmadı. «Diyar şərti olaraq iki hissəyə parçalandı: birincisi, Rusiya bolşevizminin dayağına çevrilməkdə olan Bakı şəhəri, ikincisi, Zaqafqaziyanın qalan ərazisi» [30,291]. Mərkəzə tabe olmaq istəməyən Gürcüstan sosial-demokrat partiyası, «Müsavat», «Daşnaksütun» və sağ eserlərin nümayəndələri noyabrın 11-də Tiflisdə müşavirə keçirərək Rusiya bolşevik hakimiyyətini tanımamaq və «Müstəqil Zaqafqaziya hökuməti» yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də Zaqafqaziya Komissarlığı yaradıldı. Bu Komissarlıq bir çox məsələlərlə yanaşı, dövrün ən kəskin sosial-iqtisadi məsələlərini həll etmək üçün də bir sıra ciddi addımlar atdı. Komissarlıq 16 dekabr 1917-ci ildə «Dövlət, keçmiş xanədan, kilsə, monastr, hüquqi şəxslər və sahibkarlar torpaqlarının torpaq komitəsinə verilməsi haqqında» qanun qəbul etdi. Bu qanuna görə, kəndlilərin alacağı torpaqlar torpaq komitələrinin sərəncamına verilməli, kəndlilər isə torpağı həmin komitələrdən icarəyə götürməli idilər» [30,292-293].

Bakıda mart qırğınından sonra demokratik təşkilatların xarabalıqlar üzərində qurulan bolşeviklərin Bakı Xalq Komissarları Soveti isə Ümumrusiya mərkəzi hökumətinin yerli orqanına çevrilərək mərkəzin mənafeyinə cavab verən bir sıra sosial-iqtisadi dekretlər verdi. Bu dekretlər əslində heç bir milliləşdirmə həyata keçirməmiş, əksinə, Azərbaycan bankları bolşeviklər tərəfindən rekvizisiya edilmiş, banklardakı pul və zinət əşyaları



qarət edilərək Moskvaya aparılmış, «408 neft istehsalı müəssisəsi milliləşdirmə adı ilə zəbt edilmiş, bütövlükdə 1918-ci ilin aprel-iyul ayları ərzində Bakı XKS-nın zorakı tədbirləri nəticəsində Bakıdan Sovet Rusiyasına 1,3 milyon tona yaxın neft və neft məhsulları daşınmışdı» [220,112-113].

Bu dövrdə əsas ərzaq orqanlarına menşeviklər və eserlər nəzarət edirdilər. Ərzaq böhranı ilə üzləşən Bakı XKS bu məsələyə ciddi fikir verməyə məcbur olsa da, Azərbaycan kəndlisini öz tərəflərinə çəkə bilmədiyindən onun bütün səyləri iflasa uğramışdı. Bu və digər səbəblər üzündən Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası süquta uğradı.

Müxtəlif səbəblərdən Zaqafqaziya Federativ Respublikasının süqutu Cənubi Qafqazda üç müstəqil dövlətin – Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının yaranması ilə nəticələndi. Azərbaycan Milli Şurası 6 bənddən ibarət « Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı – İstiqlal Aktının qəbulu ilə Azərbaycan dövlətçiliyi dünyada Xalq Cümhuriyyəti formasında elan olundu» [30,317]. Milli Şuranın qərarı ilə Azərbaycan hökuməti təşkil olundu Müvəqqəti hökumətin başçısı Fətəli xan Xoyski seçildi. Müvəqqəti hökumətdə bir sıra nazirliklərlə yanaşı iqtisadi məsələlərlə bağlı maliyyə, əkinçilik, ticarət və sənaye nazirlikləri də yaradıldı. Lakin bu dövrdə Azərbaycanın Bakı quberniyası Xalq Komissarları Sovetinin, qalan hissəsi isə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hakimiyyətinin altında idi. Azərbaycanda, xüsusilə Bakı quberniyasında üç böyük dövlətin – Böyük Britaniya, Almaniya və RSFSR-in siyasi və iqtisadi maraqları toqquşurdu. Onların hər biri Bakı neftinə yiyələnməyə can atırdı. Lakin Qafqaz İslam Ordusunun birbaşa köməyi ilə Bakını bolşeviklərin iflasından sonra hakimiyyəti ələ keçirən sağ eser-menşevik-daşnak blokunun əlindən alınaraq Azərbaycan

Xalq Cümhuriyyətinin paytaxtı elan etməsi onların bütün ümidlərini puça çıxardı. Bakı məsələsində bolşevik Rusiyası ilə razılığa gələn Almaniyaya öz etirazını bildirən, Bakını Azərbaycanın iqtisadi və siyasi mərkəzi hesab edən M.Ə.Rəsulzadə Azərbaycan dövləti adından 1918-ci il sentyabrın 12-də İstambuldakı Alman səfirliyinə, onların müttəfiqlərinə və bitərəf dövlətlərə bir nota göndərmiş və bu notada xüsusi olaraq göstərmişdi: «Son vaxtlar Almaniya ilə Velikorusiya arasında bağlanmış müqavilənin Bakıya aid maddələrindən son dərəcə təəccüb və heyrətə düçar olan hökumətdən (Azərbaycan hakimiyyətindən - R.Ə.) aldığım təlimata əsasən aşağıdakı maddələri ali nəzərinizə çatdırıram. Azərbaycan əhalisi rus inqilabında elan edilən və Brest-Litovskdə rus hökuməti tərəfindən təkid edilən «Hər millətin öz müqəddəratını təyin etməsi hüququndan istifadə etməklə... adı çəkilən müqaviləyə əlavə olaraq bağlanmış müqavilələrlə Azərbaycanın təbii paytaxtının, elm və irfanının, iqtisadi və siyasi mərkəzini təşkil edən Bakı şəhərinin rus hakimiyyəti altında qalmasına yardım etdiyini xəbər verməklə çox mütəəssir və kədərli olmuşdur» [113,104-105].

Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti mövzumuzla birbaşa deyil, dolayısı ilə bağlı olduğundan (Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti ilə bağlı geniş məlumat üçün bax: Azərbaycan tarixi, V cild, səh.343-422; Mübariz Mahmudov, Azərbaycanın iqtisadi tarixi, (Dərslik), Bakı 2002, səh.206-214; Mahmudov M.Ə., Kərimov Ə.K., Azərbaycan Xalq Cümhuriyyətinin iqtisadi siyasəti, (1918-1920), Bakı 2006, 84 s. və b.) biz bir məsələni xüsusi olaraq qeyd etməyi lazım bilirik ki, o dövrdə ideoloji, hüquqi və siyasi yöndə olduğu kimi, iqtisadi məsələlərdə də Azərbaycan ictimai-siyasi xadimləri arasında fikir müxtəlifliyi olmuşdur. Belə ki, onlardan bəziləri kapitalist, bəziləri sosialist iqtisadi sistemini müdafiə edərək Azərbaycan dövlət quruluşunu da bunlara uyğunlaşdırmağı məqsədə uyğun saymışlar. Məmməd Əmin Rəsulzadə isə bunların hər ikisinin də xalqa yararsız sistem olduğunu əsaslandırmağa çalışmış, əvəzində Oqyust Kontun irəli sürdüyü, Emil Dyurkheym, L.Burjua, Leon Dyuqi və s. tərəfindən inkişaf etdirilən solidarizmi-milli təsanüdü ön plana çəkmişdir [48,456-463]. O, hər üç sistemin mahiyyətini incələyərək solidarizmin kapitalizm və sosializmdən üstün cəhətlərini daha sonrakı əsərlərində geniş şərh etmişdir. Bu nəzəriyyəyə görə, bu sistem sosialist inqilabının qarşısını alar, proletariat diktaturasının yaranmasına yol verməz, sinifli cəmiyyət sindikatlar əsasında yenidən təşkil olunar, müxtəlif siniflərin və peşə qruplarının əlaqələndirilməsinin siyasi-hüquqi forması və vasitəsini təmin etmiş olar, nəticədə sinfi mübarizə minimuma enər və siniflərin barışması əldə olunar, dövlət hakimiyyətinin həyata keçirilməsində bütün xalqın və siyasi təşkilatların hamısının iştirakı reallaşar [48,462].

Azərbaycan Xalq Cümhuriyyəti siyasi, hüquqi, hərbi və b. sahələrlə yanaşı, iqtisadi sahədə də mühüm uğurlar əldə etmişdi. Belə ki, ölkədə ləğv edilmiş dövlət bankı yenidən «Azərbaycan bankı» adı ilə təsis edilmiş, kənd təsərrüfatını inkişaf etdirmək üçün kəndlərdə kiçik kredit bankları açılmış, şəhərlərdə əmanət bankları yenidən yaradılmış, mülkiyyət formalarının müxtəlifliyi üçün bərabər şəraitin yaradılması haqqında qanunverici aktlar qəbul edilmiş, inflyasiyanın qarşısı alınmış, maaş və pul tədavülünü tənzimlənmiş, qonşu ölkələrlə iqtisadi əlaqələri sahmana salınmış, milli pul olan «Bon»...? dövriyyəyə buraxılmış, xarici və daxili ticarət əlaqələri bərpa edilmiş, neft istehsalı və satışı tənzimlənmiş, kənd təsərrüfatı sahələri sahmana salınmış, su kəhrizləri və kollektorları təmir etdirib yararlı hala gətirilmiş, ayrı-ayrı bölgələrdə kənd təsərrüfatı məktəbləri təsis edilmiş, strateji əhəmiyyəti bitkiçilik sahələrinin - pambıqçılığın, tütünçülüyün,

üzümçülüyün, ipəkçiliyin inkişafına xüsusi diqqət yetirilmiş, taxılçılığı, meyvə-tərəvəz, bağ-bostan məhsullarını inkişaf etdirmək üçün mühüm tədbirlər həyata keçirilmiş, möhtəkirliyə qarşı ciddi mübarizə tədbirləri görülmüş, gömrük, idxal-ixrac məsələlərinin tənzimlənməsi, kooperativ-bazar ticarətinin inkişaf etdirilməsi haqqında tədbirlər həyata keçirilmiş, bir sözlə, milli demokratik dövlətin iqtisadiyyatında böyük dirçəliş yaradılmışdı. Milli demokratik xalq hakimiyyətinin əsasını təşkil edən bu rejimdə heç bir zümrə və sinfin üstünlüyünə meydan verilir, siniflər arası həmrəylik təmin edilirdi. Bütün bunlar Azərbaycanın düşmənləri olan bolşevik Rusiyası və daşnak Ermənistanını narahat edirdi. Nəhayət Quzey Azərbaycan yenidən Sovet Rusiyası tərəfindən işğal olunaraq, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Sovet Sosialist Respublikası adlandırılaraq Rusiyaya tabe etdirildi. Bu tabeçilik xalqımızın 1991-ci ildə öz müstəqilliyini elan etməsinədək davam etmişdir.



# IV FƏSİL

# AZƏRBAYCAN DEMOKRATİK DÖVLƏTÇİLİK MƏFKURƏSİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

## §1. Azərbaycan demokratik dövlətçilik məfkurəsinin formalaşmasına Heydər Əliyevin töhfəsi

Məlum olduğu kimi XX əsr dünyanın siyasi tarixinə bir sıra mühüm hadisə və proseslərlə yanaşı, çoxlu sayda müstəqil dövlətlərin yaranması, bir sıra xalqların müstəqillik əldə etməsi ilə daxil olmuşdur. Eyni zamanda SSRİ-nin dağılması ilə də Avropada və Asiyada yeni müstəqil dövlətlər yarandı.

Hər bir xalq tarix boyu dövlətə zəruri təsisat kimi baxmışdır. Dövlət quraraq yaşamaq vətəndaşlara geniş hüquqlar və azadlıqlar verməklə bərabər, həm də onların üzərinə böyük məsuliyyət qoyur. Müstəqil dövlətin vətəndaşları daim onun güclü və zəngin olmasına çalışmalı, onu bütün vasitələrlə qorumağa hazır olmalı, ölkə və xalq üçün, etibar edilmiş iş sahəsi üçün məsuliyyət hiss etməli, dövlətin nizamını, qanunçuluğu möhkəmləndirməlidirlər. Beləliklə müstəqil dövlətdə yaşamaq bütün vətəndaşlardan vətənpərvərlik, və məsuliyyət tələb edir.

Azərbaycan zəngin və özünəməxsus dövlətçilik ənənəsinə malikdir. Xalqımızın milli lideri Heydər Əliyevin yeni əsr, yeni minillik münasibətilə Azərbaycan xalqına müraciətində xalqımızın dünya tarixində tutduğu yerə, özünəməxsus xüsusiyyətlərinə yüksək qiymət verilir: «İki minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Xalqımızın əsrlər boyu yaratdığı mədəniyyət və ədəbiyyat nümunələri həyat eşqi, azadlıq və müstəqillik duyğuları ilə aşılanmışdır. Sənət korifeylərinin yaradıcı-

lığı ümumbəşəri ideyaların tərənnümünə, haqqın, ədalətin, hümanist ideyaların bərqərar olmasına xidmət etmişdir. Şərqdə, o cümlədən Azərbaycanda təşəkkül tapmış intibah dünya mədəniyyəti tarixinin ən parlaq səhifələrindən biridir» [7].

Müasir Azərbaycan dövlətinin ən yaxın sələfi olan Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizdə şərəfli bir səhifə olmuşdur. XIX əsrin ikinci yarısı XX əsrin əvvəllərində Azərbaycanda milli mədəniyyət, ədəbiyyat, təhsil yüksək sürətlə inkişaf etmiş, xalqın qabaqcıl təbəqələrinin, ziyalıların şüurunda müstəqillik ideyaları özünə möhkəm yer tutmuşdur.

Cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyəti xarici müdaxilə nəticəsində devrilmiş, Azərbaycan sovet dövlətinin tərkibində müttəfiq respublika statusunda qalmışdır.

Azərbaycanın nisbi müstəqilliyi SSRİ daxilində formal surətdə qorunub saxlanmış və Azərbaycan Sovet Sosialist Respublikasının rəsmi sərhədləri, ərazisi, dövlət dili və bir sıra digər dövlətçilik atributları mövcud olmuşdur.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlişi Azərbaycan dövlətçiliyi tarixi üçün böyük rol oynamışdır. Bununla xalqımızın həyati problemlərinə, taleyüklü məsələlərinə yeni ideoloji-fəlsəfi yanaşmaların əsası qoyulmuşdur. Bu gün həmin dövrə nəzər saldıqda, böyük şəxsiyyətin, dövlət xadiminin, hətta totalitar rejim və sərt ideoloji şəraitdə də nələrə qadir olduğunun şahidi oluruq. 1970-80-cı illərdə əslində Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar-iqtisadi, mədəni-mənəvi potensial yaradılmış, milli kadr problemləri həll olunmuşdur.

İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi milli ruhun inkişafına, milli özünüdərkin və milli qururun yüksəlməsinə, gələcək-



də müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkib hissələri olmuşdur.

Tədqiqatçı alim S.S. Xəlilov yazır: «Yeni ölkə rəhbərliyi – M.S. Qorbaçov hakimiyyəti durğunluq illərini təhlil edərkən Azərbaycanın istisna təşkil etdiyini görməyə bilməzdi. Lakin məhz bunu gördüyünə görə, bu istisnanın «günahkarının» daha nələr edə biləcəyini anlayaraq onu təcili olaraq rəhbərlikdən uzaqlaşdırmaq qərarına gəldi və təkcə vəzifədən uzaqlaşdırmağın kifayət etməcəyini bilərək, onu yüksəlmiş olduğu böyük nüfüz zirvəsindən də salmaq planı işlənib hazırlandı. Çox təssüf ki, imperiya paytaxtında Heydər Əliyevə qarşı hazırlanan siyasi sui-qəsdin əsl səbəbini, məğzini anlamaq o dövrdə asan deyildi və Azərbaycanda da bu kampaniyaya qoşulanlar tapıldı. Bu kampaniyada bilərəkdən iştirak edənlər satqınlar, ona bilmədən qoşulanlar isə sadəlövhlər və əqidəsizlər idi. Bütövlükdə xalq və ilk növbədə onun həqiqi ziyalı elitası isə bu xəbərdən sarsıldı və bunu hətta milli faciə kimi qəbul etdi. Ona görə yox ki, xalq Kremldə gedən və bəlkə də dünyanın gələcək taleyinə təsir edəcək böyük siyasi oyunların əsl mahiyyətindən xəbərdar idi. Yox, sadəcə ona görə ki, xalq Heydər Əliyevi sevirdi, onunla fəxr edirdi, bu dəyişikliyin gələcək ağır nəticələrini öz fəhmi, intuisiyası ilə duyurdu» [78, 16-17].

Azadlıq uğrunda açıq mübarizəyə hazırlıq mərhələsi 1970-80-cı illəri əhatə etmişdir. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli-iqtisadi, siyasi, sosial, mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək, onu gələcək çətinlik və məhrumiyyətlərə hazırlamaq olmuşdur. O zaman SSRİ-də gedən prosesləri müşahidə edən bir çox ekspertlər belə bir fikir söyləyirdilər ki, yalnız iki Respublika – Rusiya və Azərbaycan müstəqil dövlət halında yaşamağa hazırdır.

Süngü üzərində qurulmuş və daxili dinamizmindən məhrum olan bütün imperiyalar kimi, SSRİ də nə vaxtsa

dağılmalı idi və bu proses 1990-cı ilin əvvəllərində məntiqi sonluqla nəticələndi. 1991-ci ilin oktyabrında Azərbaycan Respublikasının Müstəqillik Aktı qəbul edildikdən sonra yaşadığımız tarixi mərhələ olduqca mürəkkəb, xalqımızın tarixi müqəddəratı üçün əhəmiyyətli hadisələrlə zəngin bir dövr olmuşdur.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsi 1980-ci illərin birinci yarısından başlayaraq, keçmiş Sovetlər ittifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin labüd sonluğu idi. Buna görə də Azərbaycannın müstəqillik əldə etməsini heç bir halda müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin müstəsna xidmətləri hesab etmək olmaz. Bu, obyektiv tarixi proseslərin qanuna uyğun nəticəsi idi. Heydər Əliyevin dediyi kimi, «Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yol verilməzdir» [98, 590].

1990-ci illərin əvvəllərində ölkənin siyasi həyatında cərəyan edən hadisələr– hakimiyyət uğrunda silahlı mübarizə, hakimiyyətlərin bir-birini əvəz etməsi və özbaşınalığın hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır zərbələr vurdu. Azərbaycanın bu gün də həllinə nail ola bilmədiyi çox ağır problemlər məhz həmin özbaşınalığın və ondan sonrakı hakimiyyət çəkişmələri dövründə yaranmışdır.

Çox gərgin tarixi mərhələdə Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin rifahının və təhlükəsizliyinin təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar düşünülmüş, ardıcıl, məqsədyönlü daxili və xarici siyasətin həyata keçirilməsini, bu məqsədlə ölkənin intellektual və



sosial-iqtisadi potensialından, ictimai – siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

1993-cü ilin ortalarından Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra demək olar ki, yeni mərhələ başlandı. Akademik Ramiz Mehdiyevin yazdığı kimi «Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsi və ölkənin dünya siyasətinin subyekti kimi beynəlxalq aləmdə tanınmasına gətirib çıxaran əsl demokratik dəyişikliklər mərhələsi başlandı. Yeni demokratik dövlətin əsas prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, tarazlı xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təsisatların qurulması, yeni siyasi birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin tədricən formalaşması prosesinin ağlasığmaz dərəcədə mürəkkəb şəraitdə getməsinə baxmayaraq, Azərbaycan dövlətçiliyinin milli identifikasiyasının başlıca ehkamları məhz həmin dövrdə formalaşmışdır» [97, 22-23].

Siyasi böhranın, xaosun mövcud olduğu bir dövrdə hakimiyyətə gəlmiş ulu öndər Heydər Əliyev cəmiyyətdə demokratiyaya münasibətdə formalaşmış yanlış təsəvvürləri dəyişmək üçün ilk növbədə xalqla əl-ələ verərək ictimai-siyasi böhranı aradan qaldırmış, cəmiyyətdə yeni mübariz əhval ruhiyyə yaratmağa nail olmuş, milli birlik yolu ilə dövləti parçalanmadan xilas etmişdir. Xalqın milli-mənəvi sərvətinə çevrilmiş bu birlik sayəsində hazırda respublikamızda demokratik dəyərlər qanunların və milli-mənəvi dəyərlərin tənzimlədiyi sərhədlərdən kənara çıxmır və dialektik inkişafa uyğun olaraq ictimai şüur tərəfindən tam şəkildə mənimsənilir. Azərbaycanda həqiqi demokratiya məhz Heydər Əliyevin milli dövlətçilik irsinin təcəssümü kimi formalaşmışdır. Bu irs demokratiyanın özbaşınalıq kimi başa düşülməsinə, yaxud da ifrat Qərb demokratiyasının neqativ cəhətlərini özündə ehtiva

etməsinə yol vermir. Faktiki olaraq bu kursun bütün sahələrdəki tənzimləmə missiyası ideoloji müstəvidə də özünü doğrultmuşdur. H.Əliyev öz çıxışlarında həmişə vurğulayırdı ki, çalışmalıyıq Azərbaycan müstəqilliyini əldə etdikdən sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Buna nail olmaq üçün Azərbaycan xalqının buna həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir ölkə olacaq.

Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində, 1993-cü ilin oktyabrında başlamışdır. Heydər Əliyev qısa müddət ərzində ölkədə asayişi və qanuni hakimiyyəti bərpa etməyə, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmağa, şəxsiyyətin təhlükəsizliyinə təminat yaratmağa, dövlət quruculuğu işinə başlamağa və demokratik cəmiyyətin inkişafına nail olmuşdur.

Müstəqillik tariximizə ən böhranlı dövr kimi daxil olan 1993-cü ilin iyun– oktyabr ayları, 15 iyun «qayıdış gününün»dən başlayaraq, Azərbaycanda dövlət və cəmiyyət böhranından xilas olmaq istiqamətində ciddi addımların atıldığı bir dövr idi. Bir-birinə qarşı dayanmış qüvvələrin mahir diplomatik gedişlərlə qansız –qadasız yeni məcaraya yönəldilməsi Heydər Əliyev dühasının tarixə örnək ola biləcək cəhətlərindən biridir.

Milli lider Heydər Əliyev milli ideologiyamızın formalaşmasında da böyük addımlar atmışdır. O, milli təfəkkürün inkişafında azərbaycançılıq ideyasının xüsusi əhəmiyyətini ön plana çəkmiş, habelə Azərbaycan dilinin, islam dininin mənəvi – əxlaqi təsir gücünün inkişaf etdirilməsini bu ideyanın gerçəkləşdirilməsi vasitələri kimi səciyyələndirmişdir. Xalqın tarixi keçmişinə bağlılıq, mütərəqqi ənənələrimizdən bəhrələnmək vərdişləri, Azərbaycan dilinin incəliklərinə bələd olmaq, onu sevərək inkişaf etdirmək həvəsi, islam dininin insan mənəviyyatını saflaşdırıcı xüsusiyyətlərindən və insanlara mənəvi–emosional təsir gücündən milli birlik və barışıq vasitəsi kimi səmərəli istifadə edilməsi Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkürəsinin fundamental prinsipləridir. Eyni zamanda milli lider dövlətçilik ideologiyasının hazırlanmasında və təkmilləşdirilməsində böyük işlər görmüşdür. Heydər Əliyev YAP-ın yaradılmasının 6-cı ildönümü münasibətilə keçirilən yığıncaqdakı çıxışı haqqında «Azərbaycan» qəzetinin 24 noyabr 1998-ci il tarixli sayında qeyd edilir: «Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası... Yeni Azərbaycan partiyasının məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai – siyasi sahədə, həm sosial – iqtisadi sahədə gördüyümüz işlər həmin milli ideologiyanın özündə qurulur. Bu milli ideologiya nədən ibarətdir?

Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin,-dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə, hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından–hər şeydən üstün tutsun».

Göründüyü kimi Heydər Əliyevə görə milli ideologiya dövlətçilik, həm də milli–mənəvi dəyərlərdir. Bu ideo-

logiya insanların bir vətəndaş kimi formalaşmasını, vətənə sevgi hissini, dövlət mənafeyini şəxsi mənafedən üstün tutmaq vəzifəsini əhatə edir.

«Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürür. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli – mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin qorunmasına xidmət edirsə, digər tərəfdən və daha çox dərəcədə milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Heç bir dövlət başçısı, heç bir siyasi lider və hətta heç bir millətçi ziyalı dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir» [78, 83-84].

Milli dövlətçilik ideologiyası kimi Azərbaycançılıq da bu gün əsas ideyalardan biridir. Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, real müstəqilliyə nail olmağın, vahid bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Bu gün Azərbaycançılıq ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsirlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir.



«Müstəqilliyin qəti qələbəsi, suverenliyin həlledici təntənəsi, milli inkişafın qüdrətli amili hamılıqla uca tutulan azərbaycançılıq ideyasının ümummilli miqyasda şəriksiz hakim mövqe qazanması ilə əlaqədardır. Ona görə də dövlətimizin başçısı bu gün qarşımızda duran və gələcəkdə meydana çıxa bilən bütün problemlərin uğurla həlli üçün azərbaycançılıq ideologiyasının onun bütün atributları ilə birlikdə möhkəm mənimsənilməsini zəruri şərt hesab edir. Əvvəlki beş ildə olduğu kimi son üç ay müddətində də dövlətin fəaliyyətinin, görülən tədbirlərin ümumi məntiqi və milli mənafelərə xidmət edən sintetik qayəsi azərbaycançılıq ideyasının təsdiqinə və reallaşmasına xidmət göstərmişdir» [98, 380-381].

Dövlət quruculuğunda Heydər Əliyev mərhələsi adlandırdığımız bu dövrdə referendum yolu ilə qəbul edilmiş Konstitusiyaya uyğun olaraq Azərbaycanın demokratik, dünyəvi, humanist dövlət quruluşu təsbit edilmişdir. Siyasi idarəçilikdə və cəmiyyətin bütün digər sahələrində demokratiyanın bərqərar olması üçün siyasi plüralizmə, çoxpartiyalılığa yer verilmiş, dövlət hakimiyyətini formalaşdırmağın ədalətli və etibarlı vasitəsi olan seçki sistemi qəti şəkildə qərar tapmış, demokratik prinsiplər əsasında ölkənin milli parlamenti seçilmişdir. Mütbuat, vicdan və informasiya, söz azadlığı təmin olunmuşdur. İnsan hüquq və azadlıqlarının tam şəkildə həyata keçirilməsinə təminat yaradılmış, ölüm hökmü ləğv edilmiş, vətəndaş cəmiyyəti qurulması istiqamətində mühüm addımlar atılmışdır.

«Azərbaycanda demokratik dəyərlərin təşəkkülü və siyasi oriyentlərin formalaşması prosesi elə bir mərhələyə daxil olmuşdur ki, indi hər bir kəsin hüquq və azadlıqlarının təmin edildiyi, vətəndaş mədəniyyətinin formalaşdığı, demokratik quruluşun demokratiya təsisatları kimi mühüm atributlarının yaradıldığı, siyasi dözümlülüyə, şəxsiyyətlərarası etimada, siyasi iştiraka, çoxvariantlı fər-

di səmərəlilik hissinə və s. nail olduğu cəmiyyət quruculuğunun prinsiplərinə kor-koranə əməl etməklə kifayətlənmək olmaz. Həqiqi mənada demokratiya qurulmasında cəmiyyətin necə və haraya getdiyi barədə aydın təsəvvürün olması tələb edilir» [101, 363].

Bu illərin ictimai siyasi dəyərini səciyyələndirən keyfiyyət amilləri sırasında ölkədə islahatlar hərəkatının inkişafına geniş meydan açılması istiqamətində təsirli tədbirlərin həyata keçirilməsi xüsusi vurğulanmağa layiqdir. Demokratik qaydaların bərqərar edilməsi, insan hüquq və azadlıqlarının müdafiə olunması yönümündə götürülmüş strateji xətt davam etdirilir. Azərbaycan Respublikası prezidentinin «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» 1998-ci il 22 fevral tarixli Fərmanını və 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş «İnsan hüquqlarının müdafiəsinə dair» dövlət proqramının icrası istiqamətində «İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun yaradılması haqqında» 1998-ci il 30 noyabr tarixli sərəncamını xüsusilə qeyd etmək lazımdır.

1998-ci il, ümumiyyətlə, Azərbaycan üçün Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, insan hüquqları ili olmuşdur. Konstitusiyamızda insan hüquqlarına aid bütün maddələrin əks olunması və onlardan irəli gələn vəzifələri həyata keçirmək üçün yeni qanunların qəbul edilməsi dialektikası Azərbaycanda insan hüquqlarının qorunmasının daim dövlət nəzarətində olmasının əyani sübutudur.

«Təbii ki, demokratikləşmə prosesi, hüquq normalarının və siyasi mədəniyyətin sivil dünyanın hamılıqla qəbul edilmiş standartlarına yaxınlaşdırılması özlüyündə mürəkkəb, uzunsürən prosesdir, təşkilati və tərbiyəvi xarakterli ardıcıl, məntiqi tədbirlər görülməsini, yeni siyasi dəyərlərin, siyasətin hər bir subyektinin, hər bir insanın həyat tərzinə çevrilməsini tələb edir. Ona görə də, cəmiyyətimizin həyatı ilə bağlı bu taleyüklü məsələlərdə tələsmək, irəliyə qaçmaq olmaz! Ən mühümü budur ki, yeni qanunlar və siyasi–hüquqi normalar cəmiyyətin daha da sabitləşməsinə və sıx birləşməsinə, həqiqətən demokratikləşməyə xidmət etsin» [97, 75].

Xalqa və dövlətə təmənnasız sədaqət, demokratiyaya, qanunlara, insan hüquqlarına və azadlıqlarına hörmət və ehtiram, islahatçılıq daim Heydər Əliyev siyasətinin ana xəttini təşkil edir. Onun prezidentlik fəaliyyətinin bütün dövrlərində imzaladığı fərman və sərəncamlar iqtisadiyyat, qanunvericilik, insan hüquqları sahəsində, təhsil, mədəniyyət, səhiyyə sahələrində köklü islahatlara böyük rəvac vermişdir. Azərbaycanın ən yeni tarixi, respublikada dövlətçiliyin, dövlət strukturlarının təşəkkül tapması və inkişafı da bu böyük şəxsiyyətin adı ilə bağlıdır.

«Qeyd etməliyəm ki, gənc müstəqil Azərbaycan dövlətinin keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də sadəcə, dövlət idarəçiliyi orqanlarının formalaşması ilə başa çatmır. Bu, olsa–olsa, ancaq ilk mərhələdir. Sözün geniş mənasında müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmuddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur...

Milli lider Heydər Əliyev Azərbaycanın bu sahədə tutduğu strateji yolu belə səciyyələndirir: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial– iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündəngünə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün

demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir" [98, 594].

Dövlət quruculuğu ictimai şüurun inkişafı ilə paralel surətdə həyata keçirilir. İnsanların şüurunda dəyişiklik etmədən, ictmai şüurun ictimai varlığa adaptasiyası baş vermədən, ancaq əmrlə, fərmanla, yeni qanunlar qəbul edilməsi ilə həyata keçirilən islahatlar böyük uğur gətirə bilməzdi.

Təsadüfi deyildir ki, Azərbaycan Prezidenti hətta demokratikləşmə xətti ilə əlaqədar qeyd edir ki, bu məsələdə tələsikliyə yol vermək sabitliyin pozulmasına gətirə bilər. Demokratiya cəmiyyətin hərtərəfli inkişafının qanunauyğun nəticəsi kimi ortaya çıxmalıdır.

«Azərbaycanda demokratiyanın bütövlükdə ictimai–siyasi tərəqqi kontekstində həyata keçirilməsi zərurətini dönə-dönə qeyd edən Heydər Əliyev bir dəfə xarici «məsləhətçilərə» «demokratiya alma deyil ki, onu bazardan almaq olsun», – dedi. ...Lakin həqiqətən demokratiyanı bazardan almaq istəyənlər də var. Bu gün onu xaricdən idxal etmək istəyənlər, inkişaf etmiş ölkədəki hazır demokratiya modellərini (bir çox «xarici müəllimlərimiz» onu hədiyyə etməyə də hazırdırlar – əslində isə bu modellərin bizə nəyin bahasına satıldığını ancaq dərindən düşünənlər dərk edə bilərlər) Azərbaycana köçürmək istəyənlər də, Azərbaycanda «dibcək demokratiyası» yaratmağa çalışanlar da az deyil...

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev məhz ona görə yaradıcı dövlət başçısıdır ki, o hətta ən mükəmməl demokratiya modellərinin belə transplantasiyasını inkar edərək, Azərbaycanın milli mentalitetinə və dövlətçilik ənənələrinə söykənən canlı demokratik rejim qurmaq yolu seçmişdir» [78, 153].

Azərbaycanda demokratiyanın bərqərar olması həm də strateji məsələdir. Qafqazda ciddi geosiyası mövqeyə malik olan Azərbaycanın Qərb dövlətləri ilə siyasi və iqtisadi əlaqələrinin güclənməsi Yaxın və Orta Şərqdə demokratiyanın inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq aktlarda və Azərbaycan Respublikasının Konstitusiyasında bəyan edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin olunması məqsədi ilə ölkəmizdə bir sıra qanunlar qəbul olunmuşdur.

Hər bir cəmiyyətdə əsas insan hüquq və azadlıqlarının təminatı, vətəndaş cəmiyyətinin vəziyyəti, demokratik təsisatların – siyasi partiyaların, ictimai təşkilatların, kütləvi informasiya vasitələrinin sərbəstliyi və fəaliyyəti imkanları ilə sıx əlaqədardır. Bu baxımdan Azərbaycan Respublikası müstəqillik dövründə böyük inkişaf yolu keçmişdir. Hazırda respublikamızda dövlət qeydiyyatına alınmış kifayət qədər siyasi partiya və ictimai birlik fəaliyyət göstərir.

«Heydər Əliyevin siyasi uğurları və quruculuq fəaliyyəti fonunda onun siyasi maarifçilik fəaliyyəti çox vaxt arxa plana keçir və lazımi səviyyədə qiymətləndirilmir. Halbuki, demokratik cəmiyyət quruculuğu ilk növbədə ictimai şüurun, xalqın siyasi düşüncə səviyyəsinin inkişafını tələb edir. Heydər Əliyev xalqın səviyyəsinə uyğun gəlməyən, onun başının üstündən keçən qərarlar qəbul etməkdənsə, xalqın inkişaf səviyyəsinə uyğun islahatlar aparılmasına və dövlətin də xalqla birlikdə inkişaf etdirilməsinə üstünlük verir. Bu baxımdan, xalqın maarifləndirilməsi dövlət quruculuğunun mühüm atributlarından biri kimi çıxış edir. Təsadüfi deyildir ki, Franklin Ruzvelt «xalqın tərbiyə olunmasını dövlət xadiminin ən ali vəzifəsi» hesab edirdi» [78, 56-57].

Bu prinsiplər əsas götürülərək demokratik təsisatların fəaliyyətini tənzimləyən qanunvericilik normaları Avropa və qabaqcıl dünya standartlarına uyğunlaşdırılır. Xüsusən ötən illərdə qəbul edilmiş «Hüquqi şəxslərin döv-

lət qeydiyyatı haqqında», «Qeyri-hökümət təşkilatları (ictimai birliklər) haqqında», «Kütləvi informasiya vasitələri haqqında» qanunlar mühüm irəliləyiş hesab olunmalıdır.

Ölkəmizdə aparılan demokratik islahatların spektri daha da genişlənmiş, məhkəmə-hüquq sisteminin yenidən qurulması sahəsində inamlı addımlar atılmışdır. Məhkəmə orqanları sisteminin təşkili və fəaliyyətinin əsas müddəaları «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanında öz əksini tapmışdır. Bununla yanaşı bir sıra qanunlara Avropa Şurasının yüksək səviyyəli ekspertimentləri beynəlxalq standartlara uyğun olması barədə müsbət rəy vermişlər.

Qeyd olunan məsələlərlə yanaşı iqtisadi məsələlər, əhalinin sosial rifahının yüksəldilməsi ümummilli lider H.Əliyevin diqqət mərkəzində olmuşdur. İqtisadi sahədə bazar iqtisadiyyatına və azad iqtisadi münasibətlərə keçidin normativ-hüquqi əsasları yaradılmış, bazar iqtisadiyyatına keçid istiqamətində ciddi, praktik addımlar atılmışdır. Ölkədə özəlləşdirmə prosesinin, aqrar islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatının bütün zəruri təsisatlarının, əhalidə sahibkarlıq hissinin formalaşdırılması istiqamətində mühüm irəliləyişlər əldə edilmişdir. Xalqımızın milli sərvətlərindən milli maraqlara uyğun istifadə edilməsi istiqamətində nəhəng layihələr hazırlanmış, xüsusilə, Xəzər neftinin hasilatı və ixracı ilə bağlı dünyanın aparıcı neft şirkətləri ilə çox saylı sazişlər bağlanmışıdır.

«Dövlət quruculuğu Heydər Əliyevin fəaliyyət strategiyasında özlüyündə son məqsəd deyil. Dövlətin möhkəmləndirilməsi ona görə bir nömrəli vəzifədir ki, o bizim müstəqil iqtisadi siyasətimizin və milli mənəviyyatımızın



təminatçısı, qarantı ola bilsin. Əgər Respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz» (H.Əliyev). ... Heydər Əliyev fikrini bununla bitirmir və məsələyə tam dialektik bir mövqedən yanaşmaqla, sosial-iqtisadi proqramların həyata keçirilməsinin də öz növbəsində, dövlətçiliyin möhkəmləndirilməsi, ictimai-siyasi sabitliyin bərqərar olması, mədəni-mənəvi həyatın təşəkkülü üçün bir şərt olduğunu qeyd edir: İqtisadiyyat son məqsəd kimi yox, şərt kimi, təməl kimi, vasitə kimi götürülür. Siyasi və mədəni-mənəvi aspektdəki nailiyyətlərin də çox vaxt iqtisadi təmələ söykəndiyi vurğulanır: «İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir».

Belə iqtisadiyyatın inkişafı da dövlətin möhkəmləndirilməsi kimi olduqca vacib şərtdir. Lakin, nə iqtisadiyyat, adamların güzaranı, rifah halı, nə də dövlət quruculuğu müstəqillik yolunun son məqsədi, mənzil başı ola bilməz. Əgər xalq dövlət qurur, iqtisadiyyatı inkişaf etdirir, sərhədləri möhkəmləndirirsə və bu sərhədlər daxilində özünə yad bir mənəviyyat saxlayırsa, bu hələ müstəqillik deyil. Mənəvi buxovlardan azad olmayan, öz milli mənliyini dərk etməyən xalq azad xalq sayıla bilməz» [74, 311-312].

Respublikamızda sosial sahədə sosial əsas kimi ədalət prinsipi qərarlaşmış, bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, əhalinin sosial müdafiəsi mexanizminin formalaşdırılması, sosial həmrəyliyin, milli birliyin maddi və mənəvi əsaslarının yaradılıb inkişaf etdirilməsi yönümündə səmərəli fəaliyyət göstərilmişdir.

«Sözü gedən dövrdə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər və praktik olaraq atılan addımlar ötən illərdə Azərbaycanda milli dövlət prosesində sərbəst bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və iqtisadiyyatda dirçəlişin təmin edil-

məsi yönümündə görülən işlərin məntiqi davamı kimi qiymətləndirilməlidir. Bu mənada bilavasitə prezident seçkiləri dövrünə təsadüf edən 1998-ci ildə makroiqtisadi sabitliyin daha da güclənməsi, iqtisadiyyat sahəsində inkişaf meyllərinin artması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər ümumi daxili məhsulun həcmi 1997-ci ildə 5,8 faiz artmışdırsa 1998-ci ildə bu artım 10 faiz təşkil etmişdir. Son ildə sənaye məhsulu 2,2 faiz, kənd təsərrüfatı məhsulları istehsalı isə 3,9 faiz artmışdır.

Qeyd olunan dövrdə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına əvvəlki ilin müvafiq dövrünə nisbətən 45 faiz çox kapital qoyuluşu yönəldilmişdir. Kapital qoyuluşunun ümumi həcmində xarici sərmayələrin payı 69 faiz təşkil etmişdir. İstifadə edilmiş kapital qoyuluşunun 88 faizi istehsal təyinatlı obyektlərə yönəldilmişdir» [98, 369].

Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesində xarici şirkətlərlə əməkdaşlığın inkişaf etdirilməsi üçün ardıcıl addımlar atılmışdır. Respublikamızın siyasi və iqtisadi həyatında mühüm strateji əhəmiyyətə malik olan Qərb neft kəmərinə 1998-ci il dekabrın 10-da xam neftin doldurulması prosesi başlandı. Bununla da «Əsrin müqaviləsi»nin gerçəkləşməsi yolunda daha bir addım atıldı. Azərbaycan Prezidentinin xarici sərmayəçilərin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması ölkəmizin iqtisadiyyatına onların maraqlarının daha da artmasına səbəb olmuşdur.

Azərbaycan hökümətinin fəaliyyətində sosial problemlərin həllinə daim ciddi diqqət yetirilirdi. Heydər Əliyevin sosial–iqtisadi inkişaf proqramında da bu məsələ ön plana çəkilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi ölkədə yeni iqtisadi sistemə keçidin hüquqi əsasını qoydu. Bu vaxtdan etibarən Azərbaycanın iqtisadi həyatında da irəliyə doğru bir dönüş başladı.



«Ötən illər ərzində ölkə iqtisadiyyatı bazar dəyişiklikləri yolu ilə dinamik surətdə irəliləyərək, keyfiyyətcə yeni görkəm kəsb etmişdir. Yeni iqtisadi sistemin formalaşdırılması üçün 500-dən çox qanun qəbul olunmuşdur. Onların arasında mülkiyyət, torpaq haqqında, maliyyə–bank, valyuta, vergi və məhkəmə–hüquq sistemlərinin islahatı sahəsində qanunlar mühüm yer tutur. Qəbul olunmuş qanunların praktikada gerçəkləşdirilməsi iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, təsərrüfat həyatının dövlət tərəfindən tənzimlənməsinin azalmasına gətirib çıxarmışdır. Neft və neft məhsullarının ixracı daxil olmaqla, xarici ticarət əməliyyatlarına qoyulan qeyri–tarif məhdudiyyətləri ləvğ edilmişdir. Bütün bunlar plan–bölgü sisteminin real surətdə aradan qaldırıldığına sübütdür»[101, 267].

Son vaxtların təcrübəsi Azərbaycanda gedən bütün demokratik proseslərin, həyata keçirilən iqtisadi, hüquqi, mədəni islahatların zügurı şərti olan ictimai–siyasi sabitlik anlayışının nə qədər vacib olduğunu bir daha göstərir. Bu sabitlik xalqımızı böyük böhranlardan, cürbəcür daxili dövlət çevrilişi cəhdlərindən xilas etdi. Azərbaycanda demokratik, hüquqi dünyəvi dövlət quruculuğu prosesinin həyata keçirilməsini təmin etdi. Ölkəmizin sabitliyi Azərbaycanın əlaqələrinin inkişaf etməsinə gözəl zəmin yaratmışdır. Bazar iqtisadiyyatına doğru inamla irəliləyən respublikamızda sürətli islahatlar aparılırdı. Ölkənin dünya və beynəlxalq maliyyə şəbəkələrinə inteqrasiyası sahəsində önəmli addımlar atılır, əzəmətli layihələr müzakirə olunur. Bütün dünya dövlətləri Azərbaycanla bərabər hüquqlu əməkdaşlığa, iş birliyinə dəvət edilirdi. Məhz daxili sabitliyini qoruyan, açıq iqtisadi siyasət yürüdən ölkə kimi bu gün Azərbaycan iqtisadiyyatına çoxmilyardlıq sərmayələr qoyulur. Məhz dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də sərmayə qoyuluşudur.

Ümumiyyətlə, istər regional miqyasda, istərsə də ümumdünya kontekstində Azərbaycanın siyasi və iqtisadi vəziyyətinin təhlili formalaşmış sabit siyasi xəttin və mərhələli iqtisadi yüksəlişin olduğunu göstərir.

Azərbaycan dövlətçiliyinin inkişafında bir sıra sahələrlə yanaşı mənəvi məsələlərə də ciddi önəm verən Heydər Əliyev ana dilinin inkişafına daha çox əhəmiyyət vermişdir.

H.Əliyev Azərbaycan dili barədə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada müəyyən ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi düşünürdü. Respublika rəhbəri həmin məsələyə geniş mənəvi-əxlaqi problemlər kontekstində qiymət verir, maarif-məktəb, elmi-pedaqoji sahələrdə ana dilinin inkişaf etdirilməsinə ayrıca qayğı göstərirdi.

H.Əliyevin siyasi müdrikliyi 70-ci illərdə də Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyasının hazırlanması və qəbulu zamanı özünü bir daha göstərdi. Moskvanın və oraya xidmət edən qüvvələrin müqavimətinə baxmayaraq respublikanın rəhbəri böyük iradə nümayiş etdirib Konstitusiyaya dövlət dili ilə əlaqədar xüsusi maddə (73-cü maddə) salınmasına nail ola bilmişdir. O, zaman SSRİ respublikaları içərisində yalnız Azərbaycan, Gürcüstan və Ermənistanın Konstitusiyasında dövlət dili barədə maddə var idi.

Heydər Əliyevin 1995-ci il oktyabrın 31-də Azərbaycan Elmlər Akademiyasında keçirilən Azərbaycan Respublikasının dövlət dili haqqında Konstitusiya maddəsinin müzakirəsi zamanı nitqində dediyi kimi, Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə ayrıca maddənin mövcudluğu o zamanın şəraitində respublikamızda, ümumiyyətlə, ölkəmizin tarixində çox böyük hadisə idi.



«Müstəqil Azərbaycan dövlətinə rəhbərlik etməyə başladığı dövrdən Heydər Əliyevin Azərbaycan dilinə qayğı və diqqəti yeni tarixi şəraitin ruhuna və tələbinə uyğun olaraq, daha mükəmməl siyasi və insani çalarlarla səciyyələndi. Əvvəla, ana dilimizin artıq qeyd-şərtsiz və şəriksiz olaraq respublikamızın Dövlət dilinə çevrildiyi son illərdə onun bu dili nə qədər dərindən, bütün incəliklərinə qədər bildiyi və öz çıxışlarında, əhali ilə görüşlərində dilimizin imkanlarından necə məharətlə istifadə etdiyi göz qabağında idi, hamı tərəfindən qəbul və təqdir olunurdu. Digər tərəfdən, Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili, sözün həqiqi mənasında, dövlətlərarası münasibətlərin dilinə, siyasi dialoqların və diplomatik danışıqların dilinə çevrilib, dünyanın onlarca ölkəsində səslənib, onun öz doğma dilinə məhəbbəti hər yerdə təcəssüm etdiribdir. Nəhayət, Heydər Əliyev son illərin bütün gərginliklərinə, həyəcanlarına, sıxıntılarına baxmayaraq, ana dilinin problemlərinə diqqət və qayğısını bir an da olsun azaltmadı» [99, 417].

Müasir mərhələdə dil amilindən siyasi mübarizədə və idarətemə praktikasında Heydər Əliyev qədər məharətlə istifadə etməyi bacaran ikinci bir dövlət başçısı, siyasi lider göstərmək çətindir. Bu da hər şeydən əvvəl, onun ana dilini bütün varlığı ilə sevməsindən, onun incəliklərinə bələd olmasından irəli gəlir.

Dünyada müstəqil Azərbaycan dövləti vardır. Azərbaycan xalqı vardır. Onun öz mükəmməl dili, zəngin milli mədəniyyəti, özünəməxsus adət-ənənələri vardır. Bunları qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ərməğan etmək müqəddəs bir vəzifədir. Bu gün bu fəzifənin həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır.

Ümumiyyətlə tarixə nəzər saldıqda görürük ki, Heydər Əliyevin dövlətçilik təcrübəsini, idrəçilik fəlsəfə-

sini bir məktəb kimi öyrənib tədqiq etməyə olduqca böyük ehtiyac var.

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan illəri də onun siyasi bioqrafiyasında, xalqımızın dövlətçilik tarixində qısa, lakin parlaq və ibrətamiz bir dövr olmuşdur. Ulu öndərin rəhbərliyi altında Naxçıvan ölkəmizin dövlət müstəqilliyinə doğru irəliləməsində, milli azadlıq və milli dövlət quruculuğu işində nümunə rolu oynamışdır. 1993-cü ilin iyun günlərində Azərbaycana rəhbərliyi yenidən öz üzərinə götürən böyük siyasətçinin, təcrübəli dövlət xadiminin idarəçilik məharəti nəticəsində Azərbaycan onu təhdid edən fəlakətlərdən, məhv olmaq təhlükəsindən, etnik parçalanmadan xilas edildi. Sabit sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna qədəm qoydu. Ölkənin milli mənafelərinə və təhlükəsizliyi tələblərinə cavab verən xarici siyasət doktrinası hazırlandı. Azərbaycan dövlətlərarası beynəlxalq, regional və ikitərəfli münasibətlər sisteminə qoşuldu. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində uzunmüddətli atəşkəs əldə olundu. Problemin sülh yolu ilə həlli üçün ardıcıl fəaliyyət göstərilməyə başlandı. Qabaqcıl dünya dövlətləri ailəsinə inteqrasiya xətti götürüldü, neft strategiyasından bəhrələnməklə ölkənin firavan gələcəyi üçün möhkəm iqtisadi təməl yaradıldı. Demək olar ki, Azərbaycanın dövlət müstəqilliyi dönməz, əbədi xarakter alıb, sabit siyasi vəziyyətdə, mənəvi-psixoloji mühitdə Azərbaycanın gələcək milli inkişaf strategiyası müəyyənləşdirildi.

Qeyd etmək lazımdır ki, bütün mərhələlərdə Heydər Əliyev rəhbərliyinin mahiyyətini təşkil edən dəyərlər sırasında insan hüquq və azadlıqlarının qorunması, humanizm, ədalət prinsipləri həmişə üstün yer tutur. Ölkəmizdə həyata keçirilən geniş miqyaslı hüquq islahatları, məhkəmə sisteminin təkmilləşdirilməsi məhz bu prinsiplərə xidmət edir. Şərqdə ilk dəfə olaraq, Azərbaycanda ölüm cəzası ləğv edilmiş, dövlətimiz insan hüquq və azadlıqları



sahəsində əsas beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

«Dövlət idarətemə sisteminin təkmilləşdirilməsi yönündə radikal addımlar atılması, çevik idarəçilik strukturunun yaradılması strategiyasının formalaşması istiqamətində xeyli işlər görülmüşdür. Bu məqsədlə Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 1998-ci il 29 dekabr tarixli Fərmanı xüsusi dəyərə malik olan sənəd hesab edilməlidir. Fərmanda cəmiyyətin demokratikləşməsi və bazar münasibətlərinin daha da inkişaf etdirilməsi üçün dövlət idarə etməsində köklü islahatlar aparılmasının prinsipial əhəmiyyət kəsb etdiyi xüsusilə vurğulanır. Bəllidir ki, bu sahədə islahatlar dövlət idarəetməsinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən idarəetmə sistemi və hüquqi baza yaradılmasını təmin etməlidir» [98, 379].

Bu gün Heydər Əliyevin dövlət idarəçiliyi nəzəriyyəsi və praktikası əsasında məktəbin yaranması haqqında danışmaq olar. Hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun iş təcrübəsi, təşəbbüsləri bu məktəbin dərslərini səylə öyrənən çoxlu ardıcılların yetişməsinə səbəb olur. Onun fəaliyyətinə siyasi romantizm, xulyaçılıq yaddır, qəbul etdiyi qərarlar ilk baxışdan populyar olmaya bilər, lakin bu, son nəticədə həmişə yeganə düzgün və optimal qərar olur.

Heydər Əliyev xalqa mümkünsüz vədlər vermir, real vəziyyəti və əldə ediləcək nəticələri açıqlayırdı. Heydər Əliyev müasir dünyanın siyasi xadimləri arasında çox az təsadüf edilən elə bir rəhbər idi ki, müxtəlif tip liderlərdə olan keyfiyyətləri ahəngdar şəkildə özündə birləşdirirdi.

Respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə Heydər Əliyevin doğma Azərbaycan mühitinə, milli zəminə, milli köklərə bağlı olması onu bir şəxsiyyət, dövlət xadimi və lider kimi səciyyələndirən keyfiyyətlər sırasında xüsusi yer tuturdu. Azərbaycan dilinin inkişafı, milli mədəniyyətin, əxlaq normalarının, dinamizm, mənəviyyatımızın yüksəlməsi, gənclərin milli ruhda tərbiyə edilməsi Prezidentin liderlik qayəsini təşkil edən cəhətlərdəndir.

Tarixi, şəxsiyyətlərə qiymət verərkən belə bir prinsip əsas götürülməlidir ki, onlar öz dövrünün imkanları ilə müqayisədə nələr edə bilmişlər. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin istər birinci dövrünə, istərsədə müstəqillik dövründəki fəaliyyətinə qiymət verərkən tam inamla deyə bilərik ki, o zamanın və şəraitin diktə etdiyi çərçivələrdən çıxaraq öz dövrünü qabaqlamış və həlli mümkün olmayan problemləri də reallaşdırmışdır.

Heydər Əliyev tarixi şəxsiyyətdir. Heydər Əliyevin düşüncələri ilə tanış olan hər kəs onun təfəkkürünün məntiqi gücünə, fəlsəfi fikrinin dərinliyinə, mühakimələrinin inandırıcılığına, tarixi məntiqi metoduna heyran qalır. O görkəmli şəxsiyyət, böyük siyasətçi və diplomatdır.

## §2. İlham Əliyev və Azərbaycan demokratik dövlətçiliyinin inkişafı

XXI əsr tarixə qloballaşma əsri kimi daxil olmuşdur. Kim bu prosesin əsas tendensiyalarını vaxtında dərk edib öz milli dövlətçilik maraqlarını qloballaşmanın tələbləri ilə üzvi surətdə əlaqələndirə bilsə, yeni-yeni nailiyyətlər əldə edə biləcəyi danılmaz bir həqiqətə çevrilir.

Ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Azərbaycanda müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarətemə proses-lərinin mərkəzləşdirilməsi və milli iqtisadiyyatın durğunluq prosesinin



dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı.

«Dövlətçiliyin möhkəmləndirilməsinə, Azərbaycanın beynəlxalq siyasi, iqtisadi və humanitar proseslərə qatılmasına neft strategiyasının işlənib hazırlanmasına, milli ideologiyanın formalaşmasına böyük önəm verən Prezident H.Əliyev hakimiyyətə qayıtdığı ilk illərdə ictimai həyatın nisbətən arxa planda qalan və nisbətən ikinci dərəcəli görünən sahələrinə də eyni dərəcədə diqqət verə bilməzdi. Nəticədə 90-cı illərin birinci yarısında Azərbaycanda idman başqa sahələrə nisbətən hələ də geri qalırdı. Ancaq 1997-ci ildə İlham Əliyev Milli Olimpiya Komitəsinə sədr təyin olunduqdan sonra ölkəmizdə idman da böyük vüsətlə inkişaf etməyə başladı. Və idman nəinki sadəcə fiziki sağlamlıq və ya istirahət vasitəsi kimi, həm də beynəlxalq münasibətlərin mühüm amillərindən biri kimi böyük əhəmiyyəti də bu vaxtdan sonra özünü daha aydın biruzə verdi» [75, 373-374].

İlham Əliyevin həyat yoluna nəzər salarkən qeyd etmək lazımdır ki, onun siyasi, iqtisadi və mənəvi baxışlarının formalaşmasına təsir göstərən heç-də təkcə ailə tərbiyəsi olmamışdır. Onun şəxsi keyfiyyətləri, intellekti, ümumi mədəniyyəti, təvazökarlığı, şüurlu həyatı boyu topladığı müsbət nə varsa hamısını faydalı şəkildə sintezləşdirmək bacarığı mühüm rol oynamışdır. Demək olar ki, H.Əliyevdən savayı, heç bir siyasətçinin qısa müddət ərzində İlham Əliyevin nail olduğu qədər geniş, kütləvi sosial bazası yoxdur. O, ölkənin bütün bölgələrindən olan nümayəndələri öz ətrafında birləşdirən nadir bir siyasətçidir.

SSRİ-nin nüfuzlu ali məktəbində – Mosvka Beynəlxalq Münasibətlər institutunda aldığı təhsil, alimlik dərəcəsi alması, həmin institutda müəllimlik fəaliyyəti, neft sektorunda iş, partiya fəaliyyəti, Milli Olimpiya Komitəsinə və Avropa Şurasındakı nümayəndəliyə rəhbərlik və s.

İlham Əliyevin sanballı siyasi fəaliyyətini təşkil edir. Milli Olimpiya Komitəsində işlədiyi dövrdə özünün təşkilatçılıq bacarığı, beynəlxalq strukturlarda iş təcrübəsi sayəsində İlham Əliyev Azərbaycan idmanında olimpiya çempionlarının meydana gəlməsinə nail olmuşdur.

Azərbaycan parlamentinin Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin fəaliyyəti göstərdi ki, İlham Əliyev ümummilli maraqların təmin edilməsi naminə qısa müddət ərzində onların hamısını sıx birləşdirə və mühüm uğurlar qazana bilmişdir. Burada məsələ Azərbaycan parlament qrupunun fəallığı ilə yanaşı, həm də milli xarici siyasət faydalı konturlar almağa başlamışdır. İlham Əliyev bu sahədə prezident Heydər Əliyevin işləyib hazırladığı milli xarici siyasət xəttini davam etdirdi və beynəlxalq səhnədə Azərbaycanın maraqlarını fəal surətdə irəlilətmək üçün bütün qüvvələri səfərbər etdi.

Dağlıq Qarabağ ərazisinin narkotiklərin istehsalı və yayılması, terrorçuların bazalarının yerləşdirilməsi və nüvə tullantılarının basdırılması üçün istifadə olunduğunu AŞPA-da ilk dəfə məhz İlham Əliyev qaldırmışdır. Əvvəllər Heydər Əliyevin, indi isə İlham Əliyevin sayəsində dünya Ermənistan ilə Azərbaycan arasında münaqişə haqqında həqiqətdən xəbər tutdu. Dağlıq Qarabağ problemi ətrafında informasiya blokadası yarıldı. İlham Əliyevin yorulmaz fəaliyyəti nəticəsində AŞPA Ermənistanı təcavüzkar kimi tanımağa məcbur oldu.

Ümumiyyətlə, Azərbaycanın ən yeni tarixi bizim gözlərimiz qarşısında keçmişdir.

İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir, bununla bərabər o, şəxsiyyətin dəyərlərinin prioritetini istisna etmir. Zəif cəmiyyətə malik güclü dövlət ola bilməz. İlham Əliyevin dəyərlər sistemində "Güclü dövlət" və "dövlətin modernləşdirilməsi" məqsədini görməmək mümkün deyil.



Prezident İlham Əliyevin iqtisadi baxışları deməyə əsas verir ki, o modernləşməni iqtisadi islahatla məhdudlaşdırılan proses kimi başa düşmür. Kiçik və orta biznesin inkişafı ilə paralel degən demokratikləşmə ideyası onun üçün prioritetdir.

«İlham Əliyev prezident seçildiyi ölkə, özünün də qeyd etdiyi kimi, artıq böyük problemləri geridə qoyan, ziddiyyətli problemləri geridə qoyan, ziddiyyətli tarixi mərhələləri uğurla keçən, mühüm islahatların ilkin bəhrəsini görən, vətəndiş sülhünü və sosial rifahı təşkil edən, demokratik dəyərləri mənimsəyən sivill dövlət idi. Yəni, respublikada nizamlanası problemlərin böyük əksəriyyəti həll olunmuş, dövlət quruculuğu prosesi bütün istiqamətlər üzrə uğurla davam etdirilmiş, daha böyük nailiyyətlərin qazanılması üçün əlverişli sosial-siyasi zəmin formalaşdırılmışdır. Prezidentin etiraf etdiyi kimi, onun dövlət başçısı seçilməsində xalqın böyük inamını təmin edən başlıca amil məhz Heydər Əliyevin başladığı yolu davam etdirmək idi. Ölkə rəhbəri andiçmə mərasimindəki çıxışının əsas leytmotivi ilə də qarşıdakı beş ilin perspektiv xronologiyasını müəyyənləşdirdi: "Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra daha da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir"... Daha sonra İ.Əliyev bildirmişdir ki, Azərbaycanda 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticə əldə olunacaq; regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacaq; sahibkarlığa dövlət qayğısı artırılacaq; transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacaq və sair» [99, 628-629].

İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra, 2003-cü il noyabrın 24-də "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzaladı. Bu, ölkə başçısının seçicilərə

verdiyi vədi yerinə yetirməyə çalışmasına ilk sübüt oldu. Bunula yanaşı, demək olar ki, 2004, 2005-ci illər iqtisadiyyat üçün vacib il idi. Bakı – Tbilisi – Ceyhan əsas ixrac boru kəmərinin işə salınması, ölkəyə xeyli gəlir gətirməsi, Bakı – Tbilisi – Ərzurum qaz kəmərinin tikintisində mühüm işlər görülməsi böyük nailiyyətlərdən idi.

Azərbaycanda kənd təsərrüfatı yeni formalar alıb. Planlı qaydada inkişaf edən fermer təsərrüfatları bu illərdə iqtisadiyyatın güclü sahələrindən birinə çevrilib.

İlham Əliyev hələ Baş Nazir olanda respublika vətəndaşlarına minlərlə iş yeri verən bir neçə zavodun açılışında iştirak etmişdir. 2004-cü ildə xüsusilə bölgələrdə bir sıra sənaye müəssisələri işə salınmışdır. İri şəhərlərlə yanaşı, kənd rayonlarının da inkişafına xüsusi diqqət yetirilir. Prezident 2004-cü il fevralın 11-də "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər)" imzalamışdır. Azərbaycanın bəzi bölgələri tədricən yenidən turizm obyektlərinə, kurortlara və istirahət zonalarına, şəhərlər milli iqtisadiyyatın sənaye mərkəzinə çevrilmişdir.

Prezident İlham Əliyevin tez-tez regionlara səfər etməsi və verilən tapşırıqların yerlərdə icra edilməsi vəziyyəti ilə yaxından tanış olması, rayon rəhbərlərinə öz məsləhətlərini və tapşırıqlarını verməsi, xalqla görüşlər keçirməsi, onların qayğısına qalması xalqa öz prezidentinə və ölkənin gələcəyinə böyük ümidlər bəsləməsinə səbəb olur. Respublika Prezidenti xalqımızın taleyüklü məsələləri olan regionların kompleks inkişafına, elmin, təhsilin, səhiyyətinin, mədəniyyətin inkişafına, işsizliyin və yoxsulluğun azaldılmasına, Qarabağ probleminə və sair bu kimi məsələlərə çox həssalıq və qayğı ilə yanaşır. O, ölkə başçısı seçildiyi ilk vaxtlardan etibarən «insan o zaman azad hesab olunur ki, o iqtisadi cəhətdən azad olsun»; «tarazlı iqtisadi inkişafın təmin edilməsi»; «neftdən və neftin qiymətindən asılı olmayan iqtisadiyyat»; «idxalı əvəz edən iqtisadi siyasət»; «işsizliyin və yoxsulluğun aradan qaldırılması» və sair bu kimi konseptual xarakterli iqtisadi ideyaları irəli sürüb onların həyata keçirilməsini surətləndirməklə ölkəmizin iqtisadi inkişafının və əhalinin həyat səviyyəsinin yeni keyfiyyət mərhələsinə qədəm qoymasına nail olmuşdur.

«Tamamilə aydındır ki, iqtisadiyyatda, həm daxili, həm də xarici siyasətdə hələ çox iş görmək lazımdır. Dövlətin başçısının qarşısında böyük vəzifələr durur:

– Qarabağ münaqişəsinin və Xəzərin bölünməsi məsələsinin həlli;

– milli iqtisadiyyatın gücləndirilməsi və tam bazar iqtisadiyyatına çevrilməsi, əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsi;

– milli siyasi məkanın təkmilləşdirilməsi və hakimiyyətlə müxalifət arasında sivilizasiyalı münasibətlərin yaradılması;

– Azərbaycan vətəndaşlarının həyat şəraitinin keyfiyyətcə yaxşılaşdırılması və qaçqın-köçkünlərin probleminin həlli.

Bunlar Azərbaycan Prezident İlham Əliyevin qarşısında duran vəzifələrin yalnız kiçik bir siyahısıdır. Prezidentin getdiyi yol yeniliyi ənənələrlə ahəngdar şəkildə uzlaşdırır və bu yol ölkəni hökmən tərəqqi və firavanlığa çatdırıcaqdır» [101, 435].

Respublikamızda iqtisadi və sosial inkişafla bərabər dövlət quruculuğu, demokratiya və insan hüquqlarının qorunması kimi problemlər də daim Prezident İlham Əliyevin diqqət mərkəzində olmuşdur.

Tədqiqatçıların əksəriyyəti demokratik cəmiyyətin yaradılmasında təkamül yoluna üstünlük verirlər. Son illər bir sıra MBD dövlətlərində yaşanan "məxməri inqilab" ssenariləri təsdiqləmişdir ki, demokratik proseslərin inqilabi yolla sürətləndirilməsi, demokratik dəyərlərin kor-korana transferi qətiyyən mümkün deyildir. Hər bir

ölkənin daxilində mütləq demokratik proseslərin getməsinə real zəmin yaradılmalı, tətbiq olunan yeniliklər ictimai şüur tərəfindən tam şəkildə mənimsənilməlidir. Bu nöqteyi-nəzərdən bizim bəzi milli tədqiqatçılarımız Azərbaycanda dünya ölkələrinin heç birinə bənzəməyən inkişaf modelinin formalaşmasını bildirirlər. Demokratik quruculuq yolu ilə gedən respublikamız həssas bir bölgədə yerləşsə də, onun həm iqtisadi, həm siyasi, həm də digər sahələrdə özünəməxsus inkişaf modelinin formalaşması bildirilir. Bir sıra postsovet dövlətlərində analoji tranzit "məxməri inqilab" ssenarilərinə əsaslandığı halda, Azərbaycanda demokratik inkişaf suverenlik və özünü təminetmə prinsipinə söykənir. Müasir dünyada demokratik dəyərlərin yayılması kifayət qədər sabit xarakter alsa da, özlüyündə demokratiya mücərrəd anlayışdır və nəzərdə tutulan son məqsədə çatmaq üçün hansısa bir konkret çıxış nöqtəsi kimi baxmağa imkan vermir. Prezident İlham Əliyev bu məsələ ilə bağlı qeyd edir: «Ümumən demokratiya problemi xüsusilə keçmişdə tamamilə başqa sistemdə yaşamış ölkələr üçün çox mürəkkəb məsələdir. Biz, yaşlı nəsillər və ya mənim yaşıdlarım, tamamilə başqa bir sosial mühitdə formalaşmışıq. Hazırda isə keçid prosesi gedir, həmdə çox sürətlə gedir. Lakin demokratiya kiminsə arzusu və məsləhəti ilə birdən-birə zəfər çala bilməz, çünki bu proses təkamül və inkişaf yolu ilə getməlidir.

İnanıram ki, əgər xalq yoxsuldursa, demokratiya onu lap axırda maraqlandırır. Kasıb adamlar iş haqqında, qida məhsulları haqqında, uşaqlarını necə doyurmaq haqqında fikirləşirlər, bu şəraitdə onlar azad ola bilmirlər. Ona görə də biz azad sahibkarlığın inkişafına böyük diqqət yetirirk. Adamlar öz biznesi ilə məşğul olanda dövlət strukturlarından asılı olmurlar. Beləliklə, onların həyatdakı davranışı da dəyişir.



Siyasi təsisatlar da bunun kimidir. Biz Qərb ölkələrində mövcud olan bütün siyasi təsisatları Azərbaycanda da yaratmışıq. Ancaq bu o demək deyil ki, Azərbaycandakı demokratiyanın səviyyəsi bu dövrlərdə olduğu kimidir.

Müvafiq ilkin şərait olmadan «quru yerdə» demokratiyanı elan etmək, yaxud onu bayrağın, dəyənəyin köməyi ilə tətbiq etmək və "siz sabah demokrat olmalısınız" demək tamamilə qeyri-normaldır, qəbuledilməzdir. Həyat göstərir ki, belə yanaşmalar və metodlar təsirsizdir. Demokratiyanın "idxal"ı kimi. Bu, təkamül şəklində, keçid prosesi halında baş verməlidir. Təbii ki, hökümət, tərəfdaşlar, beynəlxalq və qeyri-hökümət təşkilatları fəallıq göstərməlidirlər.

Biz öz ölkəmizdə yaşayır və onu tanıyırıq. Necə inkişaf edəcəyimizi özümüz seçirik. Üstəlik, demokratiya məsələlərində son dərəcə diqqətli olmaq lazımdır.

Biz səmərəli, praqmatik və düşünülmüş yanaşma tərəfdarıyıq» [12, 188-189]. Bu baxımdan demokratiya xalq hakimiyyəti ideyalarının yad, yaxud yeni olduğu məkanlarda yalnız təkamül və inkişaf yolu ilə keçirilməlidir. Hər bir nəzəriyyə kimi, o da əvvəlki stereotiplərin bütünlüklə yox edilməsini, habelə davranış normaları və standartlarının formalaşması üçün vaxt tələb edir.

Həmçinin, bildirilir ki, Azərbaycanda transformasiya prosesinin dönməz xarakter almasında siyasi hakimiyyətin gücü və idarəsi həlledici rol oynayır. "Güclü iqtisadiyyat – müstəqil dövlət" prinsipini uğurla reallaşdıran Azərbaycan Respublikasında hər hansı bir inqilabın baş verməsi nəinki mümkünsüzdür, hətta siyasi müzakirə predmeti deyildir. Keçmiş İttifaq respublikalarının çoxundan fərqli olaraq, Azərbaycanın siyasi hakimiyyət sistemi sabit və çox uğurlu şəkildə idarə edilir. 2005-ci il oktyabr hadisələri istisna olmaqla, digər ölkələrdən fərqli olaraq, Azərbaycanda hakimiyyətin icra və qanunverici

orqanları arasında nəinki qarşıdurma meyilləri olmamışdır, əksinə, onlar arasında konstruktiv əməkdaşlıq mövcuddur. Bütün bunlar güclü və səmərəli dövlətin əsas göstəriciləri olmaqla, ölkədə vahid dövlət siyasətinin həyata keçirilməsinin mühüm amili kimi qiymətləndirilir. Eyni zamanda, bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi iqtisadi siyasət nə bazar fundamentalizminə, nə də inzibati-amirlik metodlarına əsaslanır. Dövlətin iqtisadi siyasəti bir tərəfdən sosial ədalət, digər tərəfdən də səmərəli iqtisadiyyat prinsipləri ilə uzlaşdırılır.

Hər bir dövlətin müstəqilliyini şərtləndirən, onu əbədiləşdirən amillər ilk növbədə demokratik dəyərlərin maksimum səviyyədə təminatından asılıdır. İnkişaf etmiş dövlətlərin təcrübəsi də təsdiqləyir ki, ictimai-siyasi həyatın bütün sahələri üzrə demokratikləşmə prosesinin sürətləndirilməsi, dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulması, sosial ədalət prinsiplərinə ciddi şəkildə riayət olunması həmin dövlətdə sabitliyin, vətəndaş həmrəyliyinin, dinamik iqtisadi inkişafın başlıca təminatlarından biridir. Müstəqil Azərbaycan da qloballaşan dünyanın tam hüquqlu subyekti kimi heç bir kənar təsiri, müdaxiləni qəbul etmədən demokratik dəyərlərə doğru inamla irəliləyir. Respublikamızın sosial-iqtisadi sahədə ildən-ilə daha böyük uğurlar qazanması, beynəlxalq layihələrin gerçəkləşdirilməsində əsas söz sahibi kimi çıxış etməsi, regionda lider dövlətə çevrilməsi və ən nəhayət, insanların maddi rifah halında özünü göstərən kardinal dəyişikliklər Azərbaycanda demokratik inkişaf kursunun əbədi və dönməz olmasına ən başlıca təminatdır.

Siyasi həyata praqmatizm, liberal iqtisadi münasibətlər, açıq vətəndaş cəmiyyəti, sivil mübarizə formaları, siyasi qüvvələri rəqibləri təkcə tənqid etmək yox, həm də onların fəaliyyətinə, bacarığına və qabiliyyətinə görə qiymət vermək ənənələrinin gəlişi cənab İlham Əliyevin prezidentlik dövrünü səciyyələndirən ən başlıca xüsusiyyət-



lərdəndir. Daxili siyasi həyatın liberallaşdırılması prosesi də məhz bu dövrdə daha geniş vüsət almışdır. İlham Əliyev dövlətçilik fəaliyyəti qarşısında necə varsa elə də görünür. Məlumdur ki, 1993-cü ildən etibarən görülən köklü tədbirlərə baxmayaraq, Azərbaycanın hələ də həllini gözləyən bəzi problemləri var və onların həlli məsuliyyəti məhz İlham Əliyev hakimiyyətinin üzərinə düşür. Bunlar, qeyd etdiyimiz kimi, ilk növbədə Dağlıq Qarabağ konflikti və regional təhlükəsizlik amilinin formalaşdırılması, demokratik institutların inkişafı, vətəndaş-cəmiyyət-dövlət, vətəndaş-məmur münasibətlərinin yeni baxışlar sistemi çərçivəsində tənzimlənməsi, intellektual imkanların artırılması, orta təbəqənin, milli sahibkarlığın möhkəmləndirilməsi və s.-dir.

Seçkiqabağı platformasında bu problemləri kompleks şəkildə önə çəkən İlham Əliyev qarşıda duran çətinliklərin həllinə həm də düzgün yanaşdığını nümayiş etdirdi. Göründüyü kimi, Azərbaycan üçün yeni dövr – fərqli reallıq, yeni imkanlar zamanı başlayıb. Bu mərhələni maksimum itkisiz və qazancla keçmək üçün müasir dünyagörüş, yeni ictimai şüur sisteminə ehtiyac var. Bu sistem quruculuğu yuxarıdan aşağıya prinsipi ilə həyata keçirilməlidir və onu ancaq İlham Əliyev təmin edə bilər.

Qərb də bu baxımdan İlham Əliyevin bütün təşəbbüslərini dəstəkləyir. Aydındır ki, Qərb neftlə zəngin, müttəfiq olduğu ölkəni xaos qirdabında yox, sabit və demokratik inkişaf yolunda görmək istəyir. Bu zaman həmin ölkə ilə əlaqələr qurmaq və burada öz biznes maraqlarını təmin etmək daha da asan olur. Bu mənada müstəqillik qazanmış keçmiş SSRİ respublikaları içərisində özünün seçdiyi inkişaf modelinə görə Qərbi ən çox cəlb edən müsəlman respublikası məhz Azərbaycandır. Qərb elə hakimiyyət və elə prezident arzulayır ki, hakim komanda və əhalinin ona münasibətindəki siyasi konsensus pozulmasın, hakimiyyətin yürütdüyü siyasi kursdakı ar-

dıcıllıq isə davamlı xarakter alsın. Bütün parametrlərinə görə bu vəzifələri təmin edə biləcək yeganə şəxs təbii ki, İlham Əliyevdir. İlham Əliyev müasir Qərb dünyagörüşünə malik siyasi xadimdir və o, bu dünyagörüşü Azərbaycan cəmiyyətinə təlqin etmək, aşılamaq üçün bütün vasitələrdən istifadə etməkdədir.

Prezident seçildikdən sonra İlham Əliyev ölkədə vətəndaş həmrəyliyinin qorunub saxlanılması, siyasi sabitliyin təminatı, əhalinin maddi həyat səviyyəsinin yaxşılaşdırılması uğrunda əzmlə çalışır. Dövlət başçısı ölkədə vətəndaş həmrəyliyinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi naminə fəal siyasət həyata keçirir.

Bu reallığı İlham Əliyevin prezident olaraq fəaliyyətə başladığı gündən iki ay sonra – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində 160 məhbusun əfv edilməsi barədə imzaladığı fərman da bir daha təsdiqlədi.

«Azərbaycan Prezidenti cəmi iki il müddətində əfvlə bağlı 8 fərman imzalamış, 1300-ə yaxın məhkumu cəzasının çəkilməmiş hissəsindən tam və yaxud qismən azad etmişdir. Bu rəqəm son 10 ildə Azərbaycanda əfv olunmuş məhkumların təxminən 30 faizini təşkil edirdi. Bu göstəriciyə görə Azərbaycan dünyanın ən aparıcı demokratik ölkələrini də qabaqlayır. Qeyd olunanlar, Azərbaycanda insan hüquqularının etibarlı təminatına və demokratikləşməyə xidmət edən strateji siyasi kursun layiqincə davam etdirildiyini göstərir. Dünyanın insan hüquqları sahəsində ixtisaslaşmış nüfuzlu təşkilatları da bunu açıq etiraf edir, cənab İlham Əliyevin insanpərvər dövlət başçısı olduğunu bildirirlər. İmzalanan əfv fərmanlarının, bir qayda olaraq mühüm tarixi günlər və dövlət bayramları ərəfəsinə təsadüf etməsi insanlara hədsiz sevinc bəxş etməklə yanaşı, onlara yüksək mənəvi dəyər aşılayır» [15, 179].

Təbii ki, prezident İlham Əliyevin atdığı bu addımlar bütün mənalarda təqdirəlayiq faktdır. Lakin məsələ



təkcə onda deyil ki, bu hadisənin ictimai təsir effekti vaxtilə müxtəlif cinayətlərə rəvac vermiş şəxslərin azadlığa buraxılması ilə kifayətlənir. Məsələyə daha geniş prizmadan yanaşmaq lazımdır. Belə ki, dövlət başçısı bununla öz vətəndaşlarına ehtiramını və müdafiə etdiyi prinsiplərə sədaqətini bir daha təsdiqlədi. Və sübüt etdi ki, bu fərmanların imzalanması Heydər Əliyev ənənələrinin davam etdirilməsinin məntiqi nəticəsidir.

Ötən illərdə hakimiyyət ölkədə demokratik inkişafın təmin edilməsi və insan hüquqlarının müdafiəsi istiqamətində bütün mümkün addımları atıb. Faktiki olaraq bu gün hakimiyyət hər bir vətəndaşın sosial və siyasi hüquqlarının qarantı rolunda çıxış edir. İqtidar insanlara, öz vətəndaşlarına münasibətini heç zaman siyasi mənsubiyyət faktoru müstəvisində müəyyən etmir və bunu da prezidentin fərmanı ilə azadlığa buraxılan bəzi məhbusların keçmişi təsdiqləyir.

Əfv fərmanı imzalamaqla prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin insan hüquq və azadlıqlarının qorunması və humanizi sahəsində müəyyən etmiş olduğu ənənələri uğurla davam etdirir. Ümumiyyətlə, bu sahədə yürüdülən dövlət siyasəti dinamik xarakteri ilə seçilir. Demək olar ki, 1993-cü ildən etibarən bütün illərdə Heydər Əliyev hakimiyyəti ölkədə demokratik prinsiplərin və insan hüquqlarının müdafiəsi istiqamətində çoxsaylı təşəbbüslərlə çıxış edib. Bu müddət ərzində Azərbaycan BMT tərəfindən 1948-ci ildə qəbul edilən və dünyada insan hüquq və azadlıqlarının qorunmasını nəzərdə tutan beynəlxalq konvensiyanı və "Avropada insan hüquq və azadlıqlarına dair xartiyanı" ratifiksiya edən ilk postsovet ölkələrindən biri oldu. Həmçinin, tez bir zamanda insan hüquqlarına aid olan "Sərbəst toplaşmaq" və «Kütləvi İnformasiya Vasitələri" və s. haqqında mükəmməl qanunlar qəbul edildi. Ölkəmizin əldə etdiyi ən mühüm nailiyyətlərdən biri isə Ombudsman institutunun yaradılması

və Avropa Şurası qarşısında götürülən öhdəliklərin tez bir zamanda yerinə yetirilməsidir.

«ABŞ Prezidenti 2006-cı ilin yanvar ayında müqəddəs Qurban bayramı münasibətilə cənab İlham Əliyevə ünvanladığı məktubda ölkəsinin insan hüquqlarının təminatı və siyasi-iqtisadi təsisatların inkihafı, dini azadlıqların tam bərqərar olması sahəsində Azərbaycana yardım göstərmək niyyətində olduğunu bir daha bəyan etmişdir. Azərbaycanın dini sahədə yetirdiyi tolerant siyasət də bütün beynəlxalq təşkilatlar, aparıcı dövlətlər, o cümlədən ABŞ Dövlət Departamenti tərəfindən təqdir olunur. Ölkəmizdə siyasi dözümlülük, insan hüquq və azadlıqlarına hörmət prinsipi də yüksək səviyyədə qorunur, hər ötən illə müqayisədə demokratik dəyişikliklərin real həyata təsir əmsalı artır. Bütün bunlar isə ABŞ – Azərbaycan münasibətlərinin qarşıdakı illərdə də yüksələn xətlə inkişaf edəcəyindən xəbər verir» [15, 132].

Bütün bunlar bir daha sübüt edir ki, bizim ölkədə insan hüquq və azadlıqlarının qorunmasına rəsmi səviyyədə həssas münasibət mövcuddur. Prezident İlham Əliyev öz addımları ilə dövlətin cəmiyyətə yönəlik humanist rəftarını nümayiş etdirir. Sübut edir ki, bu kimi humanist aktlar ümummilli lider Heydər Əliyev ənənələrinin məntiqi davamıdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkənin demokratik imicinin yüksəldilməsi istiqamətində daha bir addım ataraq 2005-ci il 11 may tarixdə «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» Sərəncam imzaladı. Bu sərəncamın, ilk gündən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılanması təsadüfi olmayıb cənab İlham Əliyevin seçkilərin demokratik, azad və ədalətli keçirilməsinə prinsipal siyasi iradə nümayiş etdirməsilə şərtlənirdi. Bu sənəd ölkənin seçki sisteminin Qərb standartlarına adaptasiyasının başa çatdırılması kimi qiymətləndirilə bilərdi.



Sərəncamda azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları bir mənalı olaraq göstərilmiş, eləcə də seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı konkret vəzifələr öz əksini tapmışdır. Sərəncamda «postsovet mentalitetindən» imtina olunmasının zəruriliyi xüsusi vurğulanmışdır. Sənəd mərkəzi və yerli hakimiyyət orqanlarını sərbəst toplaşma azadlığını təmin etməyə, düzgün seçici siyahılarının tərtibinə, bütün namizədlər üçün KİV-də bərabər şərait yaradılmasına, siyasi etiqadlarına görə vətəndaşların təqib olunmalarına yol verməməyə çağırırdı. Həmçinin icraedici hökümətin və dövlət qulluqçularının seçki prosesinə qeyri-qanuni midaxilə etməmək öhdəliyini də nəzərdə tuturdu. Bütün bunlarla yanaşı, prezidentin imzaladığı sözügedən sərəncam demokratik inkişafın yolunda psixoloji baryerlərin aradan qaldırılmasını şərtləndirirdi.

Sərəncamın imzalanmasından ötən dövr bir daha təsdiqlədi ki, dövlət başçısı azad və ədalətli seçkilərin keçirilməsində hamıdan çox maraqlıdır.

Ölkəmizdə demokratiyanın inkişafına münasibət bildirən Prezident İlham Əliyev demişdir: «Demokratiya nə xaosdur, nə anarxiyadır, nə də öz başnalıqdır. O, ictimai – siyasi sabitliyin, qanunun aliliyinin hökm – fərman olduğu şəraitdə meydana çıxa bilər, qol-qanad aça bilər, inkişaf edə bilər. Və bir də hər xalqın mentalitetinə müvafiq, hər cəmiyyətin və hər dövrün tələblərinə uyğun şəkildə. Ona görə də qoy nə burada, nə də ölkə hüdudlarından kənarda heç kim narahat olmasın: Azərbaycan demokratiyanı möhkəmləndirir və möhkəmləndirəcəkdi!» [12, 192].

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin fəaliyyət istiqamətlərində ən çox önəm verdiyi məsələlərdən biri də xarici siyasət məsələsidir.

İlham Əliyevin həyata keçirdiyi xarici siyasət ilk növbədə özünün spesfik xüsusiyyətləri ilə diqqəti cəlb

edir. Etiraf olunmalıdır ki, ötən bir ildə prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xarici siyasətdə müəyyən etdiyi prioritetlərə sadiqlik nümayiş etdirməklə yanaşı, həm də müasir dövrün, beynəlxalq münasibətlərin tələblərinə uyğun çevik addımlar da atdı. Xarici siyasətdə varislik prinsipi son dərəcə dəqiqliklə həyata keçirildi.

Milli müstəqillik ideyası Heydər Əliyev xarici siyasətinin ana xəttini təşkil edir. Məlumdur ki, xarici siyasətdə azad manevretmə imkanları həmişə ölkə daxilində sosial və iqtisadi sabitliyin olması ilə şərtlənir. Belə bir sabitliyin rəhni isə Heydər Əliyev konsepsiyasına görə güclü dövlət hakimiyyətidir. O əmin idi ki, dövlət güclü olarsa, millətin rifah halı da get-gedə yaxşılaşar, əksinə, dövlət zəifləsə, millət də tədricən məhvə doğru irəliləyər.

Prezident İlham Əliyevin dövət başçısı kimi fəaliyyətinin birinci ilində mütəmadı olaraq xarici səfərlərdə olması, eyni zamanda bir sıra nüfuzlu dövlət başçılarının (Yunanıstan, Pakistan, İran, Bolqarıstan) paytaxtımıza gəlmələri sübut etdi ki, onun xarici siyasət məsələlərinə münasibəti olduqca həssasdır.

Sirr deyil ki, ölkədə yaranan siyasi sabitlikdə xarici siyasi kursun balanslaşdırılması mühüm rollardan birini oynayır. Bu da etiraf olunmalıdır ki, siyasi arenada bu kursun davamçısının, konkretləşdirilmiş baxışlara malik siyasi liderin mövcudluğu istər cəmiyyət, istərsə də regiondakı maraqların daşıyıcıları üçün strateji əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin ən kamil cəhətlərindən biri onun xarici siyasi kursa dair baxışlarının institutlaşmış xarakter almasıdır. Bu baxışların əsasında taktiki, strateji və perspektiv planda ulu öndər Heydər Əliyevin müəyyən etdiyi prioritetlər durur. Bu prioritetləri isə balanslaşdırılmış xarici siyasət, regionda sülh və sabitliyin təmin olunması, bölgədə xarici ölkələrin hərbi bazalarının yerləşdirilməsinin qarşısının alınması, nəhəng regional iqtisadi layihələrin həyata keçirilməsi Azərbaycanın milli maraqlarının qorunması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi və s. şəkildə sıralamaq olar. Ulu öndər tərəfindən müəyyən olunmuş bu prioritetlər bu gün prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.



Son illərin reallıqları prezident İlham Əliyevin xarici siyasətə dair baxışlarının konkret situasiyalarda alternativsizliyini təsdiq etdi. Bunu ölkəmizin Avroatlantik məkana inteqrasiyasını (Azərbaycan-NATO, Azərbaycan-Avropa Şurası, Azərbaycan-Avropa Birliyi, Azərbaycan-ATƏT münasibətləri), regional təşkilatlarda fəaliyyətinin gücləndirilməsini (GUAM, EKO, Qara Dəniz İqtisadi Əməkdaşlıq Şurası, MDB) də daha yaxından müşahidə etmək mümkündür. İlham Əliyevin xarici siyasi kursa dair baxışları və bu kursun ardıcıllıqla həyata keçirilməsi ilə bağlı konkret addımları sistemli xarakter daşıyır və bu sistemlilik gələcəkdə mövcud xarici siyasət kursunda ciddi dəyişikliklərin baş verəcəyindən ehtiyat etməməyə əsas verir.

Son bir ildə ölkəmiz istər beynəlxalq təşkilatlarla əməkdaşlıqda, istərsə də ikitərəfli münasibətlərin inkişafı sahəsində çox böyük uğurlara imza atıb. Azərbaycan diplomatiyası İlham Əliyevin yüksək peşəkarlıq keyfiyyətlərinə söykənərək xarici siyasət maraqlarının reallaşdırılması uğrunda fəal mövqelər əldə edib.

Azərbaycan xarici siyasət konsepsiyasının ən mühüm istiqamətlərindən olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və ölkəmizin ərazi bütövlüyü prinsipi çərçivəsində həlli İlham Əliyev diplomatiyasının müəyyənləşdirdiyi ən strateji məqsədlərdən biridir. Ötən bir ilin statistikasına diqqət yetirsək açıq-aşkar görərik ki, prezident bu problemi özünün əsas fəaliyyət istiqamətlərindən biri hesab edir. Zaman yeni dövlət başçısının üzərinə belə bir tarixi missiya qoyub ki, Dağlıq Qarabağ

problemi tez bir zamanda dövlətimizin ərazi bütövlüyü və suveren hüquqları çərçivəsində həllini tapsın.

Birmənalı olaraq deyə bilərik ki, prezident İlham Əliyev bu missiyanın məsuliyyətini layiqincə qiymətləndirir. Təsadüyi deyil ki, dövlət başçısı bütün çıxışlarında, keçirdiyi görüşlərdə əsas diqqəti məhz bu problemə yönəldir. Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həllinə nail olunması İlham Əliyev diplomatiyasının ana xəttini təşkil edir. Bu reallıq onun bütün xarici səfərlərində də daim izlənilib.

Təbii ki, bu problemin həlli prosesində İlham Əliyevin əsas üstünlüyü odur ki, o, həmin məsələyə yanaşmada Heydər Əliyev konsepsiyasından çıxış edir. İşğal olunmuş torpaqların qeyd-şərtsiz azad olunması, Dağlıq Qarabağ problemlərinin beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapması, işğal olunmuş ərazilərdə terror təşkilatlarının ləğv edilməsi, qaçqın və məcbur köçkünlərin öz torpaqlarına qaytarılması, Dağlıq Qarabağın erməni icmasına Azərbaycanın tərkibində muxtar hüquqların şamil edilməsi bu konsepsiyanın mahiyyətini şərtləndirir.

«Ümumiyyətlə, Prezident İlham Əliyevin beynəlxalq terrorizmə və təcavüzkar separatizmə münasibəti çox sərtdir. Hələ Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri və qurumun vitse-prezidenti kimi çalışarkən İlham Əliyev öz kəskin mövqeyini dəfələrlə ortaya qoyub. O, öz prinsiplərinə son dərəcə sadiqdir və bu baxımdan özünün qeyd etdiyi kimi imkan verməyəcək ki, erməni separatizmi Azərbaycanın 20 faiz ərazisinin işğalı faktına hüquqi don geydirsin» [20, 271].

Bu gün Azərbaycan Respublikasının Prezident İ. Əliyev H. Əliyev siyasi kursunu sadəcə davam etdirməklə kifayətlənmir, onu yeni şəraitin tələblərinə uyğun surətdə, yaradıcılıqla inkişaf etdirir. Keçən bir il ərzində ölkəmizdə ictimai həyatın bütün sahələrində böyük uğurlar əldə edilmişdir. Əlbəttə, İ.Əliyevin uğurlarının səbəbi heç də təkcə onun öz fəaliyyətini bünövrəsi və postamenti H.Əliyev tərəfindən qoyulmuş bir zəmin üzərində qurması ilə bağlı deyildir. Burada ikinci mühüm amil də özünü göstərir ki, bu da İ.Əliyevin bir siyasi lider kimi yeni dövrün nümayəndəsi olması, yeni iqtisadi münasibətlər şəraitində yetişməsidir.

Əgər sosial-iqtisadi transformasiyanın birinci fazası kommunist ideologiyasından imtina edilməsini və sosialist iqtisadi münasibətlərindən qarışıq bazar iqtisadiyyatına keçilməsini nəzərdə tuturdusa, ikinci faza həmin bu sinkretik ictimai-iqtisadi sistemin bazasında Qərb standartlarına uyğun islahatların davam etdirilməsini və vətəndaş cəmiyyətinə keçilməsini nəzərdə tutur. Yəni birinci keçid dövründə sosializm cəmiyyətinin, dövlət iqtisadiyyatının, kommunist ideologiyasının xüsusiyyətlərini yaxşı bilmək və yeni iqtisadi münasibətlərə sosializmdə əldə olunmuş nailiyyətlərin dağıdılmasına yol vermədən keçmək tələb olunurdusa, indi vətəndaş cəmiyyətinə keçidi təmin etmək üçün qloballaşmanın və bazar-iqtisadiyyatının açdığı imkanlardan daha geniş istifadə etmək tələb olunur. Prezident İ.Əliyev məhz belə bir missiyanı öz üzərinə götürmüşdür və onun qazandığı uğurlar H. Əliyevin dövlət quruculuğu sahəsində ideya-siyasi və fəlsəfi konsepsiyasının gələcək tarixi mərhələlərə də işıq saldığını sübut edir.

# NƏTİCƏ

Monoqrafiyada bizə məlum olan ilk Azərbaycan dövləti Arattadan müasir dövrümüzədək mövcud olmuş Azərbaycan dövlətçiliyi tarixindən və Zərdüştdən başlamış XXI əsrin əvvəllərində yaşayıb-yaratmış Azərbaycan mütəfəkkirlərinədək dövlətçilik məsələlərindən bəhs etmiş görkəmli şəxsiyyətlərin düşüncə və mülahizələrindən çıxış edilərək Azərbaycan fəlsəfi və ictimai fikir tarixində dövlətçilik məfkurəsinin yaranması və inkişafı məsələləri araşdırılmış və aşağıdakı nəticələr əldə edilmişdir.

Dünya tarixşünaslığının son dövr tədqiqatları nəticəsində məlum olmuşdur ki, dünyada ən qədim mərkəzləşmiş mədəniyyət ocaqlarındanbiri məhz Xəzərin qərb sahillərindən başlayaraq qərbə doğru Kür-Araz ovalığı ilə Qızılüzəndən Urmiya gölünədək olan ərazidə, yəni məhz Azərbaycanda formalaşmışdır.

B.e.ə. IV-II minilliklərə aid Şumer, IV-I minilliklərə aid Misir, III-I minilliklərə aid Çin, II-I minilliklərə aid Hind, daha sonrakı Roma və Yunan mədəniyyətləri və bu mədəniyyətlərin yüksək formaları olan dövlətlərin bir qismi Azərbaycanla eyni vaxtda, bir qismi də Azərbaycanın ən qədim dövlətlərindən çox sonra meydana gəlmişdir. Beləliklə, Azərbaycanın dövlətçilik tarixi təqribən beş min illik bir dövrü əhatə edir. Azərbaycan ərazisində yaranan bu dövlətlərin baş memarı da məhz Azərbaycan xalqı olmuşdur.

Azərbaycan ərazisində mövcud olmuş bugünkü tarixə bəlli olan Arratta, Lullubi, Kutium, Manna, Midiya, Atropatena və Albanya kimi ən qədim və onlardan sonrakı qədim dövlətlərin yaradıcısı və idarəedicisi bu ərazidə yaşayan insanlar, o cümlədən bu ölkənin ən qədim etnoslarından olan Azərbaycan türkləridir və bu dövrlərə aid bütün maddi mədəniyyət abidələrinin qanuni varisləri də Azərbaycanda tarixən yaşayan həmin Azərbaycan



xalqıdır.

Azərbaycan tədqiqatçılarının gəldiyi son nəticə bundan ibarətdir ki, "Avesta"nın yaradıcısı Zərdüşt urmiyalı Azərbaycan türkü, "Avesta"nın yazıldığı dil Şərq xalqlarının əcdadlarının danışdıqları prototürkcədir (qədim türkcə – R.Ə.). «Avesta»dakı ilk dil, din, kitab, əlifba, məktəb haqqında məlumatlar, fəlsəfə, ictimai fikir bəşər sivilizasiyasına böyük bir dövr haqqında təsəvvürlər əldə etməyə imkan verir. Bu anlamda belə qəbul etmək olar ki, Azərbaycan türklərinin fəlsəfi və ictimai-siyasi fikrində dövlət və dövlətçilik ideyasının ən ilkin qaynaqlarından sayılan ən dəyərli abidə "Avesta"dır. "Avesta" qədim Azərbaycan türklərinin həm də nəticə etibarilə monoteizmə meyl edən və sonda monoteizmin (islamın) qəbul olunması üçün mənəvi-psixoloji əsas yaradan müqəddəs kitabıdır ki, bu müqəddəs kitabı məlum olduğu kimi ilkin olaraq perslər yandırmışsalar da, sonradan elə özləri onu bərpa etmək məcburiyyətində qalmışlar. Bərpa edilən mətni də daha sonra Makedoniyalı İskəndər yandırmış, ondan da sonra Əhəməlilər dövründə "Zəndi Avesta" adı ilə yenidən bərpa edilərkən ona Şər başlanğıcını əlavə edərək dualist dinə çevirmiş, öz məqsədlərinə xidmətə yönəldilmiş, fars şovinizminin alətinə çevirmişlər.

Terror yolu ilə siyasi hakimiyyətə yiyələnən perslər tədricən imperiya daxilində türk ruhunu sındırmaq üçün türklərdən qalan bir çox maddi mədəniyyət abidələrini məhv etmiş, bir çoxunu mənimsəyib özününküləşdirmiş, Zərdüştlüyü də öz siyasi hakimiyyətinə uyğunlaşdırdıqdan sonra bu dini özlərinin rəsmi dövlət dini elan etmiş və tədricən türklərə mənsub maq kahinlərini də pers kahinləri ilə əvəz edərək maq kahinlərinin bir qismini öldürmüş, bir qismini də ölkədən didərgin salmışlar. İlk öncə öz siyasi hakimiyyətinin, daha sonra isə dini hakimiyyətinin əldən çıxdığını görən Azərbaycan türk düşünürləri carə axtarmağa başlamışlar ki, bu işdə böyük Azərbaycan türk

düşünürü Maninin rəhbərliyi ilə baş vermiş hərəkat xüsusi əhəmiyyətə malikdir.

Mani tarixdə bir peyğəmbər, filosof, ictimai-siyasi hərəkatın başçısı, bir rəssam, memar, şair kimi də tanınmış, özündən sonrakı dini fəlsəfi, ədəbi cərəyanlara qüvvətli təsir göstərmiş, onun ideyaları beşinci yüzilliyin sonunda çox böyük güclə baş qaldıran məzdəkilər hərəkatının əsas ideya qaynağı olmuşdur. «Manilik türk xalqlarının, (xüsusilə, uyğur türklərinin – R.Ə.) islamaqədərki dinlərindən biri olmuş və öz tərəfdarlarının həyatında əhəmiyyətli rol oynamışdır» [140,58].

Bizə bəlli olan Azərbaycan dövlətçilik tarixində Zərdüşt və Manidən sonra Alban hökmdarı III Vacaqan dövlətin idarə olunması üçün dövlətçiliklə bağlı yeni ideyalar irəli sürmüş, Zərdüşt və Manidən fərqli olaraq konkret bir Azərbaycan Alban dövlətinin başçısı kimi həm də bu qanunları həyata keçirmişdir. Çar III Vaçaqan həm dünyəvi, həm dini hakimiyyətin, həm də qanunları təsdiq edən məşvərət orqanı divanxana yığıncağının başçısı kimi qanunvericilik hüququna malik olmuşdur. III Vaçaqanın dövründə vahid hüquq sistemi yaradılmış, dövlət çarın fərman və sərəncamları və divanxana məclisinin təsdiq etdiyi qanunlarla idarə olunmuşdur. Tarixdə "Vaçaqanın (elan edilən) qanunları' kimi tanınan bu qanunlar toplusu uzun müddət Alban dövlətinin idarə olunmasında mühüm rol oynamışdır.

Bizim eranın V əsrində pers sasanilərə qarşı Məzdəkin başçılığı ilə xalq hərakatı başlamış və bu hərəkat qələbə ilə nəticələnmişdir. Bundan sonra dini hakimiyyət məzdəkilərin ixtiyarına keçmişdir. Bütün əzilən təbəqələri və ayrı-ayrı xalqları fars kahin və əyanlarının zülmündən xilas etməsi Məzdəkə "kahinlər kahini"rütbəsi qazandırmış, Məzdək sasani şahı Qubadla yan-yana taxtda oturmuşdur. Məzdəkilərin sasanilərlə ortaqlı hakimiyyəti 25 ildən çox davam etmişdir.



Azərbaycan ictimai-siyasi və fəlsəfi fikir tarixində müstəsna rolu olan Babdad oğlu Məzdəkin xalq ideologiyasına əsaslanan təlimi bir çox sosial problemləri – anlak və hüquq bərabərliyini, maddi rifahı və b. xalqın mənafeyi mövqeyindən həll etmiş, bölgədə bütün ictimai, siyasi, iqtisadi, hüquqi və dini münasibətlərdə bir dəyişmə, bir yenilik yaratmış, cəmiyyətin inkişafına mane olan bir sıra münasibətləri darmadağın etmişdir.

Məzdəkin ideyaları hələ öz sağlığında əməli olaraq həyata keçmiş, Məzdəkilər iri torpaq sahibi olan pers sasani feodallarının əmlakını əllərindən alaraq xalq arasında paylaşmışlar. Orta əsr fars mənbələri Məzdəkə qarşı düşmən münasibət bildirsələr də, bir faktı inkar edə bilməmişlər ki, "Məzdək varlıların əmlakını daşıyıb aparmış..., sadə xalqı hökmran etmişdi" [104,28]. Bəzi tədqiqatçılar məzdəkilər hərəkatını həm də azərbaycanlıların milli bir hərəkatı saymış və göstərmişlər: "Biz indi qəti deyə bilərik ki, Məzdək hərəkatının iqtisadi-siyasi səbəbləri ilə bərabər, şübhəsiz, milli səbəbləri də olmuşdur" [174,444].

Beləliklə, istər zərdüştlük, istər manilik, istərsə də məzdəkilik pers şovinizminə qarşı Azərbaycan türklərinin yaratdığı dini-fəlsəfi, ictimai-siyasi və ideoloji silah olmuş, özlərindən sonra Azərbaycanda və dünyanın müxtəlif bölgələrində yaranan bidətçilik cərəyanlarının ideya mənbəyinə çevrilmiş, daha sonra ərəb xilafəti və feodalizm əleyhinə mübarizələrinə yol göstərmişdir.

VIII əsrin 30-cü illərindən başlayaraq Azərbaycanın cənubu sosial-siyasi, mədəni, iqtisadi və dini cəhətdən ərəb xilafətinin təsir dairəsinə düşmüşdü. Bu dövrdən başlayaraq Azərbaycanın cənubunda ərəb xilafətinə qarşı xürrəmilər hərəkatı başlamışdı. Babəkin adı ilə adlandırılan və 20 il davam edən bu azadlıq müharibəsi sonda müstəqil bir Azərbaycan dövlətinin yaranması ilə nəticələnməsə də, Sasanilərin böyük bir imperatorluğunu tarix

səhnəsindən silən, Bizans kimi əzəmətli bir imperatorluğu qorxu altında saxlayan, öz hüdudlarını Afrika, Orta Asiya və Qafqaza qədər genişləndirən bir imperatorluğun – nəhəng bir Xilafətin əsaslarını sarsıdaraq onun dağılmasına rəvac vermişdi. Xürrəməlik özünəqədərki zərdüştlüyü, maniliyi, bir çox bidətçilik təlimlərini və ən başlıcası isə Məzdəkiliyi özündə birləşdirərək insanları köləlik və hüquqsuzluğa məhkum edən bütün sosial ədalətsizliklərə, əmlak bərabərsizliyinə, xarici müdaxiləyə qarşı mübarizəyə səsləmişdir. Bu hərəkat öz mahiyyətinə görə həm də milli azadlıq hərəkatı idi. Tədqiqatçıların qeyd etdyi kimi: "Azərbaycanın istiqlaliyyətini bərpa etmək, onu yadellilərin tapdağından qurtarmaq xürrəmilərin əsas idealı idi. Xürrəmilər islam ehkamlarını rədd edir və Azərbaycan ayinlərini (adət-ənənələrini – R.Ə.) ona qarşı qoyurdular" [42,258]. Beləliklə, xürrəmilər müstəqil bir Azərbaycan dövləti qura bilməsələr də, 60 il mübarizə apara-apara azad yaşamış, tarixə bir görk olmuşlar.

Mani, Məzdək və Babək rəsmi dövlət qurmasalar da, xalqda ictimai-siyasi fikrin formalaşmasında, müstəqillik və azadlıq ideyalarının yayılmasında, gələcək müstəqil Azərbaycan dövlətlərinin yaranmasında onların əvəzsiz xidmətləri olmuşdur. Belə ki, XI əsrin birinci yarısından etibarən Azərbaycanda bir sıra kiçik feodal dövlətlər meydana gəlmişdi ki, bunların da ən başlıcaları Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri idi.

Abbasilər xilafətinin dağılması ərəfəsində Azərbaycanda müstəqil dövlətlərin yaranması prosesi əslində Azərbaycan dövlətçilik ənənəsinin bərpası idi. Səlcuqluların Azərbaycana gəlişinə qədər təqribən 230 il müddətində bu dövlətlər bir-birilərini əvəz etsələr də, Azərbaycan dövlətçilik ənənəsini qoruyub saxlaya bilmişdilər.

XI əsrin birinci yarısından başlayaraq tarix səhnəsinə qədəm basan, Orta Asiyadan Aralıq dənizi sahillərinə, Dərbənd keçidindən Bəsrə körfəzinə qədər əraziləri əhatə edən, "ümumdünya tarixinin gedişinə fəal təsir göstərən, Yaxın və Orta Şərqin etnik, hərbi-siyasi və ictimai-iqtisadi tarixində dərin iz buraxmış" [55,214]. Səlcüqlular Azərbaycan ictimai-siyasi həyatında və ədəbi-fəlsəfi fikrində də mühüm rol oynamışlar. Səlcüqlulardan sonra Azərbaycanda dövlət dili (özlərinin türk olmasına baxmayaraq – R.Ə.) türk dili olmasa da regionda ümumi ünsiyyət vasitəsi türk dili olmuş, səlcüqlulardan sonra Azərbaycan, Anadolu və bütün Yaxın Şərqdə min illik bir Türk səltənəti bərqərar olmuşdur. Bu min illik dönəmində Azərbaycanda Eldənizlər (Atabəylər), Şirvanşahlar, Elxanilər, Cəlairilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar və Qacarlar kimi dövlətlər tarixə öz möhürünü vurmuş, Azərbaycan dövlətçilik ənənəsini XX əsrə qədər qoruyub saxlamışlar.

Ayrı-ayrı islahatçı hökmdarların bəzi əlavə və dəyişiklikləri nəzərə alınmazsa, bu dövlətlərin hamısı Asiya feodal dövlət quruluşuna xas üsullarla idarə olunmuşdur. Bəzi kiçik istisnalar olmaqla bu feodal dövlətlərinin hamısının ictimai və dövlət quruluşları, mülkiyyət formaları, vergi, hüquq və məhkəmə sistemi, ailə və nikah məsələləri, vərəsəlik hüquqları, cinayət və cəza məcəllələri və dövlətə məxsus digər məsələlər arasında elə bir əsaslı fərq olamamışdır. Bu dövlətlərdə ən mühüm fərq ölkənin ərazi bölgüsü və terminoloji yanaşmada - adlandırmalarda olmuşdur ki, bu da təbiidir. Çünki bu dövlətlərin bəzisi ərazi və etnik cəhətdən müxtəlif, bəzisi kiçik dövlətlər, bəzisi isə imperatorluqlar olmuşlar.

Bu böyük və uzun tarixi dönəmdə Azərbaycan mütəfəkkirlərinin bir qismi tarixi zərurət üzündən öz fəlsəfi və ədəbi əsərlərini ərəb və farsca yazmağa məcbur olmuşlar. Sırf fəlsəfi və elmi əsərlər ərəbcə, ədəbi-bədii, ədəbi-fəlsəfi əsərlər isə farsca və türkcə yazılmışdır.

Ərəbcə fəlsəfi əsərlər yazan Azərbaycan filosoflarının dövlət və dövlətçiliklə bağlı əsərləri tam şəkildə əlimizdə olmadığından monoqrafiyada onların fəlsəfi dünyagörüşlərindən və bizə bəlli olan dövlət və dövlətçiliklə bağlı ictimai-siyasi görüşlərindən qısa şəkildə bəhs edilmiş və sonda belə bir nəticəyə gəlinmişdir ki, bu filosofların bir qismi dini-fəlsəfi, bir qismi elmi-fəlsəfi, digər bir qismi isə bu iki cərəyanı birləşdirməyə çalışan (İbn Rüşd və b.) averroizm cərəyanının nümayəndələri olmuşlar. Bu filosoflar sırf dövlətçiliklə bağlı əsərlər yazmasalar da, onların fəlsəfi traktatları ictimai-siyasi və xüsusilə, fəlsəfi fikrin inkişafında mühüm rol oynamış, "orijinal fikir və mülahizələri təkcə özlərindən sonrakı Şərq filosoflarına deyil, Qərb mütəfəkkirlərinin də baxışlarına təsir göstərmişdir" [151,20].

Monoqrafiyada Azərbaycan ictimai-siyası, bədii-fəlsəfi fikrinin inkişafında mühüm rol oynamış Azərbaycan mütəfəkkirlərinin, xüsusilə Əfzələddin Xaqaninin, Nizami Çəncəvinin, Nəsirəddin Tusinin, Marağalı Əvhədinin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətayinin, Məhəmməd Füzulinin, Saib Təbrizinin, Molla Pənah Vaqifin dövlət və dövlətçiliklə bağlı fikir və mülahizələrindən istifadə edilərək maraqlı nəticələrə gəlinmişdir.

İmadəddin Nəsimi istisna olmaqla adı çəkilən mütəfəkkirlərin hamısı dövlətin idarə olunmasında ilkin şərt kimi ədaləti irəli sürmüş, bütün yaradıcılıqları boyu ədalətli hökmdar onların hamısının idealı olmuşdur. Onların hər biri yaşadıqları dövrdəki özbaşınalıqları, zülm və zorakılığı kəskin tənqid etmiş, yaşadıqları cəmiyyətləri "zülm evi", "ədalətsizlik məskəni", "zorakılıq yuvası", "riyakarlıq qalası" adlandırmış, öz əsərlərində mənəvi kamillik, əməksevərlik, insanpərvərlik və başqa yüksək əxlaqi keyfiyyətlərlə yanaşı, ən çox ədalətli hökmdar və ideal siyasi quruluş üzərində dayanmışlar. Onlara görə şüurlu insan cəmiyyətində dövlətin və onun başçısının



əsas işi, varlığının hikməti ictimai asayişi təmin etmək və ədaləti bərpa etməkdir. Onlar belə düşünürdülər ki, dövlət anlayışı ilə zülm bir araya sığmaz.

Adları çəkilən Azərbaycan mütəfəkkirlərinin elmi-fəlsəfi dünyagörüşlərinin ən böyük dəyəri ondadır ki, onların arzuladıqları ədalətli hökmdar yalnız qılıncı, şəxsi şücaəti ilə deyil, ağılla, elmlə, zəka ilə qalib gəlsin.

Özündən əvvəlki mütəfəkkirlərin fikir və mülahizələrini daha da inkişaf etdirən dahi Nizami sonda maarifçi monarx (hökmdar) ideyalarından uzaqlaşaraq humanizm, bərabərlik və azadlıq prinsiplərinə əsaslanan tamamilə yeni dövlət, yeni cəmiyyət qurulması ideyasını irəli sürməklə və cəmiyyət quruluşunun ən yaxşı formasını xalq hakimiyyətində görməklə əsl ədalətli cəmiyyət axtarışlarında çoxillik və gərgin ictimai-siyasi və fəlsəfi fəaliyyətinə yekun vurmuşdu. Onun təsvir etdiyi ideal cəmiyyətdə zalımlar və məzlumlar, varlılar və yoxsullar yoxdur, hamı eyni hüquqa malikdir. Bu əfsanəvi ölkənin sakinləri əmlak bərabərsizliyini ləğv edərək əsl həqiqətə nail olmuş ədalətli bir cəmiyyət qurmuşlar.

XV əsrdə Ağqoyunlu hökmdarlarından Uzun Həsənin hazırladığı "Qanunnamə" və Gödək Əhmədin "İslahatlar fərmanı" da III Vaçaqanın "Qanunları" və Qazan Xanın "İslahatları" kimi bütün ölkə üçün qanuni qüvvədə olmuş, Azərbaycan dövlətçiliyi tarixində mühüm rol oynamışdır. Bunu nəzərə alan tədqiqatçılar göstərirlər ki, XV əsrdə hüququn inkişafında hökmdar fərmanları və qanunvericilik aktları, xüsusilə də Ağqoyunlu padşahları Uzun Həsənin "Qanunnamə"si və Gödək Əhmədin islahatları hüququn mənbəyi kimi təqdirə layiqdir" [40,119]. XV əsr Azərbaycan dövlətinin dövlət qanunları, mərkəzi hakimiyyət və idarəetmə orqanlarının strukturu, şah, sultan və onların səlahiyyətləri, dövlət və din, divanlar, baş vəzir və vəzirlərin səlahiyyətləri, feodal əyanları, əmirlərin məşvərət məclisi, əyalət, mahal və şəhərlərin idarəçiliyi,

vergi və mükəlləfiyyətlər, məhkəmə orqanlarının hüquq və səlahiyyətləri, həbs, cəza və işgəncə növləri, ordu quruculuğu, ordunun tərkibi, silah növləri, dövlət pul nişanları, kəndli və sənətkarların hüquqi vəziyyətləri və b. haqqında olan məlumatlar [217,143] göstərir ki, XV əsr Azərbaycan dövlətçilik tarixində bütün bunlar böyük əhəmiyyət kəsb edir. Çox təəssüf ki, bu dövr mütəfəkkirlərinin və filosoflarının əsərləri əldə olmadığından onların dövlət və dövlətçiliklə bağlı ideya və fikirlərini tədqiqata birbaşa cəlb etmək mümkün olmadığından konkret nəticələr çıxarmaq çətinləşir.

XV əsrin sonunda Ağqoyunlu şahzadələrinin arasında baş verən müharibələrdən, feodal hakimlərinin öz başınalığından istifadə edən Səfəvilər Azərbaycanda hakimiyyəti ələ keçirmişdi. 1501-ci ildən 1736-cı ilə qədər davam edən Səfəvilər Səltənəti Azərbaycanda feodal pərakəndəliyinə son qoymuş, mərkəzləşmiş vahid Azərbaycan dövləti yaratmış, ərazilərini daha da genişləndirərək imperiyaya çevrilmiş, ilk dəfə olaraq Azərbaycan türkcəsi rəsmi dövlət dili olmuş və bu dil Azərbaycan ictimai-siyasi, mədəni həyatında müstəsna rol oynamışdır. Səfəvi dövlətinin yaradıcısı Şah İsmayıl Xətainin doğma ana dilində əsərlər yaratdığını görən dövlətin bütün ərazilərindəki şairlər də ana dilində yazmağa başlamış, beləliklə də Azərbaycan ədəbi yazılı türkcəsi xeyli zənginləşərək ərəb və fars dilləri ilə rəqabət edə biləcək bir səviyyəyə yüksəlmişdi. Şah İsmayıl öz dövlət qurumlarını Qaraqoyunlu və Ağqoyunluların dövlətçilik ənənələri üzərində qurmuş, lakin onlardan fərqli olaraq dünyəvi hakimiyyətlə yanaşı dini hakimiyyəti də öz əlində cəmləşdirmişdi. Səfəvi dövlətində Ali Məclis yalnız məşvərətçi rol oynamış, dövlət quruluşunda şahdan sonra əsas yeri baş vəzir tutmuşdu. Şah İsmayıl az yaşamasına baxmayaraq həyatının çox hissəsini Azərbaycan dövlətçiliyinə sərf etmiş, özündən əvvəlki Azərbaycan mütəfəkkirlərindən fərqli olaraq, həm sözdə, həm də əməldə dövlətçi olmuşdur. Əsərlərində göstərdiyi "xalqın qulu olmayan onun padşahı da ola bilməz", "şah olan kimsə hər müşkülü həll etməyi bacarmalı, könüldə hikmət sahibi, ədalətli, insaflı olmalı, əlindən gəldiyi qədər yaxşılıq etməli, hər qulun dərdinə dərman olmalı"dır və s. kimi fikirlərinə həyatda da əməl etmiş, az müddətdə gördüyü işlər ona böyük şöhrət qazandırmışdır. Şah İsmayıl Xətai Azərbaycanın siyasi və mədəni tarixinin ən parlaq səhifələrindən birinin yaradıcısı kimi tarixə öz möhürünü vurmuş, onun apardığı müharibələr belə müstəqil, vahid Azərbaycan dövlətini yaratmaq arzusu və istəyindən irəli gəlmişdir. O, bu müqəddəs istəyinə nail olmuş, öz dövrünün ilk milli dövlətinin yaradıcısı kimi Azərbaycan tarixində özünəməxsus bir yer tutmuş, ölkənin siyasi, ictimai, iqtisadi və mədəni inkişafı üçün ölçüyəgəlməz dərəcədə böyük işlər görmüşdür.

XVI əsrdə Azərbaycan dünyaya həm də Məhəmməd Füzuli kimi misilsiz bir şair, dahi mütəfəkkir, müdrik bir filosof bəxş etmişdir. Füzuli ictimai fikir tarixində bir lirik şair kimi tanınmaqla bərabər həm də ictimai-siyasi həyatla dərindən maraqlanmışdır. Onun fəlsəfəsində dövlət, dövlətçilik və yerli idarəçilik məsələləri xüsusi yer tutur. Mütəfəkkir ictimai fəlsəfi məzmunlu əsərlərində nədən danışırsa danışsın, sonda onu dövlət və dövlətçiliklə əlaqələndirmiş, zülmə, zalım şahlara qarşı öz nifrətini bildirmiş, onları çəkinmədən "canavara", sarayları isə "divlər məkanına" bənzətmiş, bu şeytan məkanını özlərinə məskən edənləri insan belə hesab etməmişdir. O, zülmə və ədalətə, cahilə və alimə fəlsəfi yanaşaraq orijinal fikirlər irəli sürərək göstərir ki, "dünyanın işi əvvəlcə nizamlı idi.Bu nizamı zülm pozdu". Ədalətin dünyanı nizama salmaqdan zülmü yox etməkdən ötrü gəldiyini və bunun üçün qayda-qanun yaradıldığını irəli sürərək, mütəfəkkir belə hesab edir ki, ədalətli insanlar hakimiyyətdə olsa, dövlətdə qayda-qanun pozulmaz, insanlar bir-birinə kö-

mək edər, ölkə gülzara çevrilər, dövlətin ömrü uzun olar. Füzuli dövlətçilikdə sosial ədalət prinsipini hər şeydən üstün tutur. Hətta ölkəni ədalətlə idarə edən hökmdarlara məsləhət görür ki, onlar haqqın, ədalətin olmadığı ölkələri də fəth edib orada ədaləti bərpa etsinlər. Mütəfəkkirə görə "dünyada mövcud olmayanları yaratmaq çətin deyil, çətin olan odur ki, bir ədalətli hökmdar mövcud olmaya". O, ədaləti "hikmət sirrinin aynası" adlandıraraq göstərir ki, "əsil hakim odur ki verdiyi hökmə layiq ola, zatında qırıqlıq, əməlində riya olmaya, xalqdan, fəqir-füqaradan xəbərsiz olmaya, niyyəti xeyirxahlıq ola". Belə hakim "Tanrının zəhmət əsəridir. O, haraya getsə, oraya zövqü-səfa verər" [61,131-132].

Bu dövrdə yaşayıb yaratmış, mürəkkəb və keşməkeşli bir həyat yolu keçmiş, məhsuldar elmi yaradıcılıq və pedaqoji fəaliyyətlə məşğul olmuş, Şərq ölkələrinin fəlsəfəsi və ictimai-siyasi fikrinin sonrakı inkişafına böyük təsir göstərmiş peşəkar Azərbaycan filosofu Yusif Qarabaği təbii-elmi fikirlər, ruh, cisim, nəfs, ilham, vəhy, yuxu, daxili və xarici hisslərlə yanaşı, ictimai mahiyyət daşıyan dövlət, dövlət başçısı və dövlət idarəçiliyi ilə bağlı da dəyərli fikirlər irəli sürmüşdür. İnsanı və onu təşkil edən bədən üzvlərini dövlətə bənzədən Yusif Qarabaği onu bu və ya digər şəkildə dövlət idarəçiliyi ilə əlaqələndirərək göstərir: "Bəzən danışan (düşüncəli – R.Ə.) ruha padşah deyirlər. Ruh Bədəni necə nizamla idarə edirsə, hökmdar da dövləti və məmləkəti elə nizamla, ədalətli idarə etməlidir " [87,17-31].

XVII əsrdə isə Azərbaycan mütərəqqi fikrinin inkişafında Saib Təbrizinin müstəsna rolu olmuşdur. Keşməkeşli bir həyat yaşamış, poetik, elmi və fəlsəfi istedadını siyasi uzaqgörənliklə birləşdirməyi bacarmış Saib Təbrizi zəngin yaradıcılığı ilə müasirlərindən fərqlənir. Qədim Yunan, Hind və Şərq fəlsəfəsini dərindən mənimsəmiş dahi sənətkar insan, həyat, haqq, ədalət, azadlıq, insaf, mərdlik və b. ilə yanaşı dövlət, dövlət başçısı və dövlətçiliklə bağlı özünəməxsus fikirlər söyləmişdir. Öz yaradıcılığında zülmü, zalımı, vəzifə hərislərini, dövlət məmurlarını, riyakar ruhaniləri, fitnəkarları, var-dövlət hərislərini kəskin tənqid edən sənətkar məzlumları "kaманı möhkəm çəkməyə, yatmışları oyadıb zülm evi olan sarayları viran etməyə" səsləyir. [160,65] Dövlətin əsas gücünü orduda, var-dövlətdə və ədalətli qanunlarda görən mütəfəkkir" daxili çəkişmələrin mərkəzi dövləti zəiflətdiyini, pozulan orduda fərarilik " [160,49] xüsusi qeyd etmişdir. Orduya yüksək qiymət verən sənətkar, onunla qürur duyur, onu düşmənə qarşı mübarizəyə səsləyir, dövlətin yolunda canını belə fəda etməyə hazır olmağa çağırırdı.

XVIII əsr Azərbaycanın xanlıqlara bölünməsi və milli ədəbi dilin inkişafı dövrüdür ki, bu dövrün ən görkəmli nümayəndələri Molla Vəli Vidadi və Molla Pənah Vaqifdir.

Vidadi həm dini, həm də dünyəvi vasitələrdən istifadə edərək öz dövrünün xanlarına təsir etməyə çalışmış, xalqa sədaqətlə xidmət edən hökmdar arzulamış, vətəninin ayrı-ayrı xanlıqlara bölünməsinə ürəkdən acımışdır. O, Quzey Azərbaycan xanlıqlarında baş verən tarixi hadisələri qələmə almış, xanların bir-biri ilə savaşlarını, onların diplomatik və siyasi gedişlərini tarixi baxımdan dolğun əks etdirmişdir.

Yüksək poetik məharəti, hərtərəfli savadı, qeyri-adi qabiliyyəti olan Molla Pənah Vaqif Qarabağ xanlığının xarici işlər üzrə vəziri səviyyəsinə yüksəlmişdi. Vaqif müdrik, çevik və uzaqgörən bir dövlət xadimi kimi yorulmaz siyasi fəaliyyəti ilə Qarabağ xanlığının iqtisadi, siyasi və hərbi qüdrətinin güclənməsinə, diplomatik əlaqələrinin genişlənməsinə, siyasi nüfuzunun möhkəmlənməsinə xeyli kömək etmişdir. Təxminən 27 illik vəzirliyi dövründə Qarabağ xanlığının paytaxtı olan Şuşa şəhə-

rinin abadlaşdırılmasında, xanlıqlar arasında dostluq münasibətlərinin yaradılmasında Vaqif özünü bir dövlət xadimi kimi təsdiq etmişdir.

XIX əsr Azərbaycanın ikiyə bölünməsi, Quzey Azərbaycanın çar Rusiyası tərəfindən işğalı dövrüdür. Bu dövr Azərbaycan xalqının müstəqil və bütöv dövlət, bütöv millət taleyini təhlükə qarşısında qoymuşdu. Hələ XVIII əsrdə xanlıqlara bölünən, öz bütövlüyünü itirərək, mərkəzləşmiş dövlətdən məhrum olan Quzey Azərbaycan XIX əsrdə öz müstəqilliyini də itirib müstəmləkəyə çevrilmiş, 15 il müddətində bütün Quzey Azərbaycan xanlıqları Rusiya imperiyasının rəsmi inzibati ərazisinə daxil edilmişdi. Azərbaycan təkcə ikiyə parçalanmamış, həm də mənəvi-ideoloji, elmi-mədəni və dini cəhətdən iki müxtəlif geosiyasi və geoinzibati rejimin təsiri altına düşmüşdü. Xanlar komendantlar və qubernatorlarla, xanlıqlar quberniyalarla əvəz olunmuş, zadəganlıq və bəylik ləğv edilmişdi. Rusiya imperiyası Azərbaycanda təkcə siyasi deyil, iqtisadi və mədəni işğal proqramını da həyata keçirməyə başlamış, ölkəni özünün xammal bazasına çevirmiş və beləliklə də, Quzey Azərbaycan dövlətçiliyinə son qoymuşdu. Bütün bunlar həmin dövrlərin Azərbaycan ziyalılarını çıxış yolları axtarmağa vadar etmişdi.

XIX əsr, ümumiyyətlə, Azərbaycan maarifçiliyinin formalaşma dövrüdür. Bu dövr maarifçiləri ilk öncə cəmiyyətin qüsurlarına, fanatizmə, xurafata, cəhalətə və sosial əsarətə qarşı öz fikir və düşüncələrini ortaya qoymuşlar. Bu istiqamətdə ən ciddi addımları Azərbaycan ziyalılarından Qasım bəy Zakir, Mirzə Səfi Vazeh, Abbasqulu ağa Bakıxanov, xüsusilə Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani və Həsən bəy Zərdabi atmışdır. Bu fəsildə adı çəkilən mütəfəkkirlərin ictimai-siyasi görüşləri, dövlət və dövlətçiliklə bağlı fikir və mülahizələri şərh edilmiş və aşağıdakı ümumi nəticələrə gəlinmişdir:

- Azərbaycan ədəbiyyatında maarifçi-realist satiranın banisi, tənqidi realizmə doğru inkişaf yolunda Vaqiflə Seyid Əzim Şirvani və Mirzə Ələkbər Sabir arasında ədəbi körpü rolu oynamış, yaşadığı tarixi dövrün ictimai və hətta siyasi xronikasını sistemləşdirmiş Qasım bəy Zakir yerli və çar məmurlarının özbaşınalığını, çar müstəmləkə rejimini kəskin satira atəşinə tutmuş, cəmiyyətdəki qanunsuzluqları, hərc-mərcliyi, ictimai ədalətsizlikləri çılpaqlığı ilə açıb göstərmişdir. Böyük satirik dövlət quruluşunun necə olmalı olduğunu açıq şəkildə göstərə bilməsə də, bütün sosial bəlaların mahiyyətini açıb göstərməklə əslində ictimai fikri dövlətin necə ola biləcəyi istiqamətinə yönəltmişdir.

- Rus çarizminin məhkum milli mədəniyyətlər əleyhinə çevrilən qatı şovinist siyasətinə baxmayaraq dünyada gedən proseslər Rusiyaya və imperiyanın tərkibinə daxil olan Quzey Azərbaycana da öz təsirini göstərmiş, Azərbaycanda milli ziyalılar nəsli formalaşmağa başlamışdı. Bu ziyalılardan biri də Azərbaycan ictimai-siyasi, elmi-fəlsəfi fikrinin inkişafında mühüm xidmətləri olmuş, yeni dövr maarifçiliyinin ideya sələfi, elmin ehtiraslı tərənnümçüsü və təbliğatçısı, çağdaş Avropa mədəniyyətinin Azərbaycanda ilk carçısı olmuş, ensiklopedik biliyə malik Abbasqulu ağa Bakıxanovdur. Bakıxanov dövlət və dövlətçiliyə dair konkret bir əsər yazmasa da, bir çox əsərlərində dövlətin idarə olunması, hökmdar, onun xalqla rəftar etməsi qaydaları, müdrik və ədalətli hökmdarın ölkəni necə idarə etməli olduğu və b. haqqında öz fikir və mülahizələrini irəli sürmüşdür. Bakıxanov tədqiqatçılarının da qeyd etdiyi kimi, "Bakıxanov mərkəzləşdirilmiş hakimiyyətin, maarifçi, deməli, ədalətli monarx hakimiyyətinin tərəfdarı" [104,109] olmuş, bütün ümidini maarifçi monarxa bağlamış və belə hesab etmişdir ki, cəmiyyəti ağıllı padşahın həyata keçirdiyi köklü islahatlar vasitəsilə mütərəqqi istiqamətdə dəyişdirmək mümkündür. Müəllifə görə, "zülm olan yerdə dövlət day-

anıqlı olmaz, hökmdarın hökmü xalq rəyinə müvafiq olmalıdır. Hətta şah kafir olub ədalətli iş görsə, ölkəni abad etsə, o, rəhmətlə yad edilər" [37,47].

- Bakıxanovun maarifçi mütləqiyyət ideyası az bir müddətdən sonra respublika tipli dövlət quruluşunu məqbul hesab edən Mirzə Fətəli Axundova qədər mürəkkəb bir yol keçmişdir. Dövlət, onun mahiyyəti və əhəmiyyəti ilə bağlı məsələlər Axundov yaradıcılığının ana xəttini təşkil edir. Mütəfəkkirin başlıca sosial ideallı mütləqiyyət quruluşunun devrilib yerində demokratik, ədalətli ictimai-siyasi quruluş yaradılması olmuşdur. Mövcud Şərq və deməli, həm də Asiya dövlətlərinin bütün eybəcərliklərini kəskin tənqid edən mütəfəkkir Avropa tipli dövlət arzulamış,onun yollarını göstərmiş və bununla da Azərbaycan fəlsəfi və siyasi fikir tarixində yeni bir səhifə açmışdır. O, ənənəvi monarxiya üsul-idarəsindən tutmuş, konstitutsiyalı monarxiyaya və son olaraq respublika quruluşuna qədər cəmiyyəti dəyişdirmək proqramının ardıcıl izahını vermiş və son olaraq belə bir qərara gəlmişdir ki, dövlət xalqın himayədarı, ölkənin və vətəndaşların əmlak toxunulmazlığının müdafiəçisi olmalı, qanun şəxsiyyətin hüquq və azadlıqlarını nəinki təsbit etməli, həm də onları təmin etməlidir. Bu anlamda Axundov Azərbaycan demokratik dövlətçiliyinin təməl prinsiplərini işləyib hazırlayan ilk Azərbaycan mütəfəkkiridir. O, Azərbaycan dövlətçilik ideologiyasında inqilabi-demokratik fikrin banilərindən və xalq hakimiyyəti ideyasının tərəfdarlarından biridir. Onun bu fikirlərini XIX əsrin sonlarında mətbuatda, ədəbi yaradıcılıqda, xüsusən satirada, publisistikada və tədris prosesində davam etdirən ilk universal simalar hərtərəfli maarifpərvər şəxsiyyətlər olan Seyid Əzim Şirvani və Həsən bəy Zərdabidir.

- Seyid Əzim Şirvani bir şair, pedaqoq və mütəfəkkir kimi Azərbaycan ictimai fikrinə humanizm ideyaları bəxş edən və yenicə formalaşmaqda olan maarifçiliyin beşiyi



başında duran şəxsiyyətlərdəndir. Doğrudur, Seyid Əzim Axundov kimi sırf dövlət və dövlətçiliklə bağlı konkret əsər yazmamışdır. Lakin o, bir maarifpərvər ziyalı kimi əsərlərində yeri gəldikcə dövlətdən, hökmdarlardan, dövlət məmurlarının rüşvətxorluğundan, yalançı din xadimlərinin riyakarlığından, dövlət adamlarının özbaşınalıqlarından və b. sosial bəlalardan bəhs etmiş, xalqı soyan pristavı, kvartalı, kazakı, xalqın başını dəllək kimi qırxan qondarma bəyləri kəskin satira atəşinə tutmuş, zülmə, zalıma öz nifrətini bildirmişdir. Beləliklə, Seyid Əzim Şirvani dində xürafatı, mənəviyyatda maddiliyi rədd etmiş, elmdə yeniliyin tərəfdarı və təbliğatçısı olmuş, xalqın maariflənməsində, təlim-tərbiyəsində, milli şüurun fomalaşmasında əvəzsiz xidmətlər göstərmiş, Azərbaycan ictimai-siyasi, ideoloji-fəlsəfi fikrininin inkişafında böyük rol oynamış, sosial və milli zülmə, müstəmləkəçiliyə qarşı barışmaz mübarizə aparmış, cəhalətə, nadanlığa qarşı özünün kəskin mövqeyini nümayiş etdirmişdir.

- Artıq XIX əsrin ikinci yarısından başlayaraq Quzey Azərbaycanda maarifçilik hərəkatının ikinci mərələsi başlamışdı ki, bu dövrün ən böyük nümayəndələrindən biri də görkəmli təbiətşünas alim, ilk Azərbaycan milli mətbuatının banisi, jurnalist və publisist, maarifçi-demokrat Həsən bəy Zərdabidir. Həsən bəy Zərdabi materialist təbiətşünaslıqla siyasi və hüquqi məsələlərlə, publisistika və maarifçiliklə yanaşı, sırf dövlət və dövlətçiliklə bağlı fikir və mülahizələr də irəli sürmüşdür. O, bütün həyatı boyu cəmiyyətin iqtisadi, ictimai və mədəni sahələrdəki feodalizm və kapitalizmin mənfi təzahürlərinə qarşı mübarizə aparmışdır. Mənsub olduğu xalqın milli mənlik şüurunun yaranması və inkişafında əsl ziyalı kimi bütün bilik və bacarığını əsirgəməmişdir. "Əkinçi" qəzeti ətrafına böyük ziyalı ordusu toplayaraq xalqı elmi və siyasi cəhətdən maarifləndirməyə çalışan Həsən bəy Zərdabi çar Rusiyasının müstəmləkəçilik siyasətinin gətirdiyi

zülm, özbaşınalıq və qanunsuzluqları kəskin tənqid etmişdir. O, kaptialist münasibətlərinin mahiyyətini xalqa izah etməyə çalışmış, sənayenin çevrilişini fəhlə əməyinin istismarı ilə əlaqələndirmiş, xarici kapitalın ölkə iqtisadiyyatına müdaxiləsinin əleyhinə olmuş, dövlətçiliyin mühüm məsələlərindən və ana sütunlarından biri olan məhkəmə və qanunçuluq məsələlərinin yetərsiz olduğunu dönə-dönə qeyd etmişdir. Dövlətçilikdə iqtisadiyyat və maliyyənin mühüm əhəmiyyət kəsb etdiyini göstərməklə yanaşı, "kapitalistlərlə və onların vasitəçiləri olan möhtəkirlərlə mübarizə planında şirkətlərin kasıb, əmlaksız iştirakçılarına qarşılıqlı banklar yaratmaq yolu ilə kömək göstərilməsinin təşkilini məsləhət görmüşdü. [104,161]"

- Bu dövr Azərbaycan ziyalılarını düşündürən ən mühüm problemlərdən biri də milli və dini mənsubiyyət məsələsidir ki, bu işdə "Ziya", "Ziyayi-Qafqaziyə", "Kəşkül", daha sonra isə "Kaspi", "Şərqi-Rus", "Həyat" və s. kimi müxtəlif istiqamətli qəzetlərdə müxtəlif mövqelər şərh edilmişdir. Zaqafqaziya müsəlmanlarının milli adı, tarixi və taleyi ilə bağlı məsələlər bu mətbu orqanlarda işıqlandırılmağa başlamış və beləliklə də, milli ideologiyanın əsası qoyulmuşdu. Ana dilli mətbuatın bağlanmasından ta "Şərqi-Rus" qəzetinin açılmasına qədərki təqribən on ildən artıq bir dövrdə milli ziyalılarımızın böyük bir qismi ana dilində olmayan (rus dilli) mətbuat orqanlarında çıxış etməyə məcbur olmuşdular ki, bu da müəyyən qədər xalqla milli ziyalılar arasında bir boşluq yaratmışdı. Bütün bunlara baxmayaraq, bütövlükdə XIX əsr Azərbaycan xalqının tarixində, ölkənin sosial, siyasi-iqtisadi və mədəni həyatında mühüm dəyişikliklər dövrü olmuşdur. Dövlətini itirdiyinə, çarizmin bütün iyrənc siyasətinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı, sənayesi, ticarəti, aqrar və sosial münasibətləri, mətbuatı, xalq maarifi, elmi, ədəbiyyatı, incəsənəti, teatrı, memarlığı, nəqliyyat və rabitə sistemi, bank sistemi, ictimai-siyasi



fikri, bir sözlə, dövlətçilik fikri yeni mahiyyət kəsb etmiş, gələcək milli dövlətin hərtərəfli əsaslarını əks etdirən yeni düşüncə tərzi formalaşmağa başlamışdı. XX əsrin başlanğıcı "milli şüurun və milli hərəkatın Azərbaycan Xalq Cümhuriyyəti zirvəsi ilə başa çatan yeni yüksəlişinə zəmin hazırlanması dövrü olmuşdur" [29,388].

- Tarix sübut etmişdir ki, həmişə bəşəriyyəti tərəqqiyə və humanitar inqilablara maarifçilər hazırlamışlar. İlk müstəqil Azərbaycan Cümhuriyyətinin milli məfkurə sahibləri, fikir və düşüncə fədailəri olan Azərbaycan milli ziyalıları da milləti düşdüyü vəziyyətdən çıxarmaq üçün hər biri öz sahəsində yollar düşünmüş, mənalı həyatlarını bu yola sərf etmişlər. Bu mütəfəkkirlərin, demək olar ki, hamısı üzlərini sabaha, tərəqqiyə istiqamətləndirmiş, vahid nəzəri-fəlsəfi, siyasi-ideoloji və estetik mövqedən çıxış edərək milli və beynəlmiləl ideyaların təmsilçiləri olmuşlar. Bu fəsildə Azərbaycan və Türkiyə ictimai-siyasi təfəkküründə, ədəbiyyatında mühüm rol oynayan "Türkçülük, İslamçılıq və Müasirlik" adlı ideoloji sistemin tarixi və mahiyyətindən bəhs edilmiş aşağıdakı ümumi nəticələrə gəlinmişdir:

- Tarixilik prinsipi əsas götürülərək ilk öncə "Müasirlik" məfkurəsinin tarixi və mahiyyəti araşdırılmış və belə bir qənaətə gəlinmişdir ki, bu cərəyan Osmanlı imperatorluğunda 1792-ci ildən "Nizami-cədid" hərəkatı ilə başlamış, 1839-cü ildə "Tənzimat"la genişlənmiş, 1909-cu il "Gənc türklər" inqilabı ilə daha da həyati əhəmiyyət kəsb etmiş, nəhayət, Atatürk inqalibı nəticəsində Cümhuriyyətin yaranması ilə nəticələnmişdir. Quzey Azərbaycanda isə Mirzə Fətəli Axundovla başlamış, Həsən bəy Zərdabi, S.Ə.Şirvani ilə davam etdirilmiş, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə və bir çox Azərbaycan maarifçilərinin səyi nəticəsində XX əsrə "avropalılaşmaq" siyasi silahı kimi daxil olmuş, nəhayət, Azərbaycan təfəkkür tarixinin ideya şərə-

fi, Azərbaycan milli dövlətçiliyinin məhək daşları olan milli ziyalılarının gərgin fəaliyyəti sayəsində Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnmişdir.

– "İslamçılıq" məfkurəsinin tarixi və mahiyyəti şərh edilmiş, bu ideologiyanın ən böyük nəzəriyyəçisi – Azərbaycan mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin fikir və mülahizələrinin Azərbaycan milli ziyalıları Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu tərəfindən inkişaf etdirilməsindən bəhs edilmişdir. Osmanlı imperatorluğunda isə Sultan II Əbdülhəmid tərəfindən dövlət siyasəti səviyyəsinə qaldırılmış, ona siyasi-ideoloji və fəlsəfi yön verilərək Şərq xalqlarının nicatı kimi baxılmışdır.

– Sonda "Türkçülük" məfkurəsinin tarixi və mahiyyəti araşdırılmış, Mirzə Fətəli Axundovun, İsmayıl bəy Qaspıralının türklüyə xidmətindən, xüsusilə siyasi türkçülər olan Əli bəy Hüseynzadənin, Əhməd bəy Ağaoğlunun, Yusif Akçuraoğlunun, Məmməd Əmin Rəsulzadənin və türkçülüyün proqramını hazırlayan, türkçülüyü sistemləşdirən, onu milli bir məfkurə halına salan Ziya Göyalpın türkçülüyə dair nəzəri fikirlərindən bəhs edilmiş, "Türkçülük" türk millətinin milli mənafeyini özündə əks etdirən dünyagörüşü kimi dəyərləndirilmişdir.

– Bu ideoloji sistem XIX əsrin II yarısından başlayan milli-mənəvi inkişafın nəticəsi olub, ədəbiyyatın, mətbuatın, ayrı-ayrı mütəfəkkirlərin, elm, mədəniyyət, incəsənət və siyasət xadimlərinin təfəkküründə formalaşıb, cəmiyyətə mərhələ-mərhələ təqdim edilərək sonda dövlət ideologiyası səviyyəsinə qaldırılmış, ona əməl edilməyə çalışılmışdır.

– Bu ideoloji sistem rəsmiləşərək Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət atributu olan üç rəngli, ay-ulduzlu bayrağında əksini tapmışdır.

– Bu ideoloji sistem xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, onun yüksəlişini təmin edən fəlsəfi-estetik təməli, onun nəzəri əsasını, milli tərəqqi təlimini və konsepsiyasını bəxş etmişdir.

– Azərbaycan Cümhuriyyətinin mövcudiyyətinin bolşeviklər tərəfindən devrilməsindən sonra bu üç sütunlu ideoloji sistemə 1923-cü ildə yaradılan Türkiyə Respublikası, 1991-ci ildə isə yenidən müstəqillik qazanan Azərbaycan Respublikası sahib çıxdı.

– Mənəvi irsimiz olan bu ideoloji sistem bugünkü qloballaşma prosesində də öz aktuallığını saxlamaqdadır.

Monoqrafiyada həmçinin XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan milli demokratik dövlətçiliyinin təşəkkülündə rolu olan ən mühüm amillərdən də bəhs edilmişdir. Bu amillərin biri olan siyasi amillər sözü gedən sistemin formalaşmasında xüsusi rol oynamışdır. Siyasət hər bir xalqın milli hədəfidir. Bəllidir ki, dövlət hər şeydən öncə siyasi təsisatdır. Deməli, hər bir xalqın siyasətçilərinin birinci məqsədi dövlət qurmaq olmalıdır. Monoqrafiyada bütün bunlar xülasə edilərək son tədqiqatlar nəticəsində qəbul edilən dövlət quruluşu növlərindən qısa şəkildə bəhs edilmiş, əsas diqqət Azərbaycan mütəfəkkirlərinin siyasi görüşlərinə və siyasi amillərə yönəldilərək aşağıdakı nəticələr əldə edilmişdir:

– Bu dövrdə Azərbaycan elmi-ədəbi maarifçiliyinə siyasi maarifçilik də qoşulmuş, Azərbaycan siyasi xadimləri istiqlalçılıq, xalqçılıq, milliyyətçilik, demokratiya və cümhuriyyətçilik kimi siyasi terminləri gündəmə gətirmişlər.

– Bu dövrdə Azərbaycan milli ziyalıları ümmətçilik əvəzinə milliyyətçilik və xalqçılıq ideologiyasını irəli sürmüş, mədəni milliyyətçilik əvəzinə siyasi milliyətçiliyi önə çəkmiş və o cümlədən bu nəticəyə gəlmişlər: "Siyasi və milli dövlətə, milli hürriyyət və milli istiqlala malik olmayan millətlərin milli varlıq və milli mədəniyyətlərini qoruyub inkişaf etdirmələri imkan xaricindədir" [113,8].

– Bu dövrdə nəşr olunan qəzet və jurnallar dövrün mühüm ictimai-siyasi, elmi-fəlsəfi, ədəbi-bədii və ideoloji

məsələlərini əks etdirən tribunalara çevrilmişdi.

– Bu dövrdə Azərbaycanın həm romantik, həm realist ziyalılarının, həm də siyasi-ideoloji xadimlərinin səyi nəticəsində milli ideologiyası formalaşmışdır.

– Bu dövrdə Rusiyada baş verən mühüm hadisələrlə əlaqədar olaraq Azərbaycanda da siyasi mühit formalaşmağa başlamış, müxtəlif yönlü siyasi partiyalar yaranmış, Azərbaycan ziyalılarının böyük əksəriyyəti və yenicə formalaşan fəhlə sinfi bu siyasi təşkilatlara qoşulmuş, öz siyasi fəaliyyətlərini davam etdirmiş, hər bir siyasi təşkilat öz mətbu orqanını yaratmışdır.

– Bu siyasi təşkilatların ideoloji və siyasi baxışlarında mühüm fərqlər olsa da, onları çarizmə və çar istibdadına qarşı bir amal birləşdirirdi. Sözü gedən partiyalardan "Türk ədəmi-mərkəziyyət (demokratik – R.Ə.) Müsavat Partiyası" Azərbaycan xalqının azadlığı uğrunda davamlı mübarizə aparan yeganə partiya olmuşdur.

– Bu dövr Azərbaycan ziyalıları və siyasi xadimlərinin, demək olar ki, əksəriyyəti demokratik respublika idarə formasının tərəfdarı olmuşlar. Onlardan bəzisi Azərbaycanı Rusiyanın tərkibində mədəni muxtariyyət, bəzisi Rusiya ilə Federasiya şəklində, bəzisi isə tam müstəqil şəkildə görmək istəmiş və öz fəaliyyətlərini də bu istiqamətdə qurmuş və davam etdirmişlər.

– Bu dövrün ictimai-siyasi və milli intibahı obyektiv olaraq ümummilli şüuru formalaşdırmış, milli-azadlıq hərəkatını hazırlamış və sonda Güney Azərbaycanda Məşrutə inqilabının qələbəsini, "Azadıstan" dövlətinin yaranmasını, Quzey Azərbaycanda isə Xalq Cümhuriyyətinin yaranmasını təmin etmişdir. Bu milli-azadlıq hərəkatının hazırlanması və qələbə ilə nəticələnməsində Azərbaycan milli ziyalılarının və siyasi xadimlərinin müstəsna xidmətləri olmuşdur ki, monoqrafiyada onların fəaliyyətlərindən bəhs edilmişdir.

–1920-ci ilin yazından başlayaraq yaranan siyasi



qruplaşmalar və bu qruplaşmalar arasında gedən mübarizə, Azərbaycanın müstəqilliyini həzm edə bilməyən bolşevik Rusiyasının bəd niyyətlərini həyata keçirməsinə kömək etmiş, Azərbaycanda siyasi sabitliyi pozmuş, ölkədaxili ziddiyyətləri dərinləşdirmiş, bolşevik yönlü Azərbaycan siyasiləri və ermənilər bolşevik Rusiyası ilə əlaqəyə girərək sonda Azərbaycan Xalq Cümhuriyyətini devirmiş, Azərbaycanı yenidən Rusiyanın müstəmləkəsinə çevirmişlər.

Bəllidir ki, hər bir cəmiyyətin və ictimai-iqtisadi formasiyanın özünəməxsus hüquq sistemi olur. Hüquq təkcə yazılı qanunlar toplusu deyil, həm də aid olduğu cəmiyyətin idarəolunma sisteminin təməlidir. Cəmiyyətin inkşafı və rifahı ədalətli bir hüquq sisteminin yaradılması ilə mümkündür. Cəmiyyətin əsasını idarə edənlə idarə olunan zümrələr arasındakı qarşılıqlı münasibətlər, qarşılıqlı uzlaşmalar təşkil edir. Bu qarşılıqlı münasibət və uzlaşmalar isə yalnız hüququn əsasında duran ədalətlə mümkündür. Deməli, hər bir dövlətin də təməlini onun hüquq sistemi təşkil edir. Tədqiqat işində milli demokratik dövlətin hüquq anlayışı əsas götürülərək, Azərbaycan mütəfəkkirlərinin, şair və ədiblərinin, dövlət xadimlərinin bu sahədəki fikir və mülahizələri şərh edilmiş, aşağıdakı nəticələr əldə edilmişdir:

- Çar Rusiyasının müstəmləkəsi olan Quzey Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyətinin elanına qədər müsəlman hüquq sistemi tamamilə ləğv edilərək, çar Rusiyasının xüsusi qanunvericiliyi və idarəçilik formaları tətbiq edilmiş, xüsusi inzibati məhkəmə sistemləri yaradılmış, mülki, torpaq, əmək və cinayət hüququna dair xüsusi qanunvericilik aktları tətbiq edilmişdi. Bütün bunlarla yanaşı Güney Azərbaycanda tətbiq edilən Şərq hüquq sistemi də Azərbaycan mütəfəkkirləri və hüquqşünasları tərəfindən kəskin tənqid edilmiş, Avropa hüquq nəzəriyyəsinə aid bir sıra şərhlər verilmişdi.

- Azərbaycan mütəfəkkirləri demokratik hüquq və azadlıqlar, mülki, cinayət, ailə, qadın, nikah və b. hüquqlardan bəhs etmiş və sonda belə bir nəzəri fikir irəli sürmüşlər ki, dövlətin ən ümdə vəzifəsi ümumilikdə xalqın himayədarı, ölkənin qoruyucusu və hər bir vətəndaşın hüquq və əmlak toxunulmazlığının müdafiəçisi olmasıdır. Qanun isə nəinki vətəndaşların hüquq və azadlıqlarını təsbit etməli, həm də onları təmin etməlidir.

– Azərbaycan milli ziyalıları məhkəmə icraatının ana dilində aparılmasının qadağan edilməsinə öz kəskin etirazlarını bildirmiş, bunu çar Rusiyasının açıq müstəmləkəçilik və şovinst siyasəti kimi dəyərləndirmiş, bu qadağanı xalqın hüquqlarının məhdudlaşdırılması kimi qiymətləndirmişlər.

– Azərbaycan ictimai-siyasi xadimləri tarixi-hüquqi sənəd olan "Haqq istəyi" adlı layihə hazırlayaraq çar hökumət yetkililərinə təqdim etmiş və bu tələbləri rus deputatlarının kəskin etirazlarına baxmayaraq dumada səsləndirməyə nail olmuşlar.

– Azərbaycan ictimai-siyasi xadimləri imperiyadakı bütün müsəlman ziyalılarının təmsilçiləri ilə bir araya gələrək 10 bölmə, 72 maddədən ibarət bir hüquqi-siyasi sənəd hazırlamış, onu Proqram şəklinə salaraq Rusiya Müsəlmanları İttifaqının 16-21 avqust 1906-cı ildə Nijni-Novqorodda keçirilən III qurultayda qəbul etmişlər.

– "Haqq isətəyi" layihəsi və "Rusiya Müsəlmanları İttiifaqı"nın Proqramında nəzərdə tutulan bir çox məsələlər "Musavat" partiyasının ilk rəsmi qurultayında qəbul edilən proqramda da öz əksini tapmışdır.

– Azərbaycan və digər müsəlman ictimai-siyasi xadimlərinin irəli sürdüyü bir sıra hüquqi və siyası tələblər Müvəqqəti Hökumət dönəmində bu və ya başqa dərəcədə qəbul edilmiş, Bakı istisna olmaqla (O dövrdə Bakı bolşevik-daşnaq cütlüyünün nəzarəti altında idi) Azərbaycanın digər bölgələrində tətbiq edilmişdi.



Monoqrafiyada həmçinin Bakı Sovetinin və Azərbaycan Xalq Cümhuriyyətinin hüquqla bağlı islahatları qısa şəkildə şərh olunmuşdur.

Monoqrafiyada Azərbaycan milli demokratik dövlətçiliyinin təşəkkülündə iqtisadi amillərinin rolundan da bəhs edilmişdir. Bəllidir ki, hər bir xalqın və onun yaratdığı dövlətin inkişafında iqtisadi amillər ən əhəmiyyətli yerlərdən birini tutur. Azərbaycan mütəfəkkirləri və ictimai-siyasi xadimləri öz əsərlərində siyasi, hüquqi demokratiya ilə yanaşı iqtisadi demokratiyadan da bəhs etmiş, ilk öncə xalqın bütün təbəqələrinin iqtisadi qanun və qərarlarda iştirakını iqtisadi demokratiyanın əsası hesab etmişlər. İqtisadi demokratiya ilə sosial ədalət arasında çox yaxın əlaqə olduğunu irəli sürən Azərbaycan ictimai-siyası xadimləri xalqın firavan yaşaması üçün iqtisadi təşkilatlanmaya da xüsusi önəm vermişlər. İdeoloji, siyasi və hüquqi məsələlərdə olduğu kimi, iqtisadi məsələlərdə də Azərbaycan ictimai-siyasi xadimləri arasında fikir müxtəlifliyi olmuşdur. Tədqiqat işində onların bu baxışları şərh edilmiş, aşağıdakı nəticələr əldə edilmişdir:

– Azərbaycan ziyalılarının bir qismi kapitalist iqtisadi sistemini müdafiə edərək dövlət quruluşunu da buna uyğunlaşdırmağı məqsədəuyğun saymış, öz əsərlərində burjuaziyanı müdafiə etmşlər.

– Bir qrup Azərbaycan ictimai-siyasi xadimləri sosialist iqtisadi sistemini müdafiə edərək Rusiya bolşeviklərinin yolunu tutmuş, dövlət quruluşunu da sosialist sistemində görmüş, proletariat diktaturası tərəfdarları olmuşlar. Bu qrupun ən böyük nümayəndəsi Nəriman Nərimanovdur.

- Başqa Azərbaycan ictimai-siyasi xadimləri isə onların hər ikisinin xalqa zidd sistem olduğunu, xalqı siniflərə böldüyünü, antaqonizm yaratdığını əsaslandırmağa çalışmış, bunların əvəzinə sosial sistem kimi "milli təsanüd"ü – solidarizmi irəli sürmüş, onun kapitalizm və

sosializmdən üstün cəhətlərini göstərmişlər. Bu qrupun ən öndə gedən nümayəndəsi və nəzəriyyəçisi Məmməd Əmin Rəsulzadə olmuşdur. Rəsulzadəyə görə, millət deyilən ən böyük toplum kəndli, fəhlə, sənətkar, məmur, ziyalı, sahibkar və sərbəst peşə adamlarından ibarətdir.

Tədqiqat işində Azərbaycan Xalq Cumhuriyyətinin siyasi və hüquqi varisi olan Azərbaycan Respublikasının müstəqillik qazanması və bu müstəqilliyin qorunub inkişaf etdirilməsində milli lider Heydər Əliyevin dövlət quruculuğu fəaliyyəti, onun layiqli davamçısı İlham Əliyevin bu prosesi daha da inkişaf etdirməsi araşdırılarac aşağıdakı nəticələr əldə edilmişdir:

– 1969-cu ildə ümummilli lider Heydər Əliyevin Azərbaycanın siyasi rəhbərliyinə gəlişi xalqımızın həyat problemlərinə, taleyüklü məsələlərinə yeni ideoloji-fəlsəf yanaşmaların əsasını qoymuşdur. Bu illərdə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar-iqtisadi, mədəni-mənəvi potensial yaradılmışdır.

– 1990-cı illərin əvvəllərində ölkədə baş verən hadisələr hakimiyyət uğrunda silahlı mübarizə, çox hakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə ağır zərbələr vururdu. Bu dövrdə Azərbaycan Respublikasının qarşısında çox mühüm tarixi vəzifələr dururdu. Belə bir gərgin dövrdə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra yeni bir mərhələ başlandı. Yeni demokratik dövlətin əsas prinsiplərinin, vətəndaş cəmiyyəti ünsürlərinin, yeni iqtisadi sistemə, tarazlı xarici siyasətə istiqamətlənmiş dünyəvi, hüquqi dövlətin prioritetlərinin təşəkkülünün, yeni demokratik təsisatların qurulması, yeni siyasi birliklərin yaradılması, siyasi plüralizmin inkişafı və milli ideologiyanın əsas ünsürlərinin tədricən formalaşması prosesi vüsət aldı.



– 1993-cü ilin oktyabrından ardıcıl dövlət quruculuğu, vətəndaş müharibəsi təhlükəsinin aradan qaldırılması, demokratik cəmiyyətin inkişafına nail olundu.

– Dövlət quruculuğunda Heydər Əliyev mərhələsi adlandırdığımız bu dövrdə qəbul edilmiş konstitusiyaya uyğun olaraq Azərbaycanda demokratik, dünyəvi, humanist dövlət quruculuğu təsbit edilmişdir.

– Son vaxtlarda Azərbaycanda qedən bütün demokratik proseslərin, həyata keçirilən iqtisadi, hüquqi, mədəni islahatların zəruri şərti olan ictimai sabitlik anlayışının nə qədər vacib olduğu danılmaz bir həqiqətdir.

– Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinə siyasi romantizm, xulyaçılıq yaddır, qəbul etdiyi qərarlar ilk baxışdan populyar olmaya bilər, lakin bu, son nəticədə həmişə yeganə düzgün və optimal qərar olur.

– Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı olan İlham Əliyevin dəyərlər sistemində dövlət birinci yerdədir. Zəif cəmiyyətə malik güclü dövlət ola bilməz. İlham Əliyevin dəyərlər sistemində "Güclü dövlət" və "dövlətin modernləşləşdirilməsi" məqsədini aydın görmək olur.

– İlham Əliyevin prezident seçildiyi və idarə etdiyi ölkə böyük problemləri geridə qoyan, ziddiyyətli tarixi mərhələləri uğurla keçən, mühüm islahatların ilkin bəhrəsini görən, vətəndaş sülhünü və sosial rifahı təşkil edən, demokratik dəyərləri mənimsəyən sivil dövlətdir.

– Respublikada son dövrlərdə iqtisadi və sosial inkişafla bərabər dövlət quruculuğu, demokratiya və insan hüquqlarının qorunması kimi problemlərə yüksək səviyyədə diqqət yetirilir.

– Xarici siyasət sahəsində Azərbaycan mühüm nailiyyətlər əldə edərək dünya dövlətləri arasında və beynəlxalq təşkilatlarda böyük nüfuz qazanır və Heydər Əliyevin tarazlaşdırılmış xarici siyasət kursunu davam etdirir.

XX əsrdə Azərbaycan xalqının iki dəfə milli istiqlaliyyətə qovuşması tamamilə qanunauyğun və təbii-tarixi hadisə idi. Əsrin ikinci onilliyində yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin kökləri çox qədimlərə gedib çıxan milli-demokratik dövlətçilik məfkurəsinin ilk tarixi təcəssümü idi.

Çağdaş Azərbaycan Respublikası həmin Xalq Cümhuriyyətinin hüquqi və qanunauyğun varisi kimi indi özünün hərtərəfli inkişaf və tərəqqi dövrünü yaşamaqdadır.

Akademik Ramiz Mehdiyev ulu öndər Heydər Əliyevin aşağıdakı nəzəri fikrinin real gerçəklikdə təzahürünün qanunauyğunluğunu əsərlərində hərtərəfli işıqlandırmışdır: «Demokratiya daim inkişafda olan bir prosesdir. Bu, bir mərhələdən o birisinə qədər təkmilləşmə yolu ilə getməlidir. Çünki, hər bir şeyə tezliklə nail olmaq çətindir» [100].

Həqiqətən də XX əsrin sonunda Azərbaycan xalqı özünün demokratik azadlığına heç də asanlıqla nail ola bilməmişdir. Bunu son onilliklərin qondarma Dağlıq Qarabağ faciəsi ilə bağlı xalqımızın başına gəlmiş müsibətlər bir daha aydın göstərir. Lakin bütün bu məhrumiyyətlər çağdaş Azərbaycan Respublikasının uğurlu inkişafına ciddi əngəllər törədə bilməmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 fevral 2007-ci il tarixində Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: «Hazırda Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında quruculuq və yüksəliş dövrünü yaşamaqdadır. Respublikamız iqtisadi inkişaf templərinə görə dünyada lider mövqelərə çıxmışdır. Ölkəmiz regional və beynəlxalq enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsüdür. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, digər sosial və infrastruktur layihələri uğurla reallaşdırılır. Dövlətimizin iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu günü-gündən artır, insanlarımızın vətənpərvərliyi, milli mənlik şüuru güclənir» [10].

Çağdaş Azərbaycanın belə uğurları əlbəttə ki, tarixi və məntiqi baxımdan bilavasitə milli ideologiyamızda tarixən milli-demokratik dövlətçilik məfkurəsinin təşəkkül və inkişafı, şüurlara aşılanması və Azərbaycan Xalq Cümhuriyyəti timsalında gerçəkləşməsi ilə üzvi bağlıdır.

Azərbaycan xalqının əsrlərin keşməkeşlərindən keçib gələn milli azadlıq uğrunda mübarizə əzmini ifadə edən, bu mübarizənin ideya-nəzəri cəhətdən düzgün istiqamətə yönəldilməsinə xidmət edən milli-dövlətçilik məfkurəsi milli-mənəvi, elmi-mədəni dəyərlər xəzinəsinə müsəlman Şərq dünyasında ilk dəfə olaraq təkcə demokratik respublika ideyasını deyil, həm də milli oyanış, milli tərəqqi, milli özünüdərk, milli qurtuluş kimi bu gün də həyati və olduqca aktual olan konsepsiyalar bəxş etmişdir. Xalqımızın dövlətçilik ənənəsinin , onun milli-mənəvi qan yaddaşının qorunub inkişaf etdirilməsinin, milli özünüdərkinin nəzəri-fəlsəfi təməlini təşkil edən bu ideoloji sistemin hərtərəfli öyrənilib araşdırılması, bu istiqamətdə fundamental tədqiqatlar aparılaraq bu günümüzün tələbərinə cavab verən yeni-yeni emi əsərlərin yaradılması həmişəkindən daha çox əhəmiyyətli və faydalı olar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində


1. Azərbaycan Respublikasının Konstitusiyası. Hüquq ədəbiyyatı, Bakı, 2002, 84 s.
2. Əliyev H.Ə. Müstəqillik yolunda. 4 cilddə, I cild, Bakı, Azərnəşr, 1997, 558 s.
3. Əliyev H.Ə. Müstəqillik yolunda. 4 cilddə, II cild, Bakı, Azərnəşr, 1997, 446 s.
4. Əliyev H.Ə. Müstəqillik yolunda. 4 cilddə, III cild, Bakı, Azərnəşr, 1997, 510 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1-ci kitab, Bakı, Azərnəşr, 1997, 597 s.
6. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 2-ci kitab, Bakı, Azərnəşr, 1997, 604 s.
7. Əliyev H.Ə. Yeni əsr münasibətilə xalqa müraciəti. / «Azərbaycan» qəz., Bakı, 3 yanvar 2001-ci il.
8. Əliyev H.Ə. Azərbaycan müstəqillik yolundan dönməyəcək. 28 may Respublika gününə həsr edilmiş yığıncaqda çıxışı. / «Xalq qəzeti». 1994-cü il, 28 may.
9. Əliyev İ.H. 28 may respublika günü münasibətilə nitqi. / «Xalq qəzeti». 2006-cı il, 27 may.





10. Əliyev İ.H. Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciəti. / «Azərbaycan» qəz., Bakı, 2007-ci il, 24 fevral.
11. Əliyev İ.H. Azərbaycan Xalq Cümhuriyyəti şərəfinə ucaldılan abidənin açılışında çıxışı. / «Xalq qəzeti». 2007-ci il, 27 may.
12. Əliyev İlham: Azərbaycana inanıram.Bakı, 2007, 376 səh.
13. Abbasov A.Ç. Milli dövlətçilik məfkurəsi və layiqlik (genezis və təkamül). Bakı, 2002, 251 s.
14. Abbasov Ə.F. Milli dövlətçilik ideologiyamız: şərtləri və prinsipləri // Cəmiyyət, ideologiya, təfəkkür (məqalələr toplusu), Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 202 s.
15. Abduləzimov C.B. Vədinə sadiq prezident. Bakı, Təhsil, 2006. 256 s.
16. Abdullayev E.İ., Muradov F.İ. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikası Prezidenti H.Əliyevin 1997-ci ildə xarici ölkələrə səfərlərinə dair materiallar), III cild, Bakı, ABU nəşriyyatı, 1998, 776 s.
17. Ağaoğlu Ə. Üç mədəniyyət. Bakı, Mütərcim, 2006, 160 s.
18. Ağaoğlu Ə. İran qadınları // Xəzər 1990. №2.
19. Ağayev M.B. Məmməd Əmin Rəsulzadə. Bakı, Nurlan, 2006, 146 s.
20. Ağamalıyev F. Dövlətçiliyimizin İlham Əliyev imərhələsi. Bakı, Oskar, 2005, 304 s.

21. Axundov M.F. Bədii və fəlsəfi əsərləri. Bakı, Elm, 1987, 383 s.

22. Axundov M.F. Əsərləri, II c., Bakı, Az.SSR EA nəşriyyatı, 1961, 576 s.

23. Axundov M.F.Əsərləri, III c., Bakı, Az.SSR EA nəşriyyatı, 1962, 568 s.

24. Axudov M.F. Azadlıq haqqında. / Azərbaycan MEA, Respublika Əlyazmalar İnstitutu, fond 2, inv. №687.

25. Araslı H. Şeirimizin fəxri. / Vaqif M.P. Əsərləri. Bakı, Şərq-Qərb, 2004, 264s.

26. Azadə R. XII əsr Azərbaycan poeziyasında Renesans motivləri. / İbrahimov M. Renesans və Azərbaycan renesansı. – Azərbaycan renesansı və Nizami Gəncəvi. Bakı, Elm, 1984, 114 s.

27. Azərbaycan tairixi, 3 cilddə, I cild, Bakı, Elm, 1960, 427 s.

28. Azərbaycan tairixi, 3 cilddə, II cild, Bakı, Elm, 1964, 944 s.

29. Azərbaycan tairixi, 7 cilddə, IV cild, Bakı, Elm, 2000, 506 s.

30. Azərbaycan tairixi, 7 cilddə, V cild, Bakı, Elm, 2001, 630 s.

31. Azərbaycan ədəbiyyat tarixi. II cild, Bakı, Azərb.EA nəşriyyatı,1960,906 s.

32. Azərbaycan Cümhuriyyəti (1918-1920) Bakı, Elm, 1988, 336 s.



33. Azərbaycan Xalq Cümhuriyyəti. Bakı, Qartal, 1998, 200 s.

34. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar) I cild, Bakı, Azərbaycan nəşriyyatı, 1998, 976 s.

35. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) Parlament (Stenoqrafik hesabatlar) II cild, Bakı, Azərbaycan nəşriyyatı, 1998, 992 s.

36. Artur Kristensen. İran Sasanilər dövründə (farsca). Tehran, 1938, s.239-241 // Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı, Maarif, 1984, s.25, 314 s.

37. Bakıxanov A.A. Bədii əsərləri. Bakı, Azərnəşr, 1964, 290 s.

38. Bakıxanov A.A. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1984, 476 s.

39. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi,Bakı,Azərnəşr, 1992, 278 s.

40. Bayramov E., Əkbərov R. Feodalizm dövründə idarəçilik sistemi və hüquq.Bakı, Digesta, 2000, 174 s.

41. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərnəşr, 1989, 336 s.

42. Bünyadov Z.M., Yusifov Y.B. Azərbaycan tarixi. Bakı,Azərnəşr,1994,688 s.

43. Cavid H. Əsərləri. III cild, Bakı, Lider, 2005, 304 s.

44. Cavid H. Əsərləri. I cild, Bakı, Yazıçı, 1982, 32 s.

45. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə. Bakı, Gənclik, 1994, 72 s.

46. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti (tarixi etnoqrafik tədqiqat). Bakı, Elm, 1985, 212 s.

47. Demokratiya: Gediləsi uzun bir yol. Antologiya. H.Hacızadənin tərtibatı ilə. Bakı, Zeynalov və oğulları, 2001, 445 s.

48. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı, Bakı universiteti nəşriyyatı, 2002, 625 s.

49. Əfqani C. Seçilmiş əsərləri. Tərtibatç Ş.Qurbanov. Bakı, 1998. 72 s.

50. Əkinçi.Tam mətn, Bakı, Azərnəşr, 1979, 464 s.

51. Əkinçi.Tam mətn, Bakı, Avrasiya Press, 2005, 496 s.

52. Əhmədov H.M. XIX əsr Azərbaycan məktəbi. Bakı, Maarif, 1985. 300 s.

53. Əhmədli C.T. Cəmiyyət, siyasət, ideologiya. Bakı, 1997.

54. Əhmədli R.A. Seyid Əzim Şirvaninin fəlsəfi görüşləri. Bakı, Elm, 2005,195s.

55. Əliyarlı S. Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1996, 872 s.

56. Əliyev Q.C. Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemlər. Təbib,Bakı, 1997.



57. Əliyev Ə.Q. Azərbaycandan başlayan tarix. Tərtibatçı M. Yusifli. Bakı, Adiloğlu, 2003, 290 s.

58. Əliyev Ə.Q. Bütöv Azərbaycan yolunda.2-ci nəşr, Bakı, Narlar,2004, 374 s.

59. Fəlsəfə ensiklopedik lüğət. Prof. İzzət Rüstəmovun redaktorluğu ilə. Bakı, Azərbaycan ensiklopediyası nəşriyyatı, 1997, 518 s.

60. Füzuli M. Seçilmiş əsərləri. II cild, Bakı, Azərnəşr, 1998, 322 s.

61. Füzuli M. Əsərləri. IV cild, Bakı, Şərq-Qərb, 2005, 344 s.

62. Franz Altheim und Stiehl.Feudalilmus unter den Sasaniden und İhren nashbası, Wiesbaden, 1954, I cild, s.176 // Məlikova M.,Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı, Maarif,1984,s.19, 314 s.

63. Göyalp Z. Türkçülüyün əsasları. Çevirən E.Mustafaoğlu. Bakı, Maarif, 1991, 175 s.

64. Hacıyeva A.Ə. Mədəni tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, Adiloğlu, 2004, 1168 s.

65. Həsənli C. Azərbaycan tarixi. 1918-1920. Ankara, Azərbaycan Kültür Derneyi Yayınları, 1998, 412 s.

66. Hətəmov R. Azərbaycan birinci dünya müharibəsi illərində böyük dövlətlərin xarici siyasətində. / Azərbaycan Xalq Cümhuriyyəti tarixinin aktual pro-

blemləri. Beynəlxalq elmi sessiya (mart-may 2003) materiallar. Bakı, 2003-cü il, 7 aprel. 19 s.

67. Hüseynzadə Ə. Siyasəti-Fürusət. Ofelya Bayramovanın tərtibatı ilə. Bakı, Elm, 1994. 336 s.

68. Hüseyinzadə Ə. Panislamizm məsələsi və ermənilər. «Təzə həyat» qəzeti, 1907, №20-22.

69. Hüseynov S. Seyid Əzim Şirvaninin yaradıcılıq yolu,Bakı,Elm, 1977, 218 s.

70. Hüseynov Ş. Əhməd bəy Ağaoğlunun dünyagörüşü. Bakı, Azərnəşr, 1998.,128 səh.

71. Hüseynov Ş. Həqiqət və ədalət carçısı. Bakı, Azərnəşr, 1988, 192 s.

72. Xəqani Ş. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1987, 648 s.

73. Xətai Ş.İ. Əsərləri. Bakı, Şərq-Qərb, 2005. 384 s.

74. Xəlilov S.S. Fəlsəfədən siyasətə. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1998, 328 s.

75. Xəlilov S.S. Şərq və Qərb: Ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı, Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2004, 624 s.

76. Xəlilov S.S. Təhsil, təlim, tərbiyə. Bakı, Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2005, 650 s.

77. Xəlilov S.S. Fəlsəfə: tarixi və müasirlik (fəlsəfi komparavistika), Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2006, 420 s.

78. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2001, 358 s.



79. İbrahimli Ə. Yusif Vəzir Çəmənzəminli və milli məsələ. Bakı, Qartal, 2002, 151 s.

80. İbrahimov M. Renessans və Azərbaycan renessansı. Azərbaycan renessansı və Nizami Gəncəvi. Bakı, Elm, 1984, 114 s.

81. İmanov H.R. Fəlsəfənin əsasları. Bakı, Turan evi, 2007, 441 s.

82. İsayev N.M. Yeni dövr Azərbaycan sosial-siyasi fikrinin inkişaf meylləri və problemləri haqqında. Fəlsəfə elmi-nəzəri jurnal. №1, 2005.

83. İslam: Fəlsəfə. İbadətlər. Bakı, Elm, 1994, 336 s.

84. Kitabi-Dədə Qorqud. Zeynalov F. və B.Əlizadənin tərtibatı ilə. Bakı, Yazıçı, 1988.

85. Köçərli F.Q. M.F.Axundovun dünyagörüşü. Bakı, Elm, 1999. 122 s.

86. Köçərli F.Q. «Molla Nəsrəddin»çi Ömər Faiq. Bakı, Elm, 1996, 76 s.

87. Qarabaği Y. Yeddi bağ. Bakı, İrşad, 1997, 86 s.

88. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər. Bakı, Elm,2002,740 s.

89. Qarayev N. Tərtibatı ilə, Poetik məclislər. Bakı. 1987.

90. Qasımzadə F.S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Maarif, 1974, 487 s.

91. Qasımzadə F. S. A.Bakıxanov. Bakı, Azərbaycan uşaq və gənclər ədəbiyyatı nəşriyyatı. 1956, 165 s.

92. Qasımzadə F.F. Qüdsi haqqında düşüncələr. Bakı, M.F.Axundov adına APRDƏİ-nin t/h mətbəəsi. 2000, 223 s.

93. Quluzadə Z.A. Kamillik zirvəsi. Ön söz. Nizami Gəncəvi. İsgəndərnamə, İqbalnamə. Bakı, Lider, 2004, 256 s.

94. Quliyev A.İ. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq problemi. Bakı, Qanun, 2005, 376 s.

95. Qurbanov Ş. Cəmaləddin Əfqani və Türk dünyası.Bakı,Azərnəşr,1996.220 s.

96. Marağalı Ə. Cami-cəm. Bakı, Lider, 2004, 288 s.

97. Mehdiyev R.Ə. XXI əsrdə milli dövlətçilik. Bakı, XXI YNE, 2003, 248 s.

98. Mehdiyev R.Ə. Milli məfkurə, Dövlətçilik. Müstəqillik yolu ilə, iyun 1971-iyun 2001. I cild, Bakı, YEN, 2006, 622 s.

99. Mehdiyev R.Ə. Milli məfkurə, Dövlətçilik. Müstəqillik yolu ilə, yanvar 2002 - dekabr 2006. II cild. Bakı, YEN, 2006, 671 s.

100. Mehdiyev R.Ə. Demokratiya yollarında: irs haqqında düşüncələr düşünərkən. / "Respublika" qəz., Bakı, 2007-ci il, 19 aprel.



101. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, YNE, 2005, 464 s.

102. Məmmədov İ. Azərbaycan tarixi. Bakı, Adiloğlu, 2005, 488 s.

103. Məlikova M. Dövlət və hüquq nəzəriyyəsi. Bakı, maarif, 1979, 300 s.

104. Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi. (Oçerklər) Bakı, Maarif, 1984, 314 s.

105. Məmmədov Ə. Şah İsmayıl Xətainin əsrləri. / Ş.İ.Xətai. Əsərləri. I cild, Bakı, Azərnəşr, 1975, 412 s.

106. Məmmədov K. Ön söz. // Q.B.Zakir. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1984, 384 s.

107. Məmmədov Z.C., Azərbaycan Fəlsəfəsi Tarixi, Bakı, İrşad, 1994, 349 s.

108. Məmmədov Z.C. Bəhmənyarın fəlsəfəsi. Bakı, Elm, 1983, 208 s.

109. Məmmədova A.S. XX əsr Azərbaycan romantizminin fəlsəfəsi (M.Hadi irsinin tədqiqi əsasında). Bakı, Bakı Universiteti nəşriyyatı, 2003, 168 s.

110. Məmmədquluzadə C. Əsərləri. IV cild, Bakı, Öndər, 2004, 472 s.

111. Məmmədquluzadə C. Felyetonlar, məqalələr, xatirələr, məktublar. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1961, 1017 s.

112. Məmmədquluzadə C. Müvəqqəti Hökumət. // Molla Nəsrəddin. 1917, №20.

113. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992. 246 s.
114. Məmmədzadə H. M.F.Axundov və Şərq. Bakı, Elm, 1971, 368 s.
115. Mirəhmədov Ə.M. Birinci Azərbaycan qəzeti. / Əkinçi. Tam mətni, Bakı, Avrasiya pres, 2005, 496 s.
116. Mirəhmədov Ə.M. Fikir karvanı. Bakı, Elm, 1984, 216 s.
117. Mikayılov N.M. (rəhbərliyilə müəlliflər kollektivi). Politologiya. Memar Nəşriyyat-Poliqrafiya, Bakı, 2007.
118. Nağısoylı M. Gülşəni-Raz təsəvvüfün ana qaynaqlarından biridir. // Ş.M.Şəbüstəri, Gülşəni-Raz. Bakı, Elm, 2005, 178 s.
119. Nemanzadə Ö.F. Əsərləri. Bakı, Yazıçı, 1992, 529 s.
120. Nemanzadə Ö.F. Xatirələrim. Bakı, Gənclik, 1985, 128 s.
121. Nəsimi İ. Seçilmiş əsərləri. Bakı, Maarif, 1977, 676 s.
122. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı, Ay-Ulduz, 1996, 304 s.
123. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, Lider, 2004, 392 s.
124. Nizami Gəncəvi. İsgəndərnamə. İqbalnamə. Bakı, Lider, 2004, 256 s.



125. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, Lider, 2004, 264 s.
126. Nizamülmülk. Siyasətnamə. Bakı, Elm,1987,208 s.
127. Ramazanov F.F. Cəlil Məmmədquluzadənin yaradıcılığında əxlaq məsələləri. Bakı, 1961, 40 s.
128. Ramazanov F.F. İsayev N.M. Azərbaycan maarifçilik fəlsəfəsi. Fəlsəfə, Bakı, Azərnəşr, 1997, 376 s.
129. Rəsulzadə M.Ə. Əsərləri, İkinci cild. Bakı, Şirvannəşr, 2001, 528 s.
130. Rəsulzadə M.Ə. Azərbaycan davası. Bakı, Ay-Ulduz, 1998, 67 s.
131. Rəsulzadə M.Ə. Panturanizm haqqında, Panturanizm bizim dövrümüzdə.Azərbaycan,1991, № 6.
132. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı. Elm, 1990, 116 s.
133. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, 112 s.
134. Rəsulzadə M.Ə. Yeddi bəyza. «Bəsirət» qəz , 1914. 06.(№9).
135. Rəfili M.N. M.F.Axundov. Bakı, Azərnəşr, 1957, 394 s.
136. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri (XIX əsrin sonu-XX əsrin əvvəlləri). Bakı, Diplomat, 2001, 483 s.

137. Rüstəmov İ.Ə., Mirzə Fətəli Axundov, Bakı, Gənclik, 1986, 72 s.

138. Rüstəmov İ.Ə. Həsən bəy Zərdabi. Bakı. Gənclik, 1969, 187 s.

139. Rüstəmov İ.Ə., Abbasqulu Ağa Bakıxanov. Bakı, Elm, 1981, 48 s.

140. Rüstəmov Y.İ. Siyasi-hüquqi təlimləı tarixi. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2000 318 s.

141. Rüstəmov Y.İ. Türk fikir tarixi haqqında mülahizələr. Bakı, Çaşıoğlu, 2005, 140 s.

142. Rüstəmov Y.İ. Sivilizasiyaların dialoqu - bəşəriyyətin vəhdətinə aparan yoldur. // Şərq-Qərb: sivilizasiyaların dialoqu elmi-nəzəri jurnalı, Bakı, 2005, №1.

143. Seyidov M.N. XV yüzillikdə Azərbaycanda dövlət və hüquq. Bakı, Nurlan, 2004, 152 s.

144. Seyidov M.N. Elxanilər dövləti və hüquqi məsələlər aid ilk qaynaqlar. Bakı, ABU nəşriyyatı, 2000. 140 s.

145. Seyid Cəmaləddin Əsədabadinin məktubları (farsca). Tehran, h.1360.

146. Sultanov E. Fəzaya ifşaedici məktub. / «Zakavkazye» qəz. 1907, №250. Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi Bakı, Maarif, 314 s.

147. Sultanov M. Müqəddimə. / Bakıxanov A.A. Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1984, 476 s.

148. Şaxtaxtlı M. Seçilmiş əsərləri. Tərtibatçı Həbibbəyli İ. Bakı, Çaşıoğlu, 2006, 432 s.

149. Şeyxzamanlı N. Azərbaycan istiqlalı mücadiləsi xatirələri. Bakı, Azərnəşr, 1997, 158 s.

150. Şəbüstəri Ş.M. Gülşəni-Raz. Q.Məmmədzadənin tərtibatı ilə. Bakı, elm, 2005, 118 s.

151. Şərq fəlsəfəsi.(IX-XII əsrlər) tərtibatçı Z.Məmmədov.Bakı, Bakı Dövlət Universiteti,1999,304 s.

152. Şirvani S.Ə. Əsərləri, II cild, Bakı, AEA Nəşriyyat, 1969, 650 s.

153. Şırvani S.Ə.Əsərləri,III cild, Bakı, Elm, 1974, 500 s.

154. Şirvani S.Ə. Seçilmiş əsərləri. III cild, Bakı, Avrasiya pres, 2005, 288 s.

155. Şükürov K. Azərbaycan tarixi. Üç hissədə.II hissə.Bakı, Elm, 1998, 479 s.

156. Şükürov A. Şərq fəlsəfəsi və filosofları. Bakı, Əbilov, Zeynalov və oğulları, 2005, 668 s.

157. Tağıyev Ə.M. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı, Təbib, 2000, 195 s.

158. Tağıyev Ə.M. İsayev N.M. və b. Orta əsrlərin fəlsəfi və sosial-siyasi fikri. Bakı, Çaşıoğlu, 1999, 288 s.

159. Talıbzadə K.A. Tənqid və tənqidçilər. Bakı, Öndər, 2004, 492 s.

160. Təbrizi S.Seçilmiş əsərləri. Bakı, Öndər, 2004, 256 s.

161. Topçubaşov Ə.M. Paris məktubları. Bakı, Azərnəşr, 1998, 120 s.

162. Tusi X.N., Əxlaqi-Nasir, Bakı, Öndər, 2004, 280 s.

163. Vidadi M.V. Əsərləri. Bakı, Öndər, 2004, 128 s.

164. Vaqif M.P. Əsərləri. Bakı, Şərq-Qərb, 2004, 264 s.

165. Vendidad, II, 140-143. // Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi. (oçerklər) Bakı, Maarif, 1984, s.10, 314 s.

166. Yaqublu N.Q. Məmməd Əmin Rəsulzadə. Bakı, Gənclik, 1991, 308 s.

167. Yusifli X. Marağalı Əvhədi və onun Cami-Cəm poeması. //M.Əvhədi. Cami-Cəm.Bakı, Lider,2005,288 s.

168. Yusifli X. Ş.İ.Xətainin həyatı və sənət dünyası. //Ş.İ.Xətai, Əsərləri. Bakı, Şərq-Qərb. 2005, 384 s.

169. Yusifov X. Ş.İ.Xətainin həyatı və sənət dünyası. // Ş.İ.Xətai keçmə namərd körpüsündən: şeirlər və poemalar. Bakı, Yazıçı, 1988, 344 s.

170. Zakir Q.B. Seçilmiş əsərləri. Bakı,Yazıçı,1984,384 s.

171. Zamanova E. Türk estetikası: Tarixi və müasir inkişaf. Bakı, Araz, 2005, 262 s.

172. Zərdabi H.B. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1960, 476 s.

173. Zehtabi M. İran türklərinin əski tarixi. I cild (ərəb əlifbası ilə). Təbriz, h. 1387, 790 s.

174. Zehtabi M. İran türklərinin əski tarixi. II cild (ərəb əlifbası ilə). Təbriz, h. 1389, 696 s.

175. Zehtabi M. Cəmaləddin əl-Əfqaninin şifahi ərəb dili və ədəbiyyatına münasibəti. // ADU-nun elmi əsərləri. Şərqşünaslıq seriyası. Bakı, 1969, №1.

176. Zeynalov M.B. Fəlsəfə tarixi. (Qərb fəlsəfəsi) Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Azərnəşr, 2001, 544 s.

**Türk dilində**

177. Abdullah Cevdət İhya-yi Layemut: Həkim ədib Əli bəy Hüseynzadə // İctihat, c.II, sayı 5, 1908.

178. Ahmed Cevdet. Tarihi Cevdet, İstanbul, hicri, 1301 // Osman Turan. Türk cihan hakimiyyəti məfkurəsi tarihi, cilt:1-2, İstanbul, Dergah yayınları, 1984, 596 s.

179. Akdes Nimet Kurat, Türkiye ve Rusiya, Ankara, Sevinc matbası,1990,756 s.

180. Akdes Nimet Kurat, Panislamizm. Dil, tarih, felsefe dergisi, XI, 2-3, 1953 // Akdeş N.K. Türkiye ve Rusiya. Ankara, Sevinc matbası, 1990, 756 s.

181. Ali Haydar Bayat. Azerbaycanın yigit evladı Ali Bey Hüseynzade ve Türkiyede yayınladığı eserleri. İstanbul, 1992. Türk dünyası Araşdırmaları Vakfı Yayınları, 184 s.

182. Akçura Yusif. Türkçülüyün tarihi. İstanbul, kaynaklar yayınları, 1998, 184s.

183. Akçura Yusif. Üç terzi siyaset. 2-ci basqı, Ankara, Türk tarih kurumu yayınları, 1987, 55s.

184. Akçura Yusif. 3 haziran vaka-yi müəssifəsi, Orenburq, Kərimov, Hüseynov mətbəsi, 1907 // Akçura Y. Türkçülüyün tarihi. İstanbul,1998, 184 s.

185. Akçura Yusif. Hüseynzade Ali bey. Türk yurdu. c. VIII, s.25-84 // Akçura Y. Türkçülüyün tarihi. İstanbul,1998, 184 s.

186. Akçura Yusif. Türkçülük. İstanbul, Toker yayınları 1990, 358 s.

187. Çarlton İ.N. Hays. Milliyyetçilik: Bir Din. Tərc. Murat Çiftkaya, İstanbul. İz Yayınçılıq, 1995, 254 s.

188. Ercüment Konukman. Topluluktan millete. İstanbul. Belge yayınları, 1989, 140 ş.

189. Ercüment Kuran. Türkiyede çağdaşlaşma və milliyyetçiliyin gelişmesi // Milliyyetçilik ve milliyyetçilik tarihi, II ilmi konqresi, tebliğler, Ankara, Türk yurdu neşriyyatı, 1989, 244 s.

190. Ferdinand Brund. Fransız dilinin tarixi. Paris, 1930, c.IX, türkcə, İstanbul, 2000, 480 s.

191. Laszlo Rasionyi. Tarihte Türklük. Ankara, Türk kültürünü araştırma Enstitusu yayınları, 1971, 428 s.

192. Marşel Moltke. Türkiye mektupları, tərcüməçi H.Örs. İstanbul, Remzi kitab evi, 1960, 358 s.

193. Mehmet Niyazi.Türk devlet felsefesi.İstanbul. Ötüken neşriyyat, 1993, 293 s.

194. Mustafa Celaleddin. Les Turcs ancient et modernes. Paris, 1969. // Y.Akçura. Türkçülüyün tarixi, İst. Kaynaklar yayınları, 1998, 184 s.

195. Nazim Nüzhət Sinanoğlu. Milli edebiyyata doğru. İstanbul, 1918.//Türk dünyası el kitabı,III cild.ikinci baskı, Ankara TKAE yayınları, 1992, 784 s.

196. Osman Turan. Türk Cahan Hakimiyyəti Məfkurəsi Tarihi, c. 1-2. Boğaziçi yayınları, 596 s.

197. Ömer Seyfeddin. Türklük ülküsü. İstanbul, Toker yayınları 1990, 180s.

198. Resulzade M.E. Milli tesanüd. Ankara, Azerbaycan kültür derneği yayınları, 1978, 143 s.

199. Resulzade M.E. Kafkasya türkləri. Türk dünyası apaşdırmaları vakfı, İstanbul, 1993, 132 s.

200. Resulzade M.E. Milli Azerbaycan herekatının xarakteri. //Azerbaycan yurdu bilgisi, İstanbul, 1934, №29.

201. Sait Halim Paşa. İslamçılıq (cevirəni Məmməd Akif) İstanbul, Bahar dergisi, 1965, 176 s.

202. Tarakçı Celal. Tarihimizdeki fikir cereyanları ve Atatürkün bunları degerlendirmesi. // Milliyyetçilik ve milliyyetçilik tarixi, II elmi konqres, Tebliğler, Ankara, 1989. 244 s.

203. Türk dünyası el kitabı. I c., Coğrafiya-tarih, II baskı, Ankara, Türk kültürünü araştırma enstitusu yayınları, 1992, 544 s.

**204.** Türk dünyası el kitabı. III c. Ankara, Türk kültürünü araştırma enstitusu yayınları, 1992, 784 s.

**205.** Hüseynzade A.B. Mektub-i Mahsus. «Türk» qəz., Qahirə, 1904, №23-24, №56. //Akçura Y. Türkçülüyün tarihi. İstanbul, kaynaklar yayınları, 1998, 184 s.

**206.** Gökalp Ziya. Türkləşmək, İslamlaşmaq, Çağdaşlaşmaq və doğru yol. İstanbul. Ziya Gökalp yayınları, 1976, 128 s.

**207.** Gökalp Ziya. Türkçülüyün əsasları. İstanbul, Varlıq yayınlar evi, 1972, 272 s.

## Rus dilində

**208.** А.Агаев. Панисламизм, его характер и направление. / Газ. «Каспий», 1900, №81.

**209.** А.Агаев. Женщина по исламу и в исламе. / Газ. «Каспий», 11 декабр, 1898.

**210.** А.Агаев. Положение мусульманских народов. / Газ. «Каспий», 1903, №251.

**211.** Азиз Шариф. Рождение Молла Насраддина (очерк о жизни и творчестве Джалила Мамедкулизаде) Баку, АН Азербайджанской ССР, 1968, 294 с.

**212.** Ахмедов Э.М. Философия Азербайджанского просвещения. Баку, Азернешр, 1983, 291 с.

**213.** Бикерман Э. Хронология древнего мира. Москва, 1975, с.181 // Ə.Q.Əliyev. Azərbaycandan başlayan tarix. Bakı, Adiloğlu, 2003, 290 s.



**214.** Геюшов З.Б. Этическая мысль в Азербайджане. (ист. очерки) Баку, Гянджлик, 1968, 564 с.

**215.** Закуев А.К. Философия «Братьев чистоты». Баку, Акад. Наук Аз.ССР, 1961, 122 с.

**216.** Зардаби Г.Б. Избранные статьи и письма. Сост., предсл. Э.Б.Геюшова. Баку, 1962, Акад. Наук Аз.ССР, 488 с.

**217.** Ибрагимов Дж. Феодальные государства на территории Азербайджана в XV веке. Баку, Аз. Гос. Инст. Им. В.И.Ленина, 1962, 112 с.

**218.** Исмаилов Ш. Философия Махмуда Шабустари. Баку, Элм, 1976, 168 с.

**219.** История Азербайджанской философии, том 1, Баку, Элм, 2002, 360 с.

**220.** История Азербайджана, Акад. Наук Аз.ССР, Том III Баку, 1963, 538 с.

**221.** Кули-заде З.А. Хурафизм и его представители в Азербайджане. Баку, Элм, 1970, 265 с.

**222.** Кули-заде З.А. Из истории Азербайджанской философии VII-XVI вв., Баку, Азернешр, 1992. 237 с.

**223.** Кули-заде З.А. Теоретические проблемы истории культуры Востока и Низамиведение. Баку, Элм, 1987, 232 с.

**224.** Кули-заде З.А. Закономерности развития восточной философии XIII-XV вв. и проблема Запад-Восток. Баку, Элм, 1983, 160 с.

**225.** Маковельский А.О. Авеста. Баку,АН Азербайджанской ССР,1960, 144 с.

**226.** Очерки по истории Азербайджанской философии, Т.1.Баку, АН Азербайджанской ССР, 1966, 348 с.

**227.** Султанов Э. Еще о закавказских татарах. Газ. «Новости Закавказья». 18.01.1913.

**228.** Рзакулизаде С.Д. Общественно-политические и философские взгляды Хагани Ширвани. Баку, АНА Азербайджанской ССР, 1962, 112 с.

**229.** Рустамов Ю.И. Некоторые проблемы социально-политической и философской мысли Турции Баку, Чашыоглы, 2005, 152 с.

**230.** Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб., 1911 // Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1989, s.299, 328 s.

**231.** Шахтахтинский М. Кризис мусульманской жизнеспособности, «Турецкий сборник» СП. 1909. / Məlikova M., Bayramov E. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi. Bakı Maarif, 1984, s.175, 314 s.



# MÜNDƏRİCAT

***G İ R İ Ş*** ......................................................... ***3***

**I FƏSİL**

**Azərbaycan ərazisində mövcud olmuş ilk dövlətlər və Azərbaycan ictimai-siyasi, fəlsəfi fikrində dövlətçilik ideyaları** .................................... **10**

§1. Ən qədim dövrlərdə və ilkin orta əsrlərdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində dövlətçilik ideyaları ........................................ 10

§ 2. Abbasilər xilayfətinin dağılması ərəfəsində Azərbaycan dövlətçilik ənənəsinin bərpası və inkişafı ............................................................ 36

§ 3. XVI- XVIII əsrlərdə Azərbaycan fəlsəfi və ictimai-siyasi fikrində milli dövlətçilik məsələsi........65

**II FƏSİL**

**Azərbaycanda Rus işğalının başlanması və işğadan sonrakıAzərbaycan ictimai-siyasi, fəlsəfi fikrində dövlətçilik ideyaları** ............................................. **87**

§ 1. XIX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində dövlətçilik ideyaları ............87

§ 2. XIX əsrin II yarısında Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində demokratik dövlətçilik ideyala....103

**III FƏSİL**
**Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsinin formalaşmasında ideoloji prinsiplər və siyasi, hüquqi, iqtisadi amillər....135**

§ 1. Müasirlik ideyasının yaranması və mahiyyəti....135

§ 2. Azərbaycan demokratik dövlətçilik məfkurəsinin formalaşmasında islamçılıq ideyası....156

§ 3. Milli özünüdərk və türkçülük ideyası....188

§ 4. XX əsrirn əvvəllərində ictimai – siyasi hərəkat və onun inkişaf mərhələləri....222

§ 5. XX əsrin başlanğıcında Azərbaycan mütəfəkkirlərinin hüquqi dövlət quruculuğu haqqında düşüncələri və mübarizələri....250

§ 6. Azərbaycan demokratik dövlətçilik məfkurəsinin formalaşmasında iqtisadi amillərin rolu....265



**IV FƏSİL. Azərbaycan demokratik dövlətçilik məfkurəsinin formalaşmasında Heydər Əliyev mərhələsi....289**

§1. Azərbaycan demokratik dövlətçilik məfkurəsinin formalaşmasına Heydər Əliyevin töhfəsi....289

§2. İlham Əliyev və Azərbaycan demokratik dövlətçiliyinin inkişafı....310

NƏTİCƏ....328

İstifadə olunmuş ədəbiyyat....356

RAFAİL ƏHMƏDLİ

# AZƏRBAYCAN DÖVLƏTÇİLİK FƏLSƏFƏSİNƏ DAİR

Korrektor: ***Rəfiqə Qurbanova***
Kompüter operatoru: *Məhbubə Məmmədova*

***Yığılmağa verilmiş;*** *15.01.09*
***Çapa imzalanmış;*** *23.01.09*
***Şərti çap vərəqi;***
***Kağız formatı;*** *60x84 1/16.*
***Tiraj;*** 600

*Təknur MMC-nin*
*mətbəəsində çap edilmişdir*
*Ünvan: H.Cavid 31*